Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

YAŞAR KAMAL

# İNCƏ MƏMMƏD

*ROMAN*

Təhsil

Bakı–2017

Ön söz: **ELÇİN**

Tərcümə edən: **C.Rzaquluzadə**

**Yaşar Kamal**
**Y 38 İncə Məmməd.** Bakı, «Təhsil», 2017, 480 səh.

«İncə Məmməd» məşhur türk yazıçısı Yaşar Kamalın ilk romanıdır. Roman Türkiyədə 1955-ci ildə nəşr edilmiş və oxucu auditoriyasının böyük rəğbətini qazanmışdır.

Maraqla oxunan bu əsər yazıçının öz sözü ilə desək, «məcbur adam»ın romanıdır. Türkiyədə Cümhuriyyət dönəminin ilk illərindən bəhs edən əsərin əsas qəhrəmanı haqsızlığa qarşı mübarizəni insanlıq borcu bilən İncə Məmməddir. Seçdiyi bu çətin, amma şərəfli həyat yolunda İncə Məmmədin başına gələn hadisələr Yaşar Kamalın qələmi ilə sadə dildə, klassik roman üslubunda oxuculara təqdim olunmuşdur.

40-dan çox dilə tərcümə edilən roman türk xalqının adını əfsanələşdirdiyi İncə Məmmədi dünya oxucularına da tanıtmışdır.

Qeyd edək ki, Yaşar Kamal sonrakı illərdə İncə Məmmədin həyatını izləmiş, daha üç roman yazmışdır.

**Y $\frac{4702060201}{053}$ 2017**

**© «Maarif», 1992**
**© «Təhsil», 2017**

# ÖN SÖZ ƏVƏZİ

## P A T R İ A R X

*Yaşar Kamalın 90 yaşına*
*gecikmiş dost sözü*

### I

Məndə elə bir təəssürat var ki, illər üstə il gəldikcə, elə bil, sutkaların 24 saatı da get-gedə sınıxır, cılızlaşır və o 24 saat ərzində ki, sən 20 il bundan əvvəl hansı işləri görürdün, bu gün onları heç vəchlə 24 saatın çərçivələrinə sığışdıra bilmirsən. Bu sözləri ona görə yazıram ki, 2012-ci il oktyabrın 6-da mənim böyük dostum Yaşar Kamalın 90 yaşı tamam oldu və bu yazını da mən elə o vaxt yazmaq istəyirdim, ancaq sutkaların o cür sınıxmasına görə, ya da sutkaların o cür sınıxmasını bəhanə etdiyimə görə, yalnız indi macal tapıb ədəbiyyatın böyük hərfli Patriarxı haqqında bu qeydləri yazıram.

Qəribədir, mənim əsl dost kimi ta gənclik illərimdən etibarən həyatıma daxil olmuş, doğma bir varlıq kimi həmişəlik xatirəmə hopmuş elə insanlar – qələm əhli var ki, onlarla mənim aramda nəinki iyirmi il, otuz, hətta qırx, əlli il (!) yaş fərqimiz olub və mən bu sözləri yazıram, yaşları 100-ü haqlamış Əbülqasım Hüseynzadənin, Əli Səbrinin, Qulam Məmmədlinin, onlardan nisbətən cavan olan Məmməd Cəfər müəllimin, Abbas Zamanovun unudulmaz simaları gözlərimin qarşısında canlanır. Bəziləri hələ XIX əsrdə dünyaya gəlmiş bu insanlar mənim yalnız yaşlı və hörmətli həmkarlarım, müəllimlərim deyildi, eyni zamanda dostlarım idi – ağsaqqal dostlarım.

Yaş kimi coğrafi məsafələr və sərhədlər də, görüşlərin, bilavasitə təmas imkanlarının məhdudluğu da dostluq münasibətlərinin yaranmasında sədd ola bilmir, çünki əsas insanların bir-birini duyması, hiss etməsidir.

Mən Yaşar Kamalı ilk dəfə düz 48 il (!) bundan əvvəl – 1965-ci ildə görmüşəm və o zaman Yaşar Kamal artıq dünyada tanınan məşhur türk yazıçısı, mən isə universiteti yenicə bitirmiş, aspirantura imtahanlarına hazırlaşan və hekayələri də mətbuatda dərc edilən 22 yaşlı bir gənc idim.

Burası da, yəqin, əlamətdardır ki, aradan bu qədər illərin keçməyinə baxmayaraq, o ilk görüşün və tanışlığın təfərrüatları mənim yaxşı yadımdadır və o zaman cəmi 43 yaşı olan qapqara saçlı Yaşar Kamalın sağlam, enerjili, gülərüz görkəmi də indiki kimi gözlərimin qabağındadır. Ancaq buna baxmayaraq, mən Patriarx haqqında bu yazını yazmaq istərkən, axtarıb köhnə kağız-kuğuzların arasından o zamankı qeydlər dəftərçəmi tapdım və orada konkret günlər göstərilməsə də, indi əlçatmaz, ünyetməz bir uzaqlıqda qalmış həmin 65-ci ilin iyun ayı ilə, o cümlədən də Yaşar Kamalın və Məlik Cövdət Andayın bizdə qonaq olmaqları ilə bağlı qeydlər var.



Mən bilavasitə mövzuma keçməzdən əvvəl o dəftərçədəki bir qeydə şərh vermək istəyirəm. Əvvəlcə 1965-ci ilin iyun ayında yazılmış həmin qeyd:

*«Rəqiblər»i məqalə kimi işləyib, çap üçün «Azərbaycan» jurnalında Teymur Əhmədova verdim (tənqid şöbəsinin yeni müdiridir). Fikrət Sadıq da orada idi, şeirlərini gətirmişdi. Redaksiyadan birlikdə çıxdıq və yolboyu yenə Mehdi Hüseyndən danışdıq. Onun dəfn olunduğu o küləkli ağır gün, elə bil, dünən idi, amma üstündən üç aydan da çox keçib… Mehdi Hüeynin Qazaxdan gəlmiş yaxın qadın qohumlarının ağı demələri indiyədək qulağımda səslənir… O küləkli gündə dəfn mərasimindən sonra Fikrətlə «İnturist»in zirzəmisinə getmişdik…»*

Məsələ burasındadır ki, mənim universiteti bitirərkən müdafiə etdiyim diplom işimin mövzusu müasir hekayə janrının problemləri kontekstində Mehdi Hüseynin «Rəqib-

lər» hekayəsinin (əslində, kiçik povestin) təhlili idi və Mehdi Hüseyn də həmin 1965-ci il mart ayının 10-da vəfat etmişdi.

Mən gözümü açandan Mehdi Hüseyni görmüşdüm, hələ lap uşaqlıq çağlarımda onların, yəni Mehdi Hüseyngilin pəncərələri Bakıdakı ən gözəl heykəllərdən birinə – Mirzə Fətəlinin heykəlinə baxan evlərində çox olmuşdum, o binanın həyətində çox oynamışdım, Mehdi Hüseyn də, onun həyat yoldaşı Fatma xanım da bizim evin məhrəm adamları idilər. Onlar, yəni İlyas Əfəndiyevlə Mehdi Hüseyn yaxın dost olduqlarından, hələ 1944-cü ildə İlyas Əfəndiyevin hekayələri əsasında birlikdə «İntizar» pyesini yazmışdılar, 1948-ci ildə A.Ostrovskinin «Son qurban» komediyasını da birlikdə tərcümə etmişdilər. Onların dostluğu, olsun ki, hərdənbirin xırım-xırda umu-küsüləri ilə bərabər, 1965-ci il martın 10-na kimi davam etmişdi.

Yaxşı yadımdadır, martın 9-da axşam Mehdi Hüseyn telefonla zəng etdi və İlyas Əfəndiyevin iclasla arası olmadığını bildiyi üçün səhər, yəni martın 10-dakı həmin qalmaqallı və faciəli sonluğu ilə ədəbiyyatımızın hafizəsində qalmış o iclasa – Yazıçılar İttifaqı Rəyasət Heyətinin iclasına gəlməyini xahiş etdi (İlyas Əfəndiyev Rəyasət Heyətinin üzvü idi)…

Mən, görünür, Mehdi Hüseynin həmin iclasda qəfil vəfatından sonra, onun xatirəsi qarşısında mənəvi bir borc kimi, o diplom işini məqalə kimi yenidən işləyib «Azərbaycan» jurnalına vermişdim (orada da çap olundu) və dediyim kimi, Mehdi Hüseynin vəfatından artıq üç aydan çox bir vaxt keçmişdi, Mirzə İbrahimov yenidən Yazıçılar İttifaqının birinci katibi vəzifəsinə gətirilmişdi, ancaq bütün bunlar, əlbəttə, başqa bir yazının mövzusudur, indiki halda isə mən bunları ona görə xatırlayıram ki, o köhnə dəftərçədə Yaşar Kamalla Məlik Cövdət Andayın bizə qonaq gəlməkləri ilə bağlı belə bir qeyd də var və onu da olduğu kimi bu yazıya köçürürəm:

*«Əziz Nesin, Yaşar Kamal və Məlik Cövdət Anday Bakıya gəliblər. Düzdür, Mehdi əminin vəfatından sonrakı hay-küy*

*yavaş-yavaş yatıb, ancaq bununla bərabər, bizim ədəbi həyatın üzərində hüznlü bir aura yaranıb. Bütün bu müddət ərzində atamla söhbətlərimiz də öz-özünə fırlanıb gəlib onun ölümünün üstünə çıxır. Əziz Nesingilin gəlişi, elə bil, bu auranı, nəhayət ki, dağıtdı, özü ilə bir ruh yüksəkliyi, mənəvi dincəliş (bilmirəm, belə demək olar, ya yox?) gətirdi».*

Doğrusu, bu qeydləri bu qədər ildən sonra yenidən oxumaq məndə çox xoş və çox da doğma olan nostalji hislər oyatdı. O zaman Türkiyə mənim üçün reallıqla əfsanənin qovuşağında olan bir məmləkət idi. Reallığı aydındır, əfsanəni isə Sovet İttifaqı ilə Türkiyə arasındakı beton sərhəd yaratmışdı. Türkiyə coğrafi bir ərazidən, coğrafi məkandan mənim üçün arzular məmləkətinə çevrilmişdi və o bir tərəfdən Nazim Hikmətin, Orxan Vəlinin (yeri düşmüşkən, deyim ki, hələ o vaxt qonşum və dostum Fikrət Sadıq Orxan Vəlinin sərbəst şeirlərini əzbər söyləyirdi) timsalında modern şeirin vətəni idisə, o biri tərəfdən də içində yaşadığımız və şəxsən mənim üçün o vaxtlar əbədi bir məşəqqət kimi görünən Sistemin yaxına buraxmaq istəmədiyi milli mənliyi, «Dədə Qorqud»dan üzü bu tərəfə milli qüruru, mərdliyi, cəsarəti maqnit kimi özünə çəkən, ulu babalarımızdan qalma genetik bir bünövrə idi; mənim yaşadığım ölkədə rəsmi ideologiya o genetik bünövrə ilə, əslində, düşmən idi, Türkiyədə isə – bu yeganə müstəqil türk dövlətində o genetik bünövrə rəsmi ideologiyanın bir hissəsi idi.

O zamanlar Sovet İttifaqının ideoloji sövqü və dəstəyi ilə beynəlxalq bir təşkilat – Asiya-Afrika Ölkələri Yazıçılarının Həmrəylik Komitəsi yaradılmışdı və həmin Komitənin sədri də, «görkəmli yazıçı» vəzifəsinə təyin olunmuş sovet ədəbiyyatı generallarından biri, Özbəkistan Yazıçılar İttifaqının sədri Kamil Yaşen idi. SSRİ Yazıçılar İttifaqı Əziz Nesini, Yaşar Kamalı və Məlik Cövdət Andayı həmin Komitənin Moskva konfransında iştirak etmək üçün SSRİ-yə dəvət emişdi. Yaşar Kamalgil də bu fürsətdən istifadə edib iki-üç günlük Bakıya gəlmişdilər.

Onların Azərbaycana gəlişi yalnız ədəbi mühitdə yox, bütün cəmiyyətdə hadisəyə çevrilmişdi. Bizim oxucular Əziz Nesini yaxşı tanıyırdılar, onun hekayələri Sovet İttifaqında, o cümlədən də bizdə çox populyar idi, Yaşar Kamalı və Məlik Cövdət Andayı isə bizim oxucular tanımırdılar, ancaq məsələ onları tanıyıb-tanımamaqda deyildi, məsələ onda idi ki, o beton sərhədlərin arxasından – sevimli Türkiyədən üç yazıçı gəlmişdi, onlar türk dilində danışırdı və biz də onlarla ana dilimizdə danışırdıq. Bizim onlara (eləcə də Nazim Hikmətə!) məhəbbətimizin arxasında təhtəlşüur bir Türkiyə sevdasının da dayanması, əlbəttə, şəksiz idi.

O zaman mən Yaşar Kamalın rus dilində – «İnostrannaya literatura» jurnalında – «İncə Məmməd» romanını oxumuşdum və bu o zaman idi ki, mən oxuduğum bir çox əsərə yeni ədəbiyyat yaratmaq həvəsi və iddiası ilə, əgər belə demək mümkünsə, bir ədəbi gənclik təkəbbürü ilə yuxarıdan aşağı baxırdım. Ancaq «İncə Məmməd» xüsusən dərhal adamı ələ alan koloritinə (təbii koloritinə!) və yazı mədəniyyətinə görə mənim xoşuma gəlmişdi. Əlbəttə, o vaxt mənim ağlıma gəlməzdi ki, onilliklər keçəcək, bu onilliklər ərzində Yaşar Kamal «İncə Məmməd»in üzərində işləyəcək, «İncə Məmməd» dörd böyük cilddən ibarət bir epopeyaya çevriləcək və bizim aramızda elə bir münasibət yaranacaq ki, başqa kitabları kimi, o dördcildlik «İncə Məmməd»i də belə bir avtoqrafla mənə göndərəcək:

*«Qədim dostum Elçinə və Nüşabə xanıma sayğı və sevgilərimlə. Yaşar Kamal. 4.12.2006».*

Ancaq mən, deyəsən, çox irəli getdim…

UNESCO «İncə Məmməd»i 1956-cı ilin ən yaxşı romanı elan etmişdi və yeri düşmüşkən, deyim ki, xeyli sonralar, 70-ci illərin sonlarında gürcü yazıçısı Çabua Amiredcibinin də qaçaq həyatından bəhs edən «Data Tutaşxia» adlı romanı Moskvada rus dilində çap olunmuşdu. O vaxtkı sovet ədəbi prosesində hadisəyə çevrilmiş bu əsər barədə bir az sonra yazacağam, indi isə yenə 1965-ci ilin iyununa qayıdaq.

İlyas Əfəndiyev təbiəti etibarı ilə, yuxarıda qeyd etdiyim kimi, iclasları, eləcə də təntənəli görüşləri, canfəşanlıq edib Bakıya gələn xarici qonaqlarla münasibət yaratmağı, onları gəzdirməyi, evə qonaq çağırmağı xoşlayan adam deyildi, ancaq Türkiyə onun üçün də doğma bir məmləkət idi və o doğmalıqdan başqa, məhz Türkiyədən gələn yazıçılarla söhbət etmək, onların ədəbi zövqünü, dünyagörüşünü öyrənmək də onun üçün maraqlı idi. Odur ki, İlyas Əfəndiyev Türkiyədən gəlmiş bu qonaqlarla nəinki Yazıçılar İttifaqındakı görüşlərdə iştirak etdi, hətta onları, yəni Əziz Nesini, Yaşar Kamalı və Məlik Cövdət Andayı Qubaya gəzməyə də apardı.

İlyas Əfəndiyevin bacısı Məhbubə xanımın əri, təcrübəli pedaqoq Hədis Hacıyev 1956-cı ildə siyasi dustaqlıqdan azad olub qayıtdıqdan sonra Bakıda qala bilmədi, Qubaya getdi, rayonun 12-ci sovxozundakı (indiki Zərdabi qəsəbəsi) orta məktəbdə müəllimliyə başladı. Onunla birlikdə Məhbubə xanım da, onların oğlu Oqtay da (sonralar həmin məktəbin direktoru, daha sonra Qubada maarif müdiri oldu), qızları Atlas da (sonralar kiçik oğlanları Fikrət də ali məktəbi bitirib ora təyinat almışdı) həmin məktəbdə müəllim işləyirdilər (bu gün onların hamısı haqq dünyasındadır). Bir sözlə, türkiyəli yazıçıların Quba səfəri Yazıçılar İttifaqında əvvəldən tutulmuş rəsmi protokola İlyas Əfəndiyevin təklifi ilə salınmışdı, əslində, İlyas Əfəndiyev onları bacısıgilə qonaq aparmışdı və orada Təngə dərəsini, Afurca şəlaləsini, Minarəni, Qudyalın sahillərini yaxşıca gəzmiş, o tərəflərin kənd camaatı ilə görüşmüş, onlarla oturub çay içmiş, sonra da Qəşrəşdə yaxşıca yeyib-içmişdilər.

Və İlyas Əfəndiyev Bakıda da onları evə dəvət etmişdi.

Və mən də yenə kiçicik şərhlər verə-verə o qeydlərə qayıdıram:

*«…Ağa əmi (şərh: söhbət Mir Mehdi Seyidzadədən gedir və onun oğlu Araz ilə mən çox yaxın ilk gənclik dostu idik, İlyas Əfəndiyevgil Mir Mehdi Seyidzadəyə «Ağa», mən isə «Ağa əmi» deyirdim), Əliağa (Kürçaylı; o da, Mir Mehdi Seyidzadə də Hüsü*

*Hacıyev – indiki Azadlıq küçəsi, 19 ünvanlı məşhur Yazıçılar Evində İlyas Əfəndiyevlə eyni blokda yaşayırdılar), Məmməd Cəfər müəllim (akademik M.C.Cəfərov), İlyas Əfəndiyevin yaxın dostları Əmir müəllim və Soltan da – riyaziyyatçı professor Ə.Həbibzadə və bəstəkar S.Hacıbəyov  bizdə idilər. Qonaqlar – Yaşar Kamal ilə Məlik Cövdət Anday  saat 7 üçün gəldilər. Əziz Nesini isə «Kirpi»dəki görüşdən sonra elə oradan ziyafətə aparmışdılar.*

*Mən onları Natəvan klubunda keçirilən görüşdə görmüşdüm. Orada Əziz Nesinə nisbətən, xüsusən Yaşar Kamal  bir az quru adam təsiri bağışlayırdı, indi isə çox səmimi və sadə idilər. Atam evdəkilərlə onları bir-bir tanış edirdi, mənimlə əl tutanda Əmir müəllim ona xas olan qarabağlı ədası  ilə:*

*– İlyasın oğlu da yazıçıdır!– dedi.*

*Yaşar Kamal:*

*– Eləmi?– dedi və əlimi sıxa-sıxa əlavə etdi: – Səndəmi bizim günümüzə düşmək istiyorsan?*

*Mən nəsə  bir söz deyə bilmədim…*

*Çox gözəl bir məclis keçdi…*

*İki cəhəti xüsusi qeyd etmək istəyirəm:*

*1. İkisi də intellektualdır, klassik, xüsusən rus və fransız klassik ədəbiyyatını, müasir dünya ədəbiyyatını yaxşı bilirlər. Yaşar Kamal Tolstoyu və Dostoyevskini çox yüksək qiymətləndirir. Marsel Prustu, Folkneri və Dos Passosu bəyəndiyini deyir. Fransızlardan Kamyunu, Sartrı, de Bovuarı çox ciddi yazıçılar sayır. Mən Dos Passosdan heç nə oxumamışam. Gərək tapıb oxuyam. Bu günlərdə İslam İbrahimovla söhbət edirdim, o da onu tərifləyirdi.*

*2. İkisi də türk folklorunu gözəl bilir. Məlik Cövdət, olsun ki, daha artıq elitardır, Yaşar Kamal üçün isə hiss olunur ki, folklor çox doğmadır. Dediyinə görə, onun romanlarını ingilis dilinə arvadı Tilda xanım tərcümə edir.*

*Yaşar Kamal Mahmud Makal ilə Orxan Kamalı, xüsusən O.Kamalın «Murtaza» adlı romanını çox tərifləyirdi. Mən Makalın adını birinci dəfə idi eşidirdim. Soruşdum ki, bəs Ömər Seyfəddin? «Təbii. – dedi. – O da iyidir. Ancaq sən Sait Faiqi duydunmu?» – soruşdu. Dedim ki, onun hekayələrini oxumuşam, çox xoşuma*

*gəlir. Dedi ki, UNESCO Sait Faiqin «Xəritədə bir nöqtə» adlı kitabını nəşr edib, böyük fransız ədəbiyyat adamları Sait Faiqi XX yüzilin ən böyük hekayəçisi hesab edir. Doğrusu, bu fikir mənə bir az şübhəli göründü… Bilmirəm, bəlkə, doğrudan da, belədir…*

*…Yaşar Kamal uşaq vaxtı bir gözünü itirib və dediyinə görə, ümumiyyətlə, uşaqlığı çox ağır keçib. Yəqin, elə buna görə də Qorki yadıma düşdü, rus ədəbiyyatından danışanda Qorkiyə münasibətini soruşdum. «Qorki? Təbii, iyidir» – dedi, ancaq mən hiss etdim ki, bu «iyilikdə», deyəsən, əsas ədəbiyyat yox, əqidədir…*

*…Yaşar Kamal belə bir fikir söylədi:*

*«Son 150–200 ildə türk ədəbiyyatının yanlış yapdığı iş o oldu ki, fars-ərəb ətalətindən, «Divan ədəbiyyatı»ndan canını qurtarmaq üçün Batını yamsılamağa başladı. Halbuki öz folkloruna baş vurmalı idi, xalq ədəbiyyatından bəhrələnməliydi. Bunu Nazim Hikmət etdi, ona görə də Batının yamsılayıcısı yox, böyük orijinal şair oldu».*

*Bilmirəm, nə qədər doğru fikirdir?.. Ancaq maraqlıdır…*

*…Məlik Cövdət Bakını çox bəyəndiyini deyirdi: «Nazim Bakını İstanbula bənzədirdi. İstanbulun «qoxusunu» Bakıdan alırdı. Ancaq məncə, Bakı İzmirə çox bənzəyir». Səttar Bəhlulzadənin əsərlərini və Qara Qarayevin musiqisini də çox bəyəndiyini deyirdi. Yaşar Kamal: «Nizaminin, Füzulinin, Sabirin heykəlləri çox möhtəşəmdir! Siz çox irəli getmisiz!» – dedi. Bir az içib «siyasi sayıqlığını» itirmiş Əmir müəllim açıq-aşkar bir ironiya ilə: «Sosializm belədir də!» – dedi. Yaşar Kamal da, deyəsən, «siyasi sayıqlığını» itirmişdi, gülə-gülə dedi ki, İlyas bəy, sarı kravatlı burda yoxdur, ona görə deyirəm, hərdən mənə elə gəlir, sizin aranızda kommunist, sosialist elə ancaq bizik! Soltan tez söhbətin istiqamətini dəyişdi, dedi ki, Qarayev «Don Kixot» filminə musiqi bəstələyib, indi də «Hamlet» baleti üzərində işləyir…*

*…«Sarı kravatlı» məsələsi belədir: Quba səfərində onları bir nəfər «bığlı adam» da müşayiət edib. Atam deyir ki, danışdığımız kimi, səhər saat 8-də «İnturist»in qarşısında görüşdük. Gördüm ki, bizim maşından və Yazıçılar İttifaqının maşınından başqa bir «Volqa» da var. Əziz Nesingilin də yanında Çaplinin bığına oxşayan qarabığlı*

*bir nəfər dayanıb, mən maşından düşən kimi tələsik yaxınlaşıb salamlaşdı, dedi ki, İlyas müəllim, elə sizi gözləyirdik, gedək. Gömgöy köynək geyib, sarı da qalstuk taxmışdı. Başa düşdüm ki, «dənizqırağından»dır (şərh: KQB-nin əsas binası dəniz qırağında yerləşdiyi üçün, yazıçılar, ümumiyyətlə, ziyalılar ora «dənizqırağı» deyirdilər), bizi müşayiət edəcək. Bütün səfər boyu ağzını açıb bir kəlmə də danışmadı, ancaq diqqətlə qulaq asırdı, gözləri də daima hərəkətdə idi ki, bizə kim yaxınlaşdı, kim kimə nə dedi...*

*…Yaşar Kamal Soltana qulaq asa-asa:*

*– Çox interesan!..– dedi. – Azərbaycan bəstəçisi «Hamlet» baleti yazır! Nə gözəl!.. – Və birdən atama müraciət etdi.– İlyas bəy, mən bir sarı kravat alıb özümlə yadigar aparmaq istiyorum!.. Nasıl olar? – Və bərkdən güldü.*

*Əmir müəllim təəccüblə:*

*– Ə, bu burdan kravat almaq istəyir?– soruşdu.*

*Atam içilmiş bir xeyli konyakın nəşəsi ilə Əmir müəllimə:*

*– Hə, Əmir, – dedi.– Türkiyədə kravat tapılmır!.. – Sonra da: – Yaşar bəy, çox əla fikirdir!..– dedi.*

*Əmir müəllim sonradan başa düşdü ki, türklər qalstuka «kravat» deyirlər…*

*…Çox səmimi bir məclis keçdi. Onlar dağılışanda gecə 2-yə işləyirdi.*

*«Sarı kravat»lı, yəqin, çox nigarandır…*

*Sabah Daşkəndə, bir-iki gündən sonra yenidən Moskvaya uçacaqlar».*

Bu mənim Yaşar Kamalla ilk görüşüm idi.

Orası da yaxşı yadımdadır ki, bir müddət sonra Moskvada, Lenin adına Mərkəzi Kitabxanada Dos Passosun hələ 1920-ci illərdə rus dilində nəşr olunmuş «Üç əsgər» və bu yazıçının ən məşhur əsərlərindən biri olan «Manhetten» romanlarını oxudum, ancaq gözlədiyimdən fərqli olaraq, bu romanlar mənim üçün bir kəşf olmadı.

Orxan Kamalın da əsərlərini oxudum və «Murtaza», doğrudan da, maraqlı bir romandır (əslində, povestdir), ancaq heç vəchlə yadıma sala bilmirəm ki, Mahmud Makaldan nəsə bir şey oxudum, ya yox?

## II

Mən Yaşar Kamalı ikinci dəfə 1973-cü ildə yenə də Bakıda gördüm.

1973-cü ilin sentyabrında Nəsiminin 600 illiyi yalnız Azərbaycanda deyil, SSRİ miqyasında böyük təntənə ilə qeyd edildi və Bakıya gələn xarici qonaqlardan biri də Yaşar Kamal idi. O zaman mən Nizami adına Ədəbiyyat İnstitutunun ədəbiyyat nəzəriyyəsi şöbəsində (Məmməd Cəfər müəllimin şöbəsində!) baş elmi işçi işləyirdim və yubileylə bağlı tədbirlərə bizə də dəvətnamə göndərirdilər. Mən, necə deyərlər, hafizəmi təzələmək üçün o vaxtkı qeydlərimə baxıram və qırx il (!) bundan əvvəl yazdığım o qeydlərin bəzi məqamları, olsun ki, mənim bugünkü fikirlərimlə üst-üstə düşmür, ancaq onlara hansısa düzəliş etmək də, əlbəttə, düz olmaz, yanlız bəzi şərhlər verirəm:

*«12 sentyabr.*

*Neçə gündü ki, Nəsiminin 600 illiyi ilə bağlı tədbirlər, əməllibaşlı bir Nəsimi bayramı keçirilir. Aydın məsələdir ki, bu tədbirlərin hamısı həqiqi ədəbiyyat söhbəti deyil, ancaq şübhəsiz ki, ümumilikdə, gözəl hadisədir. Bu, yalançı pambıq bayramı, ya traktor bayramı, ya da Brejnevin təzə orden almağının bayramı deyil. Bu, əslində milli mənin oyanmasına, milli qürur hissinin yaranmasına xidmət edən bir hadisədir.*

*Bu gün də Dostluq Evində SSRİ Yazıçılar İttifaqı ilə bizim Yazıçılar İttifaqının birgə iclası keçirildi. Mən Ariflə (şərh: indi dəqiq yadımda deyil, ancaq çox güman ki, söhbət mənimlə birlikdə Nizami İnstitutunda işləyən rəhmətlik Arif Abdullazadədən gedir) getmişdim. Xaricdən çoxlu qonaqlar gəlib, amma təəssüf ki, onlar öz ölkələrindən bilavasitə Bakıya, bilavasitə Nəsimi yubileyinə gəlməyiblər və bu mənə, əlbəttə, pis təsir edir. Məsələ burasındadır ki, bir neçə gün bundan əvvəl Alma-Atada Asiya-Afrika yazıçılarının konfransı keçirilib, sonra da onların bir qismi Bakıya – Nəsiminin yubileyinə gətirilib. Belə çıxır ki, fürsətdən istifadə etmişik… Ancaq elə bunun özü də az iş deyil. Qoy, gəlib görsünlər, tanısınlar…*

*Rəyasət Heyətində oturmuş qonaqların arasında Yaşar Kamalı gördüm. Elə səkkiz il bundan qabaqkı kimidir. Qəribədir, Türkiyədən gələn yazıçı görəndə, adamın içindən xoş bir dalğa keçir. Ancaq nə üçün «qəribədir» yazıram?*

*İclası həmişəki kimi Mirzə İbrahimov açdı. Rəsul Rza məruzə etdi. Sonra Tixonov danışdı, o, Yubiley Komissiyasının sədridir. (şərh: rus şairi Nikolay Tixonov o zamankı ən nüfuzlu sovet ədəbiyyat generallarından biri idi, ancaq mən 1975-ci ildə Yazıçılar İttifaqına katib gələndən sonra dəfələrlə bunun şahidi oldum ki, Tixonov Azərbaycana çox isti bir münasibət bəsləyir və o, çox da mədəni, xeyirxah bir insan idi). Sonra başqa qonaqlar və on cümlə Yaşar Kamal danışdı. Zal onu çox hərarətlə qarşıladı, bir neçə dəfə çıxışını kəsib əl çaldı.*

*Yaşar Kamal yaxşı, səviyyəli danışdı. Belə bir fikir də söylədi ki, «bu gün biz Nəsimidən çox şey öyrənirik». Görəsən, Yaşar Kamal, doğrudan, bu gün Nəsimini oxuyub ondan nəsə öyrənir? Ağlım kəsmir… Belə başa düşək ki, Nəsimi mübarizliyini nəzərdə tutur…*

*Sabah Lenin sarayında təntənəli yubiley gecəsi keçiriləcək. Sonra da Moskvada, Böyük Teatrda yubiley gecəsi olacaq. Əlbəttə, yubileyin Böyük Teatrda keçirilməsi böyük hadisədir.*

*Axşam atam deyirdi ki, Yaşar Kamal çıxış edəndə yubileylə bağlı Bakıya gəlmiş SSRİ mədəniyyət nazirinin müavini Kuxarski təəccüblə İmrandan (şərh: söhbət o zaman Yİ-nin katibi işləyən rəhmətlik İmran Qasımovdan gedir) soruşub ki, azərbaycanlılar türk dilini başa düşür?»*

Səhərisi günkü yubiley gecəsində də mən Yaşar Kamalı eləcə yalnız uzaqdan gördüm.

1979-cu ildə isə mən Əziz Nesinin SSRİ Yazıçılar İttifaqına göndərdiyi dəvət ilə ilk dəfə Türkiyəyə getdim və o ilk Türkiyə səfərimdə görüşdüyüm yazıçılar, sənət adamları haqqında, ümumiyyətlə, bütün səfər təəssüratımı «Yaxın, uzaq Türkiyə» kitabımda yazmışam, ancaq o vaxt xaricdə olduğu üçün Yaşar Kamalla görüşə bilmədim.

## Elçin, Günay və Yaşar Kamal

Və mən bir də Yaşar Kamalla gözlənilmədən 1986-cı ilin iyun ayında Moskvada görüşdüm və həmin görüşdə bizim şəxsi dostluq münasibətlərimizin təməli qoyuldu, onun bioqrafiyasının bir sıra faktlarını, o cümlədən siyasi dustaq kimi həbsxanada yatmasının təfərrüatlarını da, atasının namaz qıldığı vaxt yeniyetmə Yaşarın gözlərinin qabağında qətlə yetirilməsini də mən elə o Moskva görüşləri zamanı onun özündən eşitdim.

1986-cı ilin həmin iyun ayında Moskvada SSRİ Yazıçılar İttifaqının VIII qurultayı keçirilirdi və mən o qurultaya Azərbaycandan nümayəndə seçilmişdim. Onda kimin ağlına gələrdi ki, bu, SSRİ Yazıçılar İttifaqının sonuncu qurultayı olacaq? Həmin qurultayın ilk günü Mixail Qorbaçov Kremlin Böyük İclas Zalında, qurultayın Rəyasət Heyətində elə şəstlə oturmuşdu, Rəyasət Heyətinin hündürlüyündən zala elə baxırdı, elə bil bütün Yer kürəsinə yuxarıdan aşağı baxır.

Mən bu qurultaylardan üçünün – VI, VII və nəhayət, VIII qurultayın nümayəndəsi olmuşam və o qurultayların hamısı, əslində, ədəbiyyat hadisəsi yox, ideoloji hadisə olurdu, buradakı məruzələrin, çıxışların çox az istisnadan başqa, tam əksəriyyəti gur yanan partiya projektorunun saldığı işıq zolağında ərsəyə gəlirdi.

Ancaq biz mövzumuzdan uzaqlaşmayaq.

Moskvada mən Yazıçılar İttifaqında qeydiyyatdan keçdikdən sonra elə İttifaqın həyətində yerləşən Xarici Komissiyaya baş çəkdim ki, görüm qurultayın xarici qonaqları arasında Türkiyədən gələn varmı və məlum oldu ki, Yaşar Kamal da qonaqlar arasındadır. Elə oradaca Xarici Komissiyada Türkiyə üzrə kurator işləyən türkoloq və tərcüməçi Vera Feonova ilə görüşdüm və yeri düşmüşkən, demək istəyirəm ki, Vera Türkiyə ilə SSRİ, o cümlədən də Azərbaycan arasında ədəbi əlaqələrin yaranmasında, Əziz Ne-

sindən tutmuş Aydın Hətiboğluna kimi müasir türk ədiblərinin SSRİ-yə dəvət olunmasında, onların Bakıya gəlməsində, bizim şəxsi təmaslarımızın baş tutmasında, münasibətlərimizin yaranmasında xidmətlər göstərmiş, ən başlıcası isə Türkiyəni sevən və o xidmətləri də ürəkdən göstərən bir insan idi. Veradan xahiş etdim ki, məni Yaşar Kamalla görüşdürsün və bir yerdə şam eləyək.

Ancaq bu yerdə mən yenə köhnə qeydlərimdən istifadə etmək istəyirəm:

*«25 iyun 1986.*

*Moskva.*

*Tezdən durub çıxışa hazırlaşırdım. Bir az keçmişdi, Vera zəng elədi ki, sonra səni tapa bilmərəm, indidən zəng edirəm, istəsən, axşam səni Yaşar bəylə görüşdürə bilərəm və sözləşdik ki, saat 8-də SDL-də (şərh: bu, Moskvada, Yazıçılar İttifaqına bitişik Mərkəzi Ədiblər Evinin rusca baş hərfləridir; oranın çox məhrəmanə bir elitar restoranı var idi, deyirlər, indi özəlləşdirilib…) görüşək. Sonra SDL-ə zəng eləyib Belanı tapdım (şərh: restoranda sözükeçən xörəkpaylayan işləyən bu mehriban qadın osetin qızı idi və biz – mən, eləcə də Yusif Səmədoğlu, Anar – yolumuz Moskvaya düşəndə onun daimi müştəriləri idik) və xahiş etdim ki, axşam bizə miz saxlasın.*

*…Çıxışım axşam iclasında idi və qulaq asmaq üçün Lixanov da gəlmişdi. (şərh: mənim dostum, rus yazıçısı Albert Lixanov o zaman Moskvada 2 milyon tirajla nəşr olunan ədəbi-ictimai «Smena» jurnalının baş redaktoru idi; indi Rusiya Uşaq Fondunun sədridir.) Bizim Azər də orada idi. (şərh: o zaman Azər Mustafazadə SSRİ Yazıçılar İttifaqında məsləhətçi işləyirdi.)*

*…İclas bitən kimi, Azəri və Lixanovu da götürüb, elə onun maşınında SDL-ə getdik.*

*…Vera bizi tanış edəndə Yaşar Kamal əvvəlcə məni tanımadı, bu da, əlbəttə, təbiidir, onun bizdə qonaq olmağından iyirmi ildən artıq vaxt keçmişdi. Belanın qulluq elədiyi gözəl mizimizin arxasında mən tanışlıq verdim, Məlik Cövdət Andayla birlikdə bizdə qonaq olduqlarını xatırlatdım. O: «Eləmi?– dedi.– Əvət! Əvət!..» Onun bu «əvət»lərindən belə başa düşdüm ki, uzaq keç-*

*mişdə qalmış o günləri, deyəsən, yaxşı xatırlamır, amma bir az keçəndən sonra qəribə bir hadisə oldu: söhbət rus ədəbiyyatından düşmüşdü, Lixanov «Oblomov»u tərifləyirdi, Yaşar Kamal təəssüf edirdi ki, bu romanı oxumayıb və birdən – elə bil, Kolumb ilk dəfə Amerika sahillərini gördü – mənə baxaraq, yenə də: «Əvət! – dedi. – Təbii, xatırlıyoram! İlyas bəylə dağlara getdik!.. Yanımızda sarı kravatlı birisi də var idi!..» – və bərkdən güldü.*

*Doğrusu, «sarı kravat» əhvalatını mən özüm unutmuşdum və Yaşar bəyin bunu xatırlatmağı mənə ləzzət etdi, elə bil, məclisimizə də bir hərarət gətirdi.*

*...Kosorukov içəri girib, ora-bura baxırdı, yəqin, kimisə axtarırdı, bəlkə də, şəxsən özü yoxlayırdı ki, qonaqlardan kim kimlədir (şərh: Aleksandr Aleksandroviç Kosorukov SSRİ Yİ Xarici Komissiyasının sədri idi, deyilənə görə, KQB-nin də generalı idi, ancaq, insafən, pis adam deyildi). Veranı görüb, bizə yaxınlaşdı. Vera onu Yaşar Kamalla tanış etdi. Kosorukov Veradan kimisə soruşdu, sonra rus mujikinin bic baxışları ilə mənə baxıb gülümsəyərək: «Elçin,– dedi.– Verçenko uje v kurse vaşeqo vıstupleniya... On ozoboçen...» («Elçin, Verçenko artıq sizin çıxışınızdan xəbərdardır... Bir az qayğılanıb...»). Sonra Kosorukov dəvətimizə baxmayaraq, oturmadı, sağollaşıb getdi. (Bu yerdə mən yenə şərh vermək istəyirəm: Mixail Suslovun, Leonid Brejnevin, Yuri Andropovun, Konstantin Çernenkonun dalbadal ölümündən sonra 54 yaşlı Mixail Qorbaçovun hakimiyyətə gəlməsi, elə bil, insanlarda mənəvi-gerontoloji düşkünlüyü nisbətən aradan qaldırmışdı, yeni ümidlər yaratmışdı, ancaq yazıçıların VIII qurultayı yenə əvvəlki inersiya ilə gedirdi. İyunun 24-də VIII qurultayın açılışından sonra SSRİ Yİ-nin birinci katibi yaşlı və xəstə Georgi Markov ənənəvi və solğun bir hesabat məruzəsini oxumağa başladı, bir az keçəndən sonra elə xitabət kürsüsündə özünü pis hiss etdi, onun qoluna girib salondan çıxardılar, məruzənin ardını isə başqası, səhv etmirəmsə, Vladimir Karpov oxudu. Mən VIII qurultaydakı həmin çıxışımda Georgi Markovun məruzəsini tənqid edərək demişdim: «Gəlin əlimizi, necə deyərlər, ürəyimizin üstünə qoyub özümüz özümüzdən soruşaq: VIII qurultaya hesabat*

*məruzəsi VII qurultaya, hətta VI qurultaya hesabat məruzələrindən çoxmu fərqlənir? Yox!» Və çıxışı bu ruhda da davam edərək SSRİ Yazıçılar İttifaqının rəhbərliyini ciddi tənqid etmişdim. Maraqlananlar VIII qurultayın kitab kimi nəşr edilmiş stenoqramına baxa bilərlər: Vosmoy syezd pisateley SSSR, stenoqrafiçeskiy otçot, Moskva, 1988, səh.: 141–142. Verçenko isə SSRİ Yİ-nin təşkilat üzrə nüfuzlu katibi, demək olar ki, əsas adamı idi.)*

*…Yaşar Kamal Kosorukovun arxasınca baxırdı, sonra da mənə baxdı və gülümsədi, bəlkə, yenə də «sarı kravatı» xatırladı?*

*…Yaşar Kamalın olduqca geniş mütaliəsi var. O, əksər türk solçularından fərqli olaraq, öz ədəbiyyatlarını da yaxşı bilir və divan ədəbiyyatına da kin-küdurət bəsləmir, sadəcə olaraq, onun mövqeyi belə bir həqiqəti ifadə edir ki, «divan ədəbiyyatı» öz missiyasını yerinə yetirib, güllə-bülbüllə, aşiqlə-məşuqla bu günün ədəbiyyatını yaratmaq olmaz. O, Türkiyəni sevir, ancaq özünü yalnız Türkiyənin vətəndaşı deyil, Türkiyənin vətəndaşı olmaqla bərabər, bütün Yer kürəsinin vətəndaşı hesab edir. O, sadə türk insanının təəssübünü necə çəkirsə, sadə ingilisin, rusun, ərəbin də eyni dərəcədə təəssübünü çəkir. O istəyir ki, Türkiyə azad, demokratik bir ölkə olsun, onun sözləri ilə desəm, «Amerika imperializminin təsirindən çıxsın, sosial ədalət prinsiplərini əsas götürsün…» Bir insan kimi də çox sadə və diqqətlidir, həm də bu sadəlik və diqqət mənim hiss elədiyim dərəcədə quraşdırma deyil, təbiidir. Gözəl yumor hissi var».*

Beləcə, gözəl bir axşam məclisimiz oldu.

Və o gözlənilməz Moskva görüşündən təxminən bir ay sonra yenə gözlənilməz bir hadisə baş verdi: mən İzmir Böyük Bələdiyyə başqanı Burxanəddin Özfaturanın dəvəti ilə (o zaman Bakı ilə İzmir qardaşlaşmış şəhərlər idi) bir neçə dostla birlikdə ikinci dəfə Türkiyəyə ge- dəsi oldum və həmin səfər zamanı Yaşar Kamalla yenidən görüşdük.

Bizim marşrutumuz belə idi: Bakı – Moskva (vizaları Moskvada almalı idik) – İstanbul – İzmir və iş belə gətirdi ki, İstanbulun o zamankı Böyük Bələdiyyə başqanı Bədrəddin Dalanın (indiki İstanbul Yeddităpə Universitetinin

təsisçisi) təkidi ilə İzmirə gedərkən də, qayıdarkən də bir neçə gün İstanbulda qaldıq.

Mən həmin səfərə çıxarkən tanıdığım türk yazıçılarının, o cümlədən də Yaşar Kamalın telefon nömrələrini özümlə götürmüşdüm, ancaq İstanbulda ona telefon açmağıma ehtiyac qalmadı, bizi bu yaxınlarda rəhmətə getmiş mənim unudulmaz dostum şair Aydın Hətiboğlu görüşdürdü.

O zaman, yuxarıda dediyim kimi, Mixail Qorbaçov hakimiyyətə yeni gəlmişdi, sonralar boş vədlər, siyasi sürüşkənlik və rüsvayçılıq, xaos və xəyanət göstəricisinə çevrilmiş «perestroyka» yeni başlayırdı və ilk vaxtlar, elə bil ki, SSRİ-ni hər tərəfdən bürümüş qapalı, qartlayıb bərkimiş pəncərələrinin bulanıq şüşələrindən bir gözlük açılırdı, o gözlükdən təmiz hava gəlməyə başlayırdı. Yuxarıda yazdığım kimi, o vaxt (elə indi də, ancaq bir az yumşaq!) Yaşar Kamal solçu dünyagörüşünə malik, kommunizmdən daha artıq sosializm ideyalarını bölüşən (Sartr tipli) bir qələm sahibi idi və elə buna görə də bizim Aydının dəvəti ilə İstanbulda, boğazın kənarındakı indi adını unutduğum xudmani lokantalardan birində oturub söhbətləşdiyimiz o görüş zamanı iyirmi il əvvəlki Bakı səfərini də, Moskva görüşümüzü də xatırladığımız zaman yenə də birdən-birə gülə-gülə:

– Qorbaçovdan sonra, yəqin, sarı kravat bağlamazlar! – deməsi, doğrusu, mənə həm ləzzət etdi, həm də əlamətdar göründü.

Bu sözlər bir tərəfdən Yaşar Kamalın iti hafizəsindən və yumor hissindən xəbər verirdisə, o biri tərəfdən də (və mənim üçün daha əlamətdar olanı!) onun ideya fanatiki olmadığından, daxili tərəddüdlərindən, özü ilə özü arasındakı söhbətlərdən, daxili götür-qoylardan xəbər verirdi. Bu sözləri yazıram və Yaşar Kamalın ehtiram bəslədiyi, xatirəsini həmişə uca tutduğu Nazim Hikmət yadıma düşür: qırxıncı illərin, əllinci illərin əvvəllərinin Nazim Hikməti ideyanın fanatiki idi, ancaq o SSRİ-yə gəldikdən, burada yaşadıqdan sonra, iti sənətkar gözləri və fəhmi ilə çox şeyi

görmüş və başa düşmüşdü. Mənim buna qətiyyən şübhəm yoxdur ki, ömrünün sonlarına yaxın o, daxili tərəddüdlər burulğanı içində idi…

Səhəri gün Yaşar Kamal məni evinə dəvət etdi və onun mənzilində məndə elə bir təəssürat yaranmışdı ki, elə bil, evdə yox, kitabxanadayam. Məsələ yalnız bunda deyildi ki, Yaşar Kamalın mənzili başdan-başa kitab idi, bəlkə, daha artıq dərəcədə bunda idi ki, bu mənzilin aurasında açıq-aşkar bir kitab məhəbbəti, kitab əhvali-ruhiyyəsi, kitab müdrikliyi var idi. Bu kitablar mənzildəki əşyaların atributu yox, daxili aləmin, ruhun, mənəvi özünüifadənin çox ağırçəkili, sanballı göstəricisi idi.

Yadıma gəlir, o vaxt rəflərdəki, dolablardakı o kitabları gözdən keçirərkən, gördüm ki, Stendalın eyni əsərlərinin eyni dildə – türk dilində bir neçə nəşri var və mən bunu deyəndə Yaşar Kamal: «Dünya ədəbiyyatında mənim iki böyük ustadım var – Stendal və Tolstoy!» – dedi.

Görünür, bu detal ona görə mənim hafizəmdə qalıb ki, Stendal İlyas Əfəndiyevlə mənim ədəbi fikir mübadilələrimizin, hətta ədəbi mübahisələrimizin qəhrəmanlarından biri idi – İlyas Əfəndiyev Stendalı çox yüksək qiymətləndirir, onu Balzak səviyyəli bir nasir hesab edirdi, mənim üçün isə Stendal o cür bir yüksəklikdə deyildi, mənə görə onda Balzakın psixologizmi yox idi və həmin psixologizmi yarıromantikliklə yarımacəraçılıq əvəz edirdi, mən onun İtaliya səfəri haqqında, yaxud Napoleon haqqında yazdığı sənədli yazılarını bədii əsərlərindən artıq bir maraqla oxuyurdum. Bunu da deyim ki, Yaşar Kamalın ikinci ustadı – qoca Tolstoy da İlyas Əfəndiyev üçün çox böyük ədəbi avtoritet idi və bu yerdə İlyas Əfəndiyev ilə mənim hansısa ədəbi mübahisəmizdən söz gedə bilməzdi, biz ədəbi müttəfiqlər idik.

Mən İzmirdən İstanbula qayıtdıqda da Yaşar Kamalla görüşdüm və bu dəfə yenə də Aydın Hətiboğlunun «təşkilatçılığı» ilə bizi – Yaşar Kamalı, Aydını və məni Əziz Nesindən sonra Yazarlar Sendikasının başqanı seçilmiş Də-

mirtac Ceyhun Ortaköydəki çox koloritli bir lokantaya dəvət etmişdi.

İstanbuldakı o üç səmimi görüş Yaşar Kamalla mənim Moskvada yaranmış münasibətlərimizi səmimi və mehriban bir dostluğa çevirdi.

Bir neçə ildən sonra isə o nəhəng və zəhmli Sovet İttifaqı, elə bil, kartdan düzəlmiş bina idi, dağılıb tar-mar oldu və Türkiyə yenə də yaxın coğrafi bir məkana çevrildi. Deyə bilmərəm ki, mən hər dəfə yolum İstanbula düşəndə Yaşar Kamalla görüşürəm – vaxt az, iş çox. Ancaq bu görüşlərin kəmiyyəti o dostluq münasibətlərinin keyfiyyətinə heç vəchlə təsir etməyib.

Və mən Patriarxla İstanbuldakı hələlik axırıncı görüşümüzün gözəl ovqatını xatırlayıram. İstanbulda olduğum günlərdən birində mənim dostum, məşhur uroloq, professor Ziya Akçətin bizi ailəlikcə evinə qonaq dəvət etmişdi və axşam Ziya bəyin şəhərin Asiya hissəsindəki qədim məhəllələrdən birində, Boğazın sahilində yerləşən mənzilinə getdik. Məlum oldu ki, daha bir qonaq da gəlməlidir və mən soruşanda ki, qonaq kimdir, Ziya bəy qızım Günaya baxıb bic-bic gülümsəyərək:

– Elçin bəy, bu sizə sürprizdir! – dedi.

Və bir neçə dəqiqədən sonra həyətdən maşın səsi gəldi, sonra da… Yaşar Kamal xanımı Ayşe xanımla içəri təşrif buyurdu (Tildadan sonra ikinci dəfə ailə qurmuşdu).

Sən demə, Ziya bəy əvvəldən Günaya deyibmiş ki, Yaşar Kamalı da dəvət edib, ancaq mənim xəbərim olmasın, «qoy, bu, ikisi üçün də (yəni mənlə Yaşar Kamal üçün) sürpriz olsun».

O axşam gecənin yarısına kimi oturduq, Ziya bəyin xanımının mizin üstünə düzdüyü gözəl təamlardan dada-dada, yavaş-yavaş rakı içə-içə keçmiş günləri xatırladıq, ədəbiyyatdan, sənətdən, həyatdan və həyatın qəribə işlərindən danışdıq və mənim üçün çox xoş oldu ki, 90-a çata-çatda Yaşar Kamal yenə də əvvəlki kimi yazmaq-yaratmaq əzmindədir, həyat onun üçün yenə də əvvəlki kimi

maraqlıdır, heyrətamizdir, hafizəsi yenə də əvvəlki kimi itidir və yenə də əvvəlki kimi rakı içməyi bacarır.

Və uzun illərdən bəri bizim aramızda başqalarına heç nə deməyən bir «sarı kravat» zarafatı da yaranmışdı ki, mən Ziya bəygildəki o görüşümüzdə də:

– Yaşar bəy, – dedim. – Sarı kravat yadınızdadı də?..

– Ba!..– dedi. – Sarı kravatları unutmaqmı olur?.. – və yenə də bir gənclik hərarəti ilə ürəkdən güldü.

## III

Yaşar Kamal yaradıcılığı mənim üçün qətiyyən şübhə etmədiyim və həmişə də söylədiyim bir fikrin, kargüzar dili ilə desəm, «əyani nümunəsi», göstəricisidir: ədəbiyyatda və ümumiyyətlə, sənətdə bəşəriliyə aparan yol millidən keçir.

Yaşar Kamal Avropada (və ümumiyyətlə, dünyada) yaxşı tanınan, populyar yazıçılardan biridir və burada mənim üçün hər şey gün işığı kimi aydındır: o, xaricdə bu qədər populyardır ona görə ki, ilk növbədə, böyük milli yazıçıdır. Düzdür, dəfələrlə namizəd göstərilsə də, o, Nobel mükafatı almayıb (ümid edək ki, hələlik almayıb!) və bu, Nobel mükafatı verilərkən bəzən ədəbiyyata yanaşmadakı ikili standartların məntiqi nəticəsidir. Mən Yaşar Kamalı Lev Tolstoy ilə müqayisə etmirəm, ancaq bu gün biz deyirik ki, baxın, vaxtilə Lev Tolstoya Nobel verilmədi və mənim qətiyyən şübhəm yoxdur ki, sabah da deyəcəklər, baxın, vaxtilə Yaşar Kamala Nobel verilmədi.

Aşağı-yuxarı eyni vaxtda Yaşar Kamalla yazıb-yaradan görkəmli türk nasirləri Səbahəttin Ali, Sait Faiq Əbasıyanıq, Orxan Kamal, Kamal Tahir, Əziz Nesin, Səmim Qocagöz, Həsən İzzətdin Dinamo, Bəkir Yıldız, Orxan Pamuk – mən ilk fikrimə gələnlərin adını çəkirəm – onları qətiyyən bir-birinə qarşı qoymadan və hər birinin ədəbiyyatda tutduğu yerə kölgə salmadan demək istəyirəm ki, bu yazıçıların heç biri Yaşar Kamal qədər türk folkloruna, xalq yaradıcılığına yaxın və doğma olmayıb.

Onun elə əsərləri var ki, bilavasitə folklorla bağlıdır, misal üçün, məşhur «Dağın əfsanəsi» povesti romantik məhəbbət dastanlarının – «Əsli və Kərəm»in, «Leyli və Məcnun»un, «Tahir və Zöhrə»nin müasir yazılı ədəbiyyatda istedadlı ifadəsidir.

Eyni zamanda Yaşar Kamalın elə realist əsərləri də var ki, onlarda bilavasitə folklordan sitat yoxdur, ancaq bu əsərlərdə də xalq ədəbiyyatının nəfəsini duymamaq mümkün deyil. Onun «İncə Məmməd»dən sonra ikinci böyük epopeyası – üççildlik «Fırat suyu qanlı axır, baxsana» romanı (özü bunu «Bir ada hekayəsi» adlandırır) tragik bir realizmlə yazılmışdır və bu müasir əsəri oxuduqca, şəxsən mənə elə gəlirdi ki, qanlı Fırat sularının hadisələrini hansısa bir dərviş, özü də bir az havalı bir dərviş danışır, mən az qala o dərvişin bu əhvalatları danışdıqca içindəki odla, alovla işıldayan gözlərini görürdüm.

Yaşar Kamal o böyük yazıçılardan biridir ki, onun romanlarında və nəinki yalnız romanlarında, hətta hekayələrində də həyat qaynayır, elə bil, o insanların – Yaşar Kamal qəhrəmanlarının arasındasan, onları bir-bir gözünlə görürsən, onlarla sən özün danışırsan. Söhbət yazıçının təhkiyəsindən getmir, bu hadisələri sən özün danışırsan, bu təsvirlər sənin özününküdür…

Bu, əlbəttə, böyük ədəbiyyat göstəricisidir.

Mən yuxarıda gürcü yazıçısı Çabua Amiredcibinin «Data Tutaşxia» romanını xatırladım (yeri gəlmişkən deyim ki, Çaba Amiredcibi də artıq 90-ı keçib və o da Yaşar Kamal kimi hələ bu dünyadakı missiyasını yerinə yetirməklə məşğuldur!) və Yaşar Kamaldan xeyli sonra eyni mövzuda yazılmış bu romanı mən 70-ci illərin ikinci yarısında əlyazmasında (makinada çap olunmuş qrankalarda) oxumuşdum.

Mövzumdan bir az uzaqlaşsam da, deyim ki, o zaman «Drujba narodov» jurnalında nəsr şöbəsinin müdiri işləyən (sonralar jurnalın baş redaktoru oldu) Aleksandr Rudenko-Desnyak (Ukrayna ədəbiyyatı klassiki Oleksa Desnyakın

oğlu) Bakıya gəlmişdi və o vaxta qədər mənim heç adını da eşitmədiyim çətin familiyalı (Amiredcibi) bir gürcü yazıçısının rus dilində hələ çap olunmamış romanını gözgörəti bir heyranlıqla, ağızdolusu tərifləyirdi. Romanı jurnalda çap etməyə hazırlayırdılar. Bir müddət sonra mən Moskvada olarkən həmişəki kimi «Drujba narodov»un redaksiyasına gedəndə o əsərin əlyazmasını Saşadan alıb oxudum və onun kimi tam bir heyranlıq içində olmasam da, əlbəttə, burası tamam aydın idi ki, söhbət istedad və professionallıqla yazılmış böyük bir romandan gedir.

Mən «Ədəbi düşüncələr»də o zaman bu iki roman haqqında qısaca yazmışdım və o qeydləri tapıb olduğu kimi burda da təqdim edirəm:

«İncə Məmməd»dən sonra «Data Tutaşxia» ilkin fəsillərində mənə deyilmişlərin təkrarı kimi göründü, ancaq Data Məmmədə nisbətən intellektualdır və bu romanın ən maraqlı cəhəti orasındadır ki, Data surətində ibtidai igidliklə (at belindəki igidlik! Koroğlu, Qaçaq Nəbi, Qaçaq Süleyman igidliyi!) intellektuallığın («fəlsəfi dünyagörüşünün» demirəm, məhz intellektuallığın) çox üzvi, təbii bir vəhdəti var.

Şəxsən mənə bu böyük (həcm etibarilə) romanı oxudan, həm də maraqla oxudan da həmin vəhdətin bədii ifadəsidir».

Buradakı «Data Məmmədə nisbətən intellektualdır» fikrinə aydınlıq gətirmək istəyirəm. Bəli, Data intellektualdır, ancaq Məmmədin düşüncələrinin alt qatında, onun əməllərinin arxasında bir bünövrə kimi əsrlərin süzgəcindən keçib gəlmiş xalq müdrikliyinin dayanması da Yaşar Kamalın romanının bədii-fəlsəfi faktıdır. Məmməd – Robin Quddur, ancaq onda Robin Qud macəraçılığından artıq dərəcədə sadə, sadə olduğu qədər də dərin bir xalq müdrikliyi var.

Həmin xalq müdrikliyi Yaşar Kamalın çox uğurlu, az uğurlu, ancaq bütün əsərlərinin, hər halda mənim oxuduğum əsərlərinin görünməyən hissəsində, Heminqueyin dediyi aysberqin suyun altında qalmış üçdə ikisində çox möhkəm yer tutub və bu xalq müdrikliyi bir tərəfdən Yaşa-

rın əsərlərinin sanbalını artırır, o biri tərəfdən də onlara estetik bir yüngüllük, şəffaflıq, oxunaqlıq gətirir.

Onun bir neçə il əvvəl oxuduğum «Ağ şalvar» adlı bir hekayəsi yadıma düşür. Süjeti təxminən belədir: kasıb bir kəndli yeniyetmənin – adı gərək ki, Mustafadır – ən böyük arzusu budur ki, varlı balalarının geydiyi kimi ağappaq bir şalvarı olsun və o yeniyetmə həmin ağappaq şalvar naminə qul kimi işləyir, xəyalındakı o ağappaq şalvar ona qüvvə verir, ancaq o ağ şalvar eləcə onun xəyallar aləmində qalır.

Belə bir ağappaq ləkəsizlik Yaşar Kamalın yaradıcılığına xas olan bədii-estetik bir xüsusiyyətdir, hətta mən deyərdim ki, bədii-estetik bir kateqoriyadır.

Yaşar Kamal dünyanın qara işlərini də ağappaq estetik bir ləkəsizliklə qələmə almağı bacarır.

Bu isə yalnız böyük istedad sahiblərinə, böyük sənətkarlara qismət olan bir vergidir. Allah vergisi.

* * *

Yaşar Kamal yuxarıda haqqında qısaca bəhs etdiyim üçcildlik «Fırat suyu qanlı axır, baxsana» («Fırat suyu kan akıyor baksana») romanını belə bir avtoqrafla mənə yollayıb:

*«Sevgili kardeşim Elçine. Yaşar Kamal»*

Mən də bu yazını sevimli böyük qardaşım Yaşar Kamala ən səmimi arzularımla bitirmək istəyirəm.

Yaşasın və yazsın!

*4 may 2013*
Bakı

***P.S.*** Həyatla, ömürlə bağlı biz yalnız arzu edə bilərik, gücümüz yalnız buna çatır. Bu gün Yaşar Kamal artıq haqq dünyasındadır. Təskinlik yalnız ondadır ki, Yaşar Kamal bir insan kimi artıq bizimlə deyilsə də, ancaq böyük bir yazıçı kimi o yaşayır və yaşayacaq. Oxucunun qarşısındakı yeni kitab – «İncə Məmməd» bunu bir daha təsdiq edir.

**ELÇİN**
*21 dekabr 2016*

## BİRİNCİ HİSSƏ

*Divarın dibində şəklim çəkildi,*
*Ağ kağız üstündə tanıyın məni.*

### I

Toros dağlarının ətəkləri Aralıq dənizinin sahillərindən başlanır. Ağ köpüklü dalğaların çarpdığı sahillər içərilərə doğru uzandıqca dağ zirvələri yavaş-yavaş yüksəlir. Aralıq dənizinin üzərini daim topa-topa ağ buludlar alır. Sahillər cilalanmış kimi görünən dümdüz gilli torpaqdan ibarətdir. Gilli torpaq ət kimidir. Sahildən uzaqlaşıb saatlarla içəriyə doğru irəlilədikcə, dəniz qoxusu duyulur. Kəskin duz qoxusu. Düz, gilli, şumlanmış torpaqlardan sonra Çuxurovanın çay sahili kolluqları başlanır. Bu yerlər hörülmüş kimi sıx kolluq, qamışlıq, cır meynə, böyürtkən və qarğı kolları ilə örtülmüş ucsuz-bucaqsız, tünd-yaşıl düzənlikdir. Bura sıx meşədə olduğundan daha qaranlıqdır.



Bir tərəfdən Anavarza, digər tərəfdən də Osmaniyyədən keçərək, İslahiyyəyə doğru daha içərilərə gedilsə, adam geniş bataqlıqlara gəlib çıxar. Yay aylarında bataqlıqlar pıqqır-pıqqır qaynayır. Ətraf palçıqlı, çirk olur. Üfunətdən bataqlığa yaxınlaşmaq olmur. Çürümüş ot, ağac, qamış, qarğı, çürümüş torpaq qoxusu gəlir. Qışda buralar par-par parıldayan dumduru su ilə örtülür. Yayda otlardan, qarğılardan suyun üzü görünmür. Qışda isə çadra kimi açılır. Bataqlıqlar keçildikdən sonra yenə də şumlanmış tarlalar başlanır. Burada torpaq şirəlidir, işım-işım işıldayır. Birə qırx, birə əlli məhsul verir. Torpaq ilıq, yumşaqdır.

Kəskin qoxulu mərsin ağacları ilə örtülmüş təpələr keçildikdən sonra birdən-birə qayalar başlanır. İnsanı birdən qorxu bürüyür. Qayalarla birlikdə şam ağacları da başlanır.

Şam ağaclarının büllur kimi şəffaf qatranı torpağa sıxılır. İlk şam ağaclarından sonra yenə də düzənliklər başlanır. Buranın torpağı boz, məhsul verməyən xam torpaqdır... Torosun qarlı zirvələri buradan lap yaxından görünür, sanki əlini uzatsan, bu zirvələrə çatar.

Tikanlı düzü bu düzənliklərdən biridir. Tikanlı düzündə beşə qədər kənd yerləşmişdir. Bu beş kəndin beşinin də sakinləri torpaqsızdırlar. Bütün torpaq Abdi ağanındır. Tikanlı düzü dünyadan ayrı düşmüşdür; buranın öz xüsusi qanunları, öz dəbləri vardır. Tikanlı düzünün sakinləri öz kəndlərindən başqa, demək olar, heç bir yerə getməzlər. Çox nadir hallarda düzənlikdən kənara çıxarlar. Tikanlı düzünün kəndlərindən, buranın sakinlərindən, onların necə yaşadıqlarından da heç kəsin xəbəri yoxdur. Hətta vergi toplayan da buraya iki-üç ildə bir dəfə gələr. Gələndə də kəndlilərlə görüşməz, onlarla maraqlanmaz. Abdi ağanı görüb gedər.

Dəyirmanoluq kəndi Tikanlı düzündəki kəndlərin ən böyüyüdür. Abdi ağa da bu kənddə yaşayır. Kənd düzənliyin gündoğanında, qayaların lap dibindədir. Qayalar bənövşə rəngindədir. Qayaların üstü süd kimi ağ, yaşılımtılgümüşü ləkələrlə örtülmüşdür.



Kəndin girəcəyində qoca bir çinar ağacı illərdən bəri əzəmətlə ucalır. Yaşının çoxluğundan budaqları qıvrılıb yerə əyilən bu qoca çinar ağacına yüz metr qalmış, əlli metr qalmış heç bir səs eşidilmir. Hər yan dərin səssizlik içindədir. Səssizlik insanı qorxudur. İyirmi beş metr qalmış yenə səs-səmir eşidilmir... On metr qalmış yenə eyni səssizlik. Lakin ağacın yanına gəlib, qayanın yanından burulan kimi iş dəyişir, birdən-birə gurultu qopur. İnsan donub qalır... Əvvəlcə gurultu adamın qulağını batıracaq dərəcədə güclü olur. Sonra azalır, yavaşıyır.

Gurultunun gəldiyi yer, Dəyirmanoluq çayının gözüdür. Bu, əslində çayın gözü deyilsə də, buranın camaatı oraya çayın gözü deyir. Elə bilir. Burada su bir qayanın

dibindən köpüklənə-köpüklənə çıxır. Suyun içinə bir ağac parçası atılsa, bir gün, iki gün, hətta bir həftə suyun üstündə fır-fır fırlanar. Ağac parçasını fırladan sudur. Bəziləri iddia edirlər ki, köpüklənən suda daş da batmır. Əslində çayın gözü bura deyildir. Çay lap uzaqlardan, Ağcadağdan başlanıb şam ağaclarının arası ilə axaraq, özü ilə bərabər kəklikotu, yarpız ətrini gətirir. Burada su, qayanın altına girib köpüklənə-köpüklənə, qaynaya-qaynaya dəhşətli gurultu ilə o biri tərəfdən çıxır.

Buradan Ağcadağadək Torosun hər yeri elə sıldırım qayalıqdır ki, bir ev sahəsi qədər hamar yer görünmür. İri şam və vələs ağacları qayaların arasında göyə doğru ucalır. Bu qayalıqlarda, demək olar ki, heç bir heyvan yaşamır. Yalnız, tək-tək hallarda axşamçağı sıldırım qayanın lap zirvəsində ayaqlarını aralı qoyan bir maralın şaxəli iri buynuzunu dala əyərək uzaqlara baxdığını görmək olar.

## II

Süpürüm kolu ən pis, ən bərəkətsiz torpaqlarda bitir. Bu torpaqlar ağappaq, pendir kimidir. Belə torpaqda ot bitməz, ağac bitməz, hətta eşşək ənciri də bitməz, ancaq süpürüm kolu bol-bol bitər, böyüyər, artar.

Ən yaxşı torpaqda bircə dənə də olsun süpürüm koluna rast gəlmək olmaz. Bunun bir səbəbi odur ki, yaxşı torpaq boş qalmır, həmişə şumlanır, əkilir. Bir də, deyəsən, süpürüm kolu yaxşı torpağı xoşlamır.

Süpürüm kolu nə yaxşı, nə də pis, boş qalmış orta məhsullu torpaqlarda da bitir. Bu cür torpaqda süpürüm kolunu qopardıb, yerində başqa şey əkirlər. Toros ətəklərinin zirvələrə yaxın düzənliklərində də belə edirlər.

Ən uzun süpürüm kolunun hündürlüyü bir metrə qədərdir. Çoxlu şaxələri olur. Şaxələri tikanabənzər çiçəklərlə bəzənir. Beşguşəli ulduza oxşayan bu çiçəklər sivri uclu,

iti iynələrin ortasında yerləşir. Hər süpürüm kolunda bunlardan yüzlərcə olur.

Süpürüm kolu bu yerdə bir, iki, üç, dörd dənə bitməz. O qədər çox, o qədər sıx bitər ki, arasından ilan da keçə bilməz. Süpürüm kolunun üstünə iynə atsan, yerə düşməz.

Baharda süpürüm kolunun gövdəsi zəif, açıq-yaşıl olur. Xəfif bir yel əsdikdə torpağa dəyəcəkmiş kimi əyilir. Yayın ortalarında bitkidə əvvəlcə mavi damarcıqlar peyda olur. Sonra yavaş-yavaş şaxələri, gövdəsi maviləşir. Bu, açıq-mavidir... Sonra get-gedə mavi tündləşir. Ucsuz-bucaqsız tarla son dərəcə gözəl mavi rəngə boyanır. Gün batarkən bir yel əsərsə, mavi tarla eynən dəniz kimi dalğalanıb səs salır. Gün batarkən sular necə qızarırsa, süpürüm kolu tarlası da belə qızarır.

Payıza doğru süpürüm kolları quruyur. Mavi rəng solub ağ rəngə çevrilir. Süpürüm kolluğundan çatırtı səsi gəlməyə başlayır. Bu zaman yüzlərlə, minlərlə düymə böyüklüyündə süd kimi ağ ilbiz süpürüm kollarının gövdələrinə yapışır. Onda kollar süd kimi ağ muncuqlarla bəzənmiş kimi görünür.



Dəyirmanoluq kəndinin ətrafını süpürüm kolları bürümüşdür... Burada tarla, bağ-bağça yoxdur. Başdan-başa süpürüm kollarıdır.

Süpürüm kollarının içindən tövşüyə-tövşüyə qaçan bir oğlan çıxdı. O, çoxdandır ki, durmadan qaçırdı. İndi birdən dayandı. Baldırlarına baxdı. Tikan batan yerlərdən qan sızırdı. Oğlanın ayaq üstə durmağa halı yoxdu. Özü də qorxurdu. Oğlana elə gəlirdi ki, onu təqib edənlər gəlib yetişirlər və ya indi gəlib çatacaqlar. Qorxa-qorxa dönüb arxaya baxdı. Ətrafda keç kəs yoxdu. Sevindi. Sağa burulub bir qədər qaçdı. Sonra yoruldu. Kolların içərisində yerə uzandı. Sol tərəfində bir qarışqa yuvası gördü. İri-iri qarışqalar yuvanın ağzında qaynaşırdılar. Bir müddət hər şeyi unudub fikrini qarışqalara verdi. Birdən ağlına nə gəldisə,

sıçrayıb ayağa qalxdı. Sağa burulub bir qədər gedəndən sonra kolluqdan çıxdı. Kolluğun kənarında dizi üstə çöməldi. Kolların üstdən başının göründüyünü dərk edərək, yerə oturdu. Baldırlarından qan sızırdı. Qan sızan yerlərə torpaq basmağa başladı. Torpaq yaralara toxunan kimi yaxıb-yandırırdı.

Qayalar bir az aralı idi. Oğlan bütün gücünü toplayaraq qayalara tərəf qaçmağa başladı. Ən uca qayanın altındakı çinar ağacına çatıb dayandı. Ağacın dibi quyu kimi dərin idi. Sapsarı, qızıl rəngli, qırmızı damarlı yarpaqlar ağacın dibini doldurmuş, gövdəsini yarıyadək örtmüşdü. Quru yarpaqlar xışıldayırdı. Oğlan özünü yarpaqların üstünə saldı. Çinarın çılpaq budaqlarından birinin ucunda bir quş oturmuşdu. Xışıltını eşidən kimi uçub getdi. Oğlan çox yorulmuş, əldən düşmüşdü. Burada, bu yarpaqların üstündə gecələməyi fikrindən keçirtdi. Yarpaqlar nə qədər də yumşaq idi! Oturduğu yerdən qalxmaq istəmirdi. Sonra öz-özünə dedi: «Olmaz. Burada adamı qurd-quş yeyər». Ağacda qalmış yarpaqlardan bir neçəsi hərlənə-hərlənə gəlib yerdəki yarpaqların üstünə düşdü. Sonra yarpaqlar arası kəsilmədən bir-bir, iki-iki düşməyə başladı.

Oğlan öz-özünə ucadan danışırdı. Sanki yanında adam vardı və oğlan bu sözləri ona deyirdi:

– Gedərəm, – deyirdi. – Gedib o kəndi taparam. Oraya getdiyimi heç kəs bilməz. Gedib taparam. Budur, indi durub gedərəm. Daha geri qayıtmaram. Çoban olaram. Yer şumlaram. Hə, çoban olaram. Hə, yer şumlaram. Qoy anam məni axtarsın. İstədiyi qədər axtarsın. Keçisaqqallı Abdi ağa bir də üzümü görə bilməz. Heç vaxt görə bilməz. Birdən kəndi tapa bilmədim?.. Tapa bilməsəm, necə olar? Acından ölərəm, hə, ölüb gedərəm.

İlıq payız günəşi çıxmışdı. Onun şüaları qayaları, çinarı, yarpaqları oxşayırdı. Təzəcə şumlanmış torpaq işıldayırdı. Bir-iki payız çiçəyi torpağı yarıb baş qaldırırdı. Ağaclardan

sızan duru kitrə ətrafa acı qoxu yayaraq parıldayırdı. Payızda dağlardan kitrə qoxusu gəlir.

Oğlan orada nə qədər, – bir saatmı, iki saatmı qaldı, məlum deyil. Amma günəş artıq dağların ardına çəkilirdi. Haçandan-haçana oğlan kiridi, özünü topladı. Birdən ona elə göründü ki, yenə də onun dalınca gəlirlər. Oğlan dəli kimi oldu. Çevrilib günəşə baxdı. Günəş baş alıb gedirdi. İndi o haraya getməliydi? Hansı tərəfə? Heç özü də bilmirdi. Qayaların arasından ensiz bir cığır keçirdi. Oğlan bu cığırla qaçmağa başladı. Qaya bilmir, kol bilmir, daş bilmir, hey qaçırdı. Yorğunluğunu yaxşıca almışdı. Arabir dayanır, bir an dönüb arxasına baxır, sonra yenə də qaçırdı.

Oğlanın ayaqları bir-birinə dolaşırdı. Bu cür qaçarkən, quru ağacın üstündə kiçik bir kərtənkələ gördü. Nədənsə buna sevindi. Kərtənkələ onu görən kim ağacın dibinə qaçdı...

Birdən oğlan səntirlədi, sonra dayandı. Başı hərlənirdi. Gözlərinə qaranlıq çökdü. Ətrafda hər şey fırfıra kimi hərlənirdi. Özü də yaman hərlənirdi! Əl-ayağı da əsirdi. Dönüb arxasına baxandan sonra yenə qaçmağa başladı. Birdən oğlanın qabağından bir dəstə kəklik havaya qalxdı. Kəkliklərin havaya qalxmasından diksindi. Onsuz da ən kiçik xışıltı onu diksindirirdi. Diksinəndə ürəyi bərk döyünürdü. Ümidsiz nəzərlə yenə dönüb dala baxdı. Qan-tər içində idi. Dizləri əsirdi. Tez yerə oturdu. Oturduğu yer daşlı-kəsəkli kiçik yamac idi. Turş və xoş tər qoxusu gəlirdi. Burnuna dadlı bir çiçək ətri də gəldi. Gözlərini zorla aça bildi. Başını ağır-ağır, qorxa-qorxa qaldırıb aşağılara baxdı. Günəş batmaq üzrə idi. Yerə uzun kölgələr düşmüşdü. Aşağıda zorla seçilən bir torpaq dam gördü. Sevincindən ürəyi ağzına gəldi. Evin bacasından tüstü də çıxırdı. Tüstü ağır-ağır, burula-burula çıxırdı. Tüstünün rəngi qara deyil, göyümsov idi. Arxadan ayaq səsinə oxşar bir tappıltı eşitdi. Oğlan cəld başını çevirib baxdı. Sol yanında qapqara meşəlik leysan kimi göydən yerə enir, elə bil onun üstünə

gəlirdi. Oğlan yenə danışmağa başladı. Amma indi çığıra-çığıra danışırdı. Meşəlikdən əks istiqamətdə qaça-qaça, var gücüylə çığırırdı:

– Gedib onlara deyərəm ki, gedib deyərəm ki... sizə çoban olmağa gəldim. Cüt də sürərəm... Əkin də biçərəm. Deyərəm ki, mənim adım Mıstıqdır. Qara Mıstıq... Anam yox, atam yox... Deyərəm ki, heç Abdi ağam da yoxdur. Sizin qoyun-keçinizi otararam... Torpaqlarınızı şumlaram. Lap sizin oğlunuz da olaram. Hə, olaram. Mənim adım İncə Məmməd deyil. Mənə Qara Mıstıq deyirlər. Qoy anam ağlasın. Onların övladı olaram. Qoy o dinsiz Abdi ağa da məni axtarsın. Hə, onların oğlu olaram!

Sonra bərkdən ağlamağa başladı. Qaranlıq meşə hey uzanıb gedirdi. Oğlan da ağladıqca ağlayırdı. O, ağlamaqdan, səsi çatdığı qədər ağlamaqdan böyük bir həzz alırdı.

Yamacdan aşağı enərkən oğlanın ağlaması kəsildi. Paltarının qolu ilə burnunu sildi. Paltarının qolu yamyaş oldu.

Oğlan evin həyətinə gəlib çatanda qaranlıq çökmüşdü. Uzaqda bir neçə ev qaraltısı da görünürdü. O, bir anlığa dayandı. Düşünürdü. Görəsən, bu kənd həmin kənddimi? Qapının qabağında uzunsaqqallı bir qoca yəhərlə əlləşirdi. Qoca başını qaldıranda həyətin ortasında hərəkətsiz dayanmış bir qaraltı gördü. Qaraltı qocaya tərəf bir-iki addım atıb dayandı. Qoca ona fikir verməyib yenə də öz işi ilə məşğul oldu. Hava tamam qaralanda, qocanın gözləri görmədiyi üçün yəhəri yerə qoydu. Ayağa qalxdı. Dönüb sol tərəfə baxanda, bayaqkı qaraltının yenə də həmin yerdə dayanıb durduğunu gördü.

– Ey! Bura bax! Səninləyəm! Burada nə işin var? – deyə qaraltını səslədi.

Qaraltı:

– Əmi, – dedi, – sənə çoban olaram. Cüt də sürərəm. Sizin üçün hər iş görərəm, əmi.

Qoca qaraltının qolundan yapışıb içəri çəkdi:

– Hələ bir içəri gəl, sonra danışarıq.

Xəfif şimal küləyi əsirdi. Məmməd tir-tir titrəyirdi. Elə bil uçacaqdı.

Qoca içəridəki qadına:

– Ocağa odun at! – dedi. – Oğlan bərk titrəyir.

Qadın:

– O kimdir? – deyə heyrətlə soruşdu.

– Tanrı qonağıdır, – deyə qoca cavab verdi.

– Qonağın heç beləsini görməmişəm, – deyə qadın dodaqucu gülümsündü.

Qoca:

– Görməmisənsə, indi gör! – dedi.

Qadın tez gedib bir qucaq odun gətirdi, ocağa atdı. Ocaq yavaş-yavaş alovlandı.

Oğlan ocağın sol tərəfində divara qısılıb dayandı. Oğlanın başı iri idi. Gündən rəngi solmuş hamar qara saçları alnına, üzünə tökülmüşdü. Üzü kiçik, arıq idi. İri, qonur gözləri vardı. Bədəni gündən qaralmışdı. Zahirən on bir yaşı olardı. Dizə qədər şalvarını tikan didib cırmışdı. Buna görə də baldırları çılpaq idi. Ayaqları da yalın idi. Baldırlarında qan quruyub qalmışdı. Ocağın yaxşı yanmasına baxmayaraq, oğlan yenə də titrəyirdi.



Qadın:

– Bala, – dedi, – yəqin, sən acsan. Dayan, indi sənə şorba töküm, iç!

– İçərəm, – deyə oğlan cavab verdi.

Qadın:

– Onda bədənin qızar, – dedi.

Oğlan dedi:

– Hə, onda daha titrəmərəm.

Qadın ocağın dibindəki iri mis qazandan qalaylanmış kasaya şorba tökməyə başladı. Oğlanın gözləri qazandakı buğlanan şorbaya dikildi.

Qadın şorbanı onun qabağına qoydu, əlinə də bir taxta qaşıq verib dedi:

– Tez-tez iç!

– Tez-tez içərəm, – deyə oğlan cavab verdi.

Qoca dedi:

– O qədər də tez-tez içmə, sonra ağzın yanar.

Oğlan:

– Yanmaz, – dedi.

Oğlan gülümsündü. Qoca da gülümsündü. Qadın onların nəyə gülümsədiklərindən bir məna çıxarda bilmədi.

Qoca dedi:

– Şorbanı içən kimi qoçağın titrəməsi kəsdi.

Oğlan:

– Hə, kəsdi, kəsdi, – deyə təsdiq etdi.

Qadın da gülümsündü.

Ocaq palçıqla tərtəmiz suvanmışdı. Evin damı torpaq idi. Tavanı çır-çırpı ilə örtülmüşdü. Uzun illər ərzində his çəkib qapqara qaralmışdı, işıldayırdı. Evi arakəsmə ilə ikiyə ayırmışdılar. O tərəfdəki bölmə pəyə idi. Pəyənin qapısından ılıq və nəm hava gəlirdi. Təzə təzək, saman, təzəcə qırılmış qol-budaq qoxusu duyulurdu.



Birdən arakəsmənin dalından qocanın oğlu, gəlini və qızı çıxdılar.

Oğlan onlara fərəhlə baxdı.

Qoca oğluna dedi:

– Qonağımıza «xoş gəlmisən» desənə.

Oğlu çox ciddi bir tövrlə:

– Xoş gəlmisən, qardaş, – dedi. – Nə var, nə yox?

Oğlan da eyni ciddiyyətlə:

– Xoş gününüz olsun, – deyə cavab verdi. – Sağlıq-salamatlıq.

Qız da, gəlin də oğlana «xoş gəlmisən» dedilər.

Bu zaman ocaqdakı odunlar yanmış, közərmişdi.

Oğlan əllərini qoynuna qoymuş, büzüşüb oturmuşdu. Qoca da gəlib oğlanın yanında oturdu. Ocaqdakı közərti-

dən ətrafa qəribə kölgələr düşürdü. Qoca bu kölgələrə baxaraq, sanki oğlanın fikrindən nələr keçdiyini sezdi. Qoca da gözlərini uzun zaman bir yerdə durmayan, ocaqdakı közərtilərə görə yerlərini dəyişən kölgələrə zillədi. Qoca gözlərini kölgələrdən ayıranda, üzündə təbəssüm görünürdü. Qocanın sifəti uzun, zərif idi. Saqqalı ağappaq, dəyirmi idi. Alnını gün yandırmışdı. Mis rəngində idi. Ocaqdakı köz qocanın üzünə düşəndə onun alnı, yanaqları, boynu qırmızı mis kimi parıldayırdı.

Birdən qocanın yadına nə isə düşdü, özünü ələ alıb soruşdu:

– Ay qonaq, sənin adın nədir? Heç adını bizə demədin.

– Mənə İncə Məmməd deyərlər...

Oğlan dediyinə peşman olubmuş kimi alt dodağını dişlədi. Utancaq-utancaq başını aşağı saldı. Yolda gələrkən: «Mənim adım Qara Mıstıqdır deyəcəyəm» dediyini tamam unutmuşdu. Öz-özünə: «Eybi yoxdur, – dedi. – Öz adım ola-ola, Mıstıq nədir axı? Adımı nəyə görə gizlədim? Bu kənddə məni kim görəcək?»

Qoca öz gəlininə:

– Süfrəni salın, çörəyimizi yeyək, – dedi. – Tez olun!

Ortaya süfrə salındı. Bütün ailə və İncə Məmməd süfrənin dövrəsində oturdular. Yemək zamanı heç kəs ağzını açıb bir söz demədi. Səssizlik içində yemək yeyilib qurtarandan sonra, ocağa bir qucaq da odun atıldı. Qoca bir odun parçası götürüb ocağın lap ortasına qoydu. Alov hər tərəfdən odun parçasını bürüdü. Qoca bundan böyük bir zövq alırdı. Belə etməsə, rahat ola bilmirdi. Alovlar qocanın ocağa qoyduğu odun parçasını bürüdü. Qadın əyilib qocanın qulağına pıçıldadı:

– Süleyman, oğlanın yerini harada salım?

Süleyman həmişəki kimi xoş bir təbəssümlə dedi:

– Böyük atın axurunda... Harada salacaqsan? Biz harada yatırıqsa, orada... Əziz qonağım, kim bilir, Süleyman deyib haralardan gəlmişdir?

Süleyman üzünü Məmmədə çevirdi. İstidən süstləşən oğlan mürgüləyirdi.

Qoca gülümsəyərək:

– Ay qonaq, yuxun var? – deyə soruşdu. Məmməd silkindi:

– Yox, – dedi, – heç yuxum gəlmir.

Süleyman oğlanın gözlərinin içinə baxaraq:

– Ay İncə Məmməd, – dedi, – axı sən heç söyləmədin ki, haradan gəlib hara gedirsən?

İncə Məmməd yuxulu gözlərini ovuşdura-ovuşdura dedi:

– Dəyirmanoluqdan gəlirəm, o kəndə gedirəm.

Süleyman maraq dolu nəzərlərlə oğlana baxaraq:

– Dəyirmanoluğu tanıyırıq, bəs «o kənd» hansı kənddir? – deyə xəbər aldı.

Məmməd heç özünü itirmədən:

– Dursunun kəndi, – deyə cavab verdi.

Süleyman israrla soruşdu:

– Hansı Dursunun?

Məmməd:

– Abdi ağa var ha... – deyib susdu. Oğlanın gözləri bir nöqtəyə zilləndi.

Süleyman dedi:

– Hə, sonra?

– Onu tanımamış olmazsan, bizim ağamızdır. Dursun onun muzdurudur. Cüt sürür. Abdi ağanın yerlərini şumlayır. Həmin Dursunu deyirəm.

Məmmədin gözləri parladı. Azacıq susandan sonra sözünə davam etdi:

– Bu yaxınlarda bir tərlan balası tutmuşdu ha!.. Bax, o Dursunu deyirəm! İndi onu tanıdınmı, əmi?

Süleyman:

–Hə, tanıdım, tanıdım, – dedi. – Hə, sonra?

– Mən onun kəndinə gedirəm. Dursun mənə dedi ki, bizim kənddə uşaqları döymürlər. Onları cüt sürməyə gön-

dərmirlər. Bizim kəndin tarlalarında süpürüm kolu bitmir. Mən də indi oraya gedirəm.

Süleyman dedi:

– Yaxşı, o kəndin adı nədir? Dursun sənə heç demədimi?

Məmməd susdu. Fikrə getdi. Baş barmağını ağzına salıb uzun zaman düşündü. Sonra birdən:

– Yox, – dedi. – Dursun kəndin adını mənə demədi.

Süleyman:

– Qəribədir, – dedi.

– Hə-ə-ə, qəribədir, – deyə Məmməd təkrar etdi. – Biz Dursunla birlikdə cüt sürərdik. O, bir daşın üstündə oturub deyərdi: «Ah, sən bir bizim kəndimizi görsəydin! Daşı-torpağı qızıldandır. Dənizi var, şam ağacları var». Adam dənizlə hara istəsə gedə bilərmiş. Dursun oradan qaçmışdı. Dursun mənə dedi ki, onun oradan qaçdığını heç kəsə söyləməyim. Mən bunu heç anama da deməmişəm.

Sonra Məmməd əyilib Süleymanın qulağına pıçıldadı:

– Sən də heç kəsə demə. Yaxşımı, əmi?

Süleyman:

– Qorxma, qorxma, – dedi, – heç kəsə söyləmərəm.

Sonra gəlin qalxıb getdi. Bir az sonra dalında dolu bir çuvalla geri qayıtdı. Çuvalı ortalığa qoydu. Çuvalın ağzını açan kimi, pambıq qozaları yerə töküldü. Qozalar təmiz, ağappaq idi. Onların hər biri ağ topa buluda oxşayırdı. Birdən evin içərisini kəskin bir qoza qoxusu doldurdu.

Süleyman fərəhlə:

– Hə, İncə Məmməd, pambığı bir təmizlə görək, – dedi. – Bir özünü göstər.

İncə Məmməd qabağına bir qalaq qoza tökərək dedi:

– Bunda nə var ki? Pambıq təmizləmək çətin bir işdir?

Bunu deyib oğlan alışqan əlləri ilə maşın kimi işləməyə başladı.

Qocanın oğlu:

– İncə Məmməd, indi sən o kəndi necə tapacaqsan? – deyə soruşdu.

İncə Məmməd bu sualdan heç məmnun qalmadığını göstərən bir hal aldı. Dərindən ah çəkdi:

– Axtararam, – dedi. – Deyilənə görə, o kənd dəniz sahilindədir. Axtarıb taparam.

Qocanın oğlu:

– Ay İncə Məmməd, – dedi, – buradan dənizə on beş günlük yoldur.

İncə Məmməd:

– Axtarıb taparam, – dedi. – Ölərəm, ancaq bir də Dəyirmanoluğa qayıtmaram. Heç qayıtmaram. Əsla.

Süleyman:

– Ay İncə Məmməd, – dedi, – nə isə sənin başına iş gəlib. Bir aç söylə mənə görüm nə olub? Niyə düşmüsən bu yollara?

İncə Məmmədin əlləri süstləşdi:

– Süleyman əmi, – dedi, – səbir elə, indi hamısını açıb sənə söyləyim. Atam ölmüşdür. Bircə anam var. Başqa heç bir kəsim yoxdur. Mən Abdi ağanın yerlərində cüt sürürəm.

Oğlanın gözləri doldu. Boğazı acışdı. Lakin özünü zorla saxlayıb ağlamadı.

– İki ildir ki, onun yerlərində cüt sürürəm. Süpürüm kolu məni dalayıb yeyir... Süpürüm kolu adamın qıçlarını lap köpək kimi qapıb parçalayır. Bax, belə bir tarlada cüt sürürəm. Abdi ağa hər gün məni ölüncə döyür. Dünən səhər yenə də döydü. Məni lap şil-küt elədi. Mən də oradan qaçdım. O kəndə gedəcəyəm. Abdi ağa məni orada tapa bilməz. Orada birinə cüt sürərəm, onun çobanı olaram. İstəsə, lap oğlu da olaram.

Məmməd «oğlu da olaram» sözlərini deyəndə diqqətlə Süleymanın gözlərinin içinə baxdı.

Məmmədin gözləri yaşla dolmuşdu. Bir kəlmə də danışsaydı ağlayacaqdı. Buna görə də Süleyman Abdi ağa söhbətini dəyişdirdi:

– İncə Məmməd, indi ki belədir, qal mənim evimdə.

İncə Məmmədin üzü güldü. Bir sevinc dalğası onu bürüdü.

Qocanın oğlu:

– İncə Məmməd, – dedi, – dəniz çox uzaqdadır. O kəndi də asanlıqla tapmaq olmaz.

Pambıq tamam təmizlənib qurtardı. Qozalardan tökülmüş cücülər evin içində o tərəf-bu tərəfə qaçışırdılar. Qara, kiçicik pambıq cücüləri... Ocağın yanında kiçik bir yataq düzəltdilər. Məmmədin gözlərindən yuxu tökülürdü. Yatağa həsrətlə baxdı. Süleyman Məmmədin vəziyyətini çoxdan sezmişdi.

Yatağı göstərərək:

– Gir yatağına! – dedi.

Məmməd heç bir söz deməyib yatağa girdi. Dizlərini sinəsinə yığaraq büzüşdü. Bədəninin hər yeri ağrıyırdı, elə bil onu həvəngdə möhkəmcə əzişdirmişdilər.

Məmməd öz-özünə deyirdi: «Mən onun oğlu olacağam. Hə, olacağam! Qoy anam məni axtarsın. Qoy Abdi ağa axtarsın. Hə, qoy axtarsınlar. Lap qiyamətədək axtarsınlar. Heç qayıtmayacağam».

Gün doğmamışdan iki saat əvvəl, hər gün cüt sürməyə getdiyi vaxt cəld yuxudan oyandı. Yatağından qalxdı, yuxulu-yuxulu eşiyə çıxdı. Dünənki gecəni, ağsaqqallı Süleymanı xatırladı. Öz-özünə dedi: «Süleymanın evi. O kəndə gedib nə edəcəyəm? Yaxşısı budur ki, burada qalaram, Süleyman əminin oğlu olaram, heç geri qayıtmaram».

Sübhün ayazından üşüdü. Gəlib yatağına girdi. Yenə də dizlərini yığdı. Yatağı isindi. Bu gün günəş doğanadək yata biləcəyini düşünərək yuxuya getdi.

Doğan günəş sübhün ayazını qovdu. Süleymanın arvadı şorba qazanını ocaqdan götürdü. Qazandan isti, dadlı

buxar qalxırdı. Qocanın oğlu çoxdan cüt sürməyə getmişdi. Süleyman da yəhəri götürüb, dünən axşam qurtarmadığı işi davam etdirməyə başlamışdı.

– Süleyman, – deyə arvadı onu səslədi, – şorba soyuyur. Gəl iç!

– Qonaq durdumu? – deyə Süleyman xəbər aldı.

– Yazıq uşaq, görünür, dünən çox yorulub. Yuxuda hey sayıqlayır, – deyə arvadı cavab verdi.

Süleyman dedi:

– Oyatma fağır uşağı. Deyəsən, dünən bütün günü qaçıb. Üz-gözündən görünürdü.

Arvadı soruşdu:

– Görəsən, niyə qaçıb?

– Onu çox incidiblər, – deyə Süleyman cavab verdi.

Arvadı:

– Yazıq uşaq, – dedi. – Özü də nə gözəl oğlandır! Dinsizlər, bu barmaq boyda uşaqdan nə istəyirsiniz?

Süleyman dedi:

– Nə qədər könlü istəyir qalsın bizdə.

Bu ara Məmməd gərnəşə-gərnəşə oyandı. İki əli ilə gözlərini yaxşıca ovuşdurandan sonra ocağa tərəf baxdı. Ağzı açıq qazandakı şorba yavaş-yavaş buğlanırdı. Başını çevirib həyətə baxdı. Qapıdan içəriyə sanki bıçaqla kəsilmiş kimi görünən günəş zolağı uzanırdı. Cəld yerindən sıçradı.

Süleyman Məmmədin təlaş içində yatağından qalxdığını görən kimi:

– Qorxma, bala, – dedi. – Eybi yoxdur. Uzan yat!

Məmməd ocağın yanına gəldi, mis dəstini götürüb həyətə çıxdı. Bol su ilə üzünü yuduqdan sonra Süleymanın yanına gəldi və onun yəhər qayırmasına tamaşa eləməyə başladı.

Süleymanın arvadı:

– Gəlin, şorbanızı yeyin, – deyə onları səslədi. – Şorba soyudu.

Süleyman yəhəri yerə qoydu, üstünü çırpıb ayağa qalxdı. Gülümsəyərək Məmmədə göz vurdu:

– Gedək şorbamızı içək.

Şorba süddə bişmiş buğda yarması idi. Südün iyi buğda yarmasının iyinə qarışaraq xoş bir qoxu əmələ gətirirdi. Taxta qaşıqlarla şorbanı içdilər. Şorba Məmmədin çox xoşuna gəldi. Məmməd öz-özünə dedi: «Hə, onun oğlu olacağam».

Süleyman qayırıb qurtardığı yəhərin içərisinə quru ot basırdı. Ot qocanın uzun barmaqlarının arasından sürüşürdü.

Payız günəşi öz parıltısı ilə dünyanı bürümüşdü. Qurumuş otdan narın, qızılı toz qalxırdı. Süleyman otu qarışdırdıqca toz zərrələri ətrafa yayılırdı.

Süleyman:

– Abdi ağa səni çoxmu incidirdi? – deyə soruşdu.

Məmməd belə bir sualı gözləmirdi. Özünü toplayaraq:

– Məni ölüncə döyürdü, – dedi. – Həm süpürüm kolu basmış tarlada ayaqyalın cüt sürdürürdü. Özü də soyuqda. Həm də döyürdü. Bir dəfə məni o qədər döydü ki... Bir ay yataqdan qalxa bilmədim. O hamını döyür, ancaq məni lap çox döyür. Anam deyir ki, Sarı Xocanın duası olmasaymış, mən ölərmişəm...

Süleyman:

– Demək, daha burada qalacaqsan, eləmi? – deyə soruşdu.

– Mənim o kənddə nə işim var? Buradan oraya hələ bir on beş gün də yol getmək lazımdır. Oranın dənizi varmış, olsun da, mənə nə? Orada süpürüm kolu yoxmuş, elə burada da yoxdur. Mən burada qalaram. Məni burada heç kəs tapa bilməz, eləmi? Dəyirmanoluq kəndi buradan çox uzaqdır, eləmi?

Süleyman:

– Ay, dəlinin biri dəli, – dedi, – Dəyirmanoluq, budur bax, bu dağın dalında. Gəldiyin yolu bilmirsənmi?

Məmməd heyrət içində donub qaldı. Gözləri geniş açıldı. Sonra onu tər basdı. Təri su kimi axırdı. Bütün ümidləri puç olmuşdu. Nə isə demək istəyirdi, lakin sözü boğazında tıxanıb qaldı. Göydə qartallar süzürdü. Məmmədin gözləri onlara dikildi. Süleymana bir az da yaxınlaşdı:

– Bəlkə, o kəndə gedim, o adama oğul olum? Yoxsa Abdi ağa gəlib məni burada tapsa, öldürər.

Süleyman tənə ilə:

– Get o kəndə, – dedi, – get o adama oğul ol.

Məmməd:

– Mən sənin oğlun olsaydım, nə yaxşı olardı, – deyə yaltaqlandı. – Nə yaxşı olardı, amma...

– «Amma» nə?.. – deyə Süleyman soruşdu.

Məmməd dedi:

– Əgər gəlib məni tapsa... Allahdan qorxmaz... Məni tikə-tikə doğrar.

Süleyman:

– Əlimizdən nə gəlir? – deyə başını dəzgahdan qaldırdı. Məmmədin üzünə baxdı. Məmmədin üzü yarpaq kimi büzüşmüşdü. İri gözləri donuqlaşmış, sanki tamamilə nurunu itirmişdi.

Məmməd Süleymanın ona baxdığını duyan kimi bir az da ona yaxınlaşıb əlindən tutdu:

– Nə olar, əmi can, – deyə bütün arzusunu gözlərinin içinə toplayıb ona baxdı.

Süleyman:

– Qorxma, – dedi.

Məmməd acı-acı güldü; bu gülüşdə həm sevinc, həm də qorxu duyulurdu.

Süleyman işini qurtarıb ayağa qalxdı. Məmmədə:

– Bura bax, İncə Məmməd, – dedi, – mənim qarşıdakı evdə işim var. Oraya getməliyəm. Sən nə istəyirsən elə. Get kəndi gəz.

Məmməd ondan ayrılıb kəndin içinə getdi. Bu, iyirmi-iyirmi beş evdən ibarət bir kənd idi. Evlərin hamısı palçıq-

dan, biçimsiz şəkildə, adda-budda bir-birinin üstünə qoyulmuş daşdan tikilmişdi. Evlərin hündürlüyü yerdən bir metr idi...

Məmməd kəndi bu başdan-o başadək gəzdi. Uşaqlar peyinliyin üstündə oynayırdılar. Qadınlar evlərin dalda yerində əyləşib cəhrə əyirirdilər. Bir dənə də it gördü. İt quyruğunu iki qıçının arasına qısıb, divarın dibi ilə qorxa-qorxa gedirdi. Bu kəndin hər tərəfində qalaq-qalaq peyin tökülüb qalmışdı. Axşamadək bütün kəndi evbəev gəzdi. Heç kəs ondan soruşmadı ki, haradan gəlib, haraya gedirsən? Öz kəndlərində yad bir adam görən kimi bütün uşaqlar onu dövrəyə alardılar. Bu kənddə isə başqa cür idi... Bu da onun xoşuna gəlmədi.

Evə qayıdanda Süleymana rast gəldi.

Süleyman:

– Ay İncə Məmməd, – dedi, – indiyədək haradaydın? Nə var, nə yox?

– Sağlıq-salamatlıq, – deyə Məmməd cavab verdi.

Bundan sonra Məmməd bir neçə gün gedib kəndin içini gəzdi. Bir neçə oğlanla yoldaş oldu. Onlara qoşulub oynayırdı. Oyunda hamını udurdu. Amma Məmməd bu hünəri ilə öyünmürdü. Məmmədin yerinə başqa oğlan olsaydı, lovğalanardı. O isə bunu uşaq əyləncəsi hesab edərək çiyinlərini çəkirdi. Buna görə də Məmmədin oyunda uşaqlara üstün gəlməsinə onların acığı tutmurdu.

Toros dağlarında payız yağışları başlandı. Toroslarda yağış, payızda tökülən yarpaqlar kimi, iri-iri yağır.

Göy guruldayırdı. Kəndin yuxarısındakı dağdan düzənliyə tərəf iri daşlar yuvarlanırdı. Dağ meşəlikdi. İri ağacları vardı. Meşə çox sıx idi.

Bir gün Məmməd Süleymana dedi:

– Süleyman əmi, belə boş durmaqdan nə çıxar? Mən darıxıram. Havayı çörək yeyirəm.

Süleyman:

– Hələ gözlə, – dedi. – Niyə tələsirsən? Sənə də iş tapılar, ay İncə Məmməd!

Bir neçə gündən sonra yağış ara verdi. Günəş nəm daşların, qayaların, ağacların, torpağın üstünə düşərək parıldayırdı. Yerdən yavaş-yavaş buxar qalxırdı. Kəndin içindən buxarla qarışıq peyin iyi gəlirdi. Bəzən gümüşü buludlar günəşi örtürdü...

İncə Məmməd evin qapısındakı daşın üstündə oturub, Süleymanın xam göndən onun üçün tikdiyi çarığı geyirdi. Çarıq nəm idi. Çarığın üstündə göy tüklər vardı. Bu tüklərdən görünürdü ki, çarıq cöngə dərisindən tikilib.

İncə Məmməd çarıq üçün çox sevinirdi, az qalırdı uçsun.

Süleyman gəlib İncə Məmmədin yanında dayandı. Onun çarığı necə bağladığına baxmağa başladı. Görünürdü ki, Məmmədin əlləri çarıq bağlamağa alışıb. Çarığın qaytanlarını tez-tez keçirtdi, dal tərəfə gətirib düyünlədi.

Süleyman:

– Ay İncə Məmməd, – dedi, – sən ki çarıq bağlamaqda usta imişsən.

İncə Məmməd başını qaldırıb gülümsündü:

– Süleyman əmi, – dedi, – mən özüm də çarıq tikə bilərəm. Amma sən bunu çox yaxşı tikmisən.

İncə Məmməd ayağa qalxdı. Bir-iki dəfə ayaqlarını yerə bərk basdı. On-on beş addım getdi. Geri qayıtdı. Bir az da yeriyərək çarıqlarına baxdı. Çarıqlara valeh olmuşdu. Gəlib Süleymanın qarşısında durdu:

– Ayağıma yaxşı olur, – dedi.

Onlar yola düşdülər. İncə Məmmədin gözləri çarıqlarda idi. Bəzən tez-tez gedir, bəzən dayanıb çarıqlara diqqətlə baxırdı. Bəzən də əyilib əli ilə çarığın üstündəki tükləri tumarlayırdı.

Süleyman da Məmmədin bu sevincinə şərik olur, məmnun qalırdı.

– Görürəm çarıq xoşuna gəlir, eləmi, Məmməd? – deyə Süleyman soruşdu.

– Ayağıma yaxşı oldu. Belə çarıqdan xoşum gəlir.

Süleyman:

– Ay İncə Məmməd, o kəndə getsəydin, heç kəs sənə bu cür çarıq tikməzdi.

Məmməd yarısəmimi, yarıkinayə ilə:

– O kənddə ayaqqabı geymirlərmi? – deyə soruşdu.

Süleyman onun kinayə ilə və ya ciddi danışdığını kəsdirə bilmədi:

– Geyirlər, amma çarıq geymirlər.

Məmməd:

– Başa düşdüm, – dedi.

Onlar gedə-gedə kənddən çıxdılar. Birdən Məmməd fərəhləndi. Tarlalar ta o biri dağın dibinədək uzanırdı. Bu tarlalarda da işləyən yox idi. Bu tarlalarda süpürüm kolu bitməsə də, amma işləyən də yox idi. Tarlalarda çoxlu daşkəsək var idi.

Məmməd ayaq saxlayıb soruşdu:

– Hara gedirik belə, Süleyman əmi?

– Gəzməyə çıxmışıq, – deyə Süleyman cavab verdi.

Məmməd daha dinmədi. Yollarına davam etdilər.

Məmmədin təzə çarıqları palçığa batmışdı. Palçığa acığı tutan Məmməd öz-özünə donquldandı.

Kənd artıq uzaqda qaldı. Kənddə bir-iki bacadan çıxan tüstüdən başqa heç bir şey görünmürdü.

Süleyman:

– Mənə qulaq as, İncə Məmməd, – dedi. – Keçiləri gətirib bax buralarda otararsan. Bax, lap oralaradək gedə bilərsən. Ancaq o Xınalıtəpəni aşma. Təpənin dalı sizin kəndinizdir. Səni tutub apararlar.

Məmməd:

– Getmərəm, – dedi, – Yaxşı ki, dedin.

Süleyman:

– İndi gəl, geri qayıdaq, – dedi.

Onlar geri döndülər. Göydəki buludlar ağappaq idi. Xırman yerləri tünd-yaşıl dairə halında daşlı-kəsəkli tarlalara səpələnmişdi. Uzun otlara yapışmış tək-tək ilbizlər görünürdü.

Süleyman:

– Ay İncə Məmməd, – dedi, – o keçisaqqallı Abdi səni çoxmu incidirdi?

Məmməd dayandı. Süleyman da ayaq saxladı. Məmməd təzə çarıqlarına bir də baxdı.

Süleyman:

– Məmməd, gəl burda oturaq, – dedi.

– Oturaq, – deyə Məmməd razılıq verdi. Sonra da danışmağa başladı:

– Süleyman əmi, atam öləndən sonra Abdi ağa var-yoxumuzu tutub əlimizdən aldı. Anam bir söz deyəndə onu ölüncə döyür. Məni də qolumdan yapışıb yerə çırpır. Bir dəfə yayın ortasında məni ağaca sarıyıb getdi. İki gün ağaca sarılı qaldım. Sonra anam gəlib açdı. Anam olmasaydı, canavarlar orada məni parçalardı.

Süleyman ah çəkdi:

– Deməli, sənin başına belə işlər gəlib? – deyə ayağa qalxdı. Onun ardınca Məmməd də qalxdı.

Süleyman:

– Dediyim kimi elə, İncə Məmməd, – dedi. – O Xınalıtəpəni aşma. Birisi görər, keçisaqqallı Abdiyə xəbər verər, gəlib səni apararlar!

Məmməd:

– Əsla aşmaram, – dedi.

Ertəsi gün Məmməd çox erkən oyandı, yatağından qalxdı. Cəld həyətə çıxdı. Hava yavaş-yavaş işıqlanırdı. Məmməd Süleymanın yatağına yaxınlaşdı. Qoca xoruldayıb yatırdı. Məmməd Süleymanı tərpədib oyatdı.

Süleyman yuxulu-yuxulu:

– Nə var? Sənmisən, İncə Məmməd? – deyə yavaşcadan soruşdu.

Məmməd iftixarla:

– Mənəm, – deyə cavab verdi və sonra da əlavə etdi: – Gecdir. Mən keçiləri aparıram otarmağa.

Süleyman cəld yerindən qalxdı. Gözləri ilə arvadını axtardı. Arvadı çoxdan durmuşdu, həyətdə inək sağırdı. Süleyman onu səslədi:

– Tez ol, İncə Məmmədin yeməyini hazırla!

Qadın südlü əllərini iri bir qazanda yuyaraq öz-özünə dedi: «Yaxşı, qalanını da axşam sağaram».

Qadın cəld yemək hazırladı. Ocaqda qaynamaqda olan qazandan mis kasaya şorba töküb Məmmədin qabağına qoydu. Məmməd şorbanı bir anda içdi. Dağarcığını gözlə qaş arasında belinə bağladı, keçiləri qabağına qatdı, yağlı, köhnə şapkasını başından götürüb keçilərin üstünə vızıldatdı.

– Al-lo-o-oş, – deyə bərkdən çığırdı.

Süleyman onun dalınca:

– Qədəmin uğurlu olsun, – deyə səsləndi.

Keçilərlə birlikdə Məmməd gözdən itincəyədək Süleyman onun dalınca baxdı. Sonra öz-özünə:

– Eh-h! – dedi. – Eh, uşaqlıq...

Arvadı onun yanına gəlib:

– Yenə dərdə batdın, – dedi. – Nədir sənin dərdin?

Süleyman ah çəkərək:

– Bir gör, keçisaqqallı Abdi bu uşağın başına nələr gətirmiş! – dedi. – Uşağın halına adamın ürəyi yanır. Atasını tanıyırdım. Fağır, sakit bir adamdı. Bax bir bu uşağın halına! Təngə gəlmiş, baş götürüb dağlara, qurd-quşun arasına qaçmış!.. Belə də iş olar?!

Arvadı:

– Ay Süleyman, – dedi, – sən də hər şeyi özünə dərd eləyirsən. Keç içəri, şorbanı iç!

### III

Axşam oldu, cütçülərin hamısı tarladan qayıtdı. Ancaq İncə Məmməd gəlib çıxmadı. Gün batdı. İncə Məmməd gəlmədi. Qaranlıq qovuşdu. İncə Məmməd yenə də gəlmədi.

Qonşu evdən Zeynəb arvad Məmmədin anasını səslədi:

– Dönə! Ay Dönə! Məmməd gəlib çıxmadı?

Dönə inləyə-inləyə:

– Gəlmədi, bacı. Məmmədim hələ gəlib çıxmadı. İndi mən neyləyim? – deyə cavab verdi.

Zeynəb Dönəyə azı on dəfə dediyi sözləri yenə təkrar etdi:

– Get, – dedi, – Abdi ağadan soruş. Bəlkə, onlara getmişdir. Get soruş, bacı. Bu nə işdir sənin başına gəlir!.. Vay yazıq Dönə!..

Dönə dedi:

– Bu nə işdir mənim başıma gəlir!.. Nə işdir başıma gəlir!.. Məmmədim kəndə gəlsəydi, heç yerdə ləngimədən birbaşa evə gələrdi. Abdi ağanın evində bir dəqiqə də ləngiməz. Yenə də gedim, xəbər tutum. Bəlkə...

Göy üzündə ay yoxdu. Buludlu olduğu üçün ulduzlar da görünmürdü. Hər tərəf qaranlıq idi!.. Qatı qaranlıq. Dönə Abdi ağanın evinə tərəf yollandı. Əllərini irəli uzadıb, havada gəzdirə-gəzdirə gedirdi. Əl boyda bir pəncərədən azca işıq sızırdı. İşıq gələn yerə çatdı. Gup-gup döyünən ürəyi birdən durdu. Bir-iki dəfə udqundu. Əl-ayağı titrəyirdi. Dişlərini bir-birinin üstünə basdı. Haçandan-haçana zəif, lap zəif bir səslə çağırdı:

– Abdi ağam! Abdi ağam! Ayaqlarının altından öpdüyüm Abdi ağam! Məmmədim hələ də gəlib çıxmayıb. Gəldim xəbər alım, sizin evdə olmasın?

İçəridən qalın, gur bir səs eşidildi:

– Kimsən? Bu gecə vaxtı nə istəyirsən, arvad?..

Dönə təkrar etdi:

– Qurbanın olum, Abdi ağam! Məmmədim evə gəlməyib. Sizdə olmasın? Xəbər almağa gəlmişəm.

Yenə içəridən gur səs eşidildi:

– Allah bəlanı versin. Sənmisən, Dönə?

– Mənəm, ağam, – deyə Dönə cavab verdi.

Yenə də həmin səs:

– Gəl içəri, de görək nə istəyirsən?

Dönə sıxıla-sıxıla içəri girdi. Abdi ağa ocağın başında, taxtın üstündə bardaş qurub oturmuşdu. Başındakı məxmər şapkasının günlüyü sol qulağının üstünə əyilmişdi. O, yolda, qəsəbədə həmişə belə gəzərdi. Bununla möminliyini göstərmək istəyirdi. Üstü ipliklə çəkili nazik gödəkcə geymişdi. İri kəhrəba təsbehini şaqqıltı ilə çevirirdi.

Abdi ağa uzunsifətli, xırda, yaşıla çalan mavigözlü, çəhrayı yanaqlı bir kişi idi.

– Yenə nə istəyirsən? Söylə görək, – deyə Abdi ağa təkrar etdi.

Dönə sol əlini sağ əlinin içərisinə alaraq sinəsinə qoymuş, azca irəli əyilib dayanmışdı.

– Ağam, – dedi, – Məmmədim indiyədək çöldən qayıtmayıb. Gəldim xəbər alım, sizin evdə olmasın?

Abdi ağa:

– Necə? – deyib ayağa qalxdı. – Hələ gəlib çıxmayıb? Ay it oğlu it! Hələ gəlib çıxmayıb, hə? Bəs öküzlərim?..

Gödəkcəsini bir tərəfə ataraq iti addımlarla qapıya gəldi. Ağzını həyətə tərəf tutaraq çığırdı:

– Dursun, Osman, Əli, hardasınız?

Üç yerdən üç səs eşidildi:

– Buradayıq, ağa!

Abdi ağa:

– Tez olun, bura gəlin! – dedi.

Qaranlıqdan üç nəfər qaça-qaça içəri girdi. Bunlardan biri qırx yaşlarında Dursun kişi idi. Çox cüssəli bir adamdı. Onun yanındakılar isə on beş yaşlarında iki oğlan uşağı...

Abdi ağa:

–Elə indicə tarlaya gedin, – dedi, – axtarın o it oğlu iti. Öküzləri hökmən tapmalısınız. Tapmamış geri qayıtmayın. Anladınızmı?

– Biz də elə indi onun sözünü danışırdıq. Deyirdik ki, görəsən, bu Məmməd harada qaldı, niyə gəlib çıxmadı? Gedib axtararıq, – deyə Dursun cavab verdi.

Birdən Dönə ağlamağa başladı.

Abdi ağa nifrətlə:

– Kəs səsini, – dedi. – Kəs! Qoy bir görək, bu sənin it oğlu itinin əlindən nə eləyəcəyik? Əgər öküzlərə bir şey olmuşsa, onda bütün sümüklərini sınıq-sınıq eləyəcəyəm. Sümüklərini toza döndərəcəyəm.

Dursun, Əli, Osman həyətə çıxıb qaranlığa qərq oldular. Dönə də onların dalınca düşdü.

Dursun Dönəyə:

– Bacım, – dedi, – sən gəlmə. Biz onu tapsaq, gətirərik. Bəlkə, kotanın bir yerini sındırmışdır. Bəlkə, boyunduruğu sındırmışdır. Buna görə də qorxusundan gəlmir. Sən gəlmə. Biz tapıb gətirərik. Geri qayıt, bacım Dönə!

Dönə:

– Sizə qurban olum, – dedi, – balamı tapmamış qayıtmayın. Dursun əmisi, balamı sənə tapşırıram. Balamı tapmamış qayıtma. Balamı sənə tapşırıram. Balamı tapmamış qayıtma, Dursun əmisi, balam səni çox sevirdi.

Qadın evinə qayıtdı.

Üç nəfər qaranlıqda qeyb oldu. Qaranlıqda onların yalnız ayaqlarının uzaqlaşan səsi eşidilirdi. Onların alışqan ayaqları gediləsi yolu qaranlıqda asanlıqla tapırdı. Əvvəlcə daşlı-kəsəkli kiçik bir tarlaya gəlib çıxdılar. Onu keçəndən sonra sıldırım bir qayalığı aşdılar. Qayalığın dalında dincəlmək üçün oturdular. Üçü də yan-yana oturub bir-birinə qısıldı. Uzun zaman dinmədilər. Hər tərəfi məşum bir qaranlıq bürümüşdü. Böcəklərin cırıltısından başqa heç bir səs eşidilmirdi. Əvvəlcə Dursun dilləndi. Heç kəsə deyil, sanki gecəyə müraciətlə dedi:

– Görəsən, bu uşağın başına nə gəldi? Haraya getdi?

Osman:

– Kim bilir ki?.. – deyə cavab verdi.

Əli dedi:

– Məmmədin mənə nə dediyindən heç xəbəriniz varmı? Mənə deyirdi, o kəndə gedəcəyəm. Məni öldürsələr də, burada qalmaram, deyirdi.

Dursun dedi:

– Birdən Məmməd qaçmış olar ha! Olmaya belə bir dəlilik eləmişdir?

Əli:

– Qaçıbsa, yaxşı eləyib, – deyə dişlərinin arasından fitə oxşar bir səs çıxartdı.

Osman:

– Lap yaxşı eləyib, – deyə təsdiq etdi.

Əli:

– Bizim güzəranımız ölümdən betərdir, – deyə əlavə etdi.

Osman:

– Bir özümüzü Çuxurovaya sala bilsəydik, – dedi.

Dursun:

– Çuxurova yaxındadır, – dedi. – Orada Yürəgir kəndi var. Bizim kənddir. Çox işləmək lazım gəlir, amma özun öz ağansan. Heç kəs sənin işinə qarışmır. Tarlalara baxırsan, adama elə gəlir ki, qara torpağa ağ bulud çökmüşdür. Orada gözəl pambıq yetişir. Pambığı yığarsan. Okkası[1] on quruşdan[2]. Bir yayda Abdi ağanın verdiyindən, yəni bir ildə verdiyindən beş qat artıq qazanarsan. Orada bir şəhər var, Adana şəhəri. Şəhər xalis şüşədəndir. Gecə-gündüz par-par parıldayır. Eynən günəş kimi. Gəz şəhəri nə qədər kefin istəyir. Evlərin araları, – onlar buna küçə deyirlər, – şüşə kimi tərtəmizdir. Lap bal tök yala. Qatarlar gəlib-gedir. Dənizdə kənd böyüklükdə buxar gəmiləri üzür. Dünyanın o başına gedir. Gəmilər də günəş kimi alışıb yanır. İşığa qərq olmuşdur. Baxdıqca baxırsan, doymaq bilmirsən. Çuxurovada pul sel kimidir. Təki sən işlə.



---

[1] **Okka –** *ağırlıq ölçüsüdür; təqribən 1,3 kiloqrama bərabərdir – red.*

[2] **Quruş –** *türk lirəsinin yüzdə biri – red.*

Birdən Osman:
– Görəsən, dünya çoxmu böyükdür? – deyə soruşdu.
Dursun səsini uzada-uzada:
– Ço-o-ox, – deyə cavab verdi.
Onlar ayağa qalxanda Dursun hələ də öz kəndlərindən danışırdı.
Qayalığı keçəndən sonra süpürüm kollarının arası ilə getməli oldular. Süpürüm kolları onların baldırlarına ilişib incidirdi.
Osman:
– Məmmədin cüt sürdüyü tarla buralarda olacaq,– deyə uzaqdan səsləndi.
– Buraları mən tanımıram, siz tanıyırsınız, – deyə Dursun cavab verdi.
– Bax, buradır, – deyə Əlinin səsi sağdan eşidildi.
Dursun buna inanmayırmış kimi:
– Buramı? – deyə soruşdu.
Əli:
– Əlbəttə, buradadır, – dedi. – Bir havanı iylə, şumlanmış torpaq qoxusu gəlir.
Dursun ayaq saxladı. Dərindən nəfəs alıb havanı uddu.
– Elədir, – dedi.
İrəlidə gedən Osman səsləndi:
– Ayağım şumlanmış torpağa batır.
Əli:
– Mənimki də... – dedi.
Dursun:
– Gözləyin, – dedi. – Mən də gəlim.
Dayandılar, Dursun arxadan gəlib onlara yetişdi.
Dursun dedi:
– İndi gəlin onun cüt sürdüyü yeri tapmağa çalışaq. Nə deyirsiniz?
Osman:
– Bu, asan işdir, – dedi. – Taparıq.

Əli:

– Bura baxın, mən üşüdüm, – dedi.

– İndi, o yeri tapaq, sonra... – deyə Dursun onu sakit etdi.

Birdən Osman ucadan dedi:

– Açdığı şırımlar eləcə durur. Bu gün o, cüt sürməmişdir.

Əli də gedib şırımları ayağı ilə yoxladı. Sürülmüş tarlanın ətrafına bir neçə dəfə dolandı.

– Bu gün Məmməd cüt sürməmişdir, şırımlar necə vardısa, eləcə durur.

Dursun məhzun bir səslə:

– Olmaya başına bir iş gəlib? – deyə soruşdu. Onun səsində bir qədər də heyrət duyulurdu.

Osman:

– Ona heç bir şey olmaz. – dedi. – O, şeytanla qardaşdır. Ona heç bir şey olmaz.

Əli onun sözünə qüvvət verib:

– Dursun əmi, – dedi, – məgər sən onu tanımırsan? Ona bir şey olarmı?

Dursun:

– Allah eləsin, sən deyən olsun, – dedi, – Məmməd çox yaxşı oğlandır, yetimdir.

Onlar sürülmüş tarlanın ortasında oturdular. Osman çır-çırpı topladı. Əli ilə Dursun söhbətdə ikən, Osman tonqalı alışdırdı. Onlar keçib tonqalın yanında əyləşdilər. Cürbəcür ehtimallar irəli sürdülər. Oğlanın ürəyi keçə bilərdi. Quduz canavar gəlib onu qapa bilərdi. Bir quldur gəlib öküzləri əlindən ala bilərdi. Hər şey ola bilərdi. Onlar cürbəcür ehtimallar söylədilər. Amma qəti bir fikrə gələ bilmədilər. Hər şey ola bilərdi. Habelə ehtimalların heç biri doğru olmaya bilərdi.

Tonqalın alovu Dursunun üzünü işıqlandırırdı. Onun üzü qırmızı rəngə çalırdı. Dursunun üzündə məsud bir təbəssüm sezilirdi.

Tonqal yanıb qurtardı. Onun yerində pişik gözünə oxşar bir neçə göz işıldayırdı. Onların ürəyi sıxılırdı. Əli yanıqlı bir mahnı oxudu. Mahnı sakit gecədə ətrafa yayıldı:

*Qapıda oturub qurar araba,*
*Bu gün kədərliyəm, könlüm xaraba.*
*Səndən başqasına yarım deməərəm,*
*And içim eşqimçün gətir kitaba.*

Onları soyuq götürdü. Osman yenə də çır-çırpı toplayıb tonqal qaladı. Dursun ilə Əli də ayağa qalxıb çır-çırpı yığmağa getdilər. Tonqalın yanına bir böyük qalaq çır-çırpı yığdılar.

– Yaxşı, bəs indi biz neyləyək? – deyə Osman soruşdu.

Dursun dedi:

– İndi biz kəndə boş qayıtsaq, Abdi ağa qiyamət qoparar. Yaxşısı budur ki, gecəni burada qalaq. Səhər axtarıb taparıq.

Əli:

– Məmmədi daha tapa bilmərik, – dedi. – Məmməd «o kəndə» getmişdir. «O kənd» haradadır, bilmirəm, heç onun dilindən düşmürdü.

Dursun güldü.

Tonqala arabir çırpı atmaq üçün Əli növbətçi qaldı. O birilər büzüşüb yatdılar. Əli gözlərini tonqalın alovuna dikmişdi. Sonra başını qaldırdı. Gözlərini alovdan ayırdı. Qaranlığa baxmağa başladı. Öz-özünə dedi: «Məmməd getdi. Qoy getsin. Yaxşı elədi. O, şüşə şəhərə getdi. İlıq Yürəgir torpağına getdi. Qoy getsin. Yaxşı elədi. Qoy getsin».

Osman oyanan kimi Əli növbəni ona verdi. Başının altına bir kəsək qoyub uzandı və Osmana müraciətlə:

– Osman, – dedi, – Məmməd oraya getdi, deyilmi? Oraya getdi. Dursunun dediyi yerə.

– Hə, oraya getdi, – deyə Osman cavab verdi.

Hava işıqlaşanda üçü də oyandı. Dan yeri azca qızarmışdı. Buludların kənarları qızılı rəngə boyanmışdı. Az sonra qırmızı kənarlı buludlar ağarmağa başladı. Sonra yel əsdi. Bir qədər soyuq yel olsa da, adama xoş gəlirdi, Bu, sübh mehi idi. Az sonra onlar ətrafdakıları seçə bildilər. Sürülmüş tarlanın o tərəfində süpürüm kolları üfüqə qədər uzanıb gedirdi.

Tarlanın ortasında üçü də birdən ağır-ağır ayağa qalxdı. Onlar sübh günəşinin şüalarına qərq olmuşdular. Onların tünd kölgələri günbatana doğru uzanmışdı. Üçü də qollarını açaraq gərnəşdi. Onlar gərnəşə-gərnəşə Məmmədin cüt sürdüyü tarlanı gəzdilər.

Osman:

– Bir izə baxın, – dedi, – öküzlər kotanla getmişlər. Kotanı sürüyə-sürüyə getmişlər... Gəlin onların izi ilə gedək.

Onlar öküzlərin izi ilə getdilər. Bir yerdə xeyli dayanıb danışdılar. Burada yatmış bir cüt öküzün aydın izləri qalmışdı. Görünürdü ki, öküzlər boyunduruqla, kotanla yatmışdılar.

Doğan günəş ətrafı qızdırmağa başladı. Onlar süpürüm kolundan çıxdılar, kiçik çaya tərəf getdilər. Birdən Əli çığırdı. O birilər cəld Əliyə tərəf döndülər. Onlar dönən kimi öküzlərin boyunduruq və kotanla, tam qoşulu halda orada dayandığını gördülər.

Öküzlərdən biri boz, o biri qırmızı idi. Hər iki öküzün qabırğası qabırğasına keçmişdi.

Osman sapsarı saraldı:

– Bu uşağın başına bir iş gəlmişdir. Məmməd qaçsaydı, öküzləri bu cür qoşulu halda qoyub getməzdi. Onun başına bir iş gəlmişdir.

Əli:

– Onun başına heç bir iş gəlməmişdir, – dedi. – Bicliyindən öküzləri qoşulu qoyub getmişdir. O kəndə getmişdir.

Osman qızışdı:

– O kənd, o kənd... Siz də... O kənd nə olan şeydir axı? Dəli olmusan, nədir?

Dursun gülümsündü:

– Dava salmayın görüm.

Öküzləri qabaqlarına qatıb yola düşdülər.

Onlar kəndə girəndə səhərdən xeyli keçmişdi. Qarşıdakı dağdan duman yavaş-yavaş çəkilirdi.

Kənddə nə qədər çoluq-çocuq, qadın, cavan, ahıl vardısa, hamısı Dönənin başına toplaşmışdı. Muzdurların qabağında qoşulu öküzləri görən kimi hamı birdən ayağa qalxdı. Heç kəs dinmirdi. Gözlər öküzlərə zillənmişdi.

Dönə çığırıb öküzlərə tərəf yüyürdü.

– Balamı neylədin, Dursun əmisi? Balam səni çox istəyirdi.

Dursun:

– Öküzləri çayın yanında bu cür qoşulu halda tapdıq, – dedi.

Qadın özünə əl qatmışdı:

– Məmməd balam... Gün görməmiş yetim balam...

Dursun:

– Bacı, – dedi, – ona heç bir şey olmamışdır. Mən onu axtararam. Axtarıb taparam.

Dönə heç bir şey eşitmirdi. Həm ağlayır, həm də:

– Gün görməmiş yetim bala, – deyə hey təkrar edirdi.

Sonra Dönə çırpına-çırpına tozlu yolun ortasına yıxıldı. Kəsik-kəsik inləməyə başladı. Üz-gözü, saçları ağappaq toza bulaşmışdı. Axan göz yaşlarının islatdığı toz, palçıq kimi üzünə yayıldı.

Adamlar yerlərində donub qalmışdılar, gah öküzlərə, gah da Dönəyə baxırdılar. Camaatın içindən iki qadın üsulca ayrıldı. Onlar yıxılıb tozun içində qalan Dönənin yanına gəldilər, qollarından yapışıb onu qaldırdılar. Dönə yarıbihuş halda idi. Başı ölü başı kimi sağ çiyninə düşmüşdü. Qadınlar onun qoluna girib evinə apardılar.

Dönə gedəndən sonra camaat çaxnaşdı.

Hamıdan əvvəl Cənnət qarı dilləndi. Ona kənddə atsifət Cənnət deyərdilər. Uzun sifəti qırış-qırış idi. Boyu çox uzundu. Nazik barmaqları budağa oxşayırdı.

– Yazıq Dönə, – dedi, – görəsən, oğlunun başına nə gəldi?

Qısaboylu Əlif kişi sözə qarışdı. O, kənddə bəd danışması ilə məşhurdu.

– Məmməd ölməsəydi, gələrdi, – dedi.

Onun bu sözü camaat içərisinə yayıldı:

– Ölməsəydi, gələrdi.

– Ölməsəydi, gələrdi.

– Ölməsəydi, gələrdi.

– Bəlkə, onu atasının düşmənləri öldürmüşlər, – deyə Əlif əlavə etdi.

Cənnət qarı:

– Atasının düşməni yox idi. İbrahim heç qarışqanı da incitməmişdi, – deyə cavab verdi.

Başlarına ağ örpək, rəngbərəng şal örtmüş, köy fəs qoymuş, alınlarına mis pul düzmüş adamlar həyəcana gəldilər:

– İbrahim qarışqanı da incitməmişdi.

– İbrahim qarışqanı da...

– Qarışqanı da incitməmişdi.

Sonra ara qarışdı. Hər ağızdan bir söz çıxdı.

– Vay Məmməd!

– Vay yetim!

– Gözün kor olsun, dinsiz.

Sonra camaatın içərisindən kimin dediyi bəlli olmayan bir təklif ucaldı:

– Qoy Dönə gedib qartallar süzən yerlərə baxsın.

– Qartallar həmişə leş olan yerin üzərində süzər.

– Qartallar süzən yerə...

– Oraya...

– O, yəqin ki, çayın gözünə yıxılmışdır.

Bütün camaat bir anda bunu söyləyən qadına tərəf döndü. Bir an ətrafa sükut çökdü. Camaat bir anlığa yerində donub qaldı. Sonra yenə hamı ağız-ağıza verdi:

– Çayın gözünə yıxılmışdır.

– Çayın gözünə...

Camaat gündoğan tərəfə döndü. Əvvəlcə ayaqyalın uşaqlar getdilər. Onların ardınca ayaqyalın qadınlar... Süpürüm kolları arasına əvvəlcə uşaqlar girdilər. Onların ardınca da qadınlar... Kolların tikanları uşaqların baldırlarını cırıb al-qana boyadı. Uşaqlar buna fikir verməyib qaçırdılar. Qadınlar isə qabaqlarına çıxan süpürüm kollarına qarğış yağdırırdılar:

– Kökünüz qurusun...

Süpürüm kollarından çıxandan sonra qayalar göründü. Yorulmuş, qıçları qana bulaşmış uşaqlar dala qaldılar. Qadınlar irəli keçdilər.

Qadınlar çinar ağacına çatdıqları zaman yorulmuşdular. Qocaman çinar xışıldayırdı. Qadınlar suyun gurultusunu eşidən kimi yerlərində dayanıb qaldılar. Bir az nəfəslərini dərərək, çaya tərəf qaçmağa başladılar. Gəlib yetişən hər adam gözlərini suya zilləyib baxdı. Qadınlar yan-yana düzülüb çayın gözünü dövrəyə aldılar. Su qayanın dibindən köpüklənə-köpüklənə qaynayıb çıxırdı. Qayanın sol yanında böyük bir hovuz əmələ gəlmişdi. Köpüklənən suyun üstünə üç-dörd yarpaq düşmüşdü. Yarpaqlar axıb getmir, köpüklərin arasında hərlənirdi.

Qadınlar səs çıxarmadan uzun zaman suya baxdılar.

Cənnət qarı:

– Uşaq buraya düşsəydi, – dedi, – indiyədək heç olmasa bir kərə suyun üzünə çıxardı.

Camaat yenə hərəkətə gəldi. Adamlar dilləndilər:

– Heç olmasa bir kərə çıxardı.

– Orada qalmayacaq ki... Çıxardı.

– Çıxardı...

Camaat yorğun, üzgün, ümidsiz, qəmgin halda sallana-sallana geri qayıtdı. İndi uşaqlar dalda qalmışdılar, başları oyuna qarışaraq, oynaya-oynaya gəlirdilər. Camaat bir yerdə yerimirdi. Hər kəs ayrılıqda, başını sallayıb gedirdi.

Həmin gündən Dönə ağlaya-ağlaya yorğan-döşəyə düşdü. Qadın qızdırma içində yanırdı. Kəndin cavan qızları ona qulluq eləyirdilər. Bir neçə gündən sonra Dönə yataqdan qalxdı. Gözləri qan çanağına dönmüşdü. Alnına da ağ bez bağlamışdı.

Günlərin birində kəndə maraqlı bir xəbər yayıldı: «Dönə yemir, içmir, çayın gözünün yanında oturub gözlərini qırpmadan suya baxır, oğlunun ölüsünün üzə çıxmağını gözləyir».

Xəbər doğru idi. Dönə hər səhər, gün doğmamış yatağından qalxır, çayın gözünə gedir, gözlərini sudan ayırmadan hey baxırdı. On günə qədər belə davam etdi. Sonra Dönə taqətdən düşərək evinə qapanıb qaldı. İndi də beyninə başqa bir şey yeritmişdi: yenə hər gün sübhdən yatağından qalxır, dama çıxır, gözlərini uzaq göylərə dikir, orada nə isə axtarır. Harada qartalların hərlənib süzdüyünü görürsə, qaça-qaça oraya gedirdi. Dönə əriyib çöpə dönmüşdü. Bəzən qartallar çox uzaqlarda, məsələn, Yağmurtəpənin üzərində süzürdülər. Oraya bir günlük yoldu. Dönə oraya da gedirdi.

Bir gün axşamdan xeyli keçmiş Dönənin qapısı döyüldü. Bir səs:

– Dönə bacı, aç! Mənəm, Dursunam, – dedi.

Dönə ümid və qorxu ilə qapını açdı.

– Gəl, Dursun qardaş! Məmmədim səni çox istərdi, – dedi.

Dursun Dönənin saldığı döşəyin üstündə təmkinlə əyləşəndən sonra:

– Mənə bax, bacı, – dedi. – Ürəyim belə hökm edir ki, sənin oğlun ölməmişdir. Mənə belə gəlir ki, baş götürüb bir yerə getmişdir. Mən onu axtarıb taparam.

Dönə tez keçib Dursunun yanında oturdu:

– Dursun qardaş, – dedi, – bir de görüm, bir şeymi bilirsən?

– Yox, bacı, bir şey bilmirəm, ancaq ürəyim mənə belə hökm edir.

Dönə dedi:

– Sənin dilinə qurban olum, qardaş.

Dursun:

– Mən onu axtararam. Axtarıb taparam, – dedi. – Sənə ancaq bunu deyirəm ki, oğlun ölməmişdir. Məmməd ölməmişdir.

Dönə onu yola salarkən:

– Ümidim ancaq sənə qalmışdır, qardaş, – dedi.– Ah, bir oğlumun sağ olduğu xəbərini eşitsəydim... Dünyada başqa heç bir şey istəmirəm. Sən özün bilirsən, Dursun ağam. Dilinə qurban olum. Sən özün bilirsən.

**IV**

Yay gəlib çatdı. Əkinlər biçilirdi. İsti hər şeyi yaxıb-yandırırdı. Çuxurovanın istisinə sarı isti deyirlər. Toros ətəklərinin istisinə isə ağ isti deyirlər. Ağ istilər düşmüşdü.

İncə Məmməd Süleymanın evinə gələn gündən çoban deyil, evin oğlu sayılırdı. Süleyman İncə Məmmədi canı qədər istəyirdi. Neyləyəsən ki, əvvəllər nəşəsi aşıb-daşan bu çox diribaş oğlana son günlərdə nə isə olmuşdu. Heç dinib-danışmırdı. Fikirli görünürdü. Əvvəllər ara vermədən yanıqlı mahnılar oxuyardı. İndi daha mahnı da oxumurdu.

Keçilərini ən yaxşı otlağa, ağaclarının ən şirəli yarpaqları olan meşəyə aparırdı. Əvvəllər bir keçi az otlasaydı, əzgin görünsəydi, Məmməd bunu dərhal görər, buna bir çarə tapar, keçiyə qulluq edib onu yaxşılaşdırardı. İndi isə keçiləri otlağa ötürür, bir ağacın və ya bir qayanın kölgə-

sində oturub çənəsini çomağına dayayır, fikrə gedir. Arabir də davam gətirməyib öz-özünə deyir:

«Anacığım... yazıq anacığım! Görəsən, indi sənin əkinlərini kim biçir? Dinsiz Abdi ağa? Anacığım! Əkinlərimiz quruyub töküləcək. Əkinlərini indi kim biçir, anacığım? Mənsiz, təkbaşına neyləyəcəksən, anacığım?»

Məmməd ayağa qalxır, göyə, göydəki buludlara, torpağa, saralmaqda olan əkinlərə baxır: «Leyləyin gözündəki tarla indi, yəqin ki, qurumuşdur. Onu, görəsən, kim biçir? Anacığım!.. Əkinləri təkbaşına necə biçəcəksən?»

Gecələr də gözlərinə yuxu getmir. Hey yatağında qurdalanır. Fikri-zikri Leyləyin gözündəki tarlanın yanındadır: «Leyləyin gözündəki tarla tez quruyur. Gec biçilsə, bir sünbül də ələ gəlməz. Bir sünbül də».

Səhər olur, Məmməd ölgün bir halda yatağından qalxır, bədəninin hər tərəfi ağrıyır... Keçiləri qabağına qatır. Keçilərin hərəsi bir tərəfə gedir. Məmməd heç narahat olub fikir vermir. Süleymanın ağ, gülərüzü gözlərinin qabağına gəlir. Süleymanın məhəbbət dolu gözləri ona baxır... Məmməd özü-özündən utanır. Xəyaldan ayrılır. Keçiləri bir yerə toplayıb, yaxşı bir otlağa aparır... Bu, uzun çəkmir, yenə fikrə qərq olur. Yerə oturur. Torpaq od tutub yanır. Amma Məmməd bunu duymur. Öz-özünə deyir: «Leyləyin gözü... Anacığım». Bir də baxır ki, axşam olmuş, gün batmışdır... Qaçıb dağılışmış keçiləri bir yerə toplayır... Keçilərini uzaqda batan günəşin son şüalarından zirvəsi işıldayan Xınalıtəpəyə sürür. Keçiləri Xınalıtəpənin ətəyində qoyur, özü təpənin zirvəsinə qalxır. Uzaqlarda bir düzənlik görünür. Düzənliyin üzərinə axşam dumanı çökmüşdür. Duman yavaş-yavaş qalxır. Bu düzənlik süpürüm kolları bitən düzənlikdir. Xınalıtəpənin arxasında Dəyirmanoluğu görə bilmir. Ortaya sanki iri bir pərdə çəkilmişdir. Hər tərəf qalaq-qalaq boz torpaqdır. Otlar o qədər qurudur ki, elə bil indicə alışıb yanacaqdır. Məmməd nəyi isə xatırlayır, özünə acığı tutur. Süleyman ona nə demişdi? «Xınalıtəpəni

aşma!» demişdi. Xınalıtəpənin arxasında ins-cins yoxdur. Məmmədin buna daha betər acığı tutur. Qaça-qaça təpənin başından ətəyinə enir. Qaçıb dağılışmış keçiləri bir yerə toplayanadək xeyli vaxt keçir. Kəndə çox gec qayıdır. Süleyman ondan gec gəlməsinin səbəbini soruşanda o, yalandan: «Yaxşı bir otlaq tapmışdım, keçiləri oradan ayıra bilmirdim» deyir.

Bir gün yenə çox tezdən yatağından qalxdı. Keçilərin ağılına girdi. İsti və bürkü olduğundan ağıldan üfunət iyi gəlirdi. Keçiləri ağıldan çıxarıb qabağına qatdı. Bəzən şəfəq sökülməmişdən hələ xeyli əvvəl göyün gündoğanında səmanın bir tərəfi xına rənginə boyanır. Az sonra oradakı buludların kənarları qızılı rəngdə olur. Sonra şəfəq sökülür. Məmməd Gündoğan tərəfə baxdı. Bu gün məhz elə bir gün idi.

Məmmədi fərəh bürüdü. Ürəyində bir yüngüllük duydu. Birdən özünü quş kimi yüngül, sərbəst hiss etdi. Bu zaman səhər mehi də əsməyə başladı. Meh kiçicik dalğalar halında onun üzünü yalayıb keçirdi.

Məmməd ürəyi bərk-bərk döyündüyü halda, keçiləri Xınalıtəpəyə döndərdi. Keçilər havaya toz buludu qaldıraraq qaçırdılar. Məmməd də onların ardınca yüyürürdü. Təpənin lap dibinə çatanda Məmməd keçilərin ağzını döndərdi. Təlaş içində idi. Keçilər dağılışıb oraya-buraya getdilər. Məmməd yerə oturdu, çomağını çənəsinə dayadı. Xeyli düşündü. Sonra qəzəblə yerindən qalxdı, keçiləri toplayıb qova-qova təpənin başına qaldırmaq istədi. Sonra bu niyyətindən vaz keçdi. Yenə yerə oturub fikrə getdi. Bir müddət başını əlləri içinə alıb qaldı. Keçilərdən biri onun boynunu, əllərini yaladı. Məmməd buna fikir vermədi. Keçi ondan uzaqlaşdı. Ətrafı o qədər bol işıq bürümüşdü ki, elə bil hər şey – dağlar, daşlar, ağaclar, otlar əriyib işığa çevrilmişdi.

Məmməd əllərini üzündən çəkdi. Gözlərini açdı. Parlaq işıq gözlərini qamaşdırdı. Bir müddət işığa baxa bilmədi. Gözləri işığa alışan kimi, yorğun halda könülsüz-könülsüz

ayağa qalxdı. Çox çətinliklə keçiləri bir yerə topladı. Onları qova-qova təpənin başına qaldırdı. Bir anda keçilər təpənin o biri tərəfinə aşdılar. Məmməd üzünü cənuba çevirdi. Əllərini gözlərinin üstünə qoydu. Uzaqlara baxdı. Sanki gözlərinə qocaman çinarın üç budağı göründü. Ürəyi bərk döyündü. Təpənin arxasının şimal tərəfi düzənlik idi. Dəyirmanoluq kəndinin tarlaları ilə, yəni süpürüm kolları basmış düzənlik ilə bu düzənliyin arasında boz təpəlik uzanırdı. Məmməd keçiləri oraya qovdu. Onun qabağından iki balaca quş havaya qalxdı. Göyün üzündə də bir quş uçurdu. Düzənlikdə başqa bir ins-cins yox idi. Lap uzaqlarda yerdən bir ağ bulud qalxırdı. Birdən Məmmədin gözünə aşağıda, təpəliyin dibində kiçicik bir tarla sataşdı. Tarlanın ortasında qara bir ləkə əyilib qalxırdı. Yenə də Məmməd istəməyə-istəməyə, yorğun, əzgin halda, keçilərin ağzını o tərəfə döndərdi. Əkinin yanına gələndə biçinçini tanıdı. Bu, qoca Pancar Hösük idi. Pancar Hösük heç başını qaldırıb keçilərə, Məmmədə baxmırdı. Ara vermədən oraqla taxıl biçirdi. Məmməd də keçiləri başlı-başına buraxdı. Keçilər əkinin kənarına gəldilər. Hösük yenə də keçiləri görmədi. Keçilər hər tərəfdən əkinə soxuldular. Əkinin içərisinə bir xışıltı düşdü. Pancar Hösük keçiləri əkinin içində görəndə bərk hirsləndi. Əlindəki orağı qəzəblə keçilərə vızıldatdı. Özü də var gücü ilə bərkdən söyə-söyə keçilərə hücum etdi. Məmməd durduğu yerdən tərpənməyərək Pancar Hösüyə tamaşa edirdi. Pancar Hösük tövşüyə-tövşüyə keçiləri əkinin içindən qovub çıxaranda dayanıb ona tamaşa edən oğlanı gördü. Başa düşdü ki, bu oğlan keçilərin çobanıdır. Bundan daha çox hirsləndi. Qan beyninə vurdu. Keçilərdən əl çəkdi. Orağı atdığı yerdən götürdü. Söyə-söyə oğlana tərəf gəldi. Onun ağzından köpük tökülürdü:

– Ey, köpək oğlu köpək... Keçilər əkini kor qoydular. Sən hələ burada dayanıb tamaşa eləyirsən. Qoy bir gəlib özümü sənə yetirim... Köpək oğlu köpək...

Oğlan yerindən tərpənmirdi. Halbuki qoca oğlanın qaçacağını və özünün arxadan ona yetişə bilməyəcəyini güman edərək, ona atmaq üçün əlinə daş yığırdı. Qoca oğlanın indicə qaçacağını güman edərək ona yaxınlaşırdı... Oğlan qaçmadı. Hösük qəzəblə onun qolundan yapışdı. Orağın dal tərəfini onun başına endirmək istərkən, birdən əl saxladı. Oğlanın qolu qocanın əlindən düşdü:

– Məmm-ə-əd! Balam, sənsən? – dedi. – Hamı səni ölmüş bilir.

Qoca bərk tövşüyürdü. Yerə oturdu. Qızarmış boynundan, üzündən tər su kimi axırdı. Bu zaman keçilər yenə də əkinə soxuldular.

Pancar Hösük:

– Get, – dedi, – keçiləri əkindən çıxart, sonra bura gəl.

Yalnız bundan sonra heykəl kimi yerində donub qalmış Məmməd qımıldandı. Qaça-qaça əkinə tərəf getdi. Əkinin içərisinə girmiş keçiləri oradan çıxartdı, qova-qova tarladan uzaqlaşdırdı. Sonra gəlib Pancar Hösüyün yanında əyləşdi.

Hösük:

– Məmməd, oğlum, – dedi, – camaat səni axtara-axtara əldən düşdü. Elə güman edirlər ki, sən çaya düşüb boğulmusan. Anan sənin dərdindən az qala ölmüşdü. Heç anana yazığın gəlmədimi?

Məmməd belini bükərək, çənəsini çomağına dayamışdı. Dinmirdi.

– Bu keçilər kimindir? – deyə Hösük soruşdu.

Məmməd heç halını dəyişdirmədi.

Hösük:

– Səninlənəm, Məmməd, – dedi, – bu keçilər kimindir?

Məmməd sözlər ağzından tökülə-tökülə:

– Kəsmə kəndindən Süleymanın, – deyə cavab verdi.

Hösük:

– Süleyman yaxşı adamdır, – dedi. Sonra da əlavə etdi:
– Ey dəli, evdən gedirsən, heç olmasa, anana de. Abdi əcla-

fın əlindən cana gəlmisən. Anana xəbər ver, ondan sonra haraya qaçırsan qaç!

Məmməd Abdi kəlməsini eşidən kimi Hösüyün əllərindən tutdu:

– Hösük əmi, – dedi, – nə olar, səndən çox xahiş edirəm, mənim Süleyman əmiyə çoban olduğumu heç kəsə demə. Abdi ağa xəbər tutsa, məni apartdırar, döyə-döyə öldürər.

Hösük:

– Heç kəs sənə bir şey edə bilməz, – dedi. – Dəlinin biri dəli, adam anasına xəbər verməzmi? Yazıq sənin dərdindən az qala ölmüşdü...

Hösük birdən sözünü yarımçıq qoydu. Ayağa qalxdı, Məmmədə baxmadan tarlaya getdi. Biçməyə başladı. Tez-tez biçirdi. Məmməd orağın xışıltısını eşidirdi.

Hösük bir dəfə belə başını qaldırmadan biçirdi. Bəzən beli ağrıyanda dikəlir, əllərini belinə qoyub uzaqlara baxır, sonra yenə biçməyə başlayırdı. Məmmədi çoxdan unutmuşdu. Məmməd də tarlanın kənarında dimdik dayanıb, qımıldanmadan ona baxırdı. Gün əyilməyə başladı. Kölgələr uzandı. Məmməd dönüb günə baxdı. Gün qızarırdı. Düzənlikdəki otların bəziləri işıldayırdı, bəziləri tutqunlaşmışdı. Otlar dəniz kimi dalğalanırdı. Məmməd ayaqlarını sürüyə-sürüyə Hösüyün yanına gəldi. Qoca eyni cəldliklə taxıl biçməkdə idi. Oğlan gəlib onun qabağında dayandı. Ürəyi döyü- nürdü. Hösük ona yaxınlaşan Məmmədin ayaq səslərini eşidib dikəldi. Qoca axşam vaxtı tərdən qapqara görünürdü. Onlar göz-gözə durdular. Hösük yorğun-yorğun Məmmədin lap gözünün içinə baxdı. Sanki oğlanın lap qəlbinin içərisinə baxmaq istəyirdi. Məmməd gözlərini aşağı dikdi. Yerə baxa-baxa Hösüyə tərəf iki addım atdı. Qocanın əllərindən tutdu:

– Hösük əmi, – dedi, – Allahı, peyğəmbəri sevirsənsə, məni gördüyünü nə anama, nə də başqa birisinə demə.

Sonra cəld qocanın əllərini buraxdı və arxasına baxmadan üz qoydu qaçmağa. Məmməd gəlib Xınalıtəpəyə ça-

tanda gün batmışdı. O, tər içində idi. Nədənsə bir an sevinir, sonra qəlbini qüssə bürüyürdü. Xınalıtəpənin zirvəsinə qalxdı. Oradan gözlərini təpənin dibindəki kiçik tarlaya zillədi. Tarlanın ortasında kiçicik bir qaraltı tərpəşirdi.

Hösük kəndə girəndə rast gəldiyi adamların qarşısında dayanıb gülümsəyirdi. Qoca bu təbəssümü ilə mühüm bir sirr bildiyini, ancaq bu sirri heç kəsə açmayacağını sanki bildirmək istəyirdi. Amma heç kəs Hösüyün bu halından bir məna çıxarda bilmədi. O, birbaşa Dönənin evinə getdi. Dönə evinin qapısında Pancar Hösüyün ona baxaraq gülümsədiyini görəndə bilmədi ki, buna nə məna versin. Pancar çox nadir hallarda gülərdi, özü də nə Dönənin, nə də başqa bir adamın evinə getməzdi. Tarladan evinə gedərdi, evindən də tarlaya. Gələn adam bir başqası olsaydı, Dönə buna heç bir məna verməzdi. Qoca boş vaxtlarında evinin qabağında bir həsir salıb oturar, heç kəslə danışmaz ağacdan gözəl naxışlı qaşıqlar, iylər, şam ağacından stəkanlar, təsbehlər düzəldərdi. İndi bu adam Dönənin evinin qabağında dayanıb ara vermədən gülürdü. Gözlərini Dönədən ayırmadan gülür, amma yenə də dinmirdi. Onun bu hərəkəti qarşısında Dönə də nə deyəcəyini bilmirdi. Bir müddət çaşqın-çaşqın Hösüyün dövrəsinə dolandıqdan sonra:

– Xoş gəlmisən, Hösük ağa, buyur otur, – deyə bildi. Hösük özünü Dönənin bu sözünü eşitməyibmiş kimi göstərərək, elə gülürdü.

Dönə yenidən təkrar etdi:

– Hösük ağa, buyurub otursana...

Hösüyün gülməyi kəsildi. Ağır-ağır:

– Dönə! Dönə! – dedi.

Dönə diqqətlə qulaq asmağa başladı.

Hösük:

– Dönə, muştuluğumu ver, – dedi.

Dönə gülümsündü. Sonra təlaşa düşdü. Titrəyə-titrəyə:

– Sənin muştuluğun mənim gözüm üstə, Hösük ağa, – dedi.

Hösük:

– Dönə, bu gün sənin oğlunu gördüm, – dedi.

Dönə heç bir şey deyə bilmədi. Elə idi ki, barmağını kəssəydin, bir damcı qanı çıxmazdı. Donub qalmışdı.

Hösük sözünə davam edərək:

– Oğlun bu gün yanıma gəlmişdi. Böyümüş, kökəlmişdir, – dedi.

Dönə:

– Dilinə qurban olum, Hösük ağa, – deyə inlədi. – Sənin muştuluğun gözüm üstə.

Bir qədər durub: – Düzmü deyirsən, Hösük ağa? Düzmü deyirsən? – deyə təkrar etdi. – Muştuluğun gözüm üstə. Dilinə, sənin gözəl dilinə qurban olum, Hösük ağa.

Hösük oturdu. Olub-keçəni bir-bir Dönəyə danışdı. Dönə bir yerdə qərar tutmur, evin bir başından o biri başına gedib gəlirdi.

Pancar Hösüyün gətirdiyi xəbər bir az sonra bütün kəndə yayıldı. Bütün kənd, qadınlar, kişilər, qocalar, uşaqlar Dönənin evinin qabağına yığıldılar. Ay işığı kəndin torpaq damlarına, Dönənin evinin qabağında qaynaşan camaatın üzünə düşmüşdü.

Camaatın içərisindən hay-küy, çığır-bağır gəlirdi. Birdən hay-küy kəsildi. Camaat sükuta qərq oldu. Hamı üzünü cənub tərəfə çevirdi. Uzaqdan bir atlı gəlirdi. Onun yəhərindəki metal şeylər ay işığında parıldayırdı. Atlı yaxınlaşdı. Camaatı yardı, gəlib ortada durdu.

– Dönə! Dönə! – deyə çağırdı.

Camaatın içərisindən zəif bir qadın səsi:

– Buyur, Abdi ağa, – deyə cavab verdi.

– Eşitdiyim doğrudurmu, Dönə?

Dönə gəlib atın başının yanında dayandı.

– Pancar Hösük görmüşdür. Gəlib mənə danışdı.

– Hanı o Pancar? – deyə Abdi ağa bağırdı. – Qoy yaxına gəlsin.

Ara qarışdı:

– Yoxdur, Hösük burada yoxdur.

– Hösük heç gəlib camaatın içinə qarışarmı?

– Qiyamət qopsa da, evindən çıxmaz.

– Gedin, Hösüyü bura gətirin, – deyə Abdi ağa əmr verdi.

Hösük gələnədək camaatın içərisindən yenə heç bir səs çıxmadı. Ətrafa sükut çökmüşdü.

Bir azdan Hösüyü ağ tuman-köynəkdə gətirdilər.

İki kişi onun qollarından bərk-bərk yapışmışdı, o isə çırpınırdı:

– Bu gecə vaxtı məndən nə istəyirsiniz? Fikriniz nədir? Allah sizin bəlanızı versin, dəyyuslar!

Abdi ağa:

– Səni mən çağırtdırmışam, Hösük, – dedi.

Hösük tutuldu. Yumşaldı:

– Ey, namussuzlar, bəs nə üçün demədiniz ki, Ağa çağırır?

Üzünü Abdi ağaya çevirib:

– Təqsirimdən keç, ağam, – dedi.

– Hösük, sən Dönənin oğlunu görmüsən, eləmi? – deyə Abdi ağa soruşdu.

– Mən Dönəyə danışmışam, – deyə Hösük cavab verdi.

Abdi ağa dedi:

– Mənə də danış.

Hösük danışmağa başlayanda, camaat onu hər tərəfdən dövrəyə aldı. Hösük Məmmədi necə gördüyünü, orağı onun başına necə vurmaq istədiyini danışdı. Heç bir şeyi unutmadan, bütün əhvalatı bir-bir nağıl etdi. Abdi ağa bərk hirsləndi, qəzəbləndi:

–Ax, Süleyman, ax! – dedi. – Sən, deməli, mənim qapımdakı adamları aparıb özünə çoban edirsən! Yox, sən həddini aşmısan, Süleyman! Deməli, Kəsmə kəndindən Süleyman, eləmi?

– Elədir, – deyə Hösük cavab verdi.

Abdi ağa Dönəni səslədi:

– Mən sabah gedib onu gətirərəm.

Abdi ağa atını sürüb getdi. Camaat onun ardınca donquldandı.

* * *

Abdi ağa çapa-çapa gələrək, Süleymanın qapısının qabağında atının başını çəkdi:

– Süleyman! Süleyman!

Süleyman içəridəydi. Bayıra çıxdı. Abdi ağanı görüncə, üzü kül kimi oldu. Abdi ağa atın üstündən Süleymana tərəf əyildi:

– Süleyman, – dedi,– sən heç utanmadın? Qapımın adamını gətirib öz yanında saxlamaqdan utanmadın? Heç həya etmədin? Heç bu olan işdirmi ki, Abdinin qapısından adamı götürüb gələsən? İndiyədək heç belə şey olubmu? Sən məgər bunu bilmirsən? Sənə yazığım gəlir, Süleyman! Yoxsa bu ağsaqqalına baxmayıb...

Süleyman:

– Hələ bir atdan en, ağam! – dedi. – Atdan en, içəri buyur. Sənə hər şeyi bir-bir danışım, ağa.

Abdi ağa:

– Sənin evinə getmərəm, – dedi. – Oğlan haradadır? Yerini de!

Süleyman:

– Sənə zəhmət olar, ağa, – dedi. – Mən indicə gedib onu gətirərəm.

Abdi ağa:

– Zəhməti-zadı yoxdur, – dedi. – Oğlanın yerini mənə göstər.

Süleyman boynunu bükdü:

– Yaxşı, ağa, gedək, – deyib, atın qabağına düşdü.

Keçilərin yanına gəlib çatanadək nə o danışdı, nə də o birisi. Onlar gələndə Məmməd bir daşın dibində oturub

fikrə getmişdi. Onları görüncə ayağa qalxıb, yanlarına getdi. Abdi ağanın gəlməsinə heç təəccüb etmədi. Süleymanla Məmməd bir-birinə baxdılar... Süleyman başını aşağı saldı. Sanki bununla «Əlimdən nə gəlir?» – demək istəyirdi.

Abdi ağa atını bir-iki addım Məmmədə tərəf sürdü.

– Düş qabağıma, – dedi.

Məmməd heç bir söz demədən atın qabağına düşüb getdi. O, boynunu çiyinlərinin arasına çəkmişdi.

Günortaya yaxın onlar kəndə girdilər: Məmməd qabaqda, Abdi ağa arxada. Yolda nə Abdi ağa bir şey soruşdu, nə də Məmməd bir şey söylədi. Məmməd yalnız Abdi ağanın atı onun üstünə sürüb əzəcəyindən qorxurdu. Ağanın xasiyyətinə bələd idi.

Dönənin qapısına çatıb dayandılar.

Abdi ağa Dönəni hayladı:

– Dönə! Dönə! Gəl küçüyünü apar!

Dönə bayıra çıxarkən, o, atının başını çevirdi. Dönə çığırıb oğlunu qucaqladı. Kəndlilər Məmmədin gəldiyindən xəbər tutmuşdular. Yavaş-yavaş adamlar axışıb gəlirdilər. Camaat Məmmədi dövrəyə almışdı. Hər gələn soruşurdu:

– Haradaydın, Məmməd?

– Bu nə haldır, Məmməd?

– Məmməd?

Məmməd başını aşağı dikib dinmirdi. Camaat getdikcə çoxalırdı.

## V

Məmməd xırmanın dövrəsində qalan son dərzləri də açıb xırmanın ortasına atdı. Xırman düzəldilərkən yağış yağmış, dərzləri bir-birinə yapışdırmışdı. Dərzlərdən kömür tozu kimi qapqara toz qalxırdı. Səhərdən bəri durmadan dərzləri açan Məmməd tanınmaz bir görkəm almışdı. Qapqara olmuşdu, yalnız dişləri işıldayırdı. O, dərzləri açıb qurtardı. Sünbüllər o qədər qabarmışdı ki, hər

tərəfi örtmüşdü. Xırman açıq-yaşıl rəngli islaq bir dairə şəkli almışdı.

Məmməd yorğun halda gedib günün altında arxası üstə uzandı. Kövşənlikdə qarışqalar şərid kimi uzanıb lap uzaqlara gedirdilər. Məmməd əlləri ilə gözlərini örtüb bir müddət ağır-ağır nəfəs aldı.

Məmməd neçə gün idi ki, işləyirdi. Əvvəlcə təkbaşına əkini biçmişdi. Leyləyin gözündəki əkinin içərisi dəvətikanı ilə dolu idi. Sonra xırmanı düzəltmək üçün anası ilə birlikdə palçıq hazırlamışdı. İndi də neçə gündür ki, vəl sürür. Odur ki, bir dəri, bir sümük qalmışdı... Üzü qırış-qırış olmuşdu. Dərisi sallanmış, qapqara olmuşdu... Gözləri xeyli çuxura düşmüş, ordu-orduna keçmişdi...

Bir qədər o tərəfdə at yerə sərilib ağnayırdı. At o qədər zəif idi ki, az qalırdı yıxılsın... Qabırğaları çıxmışdı... Çox qoca idi. On beş yaşı olardı. Gözlərinə çoxlu milçək qonmuşdu. Belinin lap ortasında sağalmayan bir yara vardı. Yara irinləmişdi. İrin qana qarışmışdı. Sünbüllərdən qalxan toz da yaraya yapışmışdı. Yaraya iri qara milçəklərin biri qonur, o biri uçurdu.



Gün xeyli qalxmışdı. Məmməd böyrü üstə çevrildi. Tamam tər içində idi. Əlini üzünə çəkdi. Ovcuna dolan qapqara təri yerə atdı.

Günəşin bol-bol işıq saçdığı kövşənlik, düzənlik gözləri qamaşdırırdı. Məmməd bərk yorğundu. Uzandığı yerdən bir-iki dəfə ata baxdı.

Atın yanında dörd-beş leylək gəzirdi. Məmməd leyləklərə tamaşa eləməyə başladı. Əli ilə də qarışqaların yolunu kəsdi. Qarışqalar onun əlinin üstündən keçdilər.

Məmməd bütün gücünü toplayaraq, uzandığı yerdən qalxıb oturdu. Başını sağ dizinin üstünə qoyub, yenə də xəyala daldı. Sonra bir qədər özünə gəldi. Əllərini yerə dayayıb yavaş-yavaş ayağa qalxdı. Üzündə, boynunda qarışqaların gəzişdiyini hiss etdi. Onları tutub yerə atdı. Toza bulaşmış at bir böyürtkən kolunun yanında dur-

muşdu, qabaq ayaqlarından birini yalayırdı. Getdi, atı tutub çəkdi.

Dəvətikanı iri, mavi çiçək açmışdı. Əsən xəfif yel onu əyirdi.

Məmməd atı gətirib çox çətinliklə vələ qoşdu. At qabarmış sünbüllərin üstü ilə yeriyə bilmirdi. Məmməd vəldən düşdü, atla bərabər sünbüllərin üstü ilə yeriməyə çalışdı. At tez-tez büdrəyərək sünbüllərin üstünə yıxılırdı. Məmmədin ata bərk yazığı gəldi. Nə edəcəyini bilmirdi. At tərləmiş, qapqara olmuşdu. Elə ağır-ağır nəfəs alırdı ki, döşü və qabırğaları qalxıb enirdi. Atın bütün döşü, beli və sarğısı köpüklə örtülmüşdü. Məmməd də tər içində idi. Hər yerindən tər axırdı. Tər gözlərinə dolur, göynədirdi. Kiflənmiş taxılın nəm qoxusu onu boğurdu. At yıxıla-yıxıla bir müddət xırmanı dolandıqdan sonra sünbüllər yatdı. İndi vəl bir az rahat sürülürdü. Vəlin altında sünbüllər xışıltı ilə döyülürdü.

Günortaya yaxın sünbüllər yaxşıca döyüldü. Sünbüllər işıldayırdı. Onların qarası getmişdi. İndi vəlin arxasından narın, qızılı toz qalxaraq Məmmədin burnunu göynədirdi. Tozdan yanıq qoxusu gəlirdi.

Uzaqda bir kişi dərzləri tayaya vururdu. Ondan aralıda isə bir-iki kişinin vəl sürdüyü görünürdü. Geniş düzənlikdə onlardan başqa daha heç kəs yox idi. Kövşənlikdə sünbüllərin saplağı uzun-uzun qalmışdı... Taxılbiçən maşın əkini dibdən biçir. Yerdə bir qarış, bəzən daha qısa kövşən qalır. Əl ilə biçəndə isə yalnız sünbüllər kəsilir. Torpaqda uzun kövşən qalır. Kövşənlikdən sonra yenə süpürüm kolları başlanırdı.

Məmmədin dili-dodağı qurumuşdu. İstidən at da başını sallayıb ölgün-ölgün yeriyirdi. Məmməd vəlin üstündə əyləşib fikirləşir. Heç bir tərəfə baxmır. Leyləklər lap xırmanın yanına gəliblər. Məmməd sanki yuxuya gedib. At bəzən başını uzadıb ağzı ilə sünbüllərdən qırıb tənbəltənbəl gəvələyir. Sünbüllər ağzından tökülür. Məmməd

heç bir şeyə fikir vermir. Gün başına vurur. Birdən ayağa qalxıb kndə tərəf xeyli baxdı. O tərəfdə heç kəs görünmürdü. Dişlərini bir-birinin üstünə basaraq:

– Bu anam da... – dedi.

Anası ona yemək və su gətirməli idi. Məmməd udqundu. Ağzı qupquru qurumuşdu. Yenə üsulluca vəlin üstündə büzüşüb oturdu. At dayandı. Başını sünbüllərin arasına soxdu. Məmməd bunu heç duymadı, haçandan-haçana özünə gəlib, işi belə görüncə atın cilovunu çəkdi:

– Hə! Tərpən, əzizim, tərpən! – dedi.

Milçəklər çoxalmışdı. At quyruğunu qaldırmadan yavaş-yavaş yellədirdi. Milçəklər əhəmiyyət vermirdilər.

Məmməd acıqlı-acıqlı yenə ayağa qalxdı, üzünü kəndə tərəf çevirdi. Dəvətikanının arxasından bir baş görünürdü. Az sonra gələnin anası olduğunu gördü. Acığı soyudu, sevindi.

Yaxınlaşan anası qan-tər içində idi, bağlama tutan əli sallanmışdı, az qalırdı yerə dəysin.

Anası:

– İşlərin necədir, balam? – dedi. – Qurtardınmı?

– Dərzlərin hamısını açıb xırmana töküb qurtardım, – deyə Məmməd cavab verdi.

– Qalın olmadımı? – deyə anası xəbər aldı.

– Oldu, amma yatar, – deyə Məmməd cavab verdi.

Məmməd cəld anasının əlindən dəstini alıb ağzına dayadı, doyunca içdi. Dəstidən axan su çənəsindən sızaraq sinəsini, qıçlarını islatdı.

Anası:

– Düş, oğlum, – dedi. – Düş, bir az da mən sürüm. Sən çörəyini ye!

Məmməd atın cilovunu anasına verdi. Böyürtkən kolunun kölgəsinə getdi. Bağlamanı açdı.. Bağlamada soğan vardı, duz da vardı. Ayran torbasından su sızırdı. Ayran torbasına xırda mızlar doluşmuşdu. Məmməd bir kasaya ayran tökdü.

Məmməd yeməyini bitirdikdən sonra kolun kölgəsində uzandı. Yalnız beldən aşağısı gündə qalırdı. Yuxuya getdi.

Oyandığı zaman günortadan xeyli keçmişdi. Gözlərini ovuşduraraq yerindən qalxdı, xırmana qaçdı:

– Ana, – dedi, – yəqin ki, yorulmusan? Çox yorulmusan.

Anası:

– Gəl, vələ min, oğlum, – deyə məhzun bir halda boynunu bükdü.

İki gündən sonra xırman sovruldu. Üçüncü gün döyülməmiş sünbülləri yığdılar. Dördüncü gün bütün məhsulu xırmanın ortasına topladılar. Qırmızı buğda dənələri xırmanda parıldayırdı. O gün buğdanı çuvallara doldurub evə apara bilmədilər. Məhsul xırmanın ortasında qaldı. Səbəbi də Abdi ağanın gəlib öz payını aparmaması idi. O gecə Məmmədlə anası milçəklərlə əlləşə-əlləşə məhsulun keşiyini çəkdilər. Gün xeyli qalxdı. Abdi ağa gəlmədi. Günorta oldu, yenə bir xəbər-ətər olmadı. Axşama yaxın Abdi ağa çarvadar atlarına minmiş üç muzdurla gəlib çıxdı. Onun qaşqabaqlı üzündən dəhşət yağırdı. Dönə onun üzünü görəndə qorxdu. İllərdən bəri idi ki, Dönə onu çox yaxşı tanıyırdı. Dönənin qaralmış, qırışıq üzü daha da qırışdı.

Abdi ağa işarə ilə Dönəni yanına çağırdı. Muzdurlara isə belə əmr etdi:

– Dörddə üçü bizim, biri də Dönənin.

Dönə ağanın atının üzəngisindən yapışdı:

– Belə eləmə, ağam! Bu qış acından ölərik. Belə eləmə. Sən gəl, belə eləmə. Ayaqlarını öpüm, ağam!

Abdi ağa:

– Heç sızıldama, Dönə, – dedi. – Haqqını verirəm.

Dönə içini çəkə-çəkə:

– Mənim haqqım üçdə birdir, – dedi.

Ağa atın üstündən Dönəyə tərəf əyildi. Onun gözlərinin içinə baxaraq soruşdu:

– Cütü kim sürdü, Dönə?

– Mən sürdüm, ağam, – deyə Dönə cavab verdi.

– Bizim muzdurlar sənə kömək etdilərmi?

– Etdilər, ağam!

– Dönə?

– Buyur, ağam!

– Bir daha oğluna tapşır ki, gedib Süleyman kimilərə çoban olmasın.

Dönə sapsarı saraldı. Ağa atını sürüb getdi. Dönə onun arxasınca yalnız bunu deyə bildi:

– Qulun olum, qurbanın olum, ağa, belə eləmə!

Muzdurlar buğdanı bölməyə başladılar. Üç qab ağa üçün tökürdülər, bir qab Dönə üçün. Ağanın payı getdikcə artırdı. Dönəninki isə lap az idi.

Dönə bölünən paylara baxa-baxa ağaya qarğış eləyirdi:

– Sağ-salamat yeməyəsən, keçisaqqal! Səni görüm, bunun pulunu həkimə verəsən, cərraha verəsən! Qızılyel xəstəliyinə tutulasan!

Muzdurlar ağanın payını üç ata yüklədilər. Onlardan heç biri ağzını açıb Dönəyə bir söz demədi. Onlar torpaq kimi, daş kimi donub qalmışdılar. Məmməd gəlib anasının yanında oturdu. Tozlu xırmanın ortasında kiçicik bir buğda qalağı qalmışdı. Bir az əvvəl bu qalaq nə qədər böyük idi! Məmməd gah buğda qalağına, gah da anasına baxırdı. O, günahkarcasına donquldanırdı.

Anası dedi:

– Səni Süleymanın yanından gətirəndə nə üçün döymədiyini indi başa düşdüm. Anladım. Ruzimizi kəsmək üçün səni döyməyib. İmansızın biri, imansız!

Məmməd özünü saxlaya bilmədi. Hıçqırıb ağlamağa başladı:

– Mənim üstümdə... – dedi.

Ana oğlunu qucaqlayıb bağrına basdı.

– Nə edək? – dedi. – Əlimizdən nə gəlir?

Məmməd dedi:

– Bəs bu qışı nə edəcəyik?

– Bu qışı?.. – deyə anası təkrar etdi.

Sonra ana da ağlamağa başladı.

– Ah, kaş atan sağ olaydı, – dedi. – Ay, atan...

## VI

Onların təkcə bir inəyi vardı. İnək bu il buzovlamışdı. Buzov erkək idi. Əgər İncə Məmmədin bir dönüm[1] torpağı olsaydı, gələn il inəkdən daha bir erkək buzov götürərdi. İncə Məmməd gələn il doğulacaq erkək buzovun xəyalı ilə yaşayır, yuxusunda da onu görürdü. Sonra iki buzov birdən böyüyər. Böyük bir çəmənin ortasında çəngəl buynuzlu bir cüt cöngə... Cöngələr boyunduruğa asanlıqla alışmırlar... Zəhmət çəkmək lazımdır. Axırda lap quzu kimi olurlar. Tarlanı süpürüm kolu basmışdır? Eybi yoxdur. Süpürüm kolu bir il bitər, iki il bitər. Üçüncü il dibinə kükürd suyu tökərsən, qurtarıb gedər. Təki öz tarlan olsun.

Təzəcə doğulmuş buzovların tükləri bənövşəyə çalan qırmızı rəngdə olur. Sonralar dəyişir; sarı, açıq-qırmızı, bənövşəyi olur. Buzovların qulaqlarının tükü məxmər kimi yumşaq olur. Adam ovcunu onun qulağına sürtəndə soyuq, incə, xoş bir ürpərti duyur.

Kənddə bütün yoxsul evlərdə buzovlar ocağa yaxın, adamların yatdıqları yerin yanında saxlanır. Buzovların altına çiçəkli bahar otları döşənir. Evdən bahar çiçəyi, ot, təzək və buzov qoxusu gəlir. Buzov qoxusu süd qoxusuna bənzəyir.

Payız gələndə buzovlar böyüyür, onları sığıra qatırlar.

Məmmədin anası bütün baharı buzova baxmadı, ona qulluq eləmədi. Oğlunun dərdi olmasaydı, buzov evin içində bir bahar kimi dolaşar, evin sevinci olardı.

Məmmədgilin evi bir otaqdan ibarətdir. Torpaq damlı bir otaq... Divarın hündürlüyü cəmi bir metrdir. Bütün kən-

[1] **Dönüm –** *səth ölçüsüdür, təqribən 919 kvadrat metrə bərabərdir – red.*

din damları payız yağışlarına davam gətirməz, axardı. Kənddə təkcə Məmmədgilin damına payız yağışları kar eləməzdi. Atası ölümündən azca əvvəl gedib Sarıcağşaqdan torpaq gətirmiş, evin üstünü onunla örtmüşdü. Sarıcağşağın torpağı başqa cür torpaqdır. Bizim bildiyimiz qara, qumlu, bərəkətsiz torpaqlardan deyil. Bu torpaq parça-parça büllur kimidir. Sarısı, qırmızısı, bənövşəyisi, mavisi, yaşılı, hər rəngi olur. Müxtəlif rəngli bu torpaq büllurları bir-birinə qarışdırılmışdır. Bu səbəbdən də Məmmədgilin evinin damı günəşdən rəngdən-rəngə çalaraq alışıb yanır.

Yayda ana-oğul canlarını dişlərinə tutdular, əlləşib vuruşdular, amma nə fayda?.. Payızda dərdli-bəlalı evlərinə qayıtdılar. Bir buzovları olduğu yalnız bu zaman yadlarına düşdü. Buzov böyüyüb dana olmuşdu.

Ana ocağa yenə bir odun atdı. Bayırda qara buludlar güneydən quzeyə tərəf üzüb gedirdi. Bir az sonra çaxan ildırım evin içini işıqlandırdı. Ocaqda alovun dilləri bir-birini yalayırdı. Bu dəmdə Məmməd içəri girdi. Soyuqdan əlləri qıpqırmızı olmuşdu. Ocağın yanında çöməlib oturdu. Arxasına dönüb baxanda gözü inəyə sataşdı, inək sakitcə oturub kövşəyirdi. Qabağında saman vardı. Ancaq inək yemirdi. Evin o biri başı da samanla dolu idi. Məmməd qalxıb inəyin yanına getdi. İnəyin yanında dayanmış dananın qulağından yapışdı. Dananın bundan xoşu gəlmədi. Başını dartıb Məmmədin əlindən çıxdı, inəyin o biri tərəfinə keçdi. Oğlan gülümsədi.

Anası dedi:

– Sən burada olmayanda Fındıq bunu Alıclı dərədə doğdu. Gecəyarısı axtara-axtara bir kolun içində tapdım. Anası başının üstünü kəsdirmiş, balasını yalayırdı. Əvvəlcə inək məni yaxına buraxmadı. Sonra buzovu önlüyümə sarıyıb evə gətirdim.

Məmməd:

– Gör nə böyük olub! – dedi.

Anası səsini uzada-uzada:

– Hə-ə-ə! – deyə təsdiq etdi.

Sonra hər ikisi susdu. Bir-birinin üzünə baxa bilmirdilər. İkisi də başını aşağı sallamış, gözlərini ocağın gözünə dikmişdi.

Anası dedi:

– Verməsək olmaz. Un elə indidən qurtarmışdır.

Məmməd cavab vermədi.

Anası sözünə davam etdi:

– Abdi ağa da əlimizdən acıqlıdır. Ölü qiymətinə əlimizdən alar. Yenə də yaya çıxa bilmərik.

Məmməd dinmirdi.

Anası:

– Başqa çarəmiz yoxdur, oğlum, – dedi. – Sənin bu qaçmağın belimizi bükdü.

Məmməd başını yavaş-yavaş qaldırıb anasına baxdı. Gözləri yaşla dolu idi.

– Məni – dedi, – bəhanə edir. Mən qaçmasaydım, başqa bir bəhanə tapardı.

Anası:

– Tapardı, oğlum, – dedi. – O imansız, əslində, sənin atanın da düşməni idi.

Bu anda ikisi də dönüb inəyə baxdı. Bu, qaşqalı, qırmızı, kök bir inəkdi.

Qış gəlmişdi. Yerdə dizə qədər qar vardı. Hələ günorta olmamışdısa da hava qaralmışdı. Dönə his çəkmiş mis qazanı ocağın üstünə qoymuşdu. Xeyli vaxtdı ki, içində su qaynayırdı.

Bu dəmdə Cənnət içəri girdi.

Dönə:

– Gəl otur, – dedi, – Cənnət arvad, gəl otur.

Cənnət ah çəkdi.

– Oturummu, bacım? Hə, yaxşı, oturum da, – deyərək keçib bir küncdə əyləşdi. – Səhərdən bəri ev-ev gəzirəm. Nə etdiyimi, hara getdiyimi bilmirəm. Eşitdim ki, sənin də buğdan qalmayıbdır. Arpan da qurtarıb. Bir həftədir ki,

bizim də hər şeyimiz qurtarıbdır. Çoxdandır ki, çuvalların dibi görünür. Bu il bizim əkinimiz yaxşı olmadı, bacı. Sizinki kimi olsaydı... Bizim kişi hər yeri, hər evi gəzdi. Borc istədi. Heç kəsdə yoxdur ki, versin.

Cənnət qarı ocaqda qaynayan suyu gördü.

– Qazana nə tökəcəksən? – deyə xəbər aldı. Cənnət qarının bu sualı verməkdə bir məqsədi vardı.

Dönənin dodaqlarında zəif bir təbəssüm göründü:

– Budur, su tökmüşəm! – dedi.

Cənnət qarı:

– Məgər heç bir şeyin qalmamışdır? – deyə heyrətlə soruşdu.

Dönə dedi:

– Olan-qalanımız ocaqdadır.

Cənnət qarı onun halına acıyaraq:

– Bəs nə edəcəksən? – deyə soruşdu.

– Bilmirəm.

– Yenə də gedib Mustuludan istəsənə...

– Gedib istərəm. Ancaq onda da bir şey qalmamışdır...



Bərk çovğundur. Neçə gündür qarı elə sovurur ki, göz açmaq olmur. Evlərin ətrafında heç itlər də görünmür. Kənd dağbaşı kimi tənhadır, bomboşdur. Hamı qapı-bacasını bağlayıb evində oturmuşdur. İnəyi olanın evində samanı da var. Heç kəsin heç kəslə əlaqəsi yoxdur.

Bir həftə, bəlkə də, on gün olar ki, Dönənin getmədiyi ev, döymədiyi qapı qalmadı.

Dönə öz-özünə deyirdi:

– Acından ölərəm, amma Abdi ağaya yalvarmaram. Ölsəm də yalvarmaram...

Hər il belə olurdu. Kəndin yarıdan çoxu ac qalır, gedib Abdi ağanın qapısına tökülüşürdü.

Dönə özünü saxlaya bilmədi. Tək olsaydı, yenə dərd yarı idi! Oğlu var. Budur, neçə gündür ki, oğlu ağzını açıb bir kəlmə də danışmır. Üzündə, dodaqlarında bir damla

qan əlaməti qalmamışdır. Dodaqları kağız kimi incəlmişdir. Bütün üzü, bütün bədəni ölü kimi hərəkətsizdir. Bir yerdə oturdumu, axşamadək oradan qalxmır. Başını iki əlinin arasına alıb xəyala dalır. Onun bütün canı, varlığı, kini, sevgisi, qorxusu, gücü iri gözlərində toplanıb. Arabir gözlərində iynə ucu kimi bir parıltı yanıb-sönür. Bu, iti, kəskin bir parıltıdır. Bu parıltı dəhşətlidir, qorxuncdur. Parçalamağa, sıçramağa hazırlaşmış pələngin gözlərində də eyni parıltı hökmən yanıb-sönür. Məmmədin gözlərində bu parıltı haradandır? Bəlkə, anadangəlmədir? Əslində bu, çəkilən işgəncənin, dərdin, bəlanın nəticəsidir. Məmmədin gözlərində də bu parıltı son bir ildə əmələ gəlmişdir. Ondan əvvəl Məmmədin uşaq gözlərində bir heyranlıq, bir sevinc işığı parlardı.

Göyün üzünü qara buludlar bürümüşdü. Abdi ağanın qapısının qabağında soyuqdan ikiqat bükülmüş, əyinlərinə evdə toxunan parçadan yırtıq paltar geymiş bir yığın adam vardı; adamlar bir-birlərinə qısılaraq titrəyirdilər. Qapıya toplaşanlardan aralı təkcə bir adam dayanmışdı; bu, Dönə idi. Adamlar Abdi ağanı gözləyirdilər. Abdi ağa içəridən çıxacaq, onlara bir söz deyəcəkdi. Budur, sivri saqqallı Abdi ağa əlində doxsan doqquz dənəli təsbeh, başında dəvə yunundan toxunmuş araqçın qapıda göründü.

– Hə, yenə də acsınız? – deyə söyləndi.

Camaatdan heç bir səs çıxmadı.

Adamlardan kənarda durmuş Dönəni görən Abdi ağa:

– Dönə! Dönə! – deyə bağırdı. – Sən düz get evinə! Sənə bircə dənə də buğda verməyəcəyəm. Evinə get, Dönə! İndiyədək mənim kəndimdən, mənim qapımdan heç kəs qaçıb başqa kəndə getməmiş, başqa adama çoban olmamışdı, muzdur olmamışdı. Bunu sənin bir qarış boyda oğlun elədi. Sən düz get evinə... – Sonra üzünü camaata çevirdi: – Siz arxamca gəlin!

Abdi ağa enli şalvarının cibindən bir dəstə açar çıxartdı. Pencəyinin cibindən də bir dəftər çıxartdı.

Haçandan-haçana özünü ələ alan Dönə onun ardınca:

– Ağam, o, xırda, cılız bir uşaqdır, – deyə bildi. – Sən gəl, bizi ac qoyma.

Ağa dayandı, üzünü Dönəyə çevirdi. Onun ardınca gedən camaat da dayandı, dönüb Dönəyə baxdı.

Abdi ağa:

– Uşaq özünü uşaq kimi aparar, – dedi. – Ağlım kəsməyə başlayandan indiyədək Dəyirmanoluq kəndində heç kəs qaçıb başqa kənddə çobanlıq, muzdurluq etməmişdir. Etməz də... Düz get evinə, Dönə!

Abdi ağa anbarın qapısını açan kimi, isti, tozlu buğda qoxusu bayıra yayıldı.

Ağa qapıda dayandı.

– Mənə baxın, – dedi. – O Dönəyə bircə dənə də buğda verməyəcəksiniz. Qoy acından ölsün. İndiyədək Dəyirmanoluq kəndində acından ölən olmamışdır. O öləcəkdir. Ya da satacağı bir şeyi varsa, satacaqdır. Versəniz, verdiyinizi eşitsəm, hamınızın evinə gəlib, verdiklərimi geri alaram. Onda daha deməyin ki, eşitməmişdik.

Camaatın içərisindən səslər ucaldı:

– Axı heç özümüzü görməz...

– Axı heç özümüzü görməz...

– Görməz...

– Dönəyə...

Ən axırda bir qadın cır səslə çığırdı:

– Dönənin oğlu qaçmayaydı... Bizə nə! Qoy acından ölsün.

Hər biri dalında, içərisinə çovdar, buğda və arpa tökülmüş çuval evinə qayıtdı. Dəyirman kəndin o biri başında, iri çinardan azca aşağıda idi. Ertəsi gün dəyirmanın qabağı çuvallarla doldu. Dəyirman çoxdandı ki, bağlı idi. Qulaqsız İsmayılın bəxti gətirmişdi.

Axşamüstü hər evdən isti çörək qoxusu gəlirdi.

Durmuş Əlinin düz altmış yaşı vardır. O, kənddə ən iri adamdır. Böyük çinar ağacı qədər möhkəmdir. Böyük üzü,

xırdaca gözləri var. Ömründə ayağına ayaqqabı geyməmişdir. Ayaqlarının altının cadar-cadar olmuş qara qalın dərisi ayaqqabını əvəz edir. Ayaqları çox iridir. Bu ayaqlara heç bir ayaqqabı olmur. Heç bir əndazəyə gəlmir. Hətta ən böyük çarıq onun ayağına olmur. Amma istəsəydi, çarıq geyə bilərdi. Nə üçün ayaqqabı geymədiyini ondan soruşanda, heç bir şey deməz, sadəcə söyüş söyərdi.

Qadınlardan biri xəmir yoğurur, o biri xəmir yayır, biri də sacda bişirirdi. Bişirən qadının sağ tərəfində qıpqırmızı qızarmış qalın sac yuxaları yığılmışdı.

Əli bunlardan bir-ikisini iştahla yedi. Sonra gözləri yaşardı. Arvadına dedi:

– Ay arvad, heç ağıllı-başlı boğazımdan keçmir.

– Niyə, görən, Əli? – deyə arvadı təəccüblə soruşdu.

– Bu bizim İbrahimin arvad-uşağı yadıma düşür... Abdi imansızın tutduğu iş heç başımdan çıxmır. Dönəni qovdu. Dünən ona bircə dənə də buğda vermədi.

– Yazıqlar, İbrahim sağ olsaydı...

– Abdi bizə də tapşırdı ki...

– Mən də eşitdim.

– Bu böyüklükdə kənddə göz görə-görə iki adam ac qalacaq?

Əli bərk hirsləndi. Səsi çıxdığı qədər çığırmağa başladı. Çığırtısı lap kəndin o biri başında eşidilirdi.

Əli:

– Qalx, arvad, – dedi, – bu çörəkdən böyük bir bağlama düzəlt! Bir torbaya da bir ölçek[1] un tök! İbrahimin uşaqları üçün aparacağam.

Qadın ətəklərinin ununu çırparaq yuxanın yanından qalxdı.

Əli bir əlində torba, o birində bağlama, küləkdə xışıldayan qol-budaqlı bir ağac kimi, cəld qapıdan çıxdı. Dönənin qapısına çatanda sakitləşdi.

---

[1] **Ölçek –** *təqribən 6,5 kiloqrama bərabər taxıl ölçüsüdür – red.*

– Dönə! Dönə! – deyə Əli bərkdən səslədi. – Aç qapını!

Dönə ilə oğlu odu sönmüş ocağın başında büzüşüb oturmuşdular, daş parçası kimi hərəkətsizdilər.

Əli bir neçə dəfə də:

– Dönə! Dönə! – deyə çığırdı.

Dönə haçandan-haçana bu səsi tanıdı, çox çətinliklə yerindən qalxdı. Gedib könülsüz-könülsüz qapını açdı:

– Buyur, Əli ağam, – dedi.

Əli:

– Ay qız, – dedi, – niyə səhərdən bəri məni eşikdə saxlamısan?

– Gəl içəri, ağam, – deyə Dönə təkrar etdi.

Əli əyilərək qapıdan içəri girdi.

– Bu ocaq niyə yanmır? – deyə Əli xəbər aldı.

Məmmədin gözlərində iynə ucu kimi o iti parıltı yenə də qalmışdı. Lakin Əlinin səmimi, mehriban, gülərüzünü görüncə bu parıltı qeyb olub getdi.

Əli bağlamanı göstərərək:

– Allah kərimdir, – dedi.

Dönə:

– Elədir, elədir, – deyə təsdiq etdi.

Əli:

– Üşüdüm, Dönə! – dedi. – Bax, uşaq da büzüşmüşdür. Bu ocağı yandırsana...

Dönə boş ocağa baxdı:

– Sönmüşmü? – dedi. – Heç fikir verməmişəm.

Bunu deyib Dönə ocağa odun atdı, alışdırdı.

– Bu imansız Abdini...

Abdinin adını eşidən kimi, o iti parıltı yenə də Məmmədin gözlərində göründü.

Əli:

– Onu öldürənin, – dedi, – əli nura boyanar. Birbaşa cənnətə gedər. Abdinin atası özü kimi deyildi. O, kəndlini də düşünərdi.

Əlidən sonra bir neçə kəndli də Dönəyə azuqə gətirdi. Abdinin bundan heç xəbəri olmadı. Amma kəndlilərin gətirdikləri azuqə cəmi on beş gün kifayət elədi. Ana ilə oğul iki gün ac qaldılar. Üçüncü günün səhəri Dönə heç bir şey söyləmədən gedib inəyi yatdığı yerindən qaldırdı. Boğazına bir ip bağlayaraq eşiyə çıxartdı.

İnək eşiyə çıxarkən Məmməd:

– Ana!.. – deyə səsləndi.

Dönə də:

– Oğlum, – dedi.

Dönə inəyi çəkə-çəkə gətirərək, Abdi ağanın evinin qabağında dayandı. Dana başını inəyin məmələrinin arasına soxaraq əmirdi.

Dönə bir müddət evin qabağında dayanıb qaldı. Dönəni küçədə görən Dursun gedib ağasına xəbər verdi. Ağa eşiyə çıxdı. Dönə başını qaldırmırdı. Onun iti, incə çənəsi titrəyir, dodaqları uşaq dodaqları kimi büzüşərək əsirdi. Bütün bədənini xəfif bir titrətmə tutmuşdu.

Abdi ağa əlini inəyin belinə vuraraq:

– Satmağamı gətirmisən, Dönə? – deyə soruşdu.

Dönə başını qaldırmadan:

– Hə, ağam, – dedi.

Abdi ağa Dursuna əmr etdi:

– Bu inəyi Dönə bacıdan al, apar bizim tövləyə!

O, əlini cibinə salıb bir dəstə açar çıxartdı.

– Çuval gətirmisənmi, qızım Dönə? – deyə soruşdu. Onun səsi yumşaq və şəfqətli idi.

Dönə:

– Hə, – deyə cavab verdi.

## VII

Palıd ağacı bitən yerdə, demək olar ki, heç başqa ağac görünməz. Dağ-daş, dərə-təpə tamam palıd ağacıdır. Palıdlar qalın, qısa gövdəlidir. Budaqları gödəkdir. Ən iri

budağının uzunluğu bir metrdən çox olmaz. Budaqlar tünd-yaşıl rəngli sıx yarpaqlarla örtülüdür. Palıd ağacı öz kökləri ilə torpağa möhkəmcə yapışmış olur. Sanki heç bir qüvvə onları torpaqdan qopara bilməz.

Palıd ağacı bərəkətsiz, əhəng kimi ağappaq torpaqda bitir. Sanki bu torpaq palıd ağacından başqa heç bir bitki yetirməməyə and içmişdir.

Qədirli ilə Cığcıq arasındakı sahə kiçik-kiçik yastı təpələrdən ibarətdir. Bu təpələrin torpağı gilli, qapqara, şirəli, bərəkətli torpaqdır. Qədim Çuxurova bataqlıqları burada qurtarır. Buradan qərbə Ağcasaz bataqlığı, şərqə isə Toros şam meşələri uzanır. Bu təpələr başdan-başa əkilir. Bu tarlaların içərisində də palıd ağacları bitir. Buradakı palıd ağacları sərv ağacı kimi uzun olur. Budaqları açıq-yaşıl rəngli sıx yarpaqlarla örtülür. Gövdələri qısa palıd ağaclarının gövdəsi kimi kələ-kötür olmur. Qovaq gövdəsinə oxşayır. Dümdüzdür. Əkinlərin ortasında bunlar palıda deyil, başqa ağaclara oxşayır. Yaşıl, bənövşəyi, süd kimi ağ süpürüm kolları dalğalanır. Günçıxan tərəfə qırov düşmüşdür. Daş-kəsəkli torpaq buz bağlamışdır. Məmməd süpürüm kollarının arasında qıçları parçalana-parçalana cüt sürdü. Şaxta onu yaxıb-yandırdı. Qızmar günəşin altında xırmanda vəl gəzdirdi. Yandı, qovruldu. Torpaqdan dişi-dırnağı ilə qopardığının dörddə üçünü Abdi ağa əlindən aldı. Başqa kəndlilərdən məhsulun üçdə ikisini alırdı. O ildən bəri Abdi qərəz saxlayırdı, inadından dönmürdü. Fürsət düşdükcə Məmmədi döyür, təhqir edirdi.

İnsan doğulduğu torpağa uyğun olaraq böyüyür, boya-başa çatır.

Məmməd bərəkətsiz torpaqda böyüdü. Başı min bir bəla çəkdi... Boy ata bilmədi. Çiyinləri, qıçları inkişaf etmədi. Qolları, qıçları quru ağac kimi nazik idi. Ordu orduna keçmişdi. Qarabəniz idi. Gündən qaralmışdı... Məmmədə diqqətlə baxdıqda, mütləq o palıd ağacları yada düşürdü.

O da palıd ağacı kimi, torpağa möhkəm yapışmışdı. Bədəninin hər tərəfi sərt, yöndəmsiz idi. Yalnız bir yerində uşaqlığın əlaməti qalmışdı. Dodaqları uşaq dodağı kimi çəhrayı idi... Dodaqlarında uşaq dodaqları kimi, incəlik vardı. Dodaqlarının kənarında sanki daim bir təbəssüm vardı... Bu təbəssüm onun məhzun, sərt görkəminə çox yaraşırdı.

Bu səhər İncə Məmmədin sevinci aşıb-daşırdı. Küçəyə, günün altına çıxır. Günün altında gəzişir. Sonra içəri girir. Qaçaqçılardan alınmış təzə pencəyinin cibində bir yaylıq var. O, yaylığı cürbəcür şəklə salır. Əlləşir. Gah bir vərəq kağız kimi açır, gah da qatlayır. Şapkası da təzədir. Şapkanı başına qoyur. Qara, uzun saçlarını şapkanın altından çıxarıb alnına tökür. Sonra saçlarını yenə də içəri salır. Keçib güzgüyə baxır. Xoşuna gəlmir. Qara saçlarını yenidən çıxarıb alnına tökür. Daha toxunmur. Şalvarı da təzədir. İki il əvvəl almışdısa da, geyməmişdir. İlk dəfədir ki, geyir.

Məmməd təzə-təzə corablar geyib çıxarır. Corabı çoxdur. Anası yaxşı corab toxuyurdu. Bir də... naxışın ən gözəlini anası vururdu. Axırda geydiyi corab da xoşuna gəlmədi. Çıxarıb bir küncə qoydu. Anasını çəp-çəp süzərək sandığın yanına getdi, onu açdı. Sandıqdan cır alma qoxusu gəlirdi. Sandığın küncündəki naxışlı coraba gözü sataşanda, bədəni ürpənməyə başladı. Əyilib corabı götürdü. Cır almanın qoxusu hər tərəfə yayılmışdı. Əli coraba dəyincə bədəni daha çox ürpəndi. Ürəyini xoş, mülayim bir duyğu doldurdu... Sandığın içində corab tünd görünürdü... Məmməd corabı işığa çıxardanda, corabın əlvan rəngləri parladı.

Bir mahnı eşidilir... Mahnı gecə bir cür, gündüz başqa cür ləzzət verir. Uşaq oxuyanda bir cürdür, qadın oxuyanda başqa cür... Mahnını gənc bir cür oxuyur, qoca başqa cür oxuyur. Dağda oxunanda bir cür səslənir, düzdə, meşədə, dənizdə oxunanda başqa cür. Hər dəfə mahnıdan başqa bir ləzzət duyulur. Səhər bir cür zövq verir, günortaüstü, ilkindiçağı, axşamtərəfi isə başqa cür.

Bu naxışlı corab da mahnı kimidir. Bu da bir mahnı hərarəti ilə toxunmuşdur. Sarı, qırmızı, yaşıl, mavi, narıncı və başqa rəngləri bir-birinə qarışaraq bir hərarət, bir yumşaqlıq meydana gətir-mişdir. Dönüb məhəbbət kimi, şəfqət kimi bir şey olmuşdur.

Bu corab məhəbbətdir. Artıq uzun zamandır ki, bu, bir ənənə olmuşdur. Əbəs deyildir ki, Məmmədin əli coraba toxunanda bədəni ürpəndi, corabı işığa çıxaranda onu həyəcan bürüdü. Bu cür corabların üstündə bir cüt quş şəkli çəkilir. Dimdiklərini bir-birinə dayayaraq, sanki iki quş öpüşür... Sonra corabda qısa gövdəli iki ağac çəkilir. İri çiçəklərlə örtülmüş iki ağac yan-yana durur. Çiçəklər bir-birinə doğru uzanır, sanki onlar da öpüşür. Quşlarla ağacların arasından süd kimi ağ çay axır. Çayın kənarlarında qırmızı qayalar vardır. Corabların əlvan rəngləri adamın üzünə gülür.

Məmməd corabları geydi. Çarıqlarını da ayaqlarına keçirtdi. Corab dizə qədərdi. Dizə qədər bir yığın quş, çiçək öpüşür, çoxlu ağ çay axırdı.



Məmməd bu geyimdə Xətcəyə görünmək istədi. Xətcənin evinə tərəf getdi. Xətcə qapının astanasında idi. Məmmədi görən kimi Xətcənin işıldayan iri gözləri gülümsündü. Öz toxuduğu corabları Məmmədin ayağında görəndə sevindi. Məmməd oradan kəndin içinə yollandı.

Evlərinə qayıdanda gün xeyli ucalmışdı. Bir daşın üstündə oturdu. Yoldaşını gözləməyə başladı. Az sonra yoldaşı evin dalından çıxıb gəldi.

Məmmədin anası:

– Uşaqlar, – dedi, – çox ləngiməyin, Abdi ağa şəhərə getdiyinizdən xəbər tutsa, işiniz xarab olar ha...

Məmməd:

– Xəbər tutmaz, – dedi.

Məmmədin yoldaşı Keçəl Əlinin oğlu Mustafa idi. O da bu il on səkkiz yaşına girmişdi. Onlar qəsəbənin necə bir yer olduğu barəsində çox mübahisə eləmişdilər, sonra da özlə-

rini saxlaya bilməyərək, oraya getməyi qərara almışdılar. Anlaşılmaz bir arzu onları qəsəbəyə çəkirdi. Dursunun bir əfsanəvi diyar kimi təsvir etdiyi Çuxurova onları çəkirdi. Oraya getməyi tam iki il bundan əvvəl qərara almışdılar. Lakin o gündən bəri bu arzularını heç cür həyata keçirə bilməmişdilər. Çünki Mustafa atasından, Məmməd isə anasından qorxurdu. İkisi də eyni zamanda Abdi ağadan qorxurdu.

Üç gün əvvəl Mustafa ilə Məmməd dilbir olub məsələni Məmmədin anasına açdılar.

Anası:

– Bu heç olan işdir? – dedi. – Siz bu yaşda qəsəbəyə necə gedə bilərsiniz? Həm də Abdi ağa buna nə deyər? Eşitsə, vallah bizi əlli-ayaqlı kənddən qovar.

Məmməd anasına yalvardı.

Anası:

– Olmaz, – dedi. Lakin «olmaz» dedisə də, bu, ürəyində bir dərd oldu. Nəhayət, uşaqlara yazığı gəlib əlavə etdi: – Abdi ağa qovarsa, qoy qovsun. Biz də...

Mustafanın atasına bu barədə bir söz demədilər. Ona dedilər ki, maral ovuna gedəcəklər və bir neçə gün dağda qalacaqlar. Onlar həmişə birlikdə maral ovuna gedərdilər. Kənddə Məmməddən yaxşı ovçu yox idi. Lap birəni vurardı. Mahir atıcı idi. Keçəl Əli onları bu cür geyimli-kecimli görsəydi, ayaqlarındakı «məhəbbət» corabına fikir versəydi, ova getdiklərinə əsla inanmazdı. Mustafa ova getmək üçün aldığı tüfəngi Məmmədgildə qoydu.

O gecə səhərə qədər fikirlərindən cürbəcür xəyallar keçdi. Bir dəqiqə də olsun gözlərini yummadılar. Hey danışdılar. Hələ dan yeri sökülməmiş, alaqaranlıqda yola çıxdılar. Çox iti gedirdilər.

Aşağıdan xəfif yel əsirdi. Hava sərin idi.

Doğmaqda olan günün ucu görününcəyədək onlar nə danışdılar, nə də nəfəslərini dərmək üçün azacıq dayandılar. Yaşıl bir çəmənə yetişəndə Məmməd dayanıb dərindərin nəfəs aldı:

– Bax, o tərəfdə Sarıboğa kəndi var. Əvvəlcə oraya gedəcəyik. Sonra Dəyirmanlar, ondan sonra da Dikirli kəndi gəlir... Dikirlidən sonra da qəsəbə...

Mustafa:

– Sonra da qəsəbə... – deyə təkrar etdi.

Onlar yenə də tez-tez getməyə başladılar. Arabir dayanır, bir-birinə baxıb gülümsəyir, sonra yenə də sürətlə gedirdilər.

Onlar iti addımlarla Süleymanlıdakı yanmış taxta körpünü, yeraltı yolunu, qan məzarını ötüb keçdilər. Onlar Torunlara çatanda artıq günorta olmuşdu. Hava ılıq idi. Nar ağacları qırmızı çiçəklər açmışdı. Torpaqda nəmlik vardı. Onlar yerə oturdular. Birdən nar ağacının dalından yaxası açıq, ucaboylu bir qoca çıxdı; qoca yorğun görünürdü, özü də tamam tər içində idi. Sinəsindəki qıvrım tüklər ağarmışdı. Qocanın ağappaq ağarmış saqqalı da qıvrım idi. Qoca dalındakı heybəni yerə qoyub:

– Salam, ay qoçaqlar, – dedi.

Qocanın gur səsi vardı, danışanda elə bil çəkic vururdu. Qoca yerə əyləşən kimi heybəsindən bir bağlama çıxardıb açdı. Bağlamada yuxa, nazik ağ çörək, bir baş iri, qırmızı soğan, yanında da şor vardı.



Yeməyə başlayan qoca:

– Buyurun, qoçaqlar, – deyə onları dəvət etdi.

Məmməd:

– Allah artıq eləsin, – deyə cavab verdi.

– Allah artıq eləsin, – deyə Mustafa təkrar etdi.

– Gəlin, canım, – deyə qoca yenə də onları öz süfrəsinə dəvət etdi.

Məmməd yenə də:

– Allah artıq eləsin, – deyə cavab verdi.

Mustafa da onun dediyini təkrar etdi:

– Allah artıq eləsin.

Qoca onları israrla yeməyə dəvət edirdi.

Məmməd onun sözünü kəsmək üçün:

– Biz qəsəbədə yeyəcəyik, – dedi.

Mustafa da təkrar etdi:
– Biz qəsəbədə yeyəcəyik.
Qoca:
– Bu, başqa məsələ, – deyə gülümsündü.– Başa düşdüm. Şəhər çörəyi... Amma şəhərə hələ xeyli yolunuz var.
Məmməd dedi:
– Orada yeyəcəyik.
Mustafa:
– Orada yeyəcəyik, – deyə təkrar etdi.
Yaxınlıqdakı çay köpüklənə-köpüklənə, qayaların dalından, üstündən, yanından şırıltı ilə axırdı.
Qoca yeyə-yeyə:
– Bu çayı gözdən qaçırmayın, – dedi. – Sizi birbaşa oraya aparıb çıxaracaq.
– Bəs sən bizimlə getməyəcəksən? – deyə Məmməd xəbər aldı.
Qoca:
– Ah, oğlum, – dedi, – mən də qəsəbəyə gedirəm, ancaq sizinlə necə ayaqlaşa bilərəm?
Məmməd dinmədi.
Qoca yeyib qurtardı. Bağlamanı yaxşıca, bərk-bərk bağladıqdan sonra çayın qırağına getdi, uzanıb sudan doyunca içdi. Əlinin dalı ilə ağzını, bığlarını sildi, gəlib oturdu. İri tütün qutusunu çıxardıb açdı. Sarı dəftər kağızına tütün töküb barmaq yoğunluğunda bir papiros eşdi. Çaxmaqdaşını çaxmağa başladı. Haçandan-haçana qov od aldı, ətrafa xoş bir qoxu yayıldı. Qoca papirosunu yandırdıqdan və belini də nar ağacına yaxşıca dayadıqdan sonra:
– Ay qoçaqlar, siz haralısınız? – deyə soruşdu.
– Dəyirmanoluqluyuq, – deyə Məmməd cavab verdi.
– Dəyirmanoluqluyuq,– deyə Mustafa təkrar etdi.
Qoca:
– Keçisaqqal, imansız Abdinin kəndindən, eləmi?– dedi. – Eşitdik ki, imansız Abdi də ağa olmuşdur. Eşitdik

ki, kəndliləri qul kimi işlədir, özlərini də ac saxlayır. Qış gələndə camaat acından qırılır. Deyirlər ki, Abdinin izni olmadan heç kəsin evlənməyə, heç kəsin kənddən kənara çıxmağa ixtiyarı yoxdur. Deyirlər ki, Abdi kəndlərdə zopa ilə döyə-döyə adam öldürür. Abdi beş kəndin hökuməti, padşahıdır. Kefi istədiyini eləyir... Asdığını asır, kəsdiyini kəsir... Sən bir keçisaqqal Abdiyə bax! Sən bir işə bax, Abdi də ağa olmuşdur!

Qoca qəhqəhə çəkib güldü. Həm gülür, həm də təəccüblə:

– Vay səni Abdi! – deyirdi. – Vay səni Abdi! Vay səni keçisaqqal Abdi!

Qoca daha gülməyərək:

– Bu, doğrudurmu? – deyə soruşdu. Onun qaşları çatılmışdı.

Oğlanlar bir-birinə baxdılar. İynə ucu kimi o sərt parıltı yenə də Məmmədin göz bəbəklərində peyda oldu.

Qoca oğlanların cavab vermədiklərini və pərt olduqlarını görüb:

– Ay qoçaqlar, – dedi, – o keçisaqqal it, kəndliyə zülm edən o əclaf, özünü igid göstərən, o arvadını... Abdi bir dovşan qədər qorxaqdır. O, arvad kimi bir şeydir! Keçdi o günlər, övladlarım, keçdi. Onun belə bir namussuz olacağını bilsəydim, canını cəhənnəmə vasil eylərdim. Nə faydası var? Keçdi o günlər. Deməli, o keçisaqqal Abdidir, hə?

Qoca yenə gülməyə başladı:

– Deməli, Abdi padşahlıq iddiasındadır? Beş kəndi özünə qul etmişdir, hə? Tfu-u-u! Vay onun anasını!.. Eh, Abdi, sənin belə namussuz çıxacağını bilsəydim... Bir bunu bilsəydim, Abdi!

Məmmədlə Mustafa bir-birinə qısılaraq, qocaya şübhə ilə baxırdılar. Mustafa gülümsəyən kimi oldu. Bu, qocanın gözündən yayınmadı.

– Demək, siz Abdinin kəndlisisiniz? – deyə qoca bir də soruşdu. – Bir vaxt vardı ki, Abdi mənim ayaqlarımın altına yıxılıb yalvarırdı, keçdi o günlər...

Bu sözləri eşidən Mustafa açıqdan-açığa qocaya istehza ilə gülümsündü. Məmməd bunu görüncə, Mustafanı dümsüklədi ki, gülməsin. Qoca bunu da gördü.

– Siz, – dedi, – Nəhəng Əhmədin adını heç eşitmişsinizmi?

Məmməd:

– Eşitmişik, – dedi.

Qoca sərt bir tərzdə:

– Səndən soruşuram, sən eşitmisənmi? – deyə Mustafadan xəbər aldı.

Mustafa yaltaqcasına:

– Əlbəttə, eşitmişik, – dedi. – Onun adını eşitməyən varmı?

– Abdi Sıyrınğıcdan çıxıb gedəndə iki qaçaq onun yolunu kəsmiş, onu soymuşdular. Arvadını da əlindən almışdılar. Bunu mənə xəbər verdilər. Abdi də gəlib ayaqlarıma yıxıldı. Getdim, arvadını götürüb gətirdim. Özünə qaytardım. Fağır-füqəraya bu cür zülm edəcəyini bilsəydim!..

Nəhəng Əhmədin adı bu dağlarda bir dastan olmuşdu. Analar ağlayan uşaqlarını: «Nəhəng Əhməd gəlir» deyə ovundurardılar. Camaat Nəhəng Əhməddən həm qorxar, həm də onu sevərdi. Nəhəng Əhməd özünə qarşı bu iki duyğunu uzun illər boyu bu dağlarda yaşada bilmişdi. Bir qaçaq özünə qarşı bu iki duyğunun bəslənilməsinə nail ola bilməsə, dağlarda bir ildən artıq yaşaya bilməzdi. Qaçağı yaşadan qorxu ilə məhəbbətdir. Təkcə məhəbbət kifayət deyildir. Təkcə qorxu isə kin doğurur.

On altı ildə Nəhəng Əhmədin burnu da qanamadı. Nəhəng Əhməd on altı illik qaçaqlığı zamanı yalnız bir adam öldürmüşdü. Bu da həmin adam idi ki, Əhməd əsgərlikdə olanda Əhmədin anasına əzab verərək, namusuna toxunmuşdu... Əhməd kəndə qayıdandan sonra bu əhvalatdan xəbər tutmuş və həmin adamı öldürüb dağlara çəkilmişdi. Bu adam Hüseyn ağa idi. Nəhəng Əhməd yol kəsməzdi.

Onun gəzib dolaşdığı yerlərdə başqa heç bir qaçaq da yol kəsə bilməzdi. O, Çuxurovanın ən varlı adamını seçər, öz dəstəsindən bir adamla ona məktub yollardı. Nə qədər pul istədiyini məktubda yazardı. Məktubu alan varlı adam istənilən pulu dərhal göndərərdi. Qaçaqlıq edəndə kimdən nə qədər pul istəmişdisə də, qəpiyinə qədər almışdı. Başqa qaçaqlar gedib varlılara əzab verər, onları öldürərdilər, çox vaxt heç beş qəpik də ala bilməzdilər. Əli boş qayıdardılar. Onların ardınca Çuxurovadan bir bölük jandarm göndərərdilər.

Nəhəng Əhməd aldığı pulu başına sovurmazdı. Bir də ki, dağın başında pulu haraya xərcləyəcəkdi? Gəzdiyi yerlərdə xəstələrə dərman, öküzü olmayanlara öküz, yoxsullara un alardı.

Nəhəng Əhməd bağışlandıqdan sonra öz kəndinə qayıtdı. Yaxın və uzaq kəndlərdən yüzlərlə kəndli Nəhəng Əhmədi görmək üçün axışıb onun kəndinə gəldi. Nəhəng Əhməd kəndə qayıtdıqdan sonra öz evinə çəkildi. Təsərrüfatla məşğul olmağa başladı. O heç qarışqanı da incitmədi. Yalnız bir haqsızlıq görüb qəzəblənəndə: «Eh, ötən günlər!» deyərdi. Sonra da öz sözündən utanan kimi olub susardı. Hirsi soyuduqda isə dediyi sözə gülərdi...



Nəhəng Əhmədi öz doğma kəndində unutmuşdular. Heç kəs belə bir adamın olub-olmadığı fərqində deyildi. Öz həmkəndliləri ona alışmışdılar. Sanki bu ağsaqqal qoca uzun illər Toros dağlarını öz əlində saxlamış Nəhəng Əhməd deyildi. Heç kəs əhəmiyyət vermirdi ki, Nəhəng Əhməd sağdır, ya yox.

Bir qaçağın şöhrəti dağlara yayılanda deyərdilər: «Nəhəng Əhməd kimi». Bir qaçaq qadınlara toxunmazdısa, yol kəsməzdisə, deyərdilər: «Nəhəng Əhməd kimi». Bir qaçaq adam öldürməzdisə, camaata zülm etməzdisə, deyərdilər: «Nəhəng Əhməd kimi»... Bütün yaxşı işlər Nəhəng Əhmədin adı ilə əlaqələndirilərdi.

Qoca üzünü Mustafaya tutub soruşdu:

– Nəhəng Əhməd necə bir adammış? Heç eşitmisənmi?

Mustafa:

– Atam deyir ki, bu ölkəyə Nəhəng Əhməd kimi igid, namuslu bir qaçaq gəlməmişdir. O, yoxsulların atasıdır, – deyə cavab verdi.

Qoca:

– Bəs heç demədilərmi ki, Əhmədin boyu-buxunu, üzü necə imiş? – deyə soruşdu.

Mustafa cavabında dedi:

–Atam deyir ki, Nəhəng Əhməd ucaboylu, qarayanız, iribığlı, dağ kimi bir adammış. Atam onunla danışmışdır. Alnının ortasında böyük, qara bir xal varmış. Gözləri par-par parıldarmış. Xırdaca pulu nişan qoyub vurarmış. Hə-ə-ə... xırdaca mis pulu vurarmış. Atam onunla hətta danışmışdır.

Qoca zarafatyana soruşdu:

– İmansız Abdinin arvadını kim qaçaqlardan alıb özünə qaytardı?

Mustafa cavabında dedi:

– Kim olacaq, sən. Özün demədinmi ki, onun arvadını mən qaçaqlardan alıb qaytardım?

Qoca təəssüflə:

– Xeyr, mən deyiləm, – dedi. – Mən...

Məmməd qocanın üzünə diqqətlə baxdı. Onun ağarmış qaşlarının ortasında çox iri bir xal gördü. Ancaq xal qara deyil, yaşıl idi... Bundan sonra o, gözlərini qocanın üzündən ayıra bilmədi.

Mustafa yenə də əl çəkməyib dedi:

– Demədinmi ki, onun arvadını sən alıb özünə qaytardın?

Qoca:

– Yox, yox, – dedi, – mən alıb qaytarmadım. O öldü. Bunu dedikdən sonra qoca arxası üstə yerə uzandı. Heybəsini də yastıq kimi başının altına qoydu.

Mustafa Məmmədi dümsükləyib yavaşca dedi:

– Qalx, gedək.

Məmməd cavab vermədən ayağa qalxdı. Gözləri hələ də qocanın üzündə idi. Onlar ayağa qalxanda qoca gözlərini açdı.

– Demək, gedirsiniz, hə? – deyə soruşdu.

Məmməd heyran-heyran:

– Sağlıqla qal! – dedi.

Mustafa:

– Sağlıqla qal! – deyə təkrar etdi.

Qoca:

– Gülə-gülə, – dedi. Başını heybənin üstündən qaldırıb onlara baxdı. Onlar aralandıqdan sonra başını heybənin üstünə qoydu. Gözlərini yumdu. Çay şırıltı ilə axırdı.

Onlar Dəvəboynu şamlığına çatanadək danışmadılar. Məmmədin üz-gözündən zəhrimarlıq yağırdı. Bəzən qəlbində bir fərəh duyurdu, sonra yenə də tutqunlaşırdı. Sanki üzünə qara bulud çökürdü.

Bir neçə dəfə Mustafaya çəp-çəp baxdı. Mustafa bir şey başa düşmürdü. Yoxuşu çıxdıqdan sonra Məmməd yorğun halda bir daşın üstündə oturdu. Birdən gülümsündü.

Mustafa fürsət tapıb soruşdu:

– Bir de görüm, nəyə gülürsən?

Məmməd hələ də gülümsəyirdi.

Mustafa:

– Nəyə gülürsən, desənə? – deyə təkrar xəbər aldı.

Məmməd ciddi bir tövr aldı:

– Allah bilən yaxşıdır, amma mənə belə gəldi ki, o adam Nəhəng Əhmədin özüdür.

Mustafa:

– Boş-boş danışma, – dedi.

Məmməd hirsləndi:

– Boş-boş niyə danışıram? O adam lap Nəhəng Əhmədin özüdür ki, var!

Mustafa:

– Sən də qoy görək, – dedi. – O da bizim kimi bir adamdır. Özü də babam yaşında bir adam. Onun harası Nəhəng Əhmədə oxşayır?

– Alnındakı xalı gördünmü? Lap alnının ortasında...
– Görmədim.
– Alnının lap ortasında böyük, yaşıl bir xal vardı.
– Görmədim.
– Gözləri məşəl kimi yanırdı.
– Görmədim.
– Gözləri şüşə kimi parıldayırdı.
– Görmədim.
– Mənə belə gəlir ki, Nəhəng Əhməd başqa birisi deyil, ancaq odur.

Mustafa:

– Yox, canım! – dedi. – Belə adamlar Nəhəng Əhməd olsaydı, dünya Nəhəng Əhmədlərlə dolardı. O qoca eynən sənin kimi, mənim kimi bir adamdır...

Məmməd dedi:

– Gözləri məşəl kimi yanırdı. Üzündə bir xoşluq, bir mehribanlıq vardı... Kaş ki, sənin atan onu görəydi...

Onlar danışa-danışa yamacı aşağı endikləri zaman birdən qarşılarına düzənlik çıxdı. Düzənlikdə böyük bir qovaqlıq vardı. Qovaqlığın ortasından qıvrıla-qıvrıla bir çay axırdı. Ova boyunca axan çay günəşdə işıldayırdı. Onlar ilk dəfə idi ki, düz bir ovada işıltı saçaraq qıvrıla-qıvrıla axan bu uzunluqda çay görürdülər.

Məmməd:

– Yaxınlaşmışıq, – dedi.
– Nədən bilirsən?
– Çuxurovada çaylar qıvrıla-qıvrıla axır. Məncə, bu çay Savrun çayıdır. Qovaqlar da Qədirli kəndi yaxınlığındakı Dəyirman qovaqlığıdır. Durmuş Əli əmi belə nağıl edirdi. Başa düşdünmü?

Mustafa belə düşündü ki, Məmməd hirslənmişdir, buna görə də onunla sərt danışır. Adətən Məmməd tez hirslənməzdi. Hirslənəndə isə heç üzünü görmə. Buna görə də Mustafa onun könlünü almaq istədi.

– Başa düşdüm, – deyə Mustafa təsdiq etdi. – Bura Çuxurovadır. Durmuş Əli əminin dedikləri yadında yaxşı qalmışdır.

Onlar Şabaplı kəndinə çatdılar. Şabaplının aşağısından keçən arx partlamış, aşağıdakı yolu su basmışdı. Onlar ayaqqabılarını və corablarını çıxarıb keçmək məcburiyyətində qaldılar.

Şabaplının aşağısında, indi Polad Mustafanın evinin olduğu yerlərdə torpaq zolaq-zolaq görünür: qırmızı torpaq zolağı ilə yanaşı ağ zolaq uzanır. Oraları tikan kolları basmışdır.

Tikanlığı keçəndən sonra qəsəbənin ilk evləri göründü. Bunlar qamışdan tikilmiş evlərdi. Qamış evlərdən yuxarıda kirəmit damlı böyük bir tikili görünürdü. Bu evlərdən o yanda damları işıldayan, sinklənmiş dəmirlə, qırmızı kirəmitlə örtülü ağ evlər uzanırdı. Qəsəbə oyuncaq şəhərə bənzəyirdi. Məmmədlə Mustafa gözlərini geniş açaraq qəsəbəyə tamaşa edirdilər. Ətraf qar kimi ağdır! Çoxlu ev var! Onlar heç cür gözlərini qəsəbədən ayıra bilmirdilər.

Palçıqlı dərəni keçəndən sonra qəsəbəyə girdilər. Günəşin şüaları pəncərələrin şüşələrini parıldadırdı. Minlərlə pəncərə şüşəsinin parıltısı... Şüşə saraylar... Dursunun dediyi... Əfsanəvi padşahların şəhəri... Sarayları.

Qəsəbəyə girərkən sağ və sol tərəf qəbiristan idi. Qəbirdaşları yanı üstə çökmüşdü. Qaralmış qəbirdaşlarının quzey tərəfini yosun basmışdı. Qəbiristanın ortasında budaqları çılpaq deyiləcək qədər yarpaqsız, bir tərəfi isə tamam qurumuş qoca, iri bir tut ağacı vardı. Onlar bu qədər böyük qəbiristanı da ilk dəfə görürdülər.

Onlar bazaradək qəbiristanı düşünərək yeridilər. Qəbiristan onlarda bir qorxu, ürpərti doğurmuşdu. İlk dükana çatan kimi qəbiristanı unutdular. İlk dükan üstü sinklənmiş dəmirlə örtülü kiçik bir dükan idi. Dükançı uzun bir stolun üstünə rəngbərəng şirniyyatla dolu şüşə bankalar

düzmüşdü. Bankalar düzülmüş stolun qabaqında ağ neft bidonları, qənd, duz, əncir, üzüm yeşikləri qoyulmuşdu.

Onlar bir müddət yan-yana dayanıb dükana tamaşa etdilər. Bu dükan Abdi ağanın dükanına heç oxşamırdı.

Onlar dükanlara tamaşa edə-edə gəlib bazarın ortasına çatanda gün təpənin arxasına enirdi. Onlar bir bəzzaz dükanının qabağında dayanmışdılar. Burada müxtəlif rəngdə qəşəng çitlər, güllü qumaşlar, şalvarlıq parçalar, bir ipə düzülmüş şapkalar, ipək parçalar vardı... İpək parçalar dükanın bu başından o biri başınadək yan-yana asılmışdı. Piştaxtanın dalında qısaboy, yekəqarın bir kişi mürgüləyirdi.

Onlar iri çay daşları ilə döşənmiş bir küçədə dayanmışdılar. Küçənin bəzi yerlərində daşlar sökülmüşdü. «Torpağa da daş döşəmişlər» – deyə Məmməd düşündü. Bazarın sağ tərəfində gövdələri əyri-üyrü, qoca tut ağacları sıra ilə düzülmüşdü. Onların budaqları, meşədə olduğu kimi, bir-birinə qarışmışdı. Ağacların altında nalbəndlər oturmuşdular. Məmməd ilə Mustafanın burunlarına alışmadıqları bir qoxu gəlirdi. Acı, sabun qoxusu... Duz, təzə parça, kif, ərzaq qoxusu...

Məmməd Mustafanın əlindən tutub bir tut ağacının altına apardı. Tut ağacında sərçələr qaynaşırdılar. Sərçələr elə cikkildəşirdilər ki, səsləri bütün bazarı bürümüşdü.

– Mustafa, axşam olur, neyləyək? – deyə Məmməd soruşdu.

Mustafa elə bil ki, yatmışdı, birdən ayıldı.

– Neyləyək? – deyə Mustafa Məmmədin gözlərinin içinə boş, mənasız-mənasız baxdı. Sanki yuxu görürdü.

– Kəndlilər qəsəbəyə gələndə gecəni karvansarada qalırlar. Durmuş Əli əmi belə deyirdi. Gəl, karvansaraya gedək.

– Gedək. Karvansara hər yerdən yaxşıdır.

– Görəsən, karvansara hardadır? Onu tapa bilsəydik.

– Hə-ə, tapa bilsəydik, – deyə Mustafa təkrar etdi.

Dükan vitrinlərinin endirmə örtükləri taqqıltı ilə bağlanırdı. Bu gurultu onları karıxdırdı. Bir anda özlərini itirdilər. Sərsəm kimi oldular. Bu səbəbdən də bir-birinin əlindən tutub getməyə başladılar. Döşləri nazik zəncirli iki kök adam yanlarından ötüb keçdi. Karvansaranı onlardan soruşmağa cəsarət etmədilər. Gəlib bir dükanın qabağında dayandılar. Gün batmışdı. Qaranlıq düşürdü.

Onlar uşaq kimi hələ də bir-birinin əlindən tutmuşdular. Dükançı onları müştəri zənn etdi.

– Buyurun, ağalar. Nə istəyirsiniz? – deyə iltifatla soruşdu.

Dükançının onlara «ağalar» deməsindən utandılar. Dükandan uzaqlaşdılar. Halbuki dükançıdan karvansaranı soruşmaq istəyirdilər.

Demək olar, bütün dükanlar bağlandı. Onlar o tərəf-bu tərəfi dolaşmaqda idilər. Bir saata qədər avara-avara gəzdilər, amma münasib bir adam tapmadılar ki, karvansaranın harada olduğunu xəbər alsınlar. Gözlərinə münasib bir adam dəymirdi. Bikef-bikef dayanıb düşünürdülər ki, birdən Məmmədin kefi kökəldi. Dağlıq yerlərdə yaşayanların geydikləri evdə toxunma parçadan pencək geymiş bir kişi sürətlə yanlarından ötüb keçdi. Məmməd hər şeyi unudaraq, onun ardınca yüyürdü.

– Qardaş! Qardaş! – deyə Məmməd onu səslədi. – Bir dayan!

Kişi dayandı. Məmmədin həyəcanlı simasına təəccüblə baxdı. Bu baxış Məmmədə xoş göründü. O, yoldan ötən adamın onu bu cür qarşılayacağını gözləmirdi.

Kişi sərt bir tərzdə:

– Sözünü söylə! – dedi.

Məmməd:

– Biz qəribik, – dedi.

– Hə-ə... Nə istəyirsiniz? – deyə kişi soruşdu.

Məmməd sıxıla-sıxıla:

– Soruşmaq istəyirdim ki, karvansara haradadır? – dedi.

Kişi geri döndü:

– Ardımca gəlin, – deyərək, yan küçəyə buruldu.

Kişi tez-tez yeriyirdi. Məmməd kişinin yerişinə diqqət yetirdi. Bu yeriş dağlıq yerlərdə yaşayan adamın yerişi idi. Dağlıq yerlərdə yaşayan adamlar addım atarkən ayaqlarını çox yuxarı, dizlərinədək qaldırırlar. Sonra ehtiyatla, qorxa-qorxa endirirlər. Buna alışmışlar. Düzən yerlərin adamları isə əksinə. Onlar az qala ayaqlarını yerlə sürüyə-sürüyə gedirlər.

Karvansara böyük qapılı, yöndəmsiz bir tikili idi, qapısını qurd yemişdi.

Kişi:

– Karvansara buradır, – deyib, dağlıq yerlərin adamlarına xas olan eyni yerişlə, eyni sürətlə yoluna davam etdi.

Məmməd:

– Gedib karvansaraçını tapmaq lazımdır, – dedi.

Mustafa:

– Tapmaq lazımdır, – deyə təkrar etdi.

Onlar içəri girdilər. Karvansaranın həyəti atlar, eşşəklər, qatırlar, arabalarla dolu idi. Həyətdə peyin dizə çıxmışdı. Yaş peyinin kəskin qoxusu adamın burnunu göynədirdi. Bu kəskin qoxudan ürək bulanırdı. Həyətin ortasında dirəkdən böyük bir fənər asılmışdı. Fənərin şüşəsinin çox yeri hisdən qaralmışdı.

Məmməd Mustafaya:

– Fənərə bax!– dedi.

Mustafa:

– Hə, çox böyükdür, – dedi.

Çənəsi batıq, qısaboy bir adam həyətin ortasında təlaşla o tərəf-bu tərəfə gedib-gəlirdi. Həyətin bir küncündə on beş nəfərə qədər adam toplaşmışdı. Bu adamların Maraş tərəfdən olduqları əyinlərindəki abadan görünürdü. Uca səslə mübahisə edən bu adamlardan bir nəfəri bərk hirslənmişdi, ara vermədən söyüş söyürdü. O, ağanın, paşanın, dünyanın, fələyin anasının, arvadının dalınca ağzına

gələni deyirdi. Bu adam bir qədər susduqdan sonra yenə də söyməyə başlayırdı.

Onlardan birisi: «Əgər biz bu bezləri sata bilməsək» – deyə sözə başlayan kimi, söyüşkən adam: «Bezin də anasını, arvadını» – deyirdi. Kim nədən danışırdısa, söyüşkən adam: «Onun da anasını, arvadını» – deyə söyürdü. – «Onun da əsil-nəsəbini»...

Məmmədlə Mustafa özləri də hiss etmədən mübahisə edənlərin yanına gəldilər. Mübahisə edənlərin başı o qədər qızışmışdı ki, onları heç görmədilər. Mübahisə edənlərdən azca kənarda bir qoca oturmuşdu. Qoca onların mübahisəsi ilə əsla maraqlanmırdı. Uşaq sifətinə oxşar xoş bir siması vardı. Arabir nə düşünüb-daşınırdısa, öz-özünə gülümsəyirdi.

Məmməd heç çəkinmədən ona yanaşdı:

– Əmi, – dedi, – karvansaraçı haradadır?

Qoca:

– Neyləyirsən o dəyyusu? – deyə soruşdu, sonra əlavə etdi: – O yazıq çaya yıxılmışdır.

Mustafa:

– Ay yazıq, biçarə, – dedi.

Məmməd Mustafanı dümsüklədi. Qocanın zarafat etdiyini anlamışdı.

Qoca:

– Özü də lap təpəsi üstə yıxılmışdır, – deyə güldü.

Mustafa yenə də başa düşmədi:

– Ay yazıq, ay biçarə! – dedi.

Qoca:

– Hə-ə... Çox yazıqdır! – dedi.

Məmməd:

– Ona fikir vermə, əmi, – dedi, – biz karvansaraya gecələmək üçün gəlmişik. Karvansaraçı hardadır?

Mustafa özünü itirdi.

Qoca həyətin ortasında vurnuxan karvansaraçıya eşitdirmək üçün ucadan:

– Karvansaraçı əclaf, bax, odur, – dedi. – Gedin, dərdinizi o əclafa söyləyin.

Karvansaraçı eşidib gülümsündü:

– Mənə baxın, – dedi, – əgər əclaf axtarırsınızsa, ən böyük əclaf yanınızdakı o ağsaqqaldır... Saqqalını dəyirmanda deyil, əclaflıqda ağartmışdır...

Qoca:

– Bura bax, ay əclafbaşı, – dedi, – bu oğlanlar yer istəyirlər.

Məmməd karvansaraçıya tərəf getdi.

Karvansaraçı:

– Bu ağsaqqal əclafın qaldığı otaqda yatarsınız, – dedi. – O sizi oraya aparar.

Qoca:

–Vay əclaf, vay! – dedi. – Gəlin, qoçaqlar, yerinizi göstərim.

Onlar toz basmış, laxlayan bir nərdivanla qorxa-qorxa yuxarı çıxdılar. Nərdivan cır-cır cırıldayırdı, elə bil indicə sınıb töküləcəkdi. Tozlu-torpaqlı bir otağa girdilər. Yerdə yan-yana xeyli yataq salınmışdı.

Qoca:

– Siz şəhərə, deyəsən, ilk dəfədir ki, gəlirsiniz. Elə deyilmi? – deyə soruşdu.

– İlk dəfədir, – deyə Məmməd cavab verdi. – İlk dəfədir.

– İlk dəfədir, – deyə Mustafa təkrar etdi.

Qoca:

– Bu necə olur? – dedi. – Hər birinizin yaşı, yəqin ki, iyirmidən ötmüşdür. Necə olmuş ki, bir dəfə də qəsəbəyə gəlməmişsiniz?

Məmməd utana-utana:

– Yolumuz düşməyib, – dedi.

– Hansı kənddənsiniz?

– Dəyirmanoluqdan...

– Ora dağ kəndidir, eləmi?

– Dağ kəndidir!

– Siz hələ yemək yeməmişsiniz? – deyə qoca soruşanda, onlar bərk acdıqlarını hiss etdilər.

Qoca dedi:

– Mənim adım Həsən Onbaşıdır...

– Mənimki Məmməd. Bunun da adı Mustafa...

Qoca onları bir baqqal dükanına apardı. Burada tənəkədən qayrılmış qutular pas bağlamışdı, üzümün, doşabın, halvanın üstündə qara bulud kimi bir dəstə milçək uçurdu.

Həsən Onbaşı baqqala dedi:

– Bu qoçaqlar nə istəyirlərsə, ver. Mənə isə halva-çörək ver.

Məmməd:

– Bizə də halva-çörək versin, – dedi.

Neft lampasının titrək işığında halvalarını iştahla yedilər.

Karvansaradakı otağa qayıdanda öz yataqlarından başqa bütün yataqları dolmuş gördülər. Soyunmadan yatağa girdilər. Otağı qalın papiros tüstüsü doldurmuşdu.

Papiros tüstüsünün arasından öldürülmüş taxtabiti ləkələri ilə dolu kirli divarda titrək işıqla yanan neft lampası çətinliklə görünürdü. Yataqlarındakı adamların hamısı bərkdən danışırdı.

Həsən Onbaşı yerlərini rahatlamağa çalışan cavanlara dedi:

– Deməк, ilk dəfədir ki, karvansarada yatırsınız?

– Hə, – deyə Məmməd cavab verdi. Sonra sözünə davam etdi: – Bu tüstüdən, bu qoxudan az qalır adam boğulsun.

Məmmədlə Mustafa yataqlarında daha qımıldanmırdılar.

Həsən Onbaşı:

– Necədir, qəsəbə xoşunuza gəldimi? – deyə soruşdu.

Məmməd:

– Çox böyükdür, – dedi. – Böyük-böyük evləri var. Lap saray kimi...

Həsən Onbaşı güldü:

– Hələ siz Maraşı görəsiniz! – dedi.– Bir örtülü bazarı var ki, rəngarəng işıq saçır. Orada hər şey adamın üzünə gülür. Görən valeh olur. Bir yanda bəzzazlar, bir yanda sərraclar, bir yanda misgərlər... Nə istəsən orada var. Maraş bir cənnətdir! Maraş bu qəsəbədən yüz dəfə böyükdür!

Məmməd xeyli düşündü:

– Hə-ə-ə! – dedi.

Həsən Onbaşı:

– Hə, hə, – dedi. – Elədir. Hələ bir İstanbulu görəsiniz!

Məmməd özünü zorla saxladı, gərnəşdi. Üzü tutqunlaşdı, qırışdı. Birdən:

– Bu qəsəbənin ağası kimdir? – deyə soruşdu və bir rahatlıq duydu.

Həsən Onbaşı əvvəlcə başa düşmədi:

– Sən nə dedin? – deyə soruşdu.

– Deyirəm ki, bu qəsəbənin ağası kimdir? – deyə Məmməd bir də xəbər aldı.

Həsən Onbaşı:

– Oğlum, – dedi, – nə ağa? Qəsəbənin də ağası olar? Burada ağa yoxdur. Hər kəs özünün ağasıdır. Burada varlılara «ağa» deyə müraciət edirlər. Ağa çoxdur...

Məmməd başa düşmədi:

– Burada ən böyük ağa kimdir? – deyə təkrar soruşdu. – Onun adı nədir? Bu dükanların, bu tarlaların sahibi kimdir?

Həsən Onbaşı, nəhayət, məsələni başa düşdü:

– Sizin kəndin ağası kimdir? – deyə Məmməddən soruşdu.

–Abdi ağa, – deyə Məmməd cavab verdi.

– Məgər sizin kəndin bütün tarlaları Abdi ağanındır?

– Bəs kimin olacaq?

– Sizin kəndin dükanı necə?

– O da ağanındır...

– Sığırları, keçiləri, qoyunları, öküzləri necə?

– Çoxu onundur...

Həsən Onbaşı saqqalını qaşıyıb fikrə getdi.

Sonra:

– Mənə bax, oğlum Məmməd, – dedi. – Burada sənin düşündüyün ağalar yoxdur. Bu qəsəbədəki tarlalar az-çox hamınındır. Əlbəttə, tarlası olmayanlar da var. Bu dükanların hər birinin öz sahibi var. Əlbəttə, ağaların tarlaları çoxdur. Yoxsullarınkı azdır. Bir çox yoxsulların isə heç tarlası yoxdur.

Məmməd təəccüblə ucadan:

– Doğrudanmı? – dedi.

Onbaşı:

– Bəs necə? – dedi. – Əlbəttə, doğrudur...

Qoca torpaqsız kəndlilər barəsində uzun-uzadı danışdı. Sonra yenə də Maraşa keçdi. Maraşdan danışdı. Maraşdakı çəltik zəmilərindən, bu zəmilərdə işləyən işçilərdən danışdı. Maraşın bağlarından, Maraşın torpağından söhbət açdı... Xocaoğlu adında bir ağadan danışdı. Onun dünya qədər torpağı, küp-küp qızılı olduğunu söylədi. Məmməd dinmədən qulaq asırdı. Həsən Onbaşı özünün əsir düşüb Qafqazda yaşadığını nağıl etdi. Oralardan söhbət açdı. Qalisiyadan danışdı. Sonra Şam, Beyrut, Adana, Mərsin, Konya şəhərlərini təsvir etdi. Konyada Mövlana adında böyük bir şəxsin dəfn olunduğundan, onun türbəsindən danışdı. Sonra birdən susdu, yorğanı başına çəkdi. Otaqdakı haykүy də kəsilmişdi. Otağın bir küncündə birisi sazının üstünə əyilərək çalır və qalın bir səslə, zorla eşidiləcək qədər yavaşcadan el mahnısı oxuyurdu. Onun uzun sifəti neft lampasının işığında müxtəlif şəklə girirdi; gah uzanır, gah qısalır, gah da enliləşirdi. Məmməd heç bir şey düşünmədən uzun zaman onu dinlədi. Sazçalan sazını yatağının başı tərəfdəki mıxdan asdı və yorğanını başına çəkdi.

Məmməd çox mütəəssir olmuşdu. Gözünə yuxu getmirdi. Dərin fikrə getmişdi. Ağlından min cür fikir keçirdi.

Düşüncələr aləmində dolaşırdı. Dünya xəyalında böyümüşdü. Dünyanın nə qədər geniş olduğunu düşünürdü. Dəyirmanoluq kəndi gözündə bir nöqtə kimi qalmışdı. Nəhəng Abdi ağa gözünə qarışqa kimi görünürdü. Bəlkə də, ilk dəfə olaraq hər şeyi olduğu kimi düşünürdü. Məhəbbət və şövqlə düşünürdü. İlk dəfə olaraq sərbəst düşünürdü. Qəlbində bir kin duymağa başlamışdı. Özü öz gözündə böyümüşdü. Özünü də insan saymağa başlamışdı. Yatağında bir böyrü üstündən o biri böyrü üstə çevrilərkən öz-özünə dedi: «Abdi ağa da insandır, biz də...»

Səhər erkən Mustafa onu dümsüklədi. Duymadı. Yuxudaydı. Bəlkə də, dalğın olduğu üçün yuxulu kimi görünürdü. Mustafa yorğanı onun üstündən çəkdi. Üstü açıq olduğu üçün daha yata bilməzdi. Oyanıb ayağa qalxdı. Gözləri şişmişdi. Üzü sapsarı saralmışdı. Amma üzündə bir məmnunluq vardı. Gözlərində düşünmənin səadəti oxunurdu...

Karvansaraçının haqqını verib, oradan çıxdılar.

Məmməd dedi:

– Görəsən, Həsən Onbaşı hardadır? Gərək onunla vidalaşaq.

– Gərək vidalaşaq, – deyə Mustafa təkrar etdi.

Qapıda qısaboylu karvansaraçıdan qocanı soruşdular.

Karvansaraçı:

– O əclafımı xəbər alırsınız? – deyə soruşdu. – O əclaf hələ gecə ikən yatağından qalxdı, yükünü yükləyib, kəndlərdə satmağa getdi. On gündən sonra ancaq gələr. Boşlayın o əclafı.

Məmməd təəssüflə:

– Kaş ki, onu görəydik, – dedi.

– Kaş ki... – deyə Mustafa təkrar etdi.

Onlar gəlib bazarın ortasında çaşqın-çaşqın dayandılar. Hər tərəfi seyr etməyə başladılar. Günəş ətrafı nura boyamışdı. Bazarda çoxlu adam vardı, onlar belə bir izdiham görməmişdilər. Məmməd öz-özünə dedi: «Qarışqa kimi

qaynaşırlar». Şərbətçilər sarı bürünc dəstilərini dallarına alıb, sarı bürünc camlarını şaqqıldada-şaqqıldada çığırırdılar:

– Şərbət! Şərbət! Bal şərbəti! Meyvə kökü! Biyan kökü! İçən də peşmandır, içməyən də!

Gün sarı bürünc dəstiləri parıldadırdı.

Gözü sarı bürünc dəstidə qalan Məmməd, dəstini yaxından görə bilmək üçün:

– Şərbətçi, mənə bir şərbət ver, – dedi. – Yoldaşıma da ver!

Şərbətçi qabağa əyilərək camı doldurarkən, Məmməd çəkinə-çəkinə əlini parıldayan bürüncə sürtdü. Şərbətçi hərəsinə bir cam uzatdı. Şərbət buz kimi soyuq idi, özü də köpüklənirdi. Hər ikisi də şərbəti ancaq yarısına qədər içə bildi. Xoşlarına gəlmədi.

Bir kənarda, hündür kötüyün üstündə oturmuş bir kişi nal qayırır, işləyə-işləyə el mahnısı oxuyurdu; nalın cingiltisi mahnıya qarışırdı. Bu, qəsəbədə məşhur Kor Hacı idi. Məmməd onun qayırdığı dəstilərə, nallara heyran qaldı.

Sonra Məmmədin burnuna xoş bir iy gəldi. Bu, kabab iyi idi. Arxalarına dönüncə, yarıuçuq bir dükanın içindən yağlı tüstü çıxdığını gördülər. Tüstüdən kəskin ət qoxusu, yağ qoxusu gəlirdi. Bu qoxu onların başlarını gicəlləndirdi. Onlar qeyri-iradi olaraq kababçı dükanına girdilər.

Kababçı şagirdi:

– Buyurun, buyurun, – deyə onları iltifatla içəri dəvət etdi.

Bu onları daha çox təəccübləndirdi. Oturub kabab gözlədilər. Dünənki bazar, dünənki qəsəbə, dünənki aləm Məmmədə bu gün bambaşqa görünürdü. Sanki ayaqlarındakı, ürəyindəki bağ açılmışdı. Özünü azad, sərbəst hiss edirdi. Sanki indicə qanadlanıb uçacaqdı.

Kababı utana-utana yedilər. Sanki dükandakı adamların hamısı dayanıb onlara baxırdı. Kababçı dükanından sərsəm bir halda çıxdılar.

İki-üç dəfə bazarı bu başdan o başa dolaşdılar.

Məmməd üzünü Mustafaya tutub:

– Buranın ağası yoxmuş, – dedi.

– Doğrudan, yoxmuş.

Məmməd heyrətlə:

– Ağasız kənd! – deyə bildi.

İpək parçalar asılmış bir dükana girdilər. Məmməd bir ipək parça seçdi. Sarı ipəkdəndi. İpəyi ovcunda sıxdı, sonra da açdı. İpək ovcundan sürüşüb yerə düşdü. Xalis ipəkdir! Onlar ipəyi alıb küçəyə çıxdılar.

Mustafa Məmmədə göz vurdu:

– Xətcə üçün aldın, eləmi?

Məmməd zarafatyana:

– Yaxşı bildin, Mustafa. Ağıllı oğlansan! – dedi.

Dünən axşam halva yedikləri dükandan halva, çörəkçixanadan da isti çörək aldılar. Çörəkdən isti buğ çıxırdı. Halva ilə çörəyi bir yaylığa qoyub bağladılar.

Onlar gəlib bazarın ortasındakı bir ağ daşın üstündə oturdular, gözlərini meyvə dükanında qalaq-qalaq düzülmüş sarı portağallara zillədilər. Ayağa qalxdılar, adama bir portağal alıb soydular. Kəndə yola düşəndə günortaya az qalırdı. Dik başlarının üzərindəki günəş, onların kölgələrini lap ayaqlarının üstünə salırdı. Kölgələr kiçicik, qara dairə şəklində idi.

Qəsəbədən çıxdıqları andan qəsəbə gözdən itənədək tez-tez dönüb oraya baxırdılar. Qəsəbənin üzərində ağ buludlar üzürdü. Evlərin bacalarından yavaş-yavaş ucalan gümüşü tüstü havada asılıb qalmışdı. Qırmızı kirəmitlər durğun mavi səmaya sanki yapışmışdı.

Gecə yarıdan ötəndə kəndə girdilər. Dan yerindəki iri, parlaq ulduz doğmuşdu, ətrafa şölə saçırdı.

Məmmədgilin evinin qabağında Mustafa ondan ayrıldı. Mustafa çox yorğundu. Qəsəbəyə getdiyinə peşman olmuşdu. Məmməd isə tamamilə əksinə, sevinc içində idi. Məmməd də öz qapılarına tərəf getdi. O yerimək istəyirdi,

amma ayaqları geri gedirdi. Kürəyini evin divarına dayadı. İçəri girsinmi, yoxsa girməsin? Girməməyə qərar verdi. Geri döndü. Çəpərlərin kölgəsinə qısıla-qısıla gedirdi. Bir evin qabağında dayanıb nəfəsini dərdi. Evin qabağında budaqları çətir kimi açılmış bir tut ağacı vardı. O, tut ağacının altında dayanmışdı. Bir qədər dayandıqdan sonra gedib soldakı çəpərin kölgəsində yerə uzandı. Yorğunluğu yavaş-yavaş çıxırdı.

Bu yerlərdə ayaqları çox uzun, rəngi, duman arxasından görünən ağacın yarpaqlarının rəngi kimi, yaşıla çalan, zərif bir quş yaşayır; onun boynu və dimdiyi o qədər uzundur ki, bədənindən ayrı kimi görünür. Bu quşa həmişə su kənarlarında təsadüf olunur. Dəyirmanoluq kəndliləri onun adına divlik quşu deyirlər. Bu quşun çox qəribə səsi var. Oxuyanda elə bil ki, fit çalınır. Fitin axırı qırıq-qırıq səslənir. Fit çalmağa başlayır, birdən kəsir. Quşun, etməsinin bütün ləzzəti, gözəlliyi öz fitini bu cür birdən-birə kəsməsindədir.

Məmməd bu quşun oxumasını çox yaxşı yamsılaya bilirdi. İndi də o, uzandığı yerdə bir neçə dəfə həmin quş kimi ötdü. Gözləri qapıdaydı. Ancaq qapı açılmırdı ki, açılmırdı... Məmməd əsəbiləşdi. Bir-birinin ardınca bir neçə dəfə quş kimi fit çaldı. Haçandan-haçana qapı yavaş-yavaş açıldı. Məmmədin ürəyi bərk-bərk döyünürdü, elə bil indicə yerindən qopacaqdı. Qapıdan çıxan qaraltı səssiz-səssiz gəlib, onun yanında uzandı. Onlar lap çəpərin dibinə qısıldılar.

Məmməd əlini uzadıb, yavaşcadan:

– Xətcə, – dedi.

Xətcə:

– Can, – deyə cavab verdi. – Yolunu çox gözlədim. Gözlərim yollarda qaldı.

Onlar bir-birinin hərarətini hiss edirdilər. Nəfəsləri isti bir yel kimi idi. Bir-birinə daha bərk qısıldılar. Məmmədin başı hərlənirdi. İpək parça, buz qədər soyuq su kimi, Məmmədin əlindən Xətcənin əllərinə axdı.

Bir müddət beləcə bir-birini qucaqlayıb qaldılar. Danışmadılar. Məmməd tir-tir əsirdi. Qıçları tarıma çəkilmişdi. Təzə çəmən qoxusu gəlirdi... Məmmədin başı hərlənirdi.

Xətcə:

– Sən olmasan, mən öləröm, – dedi. – Yaşaya bilmərəm. İkicə gün getdin... Dünya başıma dar gəldi.

Məmməd:

– Mən də dözə bilmədim, – dedi.

– Qəsəbə necə idi? – deyə Xətcə soruşdu.

Məmməd:

– Dayan, – deyə onun sözünü kəsdi. – Sənə deyiləsi sözüm var. İşlər başqa cürdür. Həsən Onbaşı adlı bir nəfərlə tanış oldum. Elə bir adamdır ki, hətta İstanbulu da görmüşdür. O Həsən Onbaşı maraşlıdır... Maraşın lap özündəndir. Mənə hər bir şeyi söylədi. O Həsən Onbaşı mənə dedi ki, nişanlını götür gəl Çuxurovaya... Həsən Onbaşı dedi ki, Çuxurovanın ağası yoxdur. O, belə dedi. Həsən Onbaşı mənim üçün tarla tapacaq, öküz tapacaq, ev tapacaq... Həsən Onbaşı Çuxurovada yaşayır. Mənə dedi ki, nişanlını götür qaç, gəl oraya.

Xətcə:

– Həsən Onbaşı... – deyə təkrar etdi.

– O qədər yaxşı adamdır ki, yar ürəyini, ürəyinin başına qoy. Biz qaçarsaq, bizim üçün hər şey edəcək.

– Biz qaçarsaq... – deyə Xətcə təkrar etdi.

Məmməd dedi:

– Həsən Onbaşı... Uzun saqqalı var. Ağappaq. Nə qədər ki, o, Çuxurovadadır, bizə qorxu yoxdur. Hə-ə, Həsən Onbaşı... Mənə dedi ki, qoçaq oğlan, nişanlını götür qaç, buraya gəl. Mən də dedim ki, yaxşı, on gündən sonra onu götürüb gələrəm.

Xətcə:

– On gündən sonra... – deyə təkrar etdi.

Məmməd dedi:

– Atadan da yaxşıdır... Bir ağ saqqalı var ki, axar su kimi, par-par parıldayır...

– Gəl elə indi gedək.
– Yox, on gündən sonra...
– Mən qorxuram.
– Nə qədər Həsən Onbaşı Çuxurovadadır, bizə qorxu yoxdur. Amma mən anamın dərdini çəkirəm, Abdi anama zülm eləyər.
– Bir halda ki, Həsən Onbaşı var, o da gedər.
– Ona yalvararam. Hər şeyi ona danışaram. Onbaşı var, deyərəm. Bəlkə, getdi.
– Mən qorxuram. Abdidən qorxuram. Qardaşı oğlu həmişə bizdə düşüb qalır. Hey anamla pıçıldaşırlar... Bir gün əvvəl...
– On gün keçər. On birinci gün... Sən, mən, anam... Bir gecə... Yola çıxarıq... Ver əlini, Çuxurova, gəldik... Həsən Onbaşı, biz gəldik, deyərik. O çaşıb qalar. Həm də sevinər.
– Sevinər. Mən qorxuram.
Bir xeyli dinmədilər. Onların nəfəslərindən başqa heç bir səs eşidilmirdi. Gecə böcəkləri oxuyurdu.
Xətcə təkrar dedi:
– Mən qorxuram.
Məmməd:
– Onbaşı çox sevinər...
– Anamdan qorxuram.
Məmmədin başı hərlənirdi. Gözlərinin önündə hey sarı qığılcımlar hərlənirdi... Daim axan, hərlənən, parıldayan sarı günəş qığılcımları...
– On gün keçər, on birinci gün... Yallah...
Xətcə Osmanın qızıdır. Osman həlim xasiyyətli, heç kəslə qaynayıb-qarışmayan, sakit bir adamdır. Xətcənin anası isə Allahın bəlasıdır. Kəndin harasında dava-dalaş olsa, başını ora soxar. Uzunboylu, güclüdür. Evin bütün işini o görür. Hətta tarlanı da o şumlayır.
Məmmədlə Xətcənin uşaqlıqları birlikdə keçmişdi. Oğlan uşaqları içərisində ən gözəl evciyi Məmməd düzəldərdi. Onun düzəltdiyi evcikləri də hamıdan yaxşı Xətcə bəzə-

yərdi. Çox vaxt onlar bərabər oynadıqları uşaqlardan ayrılıb başqa bir yerə gedər, cürbəcür oyunlar icad edərdilər...

Xətcə on beş yaşına girəndən sonra, Məmmədin anasından corab toxumağı öyrənmək üçün hər gün Məmmədgilə gəlirdi. Məmmədin anası ona ən gözəl nümunələri verir, ən gözəl naxışları öyrədirdi.

Tez-tez də qızın saçlarını tumarlayaraq deyərdi:

– Gözəl qızım, inşallah, sən mənim gəlinim olacaqsan.

Məmmədin anası Xətcə barəsində onun anası ilə, ya da başqa bir adamla danışanda, qızı «gəlinim» adlandırardı.

Xətcənin on altı yaşı tamam olanda olan oldu.

Bir gün Məmməd yorğun halda cüt sürməkdən qayıdırdı. Xətcə də dağdan, göbələk yığmaqdan gəlirdi. Azı bir ay idi ki, bir-birini görməmişdilər. Alacagedikdə bir-birinə rast gələndə, hər ikisini sevinc bürüdü, gülmək tutdu. Bir daşın üstündə oturdular. Hava qaralırdı. Xətcə qalxıb getmək istədi. Məmməd qızın əlindən tutub geri oturtdu:

– Hələ dayan! – dedi.

Məmməd tir-tir titrəyirdi. Hər yanı od tutub yanırdı. Bədəni ürpənirdi:

– Sən mənim nişanlım deyilsənmi? – dedi.

Xətcənin əllərini öz əlləri içinə aldı:

– Sən mənim... – dedi.

Xətcə gülməyə başladı.

Məmməd:

– Ay qız, bir dillən görüm, – dedi, – sən mənim nişanlım deyilsənmi?

Xətcə Məmməddən aralanmaq istəyirdi, lakin Məmməd onun əllərindən bərk-bərk tutmuşdu. Bütün bədənini tər basmışdı...

– Ay qız, – deyirdi. – Sən...

Birdən qızı öpmək istədi.

Xətcə qıpqırmızı qızararaq, Məmmədi cəld itələdi və qaçmağa üz qoydu. Məmməd arxasınca qaçıb onu tutdu. Qız sakitləşmiş, quzu kimi olmuşdu.

Məmmədin də əvvəlki həyəcanı bir qədər azalmışdı.

Məmməd:

– Bu gecə gələcəyəm, – dedi. – Böyük tut ağacının altında gizlənəcəyəm. Divlik quşu kimi fit çalacağam... Hamı elə düşünər ki, ötən divlik quşudur. Sonra da divlik quşu kimi bir neçə dəfə fit çaldı:

– Bax belə, – dedi.

Xətcəni gülmək tutdu:

– Lap divlik quşunun fitinə oxşadı... Heç kəs başa düşməz.

Məmməd:

– Məgər biz bir-birimizin nişanlısı deyilikmi? Ancaq qoy hələ heç kəs bunu bilməsin, – dedi.

Birdən Xətcənin rəngi soldu:

– Bəlkə, bizi görüblər? – deyərək qaçdı.

Həmin axşamdan sonra gün keçdikcə onların sevdaları artdı, qarasevdaya çevrildi. Onların sevdası dillərdə dastan oldu.

Nə olursa olsun onlar hər gecə görüşərdilər. Görüşə bilmədikləri gecə nə qızın gözünə yuxu gedərdi, nə də oğlanın... Bəzən Xətcənin anası gəlib onları yaxalardı. Bunun üstündə qızını incidərdi. Amma bunun köməyi olmazdı. Gecələr anası Xətcənin əllərini, ayaqlarını bağlardı. Qapıya qıfıl üstündən qıfıl vurardı. Lakin bunun da köməyi olmazdı. Xətcə hər əngələ bir çarə tapardı.



Xətcə Məmməd üçün corablar toxuyar, çəkili cib yaylıqları tikər, ona mahnılar qoşardı. Qız öz eşqini, həsrətini, qısqanclığını bu corablara vurduğu əlvan naxışlarda, bu mahnılarda ifadə edərdi. Bu mahnılar hələ də Toros dağlarında oxunur. Corabları görənlər ürpənirdilər. Mahnıları eşidənlərin, oxuyanların bədəni ürpəşir, qəlbi kövrəlirdi...

Məmməd evlərinə nə zaman, necə gəldiyini sezmədi. Dan yerindəki parlaq ulduz öz işığını qeyb etmiş, ağarmışdı. Dan yeri də xəfifcə ağarırdı.

Məmməd qapıdan:

– Ana! Ana! – deyə çağırdı.

Ana yatmamışdı, oğlunu düşünürdü.

– Bala! – deyə anası yerindən qalxdı. Qapını açdı, oğlunun boynuna sarıldı.

– Demək, yolu gecə gəlmisiniz?

– Hə, gecə gəlmişik.

Məmməd içəri girər-girməz özünü yatağa saldı. Bərk yuxusu vardı. Gözlərinin önündə sarı bir parıltı sayrışırdı. Sayrışan parıltılar hərlənirdi.

Bəlkə, bu, ümiddir. Bəlkə də, bir həsrətdir. Həsrət hərarətlidir. Həsrət bir dost, bir sevgilidir. Həsrətin hərarəti insanı isindirir. Məmmədin beynində, qəlbində iliklərinə işləmiş sarı bürünc parıltısı titrəşirdi. Parıltıların arxasında qırmızı kirəmitli damları mavi səmaya dirənmiş qəsəbə görünürdü...

Sarı bürünc parıltıları kabab manqalından ucalan kəsif göyümsov tüstüyə qarışmışdı. Kor Hacının qayırdığı nalların cingiltisi... Küçəyə ağ, hamar çay daşları döşəmişlər. Küçəyə döşənmiş ağ daşlar parıldayır.

Ana oğlunun baş tərəfində oturub soruşur:

– Qəsəbə necə idi, oğlum?

Məmməd:

– Necə? – deyə soruşur, başı sinəsinə tərəf sallanır.

Kor Hacının nal döyərkən necə mahnı oxuduğu xəyalına gəlir. Sonra xəyalında damı qırmızı kirəmitli evlər canlanır. Yarıyuxulu, yarıoyaq gülümsünür. Düşünür ki, sabah və ya biri gün qaçacaqlar. Həsən Onbaşı kəndlərdən on gündən sonra qayıdacaqdı. Bunu düşünərkən məyus olur. Sonra məyusluq onu tərk edir. İşlərini on günə ancaq yoluna qoya bilərlər. Həsən Onbaşının uşaq üzünə oxşar gülərüzü onun gözləri qarşısında canlanır... Həsən Onbaşının ağ saqqalı sanki özününkü deyil, taxmadır. Həsən Onbaşı bir yer tapar. Bir iş də tapar. Məmməd nədənsə Həsən Onbaşıya çox güvənir.

Məmməd öz-özünə deyir: «Bütün dünyanı qarış-qarış gəzmişdir, hər yerə bələddir». Qəsəbənin ağası da yoxdur. Xətcə, o və anası, üçü də birlikdə işlərlər. Qazandıqları özlərininki olar. Həsən Onbaşı hökmən bu işdə onlara kömək edər. Haradan eşitdiyi Məmmədin yadında deyil, amma bilir ki, Çuxurovanın torpağı bərəkətlidir. Bunu düşünür və sevincindən ürəyi bərk-bərk döyünür. Çuxurova torpağında süpürüm kolu bitmir. Çuxurovada məskən salandan, ev-eşik sahibi olandan sonra o, bir gün öz kəndlərinə gələcək və Çuxurovanın necə bir yer olduğunu hamıya nağıl edəcəkdir... Onda bütöv bir kənd onun ardınca köçüb Çuxurovaya gələcək. Abdi kənddə təkcə qalacaq. O, nə əkin əkməyi bacarır, nə də biçin biçməyi... Acından öləcək...

Ana təkrar soruşur:

– Qəsəbə necə idi, oğlum?

Məmmədə elə gəlir ki, anasına cavab vermişdir; O yenə də xəyala dalır. Meyvə satanların önündə başına ağ fetr şlyapa qoymuş bir adam görmüşdü. O adam tərtəmiz geyinmişdi... Ayağında şalvar vardı... O adam portağal alırdı. Məmməd onun barmaqlarına diqqət yetirmişdi. O, uzun, ağ barmaqları ilə tez-tez pul sayırdı. Gümüş pullar parıldaya-parıldaya onun barmaqlarının arasından axıb tökülürdü...

– Yatırsanmı, bala? – deyə anası soruşdu.

O, yuxudaydımı? Bürünc parıltısı onun düşüncələrini yenidən alt-üst etdi. Çuxurova günəşinin şüalarından ətrafa səpələnən milyonlarla parıltı.

Məmməd oyandığı zaman gün xeyli ucalmışdı. Anası oğlunun yatağının baş tərəfində oturub ona baxırdı. Birdən nədənsə anasından utandı. Yorğanı başına çəkdi. Uşaq vaxtı kefi kök olanda həmişə belə edərdi. Anası gülərək yorğanı başından çəkdi.

– Di qalx, ay yekə oğlan. Gün günorta oldu. Qalx, mənə qəsəbədən danış.

Məmməd gözlərini zorla açdı. Eşikdə gözqamaşdırıcı bir günəş vardı. Günəşə gözucu baxdı. Qamaşan gözlərini birdən otağın içərisinə çevirdi. Günəş onun daxilində hər şeyi alt-üst etmişdi.

Məmməd yataqdan çox yorğun, əzgin qalxdı. Bütün yorğunluğuna, onu bürüyən qüssəyə baxmayaraq, ürəyinə haradansa bir işıq, bir aydınlıq sızırdı. Ürəyindəki qüssəni dağıdan şeyin nə olduğunu özü də bilmirdi. Bu nəşəni doğuran həmin isti işıq idi. Bu işıq haradan sızırdı?

Anasının dizinin dibində oturdu. Qəsəbədən danışmağa başladı. Qadın qəsəbə barəsində bir neçə dəfə ərindən, bir neçə dəfə də başqalarından bəzi şeylər eşitmişdi, amma qəsəbə barəsində heç kəs oğlu kimi gözəl danışmamışdı. Məmməd sarı bürünc parıltısından danışanda lap coşmuşdu.. Sözlər ağzından su kimi axırdı.

Məmməd qəsəbə barəsində hərarətlə danışıb qurtardı. Ancaq anasına açacağı mətləbi söyləmək istəyəndə udqunub qaldı. Anası onun bu halından xəbərdardı. Bu dəfə də məsələni başa düşdü. Oğlunun saçlarını tumarladı. Onun gözlərinin içinə baxdı. Oğlu bir şey, mühüm bir şey söyləmək istəyirdi, amma söyləməyə cürət etmirdi. Oğlan anasının baxışına davam gətirməyib, gözlərini ondan ayırdı. Ana öz-özünə dedi: «Aydındır. Bir şey var. Mütləq bir şey var». O yenə də Məmmədə baxdı. Məmməd sanki donub qalmışdı. Anası yenə də öz-özünə dedi: «Yox, o öz ürəyindəkini asanlıqla açıb söyləyə bilməyəcək».

Anası özünü saxlaya bilmədi:

– Oğlum, Məmməd, ürəyindəkini açıb söyləsənə?

Məmməd bunu eşidəndə diksindi. Üzü tutqunlaşdı.

– Di aç söylə, – deyə anası təkrar etdi.

Məmməd başını aşağı saldı.

– Mən, – dedi, – bu gecə Xətcə ilə danışdım. Biz qaçmağa qərar verdik.

– Sən ağlını itirmisən, Məmməd?

– Fikirləşdik ki, sən kənddə qalsan, Abdi ağa səni incidər. Sən də gəl, bizimlə Çuxurovaya gedək. Qəsəbədə yaşayaq.

Anası eyni qəzəblə:

– Sən dəlimi olmusan? Mən yurdumu-yuvamı, evimi-eşiyimi buraxıb hara gedəcəyəm? Bir də sən xalqın qızını götürüb hara aparacaqsan?

– Onda bəs nə edək? Sən gəl, mənim başıma bir ağıl qoy.

– Mən sənə yüz kərə demişəm ki, əl çək bu Xətcədən... Onu Abdi ağanın qardaşı oğluna nişanlamaq istəyirlər. Onda işin olmasın. Belə fikirlərdən daşın!

– Əl çəkə bilmərəm. Abdi ağa olmasın, kim olur olsun, əl çəkə bilmərəm. Məgər Abdi ağa camaatın könlünün də ağasıdır? Qızı götürüb qaçaram. Mən ancaq bundan qorxuram ki, səni incidərlər. Mənim qorxduğum budur! Yoxsa... Allaha and olsun, qaçıraram...

– Mən evimi-eşiyimi, yurdumu-yuvamı buraxıb heç yerə gedən deyiləm. Sən Xətcəni götür get. Yenə də sənə deyirəm ki, oğlum, sən yalqızsan, heç kəsin yoxdur. Bu işin axırı yaxşı olmaz. Sənin qarşında beş kəndin qolugüclü ağası durur. Qızı onun qardaşı oğlu istəyir. Bunun axırı yaxşı olmaz. Gəl, sən bu işdən əl çək. Məgər sənin üçün qız yoxdur?!

Məmməd hirsləndi. O, az hallarda anasına hirslənərdi.

– Yoxdur, – dedi. – Dünyada Xətcədən başqa qız yoxdur.

Məmməd bir daha ağzını açıb danışmadı.

İki gündən sonra səs yayıldı ki, Abdi ağanın o biri kənddə yaşayan qardaşı oğlu Xətcə üçün elçi göndərmişdir. Elçilərin arasında Abdi ağa da vardı. Çığırıb-bağırmasına, ağlamasına baxmayaraq, qızı Abdi ağanın qardaşı oğluna verirlər. Abdi ağanın qardaşı oğlu kimi adam hər kəsə qismət olmaz. Qızı özbaşına buraxsan, ya qaraçıya ərə gedər, ya da dümbəkçiyə. Xətcə bir qədər ağlar, sonra sakit olar.

İki gündən sonra da qıza nişan gətirdilər. Abdi ağa da gəlininə beş lirəlik qızıl pul bağışladı.

Nişandan sonra kəndin içinə yaman dedi-qodu düşdü. Hamı – qadınlar da, uşaqlar da, yaşlılar da, gənclər də, kişilər də bu barədə danışırdı...

– Məmməd qızı götürüb qaçar. Qoymaz ki, Xətcə Abdi ağanın keçəl qardaşı oğluna qismət olsun.

– Məmməd qorxar.

– Heç qorxmaz.

– Məmmədin gözlərində heç kəs qorxu görə bilməz.

– Görə bilməz.

– Ona Məmməd deyərlər!

– Məmməd olanda nə olar? Məmməd nəkarədir? Abdi onu parça-parça etdirər, leşini də itlərə atdırar.

– Hirslənsə, hökmən atdırar.

– Məmməd qızı götürüb qaçar.

– Haraya qaçar?

– Haraya qaçar? Qaçmağa yer tapar.

– Haraya qaçsa, lap ilanın yuvasına da girsə, Abdi ağa onu tapıb çıxarar.

– Abdi ağanın əl-qolu uzundur. Onun dalında hökumət durmuşdur...

– Onun dalında hökumət də durmuşdur, qəza rəisi də, müdir də, polis onbaşısı da.

– Müdir hər gün onun evində olur.

– Vallah, bu Məmmədin halına ürəyim yanır.

– Özgə kənddən birisi gəlib qızı onun əlindən aldı.

– Yazıq Məmməd.

– Dünən Məmmədi gördüm.

– Ay yazıq!

– Onu evlərinin dalında gördüm. Bənizi solmuşdu. Üzü yaşıl-sarı rəngdə idi.

– Mən də onun gözlərindən qorxdum. Onun gözləri həmişə mehribanlıqla parlardı.

– Qıza nişan gətirilən gündən yazıq evdən bayıra çıxmır...

– Qaranlıq bir küncə çəkilib qalmışdır...
– Səhərdən axşamadək orda oturur... Hey düşünür...
– Məhəbbətə mübtəla olmuşdur... Bu, çox çətin məsələdir!
– Məhəbbət insanı dəli edər.
– Məmməd əslində dəli kimidir...
– Anası hər gecə qızın əl-ayağını kəndirlə bağlayır.
– Qapıya qıfıl üstündən qıfıl vurur!
– Dönənin də halı pisdir.
– O da oğlu üçün qorxur.
– Abdi ağa da məsələdən xəbərdardır...
– Ay, yazıq Məmməd!
– Məsələni eşidib gülmüşdür...
– Qızın iki gözü sanki iki çeşmədir...
– Ay, yazıq Məmməd!
– Abdi ağanın keçəl qardaşı oğlu gəlib təşəxxüs satır. Kəndin içində gəzir.
– Dəyyusun biri dəyyus...
– Lap böyüyündən...
– Bu ki zülmdür...
– Ay, yazıq Məmməd!
– Bu ki zülmdür.
– Məmməd qüssədən ölməsə yaxşıdır...
– Qız qüssədən ölər...
– Onları bir-birindən ayıranı görüm kor olsun.
– Yavaş danış.
– Görüm onun heç yaxşı günü olmasın.
– Görüm onun canı heç azardan qurtarmasın...
– Həmişə ac-yalavac olsun.
– Allah eləsin ki, bədəninə qurd düşsün.
– Onu görüm ki, qızılyel azarı tutsun, heç yatağından qalxmasın.
– Yavaş danış...
– Onu görüm gözlərində tikan bitsin.
– Beş kənd onundur, hələ bu dağlar da onundur.

– Bütün dünyanı pulla satın almaq olar. Amma ürəyi satın almaq olmaz.

– Ay, yazıq Məmməd!

– Abdi ağa hələ bir gözləsin. Görsün Məmməd onun başına nə işlər gətirəcək. Siz hələ bir gözləyin.

– Ola bilər ki, Məmməd onu öldürsün...

– Öldürsə, əli nura batar.

– Məmməd hələ uşaqdır!

– Ay, yazıq Məmməd!

– Uşaqdır, amma...

– Məmməd ildə neçə dənə dağkeçisi vurur?

– Say!

– Gülləni iynənin gözündən keçirir.

– İnşallah, Abdi ağanın gözlərinin bəbəyindən vurar.

– Yavaş danış!

– Məmmədin əlinə silah keçsə, Abdini sağ qoymaz.

– Kaş indi Nəhəng Əhməd dağlarda olaydı...

– Kəndə gələrdi, nişanı qaytartdırardı, qızı Məmmədə verərdi.

– Məmmədin əlinə bir silah keçsəydi...

– Məmməd onun cəzasını verərdi.

– Kaş verəydi!

– Kəndli bir o günləri görsə... Qırx gün, qırx gecə şənlik edər.

– Sevənləri bir-birindən ayıran adam xoş gün görməz.

– Görməz inşallah...

– Məmməd onun cəzasını verə bilməsə, Allah verər.

– Versin inşallah.

– Yavaş danış!

– Hardasan, ay Nəhəng Əhməd?! Özünü gərək belə gündə göstərəydin.

– Deyirlər ki, Nəhəng Əhməd Dağıstanda cüt sürür. İndi o, arvaddan qorxaq olmuşdur.

– Məmməd qəsəbəyə getmişdi.

– Özünə yer düzəldir...

– Kaş bu keçəl qardaşoğlunun başına bir iş gələydi...
– Təpəsinə bir ildırım düşəydi.
– Durduğu yerdə birdən canı çıxaydı.
– Çıxaydı...
– Məmməd qızı qaçıraydı. Götürüb qaçaydı...
– Məmməd qızı qaçıraydı...
– Qızı götürüb qaçaydı.
– Mən Xətcəni tanıyıram. Özünü öldürər.
– O ölərsə, Məmməd də yaşamaz.
– Ay, yazıq Məmməd!
– Ay, yazıq Dönə! Gənc yaşında ərsiz qaldı. Barı oğulsuz qalmasın.
– Oğulsuz qalmasın!

Bütün kəndin camaatı ancaq bu barədə danışırdı. Məmmədin işi onlar üçün bir dərd olmuşdu. Amma əllərindən bir iş gəlmirdi. Bu söhbətlər dərhal Abdi ağanın qulağına çatırdı. Kənddə birisi asqırsaydı, o eşidərdi. Olub-keçəni, kəndlilərin nələr danışdığını o, nöqtəsinəcən bilərdi.

Bir gecə Abdi ağa adam göndərib Məmmədi öz evinə çağırdı. Məmməd pərt-pərt gəlib Abdi ağanın qabağında əl-əl üstə dayanan kimi o, çığıra-çığıra dedi:

– Ey namussuz nankor! Köpək kimi qapımda böyüdün. Adam oldun. Ey namus düşməni! Eşitdim ki, qardaşım oğlunun nişanlısına göz dikmisən...

Məmməd quruyub qalmışdı, qımıldanmırdı. Üzü divar kimi ağappaq olmuşdu. Heç hərəkət etmirdi. Yalnız iynə ucu qədər o kiçicik parıltı yenə də gəlib göz bəbəklərində peyda olmuşdu.

Abdi ağa:

– Mənə bax, Məmməd! – dedi. – Bu kənddə yaşamaq, çörək yemək istəyirsənsə, mənim sözümdən çıxma. Sən uşaqsan. Sən məni tanımırsan. Sən hələ məni tanımırsan. Mən adamın ocağını viran qoyaram. Eşitdinmi, ey ac nankor? Mən adamın ocağını viran qoyaram.

Gəlib Məmmədin qolundan bərk-bərk yapışdı:

– Mənə Abdi deyərlər. Mən adamın ocağını viran qoyaram.

Məmməd dinmirdi. O susduqca, Abdi ağa daha da hirslənib çığırırdı.

– Ey ac oğlu ac... – deyirdi. – Heç kəs cürət edib mənim qardaşım oğlunun nişanlısına göz dikə bilməz. Mən adamı parça-parça edib, leşini köpəklərə ataram. Mənə yaxşı bax! O qapıdan bir daha keçməyəcəksən. Başa düşdünmü? Keçməyəcəksən. Anladınmı?

Məmmədi bir neçə dəfə bərk-bərk silkələdi. Daşdan səs çıxırdı, amma Məmməddən səs çıxmırdı. Məmmədin susması Abdi ağanı daha da qəzəbləndirirdi. Birdən Abdi ağa özündən çıxaraq Məmmədi təpikləməyə başladı. Məmməd onu öldürməmək üçün özünü zorla saxlayırdı. Dişlərini dişlərinin üstünə basmışdı. Ord ətləri dişlərinin arasında idi. Hirsindən ord ətlərini sorur, dişləyirdi. Ağzı qan içində idi. Başında sapsarı qığılcımlar oynaşırdı.

– Rədd ol buradan! Sizlərə yaxşılıq eləmək, sizləri böyüdüb adam eləmək haramdır. Bəslə qarğanı, ovsun gözünü. Rədd ol, it oğlu!

Məmməd yarıbayğın, yarısərsəm halda bayıra çıxdı, yerə bir parça tüpürdü. Tüpürcək bir ovuc qan idi.



## VIII

Dünyada nə varsa, hər şey: evlər, ağaclar, qayalar, ulduzlar, ay, torpaq qaranlığın içində qeyb olmuş, ərimişdi. Narın yağış çiskinləyirdi. Yağışla birlikdə xəfif, soyuq bir yel əsirdi. Arabir itlər qaranlığa hürürdülər. Sonra tək bir xoruz uzun-uzun banladı. Sahibi vaxtsız banlayan bu xoruzu səhər tezdən hökmən kəsəcəkdir.

Uzaqdan, dağın dalındakı yoldan bir zınqırov səsi gəlirdi. Zınqırov səsi hərdən kəsilir, sonra təkrar eşidilirdi. Zınqırov səsləri uzun fasilələrlə gəlirdi. Bu, gələn yolçuların yorğunluğunun əlamətidir.

Məmməd xeyli zamandı ki, budaqları iri çətir kimi açılmış tut ağacının yanındakı çəpərin dibinə qısılaraq gözləyirdi. Məmməd düşünürdü ki... Yox, bu vəziyyətdə Məmməd heç bir şey düşünə bilməz. Məmməd yalnız üşüyürdü. Məmməd düşünmədən də bəzi şeylər duyurdu. Qaranlıqda narın yağış çiskinləyirdi. Qaranlıq çökəndən bəri Məmməd bu yağışın altında idi. Təpədən dırnağadək islanmışdı. Hərdən onu titrətmə tutur, sonra keçirdi. Çəpərin o tərəfindən bir tappıltı eşitdi, diqqətlə qulaq asdı. «Yəqin, pişikdir, çəpərdən yerə atıldı» – deyə düşündü. Birdən anası yadına düşdü. Ətini kəsmişlər kimi, bütün bədəni ağrıdı. Ürəyində kəskin bir acılıq duydu. Ürəyi sızladı. Anasını incidəcəkdilər... Çox uzaqda bir şimşək çaxdı. Qaranlıqda ərimiş tut ağacının gövdəsini, budaqlarını işıqlandırdı. Sanki Məmmədin də qəlbinin qaranlığından uzun bir işıq zolağı keçdi.

Bu anda bütün kənd, öz atları, eşşəkləri, sığırı, keçiləri, qoyunları, böcəkləri, toyuqları, pişikləri, itləri ilə birlikdə yatırdı. Ədavətlər, kinlər, sevgilər, qorxular, qayğılar, igidliklər dərin yuxuda idi. Bu anda yalnız yuxular yaşayır, çarpışırdı.

Görüş dairəsi nə qədər dar olursa-olsun, insan xəyalı genişdir. Dəyirmanoluq kəndindən kənara çıxmamış bir adamın belə, geniş xəyal aləmi vardır. Bu aləm ulduzlardan da o yana uzanıb gedə bilər. Özünə heç bir yer tapmazsa, Qaf dağının arxasınadək gedər. Bu da olmazsa, yuxuda gördüyü yerlər başqalaşar, cənnətə çevrilər. İndi, bu anda yuxunun içində xəyallar tüğyan edirdi. Bu yoxsul, bu məzlum Dəyirmanoluq kəndində xəyallar aləmi canlanmışdı.

Məmməd də yuxu görürdü. O həm qorxur, həm də yuxu görürdü. Birdən başında bir şimşək çaxdı. Çukurovanın bol günəşi başında parçalandı, böyüdü, genişləndi, nurlandı. Qəlbindəki işıq seli kəsilən kimi, Məmməd təşvişə düşdü. «Birdən gəlmədi? – deyə qorxa-qorxa düşündü. –

Gəlməsə, nə elərəm?» Fikrindən cürbəcür ehtimallar keçdi. «Gəlməsə, mən bilirəm nə edərəm» – dedi. Əli tapançasına dəydi. Tapançası yadına düşən kimi bütün qorxusu çəkildi, çarəsizliyini unutdu.

Tapançasını düşünürdü ki, çox xəfif bir ayaq səsi eşitdi. Bir az əvvəl düşündüklərindən utandı. Gəlib qarşısında duran Xətcə idi. Gündüz olsaydı, Xətcə Məmmədin üzünün əvvəlcə sapsarı saraldığını, sonra yavaş-yavaş qızardığını görüb təəccüb qalardı. Bunu başqa şeyə, bəlkə də, qorxuya yozardı.

– Səni çox gözlətdim, – deyə Xətcə üzr istədi. – Anam yatmaq bilmirdi ki, bilmirdi.

Onlar əl-ələ verib qorxa-qorxa oradan uzaqlaşdılar. Ayaqlarını yerə elə ehtiyatla basırdılar ki, azacıq da olsun səs eşidilmirdi. Sanki ayaqlarını heç yerə basmırdılar.

Kənddən çıxana qədər, doğrusu, nəfəs belə almadılar. Kənddən çıxandan sonra qorxuları bir qədər azaldı, özlərini bir az sərbəst hiss etdilər.

Xətcənin boğçasını Məmməd aparırdı. Xətcə Məmmədin yorulduğunu güman edərək boğçasını ondan istədi. Məmməd vermədi.

Çiskinləyən narın yağış tərslikdən şiddətləndi. Yanlarında, arxalarında, önlərində şimşəklər çaxırdı. Onlar qayalığı ötəndən sonra bir meşəyə girdilər. Çaxan şimşəklərdən arabir meşə işıqlanır, gündüz kimi olurdu. İşıqda ağacların gövdələrindən, navalçadan axan kimi su axdığı görünürdü. Xətcə hıçqıraraq ağlamağa başladı.

Məmmədin ona acığı tutdu:

– Sən də ağlamağa vaxt tapdın, – dedi.

Hava işıqlaşanadək meşədə bu minval ilə yeridilər. Harada olduqlarını özləri də bilmirdilər. Yağış hələ də yağırdı.

Xətcə hər addımda yağışı qarğıyıb:

– Səni görüm Allahın qəzəbinə gələsən, – deyirdi.

Hava tamam işıqlaşanda bir qaya oyuğu tapıb, oraya sığındılar. İkisi də ayaq üstə dayanıb tir-tir əsirdi. Paltarları

islanıb bədənlərinə yapışmışdı. Xətcənin saçlarının ucundan, hələ də yağış altında yeriyirmiş kimi, su sızırdı.

Məmməd dişləri bir-birinə dəyə-dəyə:

– Əgər qov islanmayıbsa, bir ocaq qalayıb paltarımızı qurudarıq, – dedi.

Xətcə məsud bir halda gülümsündü.

Məmməd:

– Gülmə, – dedi, – elə bir yağışa düşdük ki, su yalnız dəri kisənin içinə deyil, öz dərimizin altına da işləmişdir.

Kəmərinə bağlanmış kisəni əlləri titrəyə-titrəyə açmağa çalışırdı. Bütün ümid, qurtuluş burada idi. Gözləri kisənin içinə dikilmişdi. Sonra onların gözləri bir-birinə sataşdı, gülümsədilər. Kisənin içinə su keçməmişdi.

– Bilirsənmi, bu kisəni kim qayırıb?

– Yox, – deyə Xətcə, cavab verdi.

– Evinə qaçdığım Süleyman əmi vardı ha, o qayırıb. O zamandan bəri onun yadigarı olaraq saxlayıram.

Məmməd təlaş içərisində ətrafına göz gəzdirdi.



– Heç bir quru şey yoxdur ki, əllərimi qurulayım. Əlim dəyən kimi qov islanacaq.

– Amandır, yaş əllərinlə qovu götürmə.

– İndi gör, əllərimi necə qurulayacağam! – deyə Məmməd öyündü.

Oyuğun iç tərəfinə getdi. Oraya yağış tökülməmişdi. Torpaq qupquru, tozlu idi. Əllərini torpağa soxdu, toza buladı. Tozlu əllərini havaya qaldırıb, Xətcəyə:

– Gördünmü? – dedi.

Xətcə gülümsündü.

Məmməd:

– Xətcə, – dedi, – get, çır-çırpı topla!

Xətcə oyuqdan yağışın altına çıxdı. Az sonra bir dolu qucaq çır-çırpı ilə qayıtdı. Çır-çırpı quru idi, yalnız üstdən islanmışdı. Xırda-xırda sındırdılar, oyuğun ortasına yığdılar. Məmməd qovu çaxdı. Amma qov yansa da, çır-çırpını

alışdıra bilməzdi. Çır-çırpının alışması üçün kiçicik də olsa alov lazım idi. Nə etsinlər?

Məmməd:

– Sən burada dayan, – dedi. – Mən gedib bir talaşa tapım.

Az sonra əlində yağlı talaşa ilə qayıtdı. İti ağızlı iri xəncərini çıxarıb talaşanı yardı. Qov quru talaşanı da alışdıra bilmədi. Ona da alov lazımdı. Balaca bir alov olsaydı, talaşa alışardı. İndi bir kibrit olsaydı... Hər şey düzələrdi... Məmməd özü ilə kibrit də götürmüşdü. Amma kibrit islanıb, şorba kimi olmuşdu.

Məmməd:

– Xətcə, – dedi, – bir parça quru bez tapa bilmərikmi?

Soyuqdan Xətcənin dişləri şaqqıldayırdı.

– Qoy bir boğçanı açıb baxım. Bəlkə, ortasına su keçməyib.

Yağış ara vermədən hey yağırdı. Sanki göy deşilmişdi.

Xətcə boğçanı açdı. Xeyli axtardı. Paltarlarının içində büzüşüb qalmış bir yaylıq tapdı. Bu, Məmmədin ona ilk hədiyyəsi idi. Üstündə qırmızı xallar olan bir yaylıq idi. Kəndlərdə qadınlar belə yaylıqları başlarına bağlardılar.

– İslanmamış qalan budur, – deyə Xətcə yaylığı Məmmədə göstərdi.

Məmməd yaylığı tanıdı.

– Bumu var? – dedi. Məmməd yaylığı görəndə xoşhal oldu.

– Hə, – deyə Xətcə cavab verdi.

Məmməd azacıq hirslənərək:

– Burada donub öləcəyimi bilsəm də, yenə onu yandırmaram, – dedi.

– Bəlkə, donun quru yeri var, bir parça kəsək.

– Gətir baxaq.

Xətcə boğçanı gətirdi.

Məmməd boğçanı araşdırdı:

– Oho-o-o, – dedi, – burada bir quru parça deyil, yüz quru parça da tapılar.

Xətcə:

– Tapılarsa, götür, – dedi. – Hamısını yandır, eybi yoxdur, çılpaq gəzərik.

– Əgər işlər belə getsə, sən deyən kimi olacaq.

Məmməd islanmamış bir donun astarını sökdü. Çaxmağı çaxdı. Qovu bez parçasının içinə qoydu. Üfürməyə başladı. Var gücü ilə üfürdü. Yorulanda bezi Xətcəyə verdi. Bu dəmdə lap yanlarında bir ildırım çaxdı. Yer yavaşca titrədi. Ağaclar çatırdadı. Xətcə əlindəkini yerə saldı. Məmməd əyilib onu yerdən götürdü. Ordunu şişirdərək yenidən üfürməyə başladı. Ordu sancırdı. Bezin üstündə kiçicik bir alov görünəndə Məmməd sevindi. O biri əlindəki talaşanı dərhal alova yaxınlaşdırdı. Talaşa cızıldayaraq od aldı. Bir neçə talaşanı birləşdirdi. Ortadakı çır-çırpı yığınına dürtdü. Dövrəsinə çır-çırpı yığdı.

Yağış getdikcə şiddətlənirdi. Göy üzünü qara buludlar örtmüşdü. Ara vermədən şimşək çaxır, göy guruldayırdı. Şimşəklər bir anlığa da olsa, hər tərəfi işıqlandırırdı. Hər şimşəkdən sonra Məmmədin ürəyini bir sarı bürünc parıltısı bürüyürdü.

Tonqal getdikcə alovlanırdı. Məmməd ara vermədən tonqalın üstünə odun qalayırdı. Odunların suları çəkilən kimi alışıb yanırdı. Tonqaldan ucalan uzun alovlar oynaşırdı. Məmmədlə Xətcə üst paltarlarını çıxarıb, oradakı bir budağın üstünə sərdilər. Budağı da oda yaxınlaşdırdılar. Xətcə utanırdı. Ona görə də alt köynək-tumanını çıxartmırdı.

Məmməd:

– Çıxart onları, – dedi. – Çıxart ki, titrəməyəsən.

Xətcə yalvarıcı nəzərlərlə ona baxdı:

– Qoy bunlar əynimdə qurusun, – dedi.

Məmməd hirsli-hirsli:

– Əynində qurumaz, – dedi. – Əynində quruyanadək sən soyuqdan ölərsən.

Xətcə Məmmədin hirsləndiyini anlayınca, köynəyini çıxartmağa başladı. Çiyinləri yuvarlaq, əsmər idi. Köynə-

yini çıxaran kimi çır-çırpının üstünə atdı, məmələrini ovuclarının içinə alıb gizlətdi. Çiyinləri titrəyirdi. Boynu, qu quşunun boynu kimi, uzun, qəşəng idi. Qulaqlarının dalındakı qısa saçları qıvrım idi. Hörülmüş qara saçları arxasına tökülmüş, bütün kürəyini örtmüşdü. Məmələri əllərindən, barmaqlarının arasından çıxırdı. Bədənindəki sarı, narın tüklərin yerləri soyuqdan qabarmışdı. Qızınan kimi qabarcıqlar qeyb oldu. Dərisi hamarlaşdı və çəhrayı rəng aldı.

Məmməd gözlərini Xətcəyə dikmişdi. Qəlbində qarşısıalınmaz bir arzu duydu.

– Xətcə! – dedi.

Xətcə bu səsdən, adının bu şəkildə söylənilməsindən ürpəndi. Bu səs hər şeyi söyləyirdi. Xətcə anladı.

– Məmməd, – dedi, – indi kənddə aləm bir-birinə dəymişdir. İndi bizi bərk axtarırlar. Qorxuram ki, gəlib taparlar.

Məmmədi də eyni qorxu bürümüşdü. Ancaq büruzə vermədi:

– Bu meşənin içində bizi necə tapacaqlar? Sən də söz danışdın!..

Xətcə:

– Bilmirəm, – dedi. – Bilmirəm, amma qorxuram.

Uzun zaman susdudar. Yağış da sanki azacıq yavaşımışdı. Tonqal getdikcə alovlanırdı. Yandakı qayalar belə isinmişdi. Ayaqlarının altındakı torpaq da qurudu. Xətcə qurumuş köynəyini geydikdən sonra tumanını çıxartdı. Məmməd onun qəşəng, kök qıçlarını gördü. Çoxdan bəri ürəyində bəslədiyi arzu qarşısıalınmaz bir hal almışdı.

Məmməd yenə də eyni ahənglə:

– Xətcə! – dedi.

– Qorxuram, Məmməd, – deyə Xətcə cavab verdi.

Məmməd yaxınlaşıb ona qısıldı, biləyindən bərk-bərk yapışdı. Xətcə geri çəkildi. Məmməd var gücü ilə Xətcəni qucaqlayıb öpdü. Xətcə birdən süstləşdi.

Məmməd onu qayanın dibinə çəkdi. Xətcənin qalın dodaqları aralı qalmış, gözləri yumulmuşdu. Xətcənin əli-ayağı taqətdən düşmüşdü. Yavaşcadan:

– Qorxuram, eləmə, Məmməd! – deyirdi.

Tonqaldan ucalan alovlar onlara tərəf uzanırdı. Alovlar qayaları yalayırdı.

Haçandan-haçana özlərinə gəldilər. Məmməd Xətcənin əlindən tutdu. Onu uzandığı yerdən qaldırmaq istədi. Xətcə azacıq qalxdı. Sonra yenə də arxası üstə yerə uzandı. Qorxusu tamam keçmişdi. Daxilən bir əzginlik, bədənində yorğunluq hiss edirdi. Sonra özü ayağa qalxdı. Ayaqları, kürəyi, sağrıları torpağa bulanmışdı.

Xətcə qadın olmuşdu...

## IX

Ana hələ dan yeri sökülməmiş yatağından qalxdı. Xətcənin yatağına baxdı. Yatağın içi doluydu. Heç şübhələnmədi. Səhər açıldı, anası Xətcənin həmişəki vaxtda yataqdan qalxmadığını gördükdə, ürəyi düşdü. Qorxusu doğru çıxdı. Yorğanı açınca, elə bil onu ildırım vurdu. Xətcə bir yastığı uzunlamasına yorğanın altına qoymuşdu, onun yerinə yorğanın altında yastıq yatırdı. Bu, Xətcənin gecə ikən qaçdığını göstərirdi. Bu yastıq oyununu da onun qaçdığından tez xəbər tutmasınlar deyə çıxartmışdı.

Qadın əlində yorğan yerindəcə donub qalmışdı. Yalnız əri onu səsləyəndə, qadın özünə gəldi. Yorğanı əlindən buraxdı.

Toros dağlarında belə bir adət var: qızı qaçan, atı, öküzü, xoruzu oğurlanan adam evinin qapısına çıxar, bütün kəndə, onun paxıllığını çəkənlərə, onu gözü götürməyənlərə qarğış edər. Saatlarla qapıda durub qarğış edər. Kəndlilər ona heç bir cavab verməz, qarğışlarına etina etməzlər. Qarğış edənin bir xeyli keçəndən sonra hirsi soyuyar, bundan sonra baş vermiş hadisə barəsində ciddi söhbət başlanar.

Qadın ərinə:

– Qız getmişdir, – dedi. – İndi biz nə edək?

Əri açıq-aşkar bir sevinclə ucadan:

– Çox şükür Allaha, – dedi. – Çox şükür. Qızı Abdi ağanın keçəl qardaşı oğluna verməyə heç könlüm yox idi. Çarəsizlikdən razı olmuşdum. Çox şükür...

Qadın:

– Sus, – dedi. – Sus! Dediklərini eşidən olar. Abdi ağa elə bilər ki, qızı biz qaçırtmışıq, dərimizi soyar.

Ana kəndin adətinə görə qapıya çıxdı, yavaşca-yavaşca sinəsinə vurmağa başladı. Ancaq bunu ürəkdən eləmirdi. Heç kəsə də qarğış edə bilmirdi. Heç çığırmırdı da. Hey özünü yırğalayırdı.

Yalandan:

– Vay, – deyirdi, – bir gör başıma nə gəldi... Səni görüm yerlə sürünəsən, qızım! Allah bəlasını sənin başından əskik eləməsin! Namusumu iki quruşa satdın, qızım! Səni görüm, gün görməyəsən, qızım! İki gözün ovulub ovcuna tökülsün, qızım!

Əri sərt bir tərzdə:

– Gəl içəri, – dedi. – Qız lap yaxşı eləyib. Könlü istədiyi oğlana qoşulub qaçıb. Nə olursa, qoy olsun. Heç səsini çıxartma, arvad! Çığır-bağır salma. Get, əhvalatı Abdi ağaya danış. Qıza da qarğış eləmə! Gəl içəri.

Qadın ərinin dediyi kimi elədi. Başına qara yaylıq bağladı. Düz Abdi ağanın evinə getdi.

Abdi ağa qadını görüncə:

– O-o-ho-o, haradasan, bacım. Heç görünmürsən? Heç ağanın evinə gəlmirsən. Gəl, yanımda otur.

Qadın oturub ağlamağa başladı. Qadının bu cür ağladığını, başına qara yaylıq bağladığını görən Abdi ağanın da ürəyi düşdü.

Tələş içində:

– Nə var, bacı? – deyə soruşdu.

Qadın başını aşağı salıb, ara vermədən ağlayırdı. Abdi ağanın sualına cavab vermədi.

Abdi ağa:

– Bir danış görüm! – deyə çığırdı. – Danış, ay Allahın bəlası, danış!

Abdi ağa bir qədər fikirləşəndən sonra:

– Söylə, – dedi, – olmaya gəlinimin başına bir iş gəlmişdir?

– Ağam...

– Danış.

– Ağam! Ağam! – deyə qadın təkrar edib susdu. Hıçqırıqlar onu danışmağa qoymurdu.

Abdi ağa:

– Ay arvad! – dedi. – Allah sənin bəlanı versin. Dillən, adamın bağrını çatlatma.

Qadın gözlərini quruladı:

– Qaçmışdır, – dedi. – Yatağına bir yastıq uzatmış, elə axşamdan qaçmışdır.

Abdi ağa var səsi ilə çığırdı:

– Vay! Vay! Bu da gələcəkmiş başıma? Abdinin gəlini bir muzdura qoşulub qaçacaqmış?

Sonra qadına tərəf dönüb, ona bərk bir təpik vurdu.

– Bu kəndi başdan-başa yandıraram. Od vurub yandıraram.

Abdi ağa dayanıb bir an düşündü. Sonra qadının qolundan tutdu, ağzını onun qulağına yaxınlaşdırıb:

– Dönənin yetimimi qaçırtmışdır? – deyə soruşdu.

Qadın göz yaşlarını yaylığı ilə silə-silə, başının hərəkəti ilə onun dediyini təsdiq etdi.

Abdi ağa bir yerdə qərar tapa bilmirdi. Öz adamlarını çağırdı. Bütün kəndliləri çağırdı. Bu əhvalat onun kənddəki etibarına vurulan böyük bir zərbə idi. Bunun altından çıxmalı idi.

– Görsün, – deyirdi. – Görsün o ac-yalavac, o avara. Görsün, onun başına nə gətirəcəyəm! Onu parça-parça edəcəyəm! Parça-parça...

Bir azdan bütün kənd məsələdən xəbər tutdu. Bütün kənd toy-bayram içindəydi. Hamı – kəndin qocası, cavanı,

oğlanı, qızı bir ağızdan öz sevincini bildirirdi. Amma Abdi ağadan gizli. Abdi ağanın, onun adamlarının yanında özlərini onlardan daha qəmgin göstərirdilər. Pıçıltı ilə danışırdılar.

Yağış ara vermədən yağırdı. Kəndlilər yağışın altında küçəyə tökülüşmüşdülər, bir-birlərinə qısılaraq söhbət edirdilər. Dəstə-dəstə yığışıb danışırdılar. Yağışın altında bir evdən o biri evə gedib-gəlirdilər. Yağışın altında büzüşərək söhbət edirdilər... Hər biri o qədər islanmışdı ki, elə bil suya girib çıxmışdı...

Nişanlı başda olmaqla o biri kəndin sakinləri hay-küylə birdən Dəyirmanoluq kəndinə girdilər, hər birinin əlində bir ov tüfəngi vardı. Nişanlı tüfəngdən atəş açırdı. «Od vurub yandıracağam!» deyə bütün kəndi hədələyirdi... Birbaşa Məmmədgilin evinə tərəf getdi. Bu zaman Dönə dünyadan xəbərsizmiş kimi evində oturmuşdu. Nişanlı qapıda cəld atdan enib içəri girdi. Qadının saçlarından yapışdı. Sürüyə-sürüyə Abdi ağanın qapısınadək gətirdi. Abdi ağa qadını görən kimi özündən çıxdı. Gəlib çəkmələrinin dabanı ilə onu əzişdirməyə başladı. Dönənin cınqırı da çıxmırdı. Hər tərəfi palçığa bulaşmışdı. Palçıqdan gözləri belə görünmürdü. Abdi ağa qadından əl çəkəndən sonra nişanlı onu əzişdirməyə başladı. Arabir həyətdə bığlarını çeynəyə-çeynəyə gəzir, sonra yenə də içəri qayıdaraq qadını əzişdirməyə başlayırdı. Qadının ağzından sızan qan palçığa qarışır, qırmızı bir şərid halında aşağılara qədər axıb gedirdi.

Abdi ağa bərk əsəbiləşmişdi. Dinmədən həyətdə gəzişirdi. Heç kəsə də baxmırdı. Ətrafdakılar gözlərini həyətdə gəzişən Abdi ağaya zilləmişdilər, onun nə söyləyəcəyini gözləyirdilər. O, həmişə mühüm bir qərar verdiyi zaman saqqalının bir hissəsini şəhadət barmağına dolayıb dartardı. İndi də belə edirdi. Abdi ağa gəlib həyətin ortasında dayanan kimi, hamı susub ona baxmağa başladı. Barmağına doladığı saqqalını buraxdı, sığallaya-sığallaya:

– Mənə qulaq asın, – dedi. – İndi onlar bu ətrafdadırlar. Ya qayalıqda, ya da meşədədirlər. Onları axtaracağıq. Ancaq bu qədər çox adam lazım deyil. On nəfərə qədər adam kifayətdir. Tapan kimi, orada olmasam, öldürməyin, yanıma gətirərsiniz. Onunla haqq-hesabı özüm çəkəcəyəm. Mən özüm ona göstərəcəyəm ki, Abdi ağanın gəlinini qaçırana nə edərlər!

Abdi ağa sözünü qurtaran kimi, o biri kənddən gəlmiş Rüstəm ortaya atıldı. O, keçəl, çopur, yekəburun bir adam idi.

– Mən söyləyim, sən də qulaq as, ağam, – dedi. – Dünən axşamdan bəri yağış yağır, deyilmi?

Bir neçə adam birdən:

– Elədir, – dedi.

– Palçıqda iz qalır, deyilmi? – deyə Rüstəm soruşdu.

– Qalır, – deyə cavab verdilər.

– Qalmasa da... Qoy qalmasın. Bəlkə də, onlar qayalıqdan getmişlər. Biz onların izi ilə getməliyik. Onlar yaxındadırlar. Hökmən tapacağıq. İz...

Abdi ağa:

– Üç nəfər də qəsəbə yolu ilə getsin, – dedi.– Eşitdim ki, qəsəbəyə qaçmış...

Sonra üzünü Rüstəmə tutub soruşdu:

– İzlə kim gedəcək?

– Topal Əli.

Bir neçə səs:

– Əgər könlü istəsə, Topal Əli nəinki yağışlı havada, hətta quru torpaqda da, qayada da quşu belə izlər, – dedi.

– Quşu belə izlər. Kifayətdir ki, quşun qanadının bir tərəfi torpağa azacıq dəysin. Uçan quşu belə izlər, – deyə Rüstəm təsdiq etdi.

Abdi ağa:

–Topal Əli harda olsa, tez tapıb gətirin, – deyə əmr etdi.

– Topal Əli burdadır, – dedilər.

Topal Əli bir ayağını dalınca sürüyərək, atıla-atıla gəlib ağanın qarşısında dayandı.

– Ağam, – dedi, – onun üçün qorxma. Heç ürəyini sıxma. Əgər İncə Məmməd ayağını torpağa basıbsa, mən onu tapacağam. Quş olub uçmayıbsa, mən onu tapacağam. Ürəyinə heç qəm, kədər gətirmə.

Topal Əlinin həmkəndliləri ara vermədən Əlini dəyirmanoluqlulara, ağaya tərifləyirdilər.

– Bizim kənddə nə qədər oğurluq olmuşsa, bu Topal Əli tapmışdır.

– On beş ildir ki, bizim kənddən bir iynə də oğurlanmamışdır.

– Topal Əlinin sayəsində...

– Maral ovuna getsən, ancaq Topal Əli ilə get...

– Daşların, qayaların üstündə heç iz görünərmi? Topal Əli qayalarda iz tapa-tapa səni aparıb çıxarar lap maralların otladığı yerə.

– Ona Topal Əli deyərlər, ağam!

– Bu yerlərdə safsar qalmadı.

– Topal Əlinin sayəsində.

– İncə Məmməd göyə qalxmış olsa da, yenə tapar.

– Xüsusən insanın iyini üç günlük yoldan duyur.

Heç zaman adam arasına çıxmayan, kəndin içində mində bir dəfə görünən Hösük də Abdi ağanın evinin qabağına gəlmişdi. Bu həmin Pancar Hösük idi. Hösük Topal Əlini çoxdan tanıyırdı. Neçə illərdi ki, Topal Əli ilə bir tarlada, yan-yana cüt sürürdü. Topalın yaxşı bir iztanıyan olduğunu bilirdi. Əslində, bu yerlərdə bunu bilməyən yox idi. Abdi ağa da Topalın tərifini eşitmişdi. İndi Topalın həmkəndlilərinin onu bu qədər tərifləmələri onu tanıtmaq üçün deyil, öyünmək üçün idi. Hösük gördü ki, Məmmədin izinə düşməyi Topal boynuna götürdü. Məmməd harada olsaydı, lap mağarada gizlənsəydi də, Topal onu, öz əli ilə qoyubmuş kimi, tapacaqdı. Xəlvətcə Topal ilə bir danışa bilsəydi, Topal onun sözünü yerə salmazdı. İllər boyu birlikdə duz-çörək yemişdilər. Topal həmkəndlilərinin onu ağaya tərifləmələrini heyranlıqla dinləyirdi. Onlar Topalı təriflədikcə, Topal da:

– Allah qoysa, sənin sayəndə, ağam... – deyə lovğalanırdı.

Desəydilər ki, Topal Əli igid adamdır, yaxşı adamdır, bu kəndlilər içində onun kimi adam yoxdur, Topal buna əhəmiyyət verməzdi, heç vecinə almazdı. «Topal kimi iztanıyan tapılmaz» desəydilər, Topalın sevincinin həddi-hüdudu olmazdı. Topala işi düşənlər bir-iki gün əvvəl Topalın qulağına çatacaq yerlərdə deyərdilər: «Topal kimi iztanıyan yoxdur bu dünyada! Bütün Adana torpağını gəzsən, belə bir iztanıyan tapılmaz. Analar bir tək iztanıyan doğublar ki, o da Topal Əlidir». Dediklərinin Əliyə çatdığını yəqin eləyən kimi, ona müraciət edərdilər. Bundan sonra Topal Əlidən istədiklərini alardılar. Belə bir adamın tapşırdığı işi Əli ölsəydi də, görərdi.

Topal camaatdan ayrılıb, izin ucunu tapmaq üçün Xətcəgilin evinə tərəf gedərkən Hösük arxadan gəlib ona yetişdi:

– Əli, bir dayan, – dedi. – Sənə bir neçə sözüm var.

– Baho-o-o, Hösük qardaş! – deyə Əli onun boynuna sarıldı. – Hösük qardaş, səni o qədər görmək istəyirdim ki, heç deməklə başa gələn deyil. Bu günlərdə səni görməyə gələcəkdim. Hə, Hösük qardaş, nə var, nə yox? Bu işi qurtarım, Hösük qardaş, gəlib gecəni sənin yanında qalacağam. Qoy bir bu oğlanı tapım... İndicə tapacağam. Adamı tapmaqdan asan nə var?..

Hösük:

– Arxamca gəl, Əli! – dedi. – Danışdığımızı heç kəs görməsin. Ağa məndən şübhələnər.

Topal Əli maraqla Hösüyün arxasınca düşdü. Bir qədər əvvəl ara vermiş yağış iri dənələrlə yenidən yağmağa başladı.

Ağanın evinin qabağında Topal Əliyə at hazırlayırdılar. İz tapmağa heç atla gedərlərmi? Topal Əli bu cür izi gözüyumulu da tapar.

Hösük bir evin kölgəsinə keçib dayandı. Yanına gələn Əliyə yavaşcadan:

– Ay qardaşım, gəl yanımda otur. Ay Əli, olmaya sən yazığı Abdinin əlinə təslim edəcəksən? Heç rəvadırmı ki, sən belə bir iş görəsən? – dedi. – Sən gəl, qıyma İncə Məmmədə! Qıyma o yetimə! Qıyma İbrahimin bircə oğluna! İbrahim kimi yaxşı bir adam vardımı? Səni də çox sevərdi. O yazığın qəbrində sümükləri sızıldayar. Bilirəm, sən Məmmədi, öz əlinlə qoymuş kimi, dərhal tapacaqsan. Abdi ona çox pislik edər. Bunun da baisi sən olarsan. Sənə bir söz deyimmi, Əli? Sən gəl, bu gün onların yolunu azdır. Məmməd bu gün ələ keçməsə, xilas olar. Uşaqlıqda Məmməd Kəsmə kəndindəki Süleymanın evinə qaçmışdı. O zaman hamı onu ölmüş zənn edirdi. Altı aymı, bir ilmi keçəndən sonra mən onu gördüm, sağ olduğunu gəlib anasına xəbər verdim. Hə, o zaman belə olmuşdu. Hamı oğlanı ölmüş bilirdi. O indi də, yəqin ki, bir yerdə gizlənmişdir. Sən gəl, qardaş, onları azdır. Kim bilir, yazıqlar bu yağışda haraya soxulmuşlar? Görəsən, bu qiyamətdə haradadırlar? Yəqin ki, soyuqdan titrəyirlər. Hə, Əli! Mənə bir söz de, Əli! Gəl sən bu işdən əl çək.

Hösük danışdıqca Topal rəng verib, rəng alırdı. Halbuki bir az əvvəl böyük bir kəndin qarşısında izə düşəcəyini, qaçanları tapacağını fikirləşərək nə qədər sevinirdi. Hösük danışdıqca, o, ağzını açmır, hey yerə baxırdı.

Əli susduqca, Hösük yanıqlı-yanıqlı deyirdi:

– Hə, qardaşım, indi yazıqlar bir ağacın altında bir-birinə qısılıb titrəyirlər. Başlarına da yağış deyil, bax bu sel tökülür. Durmadan axan bir sel! Əli qardaş! Yazıqcığazlar indi bərk qorxurlar. Onların halına adamın ürəyi parçalanır! Bir bu yağışa bax! Kəsmək bilmir. Heç olmazsa, onların halına acıyıb kəsəydi. Yağış bir kəsəydi, Əli qardaş! İndi bir quş pırıltı ilə uçsa, onlar qorxuya düşərlər. Bir siçan qaçsa, bir kərtənkələ ağaca dırmaşsa, az qalar ürəkləri partlasın. Hey fikirləşirlər ki, indi gələrlər dalımızca, bu saat gələrlər. Onlar bir-birini sevirlər, Əli! Sevənlərə pislik edən xoş gün görməz. Qupquru bir ağac kimi suyu çəkilər. Əli

quruyar. Abdigili azdır, Əli! Sevgililəri xilas elə. Cənnətdə sənin üçün bir köşk hazırdır. Dərhal köşk hazırlarlar. Bir dillən, Əli! Di mənə söz ver!

Hösük gözlərini Əlinin gözlərinin içinə zilləyib baxdı. Sanki onun baxışı deyirdi: «Bunu eləməsən olmaz». Əli ağzını açıb bir söz demədi. Hösük onun əlini tutub təkrar sözə başladı:

– Qulaq as, gör sənə nə deyirəm, Əli! Onlar hələ uşaqlıqdan bir-birini sevirlər. Qız bir gün Məmmədi görməsə, yemək yeməz, gözlərinə yuxu getməz, hönkür-hönkür ağlar. Xəbərin varmı, Əli, onları Allah özü nişanlamışdır? Allah! Yadındadırmı, sənə nağıl etdim ki, bu Məmməd Kəsmə kəndinə qaçmışdı, mən onu gördüm. Gəlib anasına xəbər verdim. O zaman qız Məmməd gələnədək yataqda xəstə yatdı. Dəli kimi oldu. Əhvalat belədir, qardaşım Əli. Hə, əhvalat belədir! Gerisini sən özün düşün, Əli. Sonra götürüb qızı verdilər Abdinin keçəl qardaşı oğluna. Qız da Məmmədə qoşulub qaçdı. Gerisini sən özün düşün. Quş kola sığınar, kol da onu qoruyar. Məmməd də sənə sığındı, Əli. Sən onun bədbəxtliyinə səbəb olma. Sən gedib onları tapsan, Abdi səninlə dost olar, amma böyük bir kənd sənə düşmən olar. Deyəcəksən ki, nə olar, qoy Abdi mənimlə dost olsun. Məsələ belə deyil, Əli. Belə deyil. Sən özün bilirsən, Əli. Mənim sənə demək istədiyim bu qədərdir.



Çiyinləri sallanmış, yorğun üzü kədərdən dəyişilmiş Əli Hösüyə heç bir söz demədən ayağa qalxdı.

Hösük onun arxasınca:

– Bir kənd sənə düşmən olar, – dedi.

Sonra Hösük arxadan Əliyə yetişib qulağına:

– Sevgililəri bir-birindən ayıranın xoşbəxt olduğunu heç eşitmisənmi? – dedi. – Sevgililərin arasında qara kol olma. Yuva dağıdanın yuvası dağılar, Əli! Sevgililər bir-birinə qovuşanda bütün bir kənd bayram etdi. Çürük bir ağaca dönərsən. Bir kənd sənə düşmən olar. Bir gördünmü oğlanın anasını nə hala saldılar? Hələ də palçığın içində yıxılıb qalıb. Bəlkə də... Bir fikirləş, Əli!

At artıq hazır idi. Əlini çağırdılar. Bir cavan oğlan ehtiramla atı tutub dayanmışdı, onu gözləyirdi. Atın yəhərinə uzuntüklü qara bir yapıncı bağlanmışdı.

Yağış arası kəsilmədən bərk yağırdı. Bütün kənd əhli, hətta uşaqlar da küçədə idi. Bütün gözlər Topala dikilmişdi. Topal yüzlərlə cüt gözün ağırlığını, sancısını öz üzərində hiss edirdi. Əlinin topal ayağının əvvəlki ağrısı yenidən başladı. Ağrıya dözmək olmurdu. Həmişə Topal çətin vəziyyətə düşəndə, bu ağrı başlardı. Ağrı getdikcə dözülməz olurdu.

Öz daşı, torpağı, insanları, heyvanları ilə birlikdə bütün kənd ürəkdən Topala qarğış edirdi.

Xətcəgilin evinin qabağındakı tut ağacının dibində yan-yana iki iz vardı. Topal Əli izlərlə getməyə başladı. Əvvəlcə Xətcəgilin evinin dövrəsinə dörd-beş dəfə dolandı. Kəndin bütün uşaqları onun ardınca gedirdi. Sonra heç bir məqsəd güdmədən kəndin içinə tərəf yönəldi. Bir müddət kəndin içində dolaşdı.

Hösüyün yanında iki-üç kəndli dayanmışdı. Onlar Hösükdən soruşurdular:

– Sən Topala nə dedin?

Hösük öyünərək:

– Nə demək lazımdırsa, dedim. Elə bilirəm ki, Topal mənim sözümü yerə salmaz, – deyə cavab verdi.

Hösük kəndin içində Topalın boş-boşuna dolaşdığını görəndə sevindi. Məgər Topal iz axtaranda kəndin içində bu cür boş-boşuna dolaşardımı? Adətən Topal izin bir ucunu tapan kimi, gedib axırına çatardı. Topalın bu cür dolaşmasında nə isə xeyirli bir iş vardı.

– Topalın bu cür dolaşmasında xeyirli bir iş var! – sözləri ağızdan-ağıza yayıldı.

– Kim dedi?

– Hösük dedi.

– Kim?

– Pancar.

Hösük:

– Topal kəndin içində boş-boşuna dolaşır, – dedi. – Allah bilən yaxşıdır, görünür, sevgililərə yazığı gəlmişdir. O, Abdigilin yolunu azdıracaq. Hə, qoçaq Topal, görək neynəyəcəksən!

Keçəl Əli:

– Mən o Topalı tanıyıram, – dedi. – O, hətta atasının da izinə düşüb gedər. Atasını tapan kimi öldürəcəklərini bilsə də, yenə onun izinə düşüb gedər. Təki ona iz tapmaq tapşırasan. O özünü saxlaya bilməz. Topal yaxşı adamdır, mehriban adamdır, yəqin ki, sevgililərə də yazığı gəlir, amma onların izinə düşüb tapmasa, rahat ola bilməz. İz axtarmağa başlayanda, onun qabağını heç bir şey ala bilməz. Onu öldürəcəklərini bilsə belə, ölümünü gözünün altına alsa belə, ona bir iz göstər, hökmən izə düşüb axtarmağa gedər.

Hösük:

– Əli, – dedi, – tutaq ki, sən dediyin düzdür. Axı o, on dəfə evin dövrəsinə dolandı. Bayaqdan bəridir ki, kəndin içində gəzib dolanır. Tutaq ki, iz axtarır. Axı Məmməd qızı qaçıranda qapı-qapı gəzməmişdir ki... Qız qaçıran adam heç dönüb arxasına da baxmaz. Topal Əli isə iz axtaranda yanılan adam deyil. Xüsusən də belə yağmurlu havada. Mən ona dedim ki: «Əli, sözümü yerə salsan, bir daha üzümə baxma...»



Keçəl Əli fikrə getdi. Üzündə bir ümid, bir sevinc əlaməti göründü:

– Allah eləsin ki, Topalın xasiyyəti dəyişmiş olsun. Kəndin içində bu cür gəzib dolandığından belə çıxır ki, xasiyyəti dəyişmişdir... Hə, Topal Əli, görək neyləyəcəksən!

Topal Əli dönə-dönə gedib kəndi gəzir və yenə geri qayıdırdı. O, qapıların qabağında atdan enib torpağı diqqətlə müayinə edir, daşları gözdən keçirirdi. İz tapmaq üçün nə etmək lazımdırsa, hamısını edirdi. Amma əsas izin olduğu yerə heç cür yaxınlaşmırdı. Oraya yaxınlaşmağa qorxurdu.

Bilirdi ki, izi bir dəfə də görsə, özünü saxlaya bilməyəcək, izə düşüb gedəcək. Özünü izə düşüb gedirmiş kimi göstərərək kənddən çıxdı. Başından atı mahmızlayıb çapa-çapa aradan çıxmaq fikri keçirdi. Çapa-çapa aradan çıxmaq!.. Gözlərini meşəyə dikib uzun zaman baxdı. İzin istiqaməti birbaş meşənin içinə gedirdi. İki sevgili sanki onun gözlərinə göründü.

Başında hər şey alt-üst oldu.

Yağış çisəyirdi.

Topal Əli atının başını yenə də Xətcəgilin evinə tərəf çevirdi. Gəlib Xətcəgilin evinin qabağındakı tut ağacının yanında, çəpərin dibində dayandı. Yerdə çox uzun bir çarıq izi qalmışdı. Öz-özünə: «Çarıq lap bu yaxınlarda tikilmişdir, – dedi.– Qılları uzundur. Bu, qışda ölmüş bir cöngənin gönündən tikilə bilər». Meşənin içində, çisəyən yağışın altında dayanmış iki sevgili sanki yenidən gözlərinə göründü. Onun bütün varlığını bir maraq atəşi yaxıb-yandırırdı.

Topal Əli xəyal içində ikən kəndlilərdən biri ona yaxınlaşdı:

– Nə olub, Əli? – dedi. – Burada yatıb qalacaqsan? Abdi ağanın səbri tükənmişdir. Soruşur ki, niyə sən kəndin içində dolanıb qalmısan? Deyir ki, bu qədər təriflədiyiniz iztanıyan bu imiş?

Onlar belə danışmaqda ikən, Abdi ağa çaparaq sürdüyü atının başını lap onların yanında çəkdi.

– Bu nə işdir? – dedi. – Ay məşhur iztanıyan, bu nə işdir? Maşallah, yaman da iztanıyanmışsan! Kəndə qəbalə kağızı alacaqsanmış kimi, səhərdən bəri kəndin içində dolanırsan. İndi də, görünür, bu çəpərin dibində yatacaqsan.

Topal Əlinin gözləri qaranlıq gətirdi. Atının başını cəld Abdi ağaya tərəf döndərdi:

– Ağa, – dedi, – bir kəndlilərdən xəbər al görək o, təzə çarıq geymişmi? Bu çarıq ölən bir cöngənin gönündən tikilmişmi?

Ağa üzünü kəndlilərə çevirib:

– Doğrudurmu? – deyə soruşdu.

Bir kəndli:

– Doğrudur, – dedi. – Qışda İsmayılın, dəyirmançı İsmayıl var ha, onun cöngəsi ölmüşdü. Məmməd də ondan bir cüt çarıq üçün gön almışdı.

Ağa üzünü Topal Əliyə tutub:

– Doğrudur, – dedi. – İndi hünərini göstər, Əli!

Əli başını çiyinlərinin içinə çəkdi. Atını qırmancladı. Abdi ağa ilə yeddi-səkkiz kəndli də onum dalınca kənddən çıxdılar. Qayalığa çatanda, Əli atının başını çəkdi. O birilər də atlarının başını çəkdilər. İz qayalığa tərəf gedirdi. Əli gerçəkdən bu işə məəttəl qaldı. Zira izlərin istiqaməti meşəyə tərəf gedirdi... Qayadakı izi müayinə etdi.

– Qayalıqdan keçib getmişlər, – dedi. – Atlardan düşün, qayalıqda izləri axtaraq.

Atları kəndlilərdən birinə tapşırdılar. Özləri Əlinin dalınca düşdülər. Qayaların arasında kiçicik bir torpaq parçası gördülər. Bu bir parça torpaqda üç dənə sarı çiçək açılmışdı. Torpaq qapqara olub, işım-işım işıldayırdı. Sarı çiçəklər parıldayırdı. Çiçəklərdən biri yanı üstə yatmışdı.

Əli onu dalınca gələn adamlara göstərdi:

– Bilirsinizmi, o biri iki çiçək dimdik durduğu halda, bu niyə yanı üstə yatmışdır? Dünən axşam, ya da gecəyarısı kim isə onu tapdamışdır. O adamın çarığının yan tərəfi, baxın, burada bir iz buraxmışdır.

Hamı əyilib baxdı, amma onlardan heç biri çarığın yan tərəfinin izini görə bilmədi.

Sonra Əli qayalıqda gəzib dolaşdı. Abdi ağa ondan bir addım da olsun geri qalmırdı. Şiş bir qayanın dibinə çatanda Əli dedi:

– Bax, onlar buradan qayıtmışlar.

Təkrar atların yanına gəldilər.

İndi izlərin meşəyə tərəf getdiyi lap aşkar görünürdü. Əlinin yanınca gələnlər də izləri təqib edə bilirdilər. Meşənin kənarına gəlib çatanda, Əli dayandı. Üzü sapsarı, kül kimi oldu, sonra da bənövşəyi rəng aldı. İzlər meşədəki qa-

yalığa tərəf istiqamət almışdı. Haraya gedəcəklərini bilməyən adamların izlərini andırırdı... İz bir qədər düz gedir, dönüb başqa tərəfə çevrilir, sonra təkrar geri dönürdü. Əli izin o yan-bu yana getdiyini, eyni yerdən bir neçə kərə keçdiyini görəndə sevgililərin halına acıdı. «Gərək bu Abdini meşənin aşağı tərəfinə aparım ki, yazıqcığazlar onun əlindən qurtulsunlar» deyə Əli öz-özünə fikirləşdi. Bir ağacın kökünün dibində yaşıl bir ot bitmişdi. Tər ot göyə doğru uzanmışdı. Otun bir yanı əzilmişdi. Otdan o tərəfdə bir ağac qırığı yerə sancılmışdı.

Yağış yenidən şiddətlənməyə başladı. Topal Əli atın tərkindəki yapıncını açıb çiyninə saldı. Onun yanınca gələnlər dinmirdilər.

Abdi ağa:

– Vaxt keçir, Əli, – ded. – Olmaya yenə izi itirdin?

– Yox, – deyə Əli cavab verdi. – Ardımca gəlin.

Əli atını meşəyə sürdü. Bu səfər izi, doğrudan da, itirdi. Üzünü Abdiyə çevirib:

– İzin ucunu itirdim, – dedi.

Abdi ağa:

– Sənin hünərin elə buymuş? Topal Əli buymuş?– deyə söyləndi.

Nişanlı ən arxada gəlirdi. Onun əlində tapança vardı. Tapançanın dəstəyini əlində bərk-bərk sıxmışdı.

Əli Abdi ağanın sözündən hirsləndi:

– İndi izi taparam, – dedi. – Onlar bu yaxınlarda olmalıdırlar. Burada onlar tufana düşmüşlər. Buralarda çox dolaşmışlar. Onun üçün izi itirdim.

Xeyli axtarandan sonra, nəhayət, Əli yenə də izi tapdı. Meşə getdikcə sıxlaşırdı. Nəhayət, elə sıx oldu ki, daha atlar keçə bilmədilər. Onlar atlardan düşdülər, yollarına piyada davam etdilər.

Əli:

– Bax, buradan bir budaq qırmışlar, – dedi.

Sonra həyəcanlandı:

– Yaxınlaşdıq... Buradan da bir qucaq çır-çırpı yığmışlar. Quru çır-çırpı izi qayalığa doğru gedir.

Topal Əli ilə Abdi ağadan başqa hamısı bərk islanmışdı.

Abdi üzünü nişanlıya tutub:

– Sən niyə yapıncı götürməmisən? – deyə soruşdu.

Nişanlı cavab verəcək halda deyildi. Elə titrəyirdi ki, az qala tapançası əlindən düşəcəkdi.

Topal Əli qayalığa tərəf yüyürməyə başladı. Həyəcandan nəfəsi təngləşirdi. O birilər də onun dalınca yüyürdülər.

Əli:

– Tapdım, – deyə çığırdı. – Bu böyük qayalığın altındadırlar. Səs salmayın.

Abdi ağa arxadan çığırırdı:

– Oradadırlarmı? Bir cavab ver, Əli!

Əlidən səs-səda çıxmırdı. Abdi də tövşüyə-tövşüyə gəlib çatdı. Əlinin dayandığı yerdə durub baxmağa başladı. Geriyə qalanlar da gəlib yan-yana düzüldülər.

Əli sözə başladı:

– Burada, – dedi, – tonqal qalamışlar. Bu çırpının üstündə paltarlarını sərib qurutmuşlar. Tonqalı kibritlə deyil, qovla yandırmışlar...



Ovuğun iç tərəfinə, quru torpaq olan yerə getdi. Yerə əyildi. Uzun zaman torpağa diqqət yetirdi. Torpaqda qızın kök budlarının izini seçə bildi. Bundan bir az yuxarıda kürəklərin yerləri görünürdü.

– Gəlin, gəlin! – deyə arxadakıları çağırdı. – Gəlin, baxın!

Hamısı yerbəyerdən əyilib torpağa baxdı. Abdi ağa bir şey başa düşməyibmiş kimi, Topal Əlinin üzünə baxdı.

Əli:

– Olan olmuşdur, – dedi.

Abdi ağa anladı, amma yenə də soruşdu:

– Yəni nə olmuş, Əli?

Əli:

– Bax, ağa, – dedi, – bura qızın budlarının yeridir. Bura da kürək sümüklərinin... Bura da başını qoyduğu yer. Bu

cizgilərə bax. Buraya saçları yayılmışdır. Yəni, ağam, atı alan...

Abdi ağanın üzü dəyişdi. Bir müddət dinmədi. Sonra yavaş-yavaş özünə gəldi:

– İndi, sən biləni, onlar haraya gediblər?

– Onlar haradasa lap yaxındadırlar. İndi taparıq, – deyə Əli cavab verdi.

Günəş batmaqda idi.

Abdi ağa:

– Qaranlığa düşməyək, Əli! – dedi.

Əli:

– Onlar buradan ən çoxu iki saat olar getmişlər, – dedi. – İki saata bu meşədə çoxmu yol getmək olar? Üstəlik onların qarnı da acdır! Qızındıqları yerdə heç bir yemək qırıntısı yoxdur. Yeyiləsi bir şeyləri olsaydı, yeyərdilər.

Nişanlı büzüşmüşdü. Hər yerindən su sızırdı. Dişləri də bir-birinə dəyirdi.

– Gəlin tonqal qalayıb qızınaq, – dedi. – Soyuqdan öldük.

O birilər də:

– Soyuqdan öldük, – deyə təkrar etdilər.

Abdi ağa hirsləndi:

– Biz onları axtaracağıq. Siz isə qalıb qızının, – dedi. – Arvad ürəkli kişilər!

Əli ilə Abdi ağa meşənin içərilərinə doğru irəlilədilər. Abdi ağa tapançasını əlinə aldı. Nişanlı Abdi ağanın hirsləndiyini gördükdə tonqal qalamaqdan vaz keçərək, onun dalınca getdi.

Yavaş-yavaş qaranlıq çökürdü. Əli lap izin üstünə düşmüşdü. İz o qədər aydın idi ki, qaranlıqda belə izi görürdü. Məmmədlə qız artıq tələdə idilər. Harada idilərsə, ələ keçəcəkdilər. İzlər getdikcə təzələşirdi. Bir kolun dalından xışıltı eşitdilər. Diqqətlə qulaq asdılar. Qaranlıq yavaş-yavaş çökürdü.

– Kolu dövrəyə alın! – deyə Abdi əmr etdi.

– Buradadırlar, – deyə Əli bildirdi.

Birdən bir qadın çığırtısı eşitdilər.

Abdi çığırdı:

– Məmmədi öldürməyin. Tutub yanıma gətirin. Onu mən öz əlimlə... Ona nə etmək lazımsa, mən öz əlimlə edəcəyəm. Məmmədin bir tükünə toxunmayın.

Məmməd kolun dalında gizlənmişdi. Əli tapançasının dəstəyində idi. Tapança şalvarının sağ cibində idi. Heç şeydən, heç kəsdən qorxmurdu.

Xətcəyə:

– Qorxma, – dedi. – Səni onlara vermərəm.

Kolun içindən ayağa qalxdı. Qorxa-qorxa ona tərəf gələnlərə:

– Təslim oluram, – dedi. – Təslim oluram.

Abdi:

– Dayanın, – dedi. – Bu itin yanına mən özüm gedəcəyəm.

O biri adamlar geri çəkildilər. Abdi ilə nişanlı irəliyə keçdilər. Məmməd kolun içində dimdik dayanmışdı. Qaranlıq çökdüyü üçün Məmməd yalnız qaraltı kimi görünürdü.



Bir az əvvəl Topal qaçanların izinə düşüb onları tapdığına çox sevinmişdi... İndi, bu vəziyyəti gördükdə onu kədər bürüdü. O, hər dəfə belə bir hala düşürdü. Orada, bir kötüyün üstündə oturdu. Başını əllərinin arasına aldı. Öz-özünə deyinirdi: «Mən bundan sonra belə iş tutmayacağam. Bir daha belə iş tutmayacağam. Yazıq Məmməd!»

Abdi ağa:

– Ay nankor! – dedi. – Ay lütün biri, lüt! Bircə bu qalmışdı mənim başıma gətirməyəsən? Səni tutub aparacağam kəndə... Gerisini özün düşün...

Elə bu anda «çıqq» səsi, tətiyin basıldığı eşidildi.

Amma atəş açılmadı. Abdi arxasına dönüb qəzəblə:

– Ey, – dedi, – sizə demədimmi ki, ona toxunulmayacaq...

Məmməd heç qımıldanmırdı. Həyəcanlanmır, qorxmurdu. Daş kimi hərəkətsiz dayanıb gözləyirdi. Bu zaman şalvarının sağ cibindəki əli yavaşca tərpəndi. Tütün qutusu

çıxarırmış kimi, tapançasını sakitcə cibindən çıxartdı. Abdi ağaya dikəltdi. Özünü o qədər sakit aparırdı ki, elə bil heç bir şey etmək fikrində deyildi. İki dəfə atəş açdı.

Abdi ağa:

– Ay ana, yandım, – deyə yerə yıxılarkən, Məmməd tapançasını nişanlıya çevirdi. Üç güllə də ona atdı. O da:

– Yandım, – deyə yerə sərildi.

Məmməd tapançasını cibinə soxdu. Eyni soyuqqanlılıqla:

– Xətcə burdadır, – dedi. – Onun başından bir tük əskik olsa, mən bilirəm sizə nə edərəm.

Sonra üzünü Xətcəyə tutub:

– Sən hələlik evə qayıt, – dedi. – Mən sonra gəlib səni apararam. Baş götürüb elə bir yerə gedərik ki, orada bizə dəyib-dolaşan olmaz. Sən birbaş evə get. Onlar sənə toxunmağa cürət eləməzlər.

Məmmədə atəş açmağa başladılar. Məmməd buna məəttəl qaldı. Çünki Məmməd oradan çoxdan uzaqlaşmışdı. Onlar güllələrini qaranlığa atırdılar.

Gecəyarıya az qalmış Məmməd meşədən çıxdı.

Hələ də narın yağış çiskinləyirdi.



## X

Qapı üsulluca döyülür. Kim isə qapını qorxa-qorxa döyür... Döyüb dayanır, sonra yenidən döyür.

Qadın ərini oyatdı:

– Bir ayağa qalx, – dedi. – Ayağa qalx. Qapı döyülür.

Kişi yuxulu-yuxulu bir neçə kərə ayağa qalxmağa çalışdıqdan sonra, yenə də başını yastığa qoydu.

Qapı bu səfər bir az bərk döyüldü.

Qadın təkrar:

– Bir ayağa qalxsana, – dedi. – Kim isə qapını döyür.

Kişi deyinə-deyinə ayağa qalxdı. Səntirləyə-səntirləyə qapıya getdi.

– Kimdir? – deyə soruşdu.

Qapının dalındakı:

– Mənəm, – dedi. Onun səsi xırıldayırdı. Boğazını arıtdı.

– Sən kimsən?

– Hələ bir qapını aç. Məni tanıyarsan...

Kişi qapını açdı:

– Elə isə, – dedi, – gəl içəri...

Bayırdakı adam səndələyə-səndələyə içəri girdi. İçəri qaranlıq idi...

Ev sahibi arvadına:

– Ay arvad, bir bu işığı yandır, – dedi. – Qonaq gəlibdir.

Az sonra işıq yandı. Qadın işığı yandırandan sonra onların yanına gəldi. Qonağın üstündən su süzülürdü. Paltarı bədəninə yapışmışdı. Ev sahibləri heyrətlə qonağa baxdılar. Qonaq tamam su içində idi.

Qadın, nədənsə, gözlərini qonaqdan ayıra bilmirdi. Dayanıb ona baxırdı. Onun boy-buxununa, gözlərinə, saçlarına baxdı, tanıya bilmədi.

Axırda qadın:

– Bu qonaq gözümə tanış gəlir, – dedi. – Ancaq yadıma sala bilmirəm.

Kişi gülümsündü, o, həmişə gülümsünərdi.

– Mənim də, – dedi. – Gözlərim artıq yaxşı seçə bilmirsə də, qonaq gözümə tanış görünür. Ancaq tanıya bilmirəm.

Əlini qonağın çiyninə qoyub diqqətlə ona baxdı:

– Tanıya bilmirəm. Sifətin mənə tanış gəlir, amma tanıya bilmirəm.

Ev sahibi arvadına müraciətlə:

– Ay arvad, – dedi, – görürəm ki, qonaq üşüyür. Özü də tamam islanıbdır. Bir ocağı yandır.

Sonra üzünü qonağa tutdu:

– Ay qonaq, bir de görək, sən kimsən? Tanış gəldin, amma tanıya bilmədim.

Qonaq:

– Əmi, – dedi, – mən İncə Məmmədəm.

Süleyman o biri otaqdan odun gətirməyə gedən arvadını səslədi:

– Arvad, – dedi, – gəl bir bax, qonağımız kimmiş! Gəl bir bax!

Qadın:

– Kimmiş? – deyə həyəcanla soruşdu.

– Bizim İncə Məmməd. Maşallah böyük kişi olub. İgid oğlan olub. Mən də elə bu günlər hey sənin sözünü danışırdım. Deyirdim ki, görəsən, bu uşaq necə oldu? Demək, ürəyimə damıbmış.

– Hə, balam, – deyə qadın təsdiq etdi, – bu günlər Süleyman əmin hey səni xatırlayırdı.

Süleyman çox qocalmışdı. Qaşları uzanmış, ağappaq ağarmış, saçaq kimi gözlərinin üstünə düşmüşdü. Saqqalı da çox uzun idi. Bir qalaq pambıq kimi. Bu, Süleymanı çox heybətli göstərirdi.

Qadın bir dəst tuman-köynək gətirib Məmmədin qabağına qoydu:

– Oğlum, paltarını soyun, bunları gey, – dedi. – Yoxsa sətəlcəm olarsan.

Məmməd evin qaranlıq guşəsinə getdi, orada soyunub paltarını dəyişdirdi. Alt paltarda gəlib ocağın yanında oturdu.

– Hə, nə var, nə yox? – deyə Süleyman soruşdu.

– Sizin üçün çox darıxırdım, amma nə edəsən! İşdən göz açmaq olmur.

– «O kəndə» hələ gedə bilməmisənmi, Məmməd? – deyə Süleyman xəbər aldı.

Məmməd acı-acı gülərək:

– Gedə bilməmişəm, – dedi və gözlərinin önündə bir top sarı işıq parladı.

– Soruşmaq ayıb olmasın, bu gecə vaxtı hardan gəlirsən, Məmməd?

– İndi danışaram, – deyə Məmməd cavab verdi. – Dərdimə bir çarə taparsan deyə, sənin yanına gəlmişəm. Dün-

yada səndən başqa heç tanımıram. Səndən başqa mənə kömək edəcək heç kəsim yoxdur.

Qadın:

– Üşümüsən, bala, – dedi. – Şorba gətirim, iç. Üşümüsən.

Məmməd isti şorba kasasını əlinə alan kimi neçə il bundan əvvəl, elə bu ocağın başında, yenə üşüyərkən, şorba içdiyini xatırladı. O zaman tək idi. Qorxurdu. Hər şeydən qorxurdu. Meşə ona qorxunc görünürdü. Qorxurdu. İndi cəsurdur. O, qərar qəbul etmişdir. Dünya haqqında təsəvvürü genişlənmişdir. Azad olmağın ləzzətini dadmışdır. Tutduğu işdən peşman deyildir.

Qadın:

– Siz oturun, söhbət edin, – dedi. – Mən gedirəm yatım.

Arvadı gedəndən sonra Süleyman dedi:

– Hə, Məmməd, indi əhvalatı danış görüm.

– Abdini də öldürdüm, qardaşı oğlunu da, – deyə Məmməd sözə başladı.

– Nə zaman? – deyə Süleyman heyrətlə xəbər aldı.

– Bu gün qaranlıq qovuşanda.

– Düzmü deyirsən, Məmməd? – deyə Süleyman inamsızlıqla soruşdu. – Axı sən heç adam öldürənə oxşamırsan.

– Bir işdi düşdü. Nə edək, görünür, qismət belə imiş.

Məmməd bütün əhvalatı Süleymana başdan axıracan ətraflı danışdı. Artıq xoruzlar banlamağa başlamışdı. O, söhbətini qurtaranda Süleyman:

– Əllərin var olsun, oğlum, – dedi. – Yaxşı eləmisən. İndi de görüm, nə etmək fikrindəsən, oğlum?

– Hər halda gedib hökumətə təslim olmayacağam. Dağlara çəkiləcəyəm.

– Sən bu gün hələ yat, gerisini sabah fikirləşərik.

– Gəlib məni burada yaxalamazlar ki?

– Bir kəsin ağlına da gəlməz. Heç kəsin ağlına gəlməz ki, sən adam öldürəndən sonra gedib qonşu kənddə gizlənərsən.

Məmməd:

– Elədir, – dedi.

– Əgər onlar səni axtarsalar, uzaq kəndlərdə, dağlarda axtararlar.

Divara naxışlı çuvallar söykədilmişdi. Süleyman Məmmədi çağırdı:

– Gəl, Məmməd, – dedi, – bu çuvalları bu tərəfə çəkək. Yəqin ki, heç bir şey olmaz, ancaq birdən olmadı belə, oldu elə; hər halda biz öz tədbirimizi görək. Sənin yatağını çuvalların dalında salacağam.

Bir müddət tər tökə-tökə əlləşdilər, çuvalları divardan, bir adam sığışacaq qədər araladılar. Süleyman çuvalların dalında yataq düzəldəndən sonra:

– Di gir yat, – dedi. – İstəsən lap bir ay burda yat. Heç kəs şübhələnməz. İndi üstünə bir çul da çəkim. Nə qədər yatırsan, yat.

Məmməd ona heç bir söz deməyib yatağa girdi.

Süleyman qapının cəftəsini möhkəm bağlayandan sonra yatmağa getdi. Arvadı yatmışdı. Onu oyatdı.

– Mənə bax, – dedi. – Məmmədin yerini çuvalların dalında saldım. Gəlinə, oğlumuza, heç kəsə deməzsən ki, Məmməd bizdədir.

Qadın:

– Yaxşı, – deyə cavab verdi və başı yastığa düşdü.

Məmməd yataqda bir az Xətcəni düşündü. Abdinin necə qıvrılıb yerə sərildiyini gözünün önünə gətirdi. Abdi bunu heç gözləmirdi. Nişanlının çığırması, əlləri ilə torpağı cırmaqlaması, qıvrılaraq dişlərini ağaclara ilişdirməsi, birdən-birə taqətdən düşüb qan içində yerə sərilməsi onun gözləri qarşısında canlandı... Məmməd o əsnada bir adam görmüşdü. Hamı Məmmədə atəş açdığı zaman, bu adam başını əlləri arasına alıb bir kötüyün üstündə oturmuşdu, fikirli-fikirli yırğalanırdı. Böyük bir kədər içində qıvrıldığı duyulurdu. Məmməd bunun səbəbini heç cür başa düşə bilmədi. Görəsən, bu adam kim idi?

Sonra hər şeyi unutdu. Yeni doğulmuş uşaq kimi beyni tərtəmiz idi. Heç bir şey olmayıbmış kimi, yuxuya getdi.

Səhər Məmməd yuxudan çox nəşəli oyandı. Artıq olan olmuşdu. Dünən gecəni düşünərkən, iynə ucu kimi həmin iki parıltı yenə gözlərində işıldadı.

Süleyman:

– Mənə bax! – dedi. – Mən səhər gedib kəndi dolaşdım, hər yerə göz gəzdirdim. Abdinin vurulması xəbəri buraya da çatmışdır. Bəlkə, buranı da axtardılar. Bu gecə səninlə dağa çıxıb qaçaqları axtararıq.

Məmmədin buna sevindiyi üzündən bəlli idi.

Süleyman sözünə davam edərək dedi:

– Dəli Durdu bizə qohumdur. Mən ona çox yaxşılıq eləmişəm. O səni qoruyar. Onun yanında üç aydan artıq qalmazsan. İtin biridir. Onu qoymazlar dağda çox yaşasın. Necə olursa-olsun bir gün öldürərlər. Onun kimi bir qaçağın dağda bir ildən çox qaldığı görülməmişdir, amma ona nə isə bir şey olmamışdır. Yenə də mənim bildiyimə görə, çox yaşamaz. Sən özünə yer düzəldərsən və ondan ayrılarsan. Əslində sənə bir-iki aylıq təcrübə lazımdır. Ondan sonra özünə bir dəstə düzəldərsən. Bax! Sənə dönə-dönə deyirəm, o itlə uzun zaman dolaşma. O, qaçaq deyil, soyğunçudur, quldurdur... Sən olmasaydın, o itin heç üzünə də baxmazdım. Əslinə qalsa, Dəli Durdu yaxşı oğlandır. Onu öz həmkəndliləri korladılar. Bir gün öz kəndinə qonaq getmiş, həmkəndlisi onu möhkəmcə yedirmiş, sonra da jandarmların toruna salmışdır. Güc-bəla qurtulmuşdur. Bax, ondan sonra yolunu azdı. Hər nə isə... Bir-iki ay onun yanında başını dolandır.

– Dəli Durdunun dəstəsi böyükdürmü? – deyə Məmməd soruşdu.

– Bu yerlərdə nə qədər it varsa, hamısı onun başına toplaşmışdır. Nə qədər dor dibindən qaçan varsa, hamısı onun başına yığışmışdır. Bax, oğlum Məmməd, sənə bir-iki öyüd verəcəyəm, bunları yadında yaxşı saxla. Sən hələ çox cavansan. Amma bişəcəksən. Dağda uzun zaman qalıb-qalmayacağını Allah bilir. Dediklərimə yaxşı qulaq as. Elə

bilirəm ki, bunlar sənin işinə yarayar. Qaçaqlarla çox durub-oturmuşam. Bilirəm. Çoxunun aqibətini gözümlə görmüşəm. Dəstəyə qoşulan kimi, hər kəslə can-ciyər olma. Onlar dərhal səninlə yoldaş olmaq istəyəcəklər, səninlə xoş, yumşaq rəftar edəcəklər, sənə dost görünəcəklər, səninlə çox maraqlanacaqlar. Dərdi olanlar dərdini açıb sənə söyləyəcək. İnsanlar belədirlər. Sən isə heç bir zaman ürəyini onlara açma, ağzına gələni danışma. Onda sən onlara yaxşı təsir bağışlarsan. Ciddi ol, yüngüllük eləmə. Qaçaqlıqda yanındakı adamlara təsir göstərməyi bacarmaq şərtdir. Hə, onu deyirdim ki, dərhal onların hamısı ilə tanış, dost olum, demə. Bir zəif damarını tapsalar, ömrünün axırınadək səni rahat qoymazlar. Onların yanında iki quruşluq hörmətin olmaz. Gün keçdikcə hamısını yaxşıca tanıyacaqsan. Adamlara sözlərinə görə deyil, işlərinə görə qiymət ver! Ondan sonra da yoldaş ola biləcəyin adamı seç. Bil ki, ipin ucunu əllərinə verdin, işin bitdi. Həbsxana ilə dağın bir-birindən zərrəcə fərqi yoxdur. Hər ikisində də başçılar vardır, geriyə qalanlar başçıların qullarıdır. Özü də ən alçaq qullardır... Başçılar insan kimi yaşayırlar, qalanları isə köpək kimi... Sən başçı olacaqsan. Amma başqaları ilə qul kimi rəftar etmə. Qoy bu sənin yaşamağının sirri olsun. Dağa gedən kimi Dəli Durdu sənə bir mauzer verəcək. Gün keçdikcə sən özünə başqa silahlar da taparsan. Mən indi gedib öyrənim görüm, Dəli Durdu haralarda gəzib dolanır.

Dəli Durdu kəndə gələndə həmişə bir kəndlinin evində qalardı. Süleyman həmin kəndlinin evinə getdi. Dəli Durdunun yerini-yurdunu ondan öyrəndi.

Durdu qarşıdakı Ağsöyüd kəndindəndi. Süleyman onu uşaqlıqdan tanıyırdı. Durdunun atası müharibəyə getmiş, daha geri qayıtmamışdı. Süleymana uzaqdan qohumluqları çatdığı üçün Süleyman ona, anasına kömək etmişdi. Daha doğrusu, aclıqdan ölməmələrinə səbəb olmuşdu. Durdu uşaqlığında da elə tərs, it oğlu itin biri idi.

Beş ildir ki, Durdu dağlardadır. Yandırmadığı ev, dağıtmadığı yuva qalmamışdı. Bu tərəflərin kəndliləri onun əlindən qan ağlayırdılar. Yollardan heç kəs keçə bilmirdi. Əlinə keçən adamın var-yoxunu əlindən alır, tamam soyub buraxırdı. Hər şeyini, hətta paltarını da əlindən alırdı. Dəli Durdu dostluq, qohumluq bilməzdi. Qardaşının, anasının, atasının sözünə qulaq asmazdı. Doğrusunu axtarsan, Süleyman Məmmədi onun yanına aparmağa qorxurdu. Beyninə bir şey düşərsə, uşağı öldürə bilərdi.

Süleyman Məmmədə:

– O dəli itin yerini öyrəndim, – dedi. – Duman təpəsindəymiş. Biz Duman təpəsinə qalxıb, üç dəfə atəş açacağıq. Dəli Durdunun adamları gəlib bizi aparacaqlar. Mən bu dəliyə çox da güvənə bilmirəm... Nə isə... Mənə çox hörmət eləyir. Bu tərəflərdə başqa bir dəstə olsaydı... yoxdur.

Gün batandan sonra Süleyman irəlidə, Məmməd arxada yola düşdülər. Kənddən çıxan kimi Süleyman üzünü dala çevirdi:

– Ay Məmməd, – dedi, – sən bu gündən gedib qaçaq olursan, sonra gəlib bizim evi soymazsan ki?

– Əvvəlcə sizin evi soyaram. Qaçaqlığın şanına belə yazılıb. Məgər mən Dəli Durdunun dəstəsindən deyiləm?

Süleyman qəhqəhə çəkib gülərək:

– Sən bir bunun sözünə bax, – dedi.

– Doğru söyləmirəmmi? – deyə Məmməd soruşdu.

Süleymanın üzü dəyişdi:

– Məmməd, – dedi, – sən pis bir iş tutsaydın, Abdini deyil, başqa bir adam öldürsəydin, səni öz əllərimlə hökumətə təslim edərdim.

Məmməd:

– Axı heç mən özüm də başqa adama qıymazdım,– dedi.

Birdən Süleyman durduğu yerdə dayandı. Məmmədin yaxasından yapışdı. Gözlərini onun gözlərinə dikdi:

– Mənə bax, oğlum, İncə Məmməd, – dedi. – Günahsız adamı, az günahı olan adamı, pulunu əlindən almaq üçün bir adamı öldürsən, bu iki əlim yaxanda olacaq.

Məmməd çox təmkinlə:

– Bundan sonra adam öldürməyəcəyəm, – dedi.

Süleyman onun yaxasını buraxmadan:

– Əgər – dedi, – Abdi ağa kimi bir başqasına rast gələn və onu öldürməsən, yenə də iki əlim yaxanda olacaq. Yüz Abdi ağa görsən, yüzünü də öldür...

Məmməd gülərək:

– Söz verirəm, – dedi. – Yüz elə adam tapsam, yüzünü də...

Yağış səhər kəsmişdi. Düzənlik palçıqdı. Amma indi onlar artıq dağa dırmaşırdılar. Keçdikləri yer xırda daşlıq idi. Daşlar ayaqlarının altından sürüşürdü. Havadan çürük ağac, acı çiçək, ot qoxusu gəlirdi. Göydəki ulduzlar iri-iri idi.. Hər bir ulduz işıqlı bir halqa içərisindəydi... Bir quş vardır, oğlaq kimi mələyir; budur, indi arabir o da mələyirdi. Bir az daha yuxarılara qalxdıqda, qumru quşu oxudu.

Duman təpəsinin zirvəsinə çatanda Süleyman:

– İncə Məmməd, – dedi, – tapançanı çıxart, üç dəfə atəş aç!

Süleyman tövşüyə-tövşüyə yerə oturdu. Nəfəsi təngləşirdi:

– O-o-of, – dedi, – o-o-of qocalıq... Vay gənclik, vay!

Bu zaman Məmməd havaya üç güllə atdı.

Lap uzaqdan, qayalarda əks-səda doğuran bir güllə səsi eşidildi.

Süleyman:

– Vay, vay, dizlərim, – deyə inləyərək ayağa qalxdı. – Oğlum, di gəl, birbaş ora gedək.

Məmməd Süleymanın qoluna girdi.

Lap yaxınlıqdan bir güllə səsi gəldi, onlar dərhal dayandılar.

– Bu nədir, küçüklər, olmaya məni vurmaq istəyirsiniz? – deyə Süleyman çığırdı.

Bir gənc gur səslə:

– Gələn kimdir? – deyə soruşdu:

Süleyman:

– Ey, bir yaxın gəl, məni Dəlinin yanına apar, – dedi.

Sağlarındakı qayanın dalından bir adam çıxdı:

– Güllə atan siz idinizmi? – deyə soruşdu.

Süleyman yoğun bir səslə:

– Bizdik, – dedi. – Dəli hardadır? Dəlini mənə göstər.

O adam:

– Durdu ağaya sizi necə nişan verim? – deyə soruşdu. Onun səsində bir çaşqınlıq duyulurdu.

– De ki, Kəsmə kəndindən Süleyman əmidir.

Həmin adam birdən:

– Məni bağışla, Süleyman əmi, – dedi, – səsindən tanıya bilmədim.

Süleyman:

– Oğlum, – dedi, – qocalıq adamın səsini də dəyişdirir. Sən kimsən, bala? Mən də səni tanıya bilmədim.

– Mən, – dedi, – Qaracaərəndən Mustuğun oğlu Cabbaram. Yadındadırmı, atamla bərabər sənin yanına yəhər qayıtdırmağa gələrdik. Sən bizim üçün həm yəhər qayırar, həm də el mahnıları oxuyardın.

Süleyman:

– Qəribədir, – dedi. – Sən də qaçaq olmusan? Mən heç eşitməmişdim.

– Bir işdir düşüb, – deyə Cabbar cavab verdi, sonra da Durdunu səslədi: – Gələn Kəsmə kəndindən Süleyman əmidir...

Səs qayalara çarpa-çarpa ətrafa yayıldı.

Mağaraya bənzər böyük bir qaya oyuğunun qabağında tonqal yanırdı. Yeddi-səkkiz adam tonqalın dövrəsinə düzülüb tüfənglərini təmizləyirdi. Başlarının üstündəki qaya qovaq kimi göyə ucalırdı. Yanan iri tonqal qayada cürbəcür, qorxunc şəkillər çəkirdi. Məmməd qayanı, adamları, silahları, tonqalı bu cür açıq-aydın görən kimi, ürəyinə bir qüssə çökdü.

Qaranlıqda ayaq səslərini eşidən kimi, tonqal başındakı adamlardan biri ayağa qalxdı. Uzunboylu bir adam idi. Onun kölgəsi üstündə uzun kölgələr oynaşan qayaya düşüb titrəməyə başladı. Bu adam onlara tərəf gəldi.

Süleyman:
– Güman edirəm ki, bu gələn bizim Dəlidir, – dedi.
Cabbar:
– Elədir, – dedi. – Durdu ağamdır.
Gələn adam dayanıb bağırdı. Səsi zəng kimi cingildəyirdi:
– Xoş gəlmisən, Süleyman əmi! Nə əcəb bu gecə vaxtı gəlmisən? Olmaya bizə qoşulmaq istəyirsən, Süleyman əmi?
Süleymanın əlini tutub öpdü.
Süleyman:
– Bura bax, Dəli, – dedi, – eşitdim ki, bu dağların padşahı olmusan. Kefin istədiyini eləyirsən... Asdığını asırsan, kəsdiyini kəsirsən...
Durdu:
– Olmuşuq, Süleyman əmi, olmuşuq, – dedi. – Vallahi bu aşağı yollardan bir adam qoymuram keçsin. Bu tərəflərdən adam keçməsini qadağan edəcəyəm. Bundan sonra bu yerlərə insan ayağı dəyməyəcək. Buradan Maraşadək nə qədər yol varsa, xəracını mən alacağam. Qoy Ağsöyüd kəndi tanısın məni! Qoy bilsin ki, Dəli Durdu kimdir!
Süleyman:
– Yenə dəli-dəli söylənməyə başladın, – dedi.
– Əgər məni daha çox incitsələr, o Ağsöyüd kəndini yandırıb-yaxaram, yerlə-yeksan eylərəm. Yerində də eşşəkənciri əkərəm.
– Boş-boş danışma, Dəli! – deyə Süleyman onu məzəmmət elədi.
– Elə isə sənin məndən xəbərin yoxdur, – deyə Durdu söyləndi. – Sənin xəbərin yoxdur.
Süleyman:
– Var, – dedi.– Var, dəlinin biri dəli. Qaçaqlığı da iki quruşluq elədiniz.
– Qoy bir neçə il də keçsin. Yükümü tutum. Onda sən görərsən ki, qaçaqlığı necə edərlər.

– O zamanadək mən ölüb gedərəm. Sənin qaçaqlığını görə bilmərəm. İndilik isə sənin soyğunçuluğunun şöhrəti bütün dünyaya yayılmışdır.

Dəli Durdu:

– Görərsən, görərsən, – deyə təkrar etdi.

Süleyman hirsləndi:

– Belə eləsən, bu dillə danışsan, səni vurub öldürərlər, Dəli! – dedi. – Ancaq sənin ölünü görərəm. Heyifsən, gəncsən... Bilirsən ki, səni çox istəyirəm, Dəli!

Durdu:

– Məgər bilmirəmmi ki, mənim xətrimi çox istəyirsən? Yoldaşlarımdan xəbər al, hər gün deyirəm ki, sümüyüm Allahdansa, ətim Süleyman əminindir, – dedi. Sonra da üzünü yoldaşlarına tutub soruşdu: – Elə deyilmi, yoldaşlar?

– Elədir, – deyə yoldaşları təsdiq etdilər.

Süleyman:

– Mən sənin nahaq yerə qaçaq olmağını istəməzdim, – dedi. – Yaxşı, bir de görək sən niyə dağlara çəkilib qaçaq oldun? Təşəxxüs satmaq üçün. Belə olmaz, Durdu. Bu, dəlilikdir.

Durdu:

– Hələ bir otur, Süleyman əmi, – dedi, – otur, bir çay iç.

Süleyman əllərini dizlərinə dayayaraq oturdu:

– Gənclik bir də ələ keçməz, – dedi, – ay it küçükləri, siz gəncliyinizi dağlarda çürüdəcəksiniz! – Sonra da Durduya baxıb gülümsündü: – Canının qədrini bilirmişsən, Dəli, – dedi, – bu yovşanları haradan tapmısan?

Böyük tonqalın ətrafında xırman böyüklüyündə bir yerin dörd tərəfinə yovşan tökülmüşdü. Yovşanı qalın döşək kimi yumşaq sərmişdilər. Gecəyə xoş bir yovşan qoxusu yayılırdı. Yovşanın qoxusu da, otu kimi, zərif, məstedici idi...

Durdu təkəbbürlə:

– Sənin sayəndə tapırıq, əmi can, – dedi. – Bu dağlar bizim əlimizdədir.

Süleyman qəhqəhə çəkib güldü:

– Ay dəli! – dedi. – Deməli, yovşan tarlasının da qəbaləsini almısan.

Məmməd hər şeyə fikir verirdi. Qaçaqların hamısı qırmızı fəs qoymuşdu. Qırmızı fəs qoymaq dağlarda adət idi. Qırmızı fəs qaçaqlığın rəmzidir. Başına kepka və ya şapka qoyan qaçaq görülməmişdir. Olmaz. Bu dağlarda fəsi kimin icad etdiyi bəlli deyildir. Şapka qoymaq qanunu çıxandan sonra dağlarda fəsi ilk olaraq kimin qoyduğu da bəlli deyildir. Bəlkə, şapka qoymaq qanunu çıxan zamanlar dağlardakı qaçaqlar fəsin qadağan edildiyini eşitməmişdilər. Odur ki, sonra da dağa çəkilən hər qaçaq başına fəs qoymalı olmuşdu.

Süleyman oturan kimi bütün qaçaqlar bir-bir gələrək ona «xoş gəlmisən» deyib dönə-dönə əlini öpdülər. Onlar Məmmədə də maraqla baxırdılar. Məmməd Süleymanın arxasında oturub, başını çiyinlərinin arasına çəkmişdi, buna görə də lap balaca görünürdü.

– Bu uşağı soruşsanız, adı İncə Məmməddir. Adam öldürmüşdür. Onu sizin yanınıza gətirmişəm, – deyə Süleyman Məmmədi qaçaqlara təqdim etdi. Bu zaman Məmməd başını aşağı dikmişdi; o, bir az da kiçilmiş görünürdü.

Durdu bir uşağa, bir Süleymana baxdı. Heyrətlə soruşdu:

– Bizimlə bir yerdə gəzəcək?

– Əgər qəbul etsəniz... Etməsəniz, onda təkbaşına gəzəcək...

– Süleyman əmi, sən gətirəndən sonra gözümüz üstə yeri var...

Durdu arxa çantasından bir fəs çıxarıb Məmmədə atdı. Dalğın görünən Məmməd fəsi havada tutdu.

– Al bunu, qoçağım, qoy başına! Bu mənim köhnə fəsimdir, indi başqası yoxdur. Sonra yaxşısını taparıq.

Üzünü Süleymana çevirib, bığ altından güldü:

– Maşallah, çox cavandır.

Süleymanın buna acığı tutdu:

– Çox cavan olsa da, qırx yaşlı Abdi ağanın başını yedi. Eşşək oğurlamaq üstündə qaçaq düşənlərdən deyildir.

– Abdi ağanımı? – deyə Durdu dəhşətlə soruşdu. – Abdi ağanı ha? Vay onun anasını!..

Süleyman:

– Bəs necə bilirdin? – dedi.

Durdu eşitdiyinə inanmırmış kimi, heyrət dolu gözləri ilə Məmmədə baxaraq:

– Yəqin ki, tüfəngin yoxdur, qardaş, – dedi. – Yaxşı eləmisən ki, Abdi ağanın işini bitirmisən. Əlin var olsun. Beş kəndin qanını sorurdu. Eynən zəli kimi...

Sonra üzünü Cabbara çevirib:

– Cabbar, – dedi, – axırıncı basqın zamanı ələ keçirdiyimiz tüfəng vardı ha, onu basdırdığın yerdən çıxarıb gətir. Bir-iki patrondaş da gətir. Patron da gətir.

Durdu bu bir qarış boyu olan cılız uşağın Abdi ağanı vurduğuna nədənsə inana bilmirdi. Bu səbəbdən də Məmmədə şübhəli-şübhəli baxırdı.

Bunu sezən Süleyman:

– Təkcə Abdi ağanı deyil, onun qardaşı oğlunu da öldürmüşdür, – dedi. – Anladınmı, Durdu?



Durdunun heyrəti daha da artdı:

– Demək, onun qardaşı oğlunu da. Belə de!

Məmməd bu səfər daha da büzüşmüş, ocağın başında yığışıb qalmışdı. Sanki üşüyürdü.

İsti çayı incəbelli stəkanlara töküb Süleymanla Məmmədə verdilər.

Süleyman bir ata şəfqəti ilə Məmmədə tərəf əyilərək:

– Qaçaqlıq başlanır, İncə Məmməd, möhkəm dayan!

Tonqala hey odun atırdılar. Tonqal getdikcə daha artıq alovlanırdı. Onun istisi artdıqca yovşanlar daha xoş, daha kəskin qoxuyurdu. Tonqalın işığından göydəki ulduzlar kiçik-kiçik, iynə ucu kimi görükürdü.

Durdu:

– Son qorxma, Süleyman əmi, – dedi. – Nə qədər ki, məm sağam, onun başından bir tük də əskik olmaz.

Süleyman Durdunu təpədən dırnağadək mərhəmətlə süzdü:

– Durdu, – dedi, – sən birbaşa ölümə doğru gedirsən.

Durdu:

– Niyə, əmi can? – deyə güldü.

– Əsl qaçaq dağın təpəsində bu cür tonqal qalamaz. Düşmənin qarışqa olsa, ona da xor baxma. Bu, açıqdan-açığa ölümə getmək deməkdir.

Durdu Süleymanın bu sözünə də qəhqəhə ilə güldü:

– Eh-h, əmi can, – dedi, – axı bu dağın başında kim var? Kim görəcək?

– Bir gün görməzlər, iki gün görməzlər... Axırda çəyirtkə kimi...

– Heç kəs görməz. Görsələr də, heç Dəli Durdunun üstünə jandarm gələ bilər? Vay, əmi can! Sən hələ Dəli Durdunu yaxşı tanımırsan. Dəli Durdu bu dağların qartalıdır. Dəli Durdunun olduğu bu səmtə kim qədəm basa bilər?

Süleyman:

– Görüşərik, – dedi.

Durdu söhbəti dəyişdirmək üçün Məmməddən soruşdu:

– Abdi ağaya güllə atarkən əlin titrəmədi ki?

Məmməd:

– Yo-o-o-x, – dedi. – Heç titrəmədi.

– Harasını nişan aldın?

– Sinəsini... Lap ürəyinin başını...

Məmməd bunu deyəndən sonra qəlbində təsviredilməz bir yalqızlıq duydu. Ətrafındakı hər şey silinib getdi. Bu Dəli Durdu onun heç ürəyinə yatmadı. Qəlbində duyduğu qəribliyin də səbəbi, bəlkə, elə bu idi.

Qarşıdakı tonqal qaraldı. Silah təmizləyənlərin üzləri qaranlığa qarışıb getdi. Qayadakı kölgələr iriləşdi, sonra da qeyb oldu. Əsən yel alovları günbatana tərəf əyirdi. Birdən Məmmədin gözləri Süleymana zilləndi. O, nəşəli idi. Onun ağ saqqallı üzü tonqalın alovunda dəyişilir, şəkildən şəklə düşürdü. Məmməd düşündü ki, Süleyman ona çox güvənir. Qəribsəməsi azacıq azaldı. Sonra da bərk yuxusu gəldi. Oturduğu yerdə büzüşüb qaldı.

Süleyman:

– Uşaqlar, – dedi. – Mən də burada bir az uzanım. Bizim oğlan yatdı.

Durdu:

– Əmi can, – dedi, – mənim qalın bir əsgər şinelim var, onu ört üstünə...

Süleyman:

– Gətir, – dedi.

Şinelin bir ətəyini Məmmədin üstünə örtən Süleyman onun yanında uzandı.

Sonra o biri qaçaqlar da yatdılar. Onlardan bir nəfəri növbətçi qalıb təpənin zirvəsində keşik çəkirdi.

Məmməd oyananda bədəni daş kimi idi. Sanki donub qalmışdı. Hələ gün doğmamışdı. Dan yeri heç ağarmamışdı da. Alaqaranlıqda Məmməd tonqalın dövrəsində xorultu ilə yatan qaçaqları gördü. Növbətçini axtararaq ətrafa göz gəzdirdi, amma heç kəsi görmədi. Xorultudan qulaq tutulurdu. Adətən ürəyi narahat olan adamlar xoruldayarlar. Bu, doğrudur. Son bir neçə gün içində ilk dəfə olaraq, Məmmədin ürəyini bir qorxu bürüdü. İndi ikicə nəfər, yalnız iki nəfər gəlsəydi, bu xor-xor xoruldayanların hamısını bir göz qırpımında öldürər, bığlarını bura-bura gedərdi.

Məmməd tüfəngini doldurandan sonra növbə çəkməyə getdi.

Əvvəlcə Durdu, sonra da qalanları oyandılar. Onlarla birlikdə Süleyman da oyandı.

Durdu gözlərini ovuşdura-ovuşdura:

– Növbətçi! – deyə səslədi.

Məmməd:

– Buyur, ağam – deyərək qayadan endi. – Heç bir hadisə baş verməmişdir. Heç kəsi də görməmişəm, – deyə aydın məlumat verdi.

Durdu:

– Sənmisən, İncə Məmməd? – deyə soruşdu. – Növbətçi sənmisən?

– Mənəm.
– Sən hələ təzə gəlmisən. Hələ gözlə, vaxt gələr sən də növbətçi olarsan. Hələ gözlə...
– Yuxum gəlmirdi. Odur ki, gedib yoldaşımdan növbəni qəbul etdim...
– Hə, belə şeylər olur. İlk həftə dağda adamın yuxusu gəlmir. Ürəyinə bir qəriblik, bir sıxıntı çökür. Dünyada özünü yalqız qalmış kimi hiss edir.
Süleyman yuxulu-yuxulu:
– Sən bizim bu dəliyə bir bax, gör nələr bilir! – deyə zarafat etdi.
Durdu:
– Ay Süleyman əmi, – dedi, – sən mənə heç bir şeyi layiq bilmirsən. Bəs mənim işim necə olacaq?
Hava yavaş-yavaş işıqlaşırdı. Günəş hələ görünmürdü. Amma qarşıdakı dağın zirvəsinə günün şövqü düşmüşdü. Dağın zirvəsi işıq içində, qalan yerləri isə qaranlıq idi. Günün şövqü dağın zirvəsindən yavaş-yavaş aşağılara endi. Bir az sonra qarşıdakı təpəliyin arxasından gün çıxdı.
Süleyman Durduya cavab vermədi.
– Sağlıqla qalın, – dedi, Məmmədin alnından öpüb, yola düzəldi.
– Süleyman əmi, bir çayımızı iç, sonra get, – deyə Durdu onun dalınca yüyürdü. – Bir çayımızı... Vallahi içməsən, səni buraxmaram.
Süleyman:
– Sağ ol, oğlum. Ruzin bol olsun, – dedi.
Durdu onun pencəyinin qolundan yapışmışdı:
– Çayımızı içməmiş, qoymaram gedəsən, – deyirdi. – Min ildə bir dəfə mənim dağıma gələsən, çay içməmiş gedəsən!.. Heç buraxarammı səni?
Süleyman öz-özünə dedi: «Bu dəlinin əlindən qurtarmaq olmaz». Sonra ucadan:
– Hə, yaxşı, qayıdaq geri, – dedi. Boynunu bükdü.
– Tonqalı yaxşı qalayın! – deyə Durdu əmr verdi.

Süleyman:

– İndi də tüstüsü görünəcək, – dedi.

– Nə edim? Tonqal qalamayım, bəs nə edim? Bunu sən mənə öyrətsənə!

– Mən sənə heç bir şey öyrədə bilmərəm, oğlum. Bütün çarələri özün tapmalısan.

Dəli Durdu fikrə getdi. Başını bir-iki dəfə tərpətdi. Qara kəkilləri fəsin altından çıxmış, qıvrılaraq alnına tökülmüşdü.

Süleyman sözünə davam etdi:

– Əlsiz-ayaqsızlara zülm etməməlisən. Haqsızlara, pis adamlara istədiyini elə. Cəsarətinə heç güvənməməlisən. Başını işlətməlisən. Yoxsa tələf olub gedərsən. Bura dağdır. Dəmir qəfəsə bənzər.

Çay tez dəm aldı. İncəbelli stəkanın birincisini yenə Süleymana verdilər. Sübhün soyuğunda çay buğlanırdı...

Süleyman ayrılarkən:

– Məmmədin sizə köməyi dəyə bilər, – dedi. – İlk günlər Məmmədimlə xoş rəftar edin. İncitməyin. Özbaşına buraxın. Bir neçə günə alışar.



Ayrıldı. Əlindəki dəyənəyə söykənə-söykənə dağdan enməyə başladı. Beli bükülmüşdü, amma yenə də cavan oğlan kimi dağdan tez-tez enirdi.

Süleyman gedərkən Məmmədin gözləri yaşardı. «Kim bilir, onu bir daha nə zaman görəcəyəm. Bəlkə də, heç görə bilmədim» deyə düşündü. Gözləri yaşla doldu. Öz-özünə: «Dünyada, – deyirdi, – bu dünyada nə yaxşı adamlar var».

Günəş yaxşıca qızmışdı, ətrafı isindirirdi.

Durdu bir daşın dibində oturub qalmış İncə Məmmədi çağırdı:

– İncə Məmməd, gəl, bu təzə tüfəngini bir sınaqdan keçir görək! Sən belə bir tüfənglə heç güllə atmısanmı?

– Bir neçə kərə atmışam.

– Bax, o qayada ağ bir ləkə var...

– Hə. Var.

– Bax, onu nişan alacaqsan...

Məmməd tüfəngini çiyninə dayadı. Nişan aldı. Ağ ləkəyə atəş açdı.

– Vura bilmədin, İncə Məmməd!

– Bu necə oldu? – deyə Məmməd hirsli-hirsli soruşdu. – Axı bu necə oldu?

– Mən nə bilim, – deyə Durdu çiyinlərini çəkdi. – Vura bilmədin, vəssalam.

Məmməd dodaqlarını çeynəyirdi. Bu səfər tüfəngi çiyninə yaxşıça dayadı. Bir daha nişan aldı. Tətiyi çəkdi.

Durdu:

– Bax, bu səfər vurdun, – dedi. – Lap ortasından.

Ağ ləkənin ortasından xəfif toz çıxırdı.

Məmməd çaşqın-çaşqın: «Yaxşı, bəs niyə əvvəlki dəymədi?» deyə təkrar öz-özündən soruşdu.

Durdu:

– Yaxşı, – dedi, – İncə Məmməd, sənin hər atdığın güllə hədəfə dəyirmi?

Məmməd:

– Bilmirəm, – deyərək gülümsündü.

Durdunun uzun sifəti daha da uzandı. Durdu gənc olmasına baxmayaraq, üzü tamam qırış-qırış idi. Ağzı çox böyük, dodaqları incə idi. Sağ yanağının üstündən ta saçlarının içinə qədər, uzun bir yanıq izi vardı. Çənəsi sivri idi, amma çox güclü görünürdü. Daim gülürdü. Gülüşündə kin vardı.

– İncə Məmməd, səndə nə isə bir şey var.

İncə Məmmədin, utancaq uşaq kimi, üzü qızardı. Önünə baxdı.

Aşağıdan bir-birinin ardınca üç dəfə fit çalındı. Hamı diqqətlə qulaq asdı.

– Çapar gəlir, ağam, – deyə Cabbar səsləndi.

Az sonra çapar tövşüyə-tövşüyə gəlib çıxdı. O, nəfəsini dərmədən:

– Aşağıdan, Çanaqlı düzündən Ağyola tərəf beş atlı gedir, – dedi. – Hamısı da geyimli-kecimlidir... Pullu adamlara oxşayırlar.

Durdu hazırlaşmaqda olan adamlarına:

– Hə, cəld hazırlaşın. Hər biriniz də bolluca patron götürün, – deyə əmr verdi. – Dəli Durdu daha bir neçə ocaq söndürəcək.

Sonra üzünü Məmmədə tutub:

– Bax, – dedi, – İncə Məmməd!

Durdu ağ yeri nişan aldı. Qayanı toz bürüdü. Sonra toz çəkildi.

– Hə, necədir, İncə Məmməd? – deyə Durdu öyündü.

– Lap ortasından dəydi...

– Hə-ə-ə ortasından, – deyə Durdu gülümsündü.

Sonra oradakılara göz vurdu:

– Bu, ilk ovundur, İncə Məmməd. Möhkəm dur.

Məmməd buna cavab vermədi.

Durdu:

– Hə, yoldaşlar, hazırsınızmı? – deyə xəbər aldı.

Yoldaşları:

– Hazırıq, – deyə cavab verdilər.

Sıx palıd ağacları arasından keçən yola endikləri zaman günortaya az qalırdı. Yolun bir tərəfində bir-birindən əlli addım aralı yerə yatıb gizləndilər. Onlardan bir nəfəri çox irəli gedib dayandı; o, gözətçi idi.

Az sonra yolun ortasında bir qoca göründü. Qocanın qabağında boz bir eşşək gedirdi; eşşək o qədər zəif idi ki, ayaqları bir-birinə dolaşırdı. Qocanın çal saqqalı, ağzını örtən uzun bığları papiros tüstüsündən sapsarı saralmışdı; bığlarının sarılığı uzaqdan görünürdü. Gözlərinin ətrafı qırış-qırış idi, iri ayaqları toza bulaşmışdı, yamaqlı şalvarı yellənirdi. Qoca oynayırmış kimi yavaş-yavaş gedir, el mahnısı oxuyurdu. Gedə-gedə cürbəcür oyunlar çıxarırdı. Qaçaqlar gülümsəyərək mahnını dinlədilər:

*Şamın şirəsi axır,*
*Ay qız, nişanlın baxır,*
*Qoynundakı məmələr*
*Naringi tək qoxuyur.*

*Aman Allah, qara qız,*
*Tellərini dara qız,*
*Dədən keşikçi tutsun*
*Qoynundakı nara qız.*

– Təslim ol! – deyə Durdu çığırdı. – Atəş açaram.

Mahnı dərhal kəsildi. Qoca yerindəcə dayanıb qaldı.

– Təsliməm, baba, – dedi. – Təsliməm. Axı nə var?

Dəli Durdu gizləndiyi yerdən yola atıldı:

– Soyun!

Qoca çaşıb qaldı:

– Nəyi soyunum, ağam?

– Əynindəkiləri...

Qoca güldü:

– Allah eşqinə, zarafat eləmə. Mənim paltarlarımı neyləyəcəksən? Sən gəl, məni burax, gedim. Çox yorğunam. Dabanlarımın sızıltısından az qalır yıxılam. Burax məni, əziz ağam...

– Sən bir soyun görüm, – deyə Durdu qaşlarını çatdı.

Qoca şübhəli-şübhəli, tərəddüd içində, yaltaqlanan bir köpək mehribanlığı ilə Durdunun gözlərinin içinə gülümsəyərək baxır, bu adamın onunla zarafat etdiyini və ya ciddi danışdığını kəsdirə bilmirdi.

Durdu sərt bir tərzdə:

– Tez ol, tez ol, gözlətmə, – deyə qocanı məzəmmət etdi.

Qoca hələ də inanmayaraq gülümsəyirdi. Durdu qaşlarını çatıb, qocanın qıçına bərk bir təpik ilişdirdi. Qoca ağrının şiddətindən bağırdı.

Durdu:

– Çıxart deyirəm sənə. Çıxart!

Qoca yalvarmağa başladı.

– Paşa əfəndi, sənin ayaqlarından öpərəm, əllərindən öpərəm. Axı mənim heç paltarım yoxdur... Mən çıl-çılpaq qalaram. Anadangəlmə... – Qoca şəhadət barmağını ağzına salıb çıxartdı: – Aha, bax bu cür çılpaq, bu cür lüt qala-

ram... Başqa paltarım yoxdur, paşa əfəndi. Sənin əllərindən öpərəm. Ayaqlarından da... Mənim paltarlarımı əlimdən alma... Sən çox böyük bir paşa əfəndisən. Mənim paltarlarımı neyləyəcəksən? Əllərindən öpərəm. Ayaqlarından da...

Durdu:

– Ey, it oğlu it, – dedi, – çıxart deyirəm sənə. Paşa əfəndi! Paşa əfəndi!

Qoca elə hey yalvarırdı. Sonra da ağlamağa başladı:

– Mən beş aylıq qürbətdən gəlirəm. Çuxurovadan... İşləməyə getmişdim.

Durdu onun sözünü kəsdi:

–Demək, pulun da var?

Qoca uşaq kimi burnunu çəkə-çəkə ağlayırdı:

– Beş aylıq qürbətdə ölmüşəm... Çuxurovanın milçəkləri öldürmüşdür məni...

– Demək, pulun da var? – deyə Durdu təkrar etdi.

Qoca:

– Azacıq var, – dedi. – Bu qoca vaxtımda çəltikdə işləmişəm. Palçığın içində. Çuxurovada öldüm. İndi evimə gedirəm. Sən gəl bunu eləmə, əfəndim. Çoluq-çocuğun yanına məni çıl-çılpaq göndərmə...

Durdu daha çox hirsləndi:

– Daha yaxşı. Çıxart, çıxart...

Qoca qovrulurdu. Durdu xəncərini çəkdi. Xəncər günəşdə par-par parıldadı... Durdu xəncərinin ucunu azacıq qocaya batırdı. Qoca hoppandı. Çığırmağa başladı:

– Məni öldürmə, dedi. Qoy gedib çoluq-çocuğumu görüm. Paltarları indicə çıxararam. Qoy sənin olsun.

Yolun kənarında gizlənmiş qaçaqlar gülürdülər. Bu işə yalnız Məmmədin acığı tutmuşdu. Yırtıcı pələngin gözlərindəki parıltı yenə də Məmmədin gözlərində peyda oldu. Məmməddə Durduya qarşı ikrah hissi oyandı.

Qoca təlaş və qorxu içində, əlləri bir-birinə dolaşa-dolaşa pencəyini, şalvarını çıxararkən Durdu:

– Hə, bax belə, – dedi. – Hə, belə... Adamı niyə üzürsən, ay kişi?

Qoca əlləri əsə-əsə paltarlarını çıxardıb bir tərəfə qoydu.

Durdu:

– Tumanını da, köynəyini də çıxart, – deyə çığırdı. Xəncərin ucunu bir az da qocaya batırdı.

Qoca həm titrəyir, həm də köynəyini çıxardırdı:

– Baş üstə, ağam. Öldürmə məni, paşam. İndicə hamısını çıxararam.

Köynəyini də çıxardıb, paltarlarının üstünə qoydu. Köynəyin altında nazik gödəkcəsi yoxdu.

Bu səfər o, boynunu burub yalvarırmış kimi Durduya baxdı.

Durdu:

– Di cəld ol, cəld ol! – dedi. – Gözlərimin içinə baxma. Tumanını da çıxart!

Qoca tumanını da güc-bəla çıxartdı. Onun əlləri bərk titrəyirdi, sanki uçurdu. Əlləri ilə qabağını örtərək, qaça-qaça eşşəyinə tərəf getdi. Eşşək yolun kənarında dayanıb otlayırdı. Sol əli ilə noxtasından tutub çəkdi. Qocanın qıçları çöp kimi nazik, qıllı idi. Qıç əzələləri sümük kimi çıxmışdı. İçəri çəkilmiş qarnı dəri kimi qırış-qırış idi... Sinəsinin tükləri ağarmışdı. Bütün sinəsi saman tozuna bulaşmışdı. Donqar idi. Çiyinləri sallanmışdı. Bədənini o qədər birə, cücü sancmışdı ki, qıpqırmızı idi. Hər yerini iri ləkələr örtmüşdü. Həsir kimi.

Məmməd qabağından keçən yolçunu bu halda görüb, ona daha çox yazığı gəldi.

Elə bu dəmdə yolun o biri başında qoyduqları növbətçi onlara tərəf yüyürə-yüyürə:

– Gəlirlər! – deyirdi.

Durdu:

– Atlılar gəlirlər, – dedi.

Yolun kənarında gizlənmiş qaçaqlar hələ də bir əli ilə qabağını örtərək, yavaş-yavaş gedən lırtlaşmış qocaya gü-

lürdülər. Fağır qoca beş-on addım gedir, sonra dönüb həsrətlə, təlaşla paltarlarına baxırdı. Bir qədər gedir, sonra yenə dayanıb baxırdı.

Durdu onu səslədi:

– Gəl, – dedi. – Gəl, öz şey-şüyünü apar. Bizim ovumuz gəlir. Qurtardın yaxanı...

Büzüşmüş, taqətdən düşmüş kimi görünən o qoca heç gözlənilməyən bir çevikliklə qaça-qaça gəldi, qayış kimi çirklənmiş, cır-cındır paltarlarını qucağına aldı. Qaça-qaça geri döndü. Eşşəyini qabağına qatıb qaçmağa üz qoydu.

Məmmədin üzü qapqara qaralmışdı. Əlləri də titrəyirdi. Əlindəki tüfəngin içində nə qədər güllə vardısa, hamısını Durdunun kəlləsinə sıxmaq istəyirdi. Belə etməmək üçün özünü zorla saxlayırdı.

Durdu bu səfər daha gur səslə:

– Təslim olun! – deyə çığırdı.

Gələn beş atlının beşi də birdən atlarının başını çəkdi.

– Bir addım atsanız, qımıldansanız, atəş açacağam. Allaha and olsun, atəş açacağam.



Sonra üzünü yolun kənarında gizlənmiş qaçaqlara tutub dedi:

– Mən onların yanına gedirəm. Tərpənib müqavimət göstərsələr, hamınız hər tərəfdən atəş açarsınız.

Heç bir şey olmayıbmış kimi, sallana-sallana atlıların yanına getdi.

– Enin atlardan, – dedi.

Yolçular dinmədən atlardan endilər. Atların yəhər-yüyəni qara mina ilə işlənmiş gümüşlə bəzədilmişdi. Adamların hamısı geyimli-kecimli idi. Onlardan ikisinin əynində şəhərli geyimi vardı. Beş atlıdan biri on yeddi yaşlarında bir oğlan idi.

Durdu yoldaşlarını təkrar səslədi:

– Üç nəfər yanıma gəlsin.

Elə bu dəmdə on yeddi yaşlarında olan oğlan hönkürhönkür ağlamağa başladı:

– Nə olar ki, məni öldürməyin? Nə istəyirsiniz götürün. Məni öldürməyin.

Durdu oğlana:

– Qoçağım, – dedi, – çıl-çılpaq, anadangəlmə olacaqsan, ondan sonra gedə bilərsən.

Oğlan birdən sevincək çığırdı:

– Öldürməyəcəksiniz, hə? – Paltarlarını tez-tez soyunaraq: – Demək, öldürməyəcəksiniz? – deyə minnətlə soruşurdu.

Göz açıb-yumunca, oğlan paltarlarını, köynəyini, alt köynəyini, tumanını, hər şeyini çıxartdı, gətirib Durduya verdi:

– Al! – dedi.

O birilər də heç bir söz demədən soyundular. Əyinlərində yalnız tumanları qaldı.

Durdu:

– Tumanlarınızı da çıxaracaqsınız, ağalar, – dedi. – Mənə əsas tuman lazımdır.

Adamlar yenə də heç ağızlarını açmadılar. Tumanlarını çıxartdılar, qabaqlarını əlləri ilə örtüb, yola düzəldilər.

Qaçaqlar onların atlarını, paltarlarını, var-yoxlarını yığışdırıb dağa tərəf yönəldilər.

Dağa çıxarkən Durdu Məmmədə:

– Bəxtin varmış, İncə oğlan, – dedi. – Bu gün qismətimiz yaxşı oldu. Ciblərindən də düz min beş yüz lirə çıxdı. Atları, paltarları da üstəlik... Oğlanın paltarları sənə yaxşı olar. Özü də təptəzədir. İt oğlu it, necə də bağırırdı! Canı şəkərdən də şirindir...

Qaranlıq qayasının dibinə çatanda, Durdu atdan enən kimi, oğlanın paltarını Məmmədə geydirdi. Ona baxa-baxa:

– Ay, İncə Məmməd, – dedi, – bu it oğlu itin paltarı sənə nə yaxşı yaraşır... Lap məktəbliyə oxşayırsan...

Məmməd özgə paltarının içində özünü zəlil, əzgin hiss edirdi. Sanki boğulurdu.

Haraya gedəcəyini, nə edəcəyini bilmirdi. Bütün yol boyu özlüyündə götür-qoy etdiyi, lakin soruşmağa cəsarət etmədiyi bir sualı bu anda birdən-birə Durduya verdi:

– Biz onların hər şeyini əllərindən alırıq, yaxşı, bəs tumanlarını niyə alırıq? Bunu başa düşmədim...

Məmməd bunu deyəndən sonra qəlbində bir yüngüllük hiss etdi. Bir anlığa olsa da, əynindəki paltarın özgəninki olduğunu unutdu.

Durdu Məmmədin bu sualına güldü:

– Tumanlarını əllərindən alırıq ki, bizim yer şöhrət qazansın, – dedi. – Dəli Durdudan başqa heç bir qaçaq adamların tumanını əlindən almır. Qoy bilsinlər ki, bu soyulanları Dəli Durdu soymuşdur...

## XI

Yağışdan sonra isti düşmüşdü. Hava nəm və bürkü idi. Vəlinin islaq paltarı bədəninə yapışmış, qana, palçığa bulaşmış ölüsünü Abdi ağanın həyətində bir çulun üstünə uzandırmışdılar. Yaşıl milçəklər par-par parlayaraq ölünün üstündə uçuşurdular. Ölü bir qəriblik, bir yalqızlıq içindəydi. Sapsarı saralmış əlləri yanlarına düşüb qalmışdı.

Güllənin biri Abdi ağanın sol çiynindən dəymişdi. Güllə çiynini dələndən sonra, qayıdıb kürək sümüyünün altında qalmışdı. İkinci güllə sol qıçından girmiş, sümüyə toxunmadan çıxıb getmişdi. Abdi ağanın yaraları hələ meşədə ikən kəndin cərrahı tərəfindən yuyulub sarınmışdı. Odur ki, Abdi ağa qan da itirməmişdi. Amma kürək sümüyünün altındakı güllə çox əziyyət verirdi. Ağrısı ciyərlərinə işləyirdi. Abdi ağanın biri on dörd, biri on altı yaşında iki oğlu vardı. Oğlanları, qohum-əqrəbası, Abdi ağanın fədailəri, muzdurları onun başına toplaşmışdılar, onun ağzından ikicə söz çıxmasını gözləyirdilər. O isə yavaşça zarıldayır, ah-uf eləyirdi. Arvadları yanında oturub səssiz-səssiz ağlayırdılar.

Birdən Abdi ağa qəribə bir tərzdə gözlərini açaraq:
– Qardaşoğlum necədir? Vəlim necə oldu? – deyə soruşdu.
Qadınlar hıçqırıb ağlamaqla cavab verdilər.
Abdi ağa bir də soruşdu:
– Demək?
Kəndlilərdən biri:
– Başın sağ olsun, – deyə cavab verdi. – Sən sağ ol, Abdi ağamız.
Gözləri parıldayan Abdi ağa:
– O məlun necə oldu? – deyə soruşdu.
Yanındakı adamlar boyunlarını bükərək, zəif bir səslə:
– Aradan çıxdı, – deyə cavab verdilər.
Abdi ağa gözlərini bərəldərək təkrar soruşdu.
– Bəs qız dedikləri o yava necə oldu?
– Tutub gətirdik, – deyə cavab verdilər.
Abdi ağa gözlərini yumdu, başını yastığa qoydu, zarıldamağa başladı. Haçandan-haçana gözlərini açdı:
– Qızı döymədiniz ki? – deyə soruşdu.
– Heç incitmədik, – dedilər.
– Bax, bunu çox yaxşı eləmisiniz. Bir çırtma da vurmamısınız, eləmi?
– Bir çırtma da vurmamışıq, – dedilər.
– Çox yaxşı eləmisiniz.
Hamı bilirdi ki, kəndlilərdən biri bir qəbahət elədikdə, Abdi ağa onu döyməyibsə, deməli, ona çox böyük bir pislik edəcəkdir. O adam ömrünün axırınadək işlədiyi qəbahətin cəzasını çəkəcəkdir. Əgər Abdi ağa onu döysəydi, günahı unudulub gedərdi. Odur ki, Abdi ağanın qarşısında özlərini günahkar hesab edən kəndlilər gəlib onun qabağında oturardılar, kötək yeməyincəyə qədər qalxıb getməzdilər.
Abdi yenə gözlərini yumdu. Üzü sapsarı saralmış, uzanmışdı. Haçandan-haçana təkrar gözlərini açanda üzündən zorla sezilən bir sevinc dalğası keçdi.

– Mənimlə birlikdə meşəyə gedənlərin hamısı burdadırmı? – deyə soruşdu.

– Topal Əli ilə Rüstəm yoxdur, – dedilər.

– Gedin, onları da tez tapın, – deyə qəti əmr verdi.

Bir az sonra həyəti qadınların çığırtıları bürüdü. Vəlinin anası, atası, həmkəndliləri gəlmişdilər. Ana özünü oğlunun üstünə salaraq, qan, palçıq içində uzanmış ölünü öpürdü. Atası bir əlini gicgahına dayayaraq, taqətsiz halda dayanmışdı. Ananı güc-bəla ilə oğlunun ölüsü üstündən qaldırıb apardılar. Ata da taqətsiz-taqətsiz oğlunun yanından ağır-ağır qalxdı. O, ucaboylu, arıq bir adamdı. Çox uzun üzü, geniş alnı vardı. Çəkili nazik gödəkcə, pambıq parçadan miləmil şalvar geymişdi. Ayağında xam çarıq vardı. Çarığın tükləri hələ tökülməmişdi. Ayağa qalxdıqdan sonra əlləri yanlarına düşmüş halda, çaşqın-çaşqın dayanıb qaldı... Üzündə kədər, təsvirolunmaz bir iztirab ifadəsi vardı. Oğlunun ölüsünə əsla baxa bilmirdi. Ürəyi gəlmirdi.

Vəlinin atası bu vəziyyətdə dayanıb dururkən, birisi gəlib onun qoluna girdi. Abdi ağanın yanına apardı. Abdi ağa onu görən kimi:

– Qəzavü-qədərdir, – deyə başını salladı.

Vəlinin atası özünü saxlaya bilməyib ürəyini boşaltdı:

– Qəzavü-qədər, qəzavü-qədər... Buna qəzavü-qədər deməzlər, Abdi ağa! – dedi.– Bu, qəzavü-qədər deyil. Bir pişiyin, itin, uçan quşun, hər nəyin üstünə bu qədər getsən, birinci dəfə qorxar, ikinci dəfə qorxar... Üçüncüsündə isə canını dişinə tutub pələngə dönər... Səni parçalar. Adamları bu qədər qısnamaq olmaz. Götürüb qaçmış... Allah balalarını versin. Qoy getsinlər...

Bu sözləri deyəndən sonra o süstləşdi. Əvvəlki kimi, yenə də taqətsiz hala düşdü. Sanki otağa girəndən bəri heç ağzını açıb danışmamış, qımıldanmamışdı. Daş kimi, yerindəcə dayanıb qalmışdı.

Abdi ağa dişlərini qıcırdaraq deyirdi:

– Belə eləyəcəyini bilsəydim... Bir bilsəydim... Bir gör onların başına nə gətirəcəyəm. O məlun da, o yava da özlə-

rinə min kərə ölüm axtaracaqlar. Min kərə... Onları axtartdıracağam.. Mən heç qoyarammı ki, bu belə qalsın? Eləmi güman edirsən? Bir şam ağacına bağlayacağam, altından od vuracağam. İndi o, necə olsa, yaxalanacaqdır.

Yanındakılardan soruşdu:

– Onu təqib etməyə gedən oldumu?

– Dünən axşamdan gediblər...

– Polis məntəqəsinə adam göndərilmişdirmi?

– Axşamdan göndərilmişdir.

– Jandarmlar hələ gəlməmişlərmi?

– Axşama yaxın ancaq gələrlər. Hökumətə xəbər göndərmişlər, müstəntiqi gözləyirlər, hər halda doktoru da gözləyirlər...

– Doktorsuz olmaz. Onlar gəlməmişdən əvvəl, qoy mənimlə meşədə olanların hamısı gəlsin. Mütləq hamısı burada olsun...

Muzdurlardan biri:

– Topal Əli ilə Rüstəm həyətdədirlər, – dedi.

Abdi ağa soruşdu:

– Demək, hamısı burdadır?

– Hamısı burdadır, – dedilər.

– Elə isə hamısı yanıma gəlsin. Otaqda heç kəs qalmasın. Heç kəs...

Ölən cavanın atası ağır-ağır yerindən qalxıb otaqdan çıxdı. Bir kərə də olsun Abdi ağanın üzünə baxmadı. Otaqdakı qalan adamlar da onun ardınca bayıra çıxdılar.

Onların yerinə, Abdi ağa ilə meşədə olan adamlar gəlib oturdular. Abdi ağanı dövrəyə aldılar. Maraqla Abdi ağaya baxırdılar. Bilirdilər ki, Abdi ağa onlara necə ifadə verməli olacaqlarını öyrədəcəkdir. Həmişə bir hökumət işi olanda onlar özlərindən heç bir söz söyləməzdilər. Abdi ağa onları yığıb, nə eyləyəcəklərini əzbərlətdirərdi. Bundan sonra onlar hökumət adamının qarşısında dayanıb, lap bülbül kimi ötərdilər. Əzbərlədiklərini söyləyib qurtarandan sonra, onlara başqa sual veriləndə, «dalını bilmirəm» deyərdilər.

Onlardan nə soruşulsaydı, eyni cavabı verərdilər: «bilmirəm».

Abdi ağa bir-bir onların üzünə baxdı. Hamısının üzü sapsarıydı. Bir müddət gözlərini onların üzündən ayırıb yerə zillədi. Dinib-danışmadı. Sonra başını qaldırıb, təkrar iti baxışlarını bir-bir onların üzərində gəzdirdi. Dodaqları yavaşca tərpəndi. Zəif səslə:

– Məni dinləyin, qardaşlar, – dedi. – Əvvəlcə əlinizi, bax beləcə ürəyinizin, vicdanınızın üstünə qoyun... Qoydunuzmu? Bax, indi bir düşünün... Sizdən soruşuram: yal verib qapınızda saxladığınız köpək sizi qaparsa, oğul-uşağınızı öldürərsə, siz nə edərsiniz? Sizdən buna cavab istəyirəm... Əliniz ürəyinizin üstündədir... Bunu yaddan çıxarmayın...

Abdi ağa yenə də onlardan hər birinin üzünə uzun zaman diqqətlə baxdı.

– Bir cavab verin. Siz olsanız, neylərsiniz?

Bu dəfə də o, sərt baxışlarını ildırım sürəti ilə onların üzərində gəzdirdi.

– Deyin görüm, siz olsanız, neylərsiniz?

Otaqdakılar dodaqaltı:

– Olacağa çarə yoxdur, – dedilər.

Abdi ağa gözlərini bərəldərək soruşdu?

– Yəni nə demək istəyirsiniz?

– Sən deyəndir, ağa, sən bilirsən, – dedilər.

Bunu eşidincə Abdi ağa, sanki mühüm bir şey söyləmişlər kimi, onların dediklərini təsdiq edərək:

– Odur ha, qardaşlar, mənim itim mənim uşağımı qapmışdır. Uşağımı, məni parçalamışdır. Biri qaçıb getmişdir. Yaxalanacaqdır. Quş olub uçsa da, yaxalanacaqdır. Qurtula bilməyəcəkdir. Onun cinayət ortağı burada qalmışdır. Əslində bütün pisliklər bu qızın üzündən olmuşdur. Bütün günah da ondadır... Oğlanı da elə bu qız vurdu... Gözümüzlə gördük ki, Vəlini qız vurdu. Məni İncə Məmməd, Vəlini qız vurdu. İkisinin də əlində tapança vardı. Hamınız

gördünüz. Əvvəlcə o məlun məni nişan alıb atəş açdı. Sonra da qız Vəlini nişan alıb atəş açdı.

Abdi ağa üzünü bayıra tutub çığırdı:

– Uşaqlar, biriniz buraya gəlin.

Böyük oğlu içəri girdi.

– O silahı gətir, oğlum, – dedi.

Oğlan otaqdakı divar şkafından təptəzə bir tapança çıxardıb atasına verdi. Abdi ağa əlindəki tapançanı yanındakı kəndliyə uzatdı:

– Bir-bir baxın, – dedi. – Qızın əlindən aldığınız tapança budurmu? Vəlini bu tapança ilə vurdular, eləmi? Yaxşı baxın...

Tapança əldən-ələ gəzdi, sonra yenə Abdi ağaya qaytarıldı.

– Gördünüz, eləmi? – deyə Abdi ağa soruşdu.

– Gördük, – dedilər.

– Bu tapança qızın əlindəki tapançadır. Qız Vəliyə bu tapançadan atəş açdı. Vəli yerə yıxılan kimi, tapança da qızın əlindən yerə düşdü. Yerdən tapançanı Hacı qaldırdı. Qızı da Hacı tutdu. Bunu hamınız gördünüz. Elə deyilmi, Hacı?

Hacı vaxtından əvvəl qocalmış, qısaboylu, mavigözlü, yekəburun bir adamdı; əynində yamaqlı, yırtıq paltar vardı, üz-gözü çirk içindəydi, ülgüc görməmiş saç-saqqalı bir-birinə qarışmışdı; özü də elə bil tozun içinə girib çıxmışdı.

Hacı Abdi ağanın sualına cavab verərək:

– Elə oldu, istəkli ağam, – dedi. – Lap elə oldu. Tapança yerə düşən kimi... Yəni yerə düşən kimi, istəkli ağam, onu yerdən mən götürdüm. Qız baş götürüb qaçırdı. Yəni oğlanın əlindən tutmuşdu... Oğlan dediyim o məlun İncə Məmməd var ha, bax odur. Qız onun əlindən tutmuşdu, ikisi bərabər qaçırdılar. Mən yetişib Xətcəni tutdum. Buraxmadım. Gözümün qabağında Xətcə Vəlini vurdu. – Hacı başını yırğaladı. Gözlərini, yaşarıbmış kimi, quruladı. – A-a-a-ah, Vəli ağam! Vəli ağamın tayı-bərabəri

vardımı? Belə mərd oğlanın canına yalnız pis adamlar qıya bilərlər. İgidin igidə qıydığını kim görmüşdür? A-a-a-ah, Vəli ağam, vurdu səni kafirin qızı... Köpək oğlunun qızı bir cür nişan alırdı, bir cür nişan alırdı ki... Kim bilir harda öyrənib...

Abdi ağa:

– Eşitdiniz də, – dedi. – Hamınız belə gördünüz, deyilmi? Zəkəriyyə, sən necə? Sən də beləmi gördün?

Zəkəriyyə:

– Eynən belə gördüm, – deyə cavab verdi.

– Topal Əli, sən necə?

Topal Əli bayaqdan bəri özünü zorla saxlamışdı.

– Mən, – dedi, – mən heç bir şey görmədim, ağa. Heççə bir şey. İzi tapdığıma görə kəndlilər üzümə baxmırlar. Nə bu kəndlilər, nə də bizim kəndlilər. Mən yoldan keçəndə uşaqlar da mənə dal çevirirlər. Arvadım da mənə ikrahla baxdı. Məni dindirmədi. Mən heç bir şey, heççə bir şey görməmişəm, ağa. Bunu bilginən. Məmmədin səni vurduğunu da görməmişəm. – Əli sözünü deyib ayağa qalxdı, qapıya tərəf getdi. Onun bütün vücudundan qəzəb yağırdı. O, qəzəbli-qəzəbli otaqdan çıxdı.



Abdi ağa belə bir hərəkəti, belə bir üsyanı heç kəsdən gözləməzdi. Karıxıb qaldı. Dodaqları sallandı. Özünə gəlincə əsəbiləşdi. Əsəbilikdən başı əsməyə başladı. Topal Əlinin arxasınca cumacaqmış kimi, ona tərəf uzandı.

– Topal Əli! Topal Əli! Daha o kənddə qalma. Kəndə çatan kimi şələ-küləni yığışdır, hara gedirsən get! Bir gün də evdə qalsan, adam göndərib evini başına uçurdaram. Eşitdinmi. Topal Əli? – deyə Abdi bağırdı.

Sonra öz-özünə dedi:

– Namussuzlar, nankorlar, ac-yalavaclar... – Üzünü otaqdakılara tutub: – Hamınız belə gördünüz, eləmi? – deyə soruşdu.

Hamı bir ağızdan:

– Belə gördük, – deyə cavab verdilər.

– Əlinizi ürəyinizin üstünə qoyun, kəndlilərim, qardaşlarım... Bir qarış uşaq məni... beş böyük kəndin ağasını, öz sahibini öldürmək istəsin... Bir qızın üstündə. Mən ölsəydim, sizin halınız necə olardı? Hələ bir düşünün! Bir düşünün ki, mən yoxam... Bir qız mənə gəlin olacağı halda, baldırıaçıq bir lütün birinə qoşulub qaçsın. Bu hansı kitabda yazılıb? Əlinizi yaxşıca qoyun ürəyinizin üstünə... Elə bir iş yoxdur ki, vicdan ona qarışmasın. Vicdanın qarışmadığı işdən xeyir gəlməz. Bəli, belədir...

Tomruq Musa:

– Biz ağamızın xatirinə ona qoşulub getdik, – dedi.

Ağa onun dediyini bəyənərək:

– Var ol, Musa, – dedi.

Təkə Qədir:

– Bunu ağamızın xatirinə eləmədikmi? – dedi. – Hamımız ona qoşulub getdik.

Ağa:

– Hamınız sağ olun, – dedi. – Bu il sizdən məhsulun ancaq dörddə birini alacağam. Heyvanları da sizə bağışladım. İndi sizdə olan heyvanlar sizinki olacaqdır. İndi gedin, əllərinizi ürəyinizin üstünə qoyun, hökumətə nə söyləyəcəyinizi əzbərləyin...

Kəndlilər ağanın yanından gülər üzlə, kefi kök çıxdılar. Məhsulun dörddə üçü onların olacaq! Heyvanlar da! Vay səni! Onlar ölüdən təqribən əlli metr aralı, həyətin bir guşəsində çöməlib oturdular, söyləyəcəklərini əzbərləməyə başladılar...

– Hacı əfəndim... Bax, bu Hacı əfəndim gedib tapançanı yerdən götürdü. Qızla oğlan bir-birinin əlindən tutub qaçırdılar. Sonra qız oğlanın əlini buraxdı... Biz gedib onu tutduq...

Hacı danışan adamın sözünü kəsdi:

– Burası düz olmadı, – dedi. – Deyərsən ki, Hacı, yəni mən onların dalınca yüyürdüm, onlar bir-birinin əlindən tutub qaçırdılar. Xətcəni tutdum... Mən, yəni Hacı Xətcəni tutan kimi, oğlan, yəni İncə Məmməd qızı buraxıb qaçdı.

– Hacı yüyürüb qızı tutdu, Hacı qızı tutan kimi oğlan, yəni İncə Məmməd qızı buraxıb qaçdı.

– Qız bir cür nişan alırdı ki, köpək oğlunun qızı bunu harda öyrənmişdi? Vəliyə nişan aldı, üç güllə atdı. Üçü də dəydi! Vay köpək oğlunun qızı. Üçü də!.. Vəli cansız halda yerə yıxılan kimi, tapança da qızın əlindən yerə düşdü. Hacı, bax bu Hacı gedib tapançanı yerdən götürdü.

Hacı:

– Düzdür, – dedi. – Lap belə oldu. Onlar gəlincəyədək yaxşıca əzbərlərik.

Günortadan sonra irəlidə iki süngülü jandarm, arxada doktor, prokuror və kiçik jandarm zabiti gəlib Abdi ağanın evinin qabağında atdan düşdülər. Həyətdəki ölünün üstünə güllü yorğan çəkmişdilər, ölünün sapsarı saralmış əli yorğanın altından bayıra çıxmışdı.

Doktor gənc, göygözlü, qıza bənzər bir adamdı. Atdan enən kimi, çimçişə-çimçişə ölüyə baxdı. Yorğanı yenə də ölünün üstünə çəkdi.

– Basdıra bilərsiniz, – dedi.

Gələnlər qaşqabaqlarını tökərək içəri girib Abdi ağanın yanında oturdular. Çox yorulmuşdular. Üçü də Abdi ağanı qəsəbədən tanıyırdı. Jandarm kiçik zabiti Abdi ağanın yaxın dostu idi. Bu hadisədən duyduğu kədəri, fürsət düşdükcə, tez-tez bildirdi.

– Heç narahat olma, ağa, – dedi. – Qatili mən, əlimlə qoymuş kimi, taparam. Gətirərəm. Cəzasını alar. Bunun üçün heç narahat olma... Onu tutmağa dörd jandarm göndərmişəm.

Kiçik zabit özü ilə yazı maşını da gətirmişdi. Yazı maşını heybədən çıxarılıb çörək taxtasının üstünə qoyuldu. Bir jandarm da göndərib, Xətcəni gətirtdilər. Qızdan ifadə aldılar. Xətcə bütün əhvalatı olduğu kimi danışdı. Qızın ifadəsi protokola yazıldı. Bundan sonra hadisə baş verdiyi zaman orada olan şahidlərin ifadələri alındı. Əvvəlcə Hacı ifadə verdi. Hadisəni başdan axıradək danışandan sonra:

– Məmməd Abdi ağaya atəş açarkən, bir də gördüm ki, bu qız, yəni həmin bu Xətcə, əlində bir tapança nişan almışdır, özü də bir nişan almış ki... Vəliyə atəş açır. Vəli, «yandım, anam» deyərək yerə yıxılan kimi, Xətcə də yerində donub qaldı. Tapança da əlindən düşdü. Mən gedib tapançanı palçığın içindən götürdüm. Məmməd qızın, yəni bu Xətcənin qolundan tutmuşdu, qaçırdılar. Mən yetişib onların üstünə atıldım. İkisini də tutdum. Məmməd əlimdən çıxıb qaçdı. Qızı buraxmadım. Hə, buraxmadım. Buraxmadım ki, buraxmadım. Heç buraxaram!

Xətcə Hacının bu ifadəsini eşidəndə çaşıb qaldı. Hacı nə demək istəyirdi? Anlamadı.

Prokuror:

– O deyir ki, Vəlini sən vurmusan. Buna nə deyirsən, Xətcə? – deyə soruşdu.

Xətcə;

– Yox, – dedi. – Mən o yekəlikdə adamı necə vura bilərdim? Əhvalat heç də Hacının dediyi kimi olmamışdır. Nəyə görə o belə danışır?

Sonra Zəkəriyyənin ifadəsi alındı. O da eynən Hacı kimi danışdı. Nə bir kəlmə əskik, nə də bir kəlmə artıq. Şahidlərin hamısının eyni cür ifadə verdiyini görən Xətcə sezdi ki, onun əleyhinə nə isə hazırlanır. Canına qorxu düşdü. Ürəyində bir ağrı duydu. Gözlərin-dən yaş axmağa başladı.

Prokuror şahidlərə tapançanı göstərdi:

– Xətcənin əlindəki tapança bu tapança idimi? – deyə soruşdu.

– Hə, elə bu tapança idi, – deyə cavab verdilər.

Gələnlər gecəni Abdi ağanın evində qonaq qaldılar. Altlarına qoşa döşək salındı. Onların şərəfinə quzular qızardıldı. Torpaqda külə basdırılan quzu qızartması. Prokuror hər dəfə dağ kəndlərinə gələndə bu cür qızartma bişirtdirərdi, Ət bu qayda ilə bişiriləndə çox ləzzətli olurdu.

Gecə Xətcəni qonşu otaqda dustaq etdilər. O gecə heç bir şey düşünə bilməyən Xətcə başını iki dizinin üstünə qoyaraq, sabaha qədər səssiz-səssiz ağladı. Səhər açılan kimi, Xətcəni gecə dustaq edildiyi otaqdan çıxarıb, iki jandarmın qabağına qatdılar. Xətcə həbsxanaya aparılırdı. O, heç özündə deyildi. Nə olacağını, ona nə edəcəklərini heç cür təsəvvürünə gətirə bilmirdi. Yeriyəndə qıçları bir-birinə dolaşırdı. İkinci dəfə idi ki, Xətcə uzaqlara getmək üçün öz kəndindən çıxırdı. Birincisində Xətcənin yanında dayağı, sevdiyi adam vardı. O zaman haraya gedəcəyini, nə edəcəyini bilirdi. O zaman onlar isti bir yer, bir ev xəyalının ardınca qaçırdılar. İndi isə ürəyində bir qorxu, bir ümidsizlik vardı. Bu adamların ona nə edəcəklərini düşünürdü. Kənddən ayrılarkən hətta anası da onu ötürməyə gəlməmişdi... Rəfiqələri də gəlməmişdilər. Bu ona ağır gəlirdi, onu öldürürdü. Onu dözülməz bir kədər bürümüşdü. Bəzən də sanki heç bir şey eşitmir, düşünmür, görmürdü. Yalnız, arada özünə gələn kimi, iki yanındakı jandarmlara baxıb ürpənirdi. Sonrası Xətcə üçün qaranlıq idi. O, hər addımda bu qaranlığa bir az da çox qərq olurdu. Gözlərinin önündə div kimi hökumət... Jandarmlar... Yanınca gedən iki hökumət nümayəndəsi.



Ertəsi gün qəsəbəyə çatdıqları zaman Xətcə lap taqətdən düşmüşdü. Yorğundu. Ayaqlarını zorla sürüyürdü. Qəsəbəni görəndə ürəyində xoş bir şey duydu. Ürəyi də azacıq sakit oldu. Qorxusu azaldı. Məmmədi xatırladı. Məmməd həmişə ona sarı parıltıdan, portağallardan, ağappaq çay daşlarından, axan sudan, kabab iyindən danışardı... Deyərdi ki, bir evin damında, şüşədən qayrılmış, leylək yuvasına bənzər bir otaq vardır. Görəsən, o hansı evdir? Bir evin pəncərəsinə gün düşmüşdü, alışıb-yanırdı. Sanki pəncərəyə qırmızı şüşə salmışdılar... Birdən halı dəyişdi. Məmmədi xatırladı. Görəsən, indi Məmməd haradadır? Məmmədi tutsalar, öldürərlər. «Hamısı da mənim üstümdə» dedi.

Jandarm məntəqəsinin altındakı dustaqxananın döşəməsi sementdir. Topuğadək su ilə doludur. Nəyə görə su ilə doludur, nə üçün belə etmişlər – bəlli deyil. Üstəlik də ayaqyolundan pis iy gəlir. Qaranlıqdır, mazğal dəliyi kimi, təkcə bir pəncərəsi vardır. O da kip bağlıdır... Xətcəni oraya saldılar. Bir gecə orada qaldı. Təbiidir ki, yenə də gözlərinə yuxu getmədi. Yatmağa yer də yox idi, amma ürəyi rahat olsaydı, ayaq üstə də yatardı. Xətcə dəniz kimi ucsuz-bucaqsız bir qaranlıq içində sanki əriyib getmişdi. Qapının açılmasını səbirsizliklə gözləyirdi. Qapı açılan kimi buradan qurtulacağını güman edirdi. İşıq görən kimi, duyduğu bütün ağrıların sakitləşəcəyini düşünürdü. Səhərin açıldığını təxmin edirdi. Heç bir yerdən, hətta qapının arasından da işıq sızmırdı, amma o, səhərin açıldığını təxmin edirdi.

Birdən qapı açıldı. İşıq, ağır qurğuşun kimi, ona çarpıb sərsəmlətdi. Aradan xeyli vaxt keçəndən sonra o, yavaş-yavaş özünə gələ bildi. Bu zaman bir jandarm onun qolundan tutub bayıra çıxardırdı.

Bayırda bir dəstə adam toplaşmışdı. Xətcə bayıra çıxan kimi, bütün başlar ona çevrildi. «Nişanlısını öldürən qız budur!» sözləri də qulağına çatdı. Başa düşdü ki, bu camaat onun üçün toplaşmışdır. Bir kərə də olsun başını qaldırıb camaata baxmadı, adamların arasından keçib getdi. Yanındakı iki jandarm indi onu qorxutmur, ona qüvvət verirdi.

Xətcəni çox yaşlı bir hakimin yanına apardılar. Hakim dünyagörmüş, sallaq gərdənli, yekəbığ bir kişi idi. Hakim qızın şəxsiyyətini müəyyən edəndən sonra soruşdu:

– İddia edilir ki, sən Mustafa oğlu Vəlini vurmusan. Bu doğrudurmu?

Xətcə sadəlövhcəsinə:

– Vallah, Vəlini mən öldürməmişəm, – dedi. – Mən nə ilə adam öldürə bilərəm? Axı mən əlimə tapança almaqdan qorxuram.

Hakim kəndliləri, kənd qadınlarını yaxşı tanıyırdı. Uzun illər ərzində minlərcəsini dinləmişdi. Xətcənin müqəssir olmadığını dərhal anladı. Bunu anladı, amma Xətcəni həbs etmək məcburiyyətində qaldı. Dəlillər qüvvətli idi.

Həbsxananın qadınlar kamerası binaya bitişik olaraq sonradan tikilmiş bir otaqdır. Divarlarının malası tökülmüşdür... Divar tamam qan ləkəsi içindədir. İndiyədək bu divarlarda yüzlərlə, minlərlə ağcaqanad öldürülmüşdür. Bu qan ləkələri onların izidir. Tavan, taxtalar, pəncərələr, rəzələr çürümüşdür, yenə də çürüyür...

Kameradan rütubət qoxusu, sidik qoxusu gəlirdi. Qapının dalında bir tənəkə qab vardı. Həbsxana gözətçisi qabı Xətcəyə göstərərək demişdi ki, gecə təbii ehtiyac üçün bu qabdan istifadə edə bilər. Xətcə gözətçinin gətirdiyi çörəkdən istəməyə-istəməyə bir parça qoparıb ağzına atdı. Nə qədər çeynədisə də, uda bilmədi. Tüpürdü.

Sonrakı iki gün ərzində də Xətcə heç bir şey yeyə bilmədi. Çox əzab çəkirdi. Düşdüyü vəziyyətə heç cür alışa bilmirdi...

Həbsxanaya düşdüyünün üçüncü günü idi ki, anası gəlib çıxdı. Ağlamaqdan anasının gözləri qızarmışdı. Anası həbsxana pəncərəsinin qabağında oturub:

– Qızım, mənim qəşəng qızım! – dedi. – Bu nəydi sənin başına gəldi? Niyə vurdun xalqın oğlunu?

Qız ilk dəfə olaraq hiddət və qəzəblə danışdı:

– Mən necə öldürə bilərəm xalqın oğlunu? Mən heç əlimə silah almışammı? Sən məgər bilmirsən?

Qadın qızının qəzəbləndiyini görüb yumşaldı. Qızının bu işi tuta bilməyəcəyini heç fikirləşməmişdi.

– Mən nə bilim, qəşəng qızım! Hamı deyir ki, Vəlini vuran Xətcədir. Mən nə bilim, qəşəng qızım! İndi gedib ərizəyazana bir ərizə yazdıraram. Deyərəm ki, mənim qızım silahdan qorxur. Hə... Abdi ağa mənim üçün xəbər göndərmişdir ki, ərizə yazdırmaq fikrinə düşməsin. Onun xə-

bəri olmadan, sənin üçün bir ərizə yazdıracağam, mənim qəşəng qızım! Məni öldürəcəyini də bilsəm, yazdıracağam. Hə, qəşəng qızım, sənin heç bir təqsirin yoxdur. Xalqın oğlunu vuran o imansız İncə Məmməddir. Sənin boynuna yıxırlar. Mənim evimi yıxan o imansız İncə Məmməd oldu... Sənin üçün yaxşıca bir ərizə yazdıracağam, mənim qəşəng qızım. Gedib ərizəyazanın yanında ağlayacağam... Mən gedirəm, qəşəng qızım.

Anası kənddən gətirdiyi azuqə bağlamasını pəncərədən uzatdı.

– Mən ərizəyazanın yanına gedib hər şeyi yazdıraram. Hökumət onu oxusa, sənin təqsirin olmadığını başa düşər... Hökumət də insandır... Onun da mərhəməti var. Günahın olmadığı halda, səni nə deyib saxlayar!

Anasının gəlməsi Xətcənin kefini bir az açdı. Xətcə ilk dəfə olaraq başa düşdü ki, pəncərədən təzə tikilmiş bir evin par-par parıldayan təmiz, qırmızı kirəmitləri, onun arxasında məscidin qübbəsi, qələm kimi incə, dümdüz, ağ minarəsi, bəri tərəfdə, divarın dibində qalın yarpaqlı əncir ağacı, ondan da bəridə çox böyük, tozlu bir həyət, həyətdə oraya-buraya gedən adamlar görünür. Məmməd hər şeyi danışmış, amma qırmızı kirəmitin gözəlliyini, parıltısını söyləməmişdi.

Gözətçi gəlib qapını açdı. Çox əsəbi bir adam idi. Sərt bir tərzdə:

– Həyətə çıxıb hava ala bilərsən, – dedi.

Gözətçi gündə iki kərə – günorta və axşam – qapını açıb Xətcəni həyətə buraxırdı. Lakin o indiyədək həyətə çıxdığına heç fikir verməmişdi. Bu gün isə o, dünyaya yenidən qovuşduğunun sevincini duydu.

Həbsxananın darvazası ilə onun kamerasının yan pəncərəsi qarşı-qarşıya idi. Bir-iki dustaq Xətcənin kefinin bir qədər kök olduğunu görən kimi onu səslədilər:

– Ay bacı! Fikir çəkmə, bacı! Adamın başına hər şey gələr. Hərifin işini bitirmisən. Yaş-ş-şa, bacı! Yaşasın məhəbbət!

Xətcə cavab vermədi. İçəri girdi. Məmmədi düşünməyə başladı.

Ana ərizəyazan əyyaş, dəli Fəxrinin yanına getdi. Dəli Fəxri bir neçə il bundan əvvəl, rüşvət almaq üstündə məhkəmə katibliyindən qovulmuşdu. Qovulduğu gündən bəri də ona-buna ərizə yazmaqla məşğul idi. Ərizə yazmaqla məhkəmə katibi olduğu zamanda qazandığından iki-üç qat artıq qazanırdı. «Vəkildən də ağıllıdır» deyə adı çıxmışdı. Gecə-gündüz sərxoş idi. Ərizələri sərxoş-sərxoş yazardı.

Dəli Fəxri, başını yazı maşınının qoyulduğu kirli stolun üstünə qoyub yatmışdı. Dörd yanından araq qoxusu gəlirdi. Ayaq səsi eşidən kimi başını qaldırdı. O, uzun illərdən bəri qazandığı vərdiş nəticəsində, ərizə yazdırmağa gələnlərin ayaq səslərini yaxşı tanıyırdı. Stolu bir qəssab dükanı karnizinin altında olduğu üçün həmişə onun yanından dəstə-dəstə adam keçərdi. O, yanından ötənlərin heç birinə başını qaldırıb baxmazdı. Ərizə yazdıracaq adam lap uzaqda da olsa, başını dərhal qaldırıb, gələnin gözlərinin içinə baxaraq:



– Danış görək, – deyərdi.

Xətcənin anasına da:

– Danış görək, – dedi.

Qadın səkinin üstündə oturdu, başını divara dayadı:

– Qurbanın olduğum, Fəxri əfəndi, – deyə sözə başladı. – Başımıza gələni xəbər alma.

Fəxri əfəndi karandaşını ağzına salıb sorurdu.

– Qurbanın olduğum, Fəxri əfəndi. Mənim bir tək qızım vardı. Bir tək qızcığazım. Qəşəng qızcığazım, qurbanın olduğum, Fəxri əfəndi... Hə, qəşəng qızcığazım Xətcə... Fəxri əfəndimə deyim, tutdular qəşəng qızımı, soxdular həbsxanaya. İndi mənim qəşəng qızım həbsxanada yatır.

Fəxri əfəndi yavaş-yavaş karandaşı ağzından çəkdi:

– Sənin qızın nə üstündə həbsxanaya düşmüşdür, sən mənə bunu danış, – dedi.

– Qurbanın olduğum, Fəxri əfəndi, indi sənə danışım, sən də yaxşı qulaq as... Qızımı Abdi ağanın qardaşı oğlu Vəliyə nişanlamışdıq. Qəşəng qızımı. Kəklik kimi qəşəng qızımı. Sən demə, qız o imansız İncə Məmməd var ha, Dönənin yetim oğlu Məmməd, onunla sevişirmiş, biz nə bilək. Bir gecə qoşulub qaçdılar. İztanıyan Topal Əlini tanıyırsan, deyilmi? Onu tanımayan yoxdur. O imansız bunların izinə düşür; bir qayanın ovuğunda bu sevgililəri, əli ilə qoyubmuş kimi, tapır. Oğlan da tapançasını çəkib Abdi ağanı da, Vəlini də vurur. Sonra da qaçıb gedir... Qardaşım Fəxri əfəndiyə bunu da deyim ki, oğlanı hələ tuta bilməmişlər. Oğlanın yerinə mənim qəşəng qızım Xətcəni tutub gətirmişlər. Mənim gül qızımı gətirib həbsxanaya salmışlar. O yetim Məmmədin üzündən, onu görüm ki, gözləri kor olsun. Deyirlər ki, guya, Vəlini mənim qızım öldürmüşdür... Kəndlilərin hamısı belə şahidlik etmişdir. Təkcə Topal Əli şahid durmamışdır, onu da Abdi ağa kənddən sürgün etmişdir... Nə bilim, qardaşım Fəxri əfəndi. Qızın Vəlini öldürdüyünə mən də inanmışdım. Dedim ki, böyük bir kənd sözləşib qızımın barəsində yalan söyləməz, axı onların qızımla nə qərəzləri var? Demə, o imansız Abdi onları öyrətmişdir... Kəndlilər Abdinin sözündən çıxa bilməzlər. Vay mənim ağılsız başım. Mən də tez onlara inandım. Hə, qardaşım Fəxri əfəndi... Sonra gəlib qəşəng qızımdan soruşdum... Gördüm ki, iş başqa cürdür... Qəşəng qızım dedi ki, «Mən güllə atmaq nə bilirəm, ana!» Mən də düşündüm ki, mənim qəşəng qızım güllə atmaq bilmir. Hələ üstəlik, silahdan qorxur. Bizim evimizdə heç zaman silah olmamışdır. Qəşəng qızımın atası silahı heç xoşlamaz... Hamısı yalandan şahidlik etmişlər, qızıma böhtan atmışlar. Fəxri əfəndi, ağam, məsələ bax belədir... Mənim qəşəng qızım tüfəngdən qorxur... Tüfəng görsə, ödü qopar... Hökumətə bunu beləcə yaz.

Fəxri əfəndi kağız götürdü, kağızı köhnə, sınıq-salxaq yazı maşınına keçirtdi. Taqqıldada-taqqıldada yazmağa başladı. Heç dayanmadan, düz beş səhifəlik ərizə yazdı.

–Bax, ay arvad, – dedi,– indi mən oxuyum, sən də yaxşı-yaxşı qulaq as. Bax gör necə bəzəmişəm.

Fəxri əfəndi papirosunu dodağının gah bir tərəfinə, gah da o biri tərəfinə verərək, ərizəni birnəfəsə oxuyub qurtardı.

– Necədir? – deyə soruşdu.

Ana:

– Əlin var olsun, lap yaxşı yazmısan, – dedi.

Fəxri:

– Ay arvad, – dedi, – başqasına belə ərizəni heç on beş lirəyə də yazmazdım. Sən on lirə ver. Vallah, elə bir ərizə yazmışam ki, lap daşdan da keçər... Hə, daşdan da keçər.

Ana üst-üstdən bir neçə düyün vurduğu bağlamadan pulu əli titrəyə-titrəyə çıxarırkən:

– Əlin var olsun, – dedi. – İnşallah, daşdan da keçər.

Fəxri əfəndi qırmızı onluğu əlində oynada-oynada, ərizəni haraya aparacağını və nə deyəcəyini də qadına yaxşıca başa saldı. Qadın qalxıb gedərkən:

– Məni bağışla, qardaşım Fəxri əfəndi, – dedi. – Sonra sənə yumurta da gətirəcəyəm, yağ da...



Qadın Fəxri əfəndinin nişan verdiyi kimi gedib, ərizəni verəcəyi yeri tapdı. Qarşısında qızını tutub gətirən adamlardan birini görəndə, əvvəlcə qorxdu, sonra:

– Qurbanın olduğum ağam, – dedi, – sən mənim qızıma nə ad qoyub buraya gətirmisən? Niyə onu həbsxanaya salmısan? Axı mənim qızım güllə atmaq bilmir ki, adam öldürsün. Mənim qızım tüfəngdən çox qorxur... Uşaqlıqda tüfəng görsəydi, ağlaya-ağlaya gəlib boynuma sarılardı. Gizlənməyə çalışardı. Sənə bir ərizə gətirmişəm. Fəxri əfəndi bütün əhvalatı yaxşıca yazmışdır. Ərizəni oxu, qardaş, qızımı burax. Ayaqlarının altından öpüm. Mənim qəşəng qızımın heç bir təqsiri yoxdur. Könlü istəmiş, o imansız İncə Məmmədə qoşulub qaçmışdır... Hamının qızı qoşulub qaçar. Burax qızımı. Dabanlarını öpüm, qardaş...

Prokuror sərt bir tərzdə:

– Çox əllaməlik eləmə! Ərizəni qoy, get! – dedi. – Məhkəmə öz ədalətli hökmünü çıxaracaqdır.

Prokuror başını kağızların üzərinə əyərək, yenə də yazmağa başladı.

Ana qayıdıb həbsxanaya gələndə hava qaralırdı.

Xətcə səhərdən bəri onu səbirsizliklə gözləyirdi.

– Fəxri əfəndiyə bir ərizə yazdırdım ki, lap daşdan keçər, dəmirdən də. Qoy bir hökumət onu oxusun, səni dərhal buraxar. Təqsirsiz olduğunu başa düşüb buraxar. Ərizəyə sənin silahdan qorxduğunu da yazdırdım. Yadındadırmı, uşaqlıqda silah görən kimi, qaçıb qucağıma qısılardın? Bax, onu da yazdırdım. Fəxri əfəndi bir ərizə yazdı ki, lap iyirmi lirəlik. Amma məndən on lirə aldı. Qoy alsın. Qəşəng qızıma malım da qurbandır, canım da... Qoy bir hökumət onu oxusun...

Xətcə:

– Kaş ki, elə olsun, – dedi. Sonra anasının gözlərinin içinə baxaraq, başını aşağı saldı:

– Ay ana, – dedi, – mənim gözəl anam, bu dəfə gələndə mənə Məmməddən bir xəbər gətir. Nə deyirsən, gözəl anam? Mənə bir xəbər gətir.

Ana hirsli-hirsli dedi:

– Zəhrimar deyirəm, zəqqum deyirəm.

Xətcə gözlərini yerdən qaldırıb yalvarırmış kimi ona baxdı:

– Ay ana, mənim əziz anam, bir bax, bu dəlikdə çürüyürəm. Məmməd olmasa mən ölərəm. Sən qızını öldürməkmi istəyirsən? Mənə ondan bir xəbər...

Ana...

– Zəhrimar, zəqqum, – dedi. – İnşallah, onu parça-parça elərlər. Sənə onun ölüm xəbərini gətirərəm, inşallah...

Qız bu sözləri eşidən kimi ağlamağa başladı. Ana onun ağladığını görüb susdu. Uzun zaman qız ağladı, ona bir şey söyləmədi. Sonra:

– Gün batır, qəşəng qızım, – dedi. – Mən daha getdim.

Xətcə:

– Ana... – dedi.

Qadın dayandı. Gözləri yaşla dolmuşdu:

– Yaxşı, – dedi. Onun səsi titrəyirdi. – Sənin gül xatirin üçün bir xəbər öyrənməyə çalışaram, Məmmədin anasını elə döymüşlər ki... Bəlkə də, yazıq öldü. Yazıq Dönəcik. Sağlıqla qal, qızım, – deyərək yollandı.

– Qorxma, Fəxri əfəndi yaxşı yazdı ərizəni.

Verdiyi ərizəyə çox ümid bağlayırdı.

## XII

Elə qaranlıq idi ki, göz gözü görmürdü. Meşə uğuldayırdı. Meşə qaranlığa qərq olaraq qapqara bir divar kimi görünürdü. Lap uzaqda, dağın zirvəsinə yaxın yerdə, bir tonqal şölələnərək yanırdı. Adamlar ağaclara toxuna-toxuna, əl havasına yeriyirdilər. Amma çox hay-küylə... havadan rütubət iyi gəlirdi. Şam və vələs ağacları ilə ağ bənövşə, yovşan, çobanyastığı iyi tər iyinə qarışmışdı... Turş tər qoxusu gəlirdi. Göy üzündə də bir-iki ulduz parlayıb sönürdü. Bir neçə ay idi ki, onlar evləri talan edir, yol kəsir, jandarmlarla çarpışırdılar. Jandarmlar başqa qaçaqları təqib etməkdən əl çəkib, Dəli Durdunun dəstəsinin üstünə düşmüşdülər. Dəli Durdu isə jandarmları ələ salıb oynadırdı. Məmməd az zamanda özünü göstərmiş, yoldaşlarına, Dəli Durduya özünü sevdirmişdi. Dəstəyə onun köməyi dəyirdi.



Qaranlıqdan Durdunun səsi gəldi:

– Burada dayanaq. Əldən düşdük. Öldük. İki gündü durmadan qaçırıq. Belə getsə, halımız nə olacaq! Burada!

Onun səsində kin, inad duyulurdu.

Məmməd onun yanına getdi:

– Yavaş. Asta danış, ağam.

Durdu hirsli-hirsli:

– Yəni nə olacaq? – deyə soruşdu.

Məmməd deyil, bir başqası onunla bu tərzdə danışsaydı, bu qədər hirslənməzdi. Dəstəyə dünən gəlib, bu gün isə qaçaqlıq dərsi verir.

Məmməd dedi:

– Düşmənin qarışqa da olsa...

Durdu:

– Hə, sonra?.. – deyə soruşdu.

Məmməd özünü Durdunun səsindəki istehzanı sezməyibmiş kimi göstərərək dedi:

– Yəni dediyim budur ki... xor baxma.

Durdu özünü saxlaya bilmədi, ürəyindəkini aşkara çıxartdı:

– Oh-ho-o-o, ay İncə Məmməd, olmaya Süleyman katta səni bizə yoldaş deyil, baş qərargah rəisi göndərib? Belə işlərə qarışma!

Cabbar Məmmədin solunda gedirdi. Tez-tez nəfəs alırdı:

– Məmməd düz deyir, ağa, – dedi. – Meşədə qalsaq, bizi mühasirəyə alarlar. Lap ardımızdadırlar. Arasıkəsilmədən bizi təqib edirlər. Bizi dövrəyə alsalar, Allaha and olsun, kəklik kimi ovlarlar... Asim çavuş belə bir fürsət axtarır. Yavaş...

Məmməd:

– Kəklik kimi... – deyə təkrar etdi.

Cabbar sözünə davam edərək dedi:

– Dalımızca gələn jandarmların sayı az deyil. Jandarmlara kəndliləri, bizə düşmən olan qaçaqları da əlavə et, ağa... Onlarla bacara bilmərik.

Məmməd:

– Bacara bilmərik, – deyə təsdiq etdi. – Heç döyüş sursatımız da yoxdur.

Durdu yerindəcə quruyub qaldı:

– Buradan bir addım da irəli getdi yoxdur.

Onun səsi meşəyə yayıldı:

– İki gündən bəridir ki, köpək kimi qaçırıq. Hə, köpək kimi!

İçlərində Rəcəb çavuş adlı birisi vardı. Hardan gəldiyi, neçə ildir qaçaqlıq etdiyi haqqında heç kəs doğru-dürüst bir şey bilmirdi. Keçmişini də ondan heç kəs soruşa bilməzdi. Bunu soruşana o qədər acığı tutardı ki, az qalardı o adamı öldürsün. Bunu soruşan adamla bir daha nə durub-oturar, nə də rastlaşanda danışardı. Elə bil onunla qırx illik düşmən idi. Yaşı əllini ötmüşdü. Onun haqqında bilinən təkcə bu idi ki, vaxtilə Nəhəng Əhmədin dəstəsində olmuşdu. Amnistiya elan olunanda hamı gedib hökumətə təslim olmuşdu, o isə amnistiyanı qəbul etməmiş, bir-iki il dağlarda təkbaşına gəzmiş, iki il sonra dağlarda yenidən qaçaqlar törəyən kimi onlara qoşulmuşdu. Qoşulub ayrılmadığı dəstə yox idi. Bütün dəstələr onu tanıyar, sayar, seçərdi. O heç bir dəstədə qərar tutub qalmazdı. Bu gün könlü istərdi, Dəli Durdunun dəstəsinə gələrdi, sabah könlü istərdi, Dəli Durdunun qəddar düşməni olan Yozcunun dəstəsinə gedərdi. O birisi gün də Kürd Reşonun dəstəsinə... Amma kimsəyə kimsə haqqında dedi-qodu etməz, bir kəlmə də olsun artıq-əskik danışmazdı... Hər dəstədə yeri vardı. Ona nə üçün gəldin, nə üçün gedirsən deyən də olmazdı. Əksinə, kimin dəstəsinə gələrdisə, o dəstə sevinərdi. Belə hesab edərdilər ki, onun ayağı uğurludur.

Qaçaqlıqda da çox usta idi. Döyüşə girəndə, əli pulemyot kimi işlərdi.

Qaranlıqda onun həmişəkinə oxşamayan, dolğun səsi eşidildi:

– Durdu, uşaqlar doğru deyirlər. Gəl meşədən çıxıb, qayalıqda mövqe tutaq.

– Rəcəb çavuş, Rəcəb çavuş, – deyə Durdu çığırdı, – buradan irəliyə bir addım da atılmayacaq!

Cabbar:

– Durdu ağam, – dedi, – əllərindən heç bir şey gəlməzsə, bizi mühasirəyə alar, meşəni də yandırarlar...

– Bir addım da... – deyə Durdu çığırdı.

Cabbar:
– Ağam, sən gəl, belə eləmə! – dedi,
– Bir addım da atılmayacaq!
Cabbar:
– Dəstəmizi dağıdacaqlar, – dedi.
Durdu:
– Mən dəstəbaşıyam, ya yox?
Cabbar:
–Hə, – dedi, – sən dəstəbaşısan.
– Hə, – deyə Məmməd də təsdiq etdi.
Qalan qaçaqlar da belə dedilər.
Məmməd:
– Ağam, – dedi, – bir söz deyəcəyəm, ancaq acığın tutmasın.
Durdu:
– Söylə görək, baş qərargah rəisi, – deyə güldü.
– Heç olmazsa, sıx ağaclıq, daşlıq olan bir yerə gedək.
– Bir addım da atılmayacaq!

Dəli Durdu bunu deyib, dayandığı yerdəcə oturdu. Qalan qaçaqlar da oturdular. Uzun zaman heç kəsdən səs çıxmadı. Bir-ikisinin əlindəki papirosun işığı qaranlıqda ulduz kimi parlayırdı. Heç kəsin cınqırı çıxmırdı.

Cabbar ayağa qalxdı. Gərnəşdi. Yuxarıya tərəf yollandı. Məmməd də onun dalınca getdi. Bir ağacın dibində çöməlib, su başına çıxdılar. Sonra hər ikisi ayağa qalxdı.

Üzlərini geriyə çevirəndə zəif bir işıq görüb təəccübləndilər. Yerlərində donub qaldılar. Durdu şam ağacının budaqlarını alışdırmışdı. Yanan budaqların işığında kölgə kimi yırğalanırdı.

Məmməd:
– Bu adam ölümünü öz əli ilə axtarır, – dedi.
Cabbar dedi:
– Təkcə Asim çavuş olsaydı, dərd yarı idi, hamısından betər kəndlilərdir. Hamısı da lüt soyundurduğumuz kəndlilərdir.

Məmməd:

– Mən dəstəyə gələndən bəri azı beş yüz adamı soyundurub tumançaq buraxmışıq.

Cabbar:

–Başqalarından soyundurduğumuz paltarı kəndlərin yoxsullarına paylasaydıq, yenə dərd yarı idi, – dedi. – Bəlkə, kəndlilərin əlindən qurtulardıq. Qurtula bilməyəcəyimizin səbəbi iki gündür ki, aydındır. Kənardan bizə heç bir yardım edən yoxdur. Hələ kəndlilərin, ağsöyüdlülərin əllərinə keçsək, bizi diri-diri yeyərlər. Durdu Ağsöyüddə nələr eləməmişdir! Onlara çox zülm eləmişdir. Ağılaxəyala gəlməyən işgəncələr, təhqirlər...

Məmməd dedi:

– Mənə bax, qardaş, adamları gərək ələ salmayasan. Öldür, döy, amma ələ salma. Lüt, çıl-çılpaq öz kəndinə, öz evinə getmək adama ölümdən ağır gəlir. Bax belə eləmək olmaz, adamları ələ salmaq olmaz. İnsanın bir yeri, bir incə yeri var ki, oraya gərək toxunmayasan. Mən bunu Abdi ağadan bilirəm. Yoxsa... İnsanların bu cəhətindən gərək qorxasan. İnsanları alçaltmayasan...

Geri qayıdarkən kiçicik bir çaya düşdülər. Dizə qədər suya girdilər. Sudan yarpız qoxusu gəldi. Gecənin ağuşuna yarpız qoxusu yayıldı. Suyun səthində əks etmiş ulduzlar halqalandı. Hər tərəfi yarpız qoxusu bürüdü. Hər şeydən: kiçik çaydan, ulduzlardan, uğultulu şam ağaclarından yaşıl yarpız qoxusu gəldi.

Məmməd:

– Dəlini dilə tutub buraya gətirə bilsəydik, nə yaxşı olardı, – dedi.

Cabbar dedi:

– Öldürsən də, yarım addım atdıra bilməzsən. Tərsin biridir.

Durdunun yandırdığı tonqal böyümüşdü. Bir xırman böyüklüyündə yer alov içində idi. Alovlar göyə ucalırdı. İri kötüklər çatırtı ilə yanırdı.

Durdu gülə-gülə tonqalın ətrafında dolanırdı:

– Hələ bir bu tonqala baxın! Heç bu tonqalın içindən keçmək olar? Başqa yerdə kim belə tonqal qalaya bilər?

Cabbar:

– Kaş ki, yanmayaydı! – dedi.

Durdu:

– Gur-gur yanır, – dedi.

Cabbar:

– Kaş ki...

Durdu:

– Daha kəs səsini, – deyə acıqlandı.

Gecəni orada, tonqalın yanında qaldılar. Qorxudan heç birini yuxu aparmadı. Durdudan başqa hamısı qorxurdu ki, yatsalar, onlara basqın edib öldürərlər. Belə bir qorxuya düşən adam rahat ola bilməz.

Üç nəfəri – Rəcəb çavuşu, Horəlini, Məmmədi növbətçi qoydular, qalanları yatmaq üçün uzandılar. Bir müddət yatmağa çalışdılar. Bir böyürləri üstündən o biri böyürləri üstünə çevrildilər. Olmadı. Əvvəlcə Cabbar qalxdı. Tonqalın yanında bardaş qurub oturdu. Onun ardınca o birilər də qalxdılar... Durdu rahat, şirin-şirin yatırdı. Qaçaqlar tonqalın ətrafında oturub, dinmədən gözlərini oda dikmişdilər.

Dan yeri işıqlaşanda partapart başlandı. Dörd tərəfdən güllə dolu kimi yağırdı. Qaçaqlar bunu axşamdan hər an gözləyirdilər. Odur ki, özlərini itirmədilər. Tonqalın yanından uzağa qaçıb güllə tutmayan yerlərdə gizləndilər.

Məmməd qulağının dibindən güllələr vıyıltı ilə keçərkən, macal tapıb özünü bir ağacın dibinə saldı. Asim çavuşun arxa tərəfi açıq qalmışdı, Məmmədin də üzü lap o tərəfə idi. Tüfəngini dikəltdi. Birdən ürəyi bulandı. Tüfəngini endirdi. Başqa tərəfə atəş açdı.

Ürəyində güldü:

– Çavuş, çavuş, – deyə bağırdı. – Yaxşı gizlənməmisən. Sənə güllə dəyər ha...

Çavuş səhvini başa düşdü. Dörd yanına güllə yağırdı. Yeri yer deyildi. Elə bu zaman bir güllə onun papağına dəyib yerə saldı.

– Ey, – dedi, – bura bax, bir əlimə keçərsən, gör başına nə gətirərəm!

– Mənə İncə Məmməd deyərlər, çavuş! Sən ancaq mənim ölümü ələ keçirə bilərsən. Oğul-uşağın var. Çıx get, çavuş! Çıx get işinə!

Çavuş:

– Ay yazıq, – dedi.

Bu dəmdə, çavuşun tüfəngin qundağını tutan əlini bir güllə sıyırdı. Əlindən torpağa qan sızmağa başladı.

– Ay Çavuş, çıx get işinə. Bizə toxunma. Qoy ölümün bizdən olmasın. Sən bizi çox sıxışdırırsan.

Asim çavuşun hər tərəfi açıq idi. Qorxuya düşüb geri çəkildi. Fikirləşdi ki, atdığı güllə ilə onun şapkasını başından salan, əlini sıyıran adam istəsəydi, onun özünü də çoxdan vura bilərdi. Görəsən, bu İncə Məmməd kimdir? Dəli Durdu onu bu vəziyyətdə yaxalamış olsaydı, işi bitmişdi! İncə Məmməd! Belə bir ad yadına gəlmirdi. Çox Məmməd var. Amma İncə Məmməd?



– Ey, – dedi, – ey, İncə Məmmədliyi sənə göstərərəm.

Dan yeri sökülən tərəfə arası kəsilmədən qırmızı güllələr yağırdı. Durdu açıqlıqda vurnuxurdu. Canını dişinə tutub, arasıkəsilmədən güllə atırdı. Arada bir dayanıb, Çavuşu söyürdü:

– Çavuş! Çavuş! Elə güman etmə ki, Dəli Durdu qaçmışdır. Səni öz yüzbaşının yanına lüt göndərəcəyəm. Hünərin varsa, iynə qədər yerini göstər. Lüt göndərəcəyəm, lüt...

Çavuş, jandarmlar, kəndlilər qaçaqları dörd tərəfdən dövrəyə almışdılar. Onlar qəfəsdə idilər...

Dəli Durdu tələyə salındıqlarını başa düşürdü. Sürünə-sürünə Məmmədin yanına gəldi. Dəstəsi içində ən çox güvəndiyi adam Məmməd idi. Olduqları yeri güllə tuturdu. Onları təqib edənlər bir az yaxına gələ bilsələr, halqanı daraltsalar, onların hamısını bir-bir vura bilərlər.

Durdu, bəlkə, ömründə ilk dəfə olaraq azacıq təlaşa düşdü. Tələyə düşmüşdü. Möhkəm bir tələyə. Onu təqib edənlər isə Durdudan qorxurdular. Mühasirə halqasını daralda bilmirdilər. Burada, meşənin bu açıq yerində Durdunun onlarla çarpışmaya girişməsinə məəttəl qalmışdılar. Deyirdilər ki, bunda mütləq bir kələk, bir hiylə var.

Bu səbəbdəndir ki, onlar yerlərindən tərpənmirdilər. Durdunun onlardan qaçaraq, nəhayət burada, açıqlıqda onlarla vuruşmaya girişməsinin mənasını heç cür başa düşə bilmirdilər.

Durdu:

– İşlər pisdir, – dedi. Tamam tər içində idi. Ağır-ağır nəfəs alırdı. – Heç birimiz qurtula bilməyəcəyik.

Bu dəmdə birisi:

– Yandım, vay anam, – deyə çığırdı.

Durdu:

– Bu, birincisi, – dedi. – Rəcəb çavuş getdi.

Sonra sözünə davam edərək dedi:

– Onların heç birindən qorxmuram. İçlərində Dördyollu deyilən bir jandarm var. Bir də bizim kənddən Qara Mustan adlı birisi var. İçlərində onlar olmasaydı, mən mühasirəni yarıb çıxardım. Onlar birəni də qaçmağa qoymazlar, vurarlar.

Məmməd dönüb arxaya baxdı:

– Mənim tüfəngim qızmışdır, – dedi. – Əlimi yandırmağa başlamışdır. Nə etməliyəm?

– Sən çox güllə atmısan, Məmməd qardaş.Yoxsa əlindəki tüfəng yaxşı tüfəngdir. Bir az atəş açma, tüfəngi yerə qoy. Soyuyar. Yoxsa heç atəş aça bilməzsən. Şişib qalar.

Məmməd:

– Tfu! – deyə kədərləndi. – Tfu!

Durdu yavaşca:

– Qardaş, – dedi, – biz mühasirədəyik. Mənə baxmayın. Mənim təcrübəm çoxdur. Haradan olsa, mühasirəni yarıb qurtularam. Ölsəm də, vecimə deyil. Mən sizin fikrinizi çə-

kirəm. Siz mənim ucbatımdan... Mənim dəliliyimdən... Siz necə qurtulacaqsınız? Mən bunun fikrini çəkirəm. Deyərlər ki, Dəli Durdu yoldaşlarını qoyub qaçdı.

Məmməd:

– Məncə, heç bir çarə yoxdur, – dedi. – Gərək axşamadək gözləyək.

Bu dəmdə Durdunun lap qabağına iki güllə sancıldı. Toz qaldırdı.

– Çarə yoxdur, – deyə Məmməd təkrar etdi. – Axşamadək davam gətirməliyik.

Durdu güllələrin sancıldığı yeri göstərib:

– Bu güllə Qara Mustanındır, – dedi. – İndi ikimizi də vurar. Yəqin ki, yerimizi görmüşdür.

Məmməd:

– Durdu ağam, – dedi, – olmaya Rəcəb çavuş öldü? Gəlsənə onun yanına gedək.

– Hələ bir dayan. Hərif ikimizi də vurar. Hələ bir dayan!

Bu dəmdə qabaqlarından böyük bir toz buludu qalxdı. Yan-yörələrinə nə qədər güllə yağdığını onlar özləri də bilmirdilər.



– Sənə demədimmi? Mən bu namussuz Qara Mustanı tanıyıram.

– Vay onun... – deyə Məmməd söydü.

– Dərhal yerimizi dəyişdirməsək...

Yuvarlana-yuvarlana gəlib böyük bir ağacın dalında gizləndilər.

– İçlərində bu Qara Mustan olmasaydı...

Məmmədin fikri Rəcəb çavuşun yanında idi.

– Rəcəb çavuşdan heç səs-səda çıxmır. Bir yanına getsəydik...

Başlarına dolu kimi güllə yağırdı. Güllələr ağacların budaqlarını budayır, qırıb tökürdü. Yağan güllələrin altında sürünə-sürünə gedib Rəcəb çavuşun yanına çatdılar. Gördülər ki, Rəcəb çavuş sağ böyrü üstə uzanmışdır. Tamam qan içindədir. Onları görən kimi ağrıdan dişlərini

bir-birinin üstünə basaraq gülümsədi. Başını zorla qaldırıb:

– Uşaqlar, – dedi, – başınızın çarəsini qılın. Onlar ən azı yüz əlli nəfərdir. Məni bu yerdə qoyun qalım. Qismət belə imiş...

Yarasına baxdılar. Güllə Çavuşa boynundan dəymişdi. Boynundan girən güllə kürək sümüyünün yuxarı tərəfindən çıxmış, sümüyə heç bir şey eləməmişdi.

Güllə çıxdığı yerdə iri yara açmışdı.

Rəcəb çavuş:

– Sizə bir sözüm var, – dedi. – O Cabbar var ha, onu gözdən iraq qoymayın. Sağlam, qoçaq oğlandır. Bir ordunun qabağında dayana bilər. O olmasaydı, məni çoxdan öldürmüşdülər. Mənim vurulduğumu görən kimi atəşi öz üzərinə çəkdi. Sonra onlara elə atəş açdı ki, onlar özlərini itirdilər.

Çavuşun köynəyini cıraraq, yarasını sarıdılar.

Rəcəb çavuş yuxulu kimi:

– Yarın, – dedi, – yarın mühasirə halqasını.

Məmməd:

– Bu, mümkün olan iş deyil, Çavuş, – dedi. – Yarmağa çalışsaq, hamımızı qırarlar. Bu vəziyyətdə isə bizdən qorxurlar. Ya gərək axşama qədər davam gətirək, ya da burada öləcəyik.

Rəcəb çavuş fikrə getdi. Üzünün əzələləri gərildi... Ağrının şiddətindən çığırmamaq üçün özünü zorla saxlayırdı.

– Bax, bunu düz fikirləşirsən, Məmmədim. İçinizdən hətta bircə nəfər qaçmağa cəhd etsə, hamınız qırılarsınız. Yoldaşlarınızın hamısını toplayın... And için ki, bir addım da, bircə addım da geriyə çəkilməyəcəksiniz. Başa düşün ki, onların qabağından qaçmaq ölüm deməkdir. Möhkəm dayanın. Belə güman edirəm ki, onlar cəsarət edib üstünüzə gəlməzlər. Gəlməli olsaydılar, çoxdan gələrdilər. Onlar tələyə düşəcəklərindən qorxurlar.

Məmməd:

– Gəl, Durdu ağam, – dedi, – gedib bu işi görək.

Rəcəb çavuş:

– Zalanın oğlundan gözüm su içmir. Ağciyərin birisidir. Ondan göz-qulaq olun. O qaça bilər...

Durdu:

– Yoldaşları toplayaq. Horəli ilə Cabbar qoy atəşi davam etdirsinlər, düşmənin başını qarışdırsınlar.

Bunu deyib toplanış fiti çaldı. Yoldaşları üstlərinə dolu kimi güllə yağan bir zamanda çalınan bu toplanış fitinin mənasını başa düşə bilmədilər.

Zalanın oğlu:

– Bu qiyamətdə də adamları toplanışa çağırarlar? – deyə yanındakı yoldaşına şikayətləndi. – Onsuz da qurtula bilməyəcəyik. Rəcəb çavuş getdi.

Əvvəlcə Horəli gəldi. Sonra Ala Yusif... Sonra da Güdükoğlu.

– Bəs o Zalanın oğlu harada qaldı? – deyə Durdu şübhəli-şübhəli soruşdu.

– Gəlir, – deyə Horəli cavab verdi. – Yerə qısılıb qalmışdı, bircə dənə də olsun güllə ata bilmədi. Elə tir-tir titrəyir.

Durdu:

– Qəribədir. – dedi. – Mən elə bilirdim ki, içimizdə ən cəsur adam odur.

Elə bu dəmdə Zalanın oğlu sürünə-sürünə gəldi. Əlləri qan içində idi.

Durdu Horəli ilə Cabbara:

– Siz gedin, atəşi davam etdirin, – dedi. – Onların başını qarışdırın. Bizim danışılası sözümüz var.

Bu toplanış üçün bir anlığa atəşin kəsilməsi Asim çavuşu yaman hürkütmüşdü. Onun Dəli Durdu ilə qarşı-qarşıya gəldiyi birinci dəfə deyildi. Amma Asim çavuş heç zaman Dəli Durdunun niyyətini qabaqcadan kəsdirə bilmirdi. Durdu ən dəli hərəkət etdiyi kimi, ən ağıllı da hərəkət edə bilirdi. Meşənin bu açıq yerində çarpışmaya girişən adam ya açıqdan-açığa ölmək istəyir, ya çox təcrübəsiz, dəli, sərsəri bir adamdır, ya da düşmən üçün tələ qurmuşdur. Dəli

Durdu kimi iynənin gözündən keçən bir adam heç tələyə düşərmi? Asim çavuş belə düşünürdü ki, bu onun üçün qurulmuş bir tələdir və o, hər an bu tələyə düşə bilər! Buna qarşı nə etməli? Məhz bunu bilmirdi. Qoyub getsə, bir qəpiklik etibarı qalmazdı. Getməsə, mütləq tələyə düşəcəkdi... Məhv olacaqdı. Papağını vurub salan, əlini sıyıran güllələr, görəsən, nə idi? Bəlkə, bir xəbərdarlıq idi? Məmmədin sözləri də onu möhkəmcə hürküyə salmışdı. O gülləri atan adam istəsəydi, onu çoxdan vurub öldürərdi. Çıxıb getmək də əlindən gəlmirdi. Axı o, Dəli Durdunu mühasirəyə almışdı... Məgər Dəli Durdu bir də bu cür mühasirəyə düşərdimi?

–Yoldaşlarım, – deyə Asim çavuş səsləndi, – heç biriniz yerinizdən tərpənməyin. Bir görək bu Dəli nə edəcək. Əslində o, mühasirəyə alınmışdır. Ovcumuzun içindədir. Bu adam öz arzusu ilə gəlib ovcumuzun içinə girib. Yoxsa çoxdan özünü Mor dağın qayalıqlarına çatdırmışdı...

Onbaşı yalvarırdı:

– Bu dəli əclafı mən tanıyıram. Dəlinin biridir. Könlü istəmiş burada qalmışdır. Heç bir tələ-filan düşünməmişdir. Özünə çox güvənir. Gəl mühasirə halqasını daraldaq, gör necə keçir əlimizə.

Asim çavuş dedi:

– İllərlə qaçaqlıq eləmiş Dəli Durdu kimi it oğlu it olan bir qaçaq asanlıqla burada döyüşə girişməz, heç olmazsa, meşənin xəlvət yerinə çəkilər. Bura isə meşənin ən seyrək yeridir... Bunda hökmən bir iş var, gərək sayıq olaq.

Onbaşı:

– Sən gəl belə eləmə, – dedi. – O özünə çox güvənir. Gəl mühasirə halqasını daraldaq, işini bitirək. Biz onu lap bir qaşıq suda boğarıq.

Çavuş:

– Durduğumuz yerdəcə dayanacağıq, – deyə onbaşıya acıqlandı.

Horəli ilə Cabbar yenidən atəş açmağa başlayanda, Asim çavuş bunun mənasını başa düşə bilmədi. Bu nə iş idi?

Durdu:

– Yoldaşlarım, – dedi, – bir-birimizdən ayrılmamalıyıq. Hamımız bir yerdə atəş açacağıq. Üstümüzə gəlib tüfəngi gicgahımıza sıxsalar da, yerimizdən tərpənməməliyik. Söz verirsinizmi?

Hamı bir ağızdan:

– Söz veririk, – dedi.

Durdu:

– Elə isə yaxşı bir yer tapın, – dedi. – Daldalanmaq üçün yaxşı bir yer...

– Mən tapımmı? – deyə Məmməd soruşdu.

– Tap.

Bu dəmdə Məmməd:

– Yerə yatın, yerə yatın, – deyə çığırdı və özü cəld yerə sərildi. Qalanları da yerə yatdılar. Güllələr vıyıltı ilə qulaqlarının dibindən keçirdi.

Durdu:

– Gördülər, – dedi. – Bizi daha burada rahat qoymazlar.

Uzandıqları yerdən uzun zaman qalxmadılar. Partapart atılan güllələr yanlarına, sağlarına, sollarına tökülürdü. Güllələr vıyıldayırdı.

Zalanın oğlu hələ də tir-tir əsirdi.

Birdən o, gözlərini geniş açaraq:

– Vay! Vay! – deyə çığırdı. – Məmməd vuruldu.

Durdu:

– Doğrudanmı? – deyə soruşdu.

Məmməd öz barəsində danışıldığını eşidən kimi üzünü onlara tərəf çevirib soruşdu:

– Nə var?

Zalanın oğlu dişləri bir-birinə dəyə-dəyə:

– Üst-başın qan içindədir. Vurulmusan, – dedi.

Məmməd:

– Mən heç bir ağrı duymadım, – dedi. Əlini başına çəkib baxdı. Əli qan içində idi. Ürəyi tez-tez döyünməyə başladı. Ora-burasında yaranı axtardı, amma tapmadı.

Durdu rəngi qaçmış halda Məmmədin yanına gəldi. Yaranı axtarıb tapdı:

– Güllə başını azacıq cızmışdır, – dedi.

Məmməd gülümsəyərək:

– Fikir vermə, – dedi. – Siftədir...

Məmməd ayağa qalxıb meşəyə getdi. Yağan güllələrə əhəmiyyət verməyərək yeriyirdi. Bir azdan sonra onun:

– Buraya gəlin, – deyə səsi eşidildi.

Jandarmlar göz açmağa qoymurdular. Qaçaqlar yerlərindən qalxıb, Məmmədin yanına getdilər. Bura yıxılmış ağacların üst-üstə tökülüb qaldığı bir çökək idi.

Durdu:

– Yaxşı yerdir, – dedi. – Gəlin ağacları çıxardaq.

Birdən başlarının üstündə bir xışıltı eşitdilər. Yarpaqlar tökülməyə, ağacların budaqları şaqqıltı ilə sınmağa başladı. Qaçaqlar çökəkdəki ağacları çıxarmadan oraya atıldılar, cavab atəşi açdılar. Hər iki tərəf yağış kimi güllə yağdırırdı. Atışma ara vermədən yarım saata qədər davam etdi. Sonra hər iki tərəf atəşi nədənsə birdən kəsdi. Durdu artıq heç qorxmurdu. Asim çavuşun adamları hücum etsəydilər, indiyədək edərdilər. İndi onlar mühasirə halqasını daraltsalar da, daha axşama o qədər çox qalmamışdı. Durdunun dəstəsi o vaxta qədər davam gətirə bilərdi.

Durdu daha Çavuşun qabağından qaçmaq istəmirdi.

Sonra Horəli ilə Cabbar da çökəyə gəldilər.

Cabbar:

–Rəcəb çavuş hanı? – deyə soruşanda hamı bir-birinə qarışdı.

Məmməd:

– Bir-birinizə hirslənməyin, – dedi. – İndi mən gedib onu gətirərəm,

Ara sakitləşdi.

Məmməd iməkləyə-iməkləyə, sürünə-sürünə çökəkdən çıxdı. Yorğun idi. Yorğunluqdan heç nəfəs almağa halı yoxdu. Bir kötüyün dibinə çatıb uzandı. Bu zaman qarşı tərəf-

dən yenə atəş açmağa başladılar. Məmməd kötüyün dibindən heç cür çıxa bilmirdi. Atılan güllələrin hamısı bu kötüyə dəyirdi. O, birdən irəli sıçradı. Bu dəmdə dəhşətli bir ağrı duydu. Öz-özünə: "vurdular" dedi və qorxdu. Sağını-solunu yoxladı. Ağrıyan yerə əlini sürtdü, yara yox idi.

Rəcəb çavuşun yanına çatanda, hər yanı qana boyanmışdı. Əl-ayağı parçalanmışdı.

Rəcəb çavuş onu görən kimi:

– Bura bax, – dedi, – sənə nə olub? Tamam qan içindəsən.

Məmməd gülümsədi. Üz-gözü elə qana boyanmışdı ki, gülümsəməsi də bəlli olmadı.

– Gəl gedək, Rəcəb çavuş. Səni aparmağa gəlmişəm.

Rəcəb çavuş:

– Siz gedin, oğlum, – dedi, – siz özünüzü xilas edin, mənimlə işiniz olmasın. Həriflər dörd tərəfdən bizi dövrəyə almışlar. Budur, bir dəli itin ucbatından bu vəziyyətə düşdük. Bu mühasirədən heç biriniz qurtula bilməyəcəksiniz. Hara baxırsansa, oradan güllə yağır. Görünür, Asim çavuş ağıllanmışdır. Mənimlə işiniz olmasın, qoyun mən burda qalım. Mənə bax, oğlum Məmməd, sən yaxşı oğlansan. Əgər bu mühasirədən qurtulsan, daha bu dəli ilə gəzib-dolaşma. Mən məəttəl qalmışam ki, günortadan keçdiyinə baxmayaraq, nə üçün onlar mühasirə halqasını daraltmırlar? Axı onlar artıq öyrənmişlər ki, bizim nəyimiz var, nəyimiz yox.

Məmməd:

– Qorxurlar, – dedi.

Rəcəb:

– Çox qəribədir, – dedi.

– Onlar üçün tələ qurduğumuzdan qorxurlar. Belə güman edirlər. Daha bilmirlər ki, Dəli Durdu öz səfehliyindən meşənin açıq yerində dayanmışdır. Bunu heç ağıllarına gətirmirlər. Bilmirlər ki, Durdu öz tonqalından əl çəkə bilmədi. Di qalx, Çavuş, gedək. Ölsək də bərabər ölək, qalsaq da...

Rəcəb çavuş:

– Oğlum Məmməd, – dedi, – bir bundan qurtula bilsəydim...

– Yaran yüngüldür, Çavuş. Qurtularsan.

Çavuş yeriyə biləcək halda deyildi. Məmməd ağır, cüssəli Çavuşu dalına aldı. Bir az aparandan sonra yerə qoydu. Çavuş başa düşdü ki, Məmmədin onu dalında aparmağa gücü çatmır.

– Oğlum, belə olmayacaq, – dedi. – Məni dalına alma. Qoy sənə söykənim gedək. Belə daha yaxşı olar...

– Yaxşı, – deyə Məmməd razı oldu. Keçdikləri yerlərdə iri-iri laxtalanmış qan izləri qalırdı. Bu dəmdə yenə onları atəşə tutdular... Onlar uzanıb yerə yapışdılar. Ancaq, görünür, o tərəfdən onları görürdülər. Güllələr həm sağlarında, həm də sollarında torpağa sancılırdı.

Rəcəb çavuş dedi:

– İşi dəyişdirdilər. Əclafların ağılları yenicə başlarına gəlmişdir.

Min bir bəla ilə gəlib çökəyə çatdılar; iki nəfəri də vurulmuş gördülər. Zalanın oğlu ilə Horəli yaralanmışdı. Zalanın oğlu hələ də tir-tir titrəyirdi. Ağlayır, bağırır, tir-tir titrəyirdi.

Qaçaqlar mühasirə halqasının daraldığını sezdilər. Qarşı tərəfdən daha sərrast güllə atmağa başladılar. Durdunun həmkəndlisi Qara Mustan da arasıkəsilmədən bağırırdı:

– Dəli Durdu, Ağsöyüd kəndi sənin igidliyini bir az sonra görəcək. Mustafa dayını sən yaxşı tanıyırsan... Məğrur olma, oğlum...

Dəli Durdu hirslənirdi. Hirslənir, amma cavab vermirdi. Uzun zaman bu minvalla atışdı.

Qara Mustan:

– Oğlum, Dəli Durdu, – deyirdi, – olmaya dilini udmusan?

Ən nəhayət, Durdu davam gətirməyib ayağa qalxdı:

– Qara Mustan dayı, – dedi, – mən səni yaxşı tanıyıram. Sən də məni yaxşı tanıyırsan. Əgər arvadının darbalağını

papaq eləyib sənin başına keçirməsəm, qoy mənə Dəli Durdu deməsinlər. Bu Dəli Durduluq mənə haram olsun!

Elə bu dəmdə Məmməd ayaq üstə dik dayanmış Durdunun ətəyindən yapışıb cəld özünə tərəf çəkdi. Durdu sürətlə Məmmədin üstünə yuvarlandı. Durdu bir an, lap bircə an da ayaq üstə qalsaydı, beş güllə ona birdən dəyəcəkdi. Çünki qarşı tərəfdən Qara Mustanla birlikdə dörd nəfər də onu nişan almışdı. Tüfəngin beşi də birdən açıldı, amma Durdu artıq çökəkdə idi.

– Ey Dəli əclaf! Bir də belə təlxəklik eləsən, ilk gülləni sənə mən vuracağam. Bütün bu işlər sənin ucbatından bizim başımıza gəlir.

Dəli Durdu Rəcəb çavuşun bu sözlərinə güldü:

– Güllə atacaq halın varsa, nə üçün başqalarına atmırsan?..

Rəcəb çavuş Məmmədi göstərərək:

– Bu bir qarış uşağa dua elə, – dedi. – O olmasaydı, işimiz bitmişdi.

Məmməd bərk acdığını hiss etdi. Dönüb Durduya baxdı. Durdu da ona dostcasına nəzər saldı. Məmmədin əllərində, üzündə, saçlarında qurumuş qanı görəndə, öz-özünə gülümsədi. Onun gəldiyi günü xatırladı. Onda Məmməd Süleymanın arxasında büzüşüb oturmuşdu... Süleymanın arxa- sında o nə qədər kiçik görünürdü. Durdunun gözləri məhəbbətlə parladı. O öz-özünə dedi: «İnsan övladının başına nələr gəlmir... Budur, bir qarış uşaq dünən qaçaq oldu, bu gün isə əlli illik qaçaqdan daha təcrübəli, daha ustadır...»

İrəlidən bir səs:

– Təslim olun, – deyə bağırdı.

Durdu:

– Al gəldi, Qara Mustan, – dedi. – Bu da sənin payın...

Qara Mustan dana kimi böyürərək yerə yıxıldı.

– Bundadamı haqsızam, Çavuş? – deyə Durdu Rəcəb çavuşdan soruşdu.

Rəcəb çavuş:

– Əlin var olsun, – dedi. – Allah xatirinə bir deyin görüm, siz burada ölməyə qərarmı vermisiniz?

– Hə, qərar vermişik. And da içmişik, – deyə Durdu cavab verdi. – Bu çökəkdən çıxmayacağıq. Sən özün belə deməmişdinmi?

Rəcəb çavuş:

– Pulemyotdan atəş açmağa başladılar, – dedi, – hər tərəfi atəşə tuturlar. Artıq qurtulmaq ümidi qalmadı. Ya məhv olmalıyıq, ya da təslim.

Məmməd heyrət və qorxu içində:

– Ya məhv olmalıyıq, ya da təslim? – deyə soruşdu.

Gözlərinin qarşısında o bürünc parıltısı bir anlığa göründü, sonra yenə çəkilib getdi.

Rəcəb çavuş:

– Sən başqa bir yol bilirsənsə, söylə, İncə Məmməd, – dedi.

– Çavuş, sən bilməyəndən sonra mən hardan bilim.

Rəcəb çavuş fikrə getdi. Yarasının istiliyi keçmiş, incitməyə başlamışdı. Düşünməyə belə macal vermirdi. Çavuş başını aşağı salmış, üz-gözünü büzüşdürmüşdü və arası kəsilmədən dodaqlarını gəmirirdi.

Sonra Çavuş başını qaldırdı. Hamını bir-bir gözdən keçirdi:

– Bir təklifim var, – dedi. – Bunu bacarsaq, qurtularıq. Deyəcəyimi eləyə bilsək, Asim çavuş buralarda bir dəqiqə də dayanmaz, birbaşa öz yüzbaşısının yanına gedər.

– Nə eləmək lazımdır? – deyə soruşdular.

Rəcəb çavuş:

– Üç dənə qumbara... – dedi. – İçinizdə o pulemyota üç dənə qumbara ata biləcək bir igid tapılarmı?

Tüfəngini dolduran Cabbar üzünü dala çevirib cavab verdi:

– Bu işdə hamımız igidik. Onsuz da Asim çavuş hamımızı dənləyəcək. Qoy elə olmasın, belə olsun...

– Heç bir şeyə ümid qalmadımı? – deyə Məmməd soruşdu.

– Təkcə bir ümid var, o da mən dediyimdir, – deyə Çavuş cavab verdi.

Məmməd:

– Mən gedərəm, – dedi.

Gözlərində iynə ucu qədər o kiçicik parıltı peyda oldu. Başından da yenə o bürünc parıltısı şimşək kimi parlayıb keçdi. Ürəyində səadətlə ağrı bir anlığa bir-birinə qarışdı.

Durdu:

– Bax, igid belə olar!.. – dedi. Sonra isə çökəkdə dikəldi.

– Mənə iki qumbara da verin, – dedi.

Cabbardan qumbaraları aldı. İrəli atıldı. Var gücü ilə qaçırdı. Qulaqlarının dibində güllələr vıyıldayırdı. Özünü bir daşın dalına saldı. Yoldaşları çaşıb qaldılar. Elə bildilər ki, ona güllə dəydi. Axı necə ola bilərdi ki, belə sürətlə qaçan Dəli Durdu vurulmadan özünü yerə yıxsın? Daşın altından sarı küskütotu çıxmışdı. Sarı, tər ot. Daş çox böyük, yuvarlaq idi. Daşı yoxladı. Yuvarlaq daş yerindən oynadı. Daşı başına sipər edib, yuvarlatmağa başladı. Ağ daşa güllələr dəyirdi. Çığırtılar eşidilirdi. Durdu gördü ki, daş kar verməyəcəkdir. Əlli metr o tərəfdə kökü ilə çıxarılmış bir ağacın çuxuru vardı. Oraya atılmaq üçün ayağa qalxdı. Özünü daş kimi oraya atdı. Çuxurun içindən torpaq, çürümüş yarpaq qoxusu gəlirdi. Bənövşəyi rəngdə bir çiçək var, bu çiçəyin adı indi onun yadında deyildi. Çuxurdan bu çiçəyin də qoxusu gəlirdi. Bu çiçək qayalıqlarda bitir, özü də hər yerdə yox. Dağın təpəsində bir parça bulud dolanırdı. Buludun kənarları parıldayırdı.

Yaxınlıqda pulemyotun şaqqıltısını eşidən kimi diqqətlə fikir verdi. Önündə bir təpəcik vardı. O təpəciyin dalında bir təpəcik də vardı. Arxadakı təpəcik öndəkindən bir az hündür idi. Pulemyotu, yəqin ki, iki təpəciyin arasında yerləşdirmişdilər. O yandan dolanıb, arxadakı təpəciyə çıxmaq lazım idi. Həm də arxadakı təpəcik sıx ağaclarla örtülü idi.

Durdu cəld ayağa qalxıb yollandı. Rahat, uzun bir yolda yeriyirmiş kimi, qollarını ata-ata gedirdi.

Yoldaşları nəfəs çəkmədən nəzərləri ilə onu izləyirdilər. Durdu bir göz qırpımında qumbaraları pulemyotun üzərinə vızıldatdı. Biri, ikisi, üçü... Qumbaraların gurultusu yeri titrətdi. Hər tərəfi toz buludu bürüdü.

Dəli Durdu qaça-qaça yoldaşlarının yanına gəldi. Gün batmaqda idi.

Durdu danışmadı. Heç kəsə də baxmadı. Gözləri bir nöqtəyə dikilmişdi. Baxışı sərt idi. Üzü bürüşmüş, kiçilmişdi. Güllələr seyrəkləşdi. Arabir tək-tək güllə səsi eşidilirdi.

Durdu ayağa qalxıb gərnəşdi:

– Asim çavuş, Asim çavuş, sağlıqla qal. Apar o şaqqıldağını təmir et, geri qayıt. Burada səni gözləyəcəyəm.

O tərəfdən səs-səda çıxmadı.

Durdu Rəcəb çavuşa müraciətlə:

– Sən bu yerlərə yaxşı bələdsən, Çavuş, – dedi. – Bu tərəflərdə kənd-zad yoxdurmu?

– Yoxdur, – deyə Çavuş cavab verdi.

– Demək, qayalığadək getməliyik? Getməliyiksə, işimiz xarabdır.

– Qayalığa qədər durmadan getməliyik. Mən də yaralandığıma, qocalığıma baxmayaraq, gedəcəyəm... Durmadan getməliyik.

Onlar hava işıqlanan zaman qayalığa çatdıqda, heç birində insan halı qalmamışdı. Horəli bütün yolu söyə-söyə gəlmişdi; amma kimi, nəyi söydüyü bəlli deyildi. Hələ də söyüb-söylənirdi. Rəcəb çavuş var gücü ilə dişlərini bir-birinin üstünə basdığına baxmayaraq, daha davam gətirə bilməyib, yavaş-yavaş zarıldamağa başladı.

Durdu yorğun, yaralı, üzgün halda qayanın üstündə oturdu. Ağır-ağır bir papiros eşdi. Alışdırdı. Bir neçə qullab vurandan sonra üzünü Məmmədə tutub dedi:

– Bilirsənmi, dünyada nə istərdim, qardaş?

– Yox.

– Mən istərdim ki, bu vurduğum Qara Mustafanın başını kəsəydim, bir tirə keçirəydim, aparıb bizim kəndin or-

tasında yerə sancaydım. Axı bu adamın nə işi var ki, mənim dalımca düşür? Söyləsənə, Məmməd qardaş, axı nə işi var?

Uzaqdan Cabbarın səsi eşidildi:

– Siz nə edirsiniz edin, mən acından öldüm.

Durdu:

– Bu işə bir çarə tapsan, sənə igid deyərəm.

Cabbar:

– Səsinizi çıxarmayın, qulaq asın, – dedi. – Çox uzaqlardan itlərin hürüşməsi gəlir. Buralarda kənd filan yoxdur. Siz bilən, bu it hürüşməsi haradan gəlir?

Rəcəb çavuş inildəyə-inildəyə:

– Ay Cabbar, – dedi, – mən dünyada çox axmaq adam görmüşəm, amma səndən axmağını görməmişəm.

– Nəyə görə belə deyirsən, Çavuş? – deyə Cabbar soruşdu.

– Görməmişəm, vəssalam, – deyə Çavuş cavab verdi.

Cabbar:

– Vay səni! Demək, Çavuşun gözündən düşmüşük, – dedi.

Çavuş:

– Ay axmaq, yəni bilmədin ki, o it hürüşməsi haradan gəlir? – dedi.

Cabbar:

– Nə bilim, ay Çavuş, onları mən doğmamışam ki... – dedi.

– Ay axmaq, it hürüşməsi yürüklərin[1] çadırlarından gəlir. Yürüklər bu yaxınlarda çadır qurmuşlar, itlər də onlarındır. İndi anladınmı?

– Anladım.

– Yaxşı ki, anladın.

– Elə isə mən İncə Məmmədlə çadırlara gedib çörək istəyəcəyəm. Gedərsənmi, İncə?

Durdu:

– Özünüz bilərsiniz, – dedi. – Biz burada tonqal qalayıb qızınarıq, sizi gözləyərək.

[1] **Yürük** – *Anadoluda heyvandarlıqla məşğul olan köçərilərə cəld yüyürdüklərinə görə verilən addır – red.*

Məmməd:
– Gedək, Cabbar, – dedi. – Gedək, amma bizi bu kökdə görən elə güman edər ki, biz qaraçıyıq. Yaxud da leş parçalamış köpək hesab edərlər...
Cabbar:
– Fikir vermə, qardaş, – dedi. – Üzümüzü yuyarıq, hər şey düzələr.
Qayadan düzənliyə enənə qədər danışmadılar. Nədənsə bir-birinin üzünə baxa bilmirdilər. Başlarını çevirib bir-birinə baxmaqdan qorxurdular... Sanki bir cinayət, pis bir cinayət işləmişdilər.
Nəhayət, Cabbar əlini uzadıb Məmmədin çeçələ barmağından tutdu. Məmməd başını ağır-ağır qaldırıb Cabbara baxdı. Cabbar da Məmmədin gözlərinin içinə baxdı. Bir müddət yerlərində dayanıb, bir-birinin gözlərinin içinə baxdılar.
Məmməd:
– Cabbar, – dedi,– bu adam heç yaxşı adam deyil, biz isə onun dalınca düşmüşük.
–Yaxşı olmasa da, daha qoşulmuşuq, keçib gedib. Gözümüzü onun yanında açmışıq.
Onlar çadırlara çatanda gün xeyli ucalmışdı. Çadırlardan beş-altı iri köpək çıxıb onların üstünə cumdu.
Cabbar bağırdı:
– Köpəkləri tutun!
Çadırlardan bir neçə uşaq çıxdı və dərhal qayıdıb içəri girdi. Analarına:
– Qaçaqlar! Qaçaqlar gəlirlər, – dedilər.
Çadırlardan qadınlar, onların ardınca da kişilər çıxdılar.
Məmməd böyük bir çadırın qabağında toplaşmış yürüklərə:
– Salam əleyküm, – deyə salam verdi.
Yürüklər bu kiçik qaçağa heyrətlə baxdılar. Onun əksinə olaraq, Cabbar iri, güclü, görkəmli bir adam idi.
Saqqallı bir yürük:
– Buyurun içəri, ağalar, – dedi.

Onlar başlarını əyərək, çadırın içinə girdilər. İçəri girər-girməz Məmməd yerində donub qaldı. Çadırın içərisinin gözəlliyi onu valeh etdi. Ömründə ilk dəfə idi ki, çadır içi görürdü. Məmməd hətta yürükün salamını da eşitmədi. Gözləri çadırın içərisində qalmışdı. Çadırın bir tərəfinə naxışlı çuvallar yığılmışdı... Çuvalların üstündəki naxışlar, rənglər par-par parıldayırdı. Parıltıdan adamın başı gicəllənirdi... Rənglər alışıb-yanırdı. Çadırın içərisinə bu qədər bol işıq haradan dolurdu? İşıqlar, rənglər bir-birinə qarışaraq oynaşırdı. Məmmədin gözləri bir çuvala zilləndi. Uzun zaman gözlərini bu çuvaldan ayıra bilmədi. Çuvalın üstündə məhəbbət quşları çəkilmişdi. Kiçik... Bəlkə də, min dənə. Quşlar dimdiklərini bir-birinə dayamışdılar... Yaşıl, mavi, sarı, qırmızı, bənövşəyi quşlar. Məmmədin gözləri yaşla doldu. Rəngbərəng quşlar uçurdular.

Çadırın orta dirəyi oymalıdır. Dirəyə maral şəkilləri oyulmuşdu. Dərisi işım-işım işıldayan marallar... Tamam sədəfdən.

Cabbar:

– Nə donub qalmısan? Özünə gəlsənə! – deyə Məmmədi dümsüklədi.



Məmməd gülümsəyərək özünə gəldi.

– İndiyədək çadır içi görməmişdim. Cənnət kimi bir yerdir. Nə qədər də gözəldir!

Cabbar:

– Bu çadır kimindir? – deyə soruşanda, onlarla üzbəüz oturmuş qırmızı sifətli, mehriban, gülərgözlü ağsaqqal bir qoca:

– Mənimdir, – deyə cavab verdi. – Mənə Kərimoğlu deyərlər.

Cabbar:

–Ağa, sənin barəndə çox eşitmişəm. Amma özünü ilk dəfədir görürəm. Saçıqaralı qəbiləsinin başçısı Kərimoğlusan, eləmi?

Kərimoğlu:

– Elədir, – dedi.

İçəridən təzəcə qaynadılmış, isti, buğlanan süd iyi gəlirdi.

Kərimoğlu Cabbara, Cabbar da ona baxdı. Kərimoğlu üzünü arvadına çevirib:

– Bu oğlanlar indi, yəqin ki, acdırlar. Tez olsana, ay arvad! – dedi.

– Süd ocağın üstündədir. Qaynayan kimi gətirərəm... – deyə arvadı cavab verdi.

Məmməd gülümsədi. Cabbara:

– Burnum... – dedi.

– Burnuna nə oldu? – deyə Cabbar soruşdu.

– Burnum bayırdakı südün iyini duymuşdu. Düz çıxdı.

Cabbar:

– Mənimki də, – dedi. – Bütün acların burnu belə olur.

Kərimoğlunun qırmızı sifəti bir az da qızardı, utana-utana:

– Oğul, yəqin ki, çarpışmaqdan gəlirsiniz? – deyə soruşdu.

Cabbar:

– Asim çavuş bizi sıxışdırmışdı. Çox şükür ki, qurtulduq, – deyə cavab verdi.

Məmməd:

– Qorxaq adammış, – dedi. – Yoxsa hamımızı kəklik kimi, bir-bir ovlardı.

Cabbar:

– İstəsəydi, buraxmazdı. Gülləri boş-boşuna atdı.

Kərimoğlunun arvadı süfrə gətirib ortaya qoydu. Kişi gülümsəyərək süfrəni açdı. Məmməd ilk dəfə olaraq özünü yabançı kimi hesab etdi. Daha doğrusu, bütün bunlar ona yabançı göründü. Tüfənginə nəzər saldı. Sonra geyimini gözünün önünə gətirdi. Sinəsinə çal-çarpaz patrondaş bağlanmışdı... yan tərəfində iri bir qəmə və qumbaralar. Başında bənövşəyi rəngdə çirkli, əzik bir fəs. Özü də Dəli Durdunun köhnə fəsi... Öz-özünə dedi: «Demək, qaçaq oldun, hə? Bundan sonra ömrün qaçaqlıqda keçəcək!..»

Süfrəyə əvvəlcə süd gəldi. Süddən mavi buğ çıxırdı. Südün üzü yavaş-yavaş qırışaraq qaymaq bağlayırdı. Bunun dalınca doşab, sonra da qovurma gəldi.

İkisinin də birdən ağzı sulandı. Uşaq kimi gülüşərək bir-birinə baxdılar. Kərimoğlu məsələni başa düşdü. Onun da qoca siması güldü. Sədəf kimi ağ dişləri işıldadı.

– Buyurun, canım, – dedi. – Buyurun, qardaşoğlu! Nə təklif gözləyirsiniz.

İkisi də qaşıq götürdü. Əvvəlcə südə cumdular. İlk hücumda süfrədəki çörəyin hamısı yeyildi. Süfrəyə yenə də çörək gəldi. Süd qurtardı, yenə də süd gəldi.

Yeməyi cəld yeyib qurtarandan sonra:

– Süfrənizdə həmişə bolluq olsun, ağa, – dedilər.

Ev sahibi hələ də yavaş-yavaş yeyirdi.

Kərimoğlu:

– Sağ olun, balalar, – dedi. – Cavanlıq bax belə olur, qardaşoğlu.

Sonra ev sahibi də əlinin tərsi ilə bığlarını silərək süfrədən çəkildi.

– Hə, – dedi, – siz papiros çəkmirsinizmi? Gəlin, adama bir papiros eşək!

– Heç birimiz çəkmirik, – deyə Cabbar cavab verdi.

Kərimoğlu papirosunu ağzına qoydu, çaxmaq çaxdı. Çadıra xoş, məstedici bir qov qoxusu yayıldı. Papirosunu çəkib qurtarandan sonra:

– Sizə bir söz deyəcəyəm, ancaq acığınız tutmasın, – dedi. – Ağlınıza da bir şey gəlməsin.

Məmməd:

– Söylə, ağam, – dedi. – Ağlımıza nə gələcək?

Kərimoğlu rəng alıb rəng verdi:

– Bunu demək istəyirəm ki, – deyə kəkələdi, – bu dağlarda sizin nə ananız var, nə də ev-eşiyiniz. Çarpışmaqdan da təzə çıxmısınız. Üst-başınız qan içində. Bəlkə, yaranız da var. Alt paltarlarınızı soyunun. Uşaqlar dərhal yuyarlar. Tez də qurudarlar. Çox tələsirsinizsə, oda tutub qurudar-

lar. Siz də hələlik mənim alt paltarlarımı geyərsiniz. Belə fikirləşməyin ki, Kərimoğlu bizi soyundurmaq və ələ vermək istəyir. Kərimoğlunun evində heç kəsə pislik edilməz. Nə qədər ki, Kərimoğlu sağdır, onun qonağına heç kəs toxuna bilməz. Bunu da bilin.

Cabbar:

– Biz Kərimoğlunu tanıyırıq, ay ağa, – dedi. – Bir gör ağlına nə gətirirsən!

Məmməd də təkrar etdi:

– Bir gör ağlına...

– Elə demə, ay qardaşoğlu. İnsan övladı çiy süd əmmişdir. Əlindən hər cür yaxşılıq gəldiyi kimi, hər cür pislik də gələ bilər. Elə demə, ay qardaşoğlu!

Qaragözlü, alyanaqlı qəşəng bir gəlin hər birinin qabağına sabun iyi verən bir dəst tuman-köynək gətirib qoydu.

Kərimoğlu:

– Mən bayıra çıxım, siz soyunub alt paltarınızı dəyişdirin, – deyərək çadırdan çıxdı.

O, çıxandan sonra Məmməd:

– Ay Cabbar, – dedi, – bu yer üzündə nə yaxşı adamlar var!

– Bu yer üzündə çox zalım, çox məlun adamlar da var, Məmməd!

– Bu Kərimoğluna, ondakı qonaqpərvərliyə bir bax....

Bayırdan Kərimoğlunun səsi gəldi.

– Alt paltarınızı dəyişdirdinizmi, uşaqlar? Gəlimmi?

– Dəyişdirdik, – deyə Məmməd cavab verdi.

İçəri girən Kərimoğlu Məmmədə:

– Qoy bir sənə baxım, görüm yaran necədir? – dedi.

Məmməd:

– Baxmağa ehtiyac yoxdur, – dedi. – Başımı güllə sıyırmışdır. Kiçicik bir sıyrıntıdır...

– Səndə necə, bir şey yoxdurmu? – deyə Kərimoğlu Cabbardan soruşdu.

– Çox şükür ki, yoxdur, – deyə Cabbar cavab verdi.

Kərimoğlu çadırdan çıxdı. Bir müddət sonra əlində çanaq və bir xeyli ağ bez geri qayıtdı. Çanağın içində yaxma dərman vardı. Özü hazırlamışdı. Məmmədin yarasını sarımağa başladı.

– İki günün içində yaran tamam sağalar. Gəncliyimizdə biz də yaralanmışıq, oğul, – dedi. – Hamısı keçib gedir.

Məmmədin başını usta cərrahdan daha ustalıqla sarıdı.

Məmməd minnətdarlıqla:

– Əlin var olsun, ağa, – dedi.

Kərimoğlu:

– Yaran yüngüldür, amma şişmişdir. Bu dərman tez sağaldar. Qorxma!

Kərimoğlunun uşaq kimi, qəribə bir xasiyyəti vardı. Bir şey soruşmaq, bir sual vermək istəyəndə utanar, üzü qıpqırmızı olardı. Gülümsəyər, qızarar, bozarar, ən nəhayət, əzilib-büzülərək xəbər almaq istədiyini soruşardı. Yenə belə oldu.

– Oğul, – deyə Məmmədə müraciət etdi, – soruşmaq ayıb olmasın, doğrudanmı, sən qaçaqsan? Doğrudan... Yoxsa...

Cabbar güldü:

– Ağa, – dedi, – bizim İncə Məmməd qaçaq-qaçaq oyunu oynayır.

Məmməd də gülümsədi:

– Sənin fikrincə, qaçaqlıq mənə yaraşmır, eləmi, ağa?

– Bunu mənə qüsur tutma, oğul. Səni xor görmək üçün demədim. Çox cavansan. Sənə on altı yaş ancaq vermək olar. Onun üçün soruşdum. Bunu mənə qüsur tutma...

Məmməd qürurla:

– On səkkiz yaşım var, – dedi.

Kərimoğlu:

– Sadəcə maraqlandım. Allah xatirinə incimə məndən. Bu yaşda niyə qaçaq olmusan? – deyə soruşanda Cabbar cavab verib dedi:

– Ağasının eşşəyini oğurlayıb satmış, sonra ağanın onu döyəcəyindən qorxaraq qaçmışdı. Sonra da gəlib bizə

qoşuldu. Biz də neyləyək, qəbul etdik. Qoy içərimizdə bir nəfər də eşşək oğrusu olsun, dedik. Kim bilir, hər şey ola bilər...

Ağa Cabbarın zarafat etdiyini başa düşüb qüssələndi. Soruşduğuna peşman olduğu üzündən görünürdü. Susmuşdu, dinib-danışmırdı.

Cabbar Kərimoğlunun bu zarafatdan incidiyini gördükdə:

– Ağa, sən dəyirmanoluqlu Abdi ağa adında bir adam eşitmisən? – deyə soruşdu.

Kərimoğlu:

– Onu yaxşı tanıyıram, – dedi. – Bu yaxınlarda eşitdim onu vurmuşlar. Amma ölməmişdir, Qardaşı oğlu ölmüşdür.

Cabbar:

– Onu vuran bax budur! – dedi.

Kərimoğlu Məmmədi təpədən-dırnağa xeyli süzdü:

– Çox qəribədir, – dedi. – Bu İncə Məmməd heç adam vuran oğlana oxşamır. Çox qəribədir!

Məmməd Kərimoğluna müraciət edərək:

– Ağam, – dedi, – bu dərmandan bizim üçün bir az da hazırlarsanmı? Yaralı yoldaşlarımız var. Onlar üçün də aparmaq istəyirəm...

Kərimoğlu:

– Hazır məlhəm var, – dedi. – Şəfalı məlhəmdir. Ondan sənə verərəm. İndi yaxma dərman da hazırlaram.

Məmməd:

– Dünyada heç pis gün görməyəsən, – deyə razılığını bildirdi.

Kərimoğlu böyük bir bez parçasının içinə məlhəm qoydu. Bir az da yaxma dərman hazırladı, gətirib Məmmədə verdi.

Onlar yola düşərkən Kərimoğlu:

– Sənə lap məəttəl qalmışam, İncə Məmməd, – dedi. – Sən heç qaçaqlıq edən adama oxşamırsan. Amma nə edə-

sən. Hərif səni məcbur etmişdir... İnsan övladı belədir, bilmək olmur ki, kimin ürəyində nə var.

Kərimoğluna ikisi də birdən:

– Sağlıqla qal, – dedilər,

Kərimoğlu gülə-gülə:

–Yaxşı yol, – dedi və onun sədəf kimi ağ dişləri işıldadı. – Hərdən bu tərəflərə gəlin. Söhbət elərik.

İkisinin də hər iki əlində iri torba vardı. Torbalar ağırdı. Kərimoğlu bu torbalara çörək, pendir, kərə yağı doldurmuşdu.

Cabbar:

– Nə yaxşı adamdır! – dedi.

Məmməd də təkrar etdi:

– Nə yaxşı...

Birdən Məmməd nə xatırladısa, üzü dəyişdi:

– Ay Cabbar, – dedi. – Axı biz kişinin alt paltarlarını qaytarmadıq.

– Eybi yoxdur. Oğurlamamışıq ki, unutmuşuq...

– Olmaz. Gəl geri qayıdıb, onları qaytaraq.

Cabbar gülərək:

– Kərimoğlunun haqqı var, – dedi. – Sən heç qaçağa oxşamırsan.

– Nə edək. Hamı anadan qaçaq doğulmaz ki...

– Elə isə geri qayıdıb, alt paltarları qaytaraq.

– Qayıdaq.

Qaça-qaça geri qayıtdılar. Kərimoğlu çadırın qapısında onları qarşıladı:

– Nə oldu? – deyə təəccüblə soruşdu. – Niyə geri qayıtdınız?

Məmməd cavabında dedi:

– Unutduq, sənin alt paltarların əynimizdə qaldı. Onları vermək üçün qayıtdıq!

– Mən də qorxdum, dedim, görəsən, nə olub. Qoy onlar mənim sizə hədiyyəm olsun. Çıxarmayın.

Məmməd:

– Heç belə şey olar? – dedi.

– Olar, olar. Çıxartsanız, inciyərəm.

Onlar qayalığa çatanda, qaranlıq qovuşurdu. Qayalığın lap uca yerində böyük bir tonqal qığılcım saçaraq yanırdı.

Cabbar:

– Məmməd qardaş, – dedi. – Bəlkə, o böyük tonqalın yanındakılar bizimkilərdir...

– Bizimkilərmi? – deyə Məmməd soruşdu.

Cabbar:

– Təbii ki, bizimkilərdir, – dedi. – O böyüklükdə tonqalı başqa kim yandırar? Durdu Asim çavuşun acığına qəsdən belə böyük tonqal qalatdırmışdır.

– Məndə daha yeriməyə hal qalmadı, Cabbar. Bir fit çalıb, onlara xəbər versənə!

Cabbar iki barmağını ağzına salıb, bərkdən uzun bir fit çaldı.

– Ay Cabbar, sənin fitini bir günlük yoldan eşitmək olar. Vallah düz deyirəm.

Az sonra tonqal yanan tərəfdən bir güllə səsi gəldi. Bunun ardınca yaylım atəşi açıldı.

– Olmaya bir şey var? – deyə Məmməd soruşdu.

– Dəli Durdu ağa bayram edir. Həmişə kefi kök olanda arasıkəsilmədən atəş açır.

Onların fitlərinə cavab olaraq heç kəs gəlmədi. Məmməd də, Cabbar da bundan bərk hirsləndilər. Tonqalın yanına çatanda qan-tər içində olduqlarını, taqətdən düşdüklərini hiss etdilər. Onları Durdu ilə birlikdə bütün yoldaşları ayağa qalxaraq qarşıladılar. Durdu onlara yaxınlaşan kimi tapançasını çıxartdı:

– Sizin şərəfinizə, – deyərək, bir neçə güllə atdı. Sonra sözünə davam edib dedi: – Bir az da gec gəlsəydiniz, hamımız acından öləcəkdik. Bir baxın, Rəcəb çavuş hələ də zarıldayır. Yaranın ağrısından deyil. Aclıqdan. Allaha and olsun, aclıqdan...

Tonqal bir xırman yeri qədər sahəni tutmuşdu. Adam boyunda uca alovlar bir-birinə sarılaraq əyilib qıvrılırdı. Odunların çatırtısı ətrafa yayılmışdı. Odunlar yanarkən,

onlardan xoş buxar qoxusu çıxırdı... Yaş odun çox çətinliklə yanır. Odun, alovların ortasında uzun zaman qalır. Sonra ortadan ikiyə ayrılaraq, alovların arasında yanıb gedir.

Məmməd ilk olaraq Rəcəb çavuşun yanına gedib:

– Necəsən, Çavuş? – deyə soruşdu.

Çavuş inildəyərək:

– Yaram ağırlaşmışdır, – dedi. – Mənim bu yaram daha sağalmaz. Ölüb gedərəm. Mən artıq öldüm...

Məmməd ondan sonra Horəlinin yanına getdi:

– Sən necəsən, Horəli qardaş? – deyə soruşdu.

Horəli ağzını açar-açmaz söyüş yağdırmağa başladı:

– Onun anasını, arvadını... Lap körpə uşağını... Gülləsini, qaçağını... Kəndini, ağacını, daş-torpağını, qayasını, yarasını... Abdi ağanın da arvadını... yaranın da arvadını... Bura bax, eşitmisənmi? Abdi ağa ölməyib ey. Vay qoca əclaf, vay! Amma sən fikir çəkmə, o qoca əclafın işini bitirərik. Əhəmiyyət vermə. Qardaşı oğlunun da arvadını. O ölmüşdür...

Məmməd:

– Qardaş, – dedi, – sizin üçün yaxma dərman gətirmişəm. Məlhəm də gətirmişəm. Kərimoğlu verdi. Öz əli ilə hazırlamışdır. Qoca kişidir. İki gün çəkməz ki, məlhəm yaraları sağaldar...



Horəli:

– Məlhəmin də... – deyə söydü.

Məmməd:

– Elə demə, Horəli qardaş, – dedi, – bəlkə, bir faydası oldu.

Horəli:

– İnşallah, – dedi.

Rəcəb çavuş dikələrək:

– Sənin Kərimoğlun da çox goplamışdır, – dedi. – Mən razıyam ki, bir aya yaralarımı sağaltsın.

Məmməd onların ikisinin də yarasını açdı, dərman yaxıb təzədən sarıdı. Sonra gəlib tonqalın yanında oturdu.

– O-o-of, – dedi, – elə yorulmuşam ki...

Durdu:

– Məmməd, – dedi, – bir qulaq as gör Cabbar sənin üçün nə deyir? Deyir ki, Məmməd Kərimoğlunun çadırının içərisini görəndə, ağzı açıla qaldı...

– Elə oldu, – deyə Məmməd təsdiq etdi. – Mən heç belə bir çadır içi görməmişdim. Cənnət köşkü kimi yer...

Cabbar:

– Hə, – dedi, – ona Kərimoğlu deyərlər! Adlı-sanlı adamdır... Onun çadırının içərisi elə olmasa, bəs kiminki olacaq!

– Sən onu qabaqdanmı tanıyırdın? – deyə Durdu xəbər aldı.

– Onun barəsində eşitmişdim. Deyirdilər ki, çox varlı adamdır. Gözümüzlə də gördük. Yəqin ki, altında milyonları var...

Məmməd:

– Bu dünyada nə qədər yaxşı adam var, – dedi. – Bizə hər cür qayğı göstərdi. Yaramızı sarıdı. Qarnımızı doydurdu. Alt paltarımızı yudurtdu. Hərəmizə bir dəst alt paltarı bağışladı.

– O, çox böyük ağadır, – deyə Cabbar əlavə etdi.

– Bu qədər məşhur, bu qədər varlı bir ağanın adını biz indiyədək niyə eşitməmişik? – deyə Durdu soruşdu.

Cabbar:

– O, – dedi, – yürüklərin ağasıdır. Onlar bir yerdə çox qalmazlar, bir az əylənib gedərlər.

Məmməd:

– Əylənərlər, köçərlər, özləri bilərlər, amma çox yaxşı adamlardır, – dedi. – Çadırının dirəyi başdan-başa sədəflə işlənmişdi.

Durdu heyrətlə dedi:

– Çadırının dirəyi başdan-başa sədəflə işlənmişdi? Vay səni! Demək, varlı hərifdir? Vay səni! Demək, çadırının dirəyi başdan-başa sədəflə işlənmişdir, hə?

Məmməd:

– Bəs sən nə bilmisən! – dedi. – Çadırı o qədər böyükdür ki, on-on beşmi dirəyi var. Bir gəlin bizə yemək gətirdi. Boy-

nunda, bəlkə, əlli dənə beşlirəlik qızıl vardı. Kərimoğlu həm varlı, həm də yaxşı adamdır. Xoşxasiyyət, üzügülər adamdır.

Cabbar dedi:

– Abdi ağanı vuranın sən olduğunu biləndə nə qədər təəccübləndi! Gözlərini sənə zilləyib baxırdı, elə bil ki, səni indicə yeyəcəkdi. Elə deyilmi, Məmməd?

– Hə, baxırdı, – deyə Məmməd təsdiq etdi. – Yaman baxırdı.

Durdu gözlərini alovlara dikmişdi. Daha nə danışır, nə də sual verirdi. Dərin fikrə getmişdi. Üzünü bir dalğınlıq bürümüşdü... Durdunun bir adəti vardı: müəyyən bir qərara gəlməmişdən əvvəl gözlərini bir nöqtəyə, bir insana, bir ağaca, buluda, çiçəyə, quşa, tüfəngə, oda zillər, saatlarla qımıldanmadan baxardı.

Durdu susan kimi o biri qaçaqlar da susdular.

O, yanındakılara çox sərt bir şəkildə:

– Siz gedib yatın. – dedi. – Bu gecə növbədə Horəli, mən, bir də Rəcəb çavuş duracağıq.

Belə anlarda Durduya söz demək olmazdı. Tapançasını çəkib vurardı. Atası da olsa, vurardı. Onlar da heç bir söz deməyib getdilər, qayanın dibinə qısıldılar.

Horəli əvvəlki kimi olmasa da, arabir yenə söyüş söyürdü. Rəcəb çavuş isə daha inildəmirdi.

Bəzi insanlar vardır ki, anadangəlmə istiqanlı, sevimli olurlar. Rəcəb çavuş da onlardandır. Onlar yalnız ona görə doğulmuşlar ki, insanlar onları sevsinlər. Bəlkə, başqalarına nisbətən bu adamlarda onları insanlara sevdirən cəhətlər vardır? Xeyr. Məsələn, Rəcəb çavuş çox danışandırmı? Xeyr. Çox nəşəlidirmi? O da yox. Çalıb-oynayandırmı? O da yox. Başqalarına çoxmu yaxşılıq eləyir? O da yox. O, bir sirdir. Üç ildir ki, Dəli Durdunun dəstəsindədir. Dəli Durdunun dəstəsində Rəcəb çavuşun üç il qaldığına camaat təəccüb edirdi.

Rəcəb çavuş Dəli Durdu ilə ilk dəfə rastlaşanda:

– Mənə bax, ay Dəli, – demişdi. – Sən də o ağıllı əclaflardan olsaydın, sənin də dəstəndə ancaq iki ay qalardım.

Sənin dəstənə qoşulmazdım. O əllamə həriflərin iş-gücü tələyə düşmək, güllə yeməkdir. Anladınmı?

– Anladım, – deyə Durdu cavab vermişdi.

O gündən bəri Rəcəb çavuş bu barədə daha heç danışmamışdı. Dəli Durdu nə eləmişdisə, heç bir etiraz etməmişdi. Bir neçə kərə, lap nahaq yerə yaralanmışdı, yenə də Durduya bir söz deməmişdi. Onun həyatı barəsində heç kəs tamam-kamal bir şey bilmirdi. Danışığı Antep tərəflərindən olduğunu göstərirdi. Amma xalis Antep ləhcəsi deyildi. Antepdə uzun zaman yaşadığı qəti idi. Antepdən çox söhbət açardı.

Onun həyatı barəsində cürbəcür rəvayətlər vardı. O rəvayətlərdən birisi budur: Rəcəb çavuş bir gecə yuxudan oyanıb deyir: «Ay arvad, mənim tüfəngimi gətir. Bir də azuqə hazırla. Mən gedirəm». Arvadı tüfəngi gətirib onun yanına qoyur. Azuqə də hazırlayır. Rəcəb tüfəngi yaxşıca yağlayır. Patrondaşı taxır. Axırda arvadına deyir: «Arvad, mənim o köhnə papağımı da ver. Mən dağa gedirəm. Haqqını halal elə». Arvadı buna çox təəccüb qalaraq deyir: «Dəlimi olmusan, kişi! Gecəyarısı yatdığın yerdə yatağından qalxıb deyirsən ki, mən dağa gedirəm! Belə şey harda görünüb?» Rəcəb çavuş cavabında deyir: «Könlüm belə istəyir, arvad! Mən gedirəm». Başqa heç bir söz demir, evdən çıxıb gedir, bir daha geri qayıtmır. Bəziləri də deyirlər ki, Rəcəb çavuş öz kürəkəninin əlindən hirslənmişdir. Buna da kürəkənin qızını söyməsi səbəb olmuşdur. Bir gün Rəcəb çavuş kürəkəninin qapısından keçərkən kürəkənin qızına: «Sənin atanın...» dediyini eşitmişdir. Kürəkənə acığı tutmuş, onu öldürməyə qıymamış, dağa çəkilmişdir.

Bəzilərinin də dediyinə görə, Çavuş çox varlı imiş, amma yolpulu, vergi verməyi heç xoşlamazmış; kəndə vergi toplayan gələndə özünü xəstəliyə vurar, yorğan-döşəyə düşərmiş. Guya məhz yolpulu verməmək üçün dağa çəkilib qaçaq olmuşdur. Kimi də deyir ki, qayınanasını öldürmüş, ona görə də qaçaq olmuşdur. Hər kəs bir şey

uydurub söyləyir. Bunlardan hansının doğru, hansının yalan olduğu bəlli deyil.

Bir təqsiri olub-olmadığı da bəlli deyil. Amma Rəcəb çavuşun vaxtilə nə üçün dağlara çəkilib qaçaqlara qoşulmasından asılı olmayaraq, indi o ələ keçsə, ən azı otuz il iş alar. Axı onun adı o qədər basqınla, jandarmlara qarşı çarpışma ilə, o qədər yol kəsməklə, adam öldürməklə bağlı idi ki...

Gün doğdu. Xeyli keçdi, gün lap ucalmışdı. Durdu oyanmırdı. Halbuki üstünə gün işığı düşənədək yatmaq adəti deyildi. Günorta oldu, yenə oyanmadı. Cabbarın ağlına cürbəcür fikirlər gəlirdi. O düşünürdü: «Bunda mütləq bir iş var. Bu Dəli heç vaxt indiyədək yatmaz. Yəqin ki, basqına gedəcək. Həmişə çətin bir basqına getməzdən əvvəl çox yatmaq adətidir. O da ildə, iki ildə bir dəfə. İndi, görəsən, hara basqın edəcək?» Cabbar maraqla gözləyirdi.

Rəcəb çavuş bu gün çox nəşəli idi. Qocalara məxsus yanıqlı səsi ilə el mahnısı oxuyurdu,

Bir az sonra Rəcəb çavuş:

– Mənə baxın, uşaqlar, bu Durdunu oyadın, – dedi. – Oyadın ki, ağzımıza bir tikə şey qoyaq.



Məmməd:

– Mən bu işə qarışmaram, – dedi,

– Mən də, – deyə Cabbar təkrar etdi.

Güdükoğlu gedib Durdunun başının üstünü kəsdirdi:

– Durdu paşam, – dedi, – oyansana, Durdu paşam.

Güdükoğlu Durduya həmişə «paşam» deyə müraciət edərdi. Bu da Durdunun çox xoşuna gələrdi. Güdükoğlunun dəstədə bir neçə vəzifəsi vardı. Bir vəzifəsi də təlxəklik idi. Durdu üçün təlxəklik edərdi.

– Oyansana, paşam. Gün günorta olmuşdur, paşam.

Durdu iri yumruqları ilə gözlərini ovuşdura-ovuşdura, ağır-ağır yerindən qalxdı.

– Tez yemək yeyək. Sonra gedəcəyik.

– Bəs yaralıları nə edək? – deyə Cabbar soruşdu. – Rəcəb çavuşun, Horəlinin halı pisdir...

Durdu yaralılardan soruşdu:
– Necəsiniz? Bizimlə gedə bilərsinizmi?
Rəcəb çavuş:
– Mən gedərəm, – dedi. – Ağrım o qədər qalmadı.
Horəli:
– Mən də gedərəm, – dedi. – Bu yaranın da...
Qaçaqlar süfrənin dövrəsində böyük bir halqa halında oturdular.
Kölgələr quzeydən güneyə əyildiyi zaman qayalıqdan aşağı endilər. Köçərilərin çadırları tərəfdən it hürüşməsi gəlirdi.
Məmməd:
– İndi haraya gedirik? – deyə soruşdu. Durdu cavab verməyərək, ona hirsli-hirsli baxdı.
Məmməd daha heç bir şey soruşmadı. Durdu itlərin hürüşdükləri tərəfə dönəndə, Məmmədlə Cabbar məsələni başa düşdülər.
Cabbar Məmmədin qulağına:
– Durdunun gözləri yerində deyil, – deyə pıçıldadı.
– Gözləri yerində deyil, – deyə Məmməd təkrar etdi.
– Kərimoğluna bir şey eləsə, biz nə edərik? – deyə Cabbar soruşdu.
– Nə edərik? – deyə Məmməd təkrar etdi.
Cabbar:
– Nə edərik? – dedi.
Durdunun yerişindən onun bəd, həm də çox bəd bir niyyət güddüyü sezilirdi. Durdunun üzü qapqara qaralmışdı; onun üzü, çox nadir halda, indiki kimi qaralardı. İndi isə üzündən elə bir qəzəb yağırdı ki... Sanki üzünə bir milçək qonsaydı, min parça olardı.
Durdu addımlarını yavaşıdıb Cabbardan soruşdu:
– Kərimoğlunun çadırının yanında neçə çadır vardı?
– Üç dənə, – deyə Cabbar cavab verdi.
Durdu addımlarını sürətləndirdi. Çadırlara çatanda, onları yenə iri çobanitləri qarşıladılar. İtlərin səsinə uşaq-

lar çadırlardan çıxdılar. Onlardan sonra qadınlar. Daha sonra da kişilər... Kərimoğlu kişilərin qabağında dayanıb, gələn qaçaqlara baxaraq gülümsəyirdi. Ağ qoyun sürüləri çadırları dövrəyə almışdılar: onların arasında qara çadırlar daha aydın nəzərə çarpırdı. Qoyunlar, quzular mələşirdi. İri çobanitləri pəhləvan kimi gəzişirdilər. Dəvələr yerə çöküb rahat-rahat gövşəyirdilər. Ağızlarından köpük axırdı.

Kərimoğlu:

– Xoş gəlmisiniz, qonaqlarım, səfa gətirmisiniz, – deyə hər birinin əlini məhəbbətlə sıxdı.

Məmməd gülərək:

– Xoş gördük, – dedi. Sonra təbəssümü üzündə donub qaldı. Ürəyini bir şübhə qurdu gəmirirdi. Görəsən, Dəli Durdu nə edəcək?

Sonra Durdunu Kərimoğluna göstərdi:

– Bu bizim dəstəbaşımızdır, – dedi.

Kərimoğlu dünyagörmüş adamdır. Göz altından Dəli Durduya bir nəzər saldı. Ondan bir şey başa düşmədiyini işarə ilə Məmmədə anlatdı. Durdu isə qaşqabağını sallayıb, başını dik tutaraq, ətrafına baxmadan yeriyirdi.

– Onun adı nədir? – deyə Kərimoğlu Məmməddən soruşdu.

Məmməd:

– Dəli Durdu.

Kərimoğlu təəccüb etdi:

– Dəli Durdu budur?

Məmməd:

– Hə, özüdür ki, var, – dedi. Kərimoğlunun qırmızı üzündəki gülüş donub qaldı. Gözləri alacalandı.

– Adamları soyanda tumanlarını da çıxartdırır, eləmi?

Məmməd içini çəkərək:

– Elədir, – deyə cavab verdi.

Çadırın içərisinə girəndə Durdu da, Məmməd qədər olmasa da, məəttəl qaldı. Divardan naxışlı bir tüfəng asılmışdı. Durdu Kərimoğluna kinli bir nəzərlə baxdıqdan sonra:

– O tüfəngi gətir, bir baxaq, ağa, – dedi. – Bir o tüfəngə baxaq, ağa.

Kərimoğlu onun sözündəki kini sezdi. Ürəyi sancdı. Özünə bir fəlakətin yaxınlaşdığını duyurdu.

Durdunun nə sifəti yerində idi, nə də gözləri. Kərimoğlu tüfəngi gətirib Durduya verərkən:

– Yeməyiniz indicəmi gəlsin? – deyə soruşdu. – Yoxsa axşammı yeyəcəksiniz?

Durdunun gözləri qığılcımlandı:

– Mən, – dedi, – soymağa gəldiyim adamın nə çörəyini yeyər, nə də qəhvəsini içərəm. Çörəyini yeyib, qəhvəsini içsəm, soya bilmərəm.

Bunu deyib qeyzlə ayağa durdu. Onun ardınca qalan qaçaqlar da sıçrayıb ayağa qalxdılar.

Kərimoğlu:

– Yeməyini ye, sonra soyursan, yenə soy! Kərimoğlunun evinə gələn adam yemək yeməmiş getməz, – dedi.

Amma onun səsi titrəyirdi. Xəfif bir qırmızılıq yanaqlarından burnuna, alnına doğru yayılırdı. Bir az sonra alnında muncuq-muncuq tər peyda oldu.

– Mənə bax, Durdu ağa, – dedi. – Bu dağlar qaçaqla doludur. İndiyədək heç bir qaçaq Kərimoğlunun evini soymamışdır. Sən soyacaqsansa, soy! Budur, ev qabağındadır.

Məmməd ilə Cabbar bu vəziyyətin qarşısında xəcalətdən ölürdülər. Sanki təpələrinə qaynar su tökülmüşdü.

Durdu:

– Mən də heç bir qaçağa oxşamaram, – dedi.

Kərimoğlu yerindən heç qımıldanmadı. Çadırın dirəyi kimi səssiz, hərəkətsiz dayanıb dururdu.

Durdu:

– Əvvəlcə pulları gətir, ağa, – dedi.

Rəcəb çavuş ilə Horəli ayağa qalxanlarla birlikdə ayağa qalxmışdılar, amma sonra yenə də oturub nələr baş verdiyinə tamaşa edirdilər. Nədənsə Rəcəb çavuşun gözlərinin içi gülürdü.

Kərimoğlunun yerindən tərpənmədiyini görən Durdu yavaş-yavaş ona yaxınlaşıb, tüfəngin dibciyi ilə çiyninə ağır bir zərbə endirdi. Kərimoğlu yerə yıxıldı. Durdu onun əlindən tutub qaldırdı. Çadırın o biri bölməsindəki qadınlar, uşaqlar bərkdən ağlaşırdılar.

Dəli Durdu:

– Bir mənə bax, ağa, – dedi. – Sən Saçıqaralı obasına ağalıq eləyə bilərsən, mənə yox. Bu dağlarda isə Dəli Durdu ağalıq edir.

Sonra üzünü Güdükoğluna tutub əmr etdi:

– Ağa ilə get, nə qədər pulu varsa, al gətir. Anladınmı? Qadınların qızılını da yığ gətir. Anladınmı?

Güdükoğlu:

– Anladım, paşam, – deyə cavab verdi.

Güdükoğlunun dəstədə bir işi də bu idi. Bir evə basqın etdikləri zaman, əzab verərək pulları çıxartdırırdı. Bu işin ustası idi. O, hansı evi axtarmışsa, orada bir quruş da pul qoymamışdı. Tərtəmiz soymuşdu.

Güdükoğlunun kefi kökəldi. Ağanın qolundan tutub çəkdi:

– Gəl gedək, Kərimoğlu. Pulların yerini göstər. Yoxsa Güdükoğlunun bir gülləsi səni o dünyaya vasil edər.

Durdu:

– Kərimoğlu, – deyə bağırdı, – ya canını verəcəksən, ya da nə qədər pulun varsa onu...

O biri çadırların uşaqları, qadınları Kərimoğlunun çadırının qabağına toplaşmışdılar. Durdu onların qapıya toplaşdıqlarını görən kimi, bayıra çıxıb bağırdı:

– Yallah, evlərinizə. Tezliklə sizə də növbə çatacaq.

Kərimoğlu gözləri ilə Cabbarı, Məmmədi axtarırdı. Onlar Kərimoğlunun arxasında dayanmışdılar. Dönüb arxasına baxanda, Məmmədlə göz-gözə gəldilər. Məmməd gözlərini aşağı dikdi. Kərimoğlu sonra da Cabbara baxdı. Kərimoğlunun gözlərində bir inciklik oxunurdu. Sanki deyirdi: «Bu nədir, mənim başıma gətirdiniz?» Hər gözünün

içində bir damla yaş vardı. Arxasını onlara çevirib, Güdükoğlunun qabağına düşdü. Çadırın o biri bölməsinə keçdikdə, qoyun kimi bir-birinə qısılıb ağlaşan qadınlardan birinə işarə etdi:

– Sandığı aç. Nə qədər pul varsa, çıxarıb bu adama ver. Üstünüzdə də nə qədər qızıl, qolbaq, üzük varsa, çıxarıb mənə verin.

Kərimoğlu Durdunun niyyətini sezmişdi. Bilirdi ki, Durdu bütün pulunu əlindən alıb aparacaq, ona bir quruş da qoymayacaq. Buna görə də bütün var-yoxunu əli ilə verməli idi.

Güdükoğlu bir topa kağız pul, bir torba da qızıl gətirib Durduya verdi. Kərimoğlu da qadınların boyunbağılarını, üzüklərini, qolbaqlarını, cütqabaqlarını yığıb gətirdi.

Durdu:

– Hamısıdırmı? Heç bir şey qalmadımı? – deyə Güdükoğlundan soruşdu.

Güdükoğlu:

– Qalmadı, – deyə qəti cavab verdi.

Halbuki bütün bundan əvvəlki basqınlarda Durdu Küdükoğlundan: «Qalmadımı?» deyə soruşanda, o: «Hələ var, paşam» deyərdi. Sonra gedib bir qızıl, bir kağız lirə gətirərdi. Beləliklə, evi on dəfə, iyirmi dəfə axtarar, küncbucaqda nə qalmışsa, bir-bir tapıb gətirərdi. Yalnız bundan sonra işarə ilə Durduya bildirərdi ki, daha bir şey qalmamışdır. Güdükoğlu basqın edilən evdə bir şey qalıb-qalmadığını ev sahiblərinin üzünə baxan kimi bilərdi. Heç vaxt da səhv etməzdi, hökmən bilərdi.

Dəli Durdu:

– Sən ağıllı adamsan, Kərimoğlu, – dedi. – Bütün varyoxunu öz əlinlə verdin. Başa düşdün ki, onsuz da səndən zorla alacağıq. İndiyədək soyduğum adamlar arasında səndən ağıllısına rast gəlməmişəm.

Kərimoğlu sanki daşa dönmüşdü. Üzü sapsarı saralmışdı. Dodaqları titrəyirdi.

Durdu yenə də kəskin, inadkar, amiranə bir əda ilə bağırdı:

– Dəli Durdunun bir adəti vardır. Bilirsənmi, Kərimoğlu? – deyə soruşdu. – Başqa qaçaqlar belə etməzlər. Əslində, başqa qaçaqlar Kərimoğlunu heç soya bilməzlər də. Hə, bilirsənmi adətimi?

Kərimoğlu cavab vermədi.

– Dəli Durdunun adəti budur ki, soyduğu adamların tumanını da ayağından çıxartdırar. Çıxart paltarlarını, Kərimoğlu! – deyə bağırdı.

Kərimoğlu qımıldanmadı.

– Sənə deyirəm. Çıxart paltarlarını!

Kərimoğlu yenə də bir hərəkət etmədi. Durdu qəzəbləndi. Qəzəbindən yerində dayana bilmirdi. Kərimoğlunun ətrafında fır-fır fırlanırdı. Birdən şiddətlə onun qulağının dibinə bir yumruq ilişdirdi. Sinəsinə də tüfəngin dibciyi ilə bir neçə zərbə endirdi... Kərimoğlu səntirlədi. Yıxılanda Durdu onun qolundan yapışdı. Bir də vurdu, bir də vurdu. Vurduqca da təkrar edirdi:

– Çıxart!

Kərimoğlu kədərlə dedi:

– Durdu, sən gəl mənimlə belə rəftar eləmə. Kərimoğlunun evinə indiyədək heç kəs basqın etməmişdir. Sənin bu hərəkətin cəzasız qalmaz!

Bu sözləri eşidən Durdu özündən çıxdı. Kərimoğlunun qolunu buraxıb, onu təpikləməyə başladı. Yerə yıxılan Kərimoğlu:

– Sən gəl bunu eləmə, – deyirdi. – Eləmə. Bu, cəzasız qalmaz!

Durdunun hiddəti daha da artdı. Kərimoğlunu ayaqlarının altında tapdalamağa başladı:

– Mən də bilirəm ki, cəzasız qalmayacaq. Buna görə də səni lüt soyunduracağam. Heç olmasa, deyərlər ki, Dəli Durdu o yekəlikdə Kərimoğlunun tumanını ayağından çıxartdırdı. Anladınmı?

Çadırın o biri bölməsində ağlaşan qadınlardan bir neçəsi, hay-küyü eşidən kimi, bu yana keçdi. Bir qadın özünü Kərimoğlunun üstünə atdı. Qadının bağırtısı göyə çıxırdı. Güdükoğlu bağıran qadının qolundan yapışdı, Kərimoğlunun üstündən qaldırıb, bir tərəfə atdı.

Durdu bağırırdı:

– Çıl-çılpaq olmasan, öz əlinlə soyunub lüt olmasan, səni öldürəcəyəm!

Qadınlar çığırışırdılar.

Kərimoğlu:

– Sən gəl, belə eləmə, oğul-uşağımın yanında bu işi mənim başıma gətirmə, – deyə inildəyirdi.

Bu an gözü yerində donub qalan, dodaqlarını gəmirən, tir-tir titrəyən Məmmədə ilişdi. Yalvarırmış kimi ona baxdı. Məmmədi içəridən nə isə bir şey yaxıb-yandırdı. Məmməd dönüb Cabbara baxdı. Onların nəzərləri rastlaşdı. İynə ucu qədər o kiçik parıltı yenə Məmmədin gözlərində peyda oldu. Cabbar da hirsindən ordlarının ətini çeynəyirdi. O, həmişə çox hirslənəndə ordlarının ətini qan çıxıncaya qədər dişləri ilə çeynərdi.

Kərimoğlu:

– Sən gəl, eləmə bunu mənə, Durdu ağa, – deyə dönə-dönə təkrar edirdi. – Eləmə!

Durdu:

– Soyun, – deyə bağırdı. – Yoxsa...

Tüfəngin lüləsini Kərimoğlunun ağzına dayadı:

– Soyun!

Elə bu dəmdə Məmməd qaşla göz arası çadırdan bayıra sıçradı:

– Qımıldanma, Dəli Durdu! Vuraram, – deyə bağırdı. – Məni müqəssir bilmə, vuraram. Bu sənin elədiyin...

Onun ardınca da Cabbarın istehzalı səsi eşidildi:

– Qımıldanma, Durdu ağa! O kişidən əl çək, get. Yoxsa vuraram. Çox yoldaşlıq eləmişik. Qoy ölümün bizim əlimizlə olmasın.

Məmməd:

– Ölümün bizim əlimizlə olmasın, – deyə təkrar etdi.

Durdu heç belə bir şey gözləmirdi, özünü itirdi:

– Demək, belə, hə?

Tüfəngini götürüb bayıra iki güllə atdı. Qaranlıq qovuşurdu.

Məmməd:

– Bax, Durdu ağa, elə güllə atmazlar, – dedi və Durdunun qulağının dibindən vıyıltı ilə iki güllə keçdi. – O kişidən əl çək, get. Etdiyin yetər. Buna açıq-aşkar zülm deyərlər. Ondan əl çək, get.

– Demək, belə, İncə Məmməd? Demək, belə?

– Əgər ölmək istəmirsənsə, o kişidən əl çək, çadırdan çıx get.

Durdu yerdə sərilib qalmış kişiyə bir təpik də vurdu.

– Hə, yoldaşlarım, gəlin gedək!

Bayıra çıxanda bir çuxurda uzanmış İncə Məmmədin qaraltısını gördü.

– Borc olsun, İncə Məmməd! Borc olsun, Cabbar!– dedi.

Çadırdan ən axırda Rəcəb çavuş çıxdı:

– Tutduğunuz işi çox bəyəndim, uşaqlar, – dedi.– Mən də sizinlə qalımmı?

– Qal, Çavuş, qal! – dedilər.

Durdu Çavuşa müraciətlə:

– Demək, Çavuş, sən də?.. – dedi.

– Mən də, Durdu ağa, – deyə Çavuş cavab verdi.

– Sənə də borc olsun, Çavuş!

Durdu yoldaşları ilə birlikdə əlli metr aralandıqdan sonra yerə yatıb:

– Silaha əl atın, yoldaşlar, – dedi. – Bu gün bizim ölümdirim günümüzdür.

Altı adam birdən Məmməd ilə Cabbarın üstünə güllə yağdırmağa başladı. Məmməd ilə Cabbar Durdunun belə edəcəyini yaxşı bilirdilər. Buna görə də gizləndikləri çuxurdan çıxmamışdılar.

Məmməd:

– Durdu ağa, yolunla çıx get, – dedi. – Uşaqlıq eləmə!

–Ya siz, ya da mən... – deyə Durdu cavab verdi.

Rəcəb çavuş:

– Bura bax, – dedi, – yolunla çıx get. Uşaqların yaxasından əl çək. Onsuz da sən Kərimoğluna sataşmaqla öz başını bəlaya salmısan. Saçıqaralı obası, yəqin ki, indi bu işdən xəbər tutmuşdur. Bir az sonra onlar birə kimi dağlara daraşacaqlar. Öz yolunla çıx get!

– Öz yolunla çıx get! – deyə Məmməd təkrar etdi.

Cabbar:

– Qoy ölümün bizim əlimizlə olmasın, – dedi. – Öz yolunla çıx get...

Qarşı tərəfdən güllə səsi kəsildi.

Cabbar:

– Gedirlər, – dedi. – Allahın bəlaları gedirlər. Kərimoğlunun pulunu bölüşdürməyə gedirlər.

Rəcəb çavuş:

– Qoy getsinlər, – dedi. – Saçıqaralı obası hamısını burunlarından tökər. Az sonra bütün dağ-daş adamla dolacaq... Əgər bu kişi Kərimoğludursa, Saçıqaralı tayfasının ağası Kərimoğludursa, çox çəkməz, Saçıqaralı obası bütün bu yerlərə doluşar...

– İndi gedib Kərimoğluna nə deyək? O kişinin üzünə necə baxaq? – deyə Məmməd soruşdu.

Cabbar dedi:

– O kişi bizə yaxşılıq elədi, biz ona pislik. Onun yanına gedib nə deyək? Deyək ki, sənə elədiyimizi bəyəndinmi? Kişilik, bax, belə olar! Biz adamı belə soydurarıq! Beləmi deyək? Yox, Məmməd, sən gəl bu fikrindən əl çək! Onun gözünə görünmədən, aşağı enib gedək.

Məmməd:

– Mən nə deyim axı? – dedi. – Mən Kərimoğluna nə deyim?

Gizləndikləri çuxurdan çıxdı. Çadırlara tərəf yönəldi. Kərimoğlunun çadırından gurultu, çığırtı, hay-küy gəlirdi. Çadırın

qapısını açdı. Bir-iki qadın Kərimoğlunun qanlı başını bir ləyənə tərəf əyib yuyurdu. Onlar həm yuyur, həm də qarğış edirdilər.

Məmməd:

– Kərimoğlu ağa, – deyə səslədikdə, bütün başlar qapıya çevrildi. Məmmədin fikrindən keçdi ki, heç bir söz deməyib qaçsın. Amma qaça bilmədi. Kəkələyə-kəkələyə:

– Ağa, – dedi. – Təqsirimizdən keç. Belə olacağını bilmirdik.

Bunu deyib geri döndü, qaçmağa başladı.

Arxasınca Kərimoğlu:

– Axşam yeməyini yeməmiş getməyin, oğlum, – deyə çığırdı. – Getməyin...

Məmməd Cabbargilin yanına gəldi.

– Di qalxın, – dedi. – Qalxın gedək. Mən daha burada qala bilmərəm. Bu kişiyə ürəyim elə yanır ki... Lap parça-parça olur...

Cabbar ayağa qalxdı:

– Əlimizdən nə gəlir, – dedi. – Bir işdi, oldu...

Məmməd içini çəkdi:

– O Dəlini öldürməliydik, – dedi.

– Onu öldürmək asan deyil, Məmməd! Çox it adamdır. Yoxsa mən... mən onu beləcə buraxardımmı!..

– Gülləni yedikdən sonra nə edə bilərdi?

– Ona güllə dəymir. Mən onun kimi bir adama heç rast gəlməmişəm.

Rəcəb çavuş:

– Bu adamda nə isə bir illət var, – dedi. – O nə eləyirsə, hamısı cəzasız qalır. Onun elədiklərini başqa bir qaçaq eləsəydi, bir gündən artıq sağ qalmazdı. Bu adamda nə isə bir illət var. Yaxşı oldu ki, ondan ayrıldıq. Amma yaman cəsur adamdır! Hər dəqiqə ölümünü gözləməyə hazırdır.

Məmməd:

– Məni də qorxudan elə bu oldu, – dedi. – Buna görə də onu vurmağa əlim gəlmədi. Yoxsa...

Cabbar:

– Hər nə isə... Bu adamda nə isə bir illət var... – deyə sözə xitam verdi.

* * *

– Gəl, buradaca iki saat yataq, – deyə Əli təklif etdi.

Həsən:

– Ay Əli, bir o qədər yolumuz qalmadı ki, – dedi. – Günortaçağı bizim kəndə çatarıq. Gecəni bizim evdə qalarsan. Sabah səhər də durub yola düşərsən. Günortadan sonra öz kəndinizə çatarsan.

Əli çox uzunboylu, cansız bir adamdı, üfürsəydin, yıxılacaqdı; uzun, çopur sifəti vardı.

– Bu gecəyarısı, – dedi, – bu gecəyarısı yol, iz bilinmir. Gəl, elə buradaca səhərə qədər yataq. Səhərə bir-iki saat ancaq qalır.

Həsən:

– Mən bir dəqiqə də dayana bilmərəm, – dedi. – Dörd ildir evimin üzünü görməmişəm.

Əli:

– Mən də görməmişəm, amma...

Həsən:

– Amma nə?

Əli:

– Yorulmuşam.

Həsən:

– Bax, su şırıltısı gəlir. Get üzünü yu. Yorğunluğun keçər...

Əli:

– Soyuq su yorğunluğun əsl dərmanıdır.

Həsən:

– Bizim kəndin suyu... Bizim kəndin suyu kimi su varmı? Buz kimidir. Yerin altından qaynayıb çıxır, özü də süd kimi ağappaqdır. Keçmişdə burada, bulağın başında böyük bir çinar vardı. Mən də gözümlə görmüşdüm... Bir gün bərk yağış yağırdı. Qara, qapqara yağış... Birdən göyün üzündə gurultu ilə gur yaşıl işıq parladı. Yaşıl işıq çinarın üstünə axdı. Gedib baxdıq, çinar yerində yoxdu... Çinar kül

olmuşdu... Vallah gözümlə gördüm. Tamam kül olmuşdu. İndi o çinarın heç izi-tozu da qalmamışdır.

– Üç il, düz üç il Çuxurovada başım nələr çəkmədi, – deyə Əli sözə başladı. – Amma nə olursa-olsun, qardaş, pul qazandım.

Əli yol boyunca, bəlkə, yüz kərə, eyni cümlə, eyni kəlmələrlə Çuxurovadan, min bir əziyyət çəkərək pul qazandığından, qazandığı pulla nə edəcəyindən danışmışdı. Yolda söhbətləri qurtarırdı, bir müddət dinmədən yol gedirdilər, sonra yenə də bir az əvvəl danışdıqlarını təkrar danışmağa başlayırdılar. Həsən də öz kəndindən, uşağından, kül olmuş çinardan, Çuxurovadan, Çuxurovadakı ağasından dönə-dönə danışmışdı.

Əli sözünə davam etdi:

– Pulun iki yüzünü qayınataya verib, qızı evə gətirəcəyəm. Qalanına da bir cüt öküz alacağam. Anama da içi pambıqlı bir gödəkcə tikdirəcəyəm. Yazıq arvad həmişə üşüyür. Evin də üstünü götürtdürüb təzədən düzəltdirəcəyəm. Yağış yağanda sən bir bizim evi görəsən! Yaman axır şoqərib.



Həsən:

– Evi düzəlt, qardaş, evi düzəlt! – dedi. – Evin axması pis şeydir. Ona dözmək olmaz.

Əli:

– Çuxurovada öldüm, – dedi. – Od tutub yandım. Havası adamı lap kabab eləyir. İmansızın yurdu. Bir daha ora getmərəm, tövbə! Qızdırması da canımdan çıxmayıb. Bu qış işim bitib!

Həsən:

– Qızdırma məndə də var, – dedi.

Əli:

– Çuxurovanın cəfasını çəkdim ki, – dedi, – arvadı evə gətirim, bir cüt öküz alım, anama da qalın gödəkcə tikdirim. Yoxsa oraya dözməkmi olar?

– Dözmək olmaz, – deyə Həsən təsdiq etdi. Sonra da Əlinin sözünü ağzında qoyub: – Qardaş, – dedi, – əgər yolu

belə getsək, sabah düz günortaçağı bizim kəndin çəmənliyinə çatarıq.

Əli:

– Orada... – dedi.

Həsən:

– Orada, o tərəfdə, düzənliyin ortasında...

Əli:

– Böyük...

Həsən:

– Bir ağac vardır, budaqları xışıldayır.

Əli:

– Ağacı keçəndən sonra...

Həsən:

– Ağacı keçəndən sonra, sol yanda...

Əli:

–Daşları bir-birinin üstünə yatmış...

Həsən:

– İçini də ot basmış bir qəbiristan görünür.

Qəbiristanın ortasındakı ağacı demədin, – deyə Əli xatırlatdı.

Həsən:

– Mən kənddən ayrıldığım gün bir nəfər qəbiristanın ortasında budaqları solğun, bilək yoğunluğunda bir ağac əkmişdi.

Əli:

– Hə, yazıq, tək-tənha bir ağac...

Həsən:

– Hə, elədir.

Əli:

– Əgər qurumamışsa...

Həsən:

– Yəqin ki, böyük bir ağac olmuşdur. – dedi. – Mən qəbiristanın yanından keçərkən birisi məni görər.

Əli onun dediyini düzəldərək:

– Birisi deyil, – dedi, – Körçənin oğlu Bəkir görər.

Həsən:

– Hə, Bəkir görər, çünki Bəkir daim gəlib, çeşmənin başındakı daşın üstündə oturur. Gözlərini şırıltı ilə axan suya dikərək düşünür, – dedi.

– Adətidir, deyilmi? – deyə Əli soruşdu.

Həsən:

– Hə, adətidir, – dedi.

Əli:

– Bəkir gedib evə xəbər verər.

Həsən:

– Anam beli bükülmüş halda...

Əli:

– Əllərini dizlərinə dayaya-dayaya...

Həsən:

– Düşər yola, gələr məni qarşılamağa.

Əli dedi:

– Bəs uşaq?

Həsən:

– Gəl, bir az burada oturaq, – deyə təklif etdi.

Oturdular. Həsən, balaca, zəif, qupquru qurumuş bir adamdı. İri dişləri dodaqlarının arasından görünürdü. Kirpikləri, tozlanmış kimi, ağ idi. Göy rəngli pambıq parçadan şalvar geymişdi. Şalvar təptəzə idi, ondan fabrik qoxusu gəlirdi. Şapkası da təzə idi. Başında birovuz kimi dururdu. Qırmızı güllü nazik gödəkcəsi ona çox yaraşırdı. Bir də yastıdaban Adana ayaqqabısı almışdısa da, yolda geyməyə qıymırdı. Xam göndən çarıq geymişdi. Çarığı kənddən gətirdiyi, lakin geyib köhnəltmədiyi qalın corabın üstündən geymişdi. Corab naxışlı idi.

Həsən:

– Amma yaman yorulmuşuq ha! – dedi.

– Hə, yaman yorulmuşuq, – deyə Əli təsdiq etdi.

Həsən:

– Qalx, – dedi. – Yolçuya bu qədər dincəlmək kifayətdir. Atalar nə demişlər...

Əli:

– Yolçu yolda gərək, – dedi.

Həsən:

– Kəndə girərik, qardaş. Mənim oğlum indi altı yaşındadır. Mən kənddən ayrılanda iki yaşı vardı. İndi...

Əli:

– İndi altı yaşındadır, – dedi.

Həsən dedi:

– Məni anamla birlikdə uşaq da qarşılar.

Əli:

– Uşaq sənə «ata» deyər. Ondan sonra da evə gedərik.

Həsən:

– Bütün kəndlilər bizim evə, başıma toplaşarlar. «Ay Həsən əfəndi, bir de görək Çuxurovada nə qədər pul qazandın?» deyə soruşarlar. Mən də cavabında deyərəm: «Heç nə qədər. Çuxurovada nə qazanc olacaq? Elə belə gedib qayıtdıq».

Əli dedi:

– Mən də ertəsi gün səhər tezdən yataqdan qalxaram, sənin ananın bişirdiyi qurut aşını yeyərəm... Sonra da yola düşərəm...

Həsən:

– Sən yola düşəndən sonra mən də oğlumu yanıma salıb qonşu kəndə, ay buynuzlu bir cüt iri öküz almağa gedərəm. Sonra da çayın sahilindəki daşlı tarlanın daşlarını bir-bir təmizlərəm...

Əli:

– Sonra da tarlanı dalbadal iki-üç dəfə şumlarsan. Çuxurova tarlaları kimi. Torpağı un kimi elərsən. Sonra da əkərsən, – dedi.

– Sonra bir əkin olar ki, gəl görəsən...

Əli:

– Anamın gödəkcəsini, – dedi, – gedib Köksündə dərziyə tikdirəcəyəm.

Həsən Əliyə tərəf əyildi. Onun nəfəsini duydu.

– Sənin, – dedi, – kənddən ayrıldığın nə qədərdir?

Əli:

– Üç il, – dedi.

Həsən:

– Kəndə çatan kimi ilk işin nişanlını evə gətirmək olsun, – dedi.

Əli:

– Hə, yazıqcığaz məni çox gözləmişdir. Bu il altıncı ildir ki, nişanlanmışıq. Kəndə çatan kimi pulları sayacağam atasının ovcuna... İkinci gün...

Həsən:

– Hə, qardaş, bax bunu yaxşı elərsən, – dedi.

Əli:

– Çuxurovada çəkdiyimi bir gündə unudaram.

Yoxuşa çıxdıqları üçün söhbəti kəsmişdilər. Yoxuşu çıxıb təpədən enən kimi qarşıda uzaqlara uzanıb gedən bir düzənlik gördülər. Uzaqda, düzənliyin ortasına sıx duman çökmüşdü.

Yolun kənarından bir səs eşidib dayandılar. Tüfəng çaxmağının şaqqıltısı da eşidildi.

– Qımıldanmayın, – deyə kim isə çığırdı.

Həsən yavaşca:

– İşimiz bitdi, – dedi.

– Hə, işimiz bitdi, – deyə Əli təkrar etdi.

Həsən:

– Gəl qaçaq, – dedi. – Vurursa, qoy vursun. Öldürülmək soyulmaqdan yaxşıdır. Güllə dəyməzsə, evimizə yetişərik.

– Qaçaq, – deyə Əli razılaşdı.

Qaçmağa başladılar. Arxalarından güllə yağdı. Onlar çığıraraq yerə sərildilər.

Bayaqkı səs yenidən eşidildi:

– Yerinizdən tərpənməyin. Gəlirik.

Əli ilə Həsən uzandıqları yerdə qımıldanmadan qaldılar. Qorxudan qımıldanacaq halları da qalmamışdı.

Məmməd, Cabbar, Rəcəb çavuş qaça-qaça gəlib onların başlarının üstünü kəsdirdilər.

Məmməd:
– Qalxın ayağa, – dedi.
Ölü kimi, yavaş-yavaş ayağa qalxdılar.
– Haradan gəlirsiniz? – deyə Məmməd xəbər aldı.
– Çuxurovadan gəlirik, qardaş, – deyə Həsən cavab verdi.
Əli:
– Hə, oradan gəlirik, – deyə təsdiq etdi.
Cabbar gülərək:
– Elə isə çox pul qazanmısınız, – dedi. – Sizlər olmasanız, bizlər acından ölərik. Çıxarın pulları.
Həsən:
– Məni öldürün, – dedi. – Düz dörd il...
– Çıxarın, – deyə Cabbar israr etdi.
Həsən:
– Vur öldür məni, ağam, – dedi.
Əli:
– Mənim nişanlım düz altı ildir ki, gözləyir, – dedi. – Nə olar ki, vur məni öldür.
– Düz altı ildir, – deyə Həsən təkrar etdi.
Cabbar əlini Həsənin qoltuğunun altına soxdu, oradan balaca bir bağlama çıxartdı. Bağlama tərdən islanmışdı, elə bil suya düşmüşdü. Bağlamanı açdı.
İçindən bir müşəmbə çıxdı. Müşəmbənin içində kağız pul vardı.
Cabbar:
– Bir gör, nə çox puldur! – dedi. – Necə də gizlətmişdir?
Həsən:
– Daya tüfəngini ağzıma, atəş aç. Öldür məni, – dedi.– Oğul-uşağımın yanına əliboş gedə bilmərəm.
Əli:
– Düz altı ildir, – dedi. – Heç mümkünü yoxdur. Məni vurub öldürün. Mən gedə bilmərəm.
Həsən dedi:
– Düz dörd il Çuxurovanın zəhər kimi suyunu içdim. Qızdırması hələ də canımdadır.

Əli:
– Əl-ayağınızdan öpüm, öldürün məni, – dedi.
Həsən:
– Öldürün, – deyə təkrar etdi.
Məmmədin gözləri yaşla dolmuşdu.
Məmməd şəfqətlə:
– Mənə baxın, – dedi. – Sizin pulunuza heç kəs toxunmayacaq. Cabbar, ver onun pulunu. Al pulunu.
Həsən inanmadı. Qorxdu. Titrəyən əlini uzatdı. Pulu aldı. Nə deyəcəyini bilmirdi.
– Allah sizə uzun ömür versin, – deyə bildi. Sonra da ağlamağa başladı.
– Uzun ömür, – deyə Əli təkrar etdi.
Məmməd sözünə davam edərək:
– Qulaq asın, sizə nə deyirəm. Çanaxlı düzündən keçməyin. Dəli Durdunun dəstəsi ordadır. Sizi lüt soyundurar, – dedi. – İndi isə yaxşı yol. Sən də, qardaş, inşallah nişanlına qovuşarsan.
Məmmədin səsi kəsildi. Daha nə isə demək istəyirdi. Deyə bilmədi.
Həsən uşaq kimi, hıçqırtı ilə ağlayırdı. Ağlaması heç cür dayanmırdı. Gedərkən:
– Sağ olun, – dedi, – sağ olun, qardaşlar. Xoşbəxt olun. Allah sizi bu dağlardan qurtarıb, sevdiklərinizə qovuşdursun.
Həsən gedir, geriyə dönüb bir daha dua edir, yenə gedirdi.
Əli də:
– Qovuşdursun, – deyə təkrar edirdi.
Onlar uzaqlaşıb gözdən itdilər.
Həsənin ağlaması hələ də kəsilməmişdi.
Əli:
– Bəsdir, ay Həsən, – dedi. – Niyə ağıçı kimi hey ağlayırsan?
Həsən:
– Bu dünyada nə qədər yaxşı adamlar var! – dedi. – Bir tikə boyu olan bu qaçaq oğlana baxsana! O olmasaydı, o div kimi hərif pulumuzu əlimizdən alacaqdı.

Əli:

– Yox. Almazdılar, – dedi.

Həsən:

– Çanaxlı düzündən keçib getməsək, bizim kəndə ancaq iki gün sonra çata bilərik, – dedi.

Əli:

– Onda bəs nə edək? – dedi.

Həsən:

– Çanaxlı düzünü bütöv mənə versələr, – dedi, – yolumuz iki gün deyil, iki ay da uzansa, mən yenə də oradan keçmərəm.

Əli dedi:

– Elə isə onda gəl, oturub bir yaxşıca yorğunluğumuzu alaq. Bundan sonra daha yol ilə getməyək. Kənardan gedək.

Onlar oturdular.

Məmməd gedənlərin arxasından:

– Pullarını aldıqdan sonra onları öldürsəydik, sevinərdilər, – dedi.

Cabbar dedi:

– O uzunboylusu «öldürün» deyə necə yalvarırdı?

Məmməd:

– Kim bilir, nə kimi ümidlərlə işləmişlər? – dedi.

Cabbar dedi:

– Nişanlısı tam altı ildir onu gözləyirmiş.

Məmməd:

– Çanaxlıdan keçsəydilər, Dəli Durdu onları hökmən soyardı!

Cabbar:

– Bu Dəlinin yaşaması haramdır, amma...

Onlar gedib əvvəlki yerlərində oturdular. Bu işə heç qarışmayan Çavuşun sarılı boynu bir tərəfə əyilmişdi.

Çavuş gərnəşə-gərnəşə:

– Qəribə bir halım var, uşaqlar, – dedi. – Ürəyimdə bir soyuqluq, bir titrəmə hiss edirəm. Əgər ölsəm... – Çavuş dediyinə peşman olubmuş kimi susdu.

Məmməd:

– Bu cür yaradan adama heç şey olmaz, – dedi.

– Başını qoy, bir azca yat, – deyə Cabbar məsləhət gördü.

Çavuş yatmağa çalışaraq gözlərini yumdu.

Aradan bir xeyli keçdikdən sonra Məmməd Cabbara böyük bir sirr açırmış kimi, özünü onun yanına verdi.

– Səninlə biz qardaşıq, Cabbar, – dedi. – Elə deyilmi, qardaş?

Cabbar sevindi:

– Buna nə şübhə ola bilər, qardaş? – dedi.

Məmməd dedi:

– Maraqdan az qalır bağrım çatlasın. Ürəyim od tutub yanır, qardaş.

Cabbar:

– Dərdini danış, qardaş, çarəsini birlikdə axtaraq, – dedi.

Məmməd:

– Mən bu işi tutandan bəri aradan aylar keçib, – dedi.– Eşitdik ki, Abdi ağanı yaralamışam. O ölməmişdir. Görəsən, Xətcənin başına nə gəldi? Anamın başına nə gəldi? Az qalır bağrım çatlasın. Bu Dəlinin ardına düşüb soyğuna, çarpışmadan çarpışmaya getdim... Heç çür vaxt tapıb onlardan xəbər tuta bilmədim...

Cabbar dedi:

– Kəndə gedib öyrənərik, qardaş. Bunun fikrini niyə çəkirsən?

Məmməd:

– O imansız ölməmişdir, – dedi. – Yəqin ki, Xətcəyə bir pislik eləmişdir. Ürəyim nə isə çox narahatdır... sancır, sanki orada bir yara var... Ürəyim mənə deyir: «Durma, Məmməd, get!»

Cabbar:

– Qoy bu Çavuşun yarası bir babat olsun, dərhal gedərik, – dedi.

Məmməd:

– Cabbar qardaş, ürəyim: «Durma get!» deyir.

### XIII

*Çıxartdılar Hələfənin düzünə,*
*Kəlləsi yoxdur ki, baxam üzünə.*
*Məndən salam söylə bəyin qızına.*
*Nənəylə, nənəylə, İraz nənəylə*
*Çıx dağlar başına, mənə əl eylə.*

*Nukrağı deyərsən Ofunun dağı,*
*Dərdlərə dərmandır qartalın yağı.*
*Ayağına düşdüm, Bəsninin bəyi.*
*Nənəylə, nənəylə, İraz nanəylə*
*Çıx dağın başına, ordan əl eylə.*

Qucağında doqquz aylıq körpəsi olan İraz iyirmi yaşında dul qaldı. İraz ərini çox sevərdi.

Ərinin tabutu başında:

– Hüseyndən sonra, – dedi, – kişi mənə haram olsun.

Dediyinin üstündə durdu. Ərə getmədi. Əri öləndən bir neçə gün sonra İraz körpəsini qohumlarından bir qadına tapşıraraq, cüt sürməyə getdi. Tarlanı ərinin yarımçıq qoyduğu yerdən şumlamağa başladı. Bir ay içərisində tarlanı şumladı, toxum səpib qurtardı.

Yay gələndə də məhsulunu təkbaşına yığdı. Güclü, qüvvətli, gənc idi. Heç gileylənmədi. İraz körpəsini qucağına alar, onu oynada-oynada kəndi gəzərdi:

– Məgər əmiləri baxmasa, mənim körpəm böyüməzmi? Mənim Rzam böyüməzmi? – deyərdi.

Beləliklə, o, uşağın əmilərinə acıq verirdi.

Böyük əmi İrazla evlənmək istəyirdi.

İraz isə deyirdi:

– Ərə getməyəcəyəm. Qoymayacağam ki, Hüseynin yatdığı yatağa başqa kişi girsin. Qiyamətədək yaşasam da, ərə getməyəcəyəm.

– İraz, – deyirdilər, – bu da sənin ərinin qardaşıdır. Yad adam deyil. Uşağın əmisidir. Ona öz doğma övladı kimi baxar...

İraz heç cür razı olmurdu.

Bunun üstündə İraza kin bağlayan əmi Hüseyndən qalan tarlanı onun əlindən aldı. Halbuki tarlada heç bir haqqı yox idi. Ataları öləndən sonra üç qardaş onlara irs qalan torpaqları öz aralarında bərabər bölmüşdülər. Bu parça da İrazın əri Hüseynə düşmüşdü. İndi İraz nə etsin? O, cavan qadındır. Hökumət yolu, divanxana qapısı tanımazdı. Ona nə edirdilərsə, dinmirdi.

İraz torpaqsız idi, amma yenə də tab gətirirdi:

– Əmiləri imansızlıq eləsələr, mənim körpəm böyüməzmi? Mənim Rzam böyüməzmi? Məgər torpağı olmasa, böyüməzmi?

Yayda muzdurluq, qışda varlıların evində xidmətçilik etdi. Gününü boş keçirmədi. Uşağı elə bil nur parçası idi. Balasına çaldığı layla yanıqlı bir mahnı kimi səslənirdi:

– Mənim yetimim məgər böyüməzmi?

Uşağı böyüdü.

Onlar nə üçün yoxsulluq içindədirlər? Nə üçün torpaqsızdırlar? Uşaq bunun səbəbini hər gün anasından, kəndlilərdən eşidə-eşidə böyüdü. Ürəyində yanıqlı bir mahnı kök saldı. Bir ananın iztirablarını, gücünü, cəsarətini tərənnüm edən bir mahnı... «Mənim balam böyüməzmi?»

Rza iyirmi bir yaşına girmişdi. Fidan kimi. Çinar kimi, budaq kimi. Saqarköydə onun kimi at sürən, cıda oynadan, güllə atan, yallı gedən yox idi. Amma ana da, oğul da narahatdır... Ürəklərində ovunmaz dərdləri var. Heç bu da işdir, öz torpağın olsun, özün də get başqalarının qapısında muzdurluq elə, yardarlıq elə.

Saqarköyün torpaqları çox bərəkətlidir... Başqa kəndlərə nisbətən həm də genişdir. Böyük bir düzənlikdir. Düzənliyin lap ortasında Adaca deyilən çox böyük bir qaya parçası var. Bütün düzənlikdə əkinlər yaşıllaşmağa başlayanda Adaca qayası yaşıllığın ortasında ağappaq bir nöqtə kimi parıldar.

Adacanın dibindəki ən böyük tarlalardan biri Rzanın atasının tarlasıdır. İllərdən bəridir ki, bu tarlanı əmisi əkib-biçir. Bax, bu bərəkətli, münbit torpaq həmişə Rzanın xə-

yalındadır. Rza bu torpaq barəsində nə qədər çox düşünürsə, onun qəzəbi bir o qədər artır, güclənir... Haraya getsə, harada cüt sürsə, gözləri Adaca qayasının dibindədir. Adaca qayasının dibi bir eşq kimi onun qəlbindədir.

Anası hər zaman, Allahın verən günü deyərdi:

– Ah, oğul! Adacanın dibindəki tarla... Atan bu tarla ilə bizi gül kimi dolandırardı. O tarlanı əlimizdən alanın görüm gözləri kor olsun...

Rza boynunu bükər, xəyala dalardı. O, həmin bərəkətli torpağın qoxusunu duyardı... Torpağın həsrəti qəlbini yaxıb-yandırardı.

Anası deyərdi:

– Sənin o imansız əmin, o insafsız əmin!.. Hamısı burnundan töküləcək.

Axır günlər Rza çox fikirli idi. Heç belə olmamışdı. Hər səhər çox erkən oyanır, birbaşa Adacaya yollanır... Adacanın dibindəki tarlaya gəlib çatır. Bir daşın üstündə oturur, xəyala dalır... Əkinlər dirçəlmişdir. Yerdə böcəklər gəzir. Gün doğarkən torpaqdan buxar qalxır. Buxarlı torpaq həsrəti, çox yaman həsrətdir. Rza əlini yumşaq torpağa soxur. Torpaq ılıqdır. Barmaqlarının arasından qızılı torpaq yerə tökülür. «Bu torpaq mənimdir» deyir. Bütün bədənində xoş bir ürpərmə duyur... «Bu torpaq mənimdir. Amma iyirmi ildir ki, onu başqası əkir, başqası biçir...»



Rza ayağa qalxır. Yorğun olsa da, lakin qəti bir qərara gələrək evə qayıdır.

– Səhər erkəndən indiyədək hardaydın? – deyə anası xəbər alır.

Cavab vermir. Qaşqabaqlıdır.

Bu hal tam iki ay davam etdi. Əkinlər dizə qədər qalxdı. Açıq-sarı tarlalar tünd-yaşıl rəng aldı.

Bir gün Rza:

– Ana, – dedi, – bu torpaq bizimdir?

– Bizimdir, oğul, – deyə anası cavab verdi. – Bizim olmamış, kimin olacaq?

– Mən hökumətə müraciət edəcəyəm.

– Mən də elə bu günü gözləyirdim.

– Yaşlı kişilərdən soruşdum. Babamdan qalan torpağı atam sağlığında əmilərimlə bölüşmüşdür. Bölüşməmiş olsa belə, bizimki bizim olmalıdır. Babamdan mənə qalacaqmış.

– Elədir, oğul, bizimki bizim olmalıdır.

Bu məsələ miras məsələsi olduğu üçün məhkəmə o qədər uzun sürmədi. Adacanın dibindəki bərəkətli torpaq Rzaya çatdı. İllərdən bəri möhnət altında əzilmiş gənc Rza sevgilisinə, ata-anasına qovuşurmuş kimi, öz tarlasına qovuşdu. Torpaq ona qaytarıldığı zaman yay mövsümü idi. Torpaq istidən qovrulurdu. Əkinlər biçilmişdi, kövşən par-par parıldayırdı.

Rza yay ikən yeri şumlamaq üçün bir cüt öküz tapdı. Öküzləri kotana qoşdu. Torpaq kotanın ağzında xırdalanırdı. Rzanın bütün dərdi tezliklə tarlanı şumlayıb qurtarmaq, öz tarlasını şumlanmış, toxum səpilməyə, birə otuz, birə qırx məhsul verməyə hazır görmək idi. Yay zamanı yer şumlanırkən iki kərə cüt qoşulur: bir kərə dan yeri sökülməmişdən iki saat əvvəl, ikinci kərə günortadan sonra, qərb yeli kəsdikdən sonra. Dan yeri sökülməmişdən əvvəl qoşulan cüt gün qızıncaya qədər davam edir. Gün yaxşıca qızandan sonra daha cüt sürülmür. Öküzlərin üstünə böyələk qonar, onlar daha yeriməzlər. Gün əyilənədək bir ağacın kölgəsində dincələrlər. Günortadan sonra, Aralıq dənizinin üzərində ağ buludlar yüksəlirkən yenidən cüt qoşular. Bu, ay işığı varsa, gecəyarısına qədər, yoxsa hava qaranlıqlaşana qədər davam edər.

Ay işığı vardı. Rza əvvəlcə dan yeri sökülməmişdən gün qızıncaya qədər, ikinci kərə isə günortadan sonra başlayıb gecəyarısına qədər cüt sürürdü. İsti bilmir, yorğunluq bilmirdi. Bəzən də özünü saxlaya bilməyib səhərə qədər sürürdü. Sürülmüş yumşaq torpaq ay işığında daha gözəl görünürdü. Gecə... Sakitlik... Kotanın torpağı yararkən çıxardığı səs daha yaxşı eşidilirdi.

İraz fidan bir oğul böyütməsi ilə, oğlunun insafsız əmilərindən öz torpağını qoparıb alması ilə fəxr edirdi. Bu günlər kəndin içində çox sevinə-sevinə gəzirdi.

Ondan Rzanı xəbər alanlara:

– O öz tarlasını şumlayır, – deyə cavab verirdi.

Ayın on dördüdür. Ay bədir halındadır. Bütün tarlalara, xüsusən Rzanın sürülən torpağına nur saçır. Sərincə yel əsir. Rzanın öküzlərinin ayaqları torpağa xeyli girdiyindən kotanı aramla çəkirlər. Ayın bol işıq saçmasına, qalaylanmış kimi görünən torpağın parıldamasına baxmayaraq, Rzanın bərk yuxusu gəlir.

Rza yorğundur. Öküzləri buraxır, bir torpaq qalağını başına yastıq edib yatır. Sürülmüş geniş ovada, sanki ovaya bir parça qara kağız kimi yapışmış görünən tarlanın ortasında yumru bir ləkə görünürdü...

Səhər Rzanın qohumlarından bir oğlan, on bir yaşlı Durmuş, hər günkü kimi, ona yemək gətirir. Gün yaxşıca qızmışdır. Ətraf od tutub yanır. Oğlan, hər günkü kimi, ağacların dibində Rzanı axtarır. Budur, indi Rza onun gəldiyini görüb ayağa qalxacaq, gülə-gülə ona tərəf gələcəkdir. Gətirdiyi yeməyi hələ onun əlindən almamış, iki qoltuğunun altından yapışıb onu havaya qaldıracaqdır. Amma Rza görünmür. Oğlan çaşıb qalır. Ağacların dibini bir-bir axtarır. Yoxdur. Sonra tarlanın ortasında uzanıb qalmış Rzanı görür. Öküzlər də yoxdur. Oğlan Rzanın yanına gələndə özünü itirir. Əlindəki bağlama yerə düşür. Oğlan geri dönüb çığıra-çığıra qaçmağa başlayır. Oğlan kəndə girəndə nəfəsi təngləşmişdi. Az qalırdı yıxılsın. Çığırırdı, amma səsi fitə oxşayırdı. Oğlan evlərinin qabağına çatan kimi özünü yerə sərdi. Qadınlar başına yığışdılar. Qorxusu keçsin deyə dilini dartdılar. Soyuq su içirtdilər. Başına su tökdülər. Oğlan azacıq özünə gələn kimi:

– Rza ağam qan içində yıxılıb qalmışdı. Yerə də çoxlu qan axmışdı... – dedi. – Ağzından da qan gəlmişdi. Onu belə görüncə, qaça-qaça gəldim.

Qadınlar məsələni başa düşdülər. Başlarını aşağı sallayıb susdular. Bu xəbər bir an içərisində bütün kəndə yayıldı. İraz da xəbəri eşitdi. O, saçlarını yola-yola, çığıra-çığıra yüyürür,

kəndlilər də onun ardınca qaçırdılar. Onlar gəlib tarlaya çatdılar. Rzanın başı torpaq qalağından düşüb, yana sallanmışdı.

– Yetim balam, gün görməyən balam! – deyə İraz özünü oğlunun üstünə saldı.

Rza dizlərini sinəsinə yığmış, qıvrılıb qalmışdı. Qabağındakı çuxura qan dolmuş, gölməçə əmələ gətirmişdi. Laxtalaşmış qanın üstünda böcəklər, milçəklər qaynaşırdı... Qızmar günəş sanki qanı buxarlandıraraq, qoxusunu ətrafa yayırdı. Ölünün üstündə bir sürü milçək, par-par parıldayan yaşıl rəngli milçək uçuşur... Qan köpüklənməmiş, kərpic kimi donmuşdu. Amma bu istidə sanki köpüklənirdi, yaxud da adama belə gəlirdi.

– Yetim balam, gün görməyən balam!

Qadınlar, uşaqlar, kişilər ölünün ətrafında dövrə vurub dayanmışdılar. Qadınların çoxu ağlayırdı.

– İgid oğlum, sənə kim qıydı?

İraz özündən getmişdi. Çırpınıb çapalayırdı. Adamların ürəyini xarab eləyirdi.

İki qadın gəlib İrazı ölünün üstündən qaldırmaq istədilər. İraz ölüdən bərk-bərk yapışmışdı. Ayıra bilmədilər.

– Məni də diri-diri, Rzamla birlikdə basdırın, – deyirdi.

O gün İraz axşama qədər oğlunun ölüsü üstündə qaldı. Hadisəni qəsəbəyə xəbər verdilər. Jandarmlar, prokuror, doktor gəldi. Jandarmlar gözləri qan çanağına dönmüş, ağlaya-ağlaya göyərmiş qadını sürüyərək ölünün üstündən qaldırdılar. Qadın torpağa sərildi, ölü kimi hərəkətsiz qaldı. Uzun zaman səsi-səmiri çıxmadı.

Yerə yapışmış kimi torpağın üstündə uzanıb qalan qadını, tələb olunduğu kimi, prokurorun yanına gətirdilər.

– Ay arvad, sənin oğlunu kim öldürdü? – deyə prokuror soruşdu. – Kimdən şübhələnirsən?

Arvadın üzü gərildi. Sonra heç bir şey görməyən donuq gözləri ilə prokurora dik-dik baxdı.

– Sənin oğlunu kim öldürdü? Kimdən şübhələnirsən? – deyə prokuror bir də soruşdu.

– O imansızlar, – deyə İraz cavab verdi. – O imansızlar... O imansızlardan başqa kim öldürəcək? Əmisi oğlu öldürmüşdür. Torpaq üstündə.

Prokuror torpaq məsələsini yaxşıca təhqiq edib, protokol yazmağa başladı.

Ölünün ətrafına toplaşmış camaat dağılışıb getdi. Üzərinə hüzn çökmüş ovada üstünə yaşıl milçəklər qonmuş ölü, qaçmış öküzlərini gözləyən boş boyunduruq ilə kotan qaldı. Qara, şirəli torpaq, sapsarı ovanın ortasında bir əl işi kimi işıldayırdı.

Rzanın əmisi oğlu Əlini qatil hesab edib tutdular, polis məntəqəsinə apardılar. Əli verdiyi ifadədə o gün kənddə olmadığını, Öksüzlü kəndində toyda olduğunu bildirdi; göstərdiyi şahidlər də bunu təsdiq etdilər. Öksüzlü kəndi ilə Saqarköy arasında dörd saatlıq məsafə vardı. İraz və bütün kəndlilər bilirdilər ki, Rzanı öldürən Əlidir. Torpaq üstündə.

Kəndlilər də çaşıb qaldılar, İraz da. İki gün sonra Əli əl-qolunu yelləyə-yelləyə kəndə gəldi. İraz deyirdi ki, Əlini hökmən asacaqlar. Belə düşünüb təsəlli tapırdı. Oğlunu öldürən adamın əl-qolunu yelləyə-yelləyə kənddə gəzdiyini eşidəndə, özündən getdi, dəli kimi oldu. Evdəki baltanı götürüb birbaş Əligilin evinə cumdu. Oğlunu öldürəni hökmən öldürəcəkdi. Əligil İrazın əli baltalı onlara tərəf gəldiyini görəndə, qapılarını bağlayıb cəftəsini vurdular. İraz qapını bağlı görəndə, başladı qapını baltalamağa... Əli içəridə deyildi. İçəridə olsaydı, qapını bağlamazdı. İçəridə Əlinin anası, atası, iki qız və bir də kiçik uşaq vardı. Qapı az qalırdı sınsın. İraz qapını sındırıb içəridəkiləri balta ilə öldürmək üçün baltanı var gücü ilə qapıya endirirdi. Taqqıltını eşidib gələn kəndlilər evin ətrafına yığışmışdılar. İraza yaxınlaşmırdılar. Daha doğrusu, yaxınlaşmağa ürəkləri gəlmirdi. Qoy oğlunun intiqamını öz əli ilə alsın...

Arabir bir kişi:

– Eləmə, anam, eləmə, bacım. İçəridəkilərin nə günahı var? Əli evdə yoxdur, – deyirdi. – Vaz keç!

İçəridən də Əlinin atası:

– Əli içəridə deyil. Çıx get, İraz! – deyə bağırırdı.

Necə oldusa, birdən Əli camaatın arasından ortaya atıldı, arxadan İrazı yaxaladı. Onun əlindən baltanı qapdı. Halsız qadını var gücü ilə bir tərəfə fırlatdı. Qadını təpikləməyə başladı. Kəndlilər gəlib, İrazı onun ayaqlarının altından aldılar.

Həmin günün gecəsi İraz Əligilin evini od vurub yandırdı. Kəndlilər evi söndürməyə çalışdıqları zaman, Əli atına minib jandarm məntəqəsinə yollandı. O gün səhərki əhvalatı və gecə də İrazın evlərini yandırdığını xəbər verib şikayət etdi. Evin hələ də yanmaqda olduğunu əlavə etdi.

Əli jandarmlarla birlikdə kəndə girəndə hava işıqlanırdı. Bunu görən kəndlilər Əlinin başına yığışdılar.

– Eləmə, Əli, – dedilər, – yazığın qədd-qamətli bir oğlu əlindən getmişdir, ürəyi yanıqlıdır. Nə etdiyini yazıq özü də bilmir. Üstəlik sən də onun yarasına istiot, duz səpmə. Yazığı dustaqxanalarda çürütmə.

Kəndlilər yanğını söndürmüşdülər.

Əli onların sözünə qulaq asmadı. Jandarmlar İrazı qabaqlarına salıb jandarm məntəqəsinə apardılar.

İraz ifadəsində dedi:

– Qapılarını da sındırdım. Hamısını mən eləmişəm. Əgər içəri girə bilsəydim, hamısını bir-bir baltadan keçirəcəydim. Olmadı. Oğlumu, yeganə yetimimi öldürənlərin hamısını öldürsəm, çoxmu olar? Evi də mən yandırdım. Özü də gecə odladım ki, hamısı içəridə yanıb kül olsun. Namussuz kəndlilər sakit durarlarmı? Xəbər verdilər. Evi söndürdülər. Rzamın əvəzini çıxmaq üçün bunu çoxmu görürsünüz? Mənim yetimim bir məmləkətə dəyərdi. Heç bilirsinizmi mən onu necə böyütmüşəm? Onun əvəzini çıxmaq üçün elədiyimi çoxmu görürsünüz?

Prokurorun yanında da, məhkəmədə də İraz eyni ifadəni verdi. Onu həbsə alıb, dustaqxanaya göndərdilər, o yenə də öz sözünün üstündə durdu. İraz hey deyirdi:

– Mənim oğlum bir kəndə, bir məmləkətə dəyərdi. Elədiyim çoxdurmu? Mənim oğlum... Çoxdurmu?

İrazı gətirib dustaqxananın bir otaqdan ibarət qadınlar kamerasına saldılar. İraz bunu heç gözləmirdi. Çinar kimi bir oğlanın ölümünün əvəzini çıxmaq üçün bir ev yandırmışdı. Bu haqsızlıq ona oğlunun ölümündən ağır gəldi. Başını qaldırıb heç yerə baxmırdı. Ayağını basdığı yeri görmürdü. Gözləri heç bir şey seçmirdi. Kamerada kor kimi, əl havasına gəzirdi. Kamerada özündən başqa adam olub-olmadığını sezmirdi. Bir küncdə «quyu dibinə düşmüş daş kimi» səssiz-səmirsiz oturmuşdu.

Başına süd kimi ağ yaylıq bağlardı. Qarayanız idi. İri, ala gözləri alışıb-yanardı. Kaman qaşları üzünə başqa bir gözəllik verərdi. Çənəsi zərif, üzü enli idi. Geniş alnına düşən azacıq qara telləri qıvrım-qıvrım idi. İndi isə saçları pərişandı. Sifəti uzanıb qapqara olmuşdu. Ağlamaqdan gözləri o qədər qan çəkmişdi ki, gözlərinin ağı görünmürdü. Çənəsi uzanmışdı. Dodaqlarının qanı qaçmışdı; susuzluqdan çatlamışdı. Yalnız baş yaylığı yenə də təmiz, süd kimi ağ idi.

İraz arabir deyirdi:

– Mənim sərvboylu oğlum. Bir ölkəyə dəyərdi. Mən oğlumun əvəzini çıxmaq üçün bir kəndi daşı ilə, torpağı ilə yaxıb-yandırsam, külə döndərsəm, böyük iş olar?

Xətcə bu yeni gələn qadından bir şey soruşa bilmirdi. Bu qadının gəlişinə çox sevindi. Bu tənha kameraya bir can yoldaşı gəlmişdi... Ürəkdən sevindi, amma sonra qadına yazığı gəldi. Kim bilir yazığın başına nə gəlmişdir? Bura fəlakət yeridir. Adam gərək heç kəsin buraya düşməsinə sevinməsin.

Xətcə bu yeni gələn qadından bəzi şeylər soruşmaq istəyirdi, amma dili gəlmirdi. Bu cür ölüm-dirim davası eləyən, can çəkişən adamlardan bir söz soruşmaq asan deyildir. Adam nə soruşacağını da bilmir. Xətcə də soruşa bilmədi. Qadına baxa-baxa qaldı.

Axşam oldu. Xətcə həyətdə manqal qalayıb buğda yarmasından şorba bişirdi. Soğan, qaxsımış yağ iyi verən şorbanı içəri gətirdi. Şorba xəfif-xəfif buğlanırdı. Şorba soyuyandan sonra Xətcə qorxa-qorxa İraza yaxınlaşdı:

– Xala, – dedi, – sən indi, yəqin ki, acsan. Sənin üçün azca şorba tökdüm. İç.

İrazın gözləri sanki görmürdü. Kor kimi baxırdı. Elə bil o, heç eşitmirdi də.

– Xala, – deyə Xətcə qorxa-qorxa təkrar etdi. – Xala, bu şorbadan bir az içsənə. Çox deyil, azcadır. İndi, yəqin ki, çox acsan.

İraz heç özündə deyildi. Gözlərində heç bir həyat əlaməti yox idi. Özü də elə bil daşa dönmüşdü. Gözlərini də qırpmırdı. Korlardan daha betər bir halda idi. Kor gözlərdə yenə bir görə bilmək təlaşı, istəyi, səyi sezilir. Bunda o da yox idi. Kar qulaqlarda bir hərəkət, bir gərilmə, bir şey eşitmək səyi olur. Bunda o da yox idi.

Xətcə onu yavaşca dümsüklədi:

– Ay xala!

Qadının sönük gözləri yavaş-yavaş dolanaraq Xətcəyə zilləndi. Xətcə özünü itirdi. Büzüşüb qaldı. Onun gözlərindən qurtulmağa çalışdı. Nə isə demək istədi, dili dolaşdı, deyə bilmədi. Mis kasanı qadının qabağında yerə qoyub özünü həyətə saldı. Nəfəsi kəsilmişdi.

Gözətçi gəlib qapını bağlayanadək həyətdə qaldı. İçəri girməyə, İrazı o vəziyyətdə görməyə qorxurdu. Daha doğrusu, ürəyi gəlmirdi. Qapı bağlanan kimi, qorxusundan titrəyə-titrəyə, İraza tərəf baxmadan, dərhal yatağına girdi. Bir müddət yatağında büzüşüb qaldı. Qaranlıq qovuşdu. Qalxıb lampanı yandırmadı. Hər gün qaranlıq qovuşar-qovuşmaz yandırardı. Bu gün isə lampanı yandırmağa əli gəlmirdi. Lampanı yandıran kimi, can çəkişən o qadının üzünü görəcəkdi. Qaranlıqdan da qorxurdu. Amma qaranlıq işıqdan yaxşı idi. Qaranlıq, heç olmasa, aralarında bir divar kimi dururdu.

O gecə Xətcənin gözlərinə heç yuxu getmədi. İlk işıq pəncərənin taxtaları arasından içəri sızan kimi yatağından qalxdı. İraz oturduğu küncdə divara xəfif bir kölgə kimi yapışmışdı. Qımıldanmırdı. Təkcə ağ baş yaylığı çirkli divarda işıqlı bir pəncərə kimi seçilirdi.

Günorta oldu. İraz yenə eyni vəziyyətdə qalmışdı. Axşam oldu, yenə elə. Xətcə bu gecəni də, birinci gecə kimi, qorxu içində, yarıyuxulu, yarıoyaq keçirtdi.

Səhər işıqlar pəncərədən sızarkən Xətcə gözləri şişmiş halda oyanaraq, İrazın yanına getdi.

Artıq o, hər şeyi qət etmişdi.

– Xala! – dedi. – Qurbanın olum, xala! Belə eləmə!

Qadının əllərini öz əlləri içərisinə aldı:

– Sən gəl belə eləmə, yaxşımı?

Qadın geniş açılmış gözlərini ona çevirdi. Gözlər solmuş, bütün işığını itirmişdi. Gözlərin heç ağı qalmamışdı, tamam qaraya çevrilmişdi.

Xətcə:

– Dərdini mənə söylə, xala, – dedi. – Sənə qurban olum, xala. Dərdsiz insan buraya düşərmi? Dərdsiz insanın burada nə işi var, elə deyilmi, xala?

– Nə deyirsən, qızım? – deyə İraz inildədi.

Xətcə İrazın ağzını açıb bir kəlmə söz deməsinə sevindi. Elə bil üstündən ağır bir yük götürüldü.

– Nə üçün beləsən, xala? Gələndən bəri ağzını açıb danışmırsan. Bir tikə də çörək yeməmisən.

İraz:

– Mənim oğlum bir məmləkətə dəyərdi. Mənim oğlum kəndin yaraşığı idi. Əvəz çıxmaq üçün elədiklərim çoxdurmu? – deyib susdu.

– Səni görən kimi mən öz dərdimi unutdum. Dərdin nədir, xala? Aç söylə.

– Oğlumu öldürənlərin evini yandırsam, qapılarını sındırsam, bu, çoxmu olar? Hamısını bir-bir öldürsəm, çoxmu olar? Parça-parça doğrasam...

Xətcə:

– Vay, xala can, vay. Onları görüm gözləri kor olsun, – dedi.

İraz:

– Kəndin yaraşığı idi, – deyə inildədi. – Hamısını öldürsəm, çoxmu olardı?

Xətcə:

– Vay ana, vay! – dedi.

İraz:

– Hələ bir üstəlik məni gətirib bura salmışlar, – dedi. – Oğlumu vuran isə əl-qolunu yelləyə-yelləyə kənddə gəzir. Mən ölməyim, bəs kim ölsün!

Xətcə dedi:

– Xanım xalam, sən acından öldün. Gələndən ağzına bir tikə qoymamısan. Mən indi gedib şorba bişirim.

Bu gün şorbaya bolluca yağ tökməyi qərara aldı. Xətcə buraya düşəndən bir ay sonra bəzi varlı dustaqların alt paltarlarını yumağa başlamışdı. Odur ki, bir azca pul yığmışdı. Bir qız uşağı dustaqlara bazardan azuqə alıb gətirirdi. Xətcə həmin qızı çağırdı, əlinə bir əlli quruşluq verdi.

– Get, bu pula yağ alıb gətir, – dedi.

Xətcə sevincindən uçurdu. Hər halda qadın danışmağa başlamışdı. Dərdini danışan adamı isə dərd tez öldürməz. Adam danışmayanda, dərdini içəridən çəkəndə, onun sonu fəlakətdir. Buna görə də Xətcə qadının danışmasına sevinirdi.

Xətcə nə qədər şən mahnı bilirdisə, bunları ürəyində dönə-dönə oxuyurdu. Manqala kömür doldurdu, yelləməyə başladı. Kömür dərhal qırmızı közə çevrildi. Xətcə bir tərəfdən yelləyir, bir tərəfdən üfürürdü. Qalaylanmış kiçik qazanına su doldurdu, manqalın üstünə qoydu. Şorba çox tez bişdi. Şorbanın bu qədər tez bişdiyinə Xətcə özü də təəccüb qaldı.

Xətcə şorbadan danışmağa başlayanda, İraz içərisində bir əzginlik, bir sıyrıntı duymuşdu. Ürəyi qazınırdı. Elə bil bağırsaqları, mədəsi bir-birinə yapışmışdı. Oğlu vurulduğu gündən bəri ağzına bir tikə vurmamışdı. Həyətdən burnuna ərimiş yağ, qızarmış soğan iyi gəldi. Qaynar yağın şorbaya tökülərkən cızıltısını da eşitdi.

Xətcə şorba ilə dolu mis kasanı gətirib İrazın qabağına qoydu:

– Hə, başla, xala, – dedi.

Əlinə də bir taxta qaşıq verdi. İraz əlində qaşıq olduğunu sanki unutmuşdu. Qaşıq elə bil indicə əlindən düşəcəkdi.

Xətcə İrazın şorbanı içməyəcəyindən qorxaraq:

– Hə, xala, başla, – dedi. – Nə olar, şorbanı iç!

İraz qaşığı yavaş-yavaş şorbanın içinə saldı.

İraz şorbanı içib qurtarandan sonra Xətcə:

– Xala, – dedi, – orada, qabda su var. Üzünü yu. Özünə gələrsən.

İraz Xətcənin dediyini elədi. Gedib üzünü yudu. Sonra Xətcəyə:

– Çox sağ ol, gözəl qızım, – dedi. – İnşallah, muradına çatarsan.

Xətcə:

– Kaş ki, – dedi. – Ah! Kaş ki, elə olsun, xanım xalam. Ah, kaş ki, sən deyən olsun!

Xətcə keçib İrazın yanında oturdu və başına gələnləri bircə-bircə ona nağıl elədi.

– Hə, xanım xalam, – dedi, – başıma belə bir iş gəlmişdir. Dünyada heç bir şey istəmirəm, təki Məmmədimdən bir xəbər gəlsin. Buraya düşdüyüm düz doqquz aydır. Nə gələn var, nə gedən... dosdoğma anam, qarnından çıxdığım anam da bircə kərə gəlmişdir. Hə, xanım xalam, ilk günlər bu qəfəsdə ac-acına qaldım. Sonralar dustaqların paltarlarını yumağa başladım... Hə, xanım xalam... Bir xəbər gəlsəydi... Bir biləydim ölüb, ya sağdır. İstəsələr, sonra qoy məni lap assınlar. Vecimə deyil. Təki Məmmədimdən bir xəbər gəlsin...

Günlər keçdikcə İrazın süstlüyü, sərsəmliyi azalırdı. Sonralar dustaqlardan öyrəndi ki, məhkəmədə: «Qapını balta ilə mən sındırdım. O bic gəlməsəydi, içəridəkilərin hamısını öldürəcəkdim. Evə də ona görə od vurdum ki, içəridəkilər yansın» deməməli idi. Birisi on adam öldürə bilər, isbat edilməzsə, yəni bunu görən, bilən olmazsa, qanuna görə qatili tutmaq olmaz. İraz ilk günlərdə bu haqsızlığı heç cür başa düşə bilmirdi. Sonra get-gedə dərk etdi. Bundan sonrakı məhkəmələrdə verdiyi bütün ifadələrdə hər şeyi inkar edirdi.

– Ah, – deyirdi, – bayırda olsaydım, oğlumu Əlinin öldürdüyünü hökumətə sübut edərdim. Ah!

Xətcə ona təsəlli verməyə çalışırdı:

– Çıxarsan inşallah, İraz xanım xalam. Çıxarsan, oğlunu öldürəni hökumətə təslim edərsən. Görəsən, mənim halım

necə olacaq? Gəncliyim necə olacaq? Yəqin ki, burada çürüyəcəyəm. Mənə şər atıb şahidlik edənlər istədiyin qədərdir.

Aradan günlər keçdi. İrazla Xətcə ana-qız kimi oldular. Bəlkə də, ana-qızdan daha yaxın oldular.

Bir udum suyu da bir-birindən ayrı içmirdilər. İndi ikisinin də dərdi bir ümumi dərd olmuşdu. Xətcə Rza barəsində hər şeyi ən incə nöqtəsinə qədər bilirdi. Bilirdi ki, Rza boylu-buxunlu bir oğlanmış, qara gözləri, qələm kimi barmaqları varmış, yaxşı yallı gedərmiş. Xətcə Rzanın uşaqlığının necə keçdiyini, uşaqlıqda nələr etdiyini, İrazın onu nə məşəqqətlərə qatlaşaraq böyütdüyünü, tarla məsələsini, son cinayəti ətraflı bilirdi. Sanki Xətcə bütün bunların şahidi olmuş, bunları öz gözləri ilə görmüşdü. İraz da həmçinin Məmməd barəsində hər şeyi, uşaqlıqda Xətcə ilə birlikdə evcik düzəltdikləri gündən bəri Məmmədin başına gələnlərin hamısını bilirdi.

Ağır günlərdə ikisinin dərdi də, sevinci də bir olmuşdu. İndi onlar yalnız bir adam barəsində düşünürdülər. O da Məmməd idi.



İrazla Xətcə bütün günü axşamadək, gecəyarısınadək corab toxuyurdular. O qədər toxuyurdular ki, az qalırdı gözləri kor olsun. Toxuduqları corablar qəsəbədə şöhrət qazanmışdı: «Nişanlısını öldürən qız ilə, oğlu vurulan qadının corabı...» Xətcə ilə İraz corablara ən təsirli naxışlar vururdular. Onlar başqa corablardan naxış götürmürdülər, bütün naxışları özləri yaradırdılar. Zəhər kimi acı rənglər, acı naxışlar seçirdilər. Qəsəbə bina olunan gündən bəri naxışın bu qədər təsirlisini, acısını, gözəlini görməmişdi. Qəsəbədə hamı belə deyirdi.

Dustaqxanaya ilk dəfə düşən adam özünü itirir. Dünyadan tamam ayrı düşmüş kimi olur. Sanki başqa bir aləmdədir. Ucsuz-bucaqsız bir meşədə qeyb olmuşdur. Elə bil bundan da betər bir vəziyyətdədir. Torpaqla, evlə, ailə ilə, dostla, sevgi ilə, hər şeylə bütün əlaqələri kəsilmiş, onlar-

dan çox uzaq düşmüşdür. Dərin, tənha bir boşluqda hərlənir. Bundan başqa yeni dustaq hər şeyi: daş-torpağı, divarı, azacıq görünən göy üzünü, qapını, dəmir barmaqlıqlı pəncərələri də özünə düşmən sayır. Hələ üstəlik pulu da yoxsa, bir küncdə boynubükülü qalasıdır.

Xətcə ilə İrazın bu cür gecə-gündüz, gözləri gücdən düşənədək corab toxuması əbəs deyildi. Qazandıqları pulun bir quruşuna da toxunmurdular. Özlərinə xərcləmirdilər. Bir neçə aydı ki, ancaq dustaqxanada verilən yeməklə keçinirdilər.

Hər necə olsa, Məmməd gec-tez gələcəkdi. Bəlkə, sabah, bəlkə də, bir ay sonra. Hökmən tutub buraya gətirəcəkdilər. Ona pul lazım olacaqdı. O, bir küncdə boynubükük qalmasın deyə, qadınlar gözlərinin nurunu əsirgəməyib corab toxuyurdular...

İraz:

– Qızım, – deyirdi, – bizim Məmməd bizim kimi sıxıntı çəkməyəcək. Burada biz varıq.

Xətcə öyünərək:

– Hə, biz varıq, xala, – deyirdi. – Biz varıq.

– Bizim Məmmədin burada pulu da var. O gələnə qədər yenə də qazanacağıq. Gəldiyi gün pulun hamısını ona verərik. Ona-buna möhtac olmaz. Camaatın əlinə baxmaz.

Gecələr yorğun, gözlərində ağrı duyaraq, yataqlarına girib, uzun-uzadı söhbət edir, dərdləşirdilər. Məmməd barəsində ağıla-xəyala sığmayan cürbəcür ehtimallar söyləyirdilər. Nələr uydururdular!

Ən axırda Xətcə anasından gileylənirdi:

– Bu anamı bir görürsən, – deyə başlayırdı. – Mənim anam da məgər anadır? Axı mən ondan nə istədim ki? «Ana, – dedim, – qulun-kənizin olum, ana, Məmmədimdən mənə bir xəbər gətir. Səndən başqa heç bir şey istəməyəcəyəm». O gedən oldu, daha gəlmədi.

– Kim bilir, yazıq anana nə olmuşdur? Nələr gəlmişdir onun da başına?

İraz həmişə ananı bu cür müdafiə edirdi.

Hər gecəki kimi, yenə də gecəyarısı yataqlarına girdilər. Yataqları nəmdən tamam islanmışdı. Gecə böcəkləri ötüşürdü. Qaranlığa tez alışsınlar deyə gözlərini üsulca ovuşdururdular.

Xətcə:

– İraz xala, – dedi.

– Nə var? – deyə İraz soruşdu.

Hər gecə söhbətə belə başlardılar.

Xətcə:

– Yerim nəmdir, – dedi.

– Nə edək, qızım? – deyə İraz cavab verdi.

Xətcə:

– Mənim anam da anadır?

İraz:

– Kim bilir yazığın başına nələr gəlmişdir?

Xətcə daha anasından danışmayıb, başqa söhbətə keçdi.

– Çuxurovada, Yürəgir torpağında bir göz evimiz olacaqdır, – dedi. – Məmməd muzdurluq edəcək, sonra da bir parça torpaq alacaqdır. Məmməd belə deyərdi.



İraz:

– Hələ cavansınız. Yenə də olar.

Xətcə:

– Məni qəsəbədəki kababçıya aparacaqdı.

İraz:

– Yenə aparar.

Söhbət bu minval ilə uzanıb gedərdi, ən axırda Xətcə xəyala dalardı. Özünün dustaqda olduğunu unudardı. İraz da unudardı. Bu gecə də elə oldu.

Xətcə yuxuda sayıqlayıb deyərdi:

– Yürəgir torpağı isti torpaqdır. Günəşlidir. Bir əkin olur ki, heç pələng də yarıb keçə bilməz. Bizim tarlamız otuz dönümdür.

– Hə, qızım, otuz dönümdür, – deyə İraz təsdiq edərdi.

Xətcə:

– Yarısında buğda, yarısında da arpa əkərik.

İraz:

– Buğdanın ortasında da iki lək soğan...

Xətcə:

– Evimizin içini yaşıl torpaqla suvadım.

İraz:

– Yaşıl torpaq... Qırmızısı da var.

Xətcə:

– Bir inəyimiz var. İri gözlü, qırmızı bir inək... Buzovu da var...

İraz burada susar, cavab verməzdi. Yenə susdu.

Xətcə davam edərdi:

– Mənim evim sənin evindir. Məmməd sənin oğlun, mən də qızınam.

– Qızımsan, – deyə İraz təsdiq edərdi.

Xətcə:

– Evimizin qabağındakı salxım söyüdün budaqları sallanar. Yerə dəyər.

İraz:

– Dörd yanına çəpər çəkərik. Ortasında bağça düzəldərik... Çiçəklik...

Xətcə dərin bir yuxudan silkinib ayılmış kimi özünə gələrək:

– Sən biləni Məmmədi haçan tutub gətirərlər? – deyə İrazdan soruşardı. Yenə də soruşdu:

– Hə? Sən biləni nə vaxt gətirərlər, xala?

İraz:

– Sabah gətirməsələr, bir ay sonra...

Xətcə:

– Biz buradayıq, eləmi, xala?

– Hə, biz buradayıq. Pulumuz da var, – deyə İraz qürurla cavab verərdi.

Beləcə yuxuya gedərdilər. Yenə də yuxuya getdilər. Cümə günü idi. Cümə günü qəsəbədə bazar qurulur. Hər cümə günü Xətcənin gözləri yollarda qalırdı. Anası gəlməli olsaydı, cümə günü gələrdi. Xətcə bu gün də çox erkən,

hələ gün doğmamışdan oyanıb: «Barı bu gün gələydi» demişdi. Hər cümə belə deyərdi.

Səhər açılandan xeyli keçmişdi, çiyni heybəli, uzunboylu bir qadın qorxa-qorxa, qısıla-qısıla dustaqxanaya tərəf gəlirdi.

– İraz xala, – deyə Xətcə bərkdən çığırdı.

İraz içəridən:

– Nə var, qızım? – deyə həyəcanla yanına yüyürdü.

– Anam gəlir!

İraz yola baxdı. Yan-yana dayandılar. Qara, baş yaylığının uclarını dişlərinin arasında tutaraq, axsaya-axsaya gələn yorğun, ayaqyalın qadına baxdılar. Qadın başını aşağı salmışdı. Dustaqxananın qapısına çatıb dayandı. Dərisi sümüyünə yapışmış, arıq, əsəbiliyindən tir-tir titrəyən gözətçi çığıra-çığıra:

– Nə istəyirsən, qarı? – deyə qadından soruşdu.

– Qızım içəridədir, onu görməyə gəlmişəm, – deyə qadın cavab verdi.

Xətcə:

– Ana, – dedi.

Qadın yavaş-yavaş başını qaldırıb gözətçiyə baxdı.

– Əfəndi qardaş, qızım bax budur, – dedi.

Gözətçi dedi:

– Görüşə bilərsiniz.

Xətcənin anası heybəsini çiynindən endirib divarın dibinə qoydu. Özü də belini divara verib oturdu.

– O-o-of, – dedi, – sümüklərim sızıldayır.

Xətcə hərəkətsiz dayanıb anasına baxırdı. Qadının ayaqları cadar-cadar olmuş, cadarların arasına toz dolmuşdu. Saçları tozdan ağarmış, boynundan aşağıya palçıqlı tər axmışdı. Toz basmış qaşları, kirpikləri görünmürdü. Yırtıq, kirli tumanı qıçlarına dolaşmışdı. Anasını bu halda görən Xətcənin acığı birdən-birə soyudu. Anasının halına acıdı. Gözləri yaşardı. Boğazı qəhərləndi. Heç cür özünü toplayıb anasının yanına gedə bilmirdi.

Anası yerində durub, yaş dolu gözlərlə ona baxan qızını gördü, onun da boğazı qəhərləndi. Nə deyəcəyini düşünüb özünü ələ almasaydı, ağlayacaqdı.

– Gəlsənə, bəxtsiz qızım, gəlsənə, ananın yanına gəlsənə, gün görməyən qızım, – dedi.

Ana daha özünü saxlaya bilməyib, içini çəkə-çəkə yavaşcadan ağlamağa başladı. Xətcə gəlib onun əlini öpdü. Keçib yanında oturdu. Bu arada İraz da onların yanına gəldi:

– Xoş gəldin, bacı, – dedi.

Xətcə İrazı anası ilə tanış etdi:

– Bu, İraz xaladır, – dedi. – Bir yerdə yatırıq.

Anası:

– Bu bacıma nə olmuşdur? – deyə maraqla soruşdu.

Xətcə:

– Onun oğlu Rzanı öldürmüşlər.

– Yazıq, yazıq! Onları görüm gözləri kor olsun. Yazıq bacım!

Bir müddət üçü də susdu. Sonra Xətcənin anası başını qaldırıb danışmağa başladı:

– Qızım, mənim qızıl telli, qaragözlü qızım, anana acığın tutmasın. O imansız Abdi mənim başıma nələr gətirmədi!.. Hökumətə ərizə verdiyimə görə başıma nələr gətirmədi!.. Onun əlindən çəkdiyimi bircə özüm bilirəm. Mənim bir daha qəsəbəyə getməyimi qadağan etmişdir. Hə, gül qızım... Yoxsa gül qızımı dörd divar arasında, qərib qəsəbədə tək qoyardımmı? İki gündən bir gələrdim qızıl telli qızımın yanına.

Nədənsə birdən-birə söhbətini kəsdi. Gələndən bəri ilk dəfə olaraq üzündə bir təbəssüm göründü. İrazla Xətcənin başını özünə tərəf əyib, lap yavaşcadan danışmağa başladı:

– Hə, gözəl qızım, az qala unutmuşdum. Sənə təzə xəbər gətirmişəm. Məmməd qaçaq olub! Qaçaq!

Anası Məmmədin adını çəkincə Xətcənin üzü gül kimi açıldı. Ürəyi sinəsinə sığmayırmış kimi bərk-bərk döyünməyə başladı, elə bil indicə yerindən qopacaqdı.

Anası sözünə davam edərək dedi:

– Məmməd onları vuran kimi gedib Dəli Durdunun dəstəsinə qoşulmuş. Onların dəstəsi camaatın başına olmayan

işi gətirirmiş. Yoldan da heç kəsi keçməyə qoymurlarmış. Bütün yolları bağlayıblarmış. Qabaqlarına çıxanı öldürür, alt tumana qədər soyundurub anadangəlmə eləyirlərmiş...

Xətcə hirsli-hirsli:

– Məmməd belə işlər görməz, – dedi. – Məmməd adam öldürməz.

Anası:

– Mən nə bilim, qızım, – dedi, – belə söyləyirlər. Dəli Durdudan sonra Məmmədin adı çəkilir. Şöhrəti hər tərəfə yayılmışdır. İndi hamı İncə Məmməddən danışır. Mən nə bilim, qızım! Mən də el deyəni deyirəm. Abdi imansız Məmmədin barəsində deyilənləri eşidən kimi, bir ayadək evinin ətrafına dörd-beş keşikçi qoydu. Kəndlilər deyirdilər ki, bayırda beş nəfər silahlı keşikçi olduğuna baxmayaraq, içəridə yenə qorxurmuş, səhərədək gözlərinə yuxu getmirmiş. Evin içində gəzişirmiş. Sonra Asim çavuş onun evinə gəlmiş, İncə Məmmədi təqib etdiyini söyləmiş. Bu dağlar İncə Məmməd kimi bir qaçaq hələ görməyib demiş. O olmasaydı, mən Dəli Durdunun dəstəsini darmadağın edərdim, demiş.

Bundan sonra Abdi ağa baş götürüb kənddən getdi. Kimi deyir ki, qəsəbədə yaşayır, kimi deyir ki, aşağı Çuxurova kəndlərinə getmişdir. Kimi də deyir ki, Anqaraya, böyük hökumətin yanına qaçmışdır. Yəni Abdi ağa özünü Məmməddən qoruyur. Mən də dedim ki, Abdi ağa kənddə yox ikən gül qızımın yanına gedim. Hə, gül qızım, işlər belədir...



Anası bunları danışarkən üzü sakitdi, sanki gülümsəyirdi. Sözünü qurtarınca üzü, ölü sifəti kimi, yamyaşıl oldu. Boğulurmuş kimi bir hal aldı.

Məmmədin qaçaq olduğuna İraz da, Xətcə də sevinmişdi. Baxışdılar. Gözləri danışdı.

Ananın yaşıl, boğulurmuş kimi olan üzünü görüncə qorxdular.

Xətcə kəkələyərək ancaq bunu deyə bildi:

– Ana, ana, nə var?

Anası:

– Soruşma, qızım, – dedi. – Sənə bəd bir xəbər verəcəyəm. İnşallah ki, yalan olar. Gələrkən eşitdim. Onu deməyə dilim gəlmir, qızım. Dilim gəlmir. Səhər eşitdim, qızım, səhər eşitdim, dünən səhər, qızım. Eşitdim ki, bir yürük ağası üstündə Dəli Durduyla Məmməd vuruşmuşlar. Dəli Durdu iki yoldaşı ilə birlikdə Məmmədi də vurmuşdur. Belə eşitdim, qızım. Məmməd yürüklərin ağasını müdafiə eləmiş. Dəli Durdu da onu vurmuşdur. Kəndin içərisindən bir atlı keçirmiş, özü də yürük imiş. Üst-başı tamam güllə-patron imiş. İki dənə tüfəngi varmış. Yürük ağasına köməyə getdiyini söyləmiş. Altındakı at qan-tərə, köpüyə batıbmış. Kəndlilər belə dedilər. Məmmədin vurulduğunu o söyləyibmiş...

Xətcə əvvəlcə donub qaldı. Sonra İrazın əllərindən yapışıb, özünü onun qucağına saldı:

– Xala, bu da gərək gələydi başıma? – deyə fəryad qopardı. Sonra birdən susdu.

Anası:

– Mən gedirəm, – dedi, – Allah amanında, qızım. Sabah, birigün sənə doğru bir xəbər çatdıraram. Heybədə yağ var. Yumurta, çörək var. Gələn cümə günü yenə gələrəm. Əgər o imansız yenidən kəndə qayıtmamışsa. Heybədən muğayat ol. İtməsin. Sağlıqla qalın, – deyə yola düzəldi.

Yolla gedərkən öz-özünə dedi: «Bunu ona deməməliydim. Deməməliydim».

Xətcə bir qədər sakit olur, sonra yenə içini çəkməyə başlayırdı:

– Ah, – deyirdi, – imansız Dəli Durdu, necə qıydın Məmmədimə? Adam da öz yoldaşına qıyarmı heç? Necə qıydın...

İraz ona təsəlli verərək deyirdi:

– Məmməd qaçaqdır, qaçağın isə hər gün ölüm xəbəri gələr, inanma. Sonralar buna alışacaqsan.

Xətcə onun dediklərini dinləmirdi:

– Mən yaşaya bilmərəm, – deyirdi, – Məmməddən sonra mən yaşamaram.

İraz hirsləndi:

– Ay qız, – dedi, – onun öldürüldüyünü haradan bilirsən? Diri üçün ağlamazlar. Mən uşaqlıqda, yox-yox, cavanlıqda Nəhəng Əhmədin ölüm xəbərini, bəlkə, iyirmi dəfə eşitmişdim. Nəhəng Əhməd isə deyirlər ki, hələ də sağdır.

Xətcə:

– Ah, xala, bu elə deyil ki, – dedi. – O, hələ təzə qaçaqdır. Mən daha sağ qalmaram. Ölərəm.

İraz:

– Ay səfeh qız, – dedi, – bəzən qaçaqlar özlərinin ölüm xəbərini qəsdən çıxarırlar. Görürsən, onun qaçaq olduğunu eşidən kimi keçisaqqal Abdi kənddən qaçmışdır. Bəlkə, Məmməd bu xəbəri keçisaqqal üçün çıxarıb. Bu xəbəri çıxarıb ki, keçisaqqal eşidib kəndə qayıtsın, Məmməd də gəlib onu öldürsün. Bu, bəlkə, qəsdən düşünülmüş kələkdir.

Xətcə:

– O belə şeylər eləməz, xala, – dedi. – Mən ondan sonra sağ qalmaram. Ölərəm, xala.

Sonra Xətcə qızdırma xəstəliyinə tutulmuş adam kimi, titrəməyə, qızdırmadan yanmağa başladı. İraz onu qucağına aldı, gətirib yatağına uzandırdı.

– Hələ bir səbir elə. Hələ bir səbir elə, ağılsız qızım, gün doğmamışdan, hələ çox şey ola bilər! Hələ bir səbir elə! Hər deyilən sözə inanma...

Ertəsi gün Xətcə yataqdan ölü kimi qalxdı. Alnına qara yaylıq bağlamışdı. Üzü mum rəngi almışdı: donuq, sapsarı.

Bu xəbərdən sonra Xətcə yaxşı olmadı. Gündən-günə daha da zəiflədi. Gözlərinə yuxu getmirdi, yatağın içində başını dizlərinin üstünə qoyub, səhərə qədər otururdu.

Onunla bərabər İraz da yatmırdı.

Gecələr daha söhbət etmirdilər. Amma İraz arabir deyirdi:

– Görəcəksən, dəli qızım, – deyirdi. – Görəcəksən. Yaxınlarda Məmmədin xoş xəbəri gələcək.

Xətcə buna fikir vermirdi.

## İKİNCİ HİSSƏ

### XIV

İki gün idi ki, gündüzlər bir yerdə gizlənir, gecələr yol gedirdilər. Şam ağacları ilə örtülü qayalığın təpəsinə gəlib çatmışdılar, dincəlmək üçün burada dayanmışdılar. Lakin Durdunun onları tələyə salacağından qorxurdular.

– O buna heç cür dözməz, – deyə Cabbar sözə başladı. – Bizə bir pislik etməyincəyə qədər gözünə yuxu getməz. Onun ürəyindən nə keçirsə, bilirəm. Dörd il onunla bir yerdə olmuşam. O, çox yaşamaz. Bu günlərdə onu vurarlar... Dalımıza düşüb bizi təqib etməkdən də əl çəkməz. Yoxsa ölər. Bizə bir şey edə bilməsə, bağrı çatlayıb ölər. İndi mütləq bizi təqib etməkdədir. Kaş ki, bunu eləməyəydik. Kaş ki...

– Qorxursanmı Cabbar? – deyə Məmməd xəbər aldı.

– Yox, amma...

– Daha nə «amma»?

– Yəni... yəni dalımıza düşüb bizi təqib etməkdən də əl çəkməz...

– Üstümüzə gəlsə...

– O gələndə insan kimi gəlməz ki... Bir yerdə, heç güman gəlməyən bir yerdə tələ qurar. Tələsinə düşərik. Yoxsa kişi kimi üz-üzə gəlsə, nə var ki... Allah ya ona verər, ya bizə...

Rəcəb çavuş fikrə getmişdi. Batan günəşə, günəşin bir tərəfini al rəngə boyadığı şam ağacının təpəsinə baxırdı. Gün batırdı. Başını yavaş-yavaş aşağı saldı. Batan günəşin şüaları onun üzünü, boynundakı yaraya sarınmış güllü bezi qızılı rəngə boyayırdı.

Rəcəb çavuş:

– Bəlkə, Allah bizə verər, – dedi. Yenə də gözlərini şam ağacının təpəsinə zillədi.

– Mənə acığın tutdumu, Məmməd qardaş? – deyə Cabbar soruşdu.

– Yox, niyə acığım tutur, qardaş? Bəlkə, dediklərində haqlısan. Mənə də elə gəlir ki, o bizdən əl çəkməz.

– Demək istədim ki, gərək sayıq olaq. Hər şey ola bilər...

– Haqlısan. Hər şey ola bilər.

Rəcəb çavuş:

– Mənə qulaq asın, uşaqlar, – dedi. – Bilirsinizmi mən bu dağların nəyini sevirəm?

Məmməd gülümsəyərək:

– Yox, – dedi.

– Gün batarkən ağaclarını. Gün batarkən ağacların üstünə parça-parça işıq düşür ha, bax onu.

– Anladım, – deyə Məmməd cavab verdi.

Gün batdı. Qaranlıq qovuşdu. Ay yarımçıqdı. Göydə çox qalmır, tez batırdı. Ay çıxan kimi ağaclardan yerə kölgələr düşdü. Kölgələr bir-birinə qarışdı. Seçilmirdi.

– Gedəkmi? – deyə Cabbar soruşdu.

Məmməd:

– Gedək, – deyib ayağa qalxdı.

Rəcəb çavuş:

– Uşaqlar, hələ dayanın, məni bir az gözləyin, – deyərək, bir qayanın dibinə tərəf getdi. Orada bir az əyləndikdən sonra qayıdıb gəldi.

– Qaranlıq qovuşan kimi qayanın dibində qəribə, yaşıl bir şey gördüm. Yaşıl bir qığılcım... Yaşıl bir tiyə. Gedib gördüm ki, yosundur...

Cabbar güldü. Məmməd də məsələni başa düşüb güldü:

– Ay Rəcəb çavuş, qaranlıqda yosunu yaşıl tiyə bilmisən, eləmi?

Rəçəb çavuş çox ciddi bir tərzdə:

– Bu işə lap təəccüb qaldım, – dedi. – Baxın, oradadır.

– Yaşıl tiyəyə doyunca baxdınmı? – deyə Məmməd soruşdu. – Elə isə gedək.

Rəcəb çavuş:

– Yenə də baxmaq istərdim, amma işimiz var, – dedi.

Məmməd də:

– Hə, işimiz var, – dedi.

Qayalıqlardan enməyə başladılar. İki gün idi ki, qayalıqla yol gedirdilər. Əslində getmək deyil, sürünürdülər. Səhərdən azuqələri də qurtarmışdı. Acmışdılar. Ayaqlarında ayaqqabı qalmamışdı, qayalar, sumbata kimi, onları yemişdi. Ayaqlarında yalnız ayaqqabılarının üzü qalmışdı. Əllərinin içi soyulmuşdu, qırmızı ət görünürdü. Qan da axırdı.

Rəcəb çavuş:

– Yenə başladıq, – dedi. – Yenə başladıq sürünməyə. Niyə bu qədər qorxursunuz o dəli namussuzdan? Axı niyə qorxursunuz? Gəlin aşağı enək. O da tələ quracaq, nə qələt eləyəcəksə, qoy eləsin.

Məmməd:

– Hirslənmə, Rəcəb çavuş, aşağı enirik, – dedi.

Rəcəb çavuş:

– Əlimin ağrısı boynumdakı güllə yarasının ağrısından daha şiddətlidir. Mən bu əllərlə necə güllə ataram? Hələ bir deyirsən ki, hirslənmə. Axı necə hirslənməyim?

Məmməd:

– Keçib gedər, ay Çavuş, – dedi. – Kəndə gedib çıxsaq, əllərinə yaxma dərman qoyduraram.

Cabbar:

– Sən qoca qarılardan da betər oldun, – dedi.

Rəcəb çavuşun acığı tutdu:

– Cabbar, – dedi, – bir də belə danışsan, Allaha and olsun, səni oraya pərçimlərəm. Anladınmı?

Məmməd;

– Cabbar, sus! – dedi.

Cabbar qəhqəhə ilə gülürdü.

Onun gülməyinə də Rəcəb çavuşun acığı tutdu.

Dişlərini qıcırdaraq:

– O, adam deyil ki, – dedi, – fahişədən törəyəndir.

Məmməd:

– İndicə düzə enərik, aslan Rəcəb çavuş, – deyə onu sakit etməyə çalışdı.

Rəcəb çavuş:

– O fahişədən törəyənə de ki, gülməsin, – dedi. – Allaha and olsun pərçimlərəm onu.

Bunu eşidən Cabbar Çavuşun yanına gəldi, birdən onun əlini tutub öpdü.

– Barışdıq. Daha nə istəyirsən? – deyə güldü.

Rəçəb çavuş yumşaldı:

– Mən fahişədən törəyənlərlə barışmaram, – dedi.

Məmməd söhbəti dəyişdirmək üçün:

– Çavuşum, tüfəngin doludurmu? – deyə soruşdu.

Çavuş:

– Doludur, – deyə sərt cavab verdi.

– Çox yaxşı.

– Beşini də o Abdi imansızın başına boşaldacağam. Qoy kəlləsi parça-parça, darmadağın olsun... Qoy bilsin ki, fağır-füqəraya zülm etmək necə olar!

Məmməd:

– Birlikdə vurarıq, – dedi. – Onu öz əlimlə öldürməsəm, ürəyim soyumaz.

Məmməd müdhiş bir kin duyaraq düşünürdü. Bir adam öldürmək!.. Bir adamı tamamilə yox etmək... Bu, indi onun öz əlində idi! Meşədə atdığı güllələr gözlərinin önünə gəlirdi. Vəlinin can verməsi, yerdə, palçığın içində çapalaması nəzərində canlanırdı... Bu, adam öldürmək deyildi. O, tapançadan atəş açarkən, dünyadan bir adamı ayırıram, deməmişdi. Yaxasını qurtarmaq üçün belə eləmişdi. İndi isə bir adam öldürəcək, bir cana qıyacaq... Qəzəblənməyi, sevməyi, sevilməyi bacaran bir məxluqu aradan qaldıracaqdı. Buna özündə haqq görməyirmiş kimi bir duyğuya

qapılmışdı. Düşünməyi, həm də hərtərəfli düşünməyi öyrənmişdi. Qəsəbədəki Həsən çavuş... Bəlkə də, eşqi öyrətmişdi düşünməyi. Kim bilir! Abdini öldürməsə, nə olar? Bir an başından qeyri-iradi olaraq belə bir fikir keçdi. Sonra ağlına belə bir fikir gəlməsindən qorxuya düşdü. Bu fikri başından çıxartmağa çalışdı. Buna çalışdıqca, Allahın bəlası olan fikir onu daha çox narahat edirdi. «Hələ qoy bir kəndə çataq...»

Rəcəb çavuş var gücü ilə bağırdı:

– Özünüzü mənə yetirin, yıxılıram.

Qaça-qaça gəlib gördülər ki, Çavuş bir qayadan o birisinə atılmaq istəyəndə ayağı o biri qayaya çatmamış, ayağını geriyə də çəkə bilməmiş, buna görə də əlləri ilə bir ağacdan yapışıb sallana-sallana qalmışdır. Onlar Çavuşu qayanın üstünə çəkdilər.

Rəcəb çavuş:

– Məmməd, Allah xatirinə, bir söylə görək düzənliyə nə qədər qalıb? – deyə bezmiş halda soruşdu.

– Lap az qalıb, indicə enərik, – deyə Məmməd cavab verdi.

Ay qarşıdakı dağın ardına enirdi ki, düzənliyə çatdılar.

Rəcəb çavuş:

– Hə, bax belə! – dedi. – Bir qayadan yıxılıb parçalanmadan, sağ-salamat gəlib çatdıq. İndi Dəli əclaf tələ quracaqsa, qoy qursun. Gəlin burada bir yaxşıca dincələk. Ovuclarımın içi elə sızıldayır ki...

Məmmədlə Cabbarın da ovuclarının içi, dizləri, ayaqları sızıldayırdı. Sanki bədənlərinin hər parçası bir qayanın başında qalmışdı.

Dinib-danışmırdılar. Məmməd yenə dərin fikrə getmişdi. Öz-özünə deyirdi: «Abdi ölümə layiqdir». İnəklərini necə çəkib apardıqları gözünün önünə gəlirdi... Süpürüm kolları ilə örtülmüş tarlada, adamın bədənini bıçaq kimi kəsən şaxtada tikanlar ayaqlarını, qıçlarını didə-didə necə cüt sürdüyü gözlərinin qarşısında canlanırdı. Şaxtada tikanların diddiyi yerlər, od düşübmüş kimi, yandırıb ada-

mın ürəyinə işləyirdi. Zillət içərisində keçən zəhər kimi acı uşaqlığı bütünlüklə xəyalına gəlirdi... «Abdi ölümə layiqdir. Hələ bir kəndə çataq!»

Cabbar onu dümsüklədi:

– E-e-ey, Məmməd! Yenə nə fikrə getmisən?

Məmməd utanaraq:

– Heç, – dedi.

Cabbar:

– Qalxın, yola düşək, – dedi. – Səhərədək burada qalsaq, heç bir şey edə bilmərik.

Məmməd:

– Sən haqlısan, – dedi.

Ayağa qalxdılar. On beş dəqiqəyədək yol getmişdilər ki, gəlib süpürüm kolları ilə örtülü bir yerə çatdılar.

Rəcəb çavuş:

– Vay anam, vay! – dedi. – Qayalığa min şükür. Bu tikanlar adamın qıçlarını köpək kimi dalayır.

Məmməd səsində bir kədər duyulduğu halda:

– Bu süpürüm kolları bitən tarla həmin tarladır, – dedi. – Mən cüt sürdüyüm yerdir.

Rəcəb çavuş durmadan:

– Vay anam, vay! – deyə təkrar edirdi. – Vay, anam vay!

Cabbar:

– Ay Məmməd, – dedi, – bu qədər süpürüm kolu bitən yerdə kotan işləməz ki... Kolluq deyil, meşəlikdir...

Rəcəb çavuş yenə də:

– Vay anam, vay! – deyə təkrar etdi.

Məmməd:

– Hə, meşəlikdir, – dedi.

Cabbar dedi:

– Qayalıqlardan sonra gəlib belə bir tikan meşəsinə düşəsən... Sən bir taleyə bax...

Rəcəb çavuş:

– Vay anam, vay! İncə Məmmədin taleyi belə imiş, – dedi. – Vay anam, vay!

Dayanıb nəfəslərini dərdilər, qıçlarından sızan qanı əlləri ilə yoxladılar.

Məmməd söyüş söyürdü. Uşaqlıqda söydüyü söyüşləri təkrar etməkdən həzz alırdı. Bu söyüşlərin çoxunu Dursundan öyrənmişdi. Görəsən, Dursun indi haradadır?

– Vay anam, vay! – deyə Çavuş hey təkrar edirdi.

Süpürüm kolları xışıldayırdı. Ayaq basdıqca kollardan ağır, boğuq səs çıxırdı. Gecənin sakitliyində səs lap uzaqlardan eşidilirdi.

– Vay anam, vay!

Cabbar:

– Tikan hələ bir yana qalsın, bu xırda daşlar da ayrı bir bəladır, – dedi.

Məmməd:

– Budur, cüt sürdüyüm yerlərə gəldik, – dedi. – Hə, bax, buralardır.

– Vay anam, vay!

Uzaqdan, güney tərəfdən xoruz səsi eşidildi. Xoruz ara vermədən hey banlayırdı. Onlar bir dərəyə düşdülər. Ayaqlarının altından daşlar yuvarlanırdı. Buradakı süpürüm kolları daha betərdi.

– Vay anam, vay!

Dərədən çıxan kimi, qarşılarına böyük bir çinarın qaranlıqda daha tünd görünən kölgəsi çıxdı.

Çinara tərəf getdilər. Çinarı ötüb keçən kimi gurultu ilə axan su səsi eşidildi.

– Vay anam, vay!

Məmməd:

– Kəndə çatdıq, – dedi. – İndi gəlin çayın qırağına enib əl-üzümüzü yuyaq. Sabah sizin hərənizə bir cüt elə çarıq tikəcəyəm ki...

Çayın qırağına enib, ayaqqabılarını çıxartdılar. Ayaqlarını suya saldılar.

– Vay anam, vay!

Cabbar:

– Ay Rəcəb çavuş, – dedi, – daha bəsdir də! Süpürüm kolluqları arasından çoxdan çıxmışıq.

Rəcəb çavuş:

– Mən belə tikanlığa heç yerdə rast gəlməmişəm, – dedi. – Vay anam, vay!

Məmməd dedi:

– Buraya çayın gözü deyərlər...

Məmməd vaxtı ilə Süleymanın evinə qaçdığı zaman anasının gəlib, həftələrlə bu çayın gözünə baxdığını, ölüsünün bu qayanın dibindən çıxmasını gözlədiyini xatırladı. Anası yadına düşdü. Öz-özündən, bəlkə də, min birinci dəfə soruşdu: «Görəsən, anama neylədilər?»

Sonra Cabbara müraciətlə soruşdu:

– Görəsən, anama neylədilər?

– Ona heç bir şey edə bilməzlər, – deyə Cabbar cavab verdi.

– Vay anam, vay! – deyə Rəcəb çavuş yenə təkrar etdi. – Bəs bura haradır?

Məmməd dedi:

– Buraya guruldayan çay gözü deyərlər. Aşağıda dəyirman vardır. Qulaqsız İsmayılın dəyirmanı...

– Bax, qardaş, kəndə girməmişdən əvvəl oraya gedib bir xəbər bilək. Bu, daha yaxşı olar, – deyə Cabbar təklif etdi.

– Vay anam, vay!

Cabbar Rəcəb çavuşa:

– Allah xatirinə bəsdir, Çavuş! – dedi.

Məmməd:

– Bəlkə də, yaxşı olar. İstəyirsinizsə, gedək Qulaqsızın dəyirmanına...

Cabbar:

– Hə, bu, daha yaxşı olar. Məncə, adam gərək heç bir yerə, heç bir kəndə əl-qolunu yelləyə-yelləyə girməsin.

Rəcəb çavuş:

– Baxın, bu, doğrudur, – dedi. – Bu təlxək, köpəkoğlu Cabbar səfeh deyil. Qaçaqlıqda dağı-daşı, qurdu-qarışqanı

gərək hər zaman özünə düşmən biləsən. Gərək hər daşın dalında sənə tələ qurulduğunu nəzərdə tutub hərəkət edəsən. Sən hələ təzəsən, oğlum, Məmməd! Ancaq fikirləşmək təcrübəni əvəz edər. Sən hər şeyi diqqətlə fikirləş.

Ayağa qalxdılar. Uzaqda qığılcım kimi yanıb-sönən bir işıq göründü.

Məmməd:

– Bax, orada çox kiçik bir işıq görünür, Qulaqsız İsmayılın dəyirmanı oradır, – dedi.

Dəyirmana yaxınlaşdıqları zaman uzaqda bir sürü itin hürüşməsi eşidildi.

Cabbar:

– Kənd, bax, orada itlərin hürüşdüyü yerdə olacaq, – dedi.

– Hə, oradır, – deyə Məmməd təsdiq etdi.

Dəyirmanın qapısına çatıb dayandılar. Qulaqsız İsmayıl ayaq səsləri eşidən kimi:

– Kimdir? – deyə içəridən xəbər aldı.

Məmməd:

– İncə Məmməd, – dedi. – İbrahimin oğlu İncə Məmməd.

Uzun zaman içəridən səs gəlmədi. Sonra İsmayıl:

– İncə Məmməd burada nə gəzir? – dedi. – Yalandır. Axı biz eşitdik ki, Dəli Durdu onu öldürmüşdür. Özü də dünən eşitdik.

Un qoxusu ətrafa yayılırdı. Onlara elə gəlirdi ki, bir azdan un anbarının içinə girəcəklər.

Dəyirmanın çarxından tökülən suyun güclü şırıltısı gecənin qaranlığına yayılırdı.

Məmməd:

– Ölməmişik. Mənəm, İsmayıl əmi, – dedi. – Səsimdən tanıya bilmədinmi?

İsmayıl:

– Tanıdım, tanıdım, – dedi. – Gəlirəm. İndi qapını açaram.

Gəldi, taqqıltı ilə qapını açdı. Qapı açılan kimi, üzlərinə narıncı, titrək bir işıq düşdü. İsmayıl Məmmədə diqqətlə baxdı:

– Ay İncə Məmməd, – dedi, – axı niyə o imansızı öldürmədin ki, bu kəndlər onun əlindən qurtaraydı!

İncə Məmməd gülümsədi.

İçəri girdilər. Ocaqda alovlar bir-birinə dolanıb, torpağa qədər əyilirdi. İçəridə un qoxusu daha kəskin duyuldu. İsmayılın qırış-qırış uzun boynu, sivri, uzun sifəti, saqqalı, yağlı köhnə şapkası tamam una bulaşmışdı.

İsmayıl gələnlərin əl-ayaqlarını gördükdə, qorxmuş halda soruşdu:

– Bu nə haldır belə, sizə nə olmuşdur?

Məmməd gülümsəyərək:

– Dəli Durdu ilə sözümüz çəp gəldi, odur ki, iki gün qayalıqlarla yol gəldik.

İsmayıl kürəyini yandakı divara dayayıb:

– Dünən kəndin içindən bir atlı keçdi, – dedi, – Dəli Durdu ilə vuruşmağa gedirdi. Dəli Durdunun səni vurduğunu o dedi. Bütün kəndin sənə ürəyi yandı, Məmmədim. Bilirsən ki, bizim kəndlilər səni çox istəyirlər.

Sonra əlini Məmmədin kürəyinə vurdu. Qulaqlarını sığalladı.



– Ay Məmməd, – dedi, – vallah gözlərimə inana bilmirəm. Nə qədər patron var sənin üstündə? Bu qədər patronu necə gəzdirirsən? Səni bu cür patronlar içində görmək mənə qəribə gəlir. İndi xəyalıma Sarıcadüzdə, süpürüm kolları arasında yıxıla-yıxıla cüt sürdüyün gəlir. İndiki kimi gözümün qabağındadır. İnana bilmirəm.

Məmməd:

– Bir işdir oldu, – dedi.

İsmayıl:

– Siz, yəqin ki, acsınız. Qoy durum, sizin üçün yemək hazırlayım.

Ayağa qalxdı, gözlərini ocağa zilləyib dayandı. Öz-özünə gülümsədi.

– Ocaq da yaxşı yanır, – dedi.

İsmayılın beli bükülmüşdü. Məmməd buna təəccüb qaldı. İsmayılı hələ gənc bilirdi. Özü uşaq olduğu zaman gördüyü kimi...

Məmməd qorxa-qorxa:

– Anamdan, – dedi, – Xətcədən nə xəbər var? Görəsən, Abdi evdədirmi?

İsmayıl durduğu yerdə donub qaldı. Nə getdi, nə cavab verdi, nə də oturdu. O, əslində bu sualı gözləyirdi. Məmməd hər dəqiqə bu sualı verə bilərdi. İsmayılın ödü ağzına gəlirdi. Olan olmuşdu. O, çaşqın-çaşqın düşünür, dörd tərəfə baxırdı, Məmməd sualı təkrar etdi:

– Anamdan nə xəbər var?

İsmayıl kəkələyərək, tez-tez:

– Yaxşıdırlar, yaxşıdırlar, – dedi. – Səbir eləyin, indi gəlib sizə o imansızdan danışacağam. Az qala yadımdan çıxacaqdı. Qoy gedib, ayaqlarınız, əlləriniz üçün duzlu su hazırlayım...

Məmməd onsuz da çox nigaran idi. İsmayıl da ona aydın cavab vermədi... «Yaxşıdırlar, yaxşıdırlar» – deyə üstüörtülü cavab verməsi xeyirli əlamət deyildi.

Əlində böyük bir tas su ilə gələn İsmayıl:

– Əllərinizi, ayaqlarınızı tasın içinə salın. Əl-ayağınızı daş yemişdir. Daş yeyən yer yaman ağrıdar. Duzlu su yaxşı edər.

– Bu yaxınlarda anamı görmüsənmi? – deyə Məmməd xəbər aldı.

İsmayıl cavabında dedi:

– Yaxşıdırlar dedim axı, yaxşıdırlar, canım... Səbir eləyin, indi sizə o imansızdan danışım. O imansız sənin qaçaqlara qoşulduğunu eşidən kimi... canına qorxu düşdü. Hər gecə evinin dövrəsinə beş-altı, on gözətçi düzdürürdü. Sonra da tamam qeyb oldu. Üzünü görsəydiniz, qorxardınız. Qorxu adamı nə günə salarmış! İndi sənin öldüyünü eşidib, bəlkə, kəndə gəldi. Deyirlər ki, onun adamları sənin ölüm xəbərini eşidən kimi bayram eləmişlər. Elərlər də, Məmmədim! Axı onlar səni yaxşı tanıyırlar.

Məmmədin ürəyinə od düşdü. Daha yerində otura bilmədi. Bir an əvvəl kəndə girmək üçün ürəyi çırpınırdı.

Məmməd yoldaşlarına:

– Qalxın gedək, – dedi. – Gərək səhər açılmamış kəndə girək.

Cabbarla Rəcəb çavuş Məmmədin nə demək istədiyini başa düşdülər. Heç bir şey söyləmədən, çarıqlarını bağlayıb ayağa qalxdılar.

İsmayıl məhzun-məhzun:

– Sizin üçün hazırladığım yemək ocaqda qaldı. Bir az gözləyə bilməzsinizmi? – deyə soruşdu. – Duzlu suyun köməyi olar. Getdiyiniz yerdə yenə hazırlatdırın.

Məmməd irəlidə, yoldaşları arxada dəyirmandan çıxdılar. Beş-on addım gedəndən sonra yenə də süpürüm kollarının arasına düşdülər.

Rəcəb çavuş yenə də: «Vay anam, vay!» – deyə çığırdı.

Göydə ulduzlar sayrışırdı.

Rəcəb çavuş şərqə tərəf baxıb:

– Dan ulduzu hələ doğmamışdır, – dedi. – Mənim ulduzum. Sübhün açılmasına hələ xeyli var.

Məmmədlə Cabbar dinmirdilər. İndi ayaqları, əlləri az incidirdi. Qabaqlarından bir tülkü qaçdı. Kəndə yaxın olmasaydılar, Rəcəb çavuş tülkunü elə oradaca vurub aşırardı. Amma nə çarə ki... Tülkü quyruğunu tikanların üstündən sürüyərək qaçdı. Ulduz işığında tükləri tünd görünürdü.

Cabbar:

– Məmməd qardaş, – dedi.

Məmməd:

– Bir azdan kəndə girəcəyik, – dedi. – Kənd, bax, burada, aşağıdadır...

Kəndin ilk evlərinə yaxınlaşanda, bir neçə iri it onları qarşıladı. Məmməd itlərə yaxınlaşıb: «Quçu! Quçu!» deyə çağırdı. İtlər Məmmədi tanıdılar. Onun ayaqlarına yıxılıb yaltaqlanmağa başladılar.

Kəndin ortasından keçib, birbaş Məmmədgilin evlərinə tərəf getdilər. Kənd bomboş idi. Məmməd öz kəndlərini heç belə görməmişdi. Buna alışa bilmədi. Gözləri evlərin arasında adamları, toyuqları, cütə gedənləri, nə olursa-olsun, canlı bir məxluq axtarırdı. Məmmədgilin evinə çatdılar. Məmməd qapını yavaşca taqqıldatdı. Qulaq verdi. Səs-səda yox idi. Yenə də bir neçə kərə taqqıldadıb gözlədi. Yenə də səs olmadı. Davam gətirmədi, kiçik pəncərənin qabağına getdi. Yavaşcadan: «Ana, ana, ana!» – deyə səslədi. Yenə səs-səmir çıxmadı. Qulağını pəncərənin taxtasına dayadı. Diqqətlə qulaq asdı. İçəridən taxtaları yeyən qurdların xışıltısından başqa səs gəlmirdi. Şübhəsi daha da artdı. Amma qəlbindəki son ümid işığı hələ sönməmişdi.

Üzünü yoldaşlarına çevirib qüssəli-qüssəli:

– Evdə yoxdur, – dedi.

Fikrə getdi. Kənddə anası ən çox kimi sevərdi? Durmuş Əligili.

Durmuş Əlinin indi yetmiş beş yaşı olar. Son zamanlar beli azacıq bükülmüşdü. Beli bükülmüşdü, amma özü əlli yaşında adam kimi, sapsağlam idi.

– Budur, bu da Durmuş Əli əminin evi!

Durmuş Əligilin evinin qabağında iri bir it yatmışdı. İt ayaq səsləri eşidən kimi başını qaldırdı. Sonra başını ağır-ağır endirərək qabaq pəncəsinin üstünə qoydu.

Məmməd yorğun halda çiynini qapıya dayayıb:

– Durmuş Əli əmi! Ay Durmuş Əli əmi! – deyə səslədi.

Durmuş Əlinin qocalara xas olan yoğun səsi başqa səslərdən seçilirdi.

O, tez-tez deyirdi:

– Vallah, bu, Məmməddir. Lap Məmmədin səsidir. Vallah, bu, Məmməddir!

Rəcəb çavuş ağzını Məmmədin qulağına yaxınlaşdırıb:

– Səsini tanıdılar ha! – dedi. – Vay anam, vay!

Bu dəmdə qapı açıldı. Əlində çıraq tutmuş Durmuş Əli alt tuman-köynəkdə qapıda göründü. Qar kimi ağ saqqalı

lap göbəyinə dəyirdi. Durmuş Əli o qədər iri görünürdü ki, elə bil evə sığmayacaqdı...

Durmuş Əli gülümsəyərək:

– Ay Məmməd, – dedi, – srağagün bir yürükdən sənin qara xəbərini eşitmişdik. Səni gördüyümə çox sevindim. – İçəridəkiləri səslədi: – Ay qızlar, Məmməd gəlibdir. Qalxın, ocağı yandırın. Yerə döşək salın.

Yerə atılan döşəklərin səsi eşidildi.

Uzunsaqqallı Durmuş Əli qapının qabağından çəkildi.

– İçəri buyurun, – dedi.

İçəri girdilər.

Cabbar qəmgin idi. Sanki toxunsan ağlayacaqdı. Durmuş Əli əlindəki çırağı ocağın bir kənarına qoyub oturdu.

– Ay mənim İncə Məmmədim, bir de görüm necəsən? – dedi. – Hə, bir de görüm necəsən? Sənin vurulduğunu eşidən kimi bütün kənd yas saxladı. Xətcə eşidibsə, yəqin ki, dərdindən ölmüşdür. Xətcədən heç bir xəbər tutursanmı? Yazıq anan da... Sən özün ananı necə yerdən götürərdinsə, mən də elə yerdən götürdüm. Öz əlimlə qoydum qəbrə.



Başını qaldırıb Məmmədin üzünə baxdı. Məmmədin üzü göyərirdi.

Durmuş Əli tələşa düşdü:

– Oğlum, Məmməd, – dedi, – sənə nə oldu? Yoxsa bunu eşitməmişdin?

Cabbarın gözləri doldu. Rəcəb çavuş yerində qurdalandı, tüfəngindəki patronları boşaltdı, sonra yenə doldurdu.

Məmməd heç halını pozmadan soruşdu:

– Bəs Xətcəyə nə oldu?

Durmuş Əli tələş içində özünü qapazlayaraq:

– Vay mənim ağılsız başım! – dedi. – Bunu sənə necə dedim! Bu neçə ayda eşitmədiyini nə biləydim! Vay mənim ağılsız başım!

Durmuş Əlinin arvadı Məmməd gələndən bəri ocağın dibinə qısılaraq, gözlərini ocağa zilləyib qımıldanmadan

dayanmışdı. Məmmədə: «Xoş gəlmisən!» belə deməmişdi. O, qəzəblə ərinə:

– Sən elə həmişə beləsən, – dedi. – Qoyaydın uşaq yeməyini yeyəydi, sonra deyəydin. Qiyamətmi qopardı?

– Mən nə biləydim axı! Gör üstündən neçə ay keçmişdir. Eşitmədiyini nə biləydim! – Sonra, ağlayırmış kimi, səsi titrəyə-titrəyə əlavə etdi: – Məni bağışla, oğlum, qocalıqdandır...

Durmuş Əlinin oğlanları, nəvələri, gəlinləri, evdə kim varsa hamısı ocaq başında oturanları dövrəyə almışdılar. Onlar başına bənövşəyi fəs qoymuş, sinəsinə çalın-çarpaz patrondaş, belinə xəncər, tapança, qumbara bağlamış, boynundan durbin asmış Məmmədə baxırdılar. Onların gözlərində heyrət, inamsızlıq, azacıq da istehza oxunurdu. Onlara elə gəlirdi ki, Məmməd bu böyük adamlarla qaçaq-qaçaq oyunu oynayır.

– Xətcəyə nə olmuşdur? – deyə Məmməd təkrar xəbər aldı.

Durmuş Əli cavab vermədi. O, boynunu bükmüş, gözlərini ocağın alovlarına zilləmişdi.

Məmməd Durmuş Əlinin ordu-orduna keçmiş, baş örtüyünün altından yarısı xınalı ağ saçları görünən arvadına müraciətlə:

– Xala, – dedi, – sən söylə. Xətcəyə nə olmuşdur?

Qadın acıyaraq Məmmədin gözlərinin içinə baxdı:

– Mən nə deyim sənə, oğlum Məmməd! – dedi. – Mən nə deyim sənə! Xətcəyəmi?

Qadının üzü gah qızarır, gah bozarır, gah da saralırdı.

Məmməd:

– Necə olsa birisi söyləyəcək. De görüm, Xətcəyə nə olmuşdur? – deyə Məmməd yenə soruşdu.

Qadın başını çevirib Durmuş Əliyə qəzəblə baxdı, sanki onu öldürəcəkdi:

– Ah, nə deyim sənə, – dedi. – Ah nə deyim!.. Kim bilir uşaqcığaz neçə gündür yol gəlir. Qoyaydın bir yeməyini yeyəydi, sonra verəydin xəbəri...

Bunu deyib oturduğu yerdən qalxdı. Məmmədin yanına gəldi, qeyzlə oturdu. Əlini dizinə vurub sözə başladı:

– Bax, oğlum, hamısını sənə bir-bir danışım. Abdi yaralanmışdı. Kaş ki, yağlı güllə onun ürəyinə girəydi, heç çıxmayaydı. Özünə gələn kimi yalançı şahidləri başına topladı. Təkcə dinsiz Topal Əli, sizin izinizə düşüb tapan o imansız demiş ki, mən yalan yerə şahidlik edə bilmərəm. Topal belə deyəndə, keçisaqqal onu kənddən qovdu. O da arvad-uşağını götürdü, şələ-küləsini yüklədi, başını alıb başqa yerə getdi.

Qadın şahidlərin kim olduğunu, Xətcənin qəsəbədəki dustaqxanada təkbaşına bir otaqda qaldığını uzun-uzadı, bir-bir danışdı. Axırda da Xətcəni bu yaxınlarda asacaqlarını eşitdiyini əlavə etdi.

O iynə ucu kimi parıltı yenə də Məmmədin gözlərinin içində peyda oldu. Cabbar bu parıltıya bələd idi. Bilirdi ki, həmişə bu parıltı Məmmədin gözlərində görünəndə, onun üzü dəyişir, üz ətləri tarıma çəkilirdi, özü də ovunun üstünə atılmağa hazırlaşmış pələngə bənzəyirdi.

Məmməd ağır-ağır ayağa qalxdı:

– Gəlin, yoldaşlarım, – dedi. – Gedək bu Abdi ağa ilə haqq-hesabımızı çəkək.

Sonra Durmuş Əlinin arvadına tərəf döndü. Onun əlini tutdu.

– Söylə, xala, – dedi. – Anamı da onlar öldürdülər, eləmi?

Qadının gözləri yaşla doldu. Dinmədi.

– Eləmi? – deyə Məmməd təkrar soruşdu.

Qadın susdu.

Məmməd qadının əlini buraxdı.

– Gedək, yoldaşlarım, – dedi.

Məmməd qabaqda, Cabbarla Çavuş arxada qaranlığa qərq oldular. Məmməd tüfəngini yoxladı. Daraq dolu idi.

Yoldaşlarına dedi:

– Tüfənglərinizi yoxlayın. Daraqlarınız dolu deyilsə, doldurun. Qumbaraları da hazırlayın.

Qadının danışdıqları Rəcəb çavuşa çox təsir etmişdi. Qadın danışdıqca o, Məmmədə baxaraq, başını gah o yana, gah bu yana döndərirdi.

Rəcəb çavuş sürətlə gedən Məmmədin qolundan yapışıb dayandırdı:

– Mənə bax, – dedi. – Çoluq-çocuq, kim varsa, heç birini sağ qoymayacağıq. Hamısını doğrayacağıq.

Məmməd:

– Bu işləri sən daha yaxşı bilirsən, Çavuş, – deyə cavab verdi və qolunu onun əlindən çəkib, yoluna davam etdi.

Abdi ağanın qapısına nə zaman, necə çatdıqlarını heç özləri də bilmədilər.

Məmməd Çavuşa:

– Sən səslə, – dedi. – Qonaq gəlmişdir de. Çox vacib bir xəbər gətirmişdir de.

Çavuş qapını üç dəfə bərk-bərk döydü. İçəridən bir qadın səsi eşidildi:

– Kimdir?

Çavuş:

– Aç qapını, bacı, – dedi, – qonağam. Sizə salamım var. Bir xəbər gətirmişəm. Elə bu saat geri qayıtmalıyam.

Qadın söylənə-söylənə gəlib qapını açdı.

– Qardaş, sən burada dayan, gedib çırağı yandırım.

Qadın Rəcəb çavuşu qapının astanasında qoyub, içəri girdi. Bir kibrit yandırdı. İçəri işıqlandı.

Bu dəmdə üçü də birdən işığa tərəf getdilər. Qadın işıqda üç kişini görəndə özünü itirdi. Çaşqın nəzərləri bir anlığa Məmmədə zilləndi. Sonra birdən çığırdı. Rəcəb çavuş dərhal qadını tutdu. Əli ilə onun ağzını yumdu.

– Abdi ağa evdədirmi? – deyə Məmməd qəzəblə soruşdu.

Qadın:

– Yoxdur, – dedi. – O, daha evə gəlmir, dırnağına qurban olduğum, Məmməd. Abdi ağanı görüm gorbagor olsun.

Artıq evdəkilərin hamısı oyanmışdı, onlar titrəyə-titrəyə qaçaqlara baxırdılar: Abdi ağanın iki arvadı, iki oğlu, başqa kənddən qonaq gələn qadınlar...

Məmməd Çavuşa əmr etdi:

– Qoy qabağına düşsünlər, evi axtar. Abdini harda gördün, oradaca gülləni sıx kəlləsinə!

Çavuş dedi:

– Beş güllənin beşini də kəlləsinə boşaldacağam. Parça-parça edəcəyəm.

Tüfəngin qundağı ilə qadını itələdi:

– Bir işıq yandır, düş qabağıma.

Qadın heç səs çıxarmadan, bir çıraq da yandırdı. Çavuşun qabağına düşdü.

Məmməd qəzəbli-qəzəbli ortada dimdik dayanmışdı. Xırdaca bədəni böyümüşdü, divə oxşayırdı. Qorxunc bir görkəm almışdı. Evdəki qadınlar ağlaşırdılar. İki uşaq küləkdə titrəyən budaq kimi titrəşirdi.

Nə qədər keçdi, bəlli deyil, Çavuş gəldi. Məyus bir halda:

– Hər küncü axtardım, yoxdur, – dedi.



Qadın:

– Bir ay əvvəl Çuxurovaya getmişdir. Sənin gələcəyini bilirdi, gözlərinə yuxu getmirdi, – dedi. – Baş götürüb getdi.

Məmməd:

– Çavuş, – dedi.

– Buyur, Məmməd.

Məmməd uşaqları göstərdi:

– Bunların ikisini də həyətə aparın. Nə lazımdırsa, eləyin.

İki qadın birdən Məmmədin ayaqlarına yıxıldı:

– Sənə qurban olum, Məmməd, mənim tifillərimin nə günahı var? Ayağının altında ölüm, Məmməd. O imansızı tap, öldür. Mənim balalarımın nə günahı var?

Çavuş uşaqlardan yapışıb sürüyürdü. Uşaqlar dirənib çırpınırdılar. Cabbar uşaqların birinin biləyindən yapışıb yerə çırpdı. Uşaq var gücü ilə çığırdı.

Qadının birindən heç səs çıxmırdı. Məmmədin ayaqlarının altında uzanmış, quruyub qalmışdı.

O biri qadın elə hey yalvarırdı:

– Məmmədim, Məmmədim, mənim uşaqlarımmı gətirdilər bu işləri sənin başına? Onların nə günahı var?

Çavuş tutduğu uşağı var gücü ilə yerə atıb, ayaqlarının altına aldı. Tüfəngi uşağın başına dayadı. Üzünü Məmmədə çevirdi:

– De görüm, nə deyirsən, çaxımmı?

Yerdə quruyub qalmış qadın, uşağın birini qapıya qədər sürüyən Cabbarın üstünə bir şahin sürəti ilə atıldı, onun əllərindən yapışdı. Cabbar bir əli ilə belindəki xəncəri çıxarıb qadına sapladı. Qadın «yandım» deyə yerə yıxıldı.

Çavuşun uşağa tüfəngini dayadığını görən qadın:

– Məmmədim, Məmmədim, qıyma balama, – deyə yalvardı. – Haqqın var, amma Məmmədim, balamın nə təqsiri var?

Məmmədin üzü hər saniyə dəyişirdi. Gözlərindəki o iynə ucu böyüklükdə parıltı söndü. Gördü ki, Çavuş tətiyi basır. Olan olacaq. Söz deməyə vaxt yoxdur. Uşağın başına dayanmış lüləyə bir təpik vurdu. Bu anda Çavuş tətiyi basmışdı. Güllə divara sancıldı.

Cabbara da:

– Uşağı burax, – dedi.

Qadın Məmmədin gah bu əlini, gah da o biri əlini öpürdü.

Qadın:

– Get, oğlum Məmməd, – dedi. – Get, o imansızı tap, öldür. Yerdən göyə qədər haqqın var, bala. Onun üçün bir damcı göz yaşı töksəm, qoy mənə Zeynəb deməsinlər. Onu tap, öldür, haqqın var, bala.

Məmməd ağzını açıb bir söz demədi. Əzgin, süst halda ağır-ağır bayıra çıxdı.

Rəcəb çavuş hirslənmişdi. Ana-arvad söyüşü söyürdü. Məmmədin qolundan tutub bərk sıxdı, sanki qolunu qıracaqdı.

– Sən bu ürəklə, – dedi, – nə qaçaq ola bilərsən, nə də intiqam ala bilərsən. Abdi öz adamlarına səni bir dərədə yaxalatdırıb öldürtdürər. Əslinə baxsan elə indidən sənin Dəli Durdu kimi düşmənin var.

Cabbar:

– Mənə bax, Rəcəb çavuş, – dedi, – boş-boş danışma. Dəli Durdu kimi düşmənimiz varsa, Saçıqaralı tayfası kimi böyük tayfa dostumuz da var. Abdinin yerinə bu körpə uşaqlarımı öldürməliydik?!

Rəcəb çavuş susdu.

Çığırtı-bağırtını eşidən qonşular alt tuman-köynəkdə axışıb Abdi ağanın evinə gəlmişdilər. «Məmməd ölməmişdir, Məmməd ölməmişdir» sözləri ağızdan-ağıza dolaşırdı.

– Məmməd ölməmişdir.

– Məmməd Abdi dinsizin cəzasını vermədən heç ölərmi?

– Məmməd uşaqları öldürmədi.

– Məmməddə dəryalar qədər mərhəmət var.

Məmməd, Cabbar və Rəcəb çavuş qapıya toplaşmış camaatı yararaq, həyətdən çıxdılar. Qapıdakı camaat o qədər səssizdi ki, gecə vaxtı nəfəs almaları belə eşidilirdi.



İlk olaraq Məmməd danışdı. Səsi zorla çıxırdı:

– Kəndlilər xəbər tutdular, – dedi. – Rahatlıq verməzlər. Gəlin kənddən çıxaq.

Cabbar:

– Çıxaq, – dedi.

Rəcəb çavuş:

– Mənim yaram ağırlaşdı. Çox ağrıyır. Kənddən çıxaq, nə edək? Acından da öldük.

Məmməd:

– Sonra geri qayıdarıq.

Kəndin kənarına tərəf yollandılar. Arxa tərəfdən gurultu, hay-küy gəlirdi. Kəndin içində itlər hürüşürdü. Hər tərəfdən qəzəblə hürən itlərin səsi gəlirdi.

Rəcəb çavuş dərindən nəfəs alaraq:
– Gəlin oturaq, – dedi. – Mən yoruldum. Mən öldüm. Yaramın ağrısı da heç azalmır.
Cabbar.
– Sən də, ay Çavuş, – dedi, – belə xasiyyətin vardı, niyə yaralanırdın axı!
Çavuş hirsləndi, ayağa qalxdı:
– Ay it küçüyü, – deyə bağırdı. – Ay it küçüyü, bir də ağzını açıb mənə söz desən, gülləni çaxacağam sənə. Neçə dəfədir sənə deyirəm.
Cabbar qəhqəhə ilə güldü.
Məmməd:
– Eləmə, Cabbar, – dedi. – Başımıza bir iş açarsan.
– Bu yava arvadın qarnından çıxanın üzündən mütləq əlimdən bir xata çıxacaq. Vallah çıxacaq.
Məmməd:
– Fikir vermə, ay Rəcəb çavuş, – dedi. – O zarafat eləyir.
Rəcəb çavuş:
– Eləməsin, – dedi. – Mən canımın dərdindəyəm.
Məmməd:
– Cabbar, daha zarafat eləmə, – dedi.
Cabbar gedib Rəcəb çavuşun əllərindən tutdu, öpdü.
– Məni bağışla. Daha zarafat eləməyəcəyəm.
Rəcəb çavuş:
– Şeytan tükü var bu əclafda, – deyə güldü.
Cabbar:
– Tövbə olsun, daha zarafat eləməyəcəyəm. – dedi.
Yerə oturdular. Kəndin içində hay-küyün kəsilməsini, adamların evlərinə dağılışmalarını gözlədilər. Bu arada heç biri danışmadı. Üçü də ayrı-ayrı şeylər düşünürdü.
Getdikca gurultu zəifləyir, itlərin hürüşməsi kəsilirdi.
Bu səssizlikdən Cabbarın ürəyi sıxıldı. Özünü saxlaya bilmədi:
– Rəcəb çavuş... – deyə başladı.
– Nə deyirsən? – deyə Rəcəb çavuş soruşdu.

Cabbar:

– Rəcəb çavuş, – dedi, – Məmməd qabağını kəsməsəydi, o körpə uşağı öldürəcəkdinmi?

Çavuş dedi:

– Öldürmək nədir, lap canını da alacaqdım. Necə məgər?

– Heç. Elə-belə soruşdum...

Rəcəb çavuş dişlərini qıcırdaraq:

– Cabbar, – dedi, – sizin kəndin yava qadını hökmən sənin anan olub, dəyyusu da atan.

Məmməd:

– Cabbar, daha bəsdir, sus, – dedi.

– Susdum.

Kənddə bütün səslər kəsilmiş, adamlar evlərinə çəkilmiş, kənd yenə də qaranlığa qərq olmuşdu.

Məmməd:

– Qalxın, – dedi, – gərək səhər açılmamış bizim Durmuş Əli əminin evinə gedib çataq.

Rəcəb çavuş:

– Gözünə dönüm, Məmməd, – dedi. – Tez gedək.

Ayağa qalxdılar.

Kənd yenə də birinci dəfə girdikləri zamankı kimi bom-boş idi.

Durmuş Əli ayaq səslərini uzaqdan eşidib qapını açmışdı. Qapıda gözləyirdi.

– Mən də yatmamışam, – dedi. – Sizi çoxdandır gözləyirəm.

Rəcəb çavuş:

– Budur, biz gəldik, qardaş, – dedi.

– Sizə toyuq kəsdirib bişirtdirmişəm. Yəqin ki, acsınız.

Rəcəb çavuş:

– Ay qardaş, hələ bir soruşursan da! – dedi.

Rəcəb çavuşun bütün patrondaşları, kəməri, tüfənginin qayışı gümüş işləməli idi. Gümüşlər mahir zərgər əlindən çıxmışdı.

Rəcəb çavuşun sallaq bığları qırmızı idi. Bığlarına xına qoyardı.

Onlar oturan kimi utancaq bir qız Məmmədə xəlvəti baxıb gülərək süfrə gətirdi. Süfrəyə plov gəldi. Plovdan isti buğ çıxırdı. Mis tavada da qızardılmış toyuq gətirdilər.

– Bax bu plov yaramın ağrısını kəsər. Mənə bu cür buğlanan, yağı ətir qoxusu verən plov lazımdır.

Cabbar:

– Ay Çavuş, – dedi, – sən qaçaq deyil, dəftərxana mirzəsi olmalıymışsan.

Çavuş hiddətlə:

– Kəs səsini! – deyə bağırdı.

Məmməd Cabbara:

– Çavuşa toxunma, – dedi.

– Mən ona bir şey demədim ki, – deyə Cabbar cavab verdi.

Durmuş Əli bayaqdan bəri Məmmədə nə isə demək istəyirdi, ancaq deyə bilmirdi. Ya araya söz düşür, ya da deməkdən vaz keçirdi. Məmməd bunu sezdi.

– Durmuş Əli əmi, – dedi, – nə demək istəyirsən, de! Bayaqdan bəri niyə udqunub durursan?

Durmuş Əli:

– Niyə udqunum, ay oğul, – dedi. – Sənin yaxşı bir adam olduğun, əslində hələ uşaqlığından məlumdur. Yaxşı elədin ki, o körpə uşaqları öldürmədin.

Durmuş Əlinin bu sözlərinə Rəcəb çavuşun bərk acığı tutdu:

– Qoca! – dedi. – Belə işlərdən sənin başın çıxmaz. Sən heç bilirsənmi intiqam nə deməkdir? Başından heç belə bir fikir keçibmi?

Durmuş Əli boynunu bükərək:

– Yox, – dedi.

Rəcəb çavuş:

– Məmmədin yerində mən olsaydım, onun evində canlı məxluq qoymazdım. Hamısının başını kəsərdim. Evini də yerlə-yeksan elərdim. Anladınmı, qoca?

Durmuş Əli Məmmədə baxaraq:

– Anladım, – dedi.

Yeməyə başlayandan bəri Məmməd başını aşağı salaraq dinmirdi, fikirli idi.

Məmməd:

– Durmuş Əli əmi, – dedi, – Allah artıq eləsin. Yeməyini yedik.

Cabbar:

– Allah artıq eləsin, – deyə təkrar etdi.

Rəcəb çavuş:

– Allah artıq eləsin, – dedi. – Canım yerinə gəldi.

Cabbar danışmağa hazırlaşırdı. Məmməd qoymadı.

– Durmuş Əli əmi, səndən bir şey soruşacağam.

– Soruş, oğlum.

– Görəsən, Topal Əli hansı kəndə köçmüşdür? Bilirsənmi?

– Deyirlər ki, Çağşaq kəndinə köçmüşdür. Buradan Çağşağa iki günlük yoldur.

– Topalın orada olub-olmadığını necə öyrənə bilərik?

– Kor Əlinin bacısı orada ərdədir. İki gün əvvəl oradan gəlmişdir. Gedib ondan soruşaram.

Məmməd üzünü Rəcəb çavuş ilə Cabbara çevirdi:

– Topal Əlini hökmən tapmalıyıq. Əgər Çağşaq kəndindədirsə, ora gedərik.

– Gedərik, – deyə Cabbar razılaşdı.

Çavuş:

– Bəs mənim yaram? – deyə soruşdu. – Getdikcə ağırlaşır.

Məmməd:

– Sən getmə, Çavuşum. İstəyirsən burada qal. Burada sənə Durmuş Əli əmim baxar.

Durmuş Əli:

– Baxaram, qardaş, – dedi. – Yaxşı da saxlaram.

Çavuş ildırım vurmuş kimi diksindi:

– Mənmi? Mən sizdən ayrıla bilmərəm. Başa düşdünüzmü? Ölərəm, amma yenə də sizdən ayrılmaram. Ayrılma-

ram, amma sizə bir təklifim var. Gəlin adam göndərək, o, buraya gəlsin.

Durmuş Əlinin yaşlı arvadı bir kənarda oturmuşdu. Sözə qarışdı:

– O yezidimi deyirsiniz? Məmmədi izləyib tapan, başına bu işləri açan o yezid deyildirmi? Onun dalınca adam göndərsəniz, qaçar. Baş götürüb dağlara düşər. O imansız buraya heç gələrmi?

Durmuş Əli Məmmədin gözlərinin içinə baxaraq:

– Sən Topalımı istəyirsən, oğlum? – deyə soruşdu.

– Hə, Topalı istəyirəm.

– Siz iki gün bizim tövlədə qalarsınızmı?

Məmməd heç fikirləşmədən:

– Bir həftə da qalarıq, – deyə cavab verdi.

Durmuş Əli:

– İndi mən Kor Əlini ata mindirib göndərərəm Topal Əlinin yanına. Deyər ki, səni Durmuş Əli istəyir. Bir iz var, tapdırmaq istəyir. Deyirlər ki, Topal Əli iz axtarmaqdan vaz keçmişdir. Sənin işindən sonra and içib ki, daha iz axtarıb tapmasın. Amma mən xəbər göndərsəm, gələr. İz axtarmasa da gələr. Sən ona bir pislik etməzsən ki, Məmməd?

Durmuş Əlinin arvadı yenə də sözə qarışdı:

– Qoy eləsin. Məmmədim onu da salsın xəncərinin altına, doğram-doğram doğrasın. Məmmədin başına bu işlərin hamısını o imansız gətirmədimi? O olmasaydı, meşənin içində Məmmədimi kim tapa bilərdi? Məmmədim, qoy Durmuş Əli adam göndərib onu buraya gətirtsin, sən də bu qapının qabağında onu parça-parça elə. Mən də bütün kəndliləri buraya toplaram. Qoy görsünlər!

Durmuş Əli:

– Dəli-dəli danışma, ay arvad, – dedi. – Topal bu işi Məmmədə pislik eləmək üçün tutmadı. O, iz axtaranda heç bir şey düşünmür. Gözü dünyada heç bir şey görmür. Yaxşılıqmı, pislikmi etdiyini bilmir. Ona iz axtarmaq dedinmi, ağlı başından çıxır. Meşədən qayıdandan sonra görmədinmi

onun üzünü? Qanı tamam çəkilmişdi. Üzü ölü üzü kimi idi. Hamı şahidlik etdi, o isə kəndindən qovulmağı, yersiz-yurdsuz qalmağı gözünün altına aldı, amma Xətcənin üzünə durmadı. Yurdunu-yuvasını qoyub getdi. Oğlum Məmməd, Topal Əliyə heç bir şey eləmə! Topal Əli pis adam deyil.

Durmuş Əlinin arvadı:

– Topal Əli istəyir yaxşı adam olsun, istəyir pis adam. Sənin başına bu işləri o gətirdi, öldür onu, Məmmədim. Durmuş Əli adam göndərib gətirtməsə, sən özün get, ilanın yuvasında da olsa, onu tap çıxar. Belindəki bu iri xəncəri sox onun qarnına!

Durmuş Əli hirsləndi:

– Mənə bax, ay arvad, – dedi, – Allahını sevirsənsə, bu işlərə qarışma.

Qadın:

– Durmuş Əli! – dedi. – Oğlanı başdan çıxarma. Nə eləyəcəksə, qoy eləsin.

Durmuş Əli:

– Necə yəni qoy eləsin, – dedi. – Eləmək istədiyini eləsin, öldürsün yazığı? Topal Əli iz axtarmaq dəlisidir. Məmmədin başına belə işlər gələcəyini o heç fikirləşməmişdi. Fikirləşsəydi, yenə izi axtarıb tapardı. O, iz axtarmaq dəlisidir. Qoy Məmməd yazığı öldürsün, sənin ürəyin soyusun, eləmi?

Qadın:

– Ürəyim elə soyuyar ki, – dedi, – lap buz kimi olar. Onun qana bulaşmış ölüsünü bir görsəydim!..

Durmuş Əli:

–Ona bir şey eləməzsən, eləmi, oğlum, Məmməd? Yazığa bir şey eləməzsən? – deyə soruşdu.

Məmməd ağır, təmkinli səslə:

– Mən də ona iz axtartdıracağam, – dedi.

Qadın:

– İz axtartdır, – dedi. – Sonra da divan tut o imansıza. Səni bu kökə saldı. Xətcəm də onun üzündən dustaqxanada çürüyür.

Durmuş Əli ağzını Məmmədin qulağına yaxınlaşdırıb:

– Onun izinimi? – deyə soruşdu.

Məmməd gözləri ilə onun dediyini təsdiq etdi.

Durmuş Əli:

– Bax buna sevindim, oğlum, – dedi. – Çox sevindim. İndicə gedib Kor Əlini yorğan-döşəkdən qaldıraram, yola salaram. Topal Əli dağ deməz, təpə deməz, qaça-qaça gələr. İndi qoy sizin yatağınızı bizim tövlədə düzəltsinlər. İki gün orada qalarsınız.

Sonra Durmuş Əli:

– Arvad, – deyə səslədi, – dəli-dəli, boş-boş danışmaqdansa, dur get, tövlədə yataq düzəltdir, qonaqlar yatsınlar. Mən Kor Əligilə gedirəm.

Arvad:

– Get, – dedi, – lap cəhənnəmin dibinə get.

Durmuş Əlinin arvadı qısaboylu, saçları ağappaq ağarmış, dişləri tökülmüş, ağzı torba ağzı kimi büzülmüş, tünd-əsmər bədənli, boz-mavi gözlü bir qadındı. Məmmədin yanına gəldi. Çox mühüm bir sirri açmaq istəyən bir adam kimi əl-qol hərəkətləri ilə: «Gəl, yanıma gəl» dedi. Ağzını Məmmədin qulağına yaxınlaşdırıb:

– İnanma bu namussuzlara, güvənmə onlara. Durmuş Əli əminə də güvənmə. Bunlar hamısı o imansız Abdinin adamlarıdır. Bəlkə, indi səni tövləyə salar, sonra da gedib jandarma xəbər verərlər. İnanma onlara. Durmuş Əli əminə də güvənmə. Ona görə də mən gedib iki gün dəyirmanda gözləyərəm. Jandarmlar gəlsələr, sizə xəbər çatdıraram. Bayıra çıxıb qaçarsınız. Ay oğul, bu kənddə bircə mən istəmirəm ki, sənə pislik eləsinlər. Sən Dönəmin yadigarısan. Sənin atan çox yaxşı adamdı! Sən onun mənə yadigarısan. Tövlədə yatağınızı düzəltdirərəm. Elə indi yatacaqsınızmı?

Məmməd:

–Yuxusuzluqdan ölürəm, Hürü ana, – dedi. – Lap ölürəm. Üç gündən bəri...

Hürü:

– Vay, – dedi. – Gözlərim ovulub ovcuma tökülsün. Vay!

Qadınlara bağırdı:

– İmansızın qızları! Uşaqlar yuxusuzluqdan ölürlərmiş, bizim də heç xəbərimiz yox... İnəklərin köhnə pəyəsinə yorğan-döşək aparın. Samanların üstünə salın.

Rəcəb çavuş:

– Oy-y-y, – dedi. – Oy, anam!

– Nə oldu, Çavuş? – deyə Məmməd soruşdu.

Çavuş:

– Bir boynuma baxsana, – dedi. – Bir gör necə şişib! Baxsana! Çiyinlərimin arası bərk sancır.

Məmməd:

– İndi bir çarə eləyərik, – dedi,

Hürü:

– İndi Hürü anan sənə bir dərman düzəldər ki, heç bir yerin ağrımaz.

Yorğan-döşək tez pəyəyə aparıldı. Qonaqlar da oraya getdilər. Pəyənin orta dirəyindən kiçik bir çıraq asılmışdı. Titrək işıqla yanırdı. Pəyə yarısına qədər samanla dolu idi. Saman qoxusu adamın boğazını yandırırdı. Saman qoxusu xoş, tozlu qoxudur. Bir tərəfə də təzək yığılmışdı. Təzək acı qoxurdu. Pəyənin tavanı hörümçək toru ilə dolu idi. Hörümçək torlarına saman çöpləri yapışmış, asılıb qalmışdı. Minlərlə saman çöpü... Qadınlar qapını örtüb getdilər. Kiçicik pəncərədən alaqaranlığın ilk işıqları sızırdı. Dan yerinin sökülməsinə az qalmışdı.

Yataqlar saman üstünə salınmışdı. Cabbar yatağın yanında dayanmışdı və gözüyumulu hey əsnəyirdi.

Rəcəb çavuş özünü yatağa yıxdı:

– Mən od tutub yanıram, uşaqlar. – dedi. – Hamımız yatmayaq. Birimiz növbətçi qalsın.

Məmməd:

– Siz yatın, – dedi. – Mən növbətçi qalaram.

Məmməd kədərindən ölürdü.

Cabbar yatağa girən kimi yuxuya getdi. Rəcəb çavuş zarıldayırdı.

Məmməd tüfəngini götürmüş, samanlığın yuxarısına çıxıb oturmuş, başını dizlərinin üstünə qoymuşdu.

Günortaya yaxın Hürü qonaqlar üçün yemək gətirdi. Çavuş hələ də zarıldayırdı. Bunu görən Hürü:

– Tfu, – dedi, – unutdum.

– Nəyi unutdun, Hürü ana? – deyə Məmməd soruşdu.

Hürü Rəcəbi göstərərək dedi:

– Bu qardaşın yarasının dərmanını...

Dərhal dönüb getdi.

Onlar yeməyi təzəcə qurtarmışdılar ki, Hürü əlində buğlanan bir qab içəri girdi.

– Bu dərmanı atam hazırlardı, – dedi. – Bu dərman vurulanları dərhal yaxşı elərdi. Mən də bunu qardaş üçün hazırladım.

Rəcəb çavuşun yarasını tez-tez açmağa başladı. Əlləri alışqan əllər idi. Sarğılar yaraya yapışmışdı. Açmaq asan olmadı.

Hürü:

– Vay qardaşım, – dedi, – yaran yaman irinləmişdir. Vay qardaşım.

Rəcəb çavuş dişlərini bir-birinin üstünə basaraq zarıldayırdı. Hürü yaraya dərman qoydu. Tərtəmiz parça ilə sarıdı.

Rəcəb çavuş:

– Əllərin var olsun, bacı. Gözəl əllərin var olsun, – dedi. – Rahat oldum.

Rəcəb çavuş gedib yatağına girdi.

Cabbar Məmmədə:

– Sən də yat, qardaş, – dedi. – Mən gözlərəm.

Hürü:

– Mən də dəyirmana gedirəm. Bunlar bir imansızlıq eləməsinlər. Jandarmları uzaqdan görən kimi sizə xəbər çatdıraram. Bu evdə Məmmədimə heç kəs bir pislik edə bilməz.

Gözəl Dönəmin oğluna... İndicə dəyirmana gedərəm. Baxaram jandarmların yoluna.

Məmməd yatağına girdi, amma heç cür yuxusu gəlmirdi. Neçə gündən bəri yuxusuzdu, yorğundu, amma yenə də yuxusu gəlmirdi. Anasının ölümü, Xətcənin dustaqlığı ona çox təsir eləmişdi. Məmməd bu qədər fəlakətin altında əzilmiş kimi idi. Bəzən boğulan kimi olurdu. Ürəyi sanki od-alov içindəydi. Düşüncəyə dalır, sonra heç cür özünü bu düşüncədən ayıra bilmirdi. Nədənsə bəzən özündən, insanlardan, yoldaşlarından, hər şeydən hürkürdü. Amma ürəyindən keçənlərin heç birini heç kəsə açıb söyləmirdi.

Gecəyarısı Cabbar onu oyatdı:

– Yuxum gəldi. Növbəni qəbul et, – dedi.

Məmməd əslində yatmamışdı. Yataqdan qalxdı. Durub oturdu. Tüfəngini qucağına aldı. Gedib samanın hündür yerində oturdu. Dizlərini sinəsinə tərəf çəkib, başını dizlərinin üstünə qoydu. Yenə düşüncəyə daldı.

Səhər açılana yaxın bir az mürgülədi. Samanlığın qapısı açılan kimi tüfəngini əlinə aldı.

Durmuş Əli:

– Neyləyirsən, İncə Məmməd, olmaya məni vurmaq istəyirsən? – deyə gülümsədi.

Məmməd cavab vermədi.

Durmuş Əli dedi:

– Kor Əli gedib Topal Əlini gətirmişdir. Evdədirlər. Yoldaşlarını oyat, evə gəl. Topal Əliyə məsələni başa saldım. Çox qorxur. Qorxusundan az qalır ölsün. Bizim dəli arvad da Topala ağzından çıxanı dedi. Hərifin üstünə atılıb üzünə tüpürdü. Səni İncə Məmməd öldürməzsə, mən öldürərəm, – dedi. – Bunu eşidən Topalda daha öd qalmadı. «Məni öldürtmək üçünmü gətirtdin?» deyir, tir-tir titrəyir. Qorxusundan öləcək.

Məmməd Topal Əlinin gəldiyini eşidincə, üzündə xəfif bir sevinc oxundu. Cabbar da oyanmışdı. İstədilər ki, Çavuşu oyatmasınlar. Hirsləncəyini düşünərək oyatdılar.

Cabbar:

– Qalx, – dedi, – Rəcəb çavuş, qalx! Məşhur iztapan Topal Əli gəlmişdir. Gərək onunla danışaq.

Rəcəb çavuş boynunu dik tuta bilməyərək:

– Topal Əlimi? – deyə heyrətlə soruşdu. – Topal Əlimi?

Cabbar:

– Hə, iztapan Topal Əli-i-i-i, – deyə uzatdı. – Topal Əli-i-i-i...

Rəcəb çavuş:

– Vay onun, – dedi. – Vay onun! Demək, gəldi, hə? Oy... oy... oy-y-y. Boynum qırıldı.

Cabbar dedi:

– Nə var, Rəcəb çavuş? Eləmə canım!

Məmməd:

– Qalxın, – dedi. – Gedək onun yanına.

Rəcəb çavuş:

– Gözləyin, – dedi. Paltarlarını çırpmağa başladı. Gümüş işləməli qayış-kəmərlərini səliqə ilə düzəltdi. Bığlarını xeyli burdu. Gümüş darağını çıxarıb saçlarını daradı. Könlü istəmədiyi üçün ayaqlarına baxa bilmirdi. Ayaqqabılarının dabanı tamam getmişdi. Fəsinin tozunu paltarının qolu ilə təmizlədi.

Cabbar dayanmayaraq:

– Tez ol, Çavuş, – dedi, – ayaqqabılarımız azacıq pisdir, ancaq nə edək?

Çavuş:

– Nə edək? – deyə təkrar etdi.

Onlar evə girəndə, ocaq başında oturmuş Topal Əli ayağa qalxmağa çalışdı. Azca qalxa bildi. Sonra yenə oturdu. Üzü kül kimi bomboz idi.

Kor Əli:

– Əli qardaşı gətirdim, – dedi.

Məmməd:

– Sağ ol, – dedi.

Rəcəb çavuş dişlərini qıcırdaraq, Topal Əlinin gözlərinin içinə baxdı:

– O iztapan dəyyus sənmisən? Bura bax, heç Allahdan qorxmadınmı? Bəndədən həya etmədinmi?

Topal Əli gözlərini aşağıya, ocağın küllərinə zilləyərək qımıldanmırdı.

Məmməd:

– Çavuşum, sus, – dedi. – Mən Əli ağa ilə danışacağam.

Çavuş hiddətlə:

– Danış baxaq! – dedi. – Danış bu dəyyus, namussuz, vicdansızla.

Məmməd Topal Əlinin yanına gəldi, diz-dizə oturdu.

– Əli ağa, – dedi, – sənə işim düşüb. Mənimlə bayıra çıxarsanmı?

Topal Əli oturduğu yerdə donub qalmışdı:

– Məmmədim, işin belə olacağı heç ağlıma gəlməzdi. Qıyma mənə. Çoluq-çocuğum var. Qıyma mənə.

Məmməd:

– Qorxma! – dedi. – Bayırda sənə gizli bir söz söyləyəcəyəm.

Topal Əli:

– Qıyma mənə! – deyə inlədi. – Nə olar ki, qıyma mənə! Mən elədim, sən eləmə, qardaş!

– Qalx ayağa, bax bu küncdə sənə bir soz deyəcəyəm.

Topal Əlinin üzündə bir damcı qan qalmamışdı. Titrəyirdi:

– Nə olar ki, qıyma mənə! – dedi. – Yetim qoyma uşaqlarımı. Ayağının altından öpüm, Məmməd qardaş. Mən elədim, sən eləmə!

Rəcəb çavuş hirsləndi:

– Ey, bura bax, Topal dəyyus, – dedi, – dünyada eləmədiyin pislik qalmadı. Qalx ayağa görüm.

Belindən asılmış xəncəri çəkdi.

Məmməd:

– Çavuşum, – dedi, – bu adama toxunma.

Çavuş:

– Toxunmarıq, – deyə başını salladı. – Toxunmarıq, qardaş. Bizə nə? Lap istəyirsən, götür bu Topal Əlini çiçək əvəzinə başına sanc.

Bunu deyib xəncəri könülsüz-könülsüz qınına keçirtdi.

Məmməd:

– Qorxma, Əli ağa, – dedi, – sənə heç bir şey eləmək fikrində deyiləm. Səni vurmaq istəsəydim, oturduğun yerdə də vurardım. Qulağına gizli bir söz deyəcəyəm.

Topal Əli:

– Çoluq-çocuğumun babalını boynuna götürmə, – deyə ayağa qalxdı. Topal ayağını dalınca sürüyə-sürüyə gedib evin qaranlıq küncündə dayandı. Onun dalınca Məmməd də ayağa qalxdı, onun yanına getdi:

– Mənə bax, Topal Əli, – dedi, – bu qədər fəlakəti mənim başıma sən açdın. Nə isə igidlik də eləmisən. Bunlar olub keçdi. Gəl indidən danışaq. Sən bir iz axtarıb tapmalısan.

Topal Əli:

– Vallah, – dedi, – sənin məsələndən sonra iz axtarmağı tövbə eləmişəm. Öldür məni. And içmişəm ki, daha iz axtarmayım. Əlimi bir daha qana bulaşdıra bilmərəm.

– İzi axtarmasan, onda səni öldürərəm.

Topal Əli boynunu bükdü:

– Bunu mənə eləmə! – dedi. – Allah eşqinə eləmə!

Məmməd:

– İzi axtarıb tapacaqsan, – dedi, – heç yalvarıb-yaxarma.

Topal Əli:

– Kimin izini axtarmalıyam? – deyə məsum-məsum soruşdu.

– Abdi ağanın izini. Onu tapmalısan. İlanın yuvasında, quşun qanadının altında olsa da tapmalısan. Onu tapmasan, onda...

– O-o-o-oho, ay qardaş! Məndən istədiyin elə buydu? Təki istədiyin Abdi olsun. Lap cəhənnəmdə olsa da, tapıb çıxararam. İndi o, ya qəsəbədədir, ya Avşar kəndində, ya da Sarıbağçada. Bu üç yerin birində... Gəlin mənimlə Çuxurovaya gedək, onu öz əlimlə qoymuş kimi tapım. Tapıb sizə təslim edim o imansızı. O imansız mənim evimi başı-

ma uçurtdu. Onun üçün yalançı şahidlik etmədiyimin üstündə. Çağşaq kəndində arvad-uşaqla ac qalmışıq. Elin içində qərib qalmışam, qardaş. O imansızı parça-parça elə. Onu tapmaq üçün əlimdən nə gəlirsə, eləyərəm. Qaçaq da olaram. Qaçaq olub, səninlə dağları gəzərəm.

Məmməd:

– Oldu, – dedi. – İndi gəl gedək, ocağın başında oturaq. Gerisini sonra danışarıq. Heç kəsə söyləmə. Durmuş Əli də işi başa düşmüşdür. Amma o, heç kəsə deməz.

– İstəyir lap bütün dünya eşitsin. Mənim vecimə deyil. Bu adamın kəndlilərə, sənə, Xətcəyə, sonra mənə etdiyi zülm ürəyimə dağ çəkib. Qoy lap bütün dünya eşitsin. Uzaqbaşı bir tüfəng alıb, qoşularam sənə. Vallah vecimə deyil...

Məmməd gəlib ocağın başında oturdu. Topal Əlinin üzü gülürdü.

Durmuş Əli:

– Üzün gülür, Topal, – dedi. – Olmaya yenə axtarmalı yeni bir iz var?

– Yox, – deyə Topal Əli cavab verdi. – Məmməd qardaşın könlünü aldım, ona sevinirəm.

Rəcəb çavuş, Cabbar, Topal Əli və Məmməd birlikdə pəyəyə qayıtdılar.

Samanlıqdan çıxıb yola düşdükləri zaman hələ gün doğmamışdı.

Məmməd:

– Sağlıqla qal, Hürü ana! Durmuş Əli əmi, hamınız sağlıqla qalın, – deyib yola düzəldi.

Kənd yavaş-yavaş oyanırdı. Hətta bir-iki bacadan tüstü çıxmağa başlamışdı.

Hürü qeyzlə:

– Məmməd! Məmməd! – dedi. – O imansız Topalı qiymə kimi doğramasan, o yezidi doğramasan, haqqımı sənə halal etməyəcəyəm. Dönənin sümükləri də qəbrində sızıldar. Dediklərimi eşitdinmi?

Durmuş Əli:

– Yaxşı yol, bala, – dedi. – Baxma bu dəlinin sözlərinə.

Sonra üzünü Topal Əliyə tutub dedi:

– Əli, sən də məni bağışla. Arvadlar yaşa dolanda lap betər olurlar.

Kənddən çıxdıqları zaman Topal Əli:

– O imansızın ölümünü gözümlə görəcəyəm ha! – deyib, dodaqlarını yaladı. Xoşuna gələn bir iş olanda, o, həmişə dodaqlarını yalardı.

Topal Əli sözünə davam edərək:

– Mənə yaxşı qulaq as, Məmməd qardaş, – dedi. – Sənə çox pislik eləmişəm. Bundan sonra sənə çox yaxşılıq eləmək istəyirəm. Bu imansızın işini bitirəndən sonra da sənə kömək eləmək istəyirəm. Sən mərhəmətli, yaxşı oğlansan. Sənin yerinə başqası olsaydı, məni çoxdan öldürərdi. Sən başa düşdün ki, bu işdə mənim günahım yoxdur. Əgər bilə-bilə yalan danışaraq, Xətcənin əleyhinə şahidlik etsəydim, onda günahım böyük olardı.

Rəcəb çavuş çoxdandır söhbətə qarışmırdı. Birdən üzünü Topala tutub:

– Demək, sən yaxşı iz tapırsan? – deyə xəbər aldı.

– Tapardım, – deyə Topal cavab verdi. – Sonra and içdim. İnsan izi axtarmayacağıma and içdim.

Rəcəb çovuş:

– Elə isə bəs heyvanlardan nə istəyirsən? – deyə soruşdu.

Topal:

– Ağam, – dedi, – mən daha maral-filan izi axtarıb tapıram. Ova gedənlərlə. Bunu da eləməsəm, ölərəm. İz axtarıb tapmasam ölərəm.

Cabbar dedi:

– Belə de!

Rəcəb çavuş yenə də:

– Vay anam, vay! – deyə çığırdı.

Asılı qayanın düzənliyinə çatana qədər bir daha ağızlarını açmadılar.

Yollara şeh düşmüşdü. Bu yerlərdə torpaq qırmızı idi. Torpaqdan qoxu da gəlirdi. Çuxurova qoxusuna oxşar bir qoxu.

Rəcəb çavuş:

– Vay, vay! – dedi. – Vay, vay, vay anam! Dizlərim qırılır. Başımı dik saxlaya bilmirəm!

Cabbar:

– Ay Rəcəb çavuş, belə eləmə, – dedi. – Axı sənə nə oldu?

Rəcəb çavuş:

– Vay, vay, vay anam! – deyə hey zarıldayırdı.

Topal Əli dedi:

– Yara çox şişmişdir. Belə olmaz. Getdikcə daha da irinlər. Bir kəndə enək. Sarı Ümmətin evi bu yaxınlardadır. İstəyirsiniz, oraya gedək. Yaxşı adamdır.

Rəcəb çavuş:

– Olmaz, – dedi. – Bir yara üçün evlərdə qala bilmərəm. O imansızın dalınca getməkdən əl çəkə bilmərəm. – Sonra da hirsləndi. – Məmməd, Cabbar, gəlin buraya. Abdini təqib etməkdə dəstəbaşılığı mənə verəcəksiniz. Nə desəm, əmrimdən çıxmayacaqsınız. Qəbul edirsinizmi?



Məmməd:

– Qəbul edirəm, Çavuş, – dedi.

Cabbar:

– Nə olursa-olsun, qəbul edirəm, – dedi. – Ancaq bir de görək nə edəcəksən?

Rəcəb çavuş:

– Kim əmrimə qarşı çıxsa, vuracağam, – dedi. – Atam da olsa, vuracağam.

Cabbar:

– Yaxşı, – dedi, – nə edəcəksən? Heç kəs sənin əmrindən çıxmayacaq. Sən nə edəcəyini söylə.

Rəcəb çavuş:

– Dalısına qarışma, – dedi. Üzünü Topal Əliyə çevirdi: – Topal Əli, sən yaxşı iz tapırsan. Bu Abdi imansızın yerini tapacağına söz vermisən.

Topal Əli:

– Hə, söz vermişəm, – dedi. – Söz verməsəm belə, onu mən öldürmək istəyirəm. Onu lap çiy-çiy yemək istəyirəm.

Rəcəb çavuş:

– İndi gəl, qabağımda dayan, – dedi. – Söylə görək, sənin fikrincə, indi Abdi hardadır?

Topal:

– İndi yerini bilə bilmərəm. Ya qəsəbədədir, ya Avşar kəndində. Bəlkə də, Yürəgirə enmişdir. Onu axtaracağınızı bilirsə, hökmən Yürəgir düzənliyinə enmişdir. Çünki qaçaqlar Yürəgirə enməzlər. Düzənlikdə gizlənə bilməzlər.

Rəcəb çavuş:

– Yaxşı, Yürəgirə enmişsə, nə edəcəyik? – deyə soruşdu.

Topal Əli:

– Mən onu gözətlərəm. Nə zaman Yürəgirdən çıxsa, sizə xəbər verərəm. Mən onu gözdən qoymaram.

Rəcəb çavuş:

– Bəs indi nə etməliyik? – deyə xəbər aldı.

– Siz indi Sarı Ümmətin evində qalarsınız. Mən Çuxurovaya enib, onun yerini taparam. Gəlib sizə xəbər verərəm. Gəlin, Sarı Ümmətin evinə gedək. Bizə uzaqdan qohumluğu çatır. O imansızdan zəhləsi gedir.

Günortaya yaxın gəlib Sarı Ümmətin meşəlik bir təpədə yerləşən evinə çatdılar.

Topal Əli:

– Bizim İncə Məmməd budur, – deyə onu Ümmətə nişan verdi.

Ümmət:

– Qardaş, – dedi, – çəkilib dağa çıxdığını eşidib çox sevinmişdim. Səni görməyi çox arzulayırdım.

Topal Əli onları evin həyətində qoyub geri döndü, yola düzəldi.

Sarı Ümmət onun arxasından:

– Bir qəhvə içib, sonra gedəydin, Əli qardaş, – deyə səslədi.

Topal Əli geri dönmədən, öz-özü ilə danışırmış kimi:

– İşim var, Ümmət qardaş, – dedi. – Tələsik işim var.

Topal ayağını dalınca sürüyərək, sürətlə, yıxıla-qalxa gedirdi.

Gecə zəif külək əsirdi. Ay donuq işıq saçırdı. Ayın işığı ağacların arasından süzülürdü.

Topal Əli öz-özünə dedi: «Quşun qanadının altına qısılmış olsa da, onu tapacağam».

Evinin uçurdulması gözlərinin önünə gəldi. İllər boyu çalışıb səliqə ilə tikdiyi, bəzədiyi evini Abdi ağanın adamları bir saatın içində uçurdub, xarabaya çevirmişdilər. Bunu düşünürkən dişlərini qıcırtdı. Daha da sürətlə getməyə başladı.

Qəsəbəyə girəndə səhər təzəcə açılırdı. Bazar yerinə gəldi. Süpürgəçi Mühacir Murad toz qaldıra-qaldıra bazar yerini süpürürdü. Muradın üşüdüyü görünürdü. Murada salam verərək, sürətini azaltmadan qəhvəçi Tofiqin qəhvəxanasına tərəf getdi. Qəhvəxana təzəcə açılmışdı. Bir çay istədi. Buğlanan bir  çay gətirdilər. Həyəcanından narahat halda, dükan açılanadək qəhvəxanada gözlədi.

Günəşin ilk şüaları qəsəbənin ağ küçələrinə süzülən zaman Mustafa əminin dükanına getdi. Maraşlı Mustafa əmi xoşəhval, ağsaqqal bir adamdı. Dükanı hələ açmamışdı. Əli kürəyini dükanın qapısına verib oturdu. Gözlədi. Qabağından bir qotur it burnunu yerə sürtə-sürtə keçdi. Kor Hacının nal qayırdığı yer qarşıda idi. Bir azdan Kor Hacı gəldi, dəzgahın başına keçdi, mahnı oxuya-oxuya nal qayırmağa başladı. Qarşıdakı divarın dibinə tökülmüş peyin buğlanırdı. Gün qızan kimi buğ çəkildi. Sonra da Mustafa əfəndinin yuxarı tərəfdən gəldiyi göründü. Səhərsəhər Topal Əlini öz dükanının qabağında görən Mustafa əfəndi güldü:

– Ay Əli, – dedi, – nə var? Olmaya oğrunun izini bizim dükanın içinə gətirmisən?

Topal Əli gərinərək özünü dikəltdi:

– Elədir, – deyə cavab verdi.

Mustafa əfəndi dükanını açıb içəri girdikdən sonra:

– Əli, içəri gəl görək, – dedi, – haralardaydın, ay qardaş? Heç görünmürsən.

– Heç soruşma. Fəlakət mənə üst-üstdən üz verir.

– Eşitmişəm.

– Eşitdiyin düzdür.

– Abdi bunu yaxşı eləməmişdir. Beş vaxt namaz-niyazındadır, amma yaxşı iş görməmişdir. Sənə elədiyi insana yaraşmaz.

Topal Əli Mustafa əfəndidən söz almaq istəyərək:

– Eşitdiyimə görə, Abdi ağa buradadır. Görəsən, buralarda nə gəzir? – deyə soruşdu. – Əgər o, buralardadırsa, mən qəsəbədə gəzməyim. Sonra başıma yenə iş gətirər.

Mustafa əfəndi:

– Qorxma, Əli, – dedi, – o öz canının hayındadır. O uşaq var ha, gedib qaçaq olmuşdur. Dediklərinə görə qoçaq oğlandır. Abdi o oğlandan yaman qorxub gizlənir. Qəsəbədə belə qala bilmir. Dünən gəldi, məndən papiros, kibrit aldı, heybəsinə qoydu. Atını çapıb Ağtozlu kəndinə getdi. O kənddə özünə yer-yurd almaq istəyirmiş. Dinsizin öhdəsindən imansız gələr. Sən fikir vermə, şükür ki... O sənə elədi. İndi bax, əl boyda uşağın qabağından bir gör necə qaçır.

– Görəsən, Ağtozlu kəndində kimin evində qalır? – deyə Topal Əli ehtiyatla soruşdu.

Mustafa əfəndi:

– Kimin evində qalacaq, – dedi. – Kəndxuda Hüseynin evində. Onlar qohumdurlar.

Topal Əli Abdinin Ağtozluda olub-olmadığını yəqin etmək üçün dedi:

– O, Ağtozlu kəndini heç xoşlamır. Həmişə Çuxurovaya gələndə, Sarıbağça kəndində dayısı oğlunun evində qalır.

Mustafa əfəndi hirslənərək:

– Sən nə danışırsan, ay Əli? – dedi. – Adamcığaz sapsarı saralıb kəhrəbaya dönüb, qanı tamam çəkilibdir. O öz canını dayısı oğlu kimi məzlum bir adama heç etibar

edərmi? Bilirsən, o Abdi nə hiyləgərdir! Eşitdik ki, bir neçə gün bundan qabaq o qaçaq oğlan Abdinin evinə basqın etmiş. Abdinin uşaqlarını öldürmək istəyibmiş, amma sonra mərhəmətə gəlmiş, fikrindən vaz keçmişdir. Qaçaq oğlanı tutmaq üçün bir jandarm dəstəsi getmişdir. Oğlanın adı bilmirəm İncə Məmməddir, ya nədir? Bunu eşidən Abdi heç Ağtozlu kəndindən kənara çıxarmı? Kəndxuda Hüseyn igid adamdır. Ölər, amma evinin qonağını ələ verməz. Abdi yaman hiyləgərdir! Heç Sarıbağça kəndinə gedərmi? İndi getsən, onu Hüseynin ocağının başında taparsan. Elə bil əlinlə qoymusan.

Topal Əli:

– Eləyən cəzasını çəkər, – dedi. – O mənə elədi, Allah da ona... El qapılarında o hələ çox sürünəcək. Hələ çox əcəl təri tökəcək.

Mustafa əfəndi:

– Sən Allahınla ol, – dedi. – Sən fikir vermə, eləyən cəzasını çəkər.

Topal Əli Abdi ağanın yerini yəqin öyrəndiyinə baxmayaraq, yenə də ürəyi rahat olmadı. «İncə Məmmədi boş yerə gətirərəm, bu Çuxurovanın düzündə başını bəlaya salaram» – deyə düşündü.

Mustafa əfəndidən bir az halva, qarşıdakı çörəkçidən də bir az çörək aldı. Ağtozlu kəndinə tərəf yola çıxdı.

Qəsəbədən çıxıb bir saat yol gedəndən sonra Ağcasaz bataqlığı başlayır. Burada meşə kimi pöhrəlik var. Savrun çayı qıvrıla-qıvrıla pöhrəliyin arası ilə şır-şır axır, Ağcasazın palçığına qarışır.

Ağtozlu kəndi Ağcasazın kənarındadır. Bu kənddə qızdırma xəstəliyinə tutulmamış adam, demək olar ki, yoxdur.

Yalnıztut kəndinin qamışlığında yolunu azmış kimi oldu. Orada-burada iz axtardı. Bir çaqqal izinə düşüb getməyə başladı. İz bataqlığa gedirdi. İzi tapdığına həm sevinir, həm də hirslənirdi. Öz-özünə deyirdi: «Bu çaqqal, deyəsən, dəli olmuşdur». Amma izi də buraxmırdı. Çaqqa-

lı söyə-söyə izin dalınca getdi. Nəhayət, iz onu quraqlığa çıxartdı. «Bu köpək oğlu çaqqalda bir iş var» – dedi. – «Əslində bütün çaqqallar ağıllı olur...»

Uzun sözün qısası, ikinci gün səhər Ağtozlu kəndinə çatdı. Kənd iyirmi beş-otuz evlik bir kənd idi. Kəndin bütün evləri qamışdan idi. Damların otu təptəzə idi. Bataqlıq yerlərdəki bütün kənd evlərinin damı təzə olur. Bataqlıq yanlarındadır. Tez-tez qamış biçib bağlayırlar. Bataqlıqdan uzaq kəndlərdə damların otunu günəş quruda-quruda seyrəldir, ot gümüşü rəng alır.

Topal Əli Ağtozlu kəndinə girəndə bayırda ins-cins yox idi. Yalnız çəpərləri əyilmiş kiçik bir evin qapısından bir qadın başını bayıra uzadıb, tez geri çəkdi.

– Bacı, – deyə Topal Əli onu səslədi. – Ay xanım bacı! Hüseyn ağanın evi hardadır?

Qadın qapıya qayıtdı. Kəndin ortasında, damının yarısı otla, yarısı dəmirlə örtülmüş uzun bir evi göstərdi. Əli topal ayağını çəkə-çəkə, nəfəsi tutulacaq dərəcədə həyəcanla bu evə tərəf getməyə başladı. Evin alaqapısı açıq idi. Bir an qapının qabağında dayandı. İçəridən uzunboylu bir adam qapıya gələrək:

– Nə istəyirsən, qardaş? – deyə soruşdu.

Topal:

– Mən Abdi ağanın kəndlisiyəm. Ona bir xəbər gətirmişəm, – dedi.

Qapıdakı adam:

– Gir içəri, – dedi.

Topal Əli içəri girdi, uzun evin bu başından o biri başına keçərək, ocağı gur-gur yanan, kilim döşənmiş bir otağa gəldi. Burada o, ocaq başında əyləşib yavaş-yavaş təsbeh çevirən Abdi ağanı gördü: Abdi ağa yuxulayırmış kimi yırğalanırdı. Topal Əli otağın qapısında bir qədər gözlədi. Abdi ağa hələ də yuxulu-yuxulu yırğalanırdı. Arxadan gəlib yetişən ucaboylu adam:

– Ağa, – dedi, – sizin kənddən bir nəfər gəlmişdir.

Ağa qeyri-ixtiyari olaraq başını yavaş-yavaş qaldırdı. Gözlərini Əlinin üzünə zillədi. Əli topal ayağı üstə, yıxılacaqmış kimi dayanmışdı. Əvvəlcə Abdi ağa Əlini tanıya bilmədi. Gözlərini qırparaq baxdı. Tanıyan kimi rəngi qaçdı. Nə isə demək istədi. Sözü yarımçıq qaldı. Nə dediyi anlaşılmadı. Əli ona yaxın getdi. Abdi ağanın gözləri böyüdü. Əlindən təsbeh düşdü.

– Gəl yanıma görüm, oğlum Əli, – deyə bildi. – Kənddən bir xəbərmi gətirmisən?

Əli ocağın yaxınlığında, Abdinin yanında əyləşdi.

Abdi ağa:

– Söylə görüm, bir xəbərmi var? – deyə soruşdu.

Əli ayaq üstə dayanan adama tərəf gözü ilə bir-iki dəfə işarə elədi. Abdi ağa başa düşdü. Üzünü o adama tutub:

– Osman, – dedi, – gizli sözümüz var. Sən hələlik otaqdan çıx.

Uzunboylu adam çıxdı, qapını da örtdü.

Abdi ağa Topal Əliyə lap yaxınlaşaraq:

– Nə xəbər var, Əlim? – deyə soruşdu, sonra da üzü dəyişdi, qorxunc bir hal aldı. – Yoxsa, – dedi, – yoxsa indi də mənim izimi axtarırsan?

Topal Əlinin üzündə elə kədərli bir ifadə vardı ki, sanki indicə ağlayacaqdı. Bu yekəlikdə kişi indicə hönkür-hönkür ağlayacaqdı.

– Ağam, – dedi, – bu iz axtarmaq üzündən başıma olmazın iş gəldi. Yurdumdan oldum. Ev-eşiyimdən oldum. İndi də canımdan olacağam. İncə Məmməd gəlib məni Çağşaq kəndində yaxaladı, oradan götürüb sizin Dəyirmanoluğa gətirdi. Deyirdi ki, «Abdi ağanı da yaxalayacağam, sonra ikinizi də bir yerdə öldürəcəyəm». Bir gecə sizin evə girdi. Qapını sındırdı. Evdən bağırtı, hay-küy gəlirdi. Bu arada mən qaçdım. Hösüyün evinə getdim. Hösük arxama bağlanmış qollarımı açdı. Hösüyə dedim ki, «bir get, gör ağamın evində nələr baş verir?» Hösük getdi, geri qayıdıb dedi ki, «Ağa evdə yoxdur. Məmməd içəridən

qapını kilidləmişdir. Heç kəs içəri girə bilmir. İçəridə qadınlar, uşaqlar çığırışırlar». İki qaçaq da kəndin içinə düşüb məni axtarırmış. Ay ağam, işi belə görüb qaçdım. Mən kənddən çıxandan sonra orada bir mərəkə qopdu ki, gəl görəsən. Çığırtılar lap aşağı dərədə eşidilirdi. Mən qaçıb sənin yanına gəldim ki, bu işə bir çarə tapasan.

Abdi ağanın üzü saraldı. Haldan-hala düşdü.

Bu zaman Topal Əli ağlamağa başladı. Hıçqıra-hıçqıra ağlayırdı.

– Arvad-uşağım Çağşaq kəndində qaldı, ağam. Mənim bir təqsirim varmı? Mən yuxarılara daha necə gedə bilərəm? Mənim başıma bir ağıl qoy, ağam. Səni də düşünürəm. Bu Çuxurova kəndlərində sənin işin necə olacaq, ay ağam! Bizə nə olur-olsun, yenə eybi yoxdur, mən sənin fikrini çəkirəm. Böyük bir ağasan. Beş kəndin ağasısan. Hər yerdə, bütün dağ kəndlərində deyirlər ki, sən bir qarış boyda uşaqdan qaçıb, Çuxurovada gizlənmisən. Mənim işim nə olur-olsun, yenə eybi yoxdur. Mən sənin halına ağlayıram.

Abdi ağanın yanaqları, boynu qıpqırmızı qızardı, gözləri yaşardı:

– Oğlum Əli, – dedi, – sənə pislik elədim. Evini Çağşaqdan gətir kəndinə. Sənə bir kağız verərəm, evdən sənə öküz, toxum verərlər. Məni bağışla, oğlum Əli. Get evini gətir kəndinə.

– Evimi kəndə gətirmək üçün yuxarılara necə gedim? O namussuz oğlu namussuz məni öldürər.

Abdi ağa:

– Qorxma ondan, – dedi. – Qoymaram onu dağda çox yaşasın. Dəli Durdu ilə arası dəymişdir. Dəli Durdu üçün xəbər göndərmişəm. Bu yaxınlarda Çiçəklinin dəstəsini də onun canına salacağam. Qorxma ondan. Canım sağkən onu kəklik kimi ovlatdıracağam. Heç qorxma.

Əlini cibinə saldı. Bir bağlı kağız pul çıxartdı. Arasından onadək yaşıl kağız pul çəkdi:

– Al, oğlum Əli, – dedi, – bunları da özünə xərclik elə. İndi sənə deyəcək sözüm var. Sən birbaş kəndə gedərsən. Bizim evə deyərsən ki, kənddəki sürülərdən üçünü Çuxurovaya aparsınlar. O məlunun gözünə görünmə. İstəsən gecə get. Heç kəs səni görməsin. Oradan bizim muzdurlardan birini öz evinə göndər. Sənin Çağşaqdakı ev-eşiyini yığışdırıb gətirsin kəndə. Sən də mənə bizim uşaqlardan bir xəbər gətir. Bir görüm o məlun uşaqlara nə eləmişdir? Bu məni çox narahat edir! İndi yeməyini ye, yola düş.

Topal Əli yenə ağlamağa başladı:

– Bunu eləmə, ay ağa, – dedi. – Məni təzədən yuxarı göndərmə. O məlunun əlindən birtəhər qurtulmuşam. Bu dəfə məni öldürər.

Abdi ağa hirsləndi:

– Dərhal düş yola! Dediklərimi elə! Qorxma. Bəlkə, jandarmlar indi onu tutmuşlar. O, qaçaqlıq eləmək nə bilir!

Əli:

– Yaxşı, indi gedərəm, ağam, – dedi. – Doğru deyirsən. O, qaçaqlıq eləmək nə bilir!



İçəridən Əliyə yemək gətirdilər. Əli yeməyi tez-tez yeyib yola düşdü.

– Kəndə gedərəm. Ağama bir xəbər gətirərəm.

Uça-uça gedirdi. Ayağının topallığını belə hiss etmirdi. Dayanıb dincəlmədən gedərək ikinci gün özünü Sarı Ümmətin evinə çatdırdı. Gecəyarısı idi. Qapıda yavaşca bir fit çaldı. Ümmət onun fitini tanıdı. Bayıra çıxdı.

– Xoş gəlmisən, qardaş, – dedi. – Yavaş danış. İçəri jandarmlarla doludur. Səninkinin dalınca gedibmişlər. Oradan qayıdıblar. İndi yatıblar. Asim çavuş özündən çıxmışdır. Səninkilər də samanlıqda kef eləyirlər. Onlara bir quzu kəsmişəm. Sənin bu İncə Məmmədin yaman şeydir, polad kimi oğlandır. Dinib-danışmır. Heç bir şeyə qarışmır, görünür ki, ürəyi doludur. Gözlərindən bəllidir. Yanıb-yanıb sönür. Görərsən, bu dağların ən adlı-sanlı qaçağı o olacaq. Gəl səni oraya aparım.

Samanlığa getdilər. Sarı Ümmət yerdən iki daş götürdü, daşları üç kərə bir-birinə vurdu. Qapı yavaşca açıldı.

Topal Əli:

– Mən gəldim, – dedi.

Məmməd:

– Xoş gəldin, – deyib geri çəkildi. Əli içəri girən kimi dərhal qapını örtdü. – Əli ağa, sənin bu Ümmət yoldaşın çox igid adamdır. Çox yaxşı adamdır. Başqası olsaydı, bizi çoxdan ələ verərdi. Jandarmlarla aramızda çoxdan bir cəncəl çıxardı. Yaxşı ki, gəldin.

Topal Əli:

– Qardaş, – dedi, – tapdım. Ağtozlu kəndində Hüseyn ağanın ocağının başında oturmuşdur.

Məmməd sevincindən bilmədi nə eləsin. Cibindən bir kibrit çıxarıb alışdırdı. Bu, böyük bir ehtiyatsızlıq idi. Çıraq kandar tərəfdə idi, tapıb yandırdı.

Cabbarla Rəcəb çavuş küncdə, ikisi bir yataqda yatırdılar. Yavaşca gedib Cabbarı dürtmələdi. Cabbar dərhal səksəkəli halda gözlərini açdı, yanındakı tüfəngini qapdı. Məmməd tüfəngi əli ilə tutaraq

– Bir şey yoxdur, Cabbar, – dedi, – mənəm.

– Nə var? – deyə Cabbar soruşdu. – Bir şeymi oldu?

– Əli gəldi.

– Əlimi?

– Hə, Əli.

– Tapmışmı?

– Tapmışdır.

– İşimiz düzəlib desənə.

– Hə, işimiz düzəlib.

– Dərhal yola düşmək lazımdır. Eləmi?

– Hə, dərhal yola düşməliyik.

– Dərhal yola düşməliyik, amma Rəcəb çavuşun halı pisdir. Boynunu döndərə bilmir. Öləcəyəm deyib qorxur.

– Elə isə bəs nə edək?

– Bəlkə, qoyaq burada qalsın?

– Qalmaz. Başımıza iş açar.
– Çarə yoxdur, oyadaq.
– Oyadaq.
Cabbar Çavuşu dürtmələdi. Çavuş yuxulu-yuxulu sol böyrü üstündən sağ böyrü üstünə çevrildi.
Cabbar:
– Çavuş, qalx, – dedi.
Çavuş:
– Axı mən ölürəm, – dedi. – Ölürəm ey.
– Qalx, Çavuş, qalx, canım. Elə bu saat yola düşməliyik.
Cabbar onun əlindən tutub yataqda oturtdu.
Çavuş donquldanırdı:
– Sən gəl, belə eləmə. Mən ölürəm deyirəm sizə, ölürəm.
Cabbar:
– Qalx, gözünə döndüyüm aslan Çavuşum, – dedi. – Axı sən dedin ki, dəstəbaşısan. Dəstəbaşılıq beləmi olar?
Cabbar Çavuşun əlini buraxan kimi, o, təkrar yatağa yıxıldı, yuxuya getdi.
Məmməd:
– Yazıq, – dedi, – neçə gün ərzində ilk dəfədir ki, yatır. Həmişə çırpınıb dururdu.
– Bəs nə edək? – deyə Cabbar soruşdu. – Bəlkə, qoyaq burada qalsın?
Məmməd:
– Olmaz, – dedi. Çavuşun biləklərindən tutub qaldırdı. Ağzını onun qulağına yaxınlaşdırıb bir neçə kərə təkrar etdi: – Çavuş! Çavuş! Abdi ağa Ağtozlu kəndində imiş. Ağtozluda, Ağtozluda, Ağtozluda... Əli indi gəldi. Topal Əli gəldi. Topal Əli.
Rəcəb çavuş gözlərini açdı.
– Hə-ə-ə? – deyə soruşdu.
Məmməd:
– Abdinin yerini tapdıq. – dedi. – Ağtozludadır.
Rəcəb çavuş:
– Topal Əlimi tapdı?– deyə xəbər aldı.

Məmməd:
– Hə, Topal Əli, – deyə cavab verdi.
Rəcəb çavuş:
– Qərar vermişdim ki, tapmasa, onu vurum. Yaxasını qurtardı, – dedi, ayağa qalxdı. Üz-gözünü turşutdu. Boynunun ağrısını büruzə vermək istəmirdi.
Rəcəb çavuş:
– Uşaqlar, – dedi, – yola düşməmişdən əvvəl yarama bir də dərman qoyun. Rəcəb çavuş ömründə ən yaxşı işi bu gün görəcək. Abdi imansızı öldürəcək. İndiyədək nə qədər günah eləmişsə, Allah bağışlayar.
Topal Əli:
– Dayanın, – dedi, – yaraya mən dərman qoyacağam.
Rəcəb çavuşun dizinin dibində oturdu.
Rəcəb çavuş:
– Bura bax, Əli, – dedi, – əgər onu tapmasaydın, işin pisdi. Vuracaqdım səni.
Əli:
– Budur, tapdıq, – dedi, – fağır-füqəranın düşmənini. Verin cəzasını.
Rəcəb çavuş:
– Elə verəcəyəm ki, – dedi. – Görərsən.
Əli bir çəkmə yağı qutusundan məlhəm çıxarıb, yaraya yaxşıca yaxdı. Sonra da sarıdı.
Racəb çavuş:
– Hə, qalxın, – dedi. – Cəld olun. Dinsizin bir dəqiqə də artıq yaşaması ziyandır.
Onlar iti addımlarla qapıya çıxdılar. Ümmətə: «Allah amanında qal» deməyi belə unutdular. Yola düşdülər.
Cabbar:
– Bu günü də... – dedi.
Məmməd:
– Çox şükür ki, bu günü də... – dedi.
Məmməd nə edəcəyini bilmir, sevincindən ürəyi sinəsinə sığmırdı. Dabanına qüvvət verərək, irəlidə, quş kimi uça-uça gedirdi. Topal Əli də onun ardınca yeriyirdi.

Topal:

– Mənə on lirə də verdi, – deyə bütün əhvalatı, uydurduğu yalanı nağıl edir, onları güldürürdü.

Yalnıztut kəndinə çatanda aclıq onları tamam taqətdən salmışdı. Sevindiklərindən heç yerdə dayanmadan, gündüzlər gizlənir, gecələr pöhrəliklərlə, kolluqların içərisi ilə gedirdilər.

Topal Əli:

– Qorxmayın, indi sizə çörək gətirərəm, – dedi. – Bu oyuqda məni gözləyin.

Topal Əli Yalnıztut kəndinə girdi. Yarım saatlıq məsafədə Anavarza qalası idi, oradan isə Ağtozlu kəndi görünürdü.

Yarım saatdan sonra Topal Əli gəldi, bir dolu torba çörək, bir torba da süzmə gətirdi.

– Süzməni oğurladım, – dedi. – Bir evin direyinə asmışdılar, öz evimdən götürən kimi, götürüb gəldim.

Yeməklərini yedilər, üstündən də adama bir papiros eşdilər.

Rəcəb çavuşun yarasının dözülməz dərəcədə ağrıdığı üzündən görünürdü. Ara vermədən dişlərini bir-birinin üstünə basıb, üzünü bürüşdürürdü. Durmadan da danışırdı.

– Dəstəbaşı mənəm. Əgər bu səfər işimə qarışsanız, gerisini özünüz düşünün. Bu qədər pislik eləmişəm. Bir dəfə də yaxşılıq eləyim. Nə desəm, eləyəcəksiniz, başa düşdünüzmü?

Üzünü Cabbara tutub:

– Başa düşdünmü, Cabbar? – dedi.

Sonra Məmmədə dedi:

– Başa düşdünmü, Məmməd?

Hər biri ayrılıqda:

– Başa düşdüm, – deyə cavab verdi.

Rəcəb çavuş:

– Gecə oluncayadək burada gözləyəcəyik. Gecə olanda kəndin kənarındakı dərədə pöhrəliyin içinə girib gizlənəcəyik. Siz heç qarışmayın. Mən bu yerləri qarış-qarış

gəzmişəm. Hər daşına bələdəm. Başa düşdünüzmü? Hər daşına bələdəm. O görünən yer Ceyhan çayındakı adadır. Anavarzanın dalında Hacılar kəndi var. Hərifi öldürəndən sonra Hacılardan yuxarıdakı dağlara çəkilərik. Hadisə baş verəndən sonra ən azı bir bölük jandarm göndərərlər. Onlardan qurtulmaq çətin olacaq. Amma bu yerləri mənim kimi tanıyan başqa bir adam yoxdur. Buralarda hər dəliyə bələdəm. Məbada mənim sözümdən çıxasınız. Çolaq qardaş dediyimə qulaq asmadı, böyük bir dəstəni məhv etdi. Özü də vuruldu. Çuxurova demək, Rəcəb çavuş deməkdir. Bunu da fikrinizdən çıxarmayın.

Gizləndikləri yer bir sel yatağı idi. Sellər ağappaq çay daşlarını, şam ağacı qabıqlarını, qamış, zaqqum köklərini sürükləyib buradakı kolların dibinə yığmışdı. Bundan sonra gələn sellər bu kolluqlara qədər gəlmiş, onu sökə bilməmiş, sürükləyib gətirdiyini kolluqların dibində buraxaraq, onların üstündən adlayıb keçmiş, buraya sığmadıqda isə yandakı tarlanın dibini oymuşdu. İndi Məmmədgil bu oyuqdaydılar.

Axşam oldu. Gün aşağı endi. Sini kimi düz olan ovanı qızılı rəngə boyadı. Buludların kənarları da işıqlandı. Ovanın o biri ucuna yapışıb qaldı.

Rəcəb çavuş:

– Çoxdandır, – dedi, – Çuxurovada günəşin batdığını görməmişdim. Bir qədər torpağın üstündə durur, qızarıb qan rəngi alır. Sonra da birdən batır. Qoy bir seyr edim. Onsuz da öləcəyəm. Qoy bir seyr edim.

Cabbar güldü.

Çavuş hirslənərək:

– Nəyə gülürsən, ay it küçüyü? – dedi.

Cabbar:

– Topal Əliyə, – deyə cavab verdi.

Çavuş susdu.

Bu dəmdə gün batdı. Qaranlıq qovuşdu. Çavuş əllərini belinə dayamış, heykəl kimi dayanmışdı:

– Ölməyinə öləcəyəm, heç olmasa, Çuxurovada günün batmasını bir daha gördüm... – dedi.

Yalnıztut düzənliyini keçdilər. Sonra bir bataqlığa girdilər. Bataqlığı keçəndən sonra Ağtozlu kəndinin komaları göründü. Bir-iki komadan işıq sızırdı. Kəndin qalan evləri tamam qaranlıq idi. Çox yorulmuşdular. Kürəklərini bir kola dayayıb oturdular. Topal Əli papiros yandırmaq istədi. Yavaşcadan zarıldayan Çavuş çığırdı:

– Topal dəyyus, – dedi, – İndicə yerə sərərəm səni. Qoy əlindəki kibriti cibinə.

Topal heç bir söz demədən kibriti cibinə qoydu.

Rəcəb çavuş kəskin, sərt bir tərzdə dedi:

– Bir daha söyləyirəm. Kim mənim sözümdən çıxarsa, atam da olsa, vuracağam. Bir deyin görüm, dəstəbaşı mənəm, ya yox?

– Sənsən, Çavuş, – dedilər.

Bundan sonra Çavuş başını aşağı dikib yarım saatadək düşündü. Sonra başını qaldırdı, üzünü Məmmədə tutub soruşdu:

– Bu Topal Əli sonra da sənin işinə yarayacaqmı?

– Yarayacaq, – deyə Məmməd cavab verdi.

Rəcəb çavuş:

– Qaçağa Topal Əli kimi bir adam həmişə lazımdır, – deyərək, yenə də susdu. Uzun zaman susdu. Vaxt keçirdi. Cabbar özünü saxlaya bilməyib:

– Ay Çavuş, – dedi, – niyə dinmirsən, olmaya yatmısan?

Çavuşun buna bərk acığı tutdu:

– İt küçüyü, – deyə dişlərini bir-birinin üstünə basdı. – Bu ovanın düzündə böyük bir kənddən adam götürüb aparmaq asandırmı? Yatmamışam, plan qururam.

Çavuş yenə fikrə getdi. Bir müddət sonra, yuxudan oyanan adam kimi, başını qaldırdı. Gözlərini yanındakılardan hər birinin qaraltısı üzərində gəzdirdi. Ulduz işığında heç birinin üzünü seçmirdi.

– Uşaqlar, – deyə Çavuş ana şəfqəti duyulan bir səslə sözə başladı. – Mənim işim bitmişdir. Bu yara məni sağ

qoymaz, öldürər. Bunu mən yaxşı bilirəm. Mən sizin fikrinizi çəkirəm. Bu İncə Məmmədin fikrini çəkirəm. Onun gözəl ürəyi var. Uzun illərdən bəridir ki, beş kəndin kişiləri içərisindən zalıma qarşı çıxan olmadı, təkcə Məmməd çıxdı. Bunda bir iş var. Sağ qalsam, onu göz bəbəyim kimi qoruyaram, amma, öləcəyəm. – Sonra üzünü Topala tutub dedi: – Topal, sən ağıllı adamsan. Üstəlik də qaçaq deyilsən. Məmmədə çox kömək eləyə bilərsən.

Topal:

– Məmmədə əlimdən gələn köməyi eləyəcəyəm, – dedi. – Evimin dağılması, kəndimdən qovulmağım ürəyimə bir dəyirman daşı kimi çökmüşdür.

Çavuş:

– İndi işdən danışaq, – dedi. – Gecəyarısına yaxın Hüseyn ağanın evinə gedərik. Qapını açdırarıq, Abdini içəridə vurub çıxarıq. Ancaq Topal Əli bizimlə gəlməsin.

Məmməd:

– Əslində gecəyarı olub, Çavuş, – dedi. – Elə indi gedək. Olarmı? Elə indi.

Çavuş ayağa qalxdı. Patrondaşlarını düzəltdi. Tapançasının ağzına güllə yeritdi. Qumbaralarını yoxladı. Ciblərini axtardı.

– Topal, kibritini mənə ver, – dedi. – Özün də buralarda dayanma. Yola düş, hara gedirsənsə, get.

Topal kibriti çıxarıb verdi:

– Qəzanız mübarək olsun, – dedi, dönüb geri yollandı.

Məmməd:

– Yenə görüşərik. Sağ ol, Əli, – dedi.

Əli:

– Görüşərik, – deyə cavab verdi.

Topal Əli gözdən qeyb olandan sonra onlar da kəndin içinə tərəf yollandılar. Sərin şimal küləyi əsirdi. Külək fit çalıb kəndin ot evlərinin çərçivələrini səsləndirirdi.

Onlar damının yarısı dəmirlə örtülmüş evə çatıb dayandılar.

Çavuş:

– Qapını taqqıldat, Məmməd, – dedi. – Cabbar, sən də hazır ol. Keç təpəciyin dalında səngərə gir. Kim bu evə yaxın gəlsə, vur. Baxma gözünün yaşına. Gördüyün qaraltını aşır.

Məmməd yerdən bir daş götürüb, qapını döyməyə başladı. Evin damındakı dəmir ulduz işığında çox sönük parıldayırdı. Qapının taqqıltısı kəndin səssizliyini pozurdu. Xeyli sonra evin içindən bir kişi səsi gəldi:

– Kimdir? Bu gecəyarısı qapını döyən kimdir?

Rəcəb çavuş:

– Mənəm, – dedi, – qardaş, Abdi ağanın kəndlisiyəm. Aç qapını, xəbər gətirmişəm.

İçəridəki kişi:

– Get, səhər gələrsən, – dedi.

Elə bu zaman kəndin o biri başında bir it hürdü.

Rəcəb çavuş:

– Çox təcili işim var, – dedi. – Ağanı mütləq görməliyəm. Tez ol, aç qapını, qardaş!

Kişinin qapını açması ilə örtməsi bir oldu. O, qapını örtüb, sürgüsünü də vurdu.

Rəcəb çavuş:

– Ah, bu yaram, – dedi, – yoxsa içəri girərdim. Ah yaram. Amma zərər yoxdur. İndi mən onlara qapını açdıraram.

Var gücü ilə içəri bağırdı:

– Mən qaçaqların başçısı Rəcəb çavuşam, – dedi. – Eşitməmişsinizsə, eşidin. O imansız Abdini mənə təslim edin. Etməsəniz, özünüz bilin. Mən Hüseyn ağa-filan tanımıram. O imansızı təslim edin.

Məmməd dilləndi:

– Mən də İncə Məmmədəm. Anamın, nişanlımın intiqamını almaq üçün gəlmişəm. Həmkəndlilərimin intiqamını almaq üçün. Fağır-füqəranın intiqamını almaq üçün. Onu çıxarın bayıra. O, içəridən çıxmayınca biz buradan getməyəcəyik.

İçərideki kişi:

– Abdi ağa bu evdə yoxdur, – dedi. – Gedin işinizin dalınca. Burada yoxdur.

Çavuş:

– Mənə Rəcəb çavuş deyərlər. Qaçaqların başçısı... Abdi dinsizi aparmamış getmərəm, – dedi. Sonra da Məmmədi səslədi: – Məmməd, qumbaranı çıxart, qoy qapının ağzına. Qapını partladaq.

Kişi içəridən çığırdı:

– Arvad-uşaq var içəridə. Abdi burada yoxdur.

Rəcəb çavuş:

– Elə isə aç qapını, – dedi.

– Açmaram.

Rəcəb çavuş:

– Məmməd, – deyə çığırdı. – Alışdır qumbaranın piltəsini, qoy qapıya!

– Hazırdır, Çavuş, qoyummu?

– Daha nə gözləyirsən? – deyə Çavuş bağırdı.

Bu dəmdə içəridən bir güllə səsi gəldi.

Çavuş:

– Məmməd, uzan yerə, – dedi, – o imansız atır.

İçəridən bayıra güllə yağırdı.

Çavuş:

– Məmməd, qumbaranı at! – deyə əmr etdi.

– Arvad-uşağa qıymayın, – deyə içəridən səs gəldi. Biz çıxırıq. Siz nə edirsiniz, edin. Abdi ağa, sən də atma. Biz bayıra çıxırıq, siz nə edirsiniz, edin.

İçəridən daha atəş açılmadı. Qapı açıldı. Yuxulu uşaqlar, alt paltarda titrəyən qadınlar bayıra tökülüşdülər. Sürətlə evdən uzaqlaşdılar. Ən axırda evdən çox qoca bir adamla iki cavan oğlan çıxdı.

Qoca:

– Abdi içəridədir, – dedi. – Gedin, haqq-hesabınızı çəkin.

O bunu deyər-deməz içəridən yenə yaylım atəşi başladı. Abdi çox tez-tez güllə atırdı.

Güllə səslərini eşidən kəndlilər Hüseyn ağanın evinə tərəf gəlirdilər. İçərilərindən biri: «Qaçaqlar basqın etmişlər» – dedi. Bunu eşidən kəndlilər evlərinə tərəf qaçmağa başladılar. Bir dəqiqə içərisində bayırda heç kəs qalmadı.

Çavuş:

– Məmməd, – dedi, – qapını gülləyə bas.

Məmməd:

– Nə faydası var? – dedi. – Hərif içəridədir, üçümüzü də vurar.

– Deməк, vurar ha! – deyə Çavuş lağ etdi. – Mən indi ona göstərərəm. Sən qapını bas gülləyə. Mənimlə mübahisə etmə. Nə deyirəmsə, onu elə. Qapıdan güllləni əskik eləmə.

Çavuş var gücünü toplayaraq bağırdı:

– Abdi, demək, əl-ayağıma düşmək əvəzinə, güllə atırsan mənə? Evin içində gizlənib güllə atırsan. Mən sənə göstərərəm.

Rəcəb çavuş şimal tərəfdən hərlənib evə yaxınlaşdı.

Məmməd qapıdan gülləni əskik eləmirdi. Çavuşun nə edəcəyi onu da maraqlandırırdı.

Abdi ağa da içəridən onlara güllə yağdırırdı.

Cabbar isə üzünü kəndə çevirərək, qımıldanmadan uzanıb qalmışdı. Abdi ağa sərrast atırdı. Məmməd qapının yanına qısılmasaydı, ona çoxdan güllə dəymişdi.

Bayırda nə qadın, nə uşaq, heç kəs qalmamışdı. Kəndə girdikləri zaman olduğu kimi yenə səs-səmir yoxdu.

Aradan xeyli vaxt keçdi. Məmməd arası kəsilmədən qapıya güllə atırdı. Görəsən, bunun axırı nə ilə qurtaracaq? Çavuş evin dalına keçdi, geri qayıtmadı.

Boş yerə güllə atmaqdan bezikdi, atəşi kəsdi. Evin arxasından çavuş çığırdı:

– Ey, atəşi kəsmə! Yavanın uşağı, atəşi kəsmə!

Məmməd könülsüz-könülsüz yenə atmağa başladı.

Bu dəmdə tut ağaclarının altından bir səs gəldi:

– İstəyirsiniz lap səhərə qədər güllə atın. Görək Abdini bayıra çıxara biləcəksinizmi?

Məmməd soruşdu:

– Sən kimsən?

– Mən Hüseyn ağayam. Kürd Rəşiddən sonra Çuxurovaya heç bir qaçaq enməmişdir. Çuxurova Kürd Rəşidin belə başını yedi. Səhər açılanda bu ovanın düzündə sizi də armud kimi vurub salacaqlar. Əl çəkib gedin.

Hirslə çığıran Rəcəb çavuşun titrəyən boğuq səsi evin dalından eşidildi:

– Cabbar! Cabbar! Qoyma o kafiri danışsın. Yum onun ağzını!

Cabbar tut ağaclarının altını gülləyə basdı.

Elə bu dəmdə olan oldu. Evin üstündən, yanlarından, qabağından qırmızı alovlar göründü. Bəlkə, bir saniyə içərisində bütün evi alov bürüdü.

Rəcəb çavuş:

– Hüseyn ağa, qoca əclaf, – deyə səsləndi. – Kürd Rəşidi ovlarlar, amma məni ovlaya bilməzlər. Mən Rəcəb çavuşam. Çuxurovanın qurduyam. Bu gecə ya Abdini öldürərəm, ya da bu kəndi yaxıb-yandıraram.

Tut ağacının altındakı adam bərkdən çığırdı. Onun ardınca da qadınlar, uşaqlar, sanki bütün kənd bir ağızdan çığırmağa başladı.

Rəcəb çavuş:

– Məmməd, – dedi, – atəşi kəs, qoy o imansız tüstüdə boğulub, qapıdan çıxsın.

Məmməd atəşi kəsdi.

Külək qovaqboyu ucalan alovları sağa-sola sovurdu. Evin yanındakı başqa bir ev də az sonra alışdı. Sonra alov yuxarıdakı evə də keçdi. On beş-iyirmi dəqiqə içərisində ona qədər ev alışıb yanmağa başladı.

Cabbarla Məmməd səngərə uzanıb gözləyirdilər.

Rəcəb çavuş evin ətrafında fır-fır fırlanıb çığırırdı:

– Çıx Abdi, çıx! İndi alışıb yanacaqsan. Bayıra çıx, Məmmədin əl-ayağına düş. Bəlkə, səni bağışladı.

İçəridən səs-səda gəlmirdi. Arada Rəcəb çavuşun qulağının dibindən vıyıltı ilə bir güllə keçdi. Alov qığılcımlar

saçaraq, ta göyün üzünə ucalırdı. Alov o yan-bu yana əyilir, parça-parça olub göyə uçurdu. Göy üzü gündüz kimi işıqlanmışdı. Ətraf işığa qərq olmuşdu. Anavarzanın bənövşəyi qayalıqlarından başlamış, Ceyhan çayının kənarındakı pöhrəliyə qədər böyük bir sahədə ağ işıq qaranlığı dəlmişdi...

Ağ tuman-köynəkdə yataqlarından qalxıb bayıra tökülüşmüş adamlar oraya-buraya qaçır, yanan evlərdən şeyləri bayıra daşıyırdılar. Bütün kəndə çaxnaşma düşmüşdü.

Çavuş arasıkəsilmədən hey çığırırdı:

– Abdi, çıx bayıra! Yoxsa yanıb kabab olarsan, çıx bayıra!

Sonra üzünü Məmmədə tutub:

– Evin, qapıdan başqa heç bir çıxılacaq yeri yoxdur, Məmmədim, – dedi. – Sən heç fikir çəkmə. İndi o, bayıra çıxar. Elə qapıda gəbərt!

– Yaxşı, – deyə Məmməd cavab verdi.

Yaşlı bir qadın tut ağaclarının altından qaça-qaça gəldi. Yanan evin içinə girdi. Rəcəb çavuş qadına heç bir söz demədi. Qadın qucağında bir döşəklə evdən çıxdı. Qaça-qaça döşəyi tut ağaclarının altına apardı. Sonra qoz ağacından qayrılmış bir sandıq çıxartdı. Qadın tez-tez içəri girib evdən qazan, kilim, məcməyi, yorğan çıxarırdı. Ən axırda qatlanmış böyük bir yorğanı qoltuğunun altında bayıra çıxartdı. Bundan sonra alov qapını bürüdü.

Məmmədlə Cabbar olduqları yerdə, Rəcəb çavuş da evin ətrafında gözləyib dururdular. Nə Abdi çıxdı, nə də ondan bir xəbər oldu. Evin damı yanıb çökdü. Abdi yenə qapıdan çıxmadı. Yenə gözlədilər. Divarlar yanıb, içəriyə yatdı. Evdən kimsə çıxmadı.

Şimal küləyi xeyli güclənmişdi. Alovları evdən evə sovururdu. İndi kəndin, demək olar, bütün evləri od alıb yanırdı. Hər tərəf gündüz kimi işıq idi. Sanki Çuxurovanın o qırmızı günəşi ovaya çökmüşdü.

Tut və söyüd ağaclarının uzun kölgələri nəm torpağa düşmüşdü. Yerdə insan kölgələri qaynaşırdı.

Əsən sanki şimal küləyi deyil, alov idi. Sanki uzaq bir yerdən hey alov püskürürdülər.

Məmməd:

– Çox heyif, əldən buraxdıq! – dedi.

– Əldən buraxdıq, – deyə Cabbar təkrar etdi.

Rəcəb çavuş:

– Evdən çıxılası heç bir dəlik yoxdu, – dedi. – Özüm də ara vermədən evin dörd bir yanını dolanırdım ki, bir yeri söküb qaçmasın. O, bayıra çıxmadı. Görünür, içəridə yanmışdır. Bizim əlimizə keçməkdənsə, yanmağı daha üstün bilib.

Cabbar:

– Bəlkə də, – dedi.

Məmməd:

– Bəlkə də, belədir, amma mən onun ölüsünü gözümlə görmək istərdim, – deyə ah çəkdi. – Çox heyif, ona görə böyük bir kənd yanır.

– Hə, yanır, – deyə Cabbar təsdiq etdi.

Rəcəb çavuş:

– Qoy yansın, – dedi. – Bütün Çuxurova daşı ilə, torpağı ilə yansın.

Məmməd kədərli halda:

– Fağır-füqəranın işi necə olacaq? – deyə soruşdu.

Rəcəb çavuş:

– Əslində bir şeyləri də yox idi. Qoy evləri də olmasın, – dedi. – Onların vəziyyətini heç bir şey dəyişdirə bilməz. Hər zaman olduqları kimidirlər.

Məmməd:

– Ay Çavuş, – dedi, – beləcə dayanıb gözləyəcəyikmi?

Rəcəb çavuş:

– Nəyi gözləyəcəyik? – dedi.

– Nəyi gözləyəcəyik? – deyə Cabbar təkrar etdi.

Məmməd:

– Qəsəbəyə çoxdan xəbər getdi. Sabah qiyamət qopacaqdır, – dedi.

Rəcəb çavuş bərkdən güldü:

– Bir kəndi yandırdılar, deyə Anqaraya tel vuracaqlar. Qiyamət qopacaq. İndi biz Anavarzanın qayalıqlarına çəkilməliyik. Düzdə yaxalansaq, işimiz bitər.

Yanan evə bir də baxdılar. Üçü də ah çəkdi. Yanmaqda olan kəndə arxa çevirib yollandılar.

Kənddən çıxandan sonra dayanıb, üzlərini kəndə çevirdilər. Bütün kənd bütöv bir atəşdən, göyə sovrulan bir alovdan ibarətdi.

Məmməd:

– Vay, – dedi, – bir ev belə qalmadı. Hamısı da bu küləyin üzündən. Külək olmasaydı, bunlar olmazdı. Ölümümü istərdim, bunun belə olmasını istəməzdim.

– Bir ev belə qalmadı, – deyə Cabbar təkrar etdi. – Bütün kənd alışıb yandı.

Məmməd:

– Biz kənddən çıxarkən çoluq-çocuq, qadın-kişi daş kimi hərəkətsiz dayanıb bizə baxırdılar. Heç eşitdinizmi? Birisinin ağzından bircə söz çıxdığını eşitdinizmi? Bizə nə qarğış etdilər, nə daş atdılar, nə də söydülər. Daş kimi hərəkətsiz dayanıb baxdılar. Kaş bunu görməyəydim. Öz ölümümü görəydim, amma bunu görməyəydim.

Çavuş etiraz etmədi:

– Bir işdi, oldu, – dedi. – Oy, oy, boynum. Mən artıq öləcəyəm. Oy, oy, boynum. Boynumu kəsirlər, qoparırlar. Oy, oy, boynum.

Çavuş yerə oturdu. Üzünü əlləri arasına aldı və bir müddət bu vəziyyətdə qaldı.

Məmmədlə Cabbar onun yanında, ayaq üstə dayanıb gözlədilər. Birdən Çavuş yerə sərilərək qıvrılmağa başladı. Cabbar onu qucağına almaq istədi. Yekəpər Çavuşu saxlaya bilmədi. Çavuş yay kimi gərilirdi.

Kənd tərəfdən camaatın səs-küyü eşidilirdi.

Tam günəşin doğduğu yerin üstündə dan ulduzu doğmuşdu. İri ulduz titrəyir, sayrışırdı.

Səs-küy onlara yaxınlaşırdı.

Bir nəfər hey deyirdi:

– Bu tərəfə getdilər. Lap indicə getdilər.

– Hansı tərəfə? – deyə bir başqası soruşdu.

Məmməd Cabbara tərəf əyildi:

– Asim çavuşun səsinə oxşayır, – dedi.

Cabbar həyəcanla:

– Hə, odur, – dedi. – Gəl qaçaq, Çavuş, Çavuş, bizi dövrəyə almışlar. Qalx.

Cabbar qıvrılmaqda olan Çavuşu çiyninə aldı. Yollandılar.

Qaçırdılar. Hansı tərəfə getdiklərini bilmirdilər. Kəndin yanğını da yavaş-yavaş sönməyə başlamışdı. Qaranlığa doğru qaçırdılar.

Asim çavuş:

– Pöhrəliyin yolunu, Anavarzanın yolunu kəsin, – deyə çığırdı.

Cabbar:

– Məhv olduq, – dedi.

Məmməd:

– O imansızın öldüyünü bilsəm, ölüm heç vecimə deyil, – dedi. – Əgər öldüyünə, orada qovrulub yandığına ürəyim inansa...

Cabbar:

– Çavuş daha çırpınmır, – dedi.

Məmməd:

– Hələ bir yerə qoy, – dedi. – Bəlkə, bir şey olmuşdur.

Çavuş Cabbarın çiynində zarıldayaraq:

– Heç bir şey olmayıb, – deyə cavab verdi. – Keçib getdi. Məni yerə qoy.

Buna təəccüb qalan Cabbar Çavuşu çiynindən endirdi.

– Haraya gedirik? – deyə Çavuş soruşdu.

– Asim çavuş dalımızca gəlir, – deyə Cabbar cavab verdi.

Çavuş Cabbara:

– Məni ayağa qaldır, – deyə mırıldandı.

Cabbar onun iki qoltuğundan tutub ayağa qaldırdı.

Çavuş ayaq üstə valaylanaraq, bir neçə kərə sağa-sola döndü, ətrafa göz gəzdirdi.

– Mənə baxın, – dedi. – İndi biz çay kənarındakı pöhrəliyin yaxınındayıq. Anavarzaya özümüzü çatdıra bilsəydik, hökmən qurtulardıq. Buna imkan yoxdur. Yolda bizi tutarlar.

Çavuş diqqətlə qulaq asdı.

– Yaxınlığımızdadırlar. – Dedi. – Səsləri eşidirsinizmi?

– Hə, – deyə Məmməd cavab verdi.

– Mən də eşidirəm, – deyə Cabbar da təsdiq etdi.

Çavuş:

– Pöhrəlikdə çətin qurtula bilərik, – dedi, – sabah bu yaxınlarda nə qədər kənd varsa, hamısı bizi axtarmaq üçün pöhrəliyə gedəcək. Amma başqa çarə yoxdur.

Məmməd:

– Başqa çarə yoxdur, – deyə razılaşdı.

Çavuş:

– Pöhrəliyin dalı Ceyhan çayıdır, – dedi. – Özümüzü atarıq çaya. Axıntıya buraxarıq özümüzü. Bəlkə, qurtulduq.

Məmməd:

– Çarəmiz nədir? – dedi.

Çavuş:

– O imansızı yandırdıq ki... – dedi.

– Yandırdıq, – deyə Məmməd təkrar etdi.

Cabbar:

– Mənim şübhəm var, – dedi. – Bəlkə, qaçmışdır.

Bunu eşidən Çavuş özündən çıxdı, çığırmağa başladı:

– A gədə, bura bax, – dedi, – bura bax, imansızın biri də sənsən. O qurtulsa, sevinərsən. Bir de görək necə qurtulmuş? Məmməd qapıda dayanmışdı, mən evin dövrəsinə dolanırdım. Necə qurtula bilərdi? Evdə bir dənə də pəncərə yoxdur. De görək necə qurtula bilərdi?

Məmməd:

– O yanıb kül oldu, – dedi. – Bundan sonra ölsəm də, vecimə deyil.

Çavuş:

– Bax belə, – dedi.

Cabbar susdu.

Bir dəstə adamın ayaqlarının altından qopan xışıltı gecənin sakitliyini pozurdu. Başqa səs-səda yoxdu. Ayaqlarını kollara, otlara, torpağa sürtə-sürtə gələn adamların addımlarının səsi gecə vaxtı nəhəng bir dəniz dalğasını xatırladırdı.

Cabbar:

– Yaxınlığımızdadırlar. Heç danışmırlar, – dedi.

– Elədir, – deyə Məmməd təsdiq etdi.

Çavuş:

– Pöhrəliyə gedək, – dedi. – Tutun əlimdən.

Çavuşun əlindən tutub pöhrəliyə tərəf qaçmağa başladılar. Arxalarınca gələn adamların ayaq səsləri sürətləndi, kəskinləşdi, çoxaldı. İndi onlara elə gəlirdi ki, bir xışıltı onların üzərinə axır. Gecə də xışıltıya qarışaraq onların üstünə yeriyir. Dağ, daş, kol, ağac üstlərinə yeriyir.

Ova... başı bəlalı ova. Nə qədər də dümdüzdür bu ova!.. Gün doğanda qalaylanmış siniyə oxşayır. Topa-topa təpələri kiçik-kiçikdir. Anavarzanın qayalıqlarına yetişə bilsəydilər, canları qurtarardı. Sonra Ceyhan çayı gəlir. Suyun rəngi tutqundur, özü də iti axır. Bəzi yerlərdə axarı çox sakitdir. Sahilləri qara torpaqdır. Tökülür. Sahilinə ayaq basmaq olmaz. Sahilləri qamışlıqdır. Uzunqıç dovdaqlar yatağı... Ovanın ortasında təkcə bir tut ağacı vardır. Onun da yarpaqları toz içində.

Qaçıb içərisində gizlənmək mümkün olan bu pöhrəlik olmasa, ovanın ortasında açıqda qalmaq olmaz...

Pöhrəlik içindən ətrafa bataqlıq qoxusu yayılır... Pöhrəliyin içərisinə girmək vahiməlidir. Pöhrəlik əmələ gələndən bəri çox yerlərinə insan ayağı dəyməmişdir. O yerlərə getmək qeyri-mümkündür.

Xışıltı getdikcə artır. Ovanın üzərinə külək kimi yayılır. Bir alov kimi ətrafı bürüyür.

Rəcəb çavuş tövşüyə-tövşüyə:

– Bu tərəfə, uşaqlar, – deyə zarıldadı. – Az qalmışdır...

Birdən lap qabaqlarında yaylım atəşi açıldı.

Rəcəb çavuş:

– Yerə yataq, – deyə özünü yerə atdı. – Pöhrəliyi tutmuşlar. Səs çıxarmayın. Cavab atəşi açmayın. Sürünə-sürünə özünüzü pöhrəliyin içinə salın. Tüfənglərin ağzındakı güllələri boşaldın, uşaqlar. Səssizcə tüfəngləri boşaldın. Bir güllə açılsa, işimiz bitər. Hər tikəmiz bir yerdə qalar. Bu gələn kəndlilər bizi didik-didik edərlər.

Qarşı tərəfdən onlara elə güllə yağdırırdılar ki, gəl görəsən. Gecənin qoynuna işıq saçılırdı. Sonra birdən atəş kəsildi.

Bir nəfər yavaşcadan:

– Yoxdurlar, – dedi. – Olsaydılar, cavab atəşi açardılar.

Başqa birisi:

– Kəndlilər gəlirlər, – dedi. – Onlar bilərlər.

Kəndlilər yaxınlaşırdılar.

– Bəlkə, Anavarzaya gediblər?

– Mütləq Anavarzaya gediblər... Qaçaq gərək dəli olsun ki, Çuxurovada gedib pöhrəlikdə gizlənsin.

Kişili-arvadlı, böyüklü-uşaqlı kəndlilər gəlib jandarmlara qarışdılar. Hay-küy qopdu... Hər tərəfdən bir səs gəlirdi. Böyük bir gurultu gecənin sakitliyini pozurdu. Hirsli, kinli insanlar bir yerdə dura bilmir, qaynaşırdılar. Pöhrəliyin lap yaxınlığında, tarlaların içində vurnuxurdular. Camaat bir tərəfdən o biri tərəfə axırdı.

Az sonra Anavarzanın dibindən güllə səsləri gəldi.

– Anavarzaya! Anavarzaya, – deyə camaatın içərisindən səslər ucaldı. Ovanı dolduran xışıltı, camaat Anavarzaya axışdı.

Rəcəb çavuş:

– Qımıldanmayın, – dedi. – Bu camaat bizim işimizə yaradı. Kəndlilər jandarmları azdırdılar, başdan çıxartdılar. Amandır, qımıldanmayın!

Rəcəb çavuşun nəfəsi od kimi idi. Məmmədin qulağını, boynunu yandırırdı.

Lap yaxında, onların ən çoxu on beş metrliyində jandarmlar təlaş içərisində vurnuxurdular. Kolun dibinə qısılmış bu üç adamın ürəyi gup-gup döyünürdü. Jandarmlar dayanıb qulaq assaydılar, onların çırpınan ürəklərinin guppultusunu, bəlkə də, eşidərdilər. Anavarzanın dibindəki hay-küy azacıq da olsun sakitləşmir, kəsilmirdi. Bu da onların işinə yarayırdı.

Jandarmlarla kəndlilər ətrafı dolaşdılar, danışdılar, getməyə qərar verdilər. Oradan ayrılıb getdilər.

Rəcəb çavuş dərindən nəfəs alaraq:

– O-o-oh, – dedi. – O-o-oh! Çox şükür. O kəndlilərin əlinə keçsəydik, bizi didik-didik edərdilər. İndi içərilərə, dərinlərə çəkilməliyik...

Ayağa qalxdılar. Rəcəb çavuş bir-iki addım atdı. Dayandı.

– Nə var, Çavuş, – deyə Məmməd soruşdu.

Çavuş:

– Oy, oy, – dedi, – oy, oy!

Məmməd:

– Çavuşum, söylə görüm, nə edək? – deyə xəbər aldı.

Çavuş:

– İçərilərə, – dedi. – Oy, oy... içərilərə. Xəlvət yerlərə....

Çavuşun bir qoluna Məmməd girmişdi. O biri qoluna da Cabbar girdi. Çavuşun ayaqları, ölü ayaqları kimi, yerlə sürünürdü. Dan yeri sökülənədək bu cür getdilər. Dan yeri söküləndə şərq tərəfi, bütün pöhrəliyin üzərini narıncı işıq bürüdü. Pöhrəliyin tünd-yaşılı rəngi narıncı işığın içində əriyir, mavi rəng alırdı. Bütün pöhrəlikdən, ovadan göyə doğru ağır-ağır duman qalxırdı.

Qıçlarını böyürtkən dalamışdı. Məmməd süpürüm kollarını xatırladı. Nədənsə başında sarı bürünc parıltısı şimşək sürəti ilə yanıb-söndü.

Çavuşu sıx bir kolun üstünə uzatdılar. Hər tərəfi şişmişdi. Başı, boynu çiyinlərindən fərqlənmirdi... Çavuş bir

neçə kərə ağzını açıb danışmaq istədi. Səsi çıxmadı. Əli ilə Anavarzaya, sonra da torpağa işarə etdi. O, gözlərini ayırmadan yerə baxırdı.

Sonra Çavuşun gözlərindən damla-damla yaş sızmağa başladı. Sonra da gözlərini yumdu. Birdən gərilib uzandı. Bir az dikəldi və dərhal yerə yıxıldı.

Məmməd:

– Vay Çavuş, vay! – dedi.

Cabbar:

– Vay! – dedi.

– Öləcəyi heç ağlıma gəlmirdi.

– Özü deyirdi. Həmişə deyirdi.

– Görəsən, muradına çatdımı?

– Onun nəçi olduğu, nə səbəbə qaçaq düşdüyü, haralı olduğu, heç kəsə bəlli deyildi. Bilmirəm, muradına çatdı, yoxsa çatmadı?..

– Abdinin öldürulməsini çox istəyirdi, məndən də çox istəyirdi. Halbuki bunun ona dəxli yoxdu. Abdi mənim düşmənim idi. Sən Abdi yanmadı, qaçdı deyəndə, az qala səni parçalayacaqdı.

–Xəncərini çıxart, qərib Çavuşa bir qəbir qazaq.

Məmməd xəncərini çıxarıb qəbir qazmağa başladı:

– Qərib Çavuşa, – dedi.

Bir saatın içində pöhrəliyin nəm torpağını asanlıqla qazdılar. Dərin, geniş bir qəbir düzəltdilər.

Qəbrin üstünə düzmək üçün qalın ağaclardan tirlər kəsdilər. Sonra tikansız kollardan biçdilər. Çavuşu paltarı ilə qəbrə qoydular. Tirləri düzdülər, biçdikləri kolları tirlərin üstünə tökdülər, torpaqladılar.

Məmməd:

– Cabbar, – dedi, – gəl qərib Çavuşun baş tərəfində bir ağac əkək.

– Əkək, – deyə Cabbar razılaşdı.

Axtarıb bilək yoğunluğunda bir tut ağacı tapdılar. Gətirib Çavuşun baş tərəfində əkdilər.

Məmməd:

– Bu pöhrəlikdə Çavuşun qəbri, bəlkə də, ilk qəbirdir, – dedi.

– İlk qəbirdir, – deyə Cabbar cavab verdi. – Kim öz ölüsünü gətirib burada, pöhrəliyin qaranlıq yerində basdırar!

Az sonra gün doğdu. Çavuşun qəbrinin təzə torpağı buğlanaraq işıldadı.

Gün ətrafa işıq saçan kimi, kənd tərəfdən Anavarzaya, pöhrəliyə doğru çığırtı səsləri gəlməyə başlamışdı.

Cabbar soruşdu:

– Çavuş nə dedi?

– Anavarzanın qayalıqlarını göstərdi.

– Ceyhan çayına tərəf getməliyik. Bu pöhrəliklə getsək, Anavarzanı tapa bilmərik.

– Çavuşun dediyini yerinə yetirməliyik. O, buralara çox yaxşı bələd idi. Bu kəndi yandırdığından da çox məmnun idi, deyilmi, Cabbar? Bütün Çuxurovanı yandırıb külə döndərsəydi, daha çox məmnun olacaqdı. Çavuş çox yaxşı adamdı. Kim bilir, bəlkə də, bu Çuxurova ona çox pislik etmişdi?

– Mən onu tanıyandan bəri həmişə Çuxurovanı pislədiyini eşitmişdim. Heç kəs onun yanında Çuxurova barəsində danışa bilməzdi. Bəzən Çavuş xəyala dalar və bu el mahnısını oxuyardı:

*Çuxurova yana-yana ord olur,*
*Hər milçəyi bir alıcı qurd olur.*
*Sən öldürsən ürəyimə dərd olur,*
*Qalx, qardaşım, gedək vətənə doğru.*

Mahnını oxuyub qurtarandan sonra uzun müddət ağzını açıb heç kəsə bir söz deməzdi. Bir neçə gün bu cür dərdli-dərdli tək gəzər, sonra kefi açılardı. Kim bilir, yazığın nə dərdi vardı. Heç kəs bunu bilə bilmədi. Bu da axırı. Anavarzanın pöhrəliyində qaldı. Axır vaxtlar nə Çuxurovaya acığı tuturdu, nə də o mahnını oxuyurdu. Başqa qaçaq-

lardan eşitmişəm ki, onlar Çuxurovaya endikləri zaman, Çavuş enməz, onlar Çuxurovadan qayıdana qədər, yolda təkbaşına onları gözlərmiş. Bu da aqibəti. Yenə Çuxurova torpağında basdırıldı.

– Bəlkə də, elə bunu istəyirdi.

– Gedək, Məmməd. Bir az sonra pöhrəliyə adam, köpək dolacaqdır.

Məmməd üzünü Çavuşun qəbrinə çevirdi:

– Gülə-gülə qal, Çavuş, gülə-gülə, – deyib yola düzəldi. Hər gözünün çuxurunda iri bir damla yaş göründü.

– Gülə-gülə, – deyə Cabbar təkrar etdi.

Pələng yara bilməyən sıx kolların içindən çətinliklə irəliləyə bilirdilər. Çavuşun tüfəngini, gümüş işləməli kəmər və patrondaşlarını Cabbar götürmüşdü. Bütün bu yük, yarılmaz divar kimi kollar onu əldən salırdı. Məmməd isə həmişəkindən daha rahat, daha çevik idi... Yarıb keçə bilmədiyi kolları xəncəri ilə kəsib doğrayırdı. Cabbar onun dalınca əyilə-əyilə gedirdi. Məmməd sanki kollarla vuruşurdu.



Günortanın istisi düşmüşdü. Ətrafda kolların çatırtısından başqa heç bir səs-səda yoxdu. Dönüb geriyə baxılsaydı, Məmmədin kolları kəsərək, uzun bir tunel açdığı görünərdi.

Anavarzaya iki saatlıq yolları qalmışdı. Yalnız göy üzünu görürdülər. Bir də Anavarza qayalığının təpəsini.

Pöhrəliyin ortasına gəlib çatanda, gün Anavarzanın təpəsindən aşırdı.

Məmməd:

– Burada dayanaq, – dedi, – gecə olsun, sonra buradan çıxaq.

Cabbar:

– Mən yorğunluqdan öldüm, – deyə yerə uzandı. Məmməd də uzandı.

Qayalıq onların yaxınlığında idi. Qayalıqdan enən yüzlərlə adamın ayaq səsi eşidilirdi.

Məmməd ayağa qalxıb dedi:

– Görə bilmədim, – dedi. – Amma deyəsən, kəndlilər bizi axtarırlar. Keçmiş ola. Qoy istədikləri qədər axtarsınlar. Biz, demək olar ki, onların əlindən qurtulmuşuq.

Cabbar uzandığı yerdə qalxıb oturdu:

– İndi onlar bizi nə dağda, nə də pöhrəlikdə tapmayandan sonra Əzablı, Sumbas, qəsəbə yolunu kəsəcəklər, bizi tələyə salmaq istəyəcəklər.

– Elə isə bir neçə gün gözlərik.

– Onda biz də dağa Qozan tərəfdən çıxarıq.

– Sən o yolu tanıyırsanmı? – deyə Məmməd xəbər aldı.

– O yolu tanımıram, – dedi, – amma o dağları tanıyıram. Anavarzaya çıxan kimi hər tərəf görünür.

– Onda qalx, hava çox qaralmamış buradan çıxaq.

Cabbar:

– Ayaq səsləri kəsildi, – dedi.

– Birdən pöhrəliyin kənarında bizə tələ qurarlar? – deyə Məmməd soruşdu.

– Yox canım. Bu, ağıllarına gəlməz.

– Elə isə gedək.

Onlar Anavarzanın zirvəsinə çatanda qaranlıq qovuşurdu. Bəzi yerlərdə yanan işıqlar gecənin qoynunda sayrışırdı. Ceyhan çayı qara bir şərid kimi qıvrıla-qıvrıla axırdı. Qaranlıqda tüstülənən Ağtozlu kəndinin üzərinə sanki qalın duman çökmüşdü.

Məmməd gündoğan tərəfi göstərərək:

– Ora haradır? – deyə soruşdu.

– Gərək ki, Bozquyu kəndləridir, – deyə Cabbar cavab verdi.

– Gəl oradan gedək. Çox yaxındır.

– Bəlkə, oranı da tutublar. Bundan qorxuram.

Məmməd:

– Oradan gedək, – dedi. – Oranı tutmuş olsalar, biz də kim olduğumuzu onlara göstərərik.

Məmməd bunu deyib, üzünü Cabbara çevirdi. Qaranlıqda Cabbarın üzü zorla seçilirdi.

– Nə deyirsən, Cabbar qardaş, sən bilən o məlun öldümü? – deyə soruşdu.

– Güman etmirəm, – deyə Cabbar cavab verdi. – Əgər içəridə olsaydı, qaçmasaydı, alışan kimi özünü bayıra atardı. Heç olmasa, çığırardı.

– Bəlkə, birdən-birə tüstüdən boğulub ölmüşdür?

– Axır vaxtadək içəridən güllə atırdı. Boğulub ölsəydi, bunu eləyə bilməzdi.

– Bəlkə, yanan divar birdən-birə üstünə uçmuşdur. Tavan çökmüşdür.

– Ah, kaş ki, elə olaydı. Ah, kaş ki... Çəkdiyimiz bunca əzab-əziyyət boşa getməzdi.

Təpədən enməyə başladılar. Bərk də acmışdılar.

## XV

Köhnə Çuxurova barəsində qocalar danışırdılar. İncə Məmmədin qaçaqlığı vaxtında yaşı doxsanı ötmüş bir Qoca İsmayıl vardı. O nağıl edərdi. Qoca İsmayılın yamyaşıl, çəmən kimi yaşıl gözləri vardı. Çənəsi bütün türkmənlərin çənəsi kimi zərif, saqqalı seyrək idi. Enli kürəkləri, gəncliyində olduğu kimi, yenə də dik dururdu. Gözləri şahin gözü kimi iti idi. Hələ ovçuluqdan əl çəkməmişdi. Beli ikiqat bükülmüş olsa da, tüfəngi çiynində həmişə ova gedərdi. Yanıqlı türkmən mahnıları oxuyar, qəbilə savaşlarından danışardı. Hər hekayənin axırında da davada aldığı yaranı qürurla göstərərdi və onun şahin gözləri if- tixarla parlardı.

Bəzən kəndə sığmazdı, ev, kənd ona dar gələrdi. Türkmənlərdən qalan nə varsa, hamısını qoruyub saxlamaq, türkmənlərin köhnə adət və ənənələrini ömrünün hər saatında yaşatmaq istərdi.

Bəzi günlər də lap coşardı. Sərxoşa dönərdi. Öz əli ilə bəsləyib böyütdüyü xam, kürən dayçasına minər, şam ağacları ilə örtülü olan ətrafa, kəklikotu, yarpız qoxusu saçan dağlara çapardı. Köhnə türkmən obalarından əsən bir

yel kimiydi. Köçü, sürgünü, osmanlıyla böyük savaşı nağıl edərdi. Aynalı tüfəngini xatırlardı. Çadırlarda döyülən naxışlı həvəng səsi eşidilərdi. Evlər al-yaşıl bəzənərdi. Al-yaşıl rəng bir sel kimi Çuxurovanın düzünə axardı.

«Əlli-altmış il bundan əvvələ qədər...» deyə Qoca İsmayıl sözə başlardı. Sözə başlayanda daha susmaq bilmirdi. Özü də çox həvəslə danışırdı, sanki mahnı oxuyurdu. «Çuxurova başdan-başa bataqlıqdı, pöhrəlikdi. Yalnız təpələrin ətəklərində əl boyda kiçik tarlalar vardı... O zamanlar Çuxurovada ins-cins olmazdı. Köç başlardı sel kimi axmağa, türkmən köçü... Çuxurova bayram libasını geyindiyi, çılpaq ağaclar, çılpaq torpaq, çılpaq dünya bəzəndiyi zaman, al-yaşıl köç sel kimi axmağa başlardı. Gətirərdik köçü, aşardıq dağları, gəlib çıxardıq Minboğa yaylağına; burada çadır qurardıq. Qış gələndə də enərdik Çuxurova düzünə. Buranın pöhrəliklərini, qamışlıqlarını heç pələng də yarıb keçə bilməz. Bataqlıqları da keçilməzdir. Çuxurovanın düzlərində ilin on iki ayı ot dizdən olardı. Düzlərdə dəstə-dəstə ceyranlar gəzərdi. Qəşəng gözlü, ürkək ceyranlar... Ceyranı bərk qaçan atlarla qovub ovlardıq. Atın igidi ceyran ovunda bəlli olur. Çuxurova göllərinin kənarında qamışlar qovaq kimi uzanıb gedərdi. Qamışların tozları gün işığı kimi işıq saçaraq sulara tökülərdi. Bütün Çuxurova başdan-başa nərgiz açardı. Çuxurovanın yerləri gecə-gündüz nərgiz qoxardı. Çuxurova bir bəlalı yerdi. Aralıq dənizi dalğalanardı. Ağ köpüklü dalğalar...

Qəbilələr oba-oba çadır qurub yurd salardılar. Çadırların üzərində tüstü sütun-sütun ucalardı. Osmaniyə Torpaqqala düzündə, yəni Ceyhan çayının dağlara yaxın yuxarı tərəflərində Təcirli qəbiləsi dəniz kənarında yurd salardı. Ondan bir qədər aşağıda Ceyranbəkirli və Mustafabəyli qəbilələri, Ceyhan qəzasında Cerit qəbiləsi, Anavarza ilə Hemitə qalası arasında Bozdoğan qəbiləsi, Anavarza ilə Qozan arasında Lek kürdləri, Sumbas çayı ilə Toros dağları arasında Sumbaslı qəbiləsi, indiki Ekşilər kəndi ilə

Qədirli kəndi arasında Tatarlı qəbiləsi yurd salardı. Arabir qəbilələr öz yerlərini dəyişdirərdilər. Bozdoğan qəbiləsi Cerit qəbiləsinin yerinə, Cerit qəbiləsi Bozdoğan qəbiləsinin yerinə köçərdi. Ən güclü qəbilə Əfşar qəbiləsi idi. Bu qəbilə Çuxurovada istədiyi yerə köçə bilərdi. Onun qabağına çıxan olmazdı.

Mənim yadıma zorla gəlir. Osmanlı ilə bir savaş oldu. Qozanoğlu adında bir bəy vardı. İndiki Qozanda yaşayardı. O, başda olmaqla, bütün qəbilələr Osmanlıyla vuruşdu. Osmanlı üstün gəldi. Qozanoğlunu əsir edib apardı. Əfşar qəbiləsini isə Bozağa qovdu. Darmadağın etdi. Qəbilənin darmadağın edilməsi barəsində Dadaloğlu mahnısı qoşulmuşdu. Qozanoğlu barəsində də bir ağı vardı».

Qoca İsmayıl bu yerə çatanda susardı. Gözləri yaşla dolardı. Dodaqları titrəyə-titrəyə, qalın, gur səsi ilə bu ağını oxuyardı:

*«Çıxdıq Qozanın dağına*
*Qarı dizləyə-dizləyə.*
*Yaralarım köz-köz oldu,*
*Təbib gözləyə-gözləyə.*
*Deyin belə iş olurmu?*
*Övlad atanı vururmu?*
*Siz ey şahın əsgərləri,*
*Bu dünya belə qalırmı?*

*Qara Çadrı əkməyilə,*
*Ucu yerə dəyməyilə.*
*Nə qaçırsan qoç Qozanoğlu*
*Beş yüz atlı gəlməyilə?»*

Qoca İsmayıl sözünə davam edib deyərdi: «Bundan sonra Osmanlı zorla qəbilələri Çuxurovaya köçürtdü.Torpaq verdi, qəbalənamə verdi. Bizi yaylağa buraxmamaq üçün dağ yollarında əsgər qoydu. Heç kəs yaylağa çıxa bilmədi. Qəbilələr Çuxurovada qırılırdı. Kimi qızdırmadan,

kimi istidən... Qəbilələrə qırğın düşdü... Qəbilələrin Çuxurovada məskən salmağa heç meyli yoxdu. Osmanlının əkmək üçün verdiyi meynə çubuqlarının, ağacların köklərini yandırıb sonra əkirdilər. Bax, bu səbəbdəndir ki, indi heç bir kənddə ağac yoxdur. Sonra Osmanlı gördü ki, qəbilələr tamam qırılacaq, yayda yaylağa çıxmağa izin verdi. Sonralar qəbilələr də Çuxurovada yerləşməyə, yurd yerlərində kənd salmağa, daha sonralar isə əkin əkməyə başladılar. Bundan sonra qəbilələr dağıldı. Adət-ənənə aradan qalxdı. Əyyam dəyişdi. İnsan miskinləşdi. Osmanlının dediyi oldu».

Qəbilədən söhbət düşəndə Qoca İsmayıl günlərlə danışar, yorulmazdı. Azad bir dünyanın həsrətini çəkərdi. Hər söhbətinin əvvəlində «Mən Dadaloğlunu görmüş bir adamam» deyərdi. Bununla çox öyünərdi.

Min doqquz yüz on yeddi, on səkkiz, on doqquz, iyirmi... Birinci Dünya müharibəsi. Osmanlı imperatorluğunun məğlubiyyəti. Bu zamanlar Çuxurova ordudan qaçmış fərarilərlə, qaçaqlarla dolu idi. Toros dağlarında qaçaq əlindən keçmək olmurdu.

Sonra fransız işğalçıları Çuxurovaya gəldikdə, qaçaq da, fərari də, oğru da, doğru da, pis də, yaxşı da, cavan da, qoca da, bütün Çuxurova camaatı birləşərək düşməni Çuxurovadan qovub çıxarmaq vuruşuna girişdi. Düşmən qovuldu. Sonra düşmən bütün ölkədən də qovuldu. Yeni bir idarə üsulu quruldu, yeni bir əyyam başlandı.

On doqquzuncu əsrin axırlarına yaxın, qəbilələr Çuxurovada məskən saldıqdan bir çox illər sonra, şərait yavaş-yavaş xalqı torpağa bağlanmağa məcbur edir. Torpaq yavaş- yavaş qiymətə minir. Burada məskən salmağa heç cür razı olmayan türkmənlər yaylaqları buraxıb, torpağa bağlanırlar.

Təzə Çuxurova torpağı birə qırx, birə əlli məhsul verir. Bu, görülməmiş bir şeydir. Min doqquz yüzüncü ildən sonrakı illərdə Çuxurovaya nəzər salacaq olsaq, bataqlıqların az da olsa qurudulduğunu, pöhrəliklərin yandırılıb

tarlaya çevrildiyini, keçmişdə bomboş qalan Çuxurova torpağının yarıya qədərinin əkilmiş olduğunu görərik.

Yeni idarə üsulu kiçik dərəbəylərə, feodal tör-töküntülərinə, onların qeyri-məhdud hakimiyyətinə son qoymağa çalışır. Əslində, son illər dərəbəylik öz-özünə süqut etməkdədir. Onların yerini yeni varlılar tuturlar. Bu varlıların bir çoxu torpağa, həm də mümkün qədər çox torpağa sahib olmaq üçün mübarizə edir. Bunu bacarırlar da. Yoxsulların torpağını əllərindən almaq üçün hər cür vasitəyə əl atırlar. Buna kimisi qanun yolu ilə, kimisi rüşvətlə, kimisi də zor işlətməklə nail olur. Xalqla yeni varlılar arasında mübarizə gedir. Varlıların torpağı getdikcə artır. Varlılar öz torpağı üçün canını dişinə tutub vuruşan, haqqını axtaranlara qarşı dağlardakı qaçaqlardan bir zor vasitəsi kimi istifadə edirlər. Varlılar qaçaqları dağlarda bəsləyir, onları hökumətdən qoruyurlar. Bu vasitəyə əl atmayan bir ağa yoxdur. Dağlarda özünə arxa olacaq qaçaq tapmayan ağalar da dağa təzə qaçaqlar çıxarırlar. Bu səbəbdən də Toros dağları qaçaqla dolub-daşır. Ovadakı ağaların mənafeləri bu səfər də dağlarda bir-birilə çarpışmağa başlayır. Dağlardakı qaçaq dəstələri bir-birilə vuruşaraq, daim bir-birlərini, yoxsul adamları qırırlar. Ağaların torpaqları isə artır.



Əli Səfa bəy müflis olmuş bir ağanın oğludur. Ağa müflis olmasına baxmayaraq, oğlunu əvvəlcə Adana sultani məktəbində oxutmuş, sonra da İstanbul Ali Hüquq Məktəbinə göndərmişdi. Nə səbəbdənsə, Əli Səfa bəy Ali Hüquq Məktəbini yarımçıq tərk etmiş, gəlib qəsəbədə vəkillik etməyə başlamışdı. Cürbəcür işlərə baş qoşduqdan sonra ağlı başına gəlmiş, sonra da dörd əllə torpaqdan yapışmışdı.

Əvvəlcə kəndliləri dilə tutub, yoxsulluq üzündən atasının əlindən çıxmış torpaqları onlardan geri almağa başladı. Artıq o, torpaq əldə etmək hiyləsini öyrənmişdi. Gözü doymaq bilmirdi.

Kəndlilər də artıq ilk məskən salınan illərin, yaxud ondan sonrakı zamanların kəndlisi deyildilər. Torpağın qızıl

olduğunu anlamışdılar. Öz torpaqlarından dörd əllə yapışmışdılar. Kəndlilərlə Əli Səfa bəy arasınla uzun sürən mübarizə başlanmışdı. Əli Səfa bəyin xəbis zəkası bu mübarizədə özünü göstərirdi. Torpağı kəndlilərin əlindən almaq üçün cürbəcür kələklər qurur, cürbəcür çarələr tapırdı. Əvvəllər işəyarar üsulu, iki kəndi, üç kəndi bir-birinə düşmən etmək, onlar bir-birilə düşnüşdükdən sonra bir tərəfi müdafiə edib, onun yardımı ilə o biri tərəfin torpaqlarını ələ keçirmək idi. Bu ən asan, həm də ən yararlı bir üsul idi. Amma uzun zaman davam edə bilməzdi. Bir-birinə düşmən olmuş kəndlilər, nəhayət, vəziyyətdən baş açır, əsl düşmənlərinin kim olduğunu anlayırdılar. Lakin artıq iş işdən keçmiş olurdu, torpaqlarının ən azı yarısı əllərindən çıxırdı. Əli Səfa bəyin mülkü isə iki-üç kəndin ərazisi qədər böyüyürdü.

İllər keçdikcə Əli Səfa bəy cürbəcür üsullar, cürbəcür çarələr tapırdı. Hər üsul, hər çarə bir-iki il içərisində kəşf edilirdi. Amma hər şeyə rəğmən, Əli Səfa bəy həmişə udurdu. Hər ilin axırında onun mülkü bir az da böyüyürdü.

Vəziyyət o yerə çatdı ki, Əli Səfa bəyin bütün hiylələri aşkara çıxdı. Daha heç bir kəndli onun toruna düşmürdü. Sanki onun bütün imkanları, çarələri tükənmişdi. Amma Əli Səfa bəy yenə də bir çarə tapırdı.

O illər dağlarda qaçaqlar vardı. Əsgərlikdən qaçan fərarilər, soyğunçular, qatillər, üsyançılar... Bu dəfə də Əli Səfa bəy onlardan istifadə etməyi qərara aldı. Dağlardakı bir-iki dəstəbaşı ilə dilləşdi. Öz adamlarından da bir-ikisini dağlara göndərdi. Qaçaqları kəndlilərin canına saldırdı. Artıq Əli Səfa bəy istədiyini edirdi. Bundan sonra kəndlinin nə hünəri vardı Əli Səfa bəyin dediyindən çıxsın... Bir gecədə evi yıxılardı, arvadı qaçırılardı, işgəncələrlə öldürülərdi. Bunları eləyənin Əli Səfa bəy olduğunu hamı bilirdi. Bunun üstündə Əli Səfa bəyin heç gözünü də üfürən olmazdı. Jandarmlar qaçaqların dalınca düşüb vurulardılar.

Əli Səfa bəyin bu üsulunu, təbiidir ki, o biri ağalar da tətbiq edirdilər. Çuxurova torpaqları qana bulanırdı. Kim kimə rast gəlirdisə, vurub öldürürdü... Dağlardakı qaçaqlar da ikiyə, üçə, beşə, ona ayrılıb bir-birlərini qırırdılar. Bir gecədə bir neçə dəstə birdən ortadan çıxır, bir neçə dəstə də birdən törəyirdi.

Yalnız Gizik Duran, Kürd Rəşid, Cötdələk kimi heç kəsə baş əyməyən qaçaqlar ağaların dediklərinə uymamış, yoxsulları qaçaqlardan və ağalardan bacardıqları qədər qorumağa çalışmışdılar. Toros dağlarında məşhur olmuş neçə qanlı qatilin adı-sanı unudulduğu halda, onların barəsindəki mahnılar, dastanlar hələ də dildən-dilə dolaşmaqdadır.

İncə Məmmədin dağa çəkilib qaçaq olması məhz bu zamana, ağaların mənafeləri uğrunda qaçaqların dağlarda bir-birlərini məhv etdikləri, Çuxurovada torpağı zorla əlindən alınmış kəndlilərin inlədikləri zamana təsadüf etmişdi.

Əli Səfa bəyin iyirmi dönümlük torpağı iki il ərzində otuz min dönümə çatmışdı. Sonrakı illərdə də durmadan artırdı. Otuz beş min, qırx min, qırx beş min, əlli min... Əlli bir min... Torpaqsız kəndlilər də dəstə-dəstə gəlib Əli Səfa bəyin yardarı olurdular. Öz torpaqlarında onun muzduru işləyirdilər.

Əli Səfa bəy uzunboylu, qalın qaraqaşlı, his rənginə çalan qəribə əsmərüzlü bir adamdı; həmişə işıldayan uzunboğaz çəkmə geyərdi. Əlindəki gümüş dəstəli qırmancını həmişə işıldayan çəkmələrinin boğazına vurardı.

Tək günü idi. Xəbər gəlmişdi ki, Qalayçının dəstəsinin döyüş sursatı qurtarmışdır. Suriyədən göndərilən döyüş sursatının gəlib çatması hələ bir həftə çəkərdi. Əli Səfa bəy çaşqın, təlaşlı idi. Böyük qonaq otağında əsəbi-əsəbi hey gəzişirdi. Düşünür, arasıkəsilmədən düşünürdü. «Bir neçə il də səbir etməli. Vayvay kəndinin torpaqlarını da ələ keçirənə qədər səbir etməli. Sonra Anqaraya tel üstündən tel vuraraq, qəsəbə camaatı hökumətə qarşı üsyan etmişdir,

dağları qaçaqlar tutmuşlar. Hökumət yoxdurmu, deyə fəryad qoparmalı... Hələ bir-iki il də səbir etməli. Ay Qalayçı dəstəsi!..»

Əli Səfa bəyin arvadı taxtda oturub, ərinin otaqda vargəl eləməsinə, gümüş dəstəli qırmancını işıldayan çəkməsinin boğazına vurmasına heyran-heyran tamaşa edirdi. Əli Səfa bəy hirsləndiyi zaman özünü saxlaya bilməyib, ürəyindəki sirləri, planlarını arvadına söylər, ürəyini boşaldardı. Yenə də həmişəki kimi etdi:

– Xanım, – dedi, – bilirsən nə etmək istəyirəm?

Arvadı:

– Danış görüm, – dedi.

Həmişə söhbət belə başlanardı.

– Bilirsən nə etmək istəyirəm? Usandım, vallah... Usandım. Canımdan bezdim... bunların əlindən. Allahın hər verən günü döyüş sursatı. Allahın hər verən günü jandarm dəstəsi... Usandım. Dünən kəndlilər yığışıb qəza rəisinin yanına getmişlər, qaçaqlardan cana gəldik, malımız, canımız, namusumuz əldən getdi, demişlər. Anqaraya tel vurmaq istəmişlər... Mən gəlib qabaqlarını kəsdim. Böyüklərin yanında qəsəbəmizi ləkələməyin, dedim. Mən gərək hələ iki il də səbir edəm, yoxsa mən onlardan heç razıyammı? Qoy bir Vayvay kəndini də keçirim ələ. Heç bilirsən nə etmək istəyirəm, arvad?

Arvad başını «bəli» deyən bir adam kimi yırğaladı.

– Toplayacağam kəndliləri başıma, tel üstündən tel vuracağam Anqaraya. Deyəcəyəm ki, burada üsyan başlanmışdır. Dağları qaçaqlar bürümüşlər. Kiçik bir qaçaq hökuməti qurulmuşdur. O zaman hökumət buraya bir polk əsgər, yaxud da bir diviziya dağ qoşunu göndərər, hər şey düzəlib gedər. Hamısını tutarlar. Bu hökumət böyük kürd üsyanını yatırtdı, iki-üç qotur qaçağın öhdəsindən hay-hay gələr... Teleqrafçıya tapşırmışam ki, qaçaqlar barəsində qəsəbəmizi ləkələyən heç bir teli Anqaraya vurmasın... Bircəciyini də vurmasın... Amma iki il sonra, Vayvay kəndinin

torpaqları əlimə keçən kimi, mən bilirəm o qaçaqların başına nə oyun açacağam...

Əli Səfa bəy susub fikrə getdi. Bir müddət başını qaldırıb otaqda dalğın-dalğın gəzişdi.

Sonralar, iki il sonra deyil, çox sonralar Əli Səfa bəy Anqaraya tel üstündən tel vurmuş, öz itaətində olan qaçaqları qəsəbəyə basqın etməyə vadar etmiş, qaçaqlara cəza vermək üçün bir polk qədər əsgəri olan bir batalyon gətirtmiş, ən nəhayət, qaçaqların kökünü kəsdirtmişdi.

Qapının açılması Əli Səfa bəyi dalğınlıqdan ayıltdı. Qapını açan xidmətçi dərhal qapını qapayıb, qaça-qaça yuxarı çıxdı:

– Başı-gözü sarıqlı bir adam gəlmişdir, – dedi. – Səni görmək istəyir. Uzun saqqalı var.

Əli Səfa:

– Qoy gəlsin, – dedi.

Başı-gözü sarıqlı adam içəri girib, özünü taxtın üstünə saldı:

– Salaməleyküm, qardaşım Əli Səfa bəy əfəndi, – dedi.

– Əleykümsalam.

– Əli Səfa bəy, sənin atan mənim ən yaxşı yoldaşım idi. Sənin ocağına pənah gətirmişəm. Abdi sənin ocağına pənah gətirmişdir. Qurtar məni bu bəladan. Bir böyük kəndi yandırdı gözümün qabağında. Atanın yoldaşı Abdi sənin ocağına pənah gətirmişdir. Sənin ocağına pənah gətirmişəm. Əli Səfa bəy deyib gəlmişəm. Qurtar məni bu bəladan. Ayaqlarından öpüm, qurtar məni. Qurtar bu bəladan. Atanla dostluğumuz vardı, qardaş kimiydik, qardaşdan da yaxındıq. Ayaqlarını öpüm, qurtar məni.

Əli Səfa gülümsədi:

– Bu təlaş nə üçündür? – dedi. – Hələ bir azacıq yorğunluğunu al. Sonra danışarıq.

– Hələ bir soruşursan ki, bu təlaş nə üçündür? Mən təlaş etməyim, bəs kim təlaş etsin, Əli Səfa bəy? Hərif Əzrailin qılıncı kimi başımın üstünü kəsdirmişdir. Mənim ucbatım-

dan böyük bir kəndi yandırdı. Ağtozlu kəndi kimi böyük bir kəndi. Mən təlaş içindəyəm... Ayaqlarından öpüm, Əli Səfa bəy, qurtar məni. Qurtar onun əlindən. Qurtar, Əli Səfa bəy. Abdi əmin sənə qurban olsun. Yuxum, dincliyim yoxdur. Hərif Əzrailin qılıncı kimi, başımın üstünü almışdır. Yuxum, dincliyim yoxdur, yox.

Əli Səfa bəy yarızarafat, yarıciddi:

– Abdi ağa, eşitdim ki, sənin bu İncə Məmmədin əl boyda bir uşaqdır? – deyə soruşdu.

– Yalandır, yalandır, – deyə Abdi ağa ayağa qalxdı. – Yalandır, indi qovaq ağacı qədər uzanmışdır. Evi yandıranda öz gözümlə gördüm. İkimiz qədərdir. Yekədir. Yalandır, yalan! Uşaqlığında kiçik idi. İndi ikimiz qədər var. Əl boyda bir adam heç bu işləri görə bilər? Div qədər yekədir o məlun.

Əli Səfa bəy:

– Sən narahat olma, ağa, – deyə onu sakit etməyə çalışdı. – Bir çarə taparıq. Hələ bir qəhvəni iç!

Abdi ağa xidmətçinin gətirdiyi qəhvəni əli titrəyə-titrəyə götürdü. Otağa xoş bir qəhvə qoxusu yayıldı. Hortuldadaraq içməyə başladı.

Əli Səfa bəyin arvadı gəlib Abdi ağanın yanındakı taxtda oturdu:

– Keçmiş olsun, ağa, – dedi. – Əhvalatı eşitdik, sənə ürəyimiz yandı. Nələr gəlmiş sənin başına! Yazıq Abdi ağa! İnşallah, Əli Səfa bəy o imansıza divan tutar. Heç qəm çəkmə.

Kənd yanandan bəri Abdi ağa nə isə xoşhal olmuş kimi çox qəribə görünürdü. O hey danışır, hadisəni, yanğını nağıl edirdi. Qarşısına çıxan hər adama, onun dinləyib-dinləməməsinə baxmayaraq, hey danışırdı. Dinləyənlər Abdi ağanın halına acıyır, İncə Məmmədə lənət yağdırırdılar. Abdi ağanı dinləyən hər kəs: qəza rəisi, jandarm idarəsi rəisi, jandarm, katib, məmur, qəsəbəli, kəndli onun dərdinə şərik olurdu... Abdi ağa başına gələn hadisəni ağlaya-ağ-

laya elə nağıl edirdi ki, onun halına acımamaq mümkün deyildi.

Qadını qarşısında oturub onu dinləməyə hazır görən Abdi ağa ürəyində sevincə, nəşəyə bənzər bir rahatlıq duydu. Başına gələn əhvalatı danışmamışdan əvvəl Abdi ağanın üzü elə pərişan, qəmgin bir hal alırdı ki, onun danışmağına lüzum qalmadan, insan olub-keçəni Abdinin üzündən oxuya bilirdi.

Qadın:

– Hamımızın ürəyi yandı. Qəza rəisinin arvadı dünən bizə gəlmişdi. Dedi ki, qəza rəisi yaman qəzəblənmişdir... Dilindən-ağzından od yağırmış. Demişdir ki, onu hökmən tutmaq lazımdır. Böyük bir kəndi də yandırmaq olar? Qəza rəisinin xanımı səni görməyi arzulayırdı. Deyirdi ki, yanğından qaçıb qurtulan adam, görəsən, necə adamdır? Hamımızın sənə ürəyimiz yandı. Əli Səfa bəyin bu Vayvay kəndi işi qurtarsın, o, qaçaqlara göstərəcək. Dağlarda bir nəfər də olsun qaçaq qoymayacaq. Abdi ağam, hamımızın ürəyimiz yandı sənə.



Əli Səfa bəy gümüş dəstəli qamçısını işıldayan çəkməsinin boğazına vura-vura otaqda var-gəl edirdi.

Abdi ağanın üzü gərildi, dodaqları titrədi:

– A-a-ah, – deyə sözə başladı. – A-a-ah! Mənim xanım qızım, bir bilsəydin, başıma nələr gəlib! Mənim başıma gələnlər heç qulun da başına gəlməyib. Ah! Mənim xanım qızım, gözəl qızım. Vəli mənim qardaşım oğlu idi. Sərv qamətli, igid bir oğlan idi mənim Vəlim. Xətcə onun nişanlısı idi. O imansız götürüb Xətcəni qaçırtdı. Qoy qaçırtsın. Bizə nə? İki könül bir olanda, samanlıq seyrəngah olar. Mənim Vəlim üçün məgər qızmı yoxdu? Əl eləsəydi, əllisi gələrdi. Mən beş kəndin ağasıyam. Atam, babam da ağa olub. O, qardaşım oğlunun nişanlısını qaçırtdı, amma mən xəbər göndərdim ki, gəlib kənddə yaşasın. Ev-eşiyindən avara olmasın. Mənim kəndlilərimin hamısı mənim oğlumdur. Bəslə qarğanı, ovsun gözünü, deyərdilər, inanmazdım.

Mərhəmətdən mərəz gələr, deyərdilər, inanmazdım. De, sənin nəyinə lazımdır? Səfehlik məndədir. Hara qaçıbsa, qoy orda da qalsın. Qoy el içində qarnı üstə sürünsün. İlanı, canımın düşmənini gətirtdim kəndə. Qardaşım oğlunun nişanlısını qaçıran adamı bağışlayıb, kəndə gətirtdim. Sonra qardaşım oğlunu öldürdülər. Məni də yaraladılar. Az qala mən də öləcəkdim. İndi mənim elədiyim yaxşılığa baxın, onun elədiyi pisliyə...

Qadın:

– Vay Abdi ağa, vay, – dedi. – Bu adamlara gərək yaxşılıq eləməyəsən. Bizim Səfa bəy heç vaxt heç kəsə yaxşılıq eləməz.

Abdi ağa:

– Gərək eləməyəydik, – dedi, – yaxşılıq eləməyəydik, amma keçənə güzəşt deyərlər. Çörək itirən, yediyi süfrəyə dal çevirən o nankor məni vurandan sonra qaçdı, gedib qaçaqlara qoşuldu. Qoy getsin, dedim. Allah bəlasını versin. Qaçaqmı olur, quldurmu olur, nə olursa-olsun. Bir gün xəbər gəldi ki, məni öldürməyə əhd etmişdir. Öz dəstəsi ilə kəndə tərəf gəlir. Hə, xanım qızım, dəstəsi ilə gəlirmiş. Mənim üçün deyirmiş ki, onun qanını şərbət kimi içəcəyəm. Mənim elədiyim insanlığa bax, onun etdiyi məlunluğa! Bilmirəm ki, mənim kimi qocadan nə istəyir? Əslində ayağımın biri gordadır. Namazımda, ibadətimdəyəm. Nə üçün dünya işlərinə qarışım? Baxdım ki, o məlun kəndə gələcək, məni öldürəcək. O məlundan hər şey gözləmək olar. Qaçdım kənddən. Evimi, yurdumu, yuvamı buraxdım, qaçdım oradan. Ağtozlu kəndindən Hüseyn ağa bizim qohumdur, gəldim onun evinə sığındım. Kaş ki, heç sığınmayaydım. Mənim ucbatımdan böyük bir kənd yanıb kül oldu.

Qadın:

– Kaş ki, – dedi, – kaş ki, bizim evə gələydin. Bu işlər olmazdı.

– Nə bilim, qızım. O məlunun belə eləyəcəyi heç ağlıma gəlməzdi. Əsla gəlməzdi. Kaş ki... Qızıma deyim ki, böyük

bir kənd yanıb kül oldu. Fağır-füqəra ev-eşiksiz, çıl-çılpaq qaldı. O yazıq uşaqlara baxanda, adamın ürəyi parça-parça olur. Yeyəcək çörəkləri yox, geyəcək paltarları. Ac qalacaqlar bu qışı, öküzləri, heyvanları da yandı çoxunun. Mənim ürəyim heç kəsə yox, o tifil uşaqlara yanır. O uşaqları, o yazıq kəndliləri gördüm, öz dərdim yadımdan çıxdı. Topal Əlini kəndə göndərdim ki, bu yazıqlar üçün yeməyə buğda gətirsin. Bu yazıqlara ürəyim elə yanır ki! Əlbəttə, yanar. Qorxuram ki, o imansız gedib bizim kəndi də yandırsın. Yandıranda da yandırar. O daha buna alışmışdır. Bizim kəndi də yandırıb kül edər... Qızıma deyim ki, o canavar, sən demə, mənim yerimi öyrənibmiş, dəstəsini götürüb gəlibmiş. Gecəyarısı eşitdim ki, bir səs gəldi. Məni istədi. O məlun olduğunu dərhal anladım. Bir gecə əvvəl onu yuxuda görmüşdüm. Ürəyim tıp elədi. Hüseyn ağa qoymadı çıxım bayıra. Heç qoyarmı? Onda o məlun qapını tutdu gülləyə. Hüseyn ağaya: «Arvad-uşağını götür, bayıra çıxart!» dedi. Hüseyn ağa gecəyarısı uşaqlarını götürüb bayıra çıxartdı. Yazıq nə eləsin! Mənim təslim olmağımı tələb etdi. Olmadım. İçəridən özümü qorudum. Bu dəfə də evi odladı. İri ev gur-gur yanırdı. Üç nəfər qapını gülləyə basmışdı. Qapıdan çıxa bilməzdim. Çıxılası başqa bir dəlik də yoxdu. Tüstünün, alovun içində vurnuxurdum. Bir-iki kərə istədim ki, özümü bayıra atım, sonra yox dedim, onun əlində ölməkdənsə, qoy alışıb-yanım. Qırmızı alovlar məni bürüyürdü. Tüstü dörd yanımı sarmışdı... Daha qapını da görə bilmirdim. Qapqara bir tüstünün içində qalmışdım. Boğulurdum. Dörd tərəfim çatırtı ilə yanırdı. Özümü buradan oraya, oradan buraya atırdım. Qurtulacağıma ümidim qalmamışdı. Başıma parça-parça od yağırdı. Uşaqlarım, dedim, kəndlilərim, dedim, mən daha ölürəm. Mən olmasam, beş kəndin beşinin də kəndliləri acından öləcəklər. Yazıq kəndlilərim, dedim. Sonra, qızıma deyim ki, bir tərəfim od tutdu. Başım yandı. Canımın qorxusundan özümü yerə sərdim... Mən canımın hayında bu cür

çapalarkən, qulağıma: «Abdi ağa, Abdi ağa!» deyə bir səs gəldi. Hüseyn ağanın böyük arvadının səsi idi. Qadın yanğında məni axtarırdı. «Buradayam, bacım» dedim. «Gəl, – dedi, – gəl, üstü dəmirlə örtülü tərəfə gəl. Sarıyım səni bu yorğana». Məni yorğana yaxşıca sarıdı. İri bir yorğan idi. Mən də, görürsən ki, heç iri adam deyiləm. Qadın aldı məni qoltuğunun altına, çıxartdı bayıra. O məlun indi elə bilir ki, mən orada yanıb kül olmuşam. Hüseyn ağanın böyük arvadı olmasaydı, mən yanıb kül olacaqdım... Görsəydilər, məni vurardılar. Ağıllarına gəlmədi.

Əli Səfa bəyin arvadının gözləri yaşla dolmuşdu:

– Yaxşı ki, ağıllarına gəlməmişdir, ağa, – dedi, – yoxsa səni öldürərdilər o imansızlar.

Abdi ağanın da göz çuxurlarına yaş dolmuşdu. Az qalırdı ki, ağlasın.

– Sonra da, – dedi, – Hüseyn ağanın evi yanıb qurtaranadək gözlədilər. Ev yanıb kül oldu. Bundan sonra da kəndi gəzib, evləri bircə-bircə odladılar. Hüseyn ağanın evini, tutaq ki, mənim ucbatımdan yandırdınız. Bir də Hüseyn ağa varlı adamdır. Yanan evinin yerində bir neçə günə yeni ev tikdirər. Ay məlunlar, ay imansızlar, bəs o biri evlərdən, fağır-füqəranın evlərindən nə istəyirsiniz? Bu qış qabağı yazıqları nə üçün çıl-çılpaq, evsiz-eşiksiz qoyursunuz? Hüseyn ağanın evini yandırdınız, çıxıb gedin, ay Allahsızlar! Axı yazıq kəndlilər sizə nə eləyiblər? Ürəyim heç kəsə deyil, bu fağır-füqəraya yanır.

Əli Səfa bəyin arvadı:

– Bu qış, – dedi, – yazıqlar tir-tir titrəyəcəklər. Nə ev-eşikləri var, nə də yeyəcək şeyləri... Qoy bu Vayvay kəndinin işi qurtarsın. Əli Səfa bəy dağlarda bir nəfər də qaçaq qoymayacaq... Tel üstündən tel vuracaq Anqaraya... İsmət paşaya...[1] Tel üstündən tel vuracaq. Nizami qoşun gələcək. Bu daha jandarm deyil... Hamısını bir-bir tutub asacaqlar. Heç belə

[1] **İsmət paşa (İnönü)** – *o illərdə Türkiyədə Baş nazir idi – red.*

də iş olar ki, kəndi yandırsınlar? Bizim halımızı heç soruşma, Abdi ağa. İllərdən bəridir ki, qaçaqları biz bəsləyirik. Əli Səfa bəyin qazandığının hamısı qaçaqlarındır. Onların silahına, patronuna gedir. Qoy bir bu Vayvay işi qurtarsın!

Əli Səfa bəy hələ də dalğın-dalğın var-gəl edirdi. Arvadının, «qoy bir bu Vayvay işi qurtarsın» dediyini eşitdi. Xəyaldan ayrıldı. Gəlib arvadının qolundan tutdu:

– Nə deyirdin ağaya? – deyə soruşdu. – Nə deyirdin?

Abdi ağa:

– Zərər yoxdur, Əli Səfa bəy, biz özgəsi deyilik, – dedi. – Zərər yoxdur. Sənin atan mənə qardaşdan da yaxın idi.

Əli Səfa bəyin arvadı günahkar-günahkar:

– Əlbəttə, – dedi, – Abdi ağanı özgə saysaydım, belə şeyləri ona heç söylərdimmi?

Əli Səfa bəy arvadının gözlərinin içinə acıqlı-acıqlı baxdı; elə bil bununla demək istəyirdi ki, boş danışdın, böyük səhv elədin. Sonra hirsli-hirsli arvadına:

– Sən o biri otağa keç, – dedi. – Bizim ağayla gizli söhbətimiz var.

Arvadı günahkar, peşman halda ayağa qalxıb o biri otağa getdi.

Əli Səfa bəy gülümsəyərək Abdi ağanın yanında oturdu. Əlini dizinin üstünə qoydu:

– Çox fikirləşdim, ağa, – dedi. – Çox fikirləşdim. Bu İncə Məmmədin öhdəsindən asanlıqla gəlmək olmayacaq. Ondan qorxmağa haqqın var. Hökumətdən, kəndlilərdən qorxmayaraq, böyük bir kəndi yandıran adamdan qorxmaq lazımdır. Bir həftədir bütün dağlar jandarmlarla, kəndlilərlə doludur. O, yoxdur, tapılmır. Ağtozlu kəndindən əlli adam onu təqib edir. Onun öz kəndindən on beş nəfər yaxşı güllə atan adam da onun dalınca düşmüşdür. Onu tapa bilmirlər. Bu adamdan qorxmaq lazımdır. Bu adamı ortadan qaldırmaq çətindir.

Abdi ağa rəng alıb, rəng verir, gah qızarır, gah da bozarırdı. Əli Səfa bəyin əlindən yapışıb yalvarmağa başladı:

– Nə eləyirsən elə, məni onun əlindən qurtar. Sabah gələr, Çuxurovada nə qədər kənd varsa, hamısına od vurub yandırar. Nə eləyirsən, elə.

Əli Səfa bəy:

– Çətin olacaq, Abdi ağa, çətin olacaq, – dedi, – amma nə edək!

– Nə eləyirsən, elə!

– Bu adam barəsində bir ölçü götürməyə çalışaram. Amma səndən mənim də bir xahişim var...

Abdi ağa:

– İstədiyin başım üstə. Canımı istə, Əli Səfa bəy. Canımı istə, qardaşlığımın oğlu. Sənin üçün canımı verərəm, – deyə həyəcanla ayağa qalxdı.

Əli Səfa bəy onun əlindən tutub oturtdu.

– Sağ ol, – dedi. – Bilirdim ki, xatirimi istəyirsən. Amma əsla fikrinə gəlməsin ki, bu iş üçün səndən bir şey istəyirəm. Belə bir şey məbada fikrinə gəlməsin ha! Əgər gələcəksə, heç deməyim. Mən İncə Məmməd barəsində lazımi tədbir görəcəyəm. Amma əsla fikrinə gəlməsin ki, mən səndən bunun əvəzinə bir şey istəyirəm.

Abdi ağa yenə eyni coşqunluqla, eyni həyəcanla:

– Gəlməz, gəlməz, – dedi. – Vallah gəlməz, mənim sevgili qardaşlığımın oğlu, Əli Səfa bəy!

Əli Səfa bəy bir müddət susub fikirləşəndən sonra başını qaldırdı, Abdi ağanın gözlərinin içinə baxdı:

– Bilirsən ki, ağam, mənim də başım cürbəcür işlərə qarışıqdır. Çox şükür ki, axır illərdə başağrıdan işlərim azalmışdır. Azalmağına azalmışdır, amma bu Vayvay kəndinin torpaqları məsələsi məni rahat yatmağa qoymur.

Abdi ağa eyni həyəcanla:

– Mən bilirəm, – dedi. – Vayvay kəndinin bütün torpağı sənin atanın idi. Atan əkib-becərərdi. O öləndə sən məktəbdəydin. Vayvay kəndliləri gəlib bu torpaqları tutdular. Mən sənə hələ qabaq deməmişdimmi ki, sənin əlində olan qəbalənamədə Vayvay kəndinin bütün ərazisi göstərilmiş-

dir. Bunu hamı – mən də, bizim beş kəndin camaatı da, Ağtozlu kəndi də bilir. Sən bunun üçün heç fikir çəkmə. Abdi əmin bu işin öhdəsindən gələr. Torpaq məsələsini sən mənim öhdəmə burax. Altı ay içərisində Vayvay kəndinin torpaqları sənin olacaq.

Əli Səfa bəy:

– Ağa, – dedi, – məbada fikrinə gəlməsin ki, mən görəcəyim iş üçün səndən əvəz istəyirəm.

Abdi ağa:

– Yox, yox, – deyə başını tərpətdi. – Yox, yox.

Əli Səfa:

– Hamısını kənddən qovmuşam, – dedi, – qorxularından kəndə ayaq basa bilmirlər. Hamısı Yürəgir torpağına qaçmışdır. Amma yenə də əl çəkmirlər.

– Sən bu işi Abdi ağa əminə tapşır. Belə işlər mənim işimdir. Bir gör öhdəsindən necə gəlirəm!

– Bir həftə sonra Suriyədən döyüş sursatı gələcək.

– Gələndən sonra nə edəcəksən?

– Qalayçının dəstəsi üçün göndərəcəyəm.

– Abdi sənin gözlərinə qurban olsun, oğul, – deyib Abdi ağa ayağa qalxdı.

Əli Səfa bəy qonaq qalmasını xahiş etdi. Fəqət Abdi ağa bu günlər onun evində qonaq qalmağı münasib bilmədi. Hətta:

– Bu günlərdə biz gərək camaat içində bir-birimizlə heç danışmayaq, – dedi.

## XVI

O gecə səhərə qədər durmadan, iti addımlarla yol getdilər. Dan yeri işıqlanarkən, tövşüyə-tövşüyə gəlib Ağcaşam qayalığına çatdılar. Yol boyunca bir-birilə danışmamışdılar. Bircə kəlmə belə kəsməmişdilər. Ağcaşam qayalığına çıxandan sonra bir daşın üstündə oturdular, üzlərini doğmaqda olan günəşə çevirərək, duman bürü-

müş Çuxurova düzünə baxmağa başladılar. Duman yavaş-yavaş çəkilir, kəndlər, yollar, təpələr, işıldayaraq qıvrım-qıvrım axan çay görünürdü.

Gün çıxandan sonra ovadan sis-duman tamam çəkildi. Ovada hər şey, hər ağac, hər daş par-par parıldayırdı. Əkilmiş və əkilməmiş rəngbərəng tarlalar: qara-qırmızı, boz torpaqlar elə bil lap yaxınlıqda idi.

Cabbar:

– Baxsana, Məmməd, – deyə ilk olaraq sakitliyi pozdu. – Dünən axşam, bax, oradaydıq.

Məmməd başını ona tərəf döndərmədən:

– Hə, oradaydıq, – deyə təsdiq etdi.

Cabbar Məmmədin bu süstlüyünü görəndə nə deyəcəyini bilməyib susdu. Amma nədənsə hey danışmaq istəyirdi. İçində nə isə onu sanki danışmağa vadar edirdi.

– Anavarzanın dibinə bax! Bax ora, qapqara görünən o yer pöhrəlikdir. Bu tərəfdə üzərində nələrsə uçuşan o yer də Ağcasaz bataqlığıdır... Ağtozlu kəndi hələ də tüstülənir. Tüstü burula-burula qalxır. Ta göyə yüksəlir. Gördünmü?

Məmməd boynunu bükdü:

– Görürəm, – deyə bezgin-bezgin cavab verdi.

Cabbar həyəcanlı halda soruşdu:

– Nə düşünürsən, Məmməd? Çox fikirlisən.

– Görəsən, o imansız, o yırtıcı yandımı? Bunu düşünürəm. Bir də Ağtozlu kəndinin yoxsullarına zülm oldu. Düşünürəm ki, onlar üçün nə edim.

– Düşünmə, bir işdir oldu.

– Bir işdir oldu, – deyə Məmməd təkrar etdi.

Cabbar:

– Sarı Ümmətin evinə gedək, – dedi. – Bu gecə orada qalaq. Sabah dağlara çəkilərik.

Məmməd gözləri parlayaraq:

– Cabbar, bilirsənmi bir də nə fikirləşmişəm? – deyə soruşdu.

Cabbar:

– Yox, – dedi.

– Gedəcəyəm Tikanlı düzünə, beş kəndin yaşlı adamlarını toplayacağam başıma. Deyəcəyəm ki, Abdi ağa daha yoxdur. Əlinizdəki öküzlər sizindir. Daha ortaqçılıq yoxdur. Torpaqlar da sizindir. Əkin, nə qədər əkə bilirsiniz. Nə qədər ki, mən dağdayam, bu, belə olacaq. Vurulsam, başınıza çarə qılarsınız. Sonra kəndliləri başıma yığıb, süpürüm kolluqlarını yandırtdıracağam. Süpürüm kolluqlarını yandırmadan heç kəs cüt sürməyəcək.

Cabbarın gözləri yaşardı:

– Bax, bu, yaxşı, – dedi. – Ağasız kənd! Hər kəsin qazandığı özününkü olacaq.

– Hər kəsin qazandığı... – deyə Məmməd gülümsədi.

– Əlimizdə silah torpaqları qoruyarıq.

– Bir iş də görməliyik.

– Nə iş görməliyik? – deyə Cabbar maraq və həyəcanla soruşdu. – Nə iş görməliyik?

– Mən bilirəm, qardaş, – dedi. – Mütləq bir iş görməliyik.

– Axı nə iş görməliyik?

– Bu Ağtozlu kəndinin fağır-füqərasının başına müsibət gəldi. Mütləq bir iş görməliyik. Bizim üzümüzdən evləri yandı.

– Doğrudur, onların başına müsibət gəldi, amma nə etməliyik?

– Nə etməliyik?

Cabbar gərinərək ayağa qalxdı. Uzun qıçları, enli çiyinləri polad teli kimi gərildi. Məmməd də gərinərək qalxdı. Üzü gündə yaxşıca yanmışdı. O qədər arıqlamışdı ki, dərisi az qala sümüklərinə yapışmışdı. Üzündə heç bir yorğunluq izi görünmürdü. Yerişində, danışığında, hər bir hərəkətində sağlamlıq, təmkin, zirəklik sezilirdi. Qaçaq olandan bəri çox dəyişmişdi.

Ayağa qalxan kimi, Məmmədin başında o sarı parıltı günəşdən işıqlandı, çoxaldı, böyüdü. Dodaqlarını həzlə yalaya-yalaya:

– Cabbar, – dedi, – hər kəsin qazancı özününkü olacaq. Keşikçisi də biz. Hər kəsin öz torpağı olacaq.

– Keşikçisi də biz. Hər kəsin öz torpağı olacaq! – deyə Cabbar təkrar etdi.

Qayanın gündoğan tərəfinə endilər. Məmməd qabaqda, Cabbar arxada, ensiz bir cığırla getməyə başladılar.

Cabbar:

– Görəsən, jandarmlar dalımızca gəlirlər? – deyə soruşdu.

– Yəqin ki, gəlirlər. Buna görə də biz gərək meşəyə girək.

– Bu, yaxşı olar.

– Bu torpaq məsələsi başıma girəndən bəri heç ölmək istəmirəm.

– Ölməkmi? – deyə Cabbar soruşdu. Səsində bir ürpərti vardı.

Məmməd:

– Hə, ölmək, – dedi. Rəcəb çavuş gözlərinin önünə gəldi. – Rəcəb çavuş ölüb getdi, amma mən onun necə bir adam olduğunu heç cür başa düşə bilmədim. Öləndə də bizə yaxşılıq eləmək istədi. Kəndin yanmasına da sevinirdi. Mən bu adamı başa düşə bilmədim. Həm hamını sevirdi, həm də hamıya düşməndi. Kənd yandı, o sevindi. Mənə belə gəlir ki, biz kənddəkilərə bir yaxşılıq eləsəydik, o yenə də sevinərdi.

Cabbarın burnu havada idi. Havanı qoxlayırdı. Şam ağaclarını qoxlayırdı. Ağzında şam ağacı çöpü vardı. Onu gəvələyirdi.

– Mənə də elə gəlir, – dedi.

Məmməd:

– Ürəyim az qalır yerindən qopsun – dedi. – Bir təhərəm. Başım fırlanır. Özüm də bilmirəm ki, sevinim, yoxsa ağlayım. Məəttəl qalmışam. Bu torpaq məsələsi... Kim bilir, kəndlilər mənə nə deyəcəklər!

– Kim bilir! – deyə Cabbar təkrar etdi.

Zəif əsən külək bulaq qoxusu, yarpız qoxusu gətirirdi.

Onlar meşədən, qayalıqlardan keçərək, yuxarı tərəfdən Ümmətin evinə yaxınlaşdıqları zaman gün batırdı.

Məmməd:

– Qoy gün batsın, sonra gedək Sarı Ümmətin evinə, – dedi.

– Yaxşı, – deyə Cabbar razılaşdı.

Oturdular. Dərindən nəfəs aldılar. Tamam tər içindəydilər.

Gün batdı, hava qaraldı. Duman içində qalmış Çuxurovanın üstünə qara bir pərdə endi. Göy üzü ulduzlarla örtülü idi. Ulduzlar, döşənmiş kimi, üst-üstə idi. Gündoğanda bir yığın ulduz sayrışan kimi idi. Hərdən bir ulduz axırdı. Axan ulduzların çoxu qarşıdakı dağın dalına gedirdi.

Onlar ayağa qalxdılar. Sarı Ümmətin evinə gəldilər.

Məmməd yavaşcadan:

– Ümmət qardaş, ey! Ümmət qardaş! – deyə ev sahibini səslədi.

İçəridən uzun müddət səs gəlmədi. Sonra qapı açıldı, Ümmət eşiyə çıxdı. Qaranlıqdakıların Məmmədlə Cabbar olduğunu tanıyanda özünü itirdi, qorxdu. Bir söz deyə bilmədi. Uzun zaman nə isə demək istəyərək kəkələdi.

Məmməd:

– Salam, Ümmət qardaş, nə var, nə yox? – deyə hal-əhval soruşdu.

Ümmət:

– Sus! – dedi.

Məmməd məsələni başa düşdü.

Ümmət ağzını Məmmədin qulağına yaxınlaşdırıb:

– Dalımca gəlin, – dedi. – Dalımca gəlin, sizi dağa aparım. Bura doludur.

Cabbar:

– Ümmət, acından ölürük, – dedi.

– Elə isə bir azca gözləyin, – deyə Ümmət içəri girdi. Bir on dəqiqədən sonra geri qayıtdı – Hə, indi gəlin gedək.

Ümmətin dalınca düşüb getməyə başladılar. Qayalara dırmanaraq, meşənin ağaclarını aralaya-aralaya, dağın zirvəsinə doğru bir saat, saat yarım yol getdilər.

Ümmət nəfəsini dərmək üçün bir ağaclıqda dayandı:

– Ay evi yıxılmışlar, – deyə sözə başladı, – bu heç olan işdir? Çuxurovada böyük bir kəndi yandırmısınız! Heç belə iş olar? Buna heç Gizik Duran[1] da cürət edə bilmədi. Necə oldu ki, siz belə elədiniz?

– Ümmət, hələ sən bir danış görək nə var, nə yox? – deyə Cabbar xəbər aldı.

Ümmət:

– Heç bir şey! Nə olacaq, – dedi. – Doqquz-on kənddən min nəfərə qədər əli silahlı kəndli, bir bölük də jandarm iki gündür dağı-daşı bürümüşlər, sizi tapmaq üçün lap siçan dəliyini də axtarırlar. Bu günlərdə əllərinə keçsəniz, heç bir tikəniz də tapılmaz. Sizin tozunuzu göyə sovurarlar. Çuxurovada böyük bir kənd!.. Bu olan işdir? Hələ tutaq ki, kəndi yandırmağına yandırmısınız...

Ümmət burda susdu.

Məmməd boğuq bir səslə:

– Yandırmağına yandırmışıq, nə olsun? – deyə soruşdu.

Ümmət yenə susdu.

Məmməd bir də soruşdu:

– Yaxşı, yandırmağına yandırmışıq, nə olsun?

Ümmət:

– Heç, – dedi. – Yandırmağına yandırmısınız...

Məmməd:

– Yandırmağına yandırmışıq, nə olsun? – deyə bir daha soruşdu.

Ümmət məsələni qəti öyrənmədiyi üçün söhbəti dəyişdirməyi daha uyğun hesab etdi:

---

[1] **Gizik Duran** – *illər boyu Toros dağlarında qaçaqlıq etmiş, cəsarəti, igidliyi ilə ad qazanmış, haqqında mahnılar qoşulmuş bir qaçaqdır. Çuxurovada azadlıq hərəkatında iştirak etmişdir.*

– Yandırmağına yandırmısınız, – deyib susdu. Bir yalan uydura bilmirdi. Birdən başında sanki şimşək çaxdı. – Barı o dinsizi öldürə bildinizmi?

– Hüseyn ağanın evi ilə birlikdə o da alışıb-yandı, – deyə Cabbar cavab verdi.

Ümmət dedi:

– Burada mağara kimi bir oyuq var. Buraya heç kəs gəlməz. Dalınızca düşənlər çəkilib gedənə qədər burada qalacaqsınız. Buradan tərpənməyin. Topal Əlini soruşsanız, o, Dəyirmanoluqdadır. Sabah sizə yemək gətirəcəyəm. Buradan çıxmaq fikrinə düşməyin ha...

Ümmət çuxurun ağzına gəldi:

– Bax buradır, – dedi. – Girin içəri. Əgər sizi təqib edənlər gəlib sizi tapsalar, aşağı tərəfə, yəni Çuxurova tərəfə qaçmaq fikrinə düşməyin. Oraya getsəniz, işiniz bitdi. Dağın zirvəsinə doğru çəkilin. Zirvəni aşandan sonra dağın ətəyində Keşiş çayına yetişərsiniz. Salamat qalın.

Ümmət gedəndən sonra onlar oyuğun ağzında oturub yeməklərini yedilər.

Cabbar:

– Mən oyuğa girib yatacağam, – dedi. – Bərk yuxun gələndə, məni oyat.

Məmməd cavab vermədi.

Məmmədin başından sarı işıltı hey axıb gedirdi. Sarı parıltı, qıvrıla-qıvrıla axan bir çay kimi, Məmmədin başında məsud bir şırıltı ilə dolanırdı.

Hər kəsin becərdiyi torpaq onun özünün olacaqdır. Abdi ölsə də, ölməsə də, torpaq onu becərənin olacaqdır. Süpürüm kolları od almışdır. Alov süpürüm kolları arasında çox böyük sürətlə yayılır. Alov süpürüm kolları bitən düzdə, hündür yerdən axan suyun sürəti ilə axıb gedir... Qasırğa bir qalaq yanar odu qabağına qatıb, düzdə gəzdirir. Bu od qalağı Tikanlı düzündə on gün, on beş gün, bir ay dolanır. Sonra bir gün baxırsan ki, atəş sönmüş, bütün Tikanlı düzü kömür kimi qapqara olmuşdur.

Tikanlı düzündən mahnı səsi gəlir. Hər bucaqdan oynaq mahnı ucalır. Cütçülər cüt qoşmuşlar. İndi onların qıclarını daha süpürüm kolları dalamır... Rahat cüt sürürlər...

Dəyirmanoluq kəndində hökmən toy çalınacaqdır. Böyük bir bayram olacaqdır. Durmuş Əli bir ayağını lap başının üstünə qaldırıb, tək ayağı ilə elə qəribə oynayacaqdır ki, hamı gülməkdən qəş edəcəkdir. Rəcəb çavuş eşitsəydi, bu işə sevinərdi. Nə çarə ki, indi o, Anavarzadakı pöhrəlikdə yatır.

Birdən Məmmədi qorxuya bənzər bir hiss bürüdü. Mindən artıq kəndli! Bu, inanılmaz bir işdir. Mindən artıq silahlı kəndlinin bu dağlarda nə işi var? Bu, görünmüş bir iş deyil. Bir kənd yanmış. Bunun onlara nə dəxli var? Bir bölük də jandarm! Heç fikir vermə. Qoy belə olsun. Ürəyindəki qorxu silinib getdi. İndi belə hiss edir ki, onlar min beş yüz, iki min olsalar da, onun vecinə deyil. O qorxmur. Onun üç yüzdən çox gülləsi var. Özünün yaşamasına əmin olduğu qədər əmindir ki, güllələrindən heç biri boşa çıxmayacaqdır.

Məmməd səhərə qədər bunları düşündü. Xətcə də heç fikrindən çıxmırdı. O, dustaqxananı təsəvvürünə gətirdi. Ürəyi sıxıldı. Bu qədər fəlakətin bir zamanda bir adamın başına necə gəldiyinə çaşıb qaldı. Məmməd çox nadir halda söyüş söyərdi. İndi o, qəzəblə söyüş söydü.

Cabbar oyananda gün xeyli ucalmışdı. Gözləri günəşdən qamaşa-qamaşa:

– Məni niyə oyatmadın, Məmməd? – deyə soruşdu.

– Yuxum gəlmədi.

– Bir tikə çörək yeyək, sonra sən də yat.

– Yaxşı.

Cabbar bağlamanı gətirib açdı. Bağlamada pendir və göy soğan vardı. Pendirlə göy soğanı yuxaya büküb dürmək düzəltdilər. Ağır-ağır yeməyə başladılar. Yeməklərini yedikdən sonra qarşıdakı qayanın dibindən qaynayıb çıxan

bulağın yanına getdilər, əyilib ağızlarını suya yapışdıraraq içdilər.

Məmməd:

– Burada, günün altında uzanıb yatacağam, – dedi.

– Yat, – deyə Cabbar cavab verdi.

Məmməd başını yerə qoyar-qoymaz, uşaq kimi, yuxuya getdi. Onun sakit üzündə bir uşaq məsumluğu vardı. Gün gəlib başının üstünə çatanda oyandı.

Tərləmişdi. Gərnəşdi. Qayanın dibindən qaynayıb çıxan bulaqda üzünü yudu. Eyni açıldı.

Cabbar dedi:

– Bu Ümmət başımıza bir iş açmasın?

– Bir iş açmasın? – deyə Məmməd təkrar etdi.

– Kim bilir?

– Bir iş açmağına aça bilməz, amma gəl biz buradan gedək. Dəyirmanoluğa gedək.

– Birdən tələyə düşsək, necə olsun?..

– Qaçaq tələyə düşməz. Qaçaq başqalarını tələyə salar.

– Qoy Ümməti gözləyək.

– Gözləyək. Ona xəbər vermədən getmək yaxşı olmaz.

Bir saat keçmişdi ki, aşağıdan, kolluqların arasından bir xışıltı eşitdilər. Özlərini qayaların dalına atdılar. Səs getdikcə artır, xışıltı yaxınlaşırdı. Şam ağacının dalından Ümmət çıxdı. Onları qayaların dalında səngərə girmiş vəziyyətdə görüb gülümsündü. Məmməd də gülümsündü.

Ümmət:

– Ümidlərini kəsdilər, – dedi. – Geri qayıdırlar. Mən də onlara dedim ki, dünən Anavarzanın düzündə bir hadisə törədən qaçaq bu gün Axarca dağında olmaz.

Cabbar:

– Yaxşı söyləmisən, Ümmət qardaş, – dedi.

Ümmət İncə Məmmədin əlindən tutdu:

– Səni, – dedi, – canım qədər sevirəm, qardaş. Yaxşı elədin. Arvad-uşağımın hamısı sənin yolunda qurbandır.

Cabbar:

– Yandırdıq. Çatırtı ilə yandırdıq, – deyə öyündü.

Ümmət buna cavab olaraq heç bir şey demədi.

Məmməd:

– Ümmət qardaş, hər kəsin əkdiyi torpaq özünün olarsa, necə olar? – deyə soruşdu.

– Çox yaxşı olar, – deyə Ümmət cavab verdi.

Məmməd:

– Hər kəsin cüt sürdüyü öküz özünün olarsa, necə olar?

Ümmət:

– Dünyada bundan yaxşı şey tapılmaz, – dedi.

– Süpürüm kollarını yaxşıca yandırdıqdan sonra cüt qoşularsa, necə olar, Ümmət qardaş? – deyə Məmməd soruşdu.

– Çox yaxşı...

Cabbar Ümmətin gətirdiyi çörək bağlamasını onun əlindən aldı, belinə bağladı.

– Sağlıqla qal, Ümmət, – dedilər.

Ümmət:

– Çətinliyə düşsəniz, yanıma gəlin. Sizi qardaşım kimi qoruyaram. Səni çox sevdim, Məmməd, – dedi.

Məmməd:

– Sağ ol, – deyə cavab verdi.

Qabaqda gedən Məmməd dayandı. Cabbar da ona çatıb dayandı. Məmməd sol əli ilə Cabbarın silah tutan əlini sıxdı. Göz-gözə baxdılar. Bir müddət beləcə dayanıb baxışdılar.

Məmməd:

– Qardaş, – dedi, – bu işə o qədər sevinirəm, o qədər sevinirəm ki...

– Mən də...

## XVII

Qaratut kəndi Ceyhan çayının sahilində salınmışdır. Bu kəndin qabağında Ceyhan çayı ovaya yayılır, genişlənir, bir göl kimi böyüyür, durğun görünür. Buralarda Ceyhan

çayı on ildə, on beş ildə bir dəfə yatağını dəyişdirir, sağa-sola əyilir, keçdiyi yerlərdə çoxlu lil buraxır. Bu səbəbdən də buralar Çuxurovanın başqa yerlərindən daha bərəkətlidir. Torpaq çox baha olur.

Əli Səfa bəyin son vaxtlarda ələ keçirdiyi mülk Qaratut kəndi ilə həmsərhəddir. Mülkün torpaqları Qaratut kəndlilərindən zorla, hiylə ilə alınmadır. Torpaq üstündə Qaratut kəndliləri ilə Əli Səfa bəy arasındakı ixtilaf illərdən bəridir ki, davam edir. Bir-birlərinin kölgəsini qılınclayırlar. Əli Səfa bəyin bərəkətli Qaratut torpaqlarını ələ keçirmək üçün nə kimi hiylələr işlətdiyi uzun bir hekayət, daha doğrusu, bir macəradır. Bu iş Əli Səfa bəyin hiyləgərliyinin, alçaqlığının həddi-hüdudu olmadığını, bir qarış torpaq üçün nələr etməyə qadir olduğunu göstərir.

Sarı Bəkir Qaratut kəndindəndi. Kənddə oxuyub-yazmaq bacaran yeganə adamdı... Qəsəbə məktəbində oxuduğu zaman zəkası ilə şöhrət qazanmışdı. Cəsur, ötkəm, düz adamdı. Ağzından yalan çıxmamışdı. Ucaboylu, qayışbaldır bir adamdı. Gülərüzlü, uşaq kimi saf, təmizdi. Bəkir Əli Səfa bəyin qarşısında bir əngəl idi. O olmasaydı, Əli Səfa bəy Qaratut kəndinin bütün torpaqlarını öz mülkünə qata bilərdi. O, Əli Səfanın qarşısında dağ kimi dayanmışdı. İstər öz torpağını, istərsə də həmkəndlilərinin torpaqlarını qoruyurdu. Başqa kəndlilərə heç bənzəmirdi. Kəndlilər onu çox sevir, dediyindən çıxmırdılar. Uzun illər Əli Səfa bəy ona heç bir pislik eləməmişdi. Əli Səfa bəy ilə kəndlilər arasındakı torpaq davası kəsilmirdi. Kəndlilər heç cür güzəştə getmirdilər. Bu hal ta o vaxtadək davam etdi ki...

Dəstəbaşı Qalayçı Osman Bəkirin əmisi oğlu idi. İşə yaramazın, sərsərinin biriydi. Üstəlik də Əli Səfa bəyin itiydi. Kənddə nə olurdusa, dərhal Əli Səfa bəyin ovcuna qoyurdu. Kəndlilər onu heç xoşlamırdılar. Əslində Qalayçı kənddə çox qalmırdı. Qalayçılığı da çoxdan buraxmışdı. Əli Səfa bəyin malikanəsində düşüb qalmışdı. Qalayçı

Osman kəndlilərin heyvanını qaçırdıb oğurlayır, əkinlərinə od vurub yandırır, hər cür namussuzluq edirdi. Kəndlilər onun əlindən cana gəlmişdilər, amma nə eləsinlər: bir yandan Bəkir əfəndinin xatiri, bir yandan Əli Səfa bəyin qorxusu... Bir yandan da «itə əl bulaşdırmaq» istəmirdilər.

Bəkir əfəndinin toyu idi. Arasıkəsilmədən nağara, zurna çalınırdı. Bütün kənd şənlik edir, halay vurur, mahnı oxuyurdu. Kənddə hər evdə bir toy məclisi qurulmuşdu. Kəndin Bəkir əfəndisi evlənirdi.

Toyun axırıncı gecəsiydi. Toy evinin qabağında üç güllə atıldı. Ara qarışdı. Bəkir əfəndi vurulmuşdu. Onu Qalayçı vurmuşdu. Bəkirin gəlini əli xınalı qaldı. Qalayçı da qaranlıqda aradan çıxdı, baş götürüb dağa qaçdı.

Qalayçının Sarı Bəkir əfəndini vurmasının səbəbini cürbəcür izah edirdilər. Nə olursa olsun, Qalayçının Bəkir əfəndini heç bir səbəb olmadan toy gecəsi vurması ağlasığmaz bir işdi. Bunu heç kəs gözləmirdi. Kəndlilər hamısı bir ağızdan qatilə lənət yağdırırdı: «Səni görüm, kor olasan. Heç Bəkir əfəndi kimi bir adama qıyarlarmı? Səni görüm kor olasan, onu vuran...»

Cürbəcür səbəblər söyləyirdilər. Kimisi deyirdi ki, Əli Səfa bəy öyrətdi, pul verdi, vurdurdu Bəkir əfəndini. Kimi deyirdi ki, Qalayçı qızı sevirdi, Bəkir əfəndiyə ərə getməsinə dözə bilmədi; ona görə də Bəkiri vurmuşdur. Bəziləri də deyirdilər ki, Qalayçı sarsağın biridir, ağlı belə kəsmişdir, qoy desinlər ki, Qalayçı Bəkir əfəndini vurdu, deyə silahını qaldırıb onu vurmuşdur. Qalayçı Osmanı yaxından tanıyanlar isə deyirdilər ki, uşaqlıqlarından bəri Qalayçı Osmanın Bəkir əfəndini görən gözü yoxdu. Qalayçının Əli Səfa bəyə kömək etməsi də Bəkir əfəndinin kəndlilərin tərəfini saxlaması üzündəndir. Nə isə, Bəkiri gözü götürmürdü. Bəkirin evlənməsi, kəndlilərin də Bəkiri bu qədər sevmələri Qalayçını bu işi görməyə vadar etdi. Hər nə isə, gerçəkdən Qalayçının Bəkir əfəndini vurması üçün heç bir səbəb yoxdu. Yuxarıdakı ehtimalların hamısı

Qalayçı barəsində doğru ola bilərdi. Çünki Qalayçının təbiətində bunların hamısı vardı.

Bu hadisədən sonra Qalayçı Əli Səfa bəyin əlində bir hədə-qorxu aləti oldu. Dağda nə qədər dor dibindən qaçan vardısa, Qalayçı onları öz başına topladı. Çuxurovada Əli Səfa bəyə qarşı çıxan yoxsul kəndlilərin başına bir bəla kəsildi. Əli Səfa bəyin düşmənlərinin gününü qara elədi.

Bütün bunlara baxmayaraq, Əli Səfa Bəkir əfəndi vurulandan sonra belə Qaratut kəndindən bir qarış da olsun torpaq ala bilmədi. Qalayçı kəndə gələ bilmirdi. Qalayçı qaçaq deyil, od olub aləmi yandırsa da, Qaratut kəndliləri onu adam yerinə qoymurdular, ondan çəkinmirdilər.

Neçə vaxt idi ki, Çuxurova qaynaşırdı. İncə Məmmədin adı dildən-dilə dolaşırdı. Kənd yandıran, ocaqlar söndürən İncə Məmməd! Ağtozlu kəndi yandıqdan sonra İncə Məmməd dillərdə dastan olmuşdu. Ağtozlu kəndini görməyə gələnlərin sayı-hesabı yoxdu. Ağtozlunun qadınları, uşaqları bir-birlərinə, başqa kəndlərdən onları görməyə gələn kəndlilərə İncə Məmməddən danışırdılar: «Div kimi bir adamdı. Yekə bir şam ağacı kötüyünü alışdırıb əlinə almışdı, evləri bir-bir yandırıb keçirdi. Kəndin içində yel kimi dolanırdı. Yandırdığı evlərdən biri sönürdüsə, qayıdıb təzədən yandırırdı. Bir görsəydiniz İncə Məmmədi! Gecənin qaranlığında gözlərindən işıq saçırdı. Boyu gah bir qovaq ağacı qədər uzanır, gah da qısalırdı. Ona güllə də batmırdı. Qarşısına çıxan ona güllə atırdı, amma kar eləmirdi».

Başqa-başqa kəndlərdə İncə Məmməd haqqında başqa-başqa rəvayətlər söyləyirdilər.

Bir dəfə Əli Səfa bəy Müəllimlər bağında, hər zaman görüşdükləri mağarada Qalayçı ilə görüşüb, İncə Məmmədi aradan qaldırmağı ona təklif etdi. Qalayçı bu təklifə çox sevindi, amma öz sevincini büruzə vermədi:

– Bu iş çox çətin işdir, Əli Səfa bəy, – dedi. – Çox çətin işdir. Belə bir adamla bacarmaq olmaz.

Əli Səfa bəy:

– Çuxurovada İncə Məmmədin adı dillərdə dastan olmuşdur, – dedi. – Vuranda da beləsini vur ki, adın dünyaya yayılsın. Bir fürsətdir düşüb əlinə! İncə Məmmədi də aradan qaldırsan, daha Çuxurova olacaq bizim.

Qalayçı:

– Çox çətin işdir, – dedi.

– Qorxma, – deyə Əli Səfa bəy əlini onun çiyninə vurdu.

– Çox çətin işdir, amma baxarıq. Bəlkə, bir yol tapdıq.

– Mütləq yol tapmalısan. O nə qədər cəsur olsa da, hələ təzədir. Dağlara yaxşı bələd deyildir. Bir tələyə salarsan, qurtarıb gedər.

– Baxarıq, – deyə Qalayçı cavab verdi.

Əli Səfa bəydən ayrılıb yoldaşlarının yanına gələn Qalayçı:

– Bir iş var, – dedi. – Bir çox çarəsi var bu işin. Özü də asan işdir...

Yoldaşları Qalayçının gözlərinə baxdılar.

Qalayçı:

– İncə Məmməd deyilən biri törəmişdir. Eşitmiş olarsınız, Ağtozlu kəndini yandıran İncə Məmməd. Onu aradan qaldıracağıq. Bunun çarəsi çoxdur. Nə qədər istəsək, o qədər.

İncə Məmmədi vurmaq Qalayçının dəstəsi üçün çörək yemək, su içmək qədər asan idi.

Qalayçı dağlara çəkiləndən bəri üç qaçaqçı dəstəsini aradan qaldırmışdı.

Sarı Bəkir əfəndi də daxil olmaqla, vurduğu adamların sayının qırxı keçdiyi söylənilirdi.

Qalayçı Osman qısaboylu bir adamdı; yaşıl ilan rəngində, yaxud da bozumtul-mavi rəngdə, ölü gözü kimi donuq gözləri vardı. Seyrək saqqalı sanki kirpi tikanları kimi sarı üzünə dik-dik sancılmışdı. Enli kürəyinə nisbətən boynu nazik idi. Bir də bütün boynu odda qızardılmış kimi qıpqırmızı idi. Cibləri bafta ilə çəkili mavi şalvar geyərdi.

Bütün bədəninə, hətta qıçlarına da patrondaş bağlardı. Patrondaşların da üstü bafta ilə işlənmişdi. Lap uzaqdan par-par parıldayırdı. Hər tərəfindən sədəf dəstəkli tapançalar, qəmələr, xəncərlər asılmış olurdu... Sinəsində də bir durbin vardı. Aynalı durbin... Başındakı bənövşəyi fəsin altından sarı kəkili iki qaşının arasına tökülürdü.

Qoçaq deyildi, cəsur də deyildi. Hiyləgərdi. Vuruşduğu, təqib etdiyi heç bir adamla üz-üzə çarpışmamış, həmişə arxadan vurmuşdu. Onun etdiyi hiyləgərlik, qurduğu tələ ağıla-xəyala gəlməzdi. Əli Səfa bəyin əlində bir alət idi. Bir cəhətdən Əli Səfa bəy də onun üçün alət idi. İndiyə qədər jandarmlarla ancaq bir-iki kərə qarşılaşmışdı. Jandarmlar onu təqib etməyə çıxan kimi, Əli Səfa bəyin göndərdiyi adamlar Qalayçını xəbərdar edirdilər. Qalayçı adətən qış aylarını Əli Səfa bəyin evində, onun üçün hazırlanmış xüsusi otaqda keçirər, dəbdəbəli bir həyat sürərdi. Yalnız otaqda darıxdığı zamanlar dağa çıxar, öz dəstəsinin başına keçərdi. Onun dəstəsi də rahat yaşayardı. Dağlara qar düşdüyü zaman sıldırım dağ döşündə yerləşən bir kəndə gedib orada qalar, gündə bir quzu kəsdirib kef edərdilər. Bu qədər sərbəstlik, bu rahat həyat Əli Səfa bəyin sayəsində idi. Bu səbəbdəndir ki, Əli Səfa bəy onlara öl desəydi, ölərdilər.



Qalayçı soruşdu:

– İçinizdə İncə Məmmədi tanıyan varmı?

Horəli belini bir ağaca dayayıb gözlərini yummuşdu. Özünü dikəltdi:

– Mən yaxşı tanıyıram, ağa, – dedi. – Dəli Durdunun dəstəsində bir yerdə olmuşuq.

– Elə isə yanıma gəl, Horəli! – deyə Qalayçı çağırdı.

Horəli qalxıb gəldi. Qalayçı onu iki çiynindən tutub silkələdi:

– Bir de görüm necə adamdır bu İncə Məmməd?

Horəli udqundu, dodaqlarını silirmiş kimi əlini ağzına çəkdi:

– Belə baxanda heç bir şeyə oxşatmazsan. Qısa boydur, cılızdır, iri başı, böyük gözləri var. Baxanda ona iyirmi yaş vermək olar. Daim nə isə düşünən bir uşaqdır. Onun güllə atdığını görməyənlər, vuruşmada yanında olmayanlar onun necə bir adam olduğunu anlaya bilməzlər. Çox sərrast güllə atır, lap xırda pulu da vurur. Dəli Durdunu tanıyırsan, necə güllə atdığını da bilirsən. İncə Məmməd dəstəyə gələn günü ondan yaxşı atdı. İndi gülləni iynənin gözündən keçirir. Çox zirəkdir. Yürük çadırları yanındakı sözləşmədə istəsəydi, Dəli Durdunu da, hamımızı da vurardı. Ancaq vurmadı. O belə adam olmasaydı, Dəli Durdu onun həqarətinin altında qalardımı? Dəli Durdu qorxurdu ondan...

Qalayçı:

– Horəli, – dedi, – amma sən çox təriflədin bu İncə Məmmədi. Olmaya o səni özünə məddahbaşı tutmuşdur?

– Yox, – deyə Horəli cavab verdi. – Sən İncə Məmmədin necə adam olduğunu məndən soruşdun, mən də bildiyimi, gördüyümü danışdım. Bax, belə bir adamdır İncə Məmməd!

Qalayçı yerə oturdu. Başını əlləri arasına aldı, fikirləşməyə başladı. Bir saatmı, iki saatmı keçdi. Horəlini təkrar çağırdı.

– Mənə yaxşı qulaq as, Horəli, – dedi, – İncə Məmməd sənə etibar edərmi?

– Etibar eləməz.

– Niyə?

– O, Dəli Durduya qarşı çıxanda, mən Dəli Durdunun tərəfinə keçmişdim.

– Nə olsun ki?

– Etibar eləməz. Əslində o, heç kəsə, öz atasına da etibar eləməz. Yanındakı Cabbara da etibar eləməz.

– Sən də dedin ha, dünənki qaçağı başımıza Gizik Duran elədin.

– Mən onu tanıyıram.

– Tanımamış ol, – deyə Qalayçı hirsləndi.

Qalayçı həmişə əsəbiləşəndə etdiyi kimi, burnunun tüklərini dartmağa başladı:

– Sən demək istəyirsən ki, İncə Məmmədi nə tələyə salmaq olar, nə də vurmaq?

– Belə demək istəmədim. Tələyə düşməyəcək adam olmaz. İncə Məmməd necə bir adam olsa da, hələ təcrübəsizdir. Hər şey tələnin necə qurulacağından asılıdır.

– Ümidim sənədir, Horəli. Sən hər işin öhdəsindən gələ bilərsən. Bir də sənin kimi təcrübəli qaçaq qalmamışdır bu dağlarda. Bu işi sənə tapşıracağam.

– Ağa, tapşırırsan tapşır, amma onlar iki nəfərdir.

– O birisi kimdir? – deyə Qalayçı soruşdu.

– Uzun Cabbar.

– Allah xatirinə, uzun Cabbar təmiz uşaqdır, igid uşaqdır.

– Əlimizdən nə gələr, Cabbar da onunla gedəcək.

– Getsin, – deyə Qalayçı razılıq verdi.

Sonra birdən:

– Mənə bax, Horəli qardaş, – dedi, – qoy onun olduğu yeri tapaq. Sən gedərsən, onu bizim dəstəyə dəvət edərsən. Bu olmazsa, başqa bir çarə taparıq.

– Dəvət eləsəm, bəlkə, gəldi. Onda bu işi asanlıqla həll edərik. Bəlkə, gəldi. O, tələ-mələ başa düşməz.

– Sözümüz sözdürmü?

– Sözümüz sözdür.

– Görəsən, onun yerini tez tapa bilərikmi? Onun müəyyən bir yeri varmı?

– Yazıq hələ təzədir, – deyə Horəli gülümsündü. – Müəyyən yeri haradan ola bilər! Amma onu tapmaq asandır. Mən onu taparam.

## XVIII

Neçə gündən bəri onlar gah qaçaraq, gah da gizlənərək, ac-acına yol getmişdilər. Meşəli, qayalıqlı dağlar aşmışdılar. Yorğunluqdan ölürdülər. İkisi də, arxalarındakı silah-güllə yükünün altında ikiqat bükülmüşdü.

Qaranlıq bir gecə idi, göz-gözü görmürdü. Ulduzlar seyrəkdi. Sayrışırdı. Səhərə yaxın ulduzlar donuqlaşdı. Səhərə az qalmışdı.

Birdən bərk gurultu eşidildi, Cabbar diksindi:

– Bu nədir? – deyə heyrətlə soruşdu.

Məmməd:

– Bulağın gözüdür, – dedi. – Yadındadırmı, ilk dəfə buradan keçəndə...

– Hə, bildim, – deyə Cabbar cavab verdi. – Elə isə bulağın başında azacıq oturaq.

Məmməd:

– Olmaz, – dedi.

Məmməd yorulub əldən düşdüyünə baxmayaraq, azacıq da olsun bir yerdə dayanmır, hey yol gedirdi.

O, tövşüyə-tövşüyə:

– Bir şey qalmayıb, Cabbar qardaş, – dedi, – budur, çatmışıq. – Dayanıb nəfəs alır, sonra yenə deyirdi: – Bir şey qalmayıb. Kəndə çatan kimi dincələrik. Dan yeri sökülməmiş kəndə girməliyik. Hə, hə, Cabbar qardaş. Bu qədər yol gəlmişik, indi isə sən... İndicə kəndə çatarıq. Elə deyilmi, Cabbar qardaş?

Cabbar:

– Sən fikir vermə, – dedi.

Bundan sonra Məmməd də daha danışmadı. Kəndə yaxınlaşdıqca daha iti gedirdi. Cabbar da var gücünü toplayaraq, ondan geri qalmamağa çalışırdı.

Dan yeri azacıq işıqlananda kəndə girdilər. Bir neçə it hürə-hürə onları qarşıladı. Məmməd onlara heç fikir vermədi. Daha iti addımlarla dimdik yeridi. Durmuş Əlinin evinə çatdılar.

– Durmuş Əli əmi! Durmuş Əli əmi! – deyə Məmməd səslədi.

Durmuş Əli dərhal cavab verdi:

– Sənmisən, oğlum İncə Məmməd?

– Mənəm.

– Gəlirəm, mənim İncə Məmmədim. Xoş gəldin, oğlum. O imansızı neylədin? Eşitdik ki, Ağtozlu kəndini yandırmısan. O imansız da içəridə qovrulub yanmışdır.

Qapı açılan kimi Məmməd həyəcanla soruşdu:

– Kim gətirdi bu xəbəri sizə? Kəndlilər hamısı eşitmişmi?

– Hamımız eşitmişik, oğlum. Əlin var olsun. Hamımız sevindik. Adam ölümə sevinməz, amma ona yerində oldu. Arvadı da sevindi. Dedi ki, öz əməllərinin cəzasını aldı. Bir damcı da olsun göz yaşı tökmədi. Gəlin içəri, övladlarım.

Birdən Durmuş Əli özünə gələrək, maraqla soruşdu:

– Bəs o biri yoldaşınız, o qoca necə oldu?

Məmməd içini çəkərək:

– Soruşma!.. – dedi.

Durmuş Əli:

– Allah rəhmət eləsin, – dedi. – İndicə ocağı yandıraram. Yəqin ki, acsınız.

Məmməd sualını unutmamışdı:

– Durmuş Əli əmi, – dedi, – kim gətirdi sizə bu xəbəri?

Durmuş Əli:

– Eşitmisənmi, oğul? – deyə soruşdu. – Olan işlərdən xəbərin varmı? Topal Əli o imansızın adamı olmuşdur. Xəbəri də o gətirdi. Kənd yanarkən Topal Əli də buraya gəlirmiş. Kəndin kənarında durub yanğına tamaşa edirmiş. Kənd yanıb qurtarandan sonra kəndin içinə girmiş. Bir evin içindən Abdinin sümüklərini çıxarmışlar. Sümüklərinin də çoxu yanıbmış..

Məmməd:

– Demək, Topal Əli onun adamı olmuş? – deyə soruşdu.

Durmuş Əli ocaqdakı közlərin üstündən külü aça-aça:

– Elədir, oğlum, – deyə kədərli-kədərli cavab verdi. – İnsan övladı belədir. Çiy süd əmmişdir.

Məmməd güldü.

Durmuş Əli onun gözlərinin içinə baxaraq:

– İnanmadınmı? – deyə soruşdu.

Məmməd:

– Əmi, – dedi, – sən də nə tez unudursan?

Durmuş Əli:

– Hamısı qocalıqdandır... – dedi.

– Fikir vermə. Bir elə şey deyil, – deyə Məmməd onun çiyinlərini sığalladı. Sonra da keçib ocağın başında oturdu. Onun ardınca Cabbar da əyləşdi.

Durmuş Əli üfürə-üfürə ocağı alışdırdı. Sonra gülərək:

– Hə, – dedi, – daha nə var, nə yox?

– Heç bir şey, – deyə Məmməd cavab verdi.

Az sonra sübhün işıqları pəncərədən sızmağa, hava yavaş-yavaş ağarmağa başladı.

Durmuş Əlinin yaşlı arvadı Məmmədin dövrəsinə dolanaraq:

– Qovrulub yandımı? – deyə soruşdu. – De görək, oğlum Məmməd, qovrulub yandımı? Nə yaxşı elədin bunu! Qovrulub yandı, eləmi?

Qadın ocaqdakı şorbanı götürüb yerə qoydu, yağı qızdırıb cızıltı ilə şorbanın üstünə tökdü. Evin içinə yağ iyi doldu.

– Qovrulub yandı, hə? Sümükləri də yanmışdır, deyirlər. Qoy yansın. Ağtozlu kəndi kül olmuşdur, deyirlər. Qoy olsun.

Qadın süfrə gətirib yerə saldı, şorbanı da böyük bir qaba töküb, süfrənin ortasına qoydu. Amma ağzı heç boş durmur, hey deyirdi:

– Qovrulub yandı, eləmi? Qovrulub yandı?

Məmməd əlində qaşıq bir müddət hərəkətsiz dayanıb qaldı. Qaşığı nə şorbaya batırır, nə də yerə qoya bilirdi. Qaşığı əlində tutub oturmuşdu. Cabbar bunu bir az sonra gördü. Məmmədlə Cabbar göz-gözə gəldilər. Ortaya dərin bir sükut çökdü.

Durmuş Əli də qaşığını şorbadan çəkdi, onların vəziyyətinə maraqla baxmağa başladı. Xeyli keçəndən sonra Məmməd qaşığı ilə tez-tez şorbadan içməyə başladı. İynə ucu böyüklükdəki parıltı yenə onun gözlərində göründü.

O, sanki məst idi, başı hərlənirdi. Sarı parıltılar oynaşır, hərlənirdi. Süpürüm kolları içərisində dağ kimi bir alov dolaşır, bir koldan digərinə keçərək, getdikcə daha da şiddətlənirdi...

Məmməd başını qaldırdı, dimdik durdu. Əsmər üzü, gözləri işığa qərq olmuşdu:

– Sənə bir şey söyləyəcəyəm, Durmuş Əli əmi, – dedi.

Durmuş Əli onun bu sözünə heç bir məna verə bilmədi, gözlərini ona tərəf çevirib soruşdu:

– Nə söyləyəcəksən, oğul? Söylə!

Məmməd səsi titrəyə-titrəyə:

– O imansız öldü artıq, – deyib susdu.

Süfrəni yığışdırdılar. Odçəkənlə ocağı qarışdırdılar, yandırdılar. Durmuş Əli iki kərə bayıra çıxıb, geri qayıtdı. Evin uşaqları bir kənarda durmuşdular, gözlərini geniş açaraq Məmmədə baxırdılar.

Durmuş Əli Məmmədin nə deyəcəyini hələ də gözləyirdi. Məmməd «öldü artıq» deyərkən elə bir hal almışdı ki, çox mühüm bir şey söyləyəcəyi aşkar görünürdü.

Durmuş Əli özünü saxlaya bilmədi:

– Sən nə söyləmək istəyirdin? – deyə soruşdu.

Məmməd ağır-ağır:

– Bir fikrim var, – deyə sözə başladı. – Bilmirəm sən nə deyərsən bu işə? –Yenə susdu. Sonra tez-tez dedi. – Bu kəndin, o biri dörd kəndin torpağını, bütün torpaqlarını. Kim nə qədər... nə qədər əkərsə... hamısını... Gerisini siz özünüz bilərsiniz. Bax belə. Mən əldə silah sizi qoruyacağam. Süpürüm kollarına da od vuracağıq...

Durmuş Əli:

– Ay Məmməd, – deyə onun sözünü kəsdi. – Gözünə döndüyüm oğul, bir qədər aram-aram danış. Bir şey başa düşmədim.

Məmməd sakit danışmağa başladı:

– Dediyim budur ki, əmi, bu torpaqlar o imansızın atasının malı deyil.

Durmuş Əli fikrə getdi. Alnını qaşıdı.

– Bu torpaqlar elindir, – deyə Məmməd sözünə davam etdi. – Torpağı o imansız yaratmayıb. Beş kənd qul kimi onun üçün işləyir. Çuxurovada ağa-filan yoxdur. Həsən onbaşıya bir qulaq assaydın!..

Durmuş Əli:

– Keçmişdə, bu imansızın atası ortaya çıxmamışdan əvvəl, – dedi, – bu torpaqlar da elin idi. Bizi dilə tutub, torpaqları əlimizdən aldı. Ondan əvvəl hər kəs könlü istədiyi yeri könlü istədiyi kimi əkərdi.

Məmmədin eyni açıldı:

– Bax belə, – dedi. – Yenə də elə olacaq. Lap elə olacaq.

Durmuş Əli dodaqaltı:

– Kaş ki, elə olsun, – dedi. Gözləri yaşla dolmuşdu.

– Elə olacaq. Səndən bir xahişim var. Beş kəndin ağıl kəsənlərinə xəbər göndərib, buraya çağırtdır. Onlarla danışıb, torpaqları bölüşdürəcəyəm. Köləlikdən, qul olmaqdan qurtulacaqlar. Hər kəsin əkdiyi özünün olacaq. İşlətdikləri öküzlər də özlərinin olacaq...

Durmuş Əli:

– Kaş ki, – deyə çığırdı. – Kaş ki...

– Sən xəbər göndər, gəlsinlər.

Durmuş Əlinin arvadı belini damın orta dirəyinə dayamışdı, deyilənlərə qulaq asaraq, ip əyirirdi. İp əlindən düşdü. Qolları yanlarına sallandı. Özünü toplayaraq, Məmmədin üstünə atıldı.

– Sənə qurban olum, oğlum, bu, doğrudurmu? Bunu eləyəcəksənmi? – deyərək, Məmmədin əllərini öpməyə başladı. – Məhsulun yarısını, üçdə ikisini heç kəsə verməyəcəyik, hə?

Məmməd qəti bir tərzdə:

– Köləlik bitdi, – dedi. – Ölüncəyədək əlimdə silah torpaqların keşiyini çəkəcəyəm. Ondan sonrasına da...

Qadın:

– Bəs öküzlər? – deyə soruşdu.

– Onlar da...

Qadın Məmmədin əllərini buraxıb, otağın qaranlıq yerinə çəkildi, hıçqıra-hıçqıra ağlamağa başladı. Ağladıqca ağlayırdı.

Durmuş Əli otaqdan çıxdı. Bir müddət mütərəddid halda dayandı. Geri qayıtdı. Məmmədə baxdı. Məmmədin üzü ona qaya kimi sərt göründü.

– Kimləri çağırmalıyam, oğul? – deyə soruşdu.

Məmməd başını qaldırmadan:

– Ağlı kəsən hesab etdiyin adamların hamısını, – deyə cavab verdi.

Durmuş Əli:

– Yaxşı, – deyib çıxdı.

Pancar Hösüyün evinə getdi. Məsələni ona açdı. Pancar Durmuş Əliyə heç bir söz demədi. O da tərəddüd edirdi. Sonra bütün kəndi qapı-qapı gəzib, məsələni hamıya başa saldılar. Hamı birdən-birə sevindi, sonra fikrə getdi. Bütün kənd tərəddüd içində idi. Kəndlilər qeyri-mümkün olan bu işə inana bilmirdilər.

Çoluqlu-çocuqlu, qadınlı-kişili bütün kəndlilər evlərin qabağında toplaşmağa başladı. Onlar bir yerə toplaşıb danışırdılar. Qorxa-qorxa bir-birlərinin gözlərinin içinə baxırdılar. Həyəcanlı adamlar böyük bir sükut içərisində bu evdən o evə axışırdılar.

Toplaşan camaat bir müddət səssiz-səssiz kəndin içində vurnuxdu. Sonra gəlib Durmuş Əligilin qapısında dayandı. Qımıldanmadan gözlədilər. Südəmər uşaqlar da səslərini kəsmişdilər.

Məmməd bayırda toplaşan camaatın ayaq səsini eşitdi. Durmuş Əlinin arvadından soruşdu:

– Bayırda nə var, ay ana?

Qadın göz yaşlarını silərək dedi:

– Kəndlilər buraya toplaşmışlar, gözlərini qapıya dikmişlər. Bilmirəm nə istəyirlər...

Sonra qadın bayıra çıxdı. Bütün gözlər ona zilləndi. Baxışların altında əzildi. Qıvrıldı. Əsəbiləşdi:

– Nə istəyirsiniz? – deyə çığırdı. – Nə üçün buraya toplaşmısız?

Camaatdan səs çıxmadı.

– Nə üçün dinmirsiniz?

Yenə heç bir səs çıxmadı.

– İncə Məmmədi görmək istəyirsinizsə, içəridədir.

Yenə də heç kəs ağzını açmadı.

– Ay sizi görüm kor olasınız, nə dayanıb durmusunuz? Axı nə dayanıb durmusunuz? Hamınız yasa batmısınız, elə bil hər evdən bir cənazə çıxıb. Ay sizi görüm kor olasınız. Bir bunlara baxın! Bunlar da adlarını kişi qoyublar! – Sonra Durmuş Əlinin arvadı üzünü qadınlara çevirdi. – Siz də bunlara kişi deyib qoynunuza alır, onlarla yatırsınız, hə? Vay, vay sizin halınıza. Bu miskin səfehləri kişi hesab edirsiniz, hə? Daş kimi nə dayanıb durmusunuz? Oynayın, gülün, toy qurun!

Adamlar daş kimi donub qalmışdılar.

– Allah bəlanızı versin. Eşitməmişsinizmi? İncə Məmməd Abdi ağanı yandırmışdır, qovura-qovura...

Adamlar yavaşca dalğalanıb hərəkətə gəldilər.

– Hə, qovura-qovura... Ağtozlu kəndini də başdan-ayağadək qovurub yandırmışdır... Eşitməmişsinizmi? Dünən də gəldi bizə. İndi içəridədir. Eşitməmişsinizmi? Daha Abdi ağaya işləməyəcəyik. Torpaqlar da bizim olacaq. Abdi qovrula-qovrula yandı... Öküzlər də bizim olacaq... Ağtozlu kəndi də yandı...

Camaat dalğalandı. Əvvəlcə camaatın içərisində dodaqaltı bir səs başdan-aşağı dolaşdı. Sonra bu səs ucaldı. Hər ağızdan bir səs çıxmağa başladı. Kəndi ağlasığmaz bir gurultu bürüdü. İtlər hürüşür, xoruzlar banlayır, toyuqlar ora-bura qaçışırdı. Uşaqlar ağlaşırdılar. Tövlələrdə eşşəklər anqırır, atlar kişnəyirdi. Dəyirmanoluq kəndi salındığı gündən bəri belə bir gurultu eşitməmişdi.

Bir qədər keçmiş kənddə toz dumana qarışdı. Kəndin üzərini böyük bir toz buludu aldı.

Sonra birdən kəndin içindən sevinc çığırtıları gəlməyə başladı. Zurna-nağara çalınmağa, mahnılar oxunmağa başlandı.

– Bizim İncə Məmmədimiz!

– Bizim İncə Məmmədimiz!

– Onun belə bir adam olacağı əslində uşaqlığından bəlliydi!

– Bəlliydi!

– Öküzlər də bizim olacaq!

– Hər kəs əkdiyi tarlanı istədiyi kimi əkəcək! Daha məhsulun üçdə ikisini verməyəcəyik!

– Daha qışın ortasında ac qalmayacağıq!

– İt kimi yalvarmayacağıq!

– Bizim İncə Məmmədimiz!

– Daha inəklərimizi satmayacağıq!

– Heç kəs bizə zülm etməyəcək!

– Hər kəs istədiyi yerə gedə biləcək!

– Hər kəs evinə qonaq qəbul edə biləcək!

– Hər kəs arzuladığını...

– Hər kəs öz başının ağası olacaq!

– Bizim İncə Məmmədimiz!

– Abdi ağa ilə böyük bir kəndi çatırtı ilə yandırdı!

– Çuxurova qorxusundan tir-tir titrəyir!

– Bizim İncə Məmmədimiz!

– Xətcə dustaqxanadan çıxacaq!

– Beş kənd bir toy quracaq!

– Bizim İncə Məmmədimiz!

– Məmmədin toyunu beş kənd eləyəcək!

İki gün, iki gecə arasıkəsilmədən zurnalar, nağaralar çalındı. O biri dörd kənd də şənlik içindəydi. Oralardan da nağara səsləri gəlirdi. Gecələr bütün Tikanlı düzü işığa qərq olurdu. Çılğın bir nəşə sanki daşa, torpağa, suya, ağaca da sirayət edirdi.

Beş kəndin hörmətli adamları Durmuş Əlinin evində, Məmmədin yanındaydı. Onlar Məmmədə bəzən şübhə ilə,

bəzən qorxu, bəzən minnətdarlıq, bəzən də məhəbbətlə baxırdılar.

İkinci günün axşamı Məmməd onlara belə bir təklif etdi:

– Ağalar, – dedi, – əmilər, kiminiz yerlərinizi şumlamısınız. Kiminiz də bu yaxın günlərdə şumlayacaqsınız. Sizdən bir xahişim var.

Hamı bir ağızdan:

– Sənin xahişin başımız üstə, İncə Məmmədimiz, – dedi.

Məmməd sözünə davam etdi:

– Tarlanı şumlamazdan əvvəl süpürüm kollarını nə əcəb yandırmırsınız?

Bir neçə nəfər:

– Ağlımıza gəlməyib, – deyə cavab verdi.

Məmməd:

– Kolları yandırandan sonra tarlanı şumlamaq daha yaxşı olmazmı? – deyə soruşdu.

– Yaxşı olar, – deyə cavab verdilər.

Məmməd ağır-ağır ayağa qalxdı. Bütün başlar da yuxarı baxdı.

Məmməd:

– Süpürüm kollarını od vurub yandıracağıq. Ancaq ondan sonra cüt sürüləcək, – dedi.

Tüfəngini götürdü, patrondaşlarının hamısını taxdı, bayıra çıxdı. Kəndlilər də onun dalınca evdən çıxdılar.

Keçəl Mıstıq:

– Süpürüm kolları bitən yerə, – deyə çığırdı. – Zurna-nağara da oraya...

Durmuş Əli dedi:

– Daha süpürüm kolları öküzlərin ayağını, cütçülərin ayağını dalamayacaq.

Məmməd ağır-ağır, təmkinlə kəndin kənarına tərəf gedirdi. Başı dimdik, gözləri yarı örtülü idi. Məmmədin ardınca Cabbar, onun arxasınca da kəndlilər gedirdilər. Qadınlar, uşaqlar Məmmədi görmək üçün damlara çıxmışdılar. Zurna-nağara səsi kəsilmişdi. Heç bir səs-səda yox idi.

Kənddən çıxdılar. Süpürüm kollarının içinə girdilər. Payız yelləri dağlardan Tikanlı düzünə tərəf əsirdi. İncə Məmməd ortada dayandı. Eləcə dayanıb qaldı. Kəndlilər onun kiçik bir hərəkətini gözləyirdilər. Məmməd başını arxaya çevirdi. Arxasındakı kəndlilər bir şey gözləyirdilər. Bir hərəkət...

Qarşıda süd kimi ağaran süpürüm kolları uzanırdı. Tikanlı düzünə qar yağıbmış kimi hər tərəf ağappaq idi. Çatırtı gəlirdi. Kolların qıçalarına yapışmış ilbizlər tikanların qıçalarını, gövdələrini yerə doğru əyirdi.

Məmməd:

– Cabbar! – deyə lap yavaşca səsləndi.

Cabbar süpürüm kollarını yararaq onun yanına gəldi:

– Sözünü de, qardaş.

– Mən cüt sürdüyüm zamanlar da süpürüm kollarına od vurub yandırsaydılar, sonra cüt qoşsaydılar, nə olardı?

Cabbar gülümsündü.

Bu vaxt arxadakı camaat bir-birinə qarışdı. Bir neçə adam süpürüm kollarını biçib, ortaya yığmağa başladı. Başqaları da onlara qoşuldular. Az sonra süpürüm kollarından böyük bir qalaq əmələ gəldi. Kiçik bir təpə böyüklükdə. Qalaq getdikcə böyüyürdü. Durmuş Əli ortaya atılıb həyəcanla:

– Kifayətdir, – deyə çığırdı. Cibindən bir talaşa çıxarıb yandırdı. Qalaq vurulmuş quru süpürüm kollarının arasına soxdu. Qalaq yavaş-yavaş tutuşdu. Sonra alov bütün süpürüm kolları qalağını bürüdü. Əsən yel alovları ətrafa sovururdu. Kəndlilər alovları sovrulan qalaqdan bir qədər kənara çəkildilər. Yarımdairə şəklində dayanıb baxmağa başladılar. Od qalaqdan düzlüyə adladı. Küləyin önünə düşdü. Bu dəmdə zurna-nağara da başladı. Düzlüyə mahnılar, bağırtılar, coşqun bir nəşə yayıldı. Alov artdıqca səs-küy də çoxalırdı. Camaat halay çəkir, oynayırdı. Cabbar havaya atəş açırdı.

Məmməd gün batıncayadək dinmədən süpürüm kolları bitən tarlada gözlədi.

Külək bir yığın alovu qabağına qatıb ovada gəzdirirdi. Alov yığınının keçdiyi yerlər qapqara kömürə dönürdü. Alov günəşlə birlikdə günbatana doğru yayılırdı. Yanan süpürüm kollarının çatırtısı eşidilirdi. Od alan kollar quş kimi ötürdü.

Məmməd yenə də ağır addımlarla kəndə tərəf yollandı. Tarlaya toplanıb əylənən yaşıl, qırmızı, mavi, rəngbərəng paltar geymiş qadınlar və uşaqlar da Məmmədin dalınca kəndə tərəf yollandılar.

O gecə səhərədək alov Tikanlı düzündə Xınalıtəpədən Ulduztəpəyə, bulağın gözündən Qabaağaca qədər o biri kəndlərə, ta aşağılara, Çürükçinara qədər çox geniş bir sahəyə yayıldı. Bütün düzənlik aydınlıq içində idi. Sonra Əlidağının təpəsində dəyirmi bir alov göründü. Quyruqlu ulduz kimi hərlənən, qığılcım saçan iri bir alov. Əlidağının təpəsi, gün düşübmüş kimi, ağardı. Gündüz kimi işıq oldu. Kəndlilər bu işə çaşıb qaldılar. Məmməd də çaşıb qaldı. Çünki orada, Əlidağının təpəsində ilk dəfə idi ki, belə bir od görürdülər.

Bu dəmdə, Xətcənin üzünə duran yeddi nəfər yalançı şahid gəlib dinmədən Məmmədin qarşısında dayandı.

– Dillənin, – deyə Məmməd onlara səsləndi.

Onlar:

– Biz günahkarıq... – dedilər. – Bizi zorla vadar etdilər, İncə Məmmədimiz.

– Bilirəm.

Gözləri yaşarmış yeddi kişi boyunlarını bükərək, səssizcə Məmmədin qabağından çəkildilər.

Sevincdən, həyəcandan, kədərdən gecə səhərədək Məmmədin gözünə yuxu getmədi. Kədər Xətcənin kədəri idi.

Dəyirmanoluq kəndində geniş, aydın, təzə, saf, tük kimi xəfif, nurlu bir səhər açıldı. Kənd sanki xoş bir röya içindəydi. Səhər günəşinin qızılı şüaları ağaclara qəribə bir görkəm vermişdi. Süpürüm kolları hələ yanırdı. Ağ ova başdan-ayağadək qaralmışdı.

– Topal Əli gəlir, – deyə xəbər gətirdilər. Məmməd maraqla gözlədi. Topal Əli topal ayağını yorğun-yorğun sürüyərək, gəlib Məmmədin qarşısında dayandı.

Məmməd gülümsəyərək:

– Gəl, Əli ağa, gəl! – deyə ona yaxınlaşdı, əlini tutdu. Şəfqətlə onun əlinin üstünü sığalladı.

Topal Əli tərləmişdi. Kəsik-kəsik nəfəs alırdı. Dinmirdi. Onlar yan-yana dayanıb qaldılar. Topal Əlinin təri soyudu. Onun üzü solğun, sapsarı, qırış-qırış idi. Bir neçə günün içində, bəlkə, on beş yaş qocalmışdı.

Məmməd özünü saxlaya bilmədi:

– Niyə beləsən, ay Əli ağa? – deyə soruşdu. – Səni çox süst görürəm.

Topal Əli əzgin halda:

– Heç soruşma, – dedi.

Topal Əli bu «heç soruşma» sözlərini elə bezgin, elə qəmgin, elə qəzəblə söylədi ki, Məmməd burada bir məna olduğunu başa düşdü.

Məmmədin iri gözləri bir az da iriləşdi:

– Bir pis xəbər, bir şeymi var? – deyə soruşdu.

Əlinin rəngi daha da saraldı, əlləri titrəyə-titrəyə:

– Heç soruşma, – deyə təkrar etdi. – Heç soruşma.

– Məni qorxutma, Əli ağa!

– Olan oldu. Mənim ürəyimə dammışdı, – deyə Əli zarıldadı.

Məmməd ona tərəf əyilərək:

– Söylə görüm! – dedi.

– O imansız... O...

– Nə-ə-ə?

– Qurtulmuşdur!

– Ne-cə-ə-ə?

Məmmədi sanki ildırım vurdu. Başı gicəlləndi. Gözləri qaraldı. Sonra tamam taqətdən düşdü.

Əli:

– Mən onunla danışdım, – dedi. – İndi qəsəbədə ev tutmuşdur. Orada qalacaq. Məni də evinə göndərdi.

Cabbar Məmmədi bu halda görüb qorxdu:

– Fikir çəkmə, Məmməd qardaş, – deyə ona təsəlli verməyə çalışdı. – Əlimizdən qurtulmayacaq. Qurtula bilməyəcək. Bu gün də olmasa, sabah...

Durmuş Əlinin arvadı bərkdən çığırdı. Evin qaranlıq tərəfinə keçdi. Baş-gözünə döyməyə başladı:

– Vay, dərdli başım, vay! Budamı başıma gəlməliydi! Vay-vay! Vay-vay-vay!

Cabbar:

– Nə özünü döyürsən, ay xala! – dedi. – Nə olursa olsun, o, bir daha bu kəndə ayaq basmayacaq. Torpaqlar da sizindir, öküzlər də. Nə qədər ki, biz sağıq...

– Vay-vay! Vay-vay-vay!

Bir az keçmiş bütün kənd məsələdən xəbər tutdu. Bunu eşidəndən sonra kəndin küçələrində bir adam da qalmadı. Kəndlilər evlərinə çəkildilər. Hay-küy birdən-birə kəsildi. Kəndə sakitlik çökdü. Nə itlər hürür, nə də xoruzlar banlayırdı. Elə bil kənddə heç bir canlı yox idi. Sanki bütün kənd bir az əvvəlki hay-küyü, şənliyi, bütün canlısı ilə birlikdə baş götürüb başqa bir diyara köçmüşdü. Bir milçək də yox idi.

Bu sakitlik eyni minvalla, ta günortaya qədər davam etdi. Durmuş Əli bir tərəfdə oturmuş, başını çiyinlərinin arasına çəkmişdi. Arvadının da ordu-orduna keçmiş, bir küncdə büzüşüb qalmışdı. Məmməd başını tüfənginə dayayıb oturmuş, fikrə getmişdi. Alnı qırış-qırış idi.

Günortaya yaxın kənddə azacıq canlanma göründü. Əvvəlcə bir xoruz peyin qalağının üstünə çıxdı, qanadlarını çırpa-çırpa banladı. Xoruzun yağlanmış kimi görünən yaşıl, qırmızı, bənövşəyi tükləri işıldayırdı. Sonra itlər hürüşməyə başladı. Bunun ardınca adamlar da evlərindən çıxdılar. Oraya-buraya toplaşmağa başladılar. Kəndin hər tərəfində adamlar dodaqaltı deyinirdilər:

– Bu da gəlib adam olmuş...

– Dağın İncə Məmmədi adam olub ortalığa çıxmış...

– Səfil İbrahimin oğlu.

– Adam olub ortalığa çıxmış, bizim Abdi ağanın torpaqlarını bölüşdürür.

– Bir sən onun boyuna bax.

– Görən yeddi yaşında uşaq sanır.

– Səfeh!

– Heç tüfəng tutmağı da bacarmır.

– Özünü qaçaq hesab eləyir...

– Qaçaq olub, kənd yandırır.

– Qaçaq olub, atasının malı kimi...

– Atasının malı kimi, bizim ağamızın torpaqlarını, öküzlərini ona-buna paylayır.

– O da özünü adam hesab eləyir.

– Ağamızın qapısında yallanardı it kimi.

– Hələ dünənə qədər.

– Səfil İbrahimin veyil oğlu...

– Bir gör özünü necə çəkir!

– Veyil donuz.

– Xalqın qızı da onun üzündən çürüyür.

– Çürüyür dustaqxanalarda...

– Xətcə çürüyür.

– Sən hələ bir ona bax!

– Süpürüm kollarını da yandırtdırdı! Cüt sürənlərin ayaqlarını tikan cızmasın!

– İnciməsinlər.

– Sən hələ bir ona bax!

– Kəndə gəlib, Abdini öldürdüm, deyib lovğalanır.

– Ağamızı, ha...

– Ağamız onun kimi yüz iti bir gülləyə öldürər.

– Bizim ağamız.

Sonra bir yığın kəndli gəlib Abdi ağanın həyətinə doldu. Abdi ağanın arvadlarını, uşaqlarını təbrik etdilər.

Kəndlilərin deyinə-deyinə kənd içərisində dolaşmaları gecəyarısınadək davam etdi. Kəndin yarıdan çoxu Məmmədin tərəfini saxlayırdı. Onlar Abdi ağanın ölmədiyinə təəs-

süflənirdilər. Məmmədin tərəfini saxlayan kəndlilər evlərindən bayıra çıxmamışdılar. Durmuş Əli ölü kimi idi. Durmuş Əlinin arvadı xəstələnib yorğan-döşəyə düşmüşdü. Dili qarnına girmiş, matı-qutu çəkilmişdi. Məmmədin də matı-qutu çəkilmişdi. Yalnız Cabbar ortaya düşmüşdü, arasıkəsilmədən danışır, kəndlilərə ürək-dirək verməyə çalışırdı:

– Abdi ağa bu kəndə bir daha ayaq basa bilməz. Bundan qorxmayın. Necə olursa olsun, bu yaxınlarda öləcək. Hökmən öləcək. Vallah öləcək, billah öləcək. Narahat olmayın. Dedim ki, öləcək, deməli, öləcək!

Heç kəs dinmirdi.

Hələ gün doğmadan Durmuş Əlinin evindən çıxdılar. Məmməd başını qaldıra bilmirdi. Başı, indicə bədənindən ayrılıb düşəcəkmiş kimi, cansız halda sinəsinə sallanmışdı. Cabbar da dinmədən, ağır addımlarla onun yanınca gedirdi. Kənddən çıxarkən bir-iki it onlara hürdü. Məmməd bunu heç eşitmədi. Cabbar itlərə daş atdı.

Süpürüm kolları yanıb qurtarmışdı. Çat-çat olmuş torpaq küllə örtülmüşdü. Məmməd ovanın ortasında dayanıb durdu. Cabbar ona bir söz söyləməyə cürət eləmədi. Bir qədər gözlədi, amma Məmməd yerindən tərpənmədi. O da keçib bir daşın üstündə oturdu, tüfəngini qucağına aldı. Gün doğdu. Məmməd hələ də dimdik dayanmışdı. Qımıldanmırdı. Onun kölgəsi kəndə tərəf uzanmışdı. Gün xeyli ucaldı. Məmməd yenə qımıldanmadı. Cabbar daha özünü saxlaya bilmədi, Məmmədin yanına gedib onu dümsüklədi:

– Sənə nə oldu, Məmməd qardaş? – deyə soruşdu.

Məmməd birdən ayıldı. Yuxudan oyanırmış kimi, gözlərini qırpdı.

Cabbar:

– Fikir vermə, Məmməd qardaş, – dedi. – İnsan övladı çiy süd əmmişdir. Necə olursa olsun, onu da...

Məmməd dişlərini qıcırdaraq çox kəskin bir tərzdə:

– Necə olursa olsun... – dedi.

Sonra yanmış ovanın ucsuz-bucaqsızənginliklərinə baxdı.

## XIX

Tünd-yaşıl mərsin kolları insana son dərəcə məstedici, tünd bir içkini xatırladır. Süləmiş təpəsinin yolları pəncə-pəncə yerə çökmüş mərsin kolları ilə doludur. Cığırlardan keçənlər kəskin, ağır bir qoxu duyurlar. Bu qoxu insanı ağırlaşdırır, tənbəlləşdirir.

Süləmiş təpəsinin aşağı tərəfi düzənlikdir. Bir xırdaca daş da tapılmaz. Qum kimi narın, yumşaq torpağı var. Düzənliyin bu başından o başınadək nar əkilmişdir. Heç kəs bilmir ki, bu ağaclar nə zaman əkilmişdir. Ağaclar al çiçək açır. Buraya Narlı bağça deyərlər. Al çiçəklər düzənliyi bir pərdə kimi örtür. Çiçəklərə arılar qonur.

Narlı bağçanın aşağı tərəfindən Savrun çayı axır. Savrun çayı yuxarılarda, yəni Toros dağlarında, navalçadan axan kimi, fışqırır. Savrun kiçik, lakin coşqun çaydır. Qayadan-qayaya sıçrar, köpüklənər. Düzənlikdə durğundur. Buraya bir göl kimi yayılmışdır. Suyu topuğa qədər də çıxmaz. Yayılan suyun ortasında irili-xırdalı bir çox adacıqlar əmələ gəlmişdir. Lığlı qumsal adacıqlar... Bu adacıqların çoxu pöhrəlikdir. Pöhrəliklər sıxdır. Divar kimi... Adacıqların bir qismi də yarıçılpaqdır. Bu yarıçılpaq adacıqlarda yerlilərin hayıt dedikləri zəif qoxulu bir ağac, bir də tək-tək, iynəyarpaqlı, bənövşəyi gövdəli yulğun ağacı bitər. Su kənarlarında iri, çəhrayı çiçək açan ağı ağacları da göyərir.

Uzun illərdir ki, ən böyük adalardan biri olan Bostancıq adasında qovun-qarpız əkilir. Buranı Kürd Memo böyük torpaq sahibi olan bir ağadan icarəyə götürmüşdür. Çuxurovanın ən iri qovun-qarpızı Memonun Bostancığında yetişir.

Bostanın keşikçisi Horəlidir. İllərdən bəridir ki, Bostancıq adasının qovun-qarpızının keşiyini çəkir. Onun çardağının dörd bir yanı qarpız qabığı ilə dolu olur. Qabıqların üstünə çoxlu arı qonur. Arı o qədər çoxdur ki,

qabıqlar üzərlərinə qonan arıdan görünmür. Arılar da cürbəcürdür: bal arısı, tara arı, muncuqlu arı. Arıların rəngi günəşdə parlayıb yaşıla çalır. Çardağın ətrafının qabıqla dolu olması, Horəlinin comərd olduğunu göstərir. Çox comərd bir adamdı. Bostancığa kim gəlsəydi, qovun-qarpıza qonaq edərdi. Buraya gələn qovun-qarpız yeməmiş getməzdi.

Bu Horəli haradan gəlmişdi, bəlli deyildi. Bostancığa yaraşırdı. Yulğun ağacları özlərini Bostancıqda yabançı hiss etmədiyi kimi, Horəli də burada özünü yabançı hiss etmirdi.

Horəlinin Bostancığı xoşlayıb-xoşlamadığı bəlli deyildi. Heç cür büruzə verməzdi. Bostancıqda bitən yulğunun öz yerini xoşlayıb-xoşlamadığı bəlli olmadığı kimi, Horəlininki də bəlli deyildi.

Bostancıqda Horəlinin güzəranı yaxşı keçirdi. Bundan başqa, Bostancığın yaxşı cəhətləri də vardı. Yay gecələri adamlar istidən tərlədikləri zaman Horəlinin çardağının altından Savrun çayı yavaşca şırıldayaraq axardı. Ay işığında çaydaşları parlardı.

Bir yaz günü Bostancığa bostan düzəltməyə gələnlər nə görsələr yaxşıdır? Bostancıq yerində yox idi. Onun yerindən çay axırdı. Sel Bostancığı yuyub aparmışdı. Bundan sonra Horəli bir-iki il qeyb oldu... O zamanlar qaçaqlıq bir adət olmuşdu. Könlü istəyən, arvadının əlindən hirslənən hər kəs bir tüfəng tapıb dağlara çəkilirdi. Sonra birdən-birə səs yayıldı ki, Horəli də gedib qaçaqlara qoşulubdur! Bunu eşidənin ağzı açıla qaldı.

Bax, bu Horəli həmin Horəli idi.

Horəli İncə Məmmədi tələyə salmaq üçün onu bərk axtarırdı. Amma bir şeydən narahat idi. Ürəyində bir ağrı duyurdu. Səbəbini özü də bilmirdi.

Əvvəlcə dəyirmanoluqlulardan xəbər aldı. «Onun məkanı Əlidağıdır» dedilər. Horəli bir neçə gün Əlidağında gəzib dolandı. Tapa bilmədi. Bərk hirsləndi. Tikanlı düzündən yuxarılara, Mazılıq düzünə çıxdı. Yenə tapa bilmədi.

Kimdən, hansı kəndlidən İncə Məmmədi soruşurdusa, əvvəlcə mat-mat onun üzünə baxır, sonra deyirdilər:

– İncə Məmmədimi soruşursan? Biz onu nə görmüşük, nə də tanıyırıq.

Dağ kəndlərində İncə Məmmədin adını eşitməyən, ona məhəbbət bağlamayan adam qalmamışdı. Bu səbəbdəndir ki, onun yerini bilsələr də, demirdilər. Deməzdilər də. Bu, əslində, köhnədən bəri bir adət idi. Camaatın xoşladığı qaçağın yerini heç kəs asanlıqla tapa bilməzdi.

Amma Horəli ümidini kəsmədi. O dağ sənin, bu dağ mənim, axtar ha axtar! Sonralar bir hiylə də işlətməyə başladı. Qabağına gələnə:

– Mən İncə Məmmədin dəstəsindənəm, – deyirdi. – İncə Məmmədin... Kənd yandıqdan sonra onları itirmişəm.

Bu hiylə yavaş-yavaş ona kömək elədi. Horəli Məmmədin əsl yerini öyrəndi. Məmməd Savrun çayının gözündə idi. Oranı özünə məskən eləmişdi.

Məmməd bəzən kənddə gecələyirdi, bəzən də Savrun çayının sahilindəki şamlıqda...

Savrun çayının gözü kiçik qaçaq dəstələri ilə, soyğunçularla dolu idi. Məmməd onlara heç qarışmırdı. Onlardan heç biri ilə danışmırdı da. Belə hərəkət etməsi qaçaqların ona qarşı kinini, həsədini artırırdı. Elə bu səbəbdən idi ki, ondan qorxurdular. Savrun çayının gözündə İncə Məmməd qaranlıq bir qorxu kimi dolaşırdı.

Məmməd böyük bir şam ağacının budaqları arasında özü üçün yataq düzəltmişdi. Kənddə yatmadığı gecələr orada yatardı. Cabbar aşağıda keşik çəkərdi. Keşik növbəsi Məmmədə çatanda, yenə yerindən aşağı enmədən, tüfəngini qucağına alıb orada oturardı. Cabbar isə heç ağacın başına çıxmazdı. Məmməd oranı bir ev kimi düzəltmişdi, içinə yumşaq ot tökmüşdü. Cabbara: «Bir gəl bax» deyərdi. Cabbar getməzdi, amma oranı görməyi çox istərdi.

Məmmədi öz evində gizlədib saxlayan bir kəndli Horəlini bu şam ağacının dibinə gətirdi.

Cabbar Horəlini görəndə sevindi. Boynuna sarıldı:

– O yaradan qurtulduğunu eşidəndə elə sevindim ki, Horəli, – dedi. – O qədər sevindim ki... İndi haradasan?

Məmməd də ağacdan tələsik aşağı endi:

– Xoş gəlmisən, Horəli qardaş, – dedi. – Səndən çox nigarandıq.

Belə bir mehribanlıqla qarşılanan Horəli özünü itirib mat qalmışdı. Nə söyləyəcəyini bilməyərək:

– Heç, – dedi. Sonra özünü ələ ala bildi. Danışmağa başladı. – İndi Qalayçının dəstəsindəyəm. Dəli Durdu öldürüləndən sonra oraya keçdim. Gəzib dolanırıq. Nə olacaq? Görünür, alnımıza yazan belə yazmış. Bu da bizim qismətimiz...

Cabbar gülərək:

– Nə olub, ay Horəli? Çox dərdli görünürsən. Bu nə haldır?

Horəli içini çəkərək:

– Heç soruşma, – deyə cavab verdi.

Əyləşib, kürəklərini ağaclara dayadılar.

Horəli ətrafa göz gəzdirərək:

– Rəcəb çavuş hardadır? – deyə soruşdu.

– Ömrün uzun olsun. Çavuş ömrünü bizə bağışladı, get-di, – deyə Cabbar cavab verdi. – O yara Çavuşu qəbrə apardı.

– V-a-a-y Rəcəb çavuş, – deyə Horəli təəssüfləndi. – Bu dünya belədir!

Cabbar qəzəbli halda:

– Fani dünya, – dedi. – Dünya fanidir. Axır yerimiz qara torpaqdır.

Məmməd fikrə getmişdi. Ayıldı:

– Dəli Durdunun əhvalatını eşitdik, amma sən də bir danış görək. Axı sən işin içindəydin.

– Heç soruşma, Məmməd qardaş. Onu heç soruşma, – deyə inlədi. – Təptəzə zoğ kimi, fidan kimi cavanlar yazıq oldu. Çox yazıq oldu.

Cabbar:
– Danış görək, Horəli, – dedi. – Səbrimizi tükətmə.
Horəli nağıl etməyə başladı:
– Sizdən ayrılandan sonra Dəli Durdu getdikcə daha da azğınlaşdı. Kəndlərdən qadın qaçırmağa başladıq. Qadınları qaçırdıb dağlarda ələ salır, oynadırdıq.
Cabbar:
– Bir qaçaq ki, – dedi, – belə bir qələt elədi, onun işi bitdi. O daha sağ qalmaz.
Horəli dedi:
– Bir bu olsaydı, dərd yarı idi...
– Daha nə elədi? – deyə Cabbar soruşdu. Onun heyrəti getdikcə artırdı.
– Kəndlərə vergi qoydu. Hər kənddə hər ev ona az-çox vergi verməliydi. Varlılar çox, yoxsullar az...
– Daha nə eləyirdi? – deyə Cabbar yenə də soruşdu.
– Başqa işlər də görürdü, – deyə Horəli cavab verdi.
Cabbar gözlərini geniş açaraq:
– Danış görək, danış! – dedi.
– Dəvəboynu keçidinin yuxarı başında otururdu, oradan nə qədər canlı keçirdisə, heyvanların sağ qabaq ayağını, adamların sağ qolunu güllə ilə vururdu.
Cabbar:
– O lap dəli olubmuş... – dedi.
– Sağ qolundan vurub şikəst elədiyi adamların sayı yüzü keçdi. Bir qismi də öldü.
Cabbar:
– Çox pis iş görüb, – dedi. – Sonra?
– Sonrası... qardaşıma söyləyim. Bir gün Ağsöyüd kəndinə girdik. Evlərdən qadınları çıxartdıq. Gətirdik meydana. Hamısını. Qoca qarıları da. Qardaşıma söyləyim. Onları vadar elədik oynasınlar. Yazıqlar qoyun kimi bir-birlərinə qısılmışdılar, tir-tir titrəşirdilər. Bəziləri bir-iki dəfə dövrə vurur, sonra qaçıb o biri qadınların içərisində gizlənirdi. Dəli Durdu ara vermədən kəndlilərin anasını,

arvadını söyürdü. Kişilər evlərinə girib gizlənmişdilər, eşiyə çıxa bilmirdilər. İndi də yadıma sala bilmirəm, necə oldusa, birdən hər tərəfi toz buludu bürüdü. Toz-duman içində qaldıq. Dəli Durdu qeyb oldu. Mən isə bir də gördüm ki, bir damın üstündəyəm... Tüfəngim də yanımda yoxdu. Yarım saat hər tərəf toz-duman içində qaldı. Sonra toz buludu çəkildi. Ortada camaat qaynaşırdı. Yorğun, ölgün camaat... Damdan endim. Qorxumdan tir-tir titrəyirdim. Nə üçün damdan endim? Heç özüm də bilmirdim. Hələ indi də bilmirəm. Görəsən, nə üçün enmişdim? Orada dayanıb camaata baxdım. Camaat yavaş-yavaş dağıldı. Heç kəs məni görmədi. Bəlkə də, gördülər, amma əhəmiyyət vermədilər. Daha heyləri qalmamışdı. Meydana baxdım, orada heç kəs yoxdu. Ölü də yoxdu. Dəli Durdunu da, o biri qaçaqları da toza döndərmişdilər. Tozun içində bir neçə tüfəng qundağı gördüm. Bir də Dəli Durdunun çəkməsinin bir tayını... Başqa heç bir şey görmədim... Vəssalam... Ağlım başıma gələn kimi oradan qaçdım.

Cabbar:

– Demək, belə olmuş, hə? – dedi. – Demək, belə? Bizə bu cür danışmamışdılar.

Məmməd dedi:

– Belə olmalıydı. Əslində, o da bunu gözləyirdi. Bunu bilirdi. Belə olacağını, başına belə bir iş gələcəyini bilirdi. Bu səbəbdən də belə azğınlıq edirdi.

Cabbar:

– Sənin Qalayçın da onun bir başqa cürəsidir... – dedi. – O da...

Horəli:

– O, Dəli Durdu kimi deyil, – dedi. – Qorxaq, namussuz, ikiüzlü adamdır. O, yaxasını asanlıqla ələ verməz.

– Sənə məndən qardaş öyüdü, o da geci-tezi gedəcək. Onun da aqibəti bir aqibət deyil... Sən ondan uzaq ol, qardaş. Çox bəladan başını qurtarmış olarsan. Sənə yazığım gəlir.

Məmməd sanki heç sözə qarışmırdı. Özünü elə aparırdı ki, guya onlara heç qulaq asmır. Birdən üzünü Horəliyə çevirdi:

– Horəli, sənə yazığım gəlir, – dedi.

Sonra Horəlinin əlini tutdu:

– Yaxşı, de görüm, bizi nə üçün axtarıb tapdın? Bir şey, bir xəbərmi var?

Horəli bir müddət onlara çaşqın-çaşqın baxdı. Qızarıb-bozardı. Tez-tez danışmağa başladı:

– Qalayçı sizi dəvət eləyir. Sizinlə görüşmək istəyir. İncə Məmmədlə çox maraqlanır. Görmək istəyir. Məndən soruşdu. Tanıyıram, dedim. Yoldaşımdır, dedim. Səni təriflədim. Qardaşımdır, dedim. Gedib taparam, çağırıb gətirərəm, dedim. Sizi çox axtardım.

Məmmədlə Cabbar bir-birinə baxdılar. Onların bu baxışından: «Burada bir iş var» mənası çıxırdı.

Məmməd:

– Hə-ə? – dedi. – Demək, belə?

Horəli kəkələyərək:

– Hə, belə, – dedi.

– Demək, bizi çox axtardın? – deyə Cabbar soruşdu.

– Ço-o-ox.

– Görəsən, Qalayçı bizi neyləyir? – deyə Cabbar xəbər aldı.

– Mən Məmməd qardaşı çox təriflədim... O da dedi: indi ki, Məmmədi bu qədər təriflədin, get onu tap, gətir buraya.

Məmməd:

– Çox yaxşı elədin, Horəli qardaş, – dedi. – Sağ ol.

Cabbar Horəliyə hirsli-hirsli baxdı.

Məmməd:

– Gedək, – dedi. – Əslində, mən də onu görmək istəyirdim. Elə indicə gedək. Harada gözləyəcək bizi?

– Qonurdağda.

Məmməd:

– Yaxşı, – dedi. – Onun da dəvətini qəbul etməyib, kimin dəvətini qəbul edəcəyəm?

Cabbar lap çaşıb qaldı.
Məmməd dedi:
– Qalayçı bizi dəvət eləmiş...
Horəli:
– Mən səni çox təriflədim, – dedi.
Cabbar Horəlini gətirən kəndlini bir tərəfə çəkib soruşdu:
– Bu qaçaq səni necə tapdı?
Kəndli dedi:
– O, qarşısına çıxan hər adamdan Məmmədi soruşurmuş. Onu mənim yanıma gətirdilər. Mən, dedi, İncə Məmmədin dəstəsindənəm. Məni apar oraya. Bir-birimizi itirmişik, tapa bilmirik. Məni apar oraya. Mən də gətirdim. Çox yalvardı.
Cabbar:
– Anlaşıldı, – dedi. – Sən daha get.
Qonurdağ onların olduqları yerdən çox uzaqdı. Bir günlük yoldan da artıq idi.
Kəndli gedərkən tez-tez dönüb dala baxırdı.
Məmməd:
– Hüseyn qardaş, – deyə onu arxadan səslədi. – Bir neçə gündən sonra geri qayıdarıq. Sağlıqla qal. Yoldaşımızı gətirdiyin üçün sağ ol.
– Gülə-gülə, – deyə Hüseyn cavab verdi.
Günortaya yaxın Sıyrınqaca çatdılar. Qaranlıq qovuşanda da Keşiş çayına yetişdilər. Orada bir kənddən çörək alıb yedilər. Bir-iki saat dincəldikdən sonra yenə yola düşdülər. Hava işıqlaşanda Ağqalada idilər. Yosunlu bir bulaqdan su içdilər. Həmişə Məmməd irəlidə, Horəli ortada, Cabbar arxada yeriyirdi. Ağqaladan yuxarıdakı ağ torpaqlı təpəyə çıxdılar. Orada yatacaqdılar. Təpəni çıxarkən Horəli nədənsə çox geridə qalmışdı. Cabbar fürsətdən istifadə etdi:
– Məmməd, – dedi, – Məmməd qardaş, bilirsən nə var?
– Bilirəm, – deyə Məmməd gülümsündü.
Cabbar həyəcanla:
– Elə isə bəs niyə gedirik? – dedi.

Məmməd:

– Məsələni başa düşmədinmi, qardaş? – deyə soruşdu. – Məni tələyə salmaq üçün dalımca adam göndərmişdir. Özü də məni tanıyan bir adamı... Öz aləmində mənə tələ qurmuş...

– Belə çıxır ki, tələyə bilə-bilə düşürük. Axı onlar on nəfərə qədər olar.

– Yüz nəfər olsalar da, başqa çarə yoxdur.

– Elə isə gəl Horəlini öldürək...

– Olmaz. Mən Qalayçını görməliyəm. Nə cür bir adam olduğunu bilməliyəm.

– Görək də, amma bilmirəm bundan nə çıxacaq...

– Horəlinin üzünə bir baxsana, hər dəqiqə dəyişilir. Üzü peşman adamın üzünə oxşayır... Elədiyindən peşmandır... Mənə elə gəlir ki, özünü saxlaya bilməyib, birdən hər şeyi açıb söyləyəcək. Baxsana, bir kərə də olsun gözümüzün içinə baxa bilirmi? Bəlkə də, ürəyində hey dua edir ki, biz Qalayçının yanına getməyək. Gəlib bizə çatanda, onun gözlərinin içinə bax.



Bu dəmdə Horəli gəlib yetişdi. Onlar da sözü yarımçıq qoydular.

Məmməd:

– Ə, Horəli, – deyə əlini onun çiyninə vurdu. – Demək, belə işlər?

Horəli dodaqları titrəyərək:

– Hə, belə işlər, – deyə cavab verdi.

O, sərxoş kimi valay vururdu.

Təpənin başında bir neçə iri qoz ağacı vardı. Onlar ağacların daldasına gəldilər.

Cabbar:

– Siz uzanıb yatın, – dedi. – Mən keşik çəkərəm. Məmmədlə Horəli uzanıb yatdılar. Növbə ilə yatıb oyandılar. Oyandıqları zaman axşam yaxınlaşırdı. Ağqaladan Andırının gündoğan tərəfinə buruldular. Qayalıq idi. Sonra şamlığa düşdülər. Şam ağacları o qədər sıx idi ki, pələng də

yarıb keçə bilməzdi. Şam, dağ nanəsi, yarpız qoxusu gəlirdi. Suyun şırıltısı eşidilirdi. Arabir qumru quşu ötürdü.

Cabbar:

– Deyəsən, Şahin qayasına çatırıq, – dedi.

– Elədir, – deyə Horəli cavab verdi. – Sabah səhər Qalayçının yanında olacağıq. Qonurdağda, Göycəpinarın başında gözləyəcəklər bizi.

Məmməd dişlərini bir-birinə basaraq:

– Hə-ə? – dedi. Sonra özünü saxladı.

Qalayçının ona tələ qurmasının səbəbini heç cür tapa bilmirdi. Başında fikirlər bir-birinə qarışmışdı. Abdi ağa ilə Qalayçı arasında bir əlaqə ola biləcəyini təsəvvürünə gətirə bilmirdi.

Qayranlı təpəsinə çatanda gözəl bir sabah açıldı. Torpağın, ağacların üzərindən duman yavaş-yavaş çəkilirdi ki, Qonurdağa yetişdilər.

Horəli dedi:

– Siz dincəlin. Mən qabaqca gedib, xəbər verim.

– Sən get, – dedilər. Bellərini bir ağaca dayayıb oturdular.

– Cabbar, necə bilirsən, dəstə bizə yaylım atəşimi açacaq? – deyə Məmməd soruşdu.

– Yox canım. Bizə quzu yedirtməmiş öldürməzlər.

– Düz deyirsən. Qalayçı bizimlə vuruşmağa cəsarət edə bilməz. Əgər o, eşidib bildiyimiz Qalayçıdırsa, tüfəngimizi əlimizdən alıb, bizi süfrə başında öldürmək istər. Bu, asandır. Amma bizi nə üçün öldürmək istədiyinin səbəbini anlamıram.

– Bunu anlamağa nə var ki? O, Əli Səfa bəyin adamıdır.

– Eləmi?

– Əli Səfa bəy də...

– Yox canım?

– Mən sənə lap məəttəl qalıram, Məmməd. Onlar bir-birinin itidir. Anladınmı?

– Anladım. Demək, bu işdə Abdinin əli var, hə?

– Başqa cür ola bilməz.

Günortadan bir az əvvəl Horəli geri qayıtdı. Ayağa qalxdılar. Göycəpinara tərəf getməyə başladılar. Göycəpinarın aşağı tərəfinə çatdıqları zaman Qalayçı uzaqdan göründü. Yaxınlaşdı. Özünü qoruduğu bəlli idi.

Məmməd dərhal yerə yatdı və Qalayçını gülləyə basdı.

Arxadan: «Vay anam!» – deyə bir səs gəldi. Məmməd bir an dönüb baxdı, gördü ki, Cabbar Horəlini vurmuşdur, Horəli yerə yıxılıb, qan içində çapalayır.

Cabbar:

– Yaxşı edədim, – deyə çığırdı. – Axıra qədər gözlədim ki, təqsirini boynuna alsın, şirin canını qurtarsın.

Məmməd:

– Qalayçı qeyb oldu, – deyə heyifsiləndi. – Tələsik atdım. Mənə elə gəlir ki, vura bilmədim. Sonra var gücü ilə çığırdı. – Qalayçı! Əclaflıq eləmə! Səndə zərrə qədər kişilik varsa, çıx qarşıma. Qorxma. Əli Səfanın iti! Qəssab! Əclaf qəssab! Çıx qarşıma!

Cabbar da çığırırdı:

– Elə güman elədin ki, biz sənin qabağından qaçarıq? Kişisənsə, çıx görək!

O tərəfdən heç səs-səda gəlmirdi.

Az sonra dörd yandan onların üzərinə güllə yağmağa başladı.

Məmməd gülərək:

– Cəsarətləndi Qalayçı, – dedi. – İndi göstərərəm ona.

Atışma gecəyarısına qədər davam etdi.

## XX

Abdi ağa ilə Əli Səfa bəyin istəyinə əməl edərək Qalayçının İncə Məmmədə xaincəsinə tələ qurduğu, İncə Məmmədin bu tələdən burnu qanamadan qurtulduğu, üstəlik də Qalayçını yaralayıb, onun iki yoldaşını vurduğu xəbəri Qədirlidən Qozana, Ceyhandan Adanaya, Osmaniyyəyə qədər bütün Çuxurovaya yayıldı.

Çuxurovada, Toros dağlarında İncə Məmmədin macərası şişirdilərək ağızdan-ağıza dolaşırdı. Hamı İncə Məmmədin tərəfini saxlayırdı. Dağ kəndlərinin camaatı İncə Məmmədin macərasını eşidəndən sonra nəyin bahasına olursa olsun, onu bütün düşmənlərindən qorumağa hazır idi.

– İncə Məmmədmi? – deyirdilər. – İncə Məmməd ki, lap uşaqdır. Amma çox qoçaqdır... Anasının qanını Abdi ağada qoymayacaq. Əli Səfa bəydə də Vayvay kəndinin ahını qoymayacaq.

İncə Məmmədlə Qalayçının vuruşması daha çox Vayvay kəndinə təsir göstərdi. Xəbər kəndə axşam vaxtı çatmışdı. Hamı iş-gücünü buraxıb meydana toplaşdı. Kəndlilər sevinirdilər. Onlar özlərinə bir arxa tapmışdılar. Özü də İncə Məmməd kimi bir arxa... Kəndlilər coşmuşdular. Hər kəs İncə Məmməd barəsində bir şey uydururdu. Az zaman içində İncə Məmməd haqqında dastan yarandı. Məmməd barəsində o qədər çox qəhrəmanlıqlar, o qədər çox hadisələr uydururdular ki, on insan ömrü bunları etməyə yetməzdi. Amma kəndlilər bunları düşünəcək halda deyildilər. Düşmənlərinin, Qalayçının qarşısında İncə Məmməd dururdu! Kəndlilər iki il idi ki, Qalayçının qorxusundan kənddən çıxa bilmirdilər. Əli Səfa bəy isə bir ucdan onların torpaqlarını əllərindən alırdı. Kəndlilər qəsəbəyə gəlib öz hüquqlarını qorumağa cəsarət etmirdilər. Altı ay da keçsəydi, onların bütün torpaqları Əli Səfa bəyin olacaqdı. Özləri də onun qulu olacaqdılar.

Qoca Osman meydanın ortasındakı quyunun daşı üstündə oturub arasıkəsilmədən deyirdi:

– Şahinim İncə Məmməd. Şahinim İncə Məmməd.

Qoca Osman cılız, qısaboy, çənəsində cəmi on beşə qədər ağ tük bitmiş kosasaqqal, yaşıl, ensiz gözlü, səksən yaşlı bir adamdı. Boya-başa çatmış on oğlu vardı.

Oğulları, kəndlilər Qoca Osmanın dörd bir yanını almışdılar. Onun nə deyəcəyini gözləyirdilər.

Qoca Osman bir daha:

– Şahinim İncə Məmməd! – deyə təkrar etdikdən sonra ayağa qalxdı:

– Mənim şahinim soyğunçuluq da etməmişdir, eləmi? – deyə soruşdu.

– İncə Məmməd heç soyğunçuluq edərmi? – deyə cavab verdilər.

Qoca Osman:

– Atımı gətirin, oğullarım. Kəndlilər, siz də öz aranızda pul yığın. Mən şahinimin yanına gedəcəyəm. Şahinimə dağlarda pul gərək olar. Hər kəs nə qədər verə bilirsə, o qədər versin.

Gün qızıb, Çuxurova torpağının şehini buxarlandırarkən, Qoca Osman atını mavi dumana bürünmüş Toros dağlarına tərəf sürdü.

– Mənim şahinim İncə Məmməd!

Dəyirmanoluq kəndinə üç günə ancaq gəlib çata bildi. Kənddə atdan enərkən, o qədər yorulmuşdu ki, ayaq üstə dayana bilmirdi. Atının başını çəkərək, axsaya-axsaya kəndin içində yeriməyə başladı. Qan-tərə batmış atı ilə gəlib kəndin ortasında dayandı. Dərindən nəfəs aldı. Çaşqın bir halı vardı.

Kəndin uşaqları oyunlarını buraxıb, kəndin ortasında ağır-ağır nəfəs alan qocaya heyrətlə baxdılar. Qoca Osman başını qaldırdı:

– Uşaqlar, – dedi, – buraya gəlsəniz!

Uşaqlar qaça-qaça gəldilər.

– Gül Əlinin evi hardadır? – deyə qoca soruşdu.

Uşaqların boyda ən hündür olanı irəli atıldı:

– O, çoxdan ölmüşdür. Deyirlər ki, onda mən hələ anadan olmamışdım...

– Bəs İncə Məmmədin evi?

Hündür oğlan bunun cavabında dedi:

– Oh-ho o-o, ay əmi, sən də!..

Qoca Osman hirslənib çığırdı:

– Ay oğlum, mənə nə olmuş ki?

– İncə Məmməd qaçaq olmuşdur. Eşitməmisənmi?

– Mən nə bilim, oğul! Mən çuxurovalıyam. Bəs İncə Məmmədin heç qohum-əqrəbası, anası, atası yoxdurmu?

– Yox, – deyə oğlan cavab verdi.

– Bəs kəndə gələndə kimin evində qonaq qalır?

– Durmuş Əli əminin evində.

– Deməli, İncə Məmməd qaçaq olmuşdur?

– Hə, qaçaq olmuşdur. Kəndə gəlib dedi ki, ağamızı öldürmüşdür. Ağamızın torpaqlarını da, öz atasının malı kimi, kəndlilərə payladı. Hə, əmi! Süpürüm kollarını da yandırtdırdı. Ağamız onu öldürdəcək. Ondan heç kəsin xoşu gəlmir bu kənddə. Təkcə Durmuş Əli əminin arvadının xoşu gəlir. Ağamız onu da kənddən qovacaq.

– Durmuş Əlinin evi hardadır, oğlum?

Oğlan başı ilə işarə etdi:

– Bax, odur!

Qoca Osman atının başını çəkdi. Durmuş Əlinin evinin qabağına gələndə:

– Tanrı qonağı gəlmişdir, – deyə çığırdı.

Durmuş Əli alt tuman-köynəkdə, yaxası-başı açıq, beli ikiqat bükülmüş halda eşiyə çıxdı. Onun ağappaq saqqalı sanki dizlərinə dəyirdi:

– Tanrı qonağı xoş gəlib, – dedi. – Gözüm üstündə yeri var.

Durmuş Əli qonağın atının cilovundan tutub tövləyə çəkdi.

Sonra gəlib qonağı evə apardı. İçəridə böyük bir ocaq yandırdı. Saman, xəmir, təzək qoxusu gəlirdi. Durmuş Əli gəlib, qonaqla üzbəüz oturdu. İri, paslı tütün qutusunu çıxarıb Qoca Osmanın qabağına qoydu.

– Bir papiros eş, – dedi.

Qoca Osman ona tərəf əyilərək:

– Bəri gəl! Hələ bir bəri gəl! Qulağını mənə ver, – dedi. Sonra qorxa-qorxa yavaşcadan soruşdu. – İncə Məmməddən xəbərin varmı? Haralarda olur o?

Durmuş Əli bərkdən güldü:

– Niyə belə qorxa-qorxa soruşursan İncə Məmmədi?

Qoca Osman:

– İncə Məmməd mənim şahinimdir, – dedi. – Mən nə bilim ki, onu necə soruşum? Mən onu axtarmağa gəlmişəm.

Sonra onu nə üçün axtardığını, nə istədiyini uzun-uzadı izah etdi. Durmuş Əlinin arvadı da qonağa qulaq asırdı.

Qoca Osman yenə də sözünü:

– İncə Məmməd mənim şahinimdir, – deyə qurtardı. Bu söz dilində əzbərdi.

Durmuş Əlinin arvadı:

– İncə Məmməd bizim şahinimizdir, – dedi. – Görərsiniz, bu yaxınlarda o, keçəl Abdini öldürər. Gəlib torpağını da paylar kəndlilərə. Heç bilirsənmi bu vicdansız kəndlilər nə etdilər balama? Nə etdilər mənim İncə Məmmədimə, qardaş?! Gün o gün olacaq ki, çıxacağam kəndin meydanına, ağzımı açıb, gözümü yumacağam. O vicdansız kəndlilərə, yaxşılıq bilməyənlərə, balamı didərgin salanlara mən bilirəm nə deyəcəyəm. Mən bilirəm o zaman nə deyəcəyəm. Sən də get, qardaş, get söylə İncə Məmmədimə. Məndən də salam söylə. Öldürsün o Əli Səfa bəyi də. Öldürsün o imansızı da. Qalayçının kəlləsini kəssin, göndərsin Çuxurovaya. Xalan belə söylədi de. Eşitdinmi, qardaş?

Durmuş Əli:

– Ay arvad, – dedi, – sən Allah, azacıq sakit ol. Qoy bu qardaşın işini yoluna qoyaq.

Arvadı sərtcəsinə:

– Sən də!.. – dedi.

– Nə sən də?.. – deyə Durmuş Əli soruşdu.

Qadın:

– Topal Əli Məmmədin yanına gedəcək. Deyirlər Məmməd Çiçəkli dərəsindədir. Qardaşı da qoşarıq Topal Əliyə.

– Ora uzaqdırmı? – deyə Qoca Osman qorxa-qorxa soruşdu.

Qadın:

– Hə, uzaqdır, – dedi.

Qoca Osman:
– Elə isə, – dedi, – mən bu gecə burada qalım, sonra oraya gedim.
Durmuş Əlinin arvadı:
– Bu gecə qal, qardaş, – dedi. – Mən də Topalı tapdırım. Doğrudur, o, Abdinin ev-eşik işlərinə baxır... Amma hər halda bizim adamdır. Abdinin ev-eşiyinə baxır, qoy baxsın.
Durmuş Əli gözlərini bərəldərək arvadına baxdı. Arvadı susdu.
Bir də baxdılar ki, Qoca Osman kürəyi divara dayanmış, başı da bir tərəfə sallanmış halda yuxuya getmişdir.
Durmuş Əli gülümsündü. Arvadı da gülümsündü:
– Yazıq qoca, – dedi. – Kim bilir neçə gündür at üstündədir!
Durmuş Əli:
– Kim bilir! – dedi.

## XXI

Onlar ensiz bir cığırla Çiçəkli dərəsinin təpəsinə çıxırdılar. Səhərdən bəri Qoca Osman Topal Əlidən hey soruşurdu:
– Mənim şahinim necə adamdır?
Hər dəfə də Topal Əli deyirdi:
– İri ala gözləri var. Saçları tikan-tikan. Üzü kədərli. Çənəsi zərif. Rəngi yanıq. Boyu orta. Gülləni iynənin gözündən keçirir. Zirək, qoçaq, igiddir. Qorxmazdır. Öləcəyini bilə-bilə yenə də dayanmaz, gedər.
Qoca Osman:
– Beləmi? – deyir, sonra yenə düşüncəyə dalırdı.
Qoca Osman dedi:
– Çox yaxşı, mənim şahinim həmişəmi bu dağın təpəsində qalır?
– Yox, – deyə Topal Əli cavab verdi. – Amma bu il hər halda burada qalacaq. Çiçəkli dərəsi qəsəbəyə yaxındır.

– Eləmi?

– Axı Xətcə hələ dustaqdır. Şahidlər dediklərindən döndülər, amma hökumət Xətcəni yenə də buraxmadı.

– Yazıq şahinim!

– Hə, məsələ belədir.

Az sonra onlar yamyaşıl bir talaya gəlib çıxdılar. Tala biçilmiş kimi görünən qısa otla örtülmüşdü. Göy üzünü ağlı-qaralı payız buludları bürümüşdü.

– Şahinimin yurduna hələ nə qədər var? – deyə Qoca Osman xəbər aldı.

Topal Əli bir yamacı göstərdi. Yamac qayalıq, meşəlik idi.

– Bax, oradır, – dedi.

– Bircə öz gözlərimlə şahinimi görəydim...

– Görərsən.

Axşamçağı onlar meşədən keçərək, gəlib bir qazmaya çatdılar. Topal Əli fit çaldı. Cabbar qazmanın üstündə göründü.

– Cabbar! – deyə Topal Əli sæslədi.

Cabbar da içəriyə səsləndi:

– Məmməd qardaş, bir gör kim gəlib?

Məmməd də qazmanın üstünə çıxdı:

– O-ho-o-o!.. Əli ağa! Xoş gəlmisən!

Qucaqlaşdılar.

Əli:

– Təqsirimdən keç, Məmmədim, – dedi. – Səni çox axtardım. Verəcək xəbərlərim vardı. Macal tapa bilmədim. Yaxşı ki, Qalayçının tələsindən qurtuldunuz. Demək, o yava arvaddan törəyən Horəli!.. Heç gözləməzdim ondan. Onu bostan gözətçisi olduğu zamandan tanıyırdım.

Onlar danışdıqları zaman Qoca Osman arxada dayanıb durmuşdu, üzündə bir təbəssüm vardı. Atı arxasında idi. Atın tükləri işıldayırdı. At tərləmişdi.

Məmməd yavaşca Topaldan soruşdu:

– Bu adam kimdir?

– Aşağılardan, Vayvay kəndindəndir... Hey deyir ki, Məmməd mənim şahinimdir.

İncə Məmməd ağır addımlarla qocanın yanına getdi, əlini uzatdı:

– Xoş gəlmisən, əmi!

– Xoş günün olsun, oğul. Olmaya mənim şahinim sənsən?

– Kim? – deyə Məmməd soruşdu.

– İncə Məmməd.

Məmməd azca utanaraq gülümsündü:

– Mənəm.

Qoca Osman o yaşda adamdan gözlənilməyən çevikliklə Məmmədin boynuna sarılıb öpməyə başladı.

– İncə Məmməd, mənim şahinim!

Qoca Osman həm Məmmədi öpür, həm də ağlayırdı.

Cabbar gəlib Qoca Osmanı Məmməddən ayırdı. Qoca oradaca bir daşın üstündə oturdu, üzünü əlləri arasına aldı. «İncə Məmməd, mənim şahinim!» deyə ağlayırdı. Cabbar gəlib, onu daşın üstündən qaldırdı, içəri apardı. Qazmanın içərisinə başdan-başa ayı dəriləri döşənmişdi. Divarlardan patrondaşlar, qumbaralar, mauzer tüfənglər asılmışdı.

Oturandan sonra qoca tez-tez deyirdi:

– İnana bilmirəm, oğul. Gözlərimə inana bilmirəm. Doğrudanmı, şahinim sənsən?

Qoca hər dəfə belə soruşanda Məmməd qızarır, bozarırdı.

– Doğrudanmı, sənsən?

Məmməd:

– Məni gərək bağışlayasan, əmi. Dağ başıdır. Qəhvəmiz yoxdur, – dedi.

Qoca Osman:

– Şahinimin canı sağ olsun, – dedi.

Məmməd bir az kökəlmiş, yanaqları xəfifcə çəhrayılaşmışdı. Qara, nazik bığları uzanmışdı. Üzü daha sərtləşmiş, hər dəqiqə döyüşə atılmağa hazır bir hal almışdı. Gündə yanmış, qaralmış, qovrulmuşdu. Boyu da əvvəlkindən daha uzun görünürdü.

Topal Əli dedi:

– Mən görməyəli!..

Cabbar:

– Allah Çiçəkli dərəsi kəndlilərinə korluq göstərməsin, – dedi. – Yaxşı bəsləyirlər bizi. Məmməd Çiçəkli dərəsinin həm ağası, həm hakimi, həm də hökumətidir. Çiçəkli dərəsinin kəndliləri daha hökumətə müraciət etmirlər. Bütün məsələləri Məmməd həll edir. Məmməd də elə ədalətlidir ki, gəl görəsən... Sən görməyəli, işlər bax belədir.

Topal gülümsündü:

– Yaxşı ki, Qalayçıdan qurtuldunuz. Mən hər şeyi öyrəndim. Abdinin gedib Əli Səfa bəyin ayağına düşdüyünü, Əli Səfa bəyin səni öldürtmək üçün Qalayçını qəsəbəyə çağırdığını, hər şeyi öyrəndim. Gəldim ki, bunları sənə xəbər verim, amma səni tapa bilmədim. Vay, dedim öz-özümə, vay... Qalayçı öldürdü mənim Məmmədimi. Düşdüm yollara. Ağqalada eşitdim ki, Qalayçı ilə qarşılaşmısınız, sən Qalayçını yaralamısan. Onlardan iki nəfərini də öldürmüsən. Sevindiyimdən şapkamı göyə atdım. Gəldim kəndə. Gözləməkdən gözümün kökü saraldı. Bir ay sonra Çiçəkli dərəsindən aldım xəbərini. Gödə Duran söylədi mənə...



Qoca Osman:

– Şahinim, – dedi, – mən Vayvay kəndlilərinin elçisiyəm. Qalayçı Əli Səfanın itidir. Bizdə vurmamış adam qoymadı. Əli Səfa torpaqlarımızı əlimizdən alır. Biz haqqımızı qorumaq istəyəndə, adamlarımızı Qalayçının əli ilə öldürtdürür. Eşitdik ki...

Məmməd:

– Demək, bunlar hamısı Abdi ağanın başından çıxır, eləmi, – deyə Topal Əlidən soruşdu. – Mən əslində işin belə olduğunu başa düşmüşdüm.

Qoca Osman səbirsizliklə:

– Eşitdik ki, şahinim, sən o imansızı yaralamısan, – dedi. – Kaş ki, vuraydın, öldürəydin o imansızı. Ah, kaş ki...

Məmməd son dərəcə sakit, təlaşsız bir halda:

– Dünən bir xəbər gəldi. Aldığı yaradan sağalmamış, bir neçə gün əvvəl cəhənnəmə vasil olmuşdur, – deyə bildirdi.

Qoca Osman yerindən qalxıb Məmmədin üstünə atıldı, əllərini öpməyə başladı:

– Bu, doğrudurmu? Doğrudurmu, şahinim mənim? Torpaqlarımız daha özümüzünkü olacaq. Torpaqlar özümüzün... Doğrudurmu, şahinim?

Məmməd:

– Doğrudur, – dedi. – Mən də necə oldu ki, o güllə Qalayçını öldürmədi, deyə fikirləşirdim. Axı mən nişan alıb atmışdım.

Qoca Osman:

– Allah, nə muradın varsa versin. Amin! – dedi.

Sonra gedib heybəsini açdı. İçindən böyük bir bağlama çıxartdı. Məmmədə verdi:

– Bunu kəndlilər göndərdi, şahinim. Çox şükür yarəbbi! İndi mənə icazə ver, yola düşüm. Muştuluq verim kəndlilərə... Toy-bayram eləsinlər.

Qoca cəld bayıra çıxdı. Ağaca bağlanmış atını açdı. Üstünə minib, qapıya gəldi:

– Sağlıqla qal, şahinim! Bu xəbəri tez çatdırmalıyam... Osman əmin sonra səni axtarıb tapar. Allah amanında, şahinim!

Atı üzəngilədi.

Məmməd Qoca Osmana bir qədər məəttəl qaldı:

– Çox qəribədir, – dedi.

– Çox qəribədir, – deyə Cabbar təkrar etdi.

Topal:

– Ay uşaqlar, çox maraqlanıram. Allah eşqinə bir deyin görüm, bu Çiçəkli dərəsini necə tapdınız?

Məmməd gülümsədi:

– Biz taparıq, – dedi.

– Biz taparıq, – deyə Cabbar təkrar etdi.

Topal dedi:

– Bizim kənd hara, buralar hara?

Cabbar:

– Buralar buradır, – deyə cavab verdi.

Topal:
– Söyləyin, necə gəlib çıxdınız buraya? – deyə təkrar soruşdu.
Məmməd divarı göstərdi. Onun göstərdiyi yerdə bir saz asılmışdı.
Topal:
– Hə, bundan nə çıxır ki? – deyə soruşdu.
Cabbar:
– Cürbəcür səslər, – deyə cavab verdi.
– Adama sataşma, Cabbar, – deyə Topal acıqlandı.
Məmməd:
– Əli ağa, – dedi, – bu sazın sahibi Səfil Əlidir. Aşıq Səfil Əli. Mazğacda ona rast gəldik. Bir qayanın üstündə oturub saz çalırdı. Tüfəngini də yanına qoymuşdu. Bizə qoşuldu. Çoxdan bəri qaçaq imiş.
Topal:
– Eldə nələr var! – dedi.
Cabbar dedi:
– Səfil Əli yaxşı aşıqdır. Özündə də bir səs var, gəl görəsən.
Topal:
– Başa düşdük. Səfil Əli qaçaqdır... Yaxşı da aşıqdır... Axı bu yerin ona nə dəxli var? – deyə soruşdu.
Məmməd:
– Bura Səfil Əlinin kəndidir, – dedi. – Səfil Əlinin dayıları da bu kəndin ən igid adamlarıdır. Başa düşdünmü?
– Başa düşdüm, – deyə Topal cavab verdi.
Cabbar:
– Səfil Əli harada olsa, indi gələr, – dedi. – Yəqin ki, təpənin zirvəsindədir. Mahnı oxuyur. Kim bilir nə barəsində? Dağdan gələn kimi, tövşüyə-tövşüyə sazı basır sinəsinə, əyilir üstünə. Bizim günümüz bax belə keçir. Toyda, şənlikdəyik.
Sonra üzünü Məmmədə çevirib:
– Ay Məmməd, – dedi, – bu qocanın gətirdiyi bağlamanı bir aç görək Vayvay kəndliləri bizə nə qədər pul göndərmişlər.

Məmməd:

– Hə, bir görək, – dedi.

Bağlamanı yavaş-yavaş açdı. Dəstə-dəstə pul idi.

– Hamısı puldur? – deyə Cabbar soruşdu.

– Hamısı...

– Dövlətli olduq.

– Hə.

– Yaşa, ay qoca!

Topal sözə qarışaraq:

– Bununla qurtarsa yaxşıdır, – dedi. – Görəcəksən. O qoca sizin yaxanızı buraxmaz. İki aydan bir kəndlilərdən pul yığıb sizə gətirəcəkdir. Qiyamət adamdır o.

Məmməd:

– Yazıqlar yanıqlıdırlar, – dedi. – Kim bilir Əli Səfa, Qalayçı onlara nə qədər zülm etmişlər.

Topal:

– Siz pul sarıdan korluq çəkməyəcəksiniz, – dedi. – Arxanızda dağ kimi bir Vayvay kəndi durur.

Cabbar:

– Dağ kimi, – deyə təkrar etdi.

Topal üzünü Məmmədə tutub:

– Sən Qoca Osmanın xoşuna gəlmisən, – dedi. – Qalayçı o qədər zülm etməsəydi də, o, yenə gətirəcəkdi pulu... Onlar belədirlər. Sənə bir kərə şahinim dedimi, get evinə, götür uşağını, gözünün qabağında doğra, öldür, sənə heç bir söz deməz. Onlar belədirlər.

Cabbar:

– Bu cür olsa, adam lap qiyamətədək qaçaqlıq edər. Heç burnu da qanamaz, – dedi,

Topal:

– Elə söyləmə, Cabbar, – dedi. – Əli Səfa bəy heç boş durarmı? Qalayçı onun canı idi. Siz canını onun əlindən aldınız. Bunu sizdə qoymaz.

Məmməd:

– Çalışar ki, qoymasın, – dedi.

– Əgər əlindən gəlsə, – deyə Cabbar əlavə etdi.

Məmməd:

– Boş-boş danışma, ay Cabbar qardaş, – dedi. – Səfil Əlinin dediyi kimi... hansı günü gördük axşam olmamış.

Bu dəmdə tüfəngini çarpazlama boynuna salmış Səfil Əli valaylaya-valaylaya içəri girdi. Birbaş sazın üstünə getdi. Divardan götürdü. Dayandığı yerdə oturub, sazı köklməyə başladı. Birdən bir mahnı oxudu. Qalın, gur səsi vardı. Səs, sanki Səfil Əlidən çıxmırdı. Mahnı elə bil min il bundan əvvəlki bir zamanın mahnısıdır... Uzaqlardan, dağlardan, Çuxurovadan, dənizdən gəlir. Dənizin şorluğu, şam ağacının qatranı, yarpızın qoxusu mahnıya qarışmışdır. Belə bir mahnıdır. «Gəl mənim dərdimə, – deyir, – bir dərman eylə. Aləmlər dərdinə qoy dərman olsun».

Səfil Əli bir an susur, bu səfər saz səslənir. Saz təkrar edir: «Qoy dərman olsun». Sonra Səfil Əli yenə başlayır:

*Hər yana baxdımsa, yarımı gördüm.*

Əlləri dayanır. Səfil Əli sazın üstünə əyilir. Sanki yuxuya getmişdir. Birdən başını qaldırır. Əli sazın üstündə uçur:



*Dağlar, daşlar, uçan quşlar.*

Fırtına kimi coşaraq çalır, oxuyur:

*Adımı sorursan Səfil Əliyəm,*
*Bir gün ağıllıyam, yüz gün dəliyəm,*
*Köpürüb çağlayan bahar seliyəm,*
*Başıqarlı haça dağdan gəlirəm.*

Birdən Səfil Əli susdu. Oturduğu yerdə büzüşüb daş kimi donub qaldı.

Sazını yavaşca bir yana qoydu.

Məmməd də donub qalmışdı. O polad parıltısı yenə gözlərində peyda oldu. Sonra başında toplu sarı işıq hərləndi, qığılcımlandı. Bol işıqlı Çuxurova düzü dalğalandı. Yavaşca Topal Əliyə yaxınlaşdı.

– Əli ağam!.. – dedi.

– Nə var? – deyə Əli soruşdu.

Məmməd işarə ilə ona bayıra çıxmasını təklif etdi. Topal ayağa qalxıb, qapıya tərəf getdi. Onun ardınca Məmməd də ayağa qalxdı. Onlar bayıra çıxandan sonra Cabbar Səfil Əliyə yaxınlaşıb, onu dümsüklədi. Səfil Əli özünə gəldi.

Cabbar:

– Əli, – dedi. – Mənə bax...

– Nə oldu?

– Məmməd Topalı bayıra apardı. Başa düşdünmü?

Əli güldü:

– Başa düşdüm.

– Bu adam dəli olmuşdur. Ağlı başından çıxmışdır onun. İndi bilirsənmi Topala nə deyir? Ondan özü ilə bərabər qəsəbəyə getməsini xahiş edir.

– Başqa nə olacaq? Qabağına çıxan hər adama söyləyir. Bütün Çiçəkli dərəsi kəndinə yayılmışdır. Kəndlilər öz aralarında danışırlar: «Məmməd demişdir ki, Xətcəmi bir daha öz gözlərimlə görməliyəm. Allah o dəmdə canımı alsa da, gedib dustaqxanada onu görəcəyəm, qəsəbə od tutub yansa da, gedib içinə girəcəyəm». Kəndlilər ancaq bundan danışırlar!

– Bu adam qanına susamışdır. Mən onu bu fikirdən daşındırmağa çalışıram, ona görə də mənə elə pis-pis baxır ki, guya onun düşməniyəm.

– Burax sərxoşu yıxılana qədər getsin.

– Bu, düzdür, amma Məmməd igid adamdır, yaxşı adamdır. Bu dağlar Məmməd kimisini görməmişdir. Bir daha görməz də. Nur parçasıdır. Övliyadır...

Bayırda şimal küləyi əsirdi. Dəli şimal küləyi. Haradasa qar yağacaq. Azca əvvəl dağların üzərindən bir qatar durna keçdi. Bu, qış gəldi deməkdir. Havada qış qoxusu vardı...

Külək şam ağacının yarpaqlarını silkələyirdi. Şamın yanına çatanda Məmməd Topalı tutub, ağacın dibinə çəkdi:

– Otur burada.

Topal Məmmədin üzünə baxanda, onu heyrət bürüdü. Onun dodaqları titrəyirdi. Topal maraqla gözlədi.

Məmməd gəlib onun yanında yerə çökdü.

– Əli ağam, – deyə sözə başladı. – Sən ağıllı bir adamsan. Bütün bu işlər mənim başıma sənin ucbatından gəldi. Bunu sən də bilirsən. Amma mən başa düşdüm ki, bunda sənin günahın yoxdur. Sən yaxşı adamsan.

Topal Əli:

– Aman Məmmədim... – dedi.

– Amanı-mamanı yoxdur, Əli ağa.

– Elə isə söylə görək...

Məmməd bir an fikrə getdi. Üzü gərildi. Sanki böyük bir əzab içində qıvrılırdı:

– Mən, – dedi, – sabah Xətcəni görməyə gedəcəyəm.

Topal özünü itirdi:

– Necə, necə? – deyə soruşdu.

Məmməd sakit, lakin sərt bir səslə:

– Mən sabah Xətcəni görməyə gedəcəyəm, – deyə təkrar etdi.

– Necə-ə-ə?

– Necəsi-mecəsi yoxdur. Gedəcəyəm.

Topal əlini çənəsinə dayayıb susdu. Yaxşıca düşündükdən sonra içini çəkərək:

– Çətin işdir, – dedi. – Çox çətin işdir. Bu açıqdan-açığa ölümə getmək deməkdir.

Məmməd:

– Ölümü gözümün altına almışam, – dedi. Böyük bir əzab duyan adam kimi, onun üzü gərildi, qırış-qırış oldu. – Ölümü gözümün altına almışam! Burada, ürəyimin lap ortasında bir yanğı var. Elə bil ürəyimi oyurlar. Getməliyəm. Daha dayana bilmərəm. Sabah dan yeri sökülləndə yola düşəcəyəm. Mən qəsəbəyə...

Topal onun sözünü kəsdi:

– Birdən səni tutdular? Bütün ümidim... bir kəndin ümidi sənədir...

Məmməd kənd sözünü eşidən kimi qaşqabağını tökdü:
– Bir kəndin ümidimi? Bir kəndin... hansı kəndin?
O, acıqlı-acıqlı yerə tüpürdü.
Topal Əli çox ehtiyatla:
– Hirslənmə, qardaşım, – dedi. – İçi məni yandırar, bayırı eli. Kəndlilərə acığın tutmasın. Qorxularından özlərini elə göstərirlər ki, guya ağanın tərəfini saxlayırlar. Yoxsa ürəkləri səninlədir... Bütün kəndin, beş kəndin ümidi sənədir...
Məmməd qəti bir tərzdə:
– Mən gedəcəyəm, – dedi. Topalın yanından qalxdı. Sərxoş kimi valaylaya-valaylaya dağın yuxarısına tərəf getməyə başladı. Dağlardan şimal küləyinin, bir də quru şam ağacının qoxusu gəlirdi.
Topal sərsəm halda yerindən qalxıb qazmaya gəldi. Cabbar həyəcan və maraqla Topaldan soruşdu:
– Məmməd sənə nə dedi? Söylə, Əli qardaş!
– Sabah dan yeri sökülməmişdən qəsəbəyə gedir.
– Bu adam dəli olmuşdur, – deyə Cabbar çığırdı. – Onun qol-qıçını bağlamaq lazımdır. Tutub öldürəcəklər onu. Bağlamaq lazımdır. İndi haraya getdi o?
– Baş götürüb, üzüyuxarı dağa getdi. Valaylayırdı...
Cabbar onun dalınca dağa tərəf yüyürdü. Şimal küləyi meşədəki ağacların budaqlarını qırırdı. Havada qar qoxusu vardı. Göy üzündə qara buludlar qaynaşırdı. Birdən hər tərəf qaraldı. Göydən iri, isti damlalar düşməyə başladı.
Məmmədi iri budaqları kəsilmiş şam ağacının altında, çürük bir kötüyün üstündə oturmuş tapdı. Cabbar onun yanına getdi. Məmməd dalğın idi. Cabbarın gəldiyinin heç fərqində belə olmadı.
Cabbar yavaşca keçib onun yanında oturdu.
– Qardaş, – dedi, – sən gəl bunu eləmə! Niyyətini hamıya açıb söyləmisən. Çiçəkli dərəsi kəndində bunu eşitməyən adam qalmamışdır. Qəsəbədə də eşitmişlər. Tutarlar səni. Sən gəl bunu eləmə!

Məmməd başını qaldırdı, Cabbarın üzünə dik-dik baxdı:

– Düz deyirsən, haqlısan, Cabbar. Amma sən gəl məndən soruş. Ürəyimdən soruş. İki əl ürəyimi tutub sıxır. Niyyətimdən vaz keçə bilmərəm. Xətcəni görməliyəm. Görməsəm, ölərəm. Elə ölməkdənsə, qoy belə ölüm... Sən son dəfə olaraq mənə qardaşlıq edərsənmi?

– Sənin üçün hər şey edərəm, Məmməd! Biz bir-birimizə qardaş dedik, can dedik.

– Elə isə mənim üçün köhnə bir paltar tap...

Səndən istədiyim budur.

Cabbar cavab vermədi. Başı sinəsinə düşdü.

## XXII

Gün xeyli ucalmışdı ki, Qoca Osman atını çapa-çapa qəsəbəyə girdi. Atının qantarcası köpük içindəydi. Bazarın ortasında atdan endi. Atının yüyənini qoluna doladı. Bazarın bir başından o biri başına getdi. Qarşısına kim çıxırdısa, gülümsəyərək uca səslə: «Salam!» deyirdi.

Qalayçının öldüyünü qəsəbədə eşitmişdilər. Qoca Osmanın bu cür qürurla gəzməsinin səbəbini başa düşürdülər.

Qoca Osman bir neçə dəfə bazarın bu başından o biri başına gedib-gəldi. Gözləri kimi isə axtarırdı. Tapa bilmədi. Bazardan çıxıb aşağıya, çaya tərəf getdi. Tofiqin qəhvəxanasının qabağına gəldi. Atının qabağında qıpqırmızı qızararaq, əlləri titrəyə-titrəyə bir heykəl kimi dimdik durdu. Sonra alnını qəhvəxananın şüşəsinə dayayıb, uzun zaman içəri baxdı. Bir küncdə əyləşmiş Abdi ağaya gözü sataşdı. Buna sevindi. Atını meydandakı akasiya ağacına bağladı, içəri girdi. Gedib ağanın yanında dayandı. Abdi ağa başını qaldırdı. Qoca Osmanın qızarmış üzü, titrəyən əlləri ilə onun qarşısında durduğunu gördü. Onların gözləri bir-birinə sataşanda, Qoca Osman gülümsədi. Abdi ağanın rəngi qaçdı. Qoca Osman uca səslə: «Salam!» dedi. Abdi ağanın salamı almasını gözləmədən, geriyə dönüb getdi. Abdi ağa ağzı açıq halda, onun dalınca baxa-baxa qaldı.

Qoca Osman atını akasiya ağacından açdı, üstünə qalxdı. Çapa-çapa Vayvay kəndinə tərəf sürdü. Qəsəbədən Vayvay kəndinə iki saatlıq yol idi.

Qoca Osman qəhvəxanadan çıxanda, Abdi ağanı təlaş bürüdü. Qorxurdu. Qorxusundan heç bir yerdə dura bilmirdi. Ağ dəstəkli naqan tapançası sağ tərəfdə qurşağının içində gizlədilmişdi. Sağ əli həmişə tapançanın üstündə idi. Nərd oynayanda da, pul sayanda da, yemək yeyəndə də əlini tapançadan çəkmirdi. Görünməz düşmənlə hər an qarşılaşa bilərdi. Belə güman edirdi.

Abdi ağa cəld ayağa qalxdı, birbaş ərizəyazan Siyasətçi Əhmədin yanına getdi. Siyasətçi Əhməd qəribə bir adamdı. Danışanda səsi elə çıxırdı ki, guya ağzına bir çuval qoz doldurmuşlar, silkələyirlər. Siyasətçi Əhməd Dəli Fəxrinin qəddar düşməni idi. Əli Səfa bəyin isə sadiq adamı idi. O da qəsəbədə Qalayçının hörməti sayəsində başını dolandırırdı. Qalayçının adı ilə cürbəcür hiylələr qururdu. Qalayçının ölüm xəbəri onu da çox kədərləndirmişdi.

Abdi ağa tələsik dükana girdi:

– Yaz, – dedi, – Əhməd əfəndi. Əgər hökumət hökumətdirsə, hökumətliyini göstərsin. Lap elə bu cür yaz! Dağları-dərələri qaçaq bürümüşdür. Hər kolun dibində bir hökumət var. Bax, bu cür yaz! On beş yaşında uşaqlar da dağlara çəkiliblər. Bu cür yaz! Yaz! Kəndləri yandırırlar. Qəsəbəyə də basqın edirlər. Malımızdan, canımızdan əmin deyilik. Belə yaz! Qadınlar belə silahlanmışlar. Üsyan var. Qəsəbə özünü hökumət elan etmişdir. Qanun quru kağızda qalmışdır. Belə yaz! Bax, belə yaz! Qoy qoşun gəlsin, bunların kökünü kəssin.

Siyasətçi Əhməd əfəndinin tutqun siması daha da tutqunlaşdı. Başındakı qara fetr şlyapasını çıxarıb masanın üstünə qoydu. Cibindən çıxartdığı yaylıqla alnının tərini silməyə başladı.

– Bu dediklərinimi yazacağam? – deyə soruşdu.

– Hə, dediklərimin hamısını başdan-ayağadək yaz. Bu jandarmlar onların öhdəsindən gələ bilməzlər. Gələ bil-

məzlər. Anladınmı? Bu jandarmların bir polku İncə Məmmədlə bacara bilməz. Bəs qalanları!.. Yaz, yaz ki, hökumət qoşun göndərsin. Yaz ki, üsyan var. Bir qaçaq var, iyirmi yaşında uşaqdır. Mənim qapımın muzdurudur... İncə Məmməd adında... Bax belə, dediyim kimi yaz. İncə Məmməd mənim torpaqlarımı kəndlilərə paylayır. Məni kənddən qovmuşdur, torpaqlarımı kəndlilərə, mənim muzdurlarıma paylayır. Beş kəndimi... Mən qorxumdan qəsəbədə də gəzə bilmirəm. Jandarm idarəsinin qarşısında ev tutmuşam. Pəncərələrinə qumla dolu kisələr qoymuşam. Güllə keçməmək üçün. Bacasını hördürmüşəm. Qumbara düşməmək üçün. Keçən gün gəlmişdi ki, məni jandarm idarəsinin qarşısındakı evimin içində vursun. Xəbər tutmasaydıq, keşikçi olmasaydı, evi dinamitlə uçuracaqdı. İncə Məmməd demişdir ki, bütün qəsəbəni dinamitləyəcəyəm. Bütün qəsəbəni. Bax, bunların hamısını yaz!

Siyasətçi ağlamsına-ağlamsına:

– Mən, – dedi, – mən bunları necə yaza bilərəm? Əlini kəsərlər adamın. Tutaq ki, yazdıq, axı qəsəbənin şərəfi var. Gəl qəsəbənin gül kimi adını batırmayaq. Bir də ki, Qalayçı ölübsə, canı sağ olsun Əli Səfa bəyin. Təzədən bir qaçaq dəstəsi düzəldər. Əli Səfa bəy sənin hökumətə belə bir ərizə yazmağına razı olmaz.

Abdi ağa hirsləndi:

– Sən söylədiyimi yaz, – dedi.

– Yaza bilmərəm...

– Sənə yaz deyirəm, qardaş, yaz!

– Yaza bilmərəm.

Abdi ağa qeyzlə ayağa qalxdı:

– Mən də Fəxri əfəndiyə yazdıraram, – dedi.

– Harada istəyirsən, get yazdır, onsuz da bunun bir xeyri olmaz.

Abdi ağa birbaş Dəli Fəxrinin yanına getdi. Dəli Fəxri onun ayaq səsini çox uzaqdan eşitdi, masadan başını yavaş-yavaş qaldırdı.

## XXIII

Çiçəkli dərəsinin bəri yanı Şahin qayasıdır... Şahin qayası göyə ucalmış uca, sıldırım, dümdüz, yosunlu bir qayadır. Şahin qayası haqqında əfsanələr söylənir. Adı dastanlarda çəkilir. Qayadan qaynayıb çıxan bir bulaq aşağılara doğru axır. Buna Şahinqaya bulağı deyirlər... Bulağın dörd tərəfini yaşıl, kiçik ağaclar, ətirli yarpızlar örtmüşdür. Üç qovaq boyu yuxarıdan, qayanın sıldırım qoynundan gözəl qoxular gəlir. Köpüklü su, qayanın divar kimi səthi ilə üzüaşağı axır.

Keçmiş zamanlarda burada şahin həvəskarı olan bir gənc varmış... Qayanın səthindəki dəliklərdə şahinlər özlərinə çoxlu yuva düzəldiblərmiş. Şahinlər bala çıxardıqları zaman bu gənc yuvadan bir şahin balası götürmək fikrinə düşər. Şahin yuvası divar kimi düz qayanın ortasında imiş. Oraya aşağıdan çıxmaq, yuxarıdan enmək mümkün deyilmiş. Gənc uzun, yoğun bir ip tapar, təpədəki ən qalın ağaca bağlar. İplə sürüşə-sürüşə enib, şahinin yuvasına çatar. Balanı yuvadan götürüb qoynuna qoyar. Bu dəmdə ana şahin işdən xəbərdar olar. Qeyzlə gəlib, qanadını ipə vurar, ipi qılınc kimi kəsər. Gənc qoynundakı bala şahinlə aşağı düşər, parça-parça olar.

Bu səbəbdən həmin qaya Şahin qayası adlanır.

Gecə ikən yola çıxan Məmməd Şahin qayasının dibində dayanıb dincəlirdi ki, arxasından bir xışıltı eşitdi; dönüb dala baxdı. Gördü ki, Cabbar dayanıb ona baxır. Cabbarın sinəsindən sel kimi tər axır.

Uzun zaman Cabbar dayandığı yerdən tərpənmədi. Məmməd də gözlərini yerə zilləyərək qaldı.

Sonra Cabbar gəlib Məmmədin yanında oturdu. Əlini yavaşca uzadıb Məmmədin əlindən tutdu. Bir neçə kərə sıxdı. Məmməd fikir vermədi. Yerə baxmaqda davam etdi.

Cabbar səsi titrəyə-titrəyə:

– Qardaş! – dedi.

Elə ürəkdən, elə dostcasına dedi ki, Məmməd başını yana döndərmək məcburiyyətində qaldı.

Cabbar onun əllərini öz əlləri içərisinə aldı:

– Qardaş, eləmə!

Məmməd təəssüflə başını yırğaladı:

– Sən də anlaya bilmirsən dərdimi, Cabbar qardaş, – dedi, – mən ölsəm, daha yaxşıdır.

Cabbar:

– Məmmədim, – deyə inlədi, – mən sənin dərdini anlayıram. Amma indi vaxtı deyil bu işin. Dərd ikimizindir.

– Elə isə, Cabbar qardaş, yolumu kəsmə. Mən Xətcənin yanına gedirəm. Yaxalansam, demək, taleyim belə imiş. Yaxalanmasam...

Qəzəbləndi. Üzü dəyişildi:

– Heç kəs məni yaxalaya bilməz, – dedi.

– Sənin tutduğun bu iş öz xoşunla gedib əllərini qandala salmaq deməkdir. Birdən biri səni görüb tanısa? Abdi ağa görsə? Qəsəbənin içində nə edərsən?

Məmməd:

– Demək, taleyim bu imiş, – dedi. Gözlərindəki parıltı böyüdü. – Yaxalanmaram.

– Elə isə get, qardaş. Yolun açıq olsun.

– Sağ ol.

– Səni burada üç gün gözləyəcəyəm. Kürd Dəmirin evində. Üç günün içində geri qayıtmasan, belə hesab edəcəyik ki, yaxalanmısan.

– Elə hesab edin ki, yaxalanmışam.

Məmməd ayağa qalxıb yola düzəldi.

Məmməd gözdən itincəyə qədər Cabbar onun dalınca baxaraq, öz-özünə deyirdi: «Səni də itirdik, İncə Məmməd, səni də. Bu dağlar İncə Məmməd kimisini bir daha görə bilməz. Vay!»

İncə Məmməd Çiçəkli dərəsi kəndindən bir yırtıq çarıq, bir də on beş yaşlı uşaq paltarı tapdırmışdı. Paltar əllə toxunma paltardı. İplikdən toxunmuşdu. Pencəyi nar qabı-

ğında boyanmışdı. Şalvarı – ağ, kirli idi. Özü də yırtıqdı. Paltar ona çox dar gəlirdi. Buna görə də Məmməd bu paltarda yarıbayarı kiçik görünürdü. Əlinə də yoğun bir çoban dəyənəyi almışdı. Başına günlüyü yırtılmış, yağlı bir şapka qoymuşdu. Tapançasının güllələrini içəridən qıçına bağlamış, ipləri belinə sarımışdı.

Yolu uça-uça gedirdi. Yan-yörəsini gözləri görmürdü. Başı hərlənirdi. Sanki bir boşluqda yuvarlanırdı. Dünya gözündə deyildi.

Gecəyarısı qəsəbənin kənarına yetişdi. Kənar məhəllələrdə itlər hürüşürdülər. Nə etməli idi? Gecənin bu vaxtında qəsəbəyə girsə, karvansara tapa bilməyəcəkdi. Onu yaxalaya da bilərdilər. Aşağıdan su dəyirmanının şırıltısı gəlirdi. Dönüb dəyirmana tərəf getdi. Dəyirmanın gurultusu, adamın qulaqlarını kar edəcək qədər güclü idi. Çox uzaqdan isti un qoxusunu duydu.

Sabah cümə idi. Dustaqxanada görüş günü idi. Böyük bir əngəl vardı: Xətcənin anası... Abdi ağa qəsəbəyə köçəndən bəri Xətcənin anası hər cümə günü qızının yanına gəlir, guya Məmməddən xəbər gətirirdi. Məmməd haqqında ağıla-xəyala gəlməyən əhvalatlar uydurub Xətcəyə nağıl edirdi. İndi o, daha Məmmədin pisliyinə deyil, yaxşılığına danışırdı. Məmmədin kəndlilərə torpaq paylaması, süpürüm kolluqlarını yandırtması əhvalatını da xeyli şişirdərək Xətcəyə danışmışdı. «Məmməd, – deyirdi, – bir böyümüş, uzanmış, möhkəmlənmişdir ki, lap minarə kimi olmuşdur». Xətcə sevincindən uçurdu. Dustaqxana daha onun üçün dustaq-xana deyildi. Cənnətə dönmüşdü. Xətcə saatda bir İrazın boynuna sarılıb öpürdü. İraz da onunla birlikdə sevinirdi.

Məmməd Çiçəkli dərəsində məskən salandan bəri iki gündən bir ondan Xətcəyə xəbər, pul gəlirdi.

Dəyirmanda un tozuna bulaşmış çuvallar sıra ilə düzülmüşdü. Dörd ağır daş ətrafa un püskürdərək hərlənirdi. Dəyirmanın çarxlarını hərlədən suyun şırıltısı eşidilirdi.

Dəyirmançı çalsaqqal bir adamdı, boz gözləri vardı. Təpədən-dırnağadək una batmışdı. On beşə qədər kəndli dəyirmanın ortasında ocaq qalamış, ətrafında dövrə vurub oturmuşdu. Məmməd onların yanına gəldi, salam verdi, kəndlilər yer açdılar, Məmməd də keçib əyləşdi. Kəndlilər söhbətlərinə davam etdilər. Bir müddət sonra Məmmədi artıq unutdular. Torpaqdan, məhsuldan, qıtlıqdan, ölümdən danışdılar. Dərədə bir tacirin soyulduğundan söz açdılar. Bir neçə nəfəri dedi ki, bu, İncə Məmmədin işidir. Hər yerdə İncə Məmmədin adı çəkiləndə, onun kəndlilərə torpaq paylaması xəyala gəlirdi. Burada da elə oldu. Ahıl bir kəndli: «Torpağı paylamağına paylamış, bu dəli köpəkoğlu süpürüm kolluqlarını nə üçün kəndlilərə yandırtdırmışdır?» deyə maraqla soruşdu. O biri kəndlilər süpürüm kolluqlarının yandırılması barəsində ağıla-xəyala gəlməyən sözlər danışdılar. Məmməd hirsindən qovrulurdu. Ürəyində söyüb söyləndi. Kəndlilərdən heç birisi əsas məsələni, əsas səbəbi söyləmədi. Ağıllarına gəlmədi. Hirsi soyuyandan sonra ürəyində güldü. Çuxurova kəndlisi süpürüm kolluqlarının necə bir bəla olduğunu haradan bilsin!

Sonra adamlar oturduqları yerdə büzüşüb yatdılar. Məmməd də büzüşüb yatdı. Oyandığı zaman gün xeyli ucalmışdı. Bir kəndli baş tərəfində dayanıb: «Ay uşaq, – deyirdi, – gün günorta oldu. Qalx daha. Atların, eşşəklərin ayaqları altında qaldın. Qalx daha».

Çaşqın-çaşqın oyanan Məmməd cəld ayağa qalxdı, iti addımlarla qəsəbəyə tərəf yollandı. Sürətlə qəsəbəyə girdi. Bazarın ortasından keçdi. Bazar keçmişdə gördüyü kimi idi. Sarı güyümlü şərbətçi ortada gəzirdi. Kor Hacı şövqlə nal döyürdü. Məmməd yanından keçərkən o, nalı elə döyürdü ki, Qazanoğlu mahnısının səsi çıxırdı. Kababçı dükanlarından tüstü qalxırdı. Qara şalvarlı kəndli qadınları bir dükandan çıxıb, o birinə girirdilər.

Qorxudan büzüşmüş Məmməd bələdiyyə bağçasının yanında yuxarıya doğru gedən bir kəndlini dayandırdı:

– Dustaqxanaya haradan gedirlər? – deyə soruşdu.

Kəndli:

– Bu küçə ilə yuxarı çıx, qarşıdakı o daş qapıdan içəri gir, – deyə cavab verib, yoluna düzəldi.

Məmməd qapıdan girdi. Bir bölük jandarm sıraya düzülmüşdü, farağat vəziyyətində çavuşu gözləyirdilər. Məmməd bu qədər jandarmı bir yerdə görəndə özünü itirdi. Ürəyindən keçdi ki, geri dönüb dağlara tərəf qaçsın. Heç zaman, heç bir yerdə bu qədər sıxılmamış, ürəyi darıxmamışdı.

Jandarmların arxasında, sağ tərəfdə alçaq, pəncərəsiz bir ev görünürdü. Evin divarları yosun bağlamışdı. Evin qabağında iki-üç kəndli qadın dayanıb gözləyirdi.

Məmməd belini donqarlaşdırdı. Büzüşdü, lap balacalaşdı. Evin dustaqxana olduğunu damında gəzişən növbətçidən bildi. Məmməd dustaqxana haqqında çox hekayət eşitmişdi. Bu da eynən eşitdiklərinə bənzəyirdi. Ağır addımlarla dustaqxanaya tərəf getdi.

Allahın bəlası olan o arıq nəzarətçi Məmmədin qabağını kəsib, sərt-sərt soruşdu:

– Nə istəyirsən, ay uşaq?

Məmməd ağlamsına-ağlamsına dedi:

– Mənim bacım burada dustaqdır...

– Kim? Xətcəmi? – deyə nəzarətçi sərt-sərt soruşdu.

Məmməd boynunu bükərək:

– Hə... – deyə cavab verdi.

Nəzarətçi içəriyə çığırdı:

– Xətcə! Xətcə, qardaşın gəlib.

«Qardaş» sözünü eşidən Xətcə çaşıb qaldı. Çaşqın-çaşqın eşiyə çıxdı. Məmmədə tərəf gəldi. Məmmədin üzü ağappaq ağarmışdı. Divarın dibində çöməlib oturmuşdu.

Nəzarətçi:

– Bax, buradadır! – dedi.

Xətcə Məmmədi görən kimi yerində donub qaldı. Cınqırı da çıxmadı. Səndələyə-səndələyə Məmmədin yanına gəldi, kürəyini divara dayayıb oturdu.

Özündə deyildi. Uzun zaman bu cür yan-yana oturub qaldılar. Elə bil lal olmuşdular. Beləcə oturub bir-birinin gözlərinin içinə baxdılar. İraz da gəldi. Xətcəni bu halda görüncə çaşıb qaldı. Onların danışmadıqlarına da bir məna verə bilmədi. Məmmədə yaxınlaşdı:

– Xoş gəlmisən, oğul, – dedi.

Məmməd dilini ağzında zorla dolandıraraq nə isə dedi. İraz bundan heç bir şey anlaya bilmədi.

Günortaya yaxın nəzarətçi gəldi:

– Daha yetər. Gedin yerlərinizə, – deyə çığırdı. Məmməd yenə ağır-ağır, büzülərək ayağa qalxdı, cibindən pul bağlamasını çıxardıb Xətcənin qucağına atdı. Geri dönüb yollandı. Böyük daş qapıdan çıxana qədər Xətcə də dayanıb onun dalınca baxdı.

İraz:

– Bu nə haldır, ay qız? – dedi. – Bu kim idi?

Xətcə:

– Gəl içəri, İraz xala, – deyə inlədi. – Gəl içəri.

İçəri girdilər. Xətcə taqətdən düşmüş halda özünü yatağına atdı.



İraz həyəcanla:

– Nə oldu sənə? – deyə soruşdu.

– O, İncə Məmməd idi, – deyə Xətcə cavab verdi.

– Necə? – deyə İraz heyrətlə çığırdı.

– Hə, o uşaq İncə Məmməd idi.

– Vay gözlərim kor olsun, – deyə İraz özünü məzəmmət eləməyə başladı. – Vay gözlərim... Yaxşıca baxmadım aslanımın üzünə. Vay gözlərim ovulub ovcuma tökülsün.

Onlar susdular. Sonra iki qadın gözləri yaşarmış halda, birdən bir-birini qucaqlayıb, yırğalanmağa başladı.

– Bizim İncə Məmmədimiz.

Sonra yatağın üstündə yan-yana oturlular Bir-birinə baxıb gülümsəyirdilər.

Xətcə dedi:

– Yürəgir ovası...

– Evimiz, – deyə İraz əlavə etdi.
– Xınalı torpaq yaxacağam divarlarına. Otuz dönüm də... İraz xalamı qoymayacağam əlini ağdan qaraya vursun.
İraz etiraz etdi:
– Ev hamımızın evidir. Hamımız əl-ələ verib işləyəcəyik.
İndi yeni bir ümid işığı görünməyə başlamışdı. Neçə gün idi ki, dustaqxanada əfvi-ümumidən danışılırdı. Deyirdilər ki, guya, Anqaradan gələn bir deputat əfvi-ümumi elan ediləcəyini söyləyibmiş. Özü də elə bu aylarda elan ediləcəkmiş. Dustaqxanada əfvi-ümumi barəsində mahnılar qoşulmuşdu. Gecə-gündüz dustaqxanada bu mahnılar həsrətlə oxunurdu. Dustaqların içində Mustafa ağa adlı ahıl bir kişi vardı. Ağıllı, bilikli bir adamdı. Hamının başına ağıl qoyurdu. Xətcə Allahın hər verən günü ondan soruşurdu:
– Mustafa əmi, dustaqxanalar boşalanda, Məmməd də əfvi-ümumiyə düşərmi?
– Təkcə Məmməd deyil, dağdakı qurd-quş da əfvi-ümumiyə düşər, – deyə Mustafa cavab verirdi.
Xətcə buna sevinirdi. Sevinci bütün gün, bütün gecə davam edirdi.
Yürəgir ovasının torpağı isti, bərəkətlidir.
Xətcə dustaqlar içərisində Yürəgiri tanıyanlardan oranı soruşmaqla, Yürəgirin hər kəndini, hər guşəsini öyrənmişdi. Tez-tez deyirdi:
– Biz Qaradaşda yaşayacağıq. Elə deyilmi, İraz xala?
– Hə, orada, Qaradaşda yaşayacağıq, – deyə İraz təsdiq edirdi.
Xətcə həyətə çıxdı, kişilər kamerasına yaxınlaşıb çığırdı:
– Mustafa əmi!
Mustafa ağa qapıya tərəf gələrək, mehribancasına:
– Nə deyirsən, dəli qız? – deyə soruşdu. O, Xətcənin nə soruşacağını bildiyi halda, həmişə bu sualı verirdi.
– Məmməd də? – deyə Xətcə yenə soruşdu.
– Dağların qurd-quşu da... Əfvi-ümumi elan edilərsə, hamı əfvi-ümumiyə düşər. Elan ediləcəkdir...

Xətcə:
– Əllərini öpüm, Mustafa əmi, – dedi.
Mustafa ağa hər zaman:
– Dəli qız, – deyib gülümsər, öz guşəsinə çəkilərdi. İndi də belə etdi.
Xətcə kameraya qayıdanda İraz:
– Hə, elan ediləcəkdir, – dedi. – Bizi isə çərşənbə günü Qozana aparacaqlar. Burada bizim haqqımızda hökm çıxara bilməmişlər. Məhkəmə qərar vermiş ki, bizi Qozana göndərsinlər. Kaş ki, əfvi-ümumi elan ediləydi, biz heç Qozana getməyəydik. Ürəyim elə sıxılır ki...
Xətcə bunu eşidəndə, kefi çox pozuldu:
– Kaş ki... – dedi. – Məmməd Qozana gələ bilməz. Kaş ki, Məmmədlə danışaydım. Nitqim tutuldu, danışa bilmədim.
–Mən onun Məmməd olduğunu bilsəydim...
– Bu yaxınlarda əfvi-ümumi elan ediləcəkdir.
– Mustafa ağa ağıllı adamdır. O bilər, Anqarada adamı var.
– Bu gün cümədir. Çərşənbəyə nə qədər qalıb? – deyə Xətcə barmaqlarını saymağa başladı. – Şənbə, bazar... Çərşənbəyə beş gün var. Göndəriləcəyimizi gərək Məmmədə söyləyəydim. Kaş ki, söyləmiş olaydım.
– Mən onun İncə Məmməd olduğunu bilsəydim, dərhal söylərdim.
– Əfvi-ümumi elan ediləcəkmi, xala? – deyə Xətcə soruşdu.
– Mustafa ağa ağıllı adamdır. Anqarada adamı var. Elan ediləcəkdir. O bilməzsə, heç kəs bilməz.
– Evimizin qabağındakı salxım söyüdün budaqları yerə toxunacaq.
– Yerə toxunacaq, – deyə İraz təsdiq etdi.
– Bomboz buzovlarımız olacaq...
Dustaqxanadan ayrılanda Məmməd sanki qanad açıb uçurdu. Başı hərlənirdi. Gözləri qaranlıq gətirirdi, elə bil indicə yıxılacaqdı. Bazar meydanına gəldi. Ortada ağ bir daş vardı; zorla özünü daşa çatdırıb oturdu. Az sonra

özünə gəldi. Bazar meydanında portağal qalaq-qalaq idi. Kələmlər ortaya yığılmışdı. Kiçik təpə kimi. Məmməd daşın üstündən qalxdı. Bazar meydanının ortasına tərəf getdi. Tofiqin qəhvəxanası orada idi. Meydanın ortasında bir dəstə adam gördü. Adamların əynində əba, çiyinlərində bel vardı. Boynunda ipək qaytan olan qısaboy bir adam onları söyürdü. Məmməd buna məəttəl qaldı. Öz-özünə fikirləşdi: «Burada da Abdi ağa var». Orada gözlədi. Qısaboy adam ara vermədən söyüb söylənirdi. Adamlardan heç səs çıxmırdı. Başlarını aşağı salıb, qımıldanmırdılar. Sonra söyüş söyən adam birdən yumşaldı. «Qardaşlar,– dedi, – siz mənim üçün canımdan da əzizsiniz». Məmməd buna daha çox məəttəl qaldı. Çiyinlərində bel olan adamlar başlarını qaldırmadan, yavaş-yavaş qımıldandılar, üzüaşağı, çaya tərəf yollandılar. Bir neçə adam: «Çəltik zəmisinə gedirlər» dedi. Məmməd buna lap məəttəl qaldı. Oradan bazarın ortasına gəldi. İlk dəfə qəsəbəyə gəldiyi zaman kabab yediyi dükanın qapısından qalın tüstü çıxırdı. İçəri girdi. Kabab iyi onu vurdu.

Məmməd xörəkpaylayana:

– Qardaş, tez ol, bir kabab ver! – dedi.

Xörəkpaylayan:

– Yellə! – deyə kababçını səslədi.

Dönüb arxasındakı adama baxanda, gözlərinə inanmadı. Qorxdu. Gözlərini qıydı. Arxasında oturan adam Topal Əli idi. Bu, xəyal deyildi. Topal Əli ona baxıb xain-xain gülümsədi. Məmməd heç bir şey söyləyə bilmədi. Bir an içərisində xəyalından yüzlərcə pis fikir keçdi. Topal Əli də dinmir, hey gülümsəyirdi. Sonra yerindən qalxdı, gəlib Məmmədin yanındakı boş stulda oturdu. Ağzını Məmmədin qulağına yaxınlaşdırdı:

– Heç narahat olma, qardaş, heç bir şey yoxdu. Danışarıq.

Kababları gəldi. Yedilər, dükandan çıxdılar. Sarı güyümlü şərbətçi bazarı bu başdan o başa dolaşırdı.

Məmməd:

– Şərbətçi, bizə bir şərbət ver, – dedi. Şərbətçi şərbət doldururkən, Məmməd əlini güyümə sürtdü. Şərbətçi buna güldü:

– Qızıldan qayrılmışdır, oğul, qızıldan, – dedi.

Topal Əli:

– Sənin, – dedi, – qəsəbəyə endiyini Cabbar mənə söylədi. Mindim ata, sürdüm. Dedim ki, birdən başına bir iş gələr... Səni dustaqxananın qapısında çox gözlədim. Xətcə necədir, yaxşıdırmı? Sən dəli olmusan, adam da atsız heç qəsəbəyə gələrmi? Başına bir iş gəlsə, qaçmaq məcburiyyətində qalsan, neylərsən? Səni dərhal yaxalarlar. Onun üçün atın yüyəni əlimdə dalınca gəzirdim. Bir tanıyan olar. Bir şey olar. Minərsən ata, sürərsən dağlara...

Məmmədin gözləri yaşla doldu:

– Sağ ol, Əli ağa, – dedi. – Sağ ol!

– Sən İncə Məmmədsən. Sən sağ ol, qardaş!

– Sənə bir şey deyimmi, Əli ağa?

– Söylə.

– Xətcə ilə qabaq-qabağa oturduq. İkimizin də nitqi tutuldu. Bir kəlmə də olsun danışa bilmədik. Onu orada görməyi vicdanım qəbul etmir. Mən bir daha oraya gedə bilmərəm. Getsəm, yenə də nitqim tutular. Sən get onun yanına. Bir soruş gör Xətcənin mənə nə sözü var.

Əli:

– Yaxşı, – dedi. – Sən məni bazar meydanındakı qəhvəxanada gözlə. Atı bazar meydanının o biri başındakı tut ağacının altında bağlamışam. Bir şey olarsa... Atılarsan üstünə.

– Atılaram.

Məmməd qəribə, anlaşılmaz bir ürpərti duyurdu. Kürəyində nə isə soyuq bir şey dolaşırdı. Rahat deyildi. Özünə sanki yer tapa bilmirdi. Qaçmaq, qarşısına çıxan hər şeyi sındırmaq, parçalamaq istəyirdi. Ürəyində kədərə, qorxuya bənzər bir duyğu, bir çırpıntı vardı.

Atın yanına qədər yüyürə-yüyürə gəldi. Görənlər sərsəm-sərsəm yeriyən bu kəndli uşağına təəccüblə baxırdılar. Atın burnuna saman çöpləri yapışmışdı. Məmməd yerdən yaşıl ot qoparıb atın burnunu sildi. At boz idi. Böyürlərində maviyə çalan iri ləkələr vardı. Sağrıya tərəf ləkələrin rəngi xına rənginə çalırdı. Məmməd atın başını tumarladı, qəhvəxanaya gəldi. Çay istədi. Çay gətirdilər. Xətcə gəlib gözünün qabağında durdu. Xətcə çox dəyişmiş, üzü sapsarı olmuşdu. Gözlərinin altı qaralmışdı. Üzdən bir qədər kökəlmişdi, amma üzgünlüyü, taqətsizliyi nəzərə çarpırdı. Məmmədin ürəyi parça-parça oldu. Gözlərindən masanın üstünə damla-damla yaş axmağa başladı.

Məmməd sanki tikan üstündə oturmuşdu. Çayını tez içib qurtardı. Həyəcanla Əlini gözləməyə başladı. Gözləri Əlinin gələcəyi yola dikildi. Küçənin o biri başında Əli göründü. Qaşqabaqlı idi.

Məmməd qəhvəxanadan çıxıb, onu qarşıladı. Atın bağlandığı yerə tərəf döndülər.

– Nə söylədi? – deyə Məmməd xəbər aldı.

– Soruşma.

– Pis bir xəbərmi dedi?

– Yaxşı da deyil.

Məmmədin ürəyi çırpınırdı:

– Söylə, söylə! Ürəyimə dammışdı. Dərd məni rahat qoymurdu. Söylə!

– Xətcəni bu çərşənbə Qozan dustaqxanasına aparacaqlar. Xətcə dedi ki, Məmməd haqqını halal eləsin. Xətcəyə guya ağır cəza verilməlidir. Buranın məhkəməsi qərarı belə vermişdir. İrazı da onunla bərabər aparacaqlar.

Bunu eşidəndə, Məmmədi sanki ildırım vurdu. Bir az keçəndən sonra özünə gəldi. Əlini unutmuşdu. Öz-özünə gülümsədi. Ağacları, otları, daşları, torpaqları, qəsəbəsi ilə birlikdə bütün Çuxurova Məmmədin nəzərində sarı parıltılara çevrildi. O, gülməkdə davam edirdi. Sonra birdən ata

sıçradı. Bir an içində dəyişib tamamilə başqa bir İncə Məmməd oldu.

– Düş qabağıma, Əli ağa, – dedi.

Əli atın qabağına düşdü. Qəsəbədən sürətlə çıxdılar. Minbuğanı keçdilər. Digirlinin yuxarı tərəfinə, indi Qaracalı Osmanın portağal bağı olan yerə gəldilər.

Əli atın başını tutub dayandırdı. Məmmədin gözlərinin içinə baxaraq dedi:

– Nə var? Nə oldu? Mənə də söylə!

Məmməd atdan endi. Gülümsəyərək Əlinin əlindən tutdu:

– Mən yolun üstündə gözləyəcəyəm. Xətcəni jandarmların əlindən alacağam.

– Sən dəli olmusan? – deyə Əli hirsləndi. – Çuxurovanın ortasında, gündüz-günortaçağı jandarmların əlindən qız almaq!.. Sən dəli olmusan?

## XXIV



Qapıdan böyük bir sevinc içində girdi. Cabbar Məmmədi tanıyandan bəri onu heç vaxt belə görməmişdi. Səfil Əli də görməmişdi. Məmmədi sevincindən qanadlanıb uçan görmək xoşlarına gəldi. Məmməd qazmanın içində dolanaraq oynaq mahnılar oxuyurdu:

*Budaqda armud beşmiş,*
*Dan yerinə səda düşmüş.*
*Anası yorğan verməyib,*
*Ağ məmələr üşümüş.*

Belə bir mahnını Məmmədin ağzından eşidəcəklərini bir az əvvəl birisi desəydi, əsla inanmazdılar.

Hər zaman çox asta danışan Məmməd indi ucadan:

– Səfil Əli, – dedi. – Sazı götür, oynaq havalardan çal.

Səfil Əli heç bir söz deməyərək, gedib divardan sazı götürdü, çox oynaq bir hava çalmağa başladı. Həm çalır, həm də oxuyurdu:

*Getdim baxdım dəmir qapı sürgülü.*
*Qara saçlar sırma ilə hörgülü...*

Məmməd də Səfil Əliyə qoşulub oxuyurdu.

Birdən Məmmədin gözü qapıda dayanan Topal Əliyə sataşdı. Gedib onun qoluna girdi. Sonra üzünü səfil Əliyə tutub:

– Bir halay havası çal, – dedi.

Səfil Əli başladı çalmağa, o birilər də başladılar oynamağa. Sonra Məmməd tövşüyə-tövşüyə kənara çəkildi, arxasını divara verib oturdu. Çox yorğun görünürdü. Barmaqları əsirdi.

– Cabbar! – dedi.

– Buyur, ağam.

– Əsl, hünər göstərmək günü bu gündür, qardaş.

– Nə var? Bir şeymi oldu?

– Hünər göstərmək günüdür. İgidlik göstərmək günüdür...

– Sən Allah, gəl adamı çaşdırma.

Məmməd ayağa qalxdı. Əynindəki uşaq paltarını çıxartdı, qazmanın bir küncünə atdı. Öz paltarını geydi.

Ayağındakı ayaqqabının üzü qalın Maraş dərisindən idi. Qırışıq, tünd-qırmızı idi. Altı da avtomobil rezinindən... Şalvarı qəhvəyi rəngində astarlıq parçadan tikilmişdi. Soyduqları bir tacirinki idi. Məmmədlə Cabbar Qalayçı ilə vuruşub qayıdarkən, bir neçə həftə Maraş yolunu kəsmişdilər, adam soymuşdular. Pulu, paltarları, silah və patronları o zaman ələ keçirmişdilər. Soyğunçuluqdan çox razı qalmışdılar. Maraş yolunda soyğunçuluq etməyə yenə də gedəcəkdilər.

Məmmədin kəmərləri, tüfənginin qayışları gümüşlə işlənmişdi. Çox da gözəl işlənmişdi. Başından fəsi atmış, əvəzinə mavi bir ipək yaylıq sarımışdı. Astarlıq parçadan tikilmiş şalvarının üstündə qara-qara xal vardı. Tapançasını qabı ilə birlikdə həmin yürük bəyi göndərmişdi. Son dərəcə gözəl işləməsi vardı.

Patrondaşları sinəsinə üst-üstdən, çalın-çarpaz bağlardı. Bu işləmələr də yürük bəyinin hədiyyəsi idi.

Cabbar maraqla soruşdu:

– Nə var, Məmməd? Bir söyləsənə?

– Əsl hünər göstərmək günü bu gündür.

Topal Əli qapının ağzında, belini divara dayayıb dayanmışdı, gülümsəyirdi.

Cabbar:

– Topal, sən söylə! – dedi.

Topal:

– Çərşənbə günü Xətcəni qəsəbədən Qozana aparacaqlar, – dedi. – Yolda onu jandarmların əlindən almaq istəyir. Ona görə də sevinir.

Cabbar ağzını açıb danışmadı. Qaşqabağını salladı. Səfil Əli də dinmədi. Əslində o, belə işlərə qarışmazdı.

Məmməd onların bu məsələdən razı qalmadıqlarını başa düşdü. Əhəmiyyət vermədi. Cabbar qaşqabağını tökürsə, qoy töksün. O, heç kəsdən yardım gözləmirdi. «Ya həlhələdən, ya vəlvələdən» demişdi.

Tanış olduqları ilk günlərdə Səfil Əli onlara Koroğlu haqqında bir hekayət söyləmişdi. Koroğlunun zühuru... Neçə gündür ki, o Koroğlu hekayəti Məmmədin fikrindən çıxmırdı.

«Belə rəvayət edirlər ki, vaxtilə Bolu şəhərində... – deyə Səfil Əli sözə başladı. – Koroğlu küçədə lap balaca, əl boyda bir küçük görür. Dörd-beş iri köpək bu balaca küçüyü dövrəyə alıb, parçalamaq istəyir. Küçük onların qabağından qaçmır, özünü qoruyur. Sonra da onlara üstün gəlir... Köpəklərin hərəsini bir tərəfə qovur, öz yolu ilə çıxıb gedir. Koroğlu küçüyün köpəklərlə boğuşmasına uzun zaman tamaşa eləyir.

Koroğlu bunu görəndən sonra öz-özünə fikirləşir: «Demək, balaca bir küçük!.. Cəsarəti olanda...» Elə bundan sonra Koroğlu, Koroğlu olur. Heç bir şeydən qorxmur. Atasının başına o iş gələndən sonra isə dağlara çəkilir».

Koroğlu Məmmədi çox maraqlandırırdı. Bu rəvayəti eşidəndən sonra bir daha and içmişdi ki, Abdi ağanı öldürsün.

– Üz-gözünü niyə turşutmusan, Cabbar qardaş? – deyə Məmməd soruşdu.

– Heç!

– Qorxma, sənə işim düşməyəcək.

– Heç!

– Nə heç?

– Heç də!

– Sözünü de!

– Sənə acıyıram.

– Ay Cabbar, – deyə Məmməd qəzəbləndi. – Sən həmişə mənə acıyırsan.

– İgid oğlansan. Sənə acıyıram.

– Niyə acıyırsan?

– Acıyıram da.

– Səbəbini söylə.

Cabbar bu dəfə bərk qəzəbləndi, bağırmağa başladı:

– Çuxurovanın ortasında, düzündə, gündüz-günortaçağı, o qədər kəndin arasında jandarmların əlindən adam qaçırmaq istəyirsən, eləmi? Çuxurova tələ deməkdir. Qaçaq tələsi. Kim düşmüşsə, qurtulmamışdır. Həm də sən Çuxurovanın yollarına bələd deyilsən. Yanında Rəcəb çavuş kimi birisi olsaydı, dərd yarı idi. Gözübağlı Çuxurovaya enmək olarmı?

Məmməd əvvəlcə büzüşdü, sonra dikəldi, bir qaya parçası kimi dayandı:

– İndi sən mənimlə getməyəcəksənmi? Bunu söylə.

– Mən öz ayağımla gedib tələyə girmərəm.

– Tələni-mələni bir kənara qoy, açıq danış. Gedəcəksən, yoxsa getməyəcəksən?

– Gedə bilmərəm.

– Çox yaxşı. Sən söylə, Səfil Əli, mənimlə gedəcəksənmi?

Səfil Əli:

– Mən Çuxurovaya bələd deyiləm, qardaş, – dedi. – Mən Çuxurovadan qorxuram. Mənim sənə bir faydam olmaz... Zərərim toxunar. İstəsən, gedərəm. Yoldaş deyilik?

Cabbar Səfil Əliyə öldürücü bir nəzər saldı.

Məmməd:

– Demək, belə! – deyib susdu.

O axşam birlikdə yemək yemədilər. Hər biri qaşqabağını töküb bir küncə çəkildi. İçlərində təkcə Topal Əlinin kefi kök idi.

Yatmaq vaxtı çatanda Cabbar dedi:

– Siz yatın. Mən növbə çəkərəm.

Cabbardan başqa hamı yatdı.

Gecəyarısı Cabbar Məmmədə yaxınlaşdı, onu dürtmələdi. Məmməd yatmamışdı; hirslə qalxıb oturdu. Sərt-sərt dedi:

– Nə istəyirsən məndən, Cabbar? Yoldaşlıq borcunu yerinə yetirdin! Daha nə istəyirsən məndən?

Cabbar:

– Qardaş! – dedi. Məmmədin əlini iki əli arasına aldı. – Qardaş!

– Yoldaşlıq borcunu yerinə yetirdin, – deyə Məmməd güldü.

– Vaz keç bu işdən. Xətcəni necə olursa olsun buraxacaqlar. Şahidlər öz ifadələrindən boyun qaçırmadılarmı? Hamı Xətcənin tərəfini saxlamırmı? Vəlini Məmməd vurdu demirlərmi? Xətcəni buraxacaqlar.

– Şahidlər ifadələrindən boyun qaçırdılar, amma bu kömək eləmir. Kömək eləsəydi, Xətcəni ağır cinayət məhkəməsinə göndərərdilərmi? Onu ağır cinayət məhkəməsinə, Qozana göndərirlər. Anladınmı? Mənim ucbatımdan dustaqxanalarda sürünür. Mən ya ölərəm, ya da onu qurtararam. Sənə gəl deməyəcəyəm. Gəlməsən, daha yaxşı olar. Bu işin yüzdə doxsanı ölüm deməkdir. Ağlı başında olan bir adam özünü ölümə atmaz.

– Sənin üçün hər şey elərəm, Məmməd, amma bu, açıqdan-açığa dəlilikdir. Göz görə-görə özünü oda atmaq deməkdir. Bizə yazığın gəlsin. Özünə yazığın gəlsin. Sənin üçün hər şey eləməyə hazıram... Gəl sözümə qulaq as. Məni sındırma. Nə olar ki, Məmməd, sən gəl məni sındırma. Sən bu cür boş yerə məhv olub getsən, ürəyimə dərd olar. Gəl, eləmə bunu, qardaş!

– Bu barədə danışma, Cabbar qardaş. Dilinə yazığın gəlmirmi? Danışma. Hökmən öləcəyimi bilsəm də, yenə gedəcəyəm. Mənim bu cür yaşamağımın na mənası var axı! Heç danışıb özünü yorma.

– Özün bilərsən. Özü yıxılan ağlamaz.

Cabbar Məmmədin əlini buraxıb bir küncə çəkildi. Şənbə, bazar, bazar ertəsi Məmmədlə Cabbar bir-birinin üzünə baxa bilmədilər. Bir-birindən qaçırdılar. Məmməd çox erkən qalxıb dağa çəkilir, qaranlıq qovuşduqdan sonra qazmaya qayıdırdı.

Tək günü səhər, hələ gün doğmamış Məmməd yatağından qalxdı. Topal Əlini oyatdı:

– Mən gedirəm, Əli ağa.

Əli yatağından sıçradı:

– Bu işi tək başına görmək olmaz, – dedi.– Bir də ki, sən Çuxurovaya bələd deyilsən. Mən də səninlə gedəcəyəm. – Sonra gülərək əlavə etdi: – Elə güman etmə ki, mən güllə atacağam. Sən güllə atacaqsan, mən də uzaqdan tamaşa edəcəyəm. Bir yerdə gizlənib, tamaşa edəcəyəm. Çiçəkli dərəsi kəndindən sənə yaxşı bir at tapacağam. Mən də minəcəyəm bir ata. Jandarmlar gələndə sənə xəbər verəcəyəm. Dağa yaxın bir yerdə, Sıtır qamışlığında jandarmlara tələ qurarsan... Sən gözlə, mən gedim Çiçəkli dərəsinə. Razısanmı?

Məmmədin sevincdən gözləri parıldadı. Topal Əlinin boynuna sarılıb öpdü:

– Sənin, – dedi, – bu yaxşılıqlarının xəcalətindən necə çıxacağam, Əli ağa?

– Nə yaxşılıq, ay qardaş, – deyə Əli kədərli-kədərli başını yırğaladı. – Sındırdığımı bitişdirməyə çalışıram.

Topal Əli cəld qazmadan çıxdı.

Bir iki saatdan sonra, gün doğarkən qazmanın qapısından bir tappıltı gəldi. Bir atın tez-tez tövşüdüyü eşidildi. Məmməd qazmadan çıxdı. Topal Əlini görüb gülərək:

– Yaşasın Əli ağa, – dedi.

Əli:

– Bu at toy atıdır, – dedi. – Bəzəmişəm.

Atın boynundan mavi muncuqlar, rəngbərəng lentlər asılmışdı. Yəhəri, yüyəni gümüşlə işlənmişdi.

– Doğrudan da, toy atıdır, – deyə Məmməd təsdiq etdi.

Topal Əli:

– Bir yapıncı da gətirmişəm, – dedi. – Bərk yağış yağır. Yapıncı səni həm yağışdan qoruyar, həm də ən başlıcası...

– Ən başlıcası? – deyə Məmməd soruşdu.

Əli sözünə davam edərək:

– Silahını heç kəs görməz, – dedi. – Bürünərsən yapıncıya, yalnız başın görünər. Tez ol, gedək, vaxt itirməyək.

Məmməd ata sıçradı. Topal Əli də öz atına mindi...

Cabbar qapının ağzında dayanmışdı, qımıldanmadan onlara baxırdı, Səfil Əli də həmçinin. Cabbarın üzü, ölü üzü kimi, sapsarı saralmışdı. Cabbar dayandığı yerdə bir Hetit heykəli kimi donub qalmışdı.

Məmməd atını qapıya tərəf sürdü. Cabbarın üzünə baxmadan, səsi titrəyə-titrəyə:

– Haqqını halal eylə, Cabbar qardaş, – dedi. – Sən də haqqını halal eylə, Səfil Əli.

Cabbar vəziyyətini heç dəyişmədi. Doğrudan da, bir Hetit heykəli kimi, qımıldanmadan dayanıb qaldı.

Səfil Əli:

– Halal olsun, qardaş, – dedi.

Atları üzüaşağı yeyin sürdülər.

Cabbar durduğu yerdə uzun zaman qımıldanmadan dayanıb qaldı.

## XXV

Narın yağış yağırdı. Arabir gün çıxır, sonra yenə yağış çiləyirdi. Qamışlar islanmışdı. Onların üstündən su süzülürdü. Damlalar yarpaqlarda qabarcıqlanır, günəşdə parıldayırdı.

O zamanlar Sıtırın aşağı tərəfində böyük bir qamışlıq vardı. Yol qamışlığın yuxarı tərəfindən, mərsinlə örtülü dağın ətəyindən keçirdi.

Qamışlığa Kiçik Çinar kəndinin üst tərəfindən endilər. Gün batarkən yağış da kəsdi.

Topal Əli:

–Yapıncını gətirməklə yaxşı iş görmüşəmmi?– deyə soruşdu.

– Yaxşı iş görmüsən.

– Yağış da kəsdi.

– Yenə başlaya bilər.

– Pusquda durmaq üçün Çuxurovada bu qamışlıqdan yaxşı yer yoxdur.

– Ay Əli ağa, sən bu qədər şeyi necə yadında saxlayırsan? Çuxurovanın hər daşına bələdsən.

– Cavanlığımda Çuxurovadan at oğurlayıb, dağlara aparardım. İndi başa düşdünmü Çuxurovaya nə üçün yaxşı bələdəm?

– Başa düşdüm. Onların bu yoldan keçəcəkləri yəqindirmi?

– Qozana iki yol gedir: bir yol Çuxur körpüdən keçir, ikinci yol buradan. Yaxşı oldu ki, yağış yağdı. Çuxur körpü yolu ilə gedə bilməzlər, palçığa batıb qalarlar. Buna görə də hökmən buradan gəlib keçərlər. Bura çox yaxşıdır. Pusquda durmaq üçün buradan yaxşı yer tapılmaz. İşini görərsən, sonra dərhal özünü verərsən dağa. Cabbar belə olduğunu bilsəydi, gələrdi.

Cabbarın adını eşidəndə Məmməd qaşqabağını tökdü.

Topal Əli:

– Vallah, – dedi, – gələrdi. O qorxdu. Gündüz-günortaçağı ovanın ortasında dövrəyə alınacağımızdan qorxdu.

Məmməd yenə susdu.

– Qorxdu, – deyə Topal Əli təkrar etdi. – Yaman qorxdu... O, çox hiyləgərdir. Nə qədər qaçaq ovaya enmiş, ovada dolanmışsa, hamısının öldürüldüyünü, birinin də geri dönmədiyini bilir.

Məmməd maraqla soruşdu:

– Biri də geri dönməmişmi?

Topal:

– Biri də, – deyə cavab verdi.

Azuqə bağlamasını açıb yemək yeməyə başladılar. Ağır-ağır çeynəyərək yeməklərini yedilər.

Topal dedi:

– İndi mən gedim qəsəbə yoluna; onların arxasınca gələrəm. Sən də dağa çəkilib yat. Dan yeri işıqlaşanda qamışlığa gir. Atı qamışlığın ortasında elə bir yerə bağla ki, görünməsin. Özün də yolun ağzına gəl! Mən gedirəm. Sabah günortadan sonra onlar buradadırlar.



Topal ata mindi, qəsəbəyə tərəf çapa-çapa getdi. Topal gözdən itər-itməz Məmməd ata mindi, dağa çəkildi. Bir daş karxanasına çatıb, atdan endi. Karxanaya su yığılmışdı, amma burada gizlənmək olardı. Mağara kimi idi. Yağış yağsaydı da, adamın üstünə tökülməzdi. Karxananın çuxuru su ilə dolu idi. Məmməd çuxura daş yığmağa başladı. Atı lap yuxarıda böyük bir palıd ağacına bağladı. Yapıncıya büründü, yığdığı daşların üstündə büzüşüb qaldı. O gah yuxuya gedir, gah da birdən ayılırdı. Dan yeri işıqlaşanadək, vaxtını belə keçirdi. Dan yeri işıqlaşan kimi atlanıb, qamışlığa gəldi. Atı lap qamışlığın ortasına sürdü, yoğun bir qamışa möhkəm bağladı.

Axşamdan bəri kefi kök idi. Amma bədəninin hər yeri sızıldayırdı. Kürəyini böyük bir qamış topasına dayayıb oturdu. Qamış topasında sarıca arılar pətək düzəltmişdilər. Hörümçəklər qamışların arasında öz torlarını çəkmişdilər. Qamışlar qıvrılmışdı, tozlanırdı. Qamışlardan tökülən toz zərrələri günün işığında parıldayırdı.

Gözləmək qədər çətin şey yoxdur. Gözlədi. Görəsən, nə zaman gələcəklər?.. Günorta oldu. Nəm bürkü çökdü ovaya. Axşamlaşırdı. Qarşıdakı dağların kölgələri gündoğana tərəf uzandı. Bu arada Məmməd bir qamışa dayadığı tüfəngini əlinə aldı, yol kənarına yaxın böyük bir qamışın yanındakı çuxura getdi. Arabir yolun ortasına çıxıb qəsəbəyə tərəf baxırdı. Kimsə görünmürdü. Dişi bağırsağını kəsirdi. Hər yeri, daşı-torpağı, qamışlığı, yolu gülləyə basmaq istəyirdi... Hirsindən boğulurdu. Hər dəqiqə ona bir il qədər uzun görünürdü.

Sonra xəncərini çıxartdı, çuxuru qazımağa başladı. Var gücü ilə qazıyır, torpağı ovucları ilə bayıra tökürdü. Təngnəfəs yola yüyürdü, heç kəs görünmürdü. Qolları yanlarına düşdü. Yerində quruyub qaldı. Nə gələn var, nə gedən. Ümidini kəsdi. Gedib çuxurdan tüfəngini götürdü, gəlib yolun ortasında dayandı. Gün batmaqda idi. Birdən yolun o biri başından tərpəşən bir qaraltı göründü. Qaraltı getdikcə yaxınlaşırdı. Məmmədin ürəyi tıp elədi. Buna baxmayaraq, qamışlığa girmədi. Qaraltı bir az da yaxınlaşanda, dörd jandarmın qabağında iki qadın olduğunu seçdi. Yavaş-yavaş qamışlığa çəkildi. Qarşı dağın arxasına enən günəşin yarısı görünürdü. Ən arxadakı uzunboylu jandarmın qıçını nişan alıb tətiyi çəkdi. Jandarm çığıraraq yerə sərələndi. Məmməd pulemyot kimi sağa-sola güllə yağdırırdı. Jandarmlar özlərini itirmişdilər.

Məmməd:

– Ey, qarşınızdakı İncə Məmməddir. – deyə çığırdı. – Buraxın o qadınları, çıxıb gedin!

Bir jandarm da çığıraraq yerə yıxıldı. Qalan iki jandarm isə özlərini yolun kənarındakı su dolu xəndəyə atdılar. Məmmədə tərəf güllə atmağa başladılar. Qaranlıq qovuşdu, yağış da təkrar xırda-xırda səpələməyə başladı. Qadınlar ortada qalmışdılar. İkisi də qorxudan tir-tir titrəyirdi. Sonra yolun ortasında, palçığın içində oturdular.

Məmməd:

– Ey, jandarmlar, çıxıb gedin işinizə. Mənə baş qoşmayın. Bir batalyon da olsanız, vecimə deyil.

Vurulan jandarmların bağırtısı, iniltisi göyə ucalırdı.

– Yoldaşlarınızı götürüb gedin, – deyə Məmməd yenidən çığırdı. – Götürüb gedin...

Jandarmlar bir müddət atəşi kəsdilər. Qadınların da azacıq ağılları başlarına gəldi.

İraz Xətcəni dümsüklədi:

– Onların görüm gözləri kor olsun, – dedi, – gəl yavaş-yavaş Məmmədin yanına gedək.

Xətcə:

– Qərib başıma bu da gələcəkmiş? – deyə inildədi. – Gedək.

Yol boyunca səssiz-səssiz süründülər..

– Məmməd! – deyə Xətcə sədədi.

Məmməd:

– Gəldinizmi?

Qaranlıqdan göz-gözü görmürdü. Məmməd çuxurdan yola atıldı, qaranlıqda kölgə kimi tərpənib yırğalanan qadınların yanına gəldi. Əllərindən tutdu, qamışlığa, atın yanına çəkdi. Jandarmlar hələ də hər tərəfə güllə atırdılar. At ayaq səslərini eşidən kimi bərkdən kişnədi. Məmməd atı açdı.

– Minin, – dedi. – Minin, arxamca sürün.

Onlar qamışlıqdan çıxanda jandarmlar atəşi kəsmişdilər. Yaralı yoldaşları ilə danışırdılar.

Dağın ətəyinə yaxınlaşanda, atının nallarının altından qığılcım qopan bir atlı daşları diyirlədə-diyirlədə, çox sürətlə qabaqlarından keçib getdi. Bir az sonra da geri qayıtdı. «Bu, yəqin ki, Topal Əlidir» deyə Məmməd fikirləşdi.

Astadan bir səs gəldi:

– İncə Məmməd! İncə Məmməd!

– Buradayıq, Əli, gəl! – deyə Məmməd onu çağırdı. Əli tövşüyə-tövşüyə gəlib onların yanında dayandı. Atdan endi:

– Məmməd qardaş, – dedi, – al atı min. Sonra Çiçəkli dərəsi kəndində qoyarsan. Buralarda ləngimə. Ağcadağa çəkil. Nə qədər jandarm varsa, Asim çavuş hamısını toplayıb, sabah sənin üstünə gələcək. Yaxanı ələ vermə. Mən səni axtarıb taparam. Çalış bu gecə özünü hökmən Çiçəkli

dərəsinə çatdır. Oradan da Ağcadağa... Dayanma. Atını bərk sür. Allah salamat aparsın.

Topal Əli geri qayıtdı, qaranlığa qarışdı.

Məmməd:

– Bu yaxşılığını unutmayacağam, Əli ağa, – dedi.

Topal Əlinin qoyub getdiyi ata sıçradı.

– Xətcə, gəl tərkimə, – dedi.

Xətcə o biri atdan endi, gəlib Məmmədin tərkinə mindi. Məmməd qaranlıqda atı üzü dağa tərəf yeyin sürdü. Bir neçə kərə yolu azdı. Sonra tapdı. Gün doğana yaxın Çiçəkli dərəsinə yetişdilər. Atları birbaş kəndin içinə sürdülər. Kəndin ortasındakı evlərdən birinin qabağında dayandılar.

– Bir eşiyə çıxın görüm! – deyə Məmməd səslədi.

On yeddi-on səkkiz yaşında bir oğlan qapını açdı. Onları görüncə gülümsədi, sevindi. Gəlib atların başını tutdu. Tövləyə çəkdi. Atlar köpük içində idi. Xətcə ilə İraz büzüşmüşdülər. Titrəyirdilər. Alaqaranlıqda üzləri pərişan, çaşqın görünürdü.

İçəri girdilər. Evin qadınları ocağı yandırmışdılar, ətrafına da bir neçə döşək salmışdılar. Gələnlər yorğun halda döşəklərin üstündə əyləşdilər.

Məmməd:

– Ay ev sahibləri, – dedi. – Mən iki gündür acam.

Ev sahibləri:

– Bu saat, bu saat, bizim İncə Məmməd, – dedilər.

## XXVI

Abdi qocalmışdı. Zəifləmişdi. Ordu orduna keçmişdi. Qəhvəxanada hər gün axşamadək qulağının dibində İncə Məmməddən danışırdılar. Bu söhbətlər onu qəzəbləndirirdi, amma əlindən bir şey gəlmirdi. Elin ağzı torba deyil ki, çəkib bağlayasan. Qəzəbindən bazarda qərar tuta bilmirdi. Maraşlı Mustafa əfəndinin dükanından Tofiqin qəhvəxanasına, Tofiqin qəhvəxanasından Horos Rəmzinin meyvə-

cat dükanına, oradan ərizəyazan Siyasətçi Əhmədin yanına ayaq döyürdü. Hər oturduğu yerdə də heç kəsə ağzını açıb danışmağa macal verməyərək, saatlarla yanşaqlayırdı.

– Bir baxın! Bir görün malınızı! Hələ deyirdiniz ki, uşaqdır. Məgər mən onu tanımıram? Mən yaxşı bilirəm ki, o nə yezid oğlu yeziddir. Bunu yadınızda yaxşı saxlayın, sonra söyləməyin ki, Abdi bizə demədi. O, dağlarda öz hökumətini quracaq. Mütləq quracaq. Mənim torpaqlarımı, atamdan qalan, əlimdə qəbalənaməsi olan torpaqlarımı toybüsat qurub, kəndlilərə paylayan adam hökumət deyil, bəs nədir? Hökumətlik elan edəcək. Anqaraya, bəlkə, min dənə tel vurmuşam. Nə cavab verən var, nə də hal soruşan... Çox qəribə işdir, qardaşlar, bu hökumətin işi. Bu qədər vətəndaşını Toros dağında bir qaçağın ixtiyarına buraxmışdır. Göndər bir polk əsgər, kəssin bunların kökünü... Haşa, min kərə haşa! Hökumətimizin dalınca danışmıram. Danışa da bilmərəm, əfəndim. Amma nə üçün bizi bir neçə qaçağa qul eləyir? Yazıq deyilikmi? Bu, günah deyilmi?

İkinci gün səhər yaralı jandarmlar qəsəbəyə gətirildi... Məsələ dildən-dilə dolaşırdı. Hamı Məmmədin tərəfini saxlayırdı.

Abdi ağa da bazarın ortasında o tərəfə-bu tərəfə vurnuxurdu. Qanıqara idi. Dinib-danışmırdı. Yalnız qarşısına çıxan hər adama deyirdi: «Mən sizə demədimmi?» Tanıdığı, tanımadığı hər kəsi görən kimi: «Demədimmi?» deyib keçirdi. Sonra Tofiqin qəhvəxanasına getdi, başını bir masanın üstünə qoydu, orada eləcə, hərəkətsiz qaldı.

Günorta yeməyini unutmuşdu. O, bu cür yuxulamaqda ikən bir muzdur onun yanına gəlib:

– Ağam səni istəyir, – dedi.

Abdi ağa başını ağır-ağır qaldırdı:

– Nə-ə? – deyə əzgin-əzgin soruşdu.

– Ağam deyir ki, bizə buyursun.

Yerindən qalxdı. Ağrıdan başı az qalırdı ki, çatlasın.

Əli Səfa bəy onu qapıda qarşıladı, qoluna girdi:

– Gəl ağam, gəl görək. Bizi lap unutdun getdi.

Abdi ağa başını qaldırdı. Gözləri qan çanağına dönmüşdü. Uzun zaman Əli Səfa bəyin gözlərinin içinə baxdı, sonra da dedi:

– Demədimmi?

Əli Səfa bəy gülümsədi:

– Hələ bir içəri gir! Danışarıq.

– Demədimmi?

Pilləkəni dayana-dayana, tövşüyə-tövşüyə çıxdılar. Abdi ağa ufuldayaraq, taqətsiz halda özünü taxtın üstünə saldı.

– Demədimmi?

Qəhvə gəldi. Abdi ağanın əlləri əsirdi, az qalırdı ki, fincan əlindən düşüb sınsın. Qəhvə sanki dodaqlarından tökülürdü...

Əli Səfa bəy gəlib onun yanında oturdu. Saqqalını sığallaya-sığallaya dedi:

– Amandır, Abdi ağa, belə görürəm ki, sən bu qəsəbəni yandırtdıracaqsan. O ərizələr nədir yazdırırsan? Bir də gördün ki, hökumət bir ordu göndərdi. Bu bizim qəsəbəmiz üçün ayıb deyilmi? Bizə yazığın gəlmirmi? İki nacins dağa çıxmışdır deyə qəsəbəmizin adı pisliyəmi çıxsın?

Abdi ağa dərindən ah çəkərək inlədi, başını yırğaladı:

– Oğlum Əli Səfa bəy, heç Abdi nə etdiyini bilirmi? Nə etdiyini bilirmi? O məni öldürəcək. O məni sağ qoymaz! Çaşıb qalmışam, nə edəcəyimi bilmirəm. Əl-ayağım süstləşmişdir. Ölümümdən qorxmuram. Mənə ağır gələn budur ki, bir əl boyda uşağa böyük bir hökumətin gücü çatmır. Mənə ağır gələn bu da deyil. Soruşma dərdimi, Əli Səfa bəy! Soruşma halımı. Mənə ağır gələn bunların heç biri deyil. Kəndə getmiş, öldürdüm Abdini, yandırdım. Abdi ağanı deyərək, torpaqlarımı kəndlilərə paylamışdır. Məni bax bu öldürür. Bu qorxudur. Ölümümə yanmıram, Əli Səfa bəy. Onsuz da bir ayağım gordadır. Bu gün-sabah ölüb gedəcəyəm. Qalıb dünyaya dirək olmayacağam. Sabah bir başqası ortaya çıxar, o da sənin torpaqlarını paylar.

O biri gün bir başqası... Daha sonra bir ayrısı... Sonra da başqası!.. Bax, mən bundan qorxuram.

Əli Səfa bəy əlini onun çiyninə vurdu:

– Yox, Abdi ağa, yox. Sən arxayın ol. Onlar cəzalarını çəkəcəklər. Arxayın ol.

Abdi ağanın gözləri parladı, saqqalı əsdi. Üzünə qan gəldi:

– Bu gün mənə toxunurlarsa, sabah sənə toxunacaqlar. Məni bax, bu qorxudur. Dağda qaçaq var, qoy istədiyi qədər olsun. Qaçaq nə olan şeydir axı... Amma bu! Bu qorxudur məni. Torpaq məsələsi... Kəndlilər bunu başa düşsələr, daha onların qabağında dayanmaq olmaz. Öldürüləcəyimdən deyil, bundan qorxuram. Özünüz bilərsiniz, Əli Səfa bəy. Mənə qalırsa, bu oğlan bir gün belə itirilmədən, günü bu gün ölməlidir. Bu oğlan eşşəyin yadına qarpız qabığı saldı. Gün ötürüb, fürsəti fövtə vermə. Amandır, oğlum. Qarpız məsələsini yadından çıxarma. Vayvaylılar da ona arxalanırlar.

Əli Səfa bəy onun dediklərinə əhəmiyyət vermir, gülürdü:

– Başa düşürəm, Abdi ağa, – dedi. – Başa düşürəm, amma sən qorxma. Bu gün olmasa da, sabah onun kəlləsini gətirib, sənin qapına atarlar. Qorxma! Bir bölük jandarmla Asim çavuş, əlli könüllü ilə də Qara İbrahim onu tutmağa göndərildi. Jandarmlar, bəlkə də, bir şey eləyə bilmədilər, amma Qara İbrahim köhnə qaçaqdır. Qaçaqlığın yolunu bilir, o, dağlara yaxşı bələddir. Onlara dedim ki, kəsin İncə Məmmədin başını, taxın bir şüvülə, gətirin Abdi ağanın evinin qabağında yerə sancın. Belə eləyəcəklər.

– O, bir gün də olsun yaşamamalıdır. Bir gün də. İnşallah, elə olar. Dediyin kimi olar.

– Daha bunun inşallahı yoxdur! Mütləq elə olacaq. Sən Qara İbrahimi tanıyırsanmı?

– Tanıyıram.

– Bax odur!

Abdi ağa bir az özünə gəldi. Ümid qapıları açılırdı:

– Qara İbrahim onun öhdəsindən gələr, – dedi. – Mən ona güvənirəm. Sən Vayvay işini...

Əli Səfa bəy onun sözünü ağzında qoydu:

– Qalayçı öləndən sonra işlər pisdir. Qorxmurlar. Belə gedərsə...

– Qoy hələ o oğlanın işi bitirilsin...

– Bitiriləcək...

## XXVII

Kəndlilər jandarmların əlindən qan ağlayırdılar. Məmmədi tutmaq üçün göndərilən jandarmlar əmr almışdılar: «İncə Məmmədin ya özünü, ya ölüsünü mütləq gətirməlisiniz. Yoxsa!..» Yoxsası da bu idi ki, belə bir əmr almış jandarmlar hansı dağ kəndinə girirdilərsə, orada camaata qan uddururdular. Çoluq-çocuq demir, hamını kötəkləyirdilər. Bütün dağ kəndlərindən ah-nalə gəlirdi. Heç kəs İncə Məmmədin yerini bilmirdi, heç kəs onu axtarmağa çıxmırdı. Yol göstərənlər də yanlış yol göstərirdilər. Məmmədin günahsız qızı dustaqdan qurtarması barəsində dağ kəndlərində, Dəyirmanoluqda yeni-yeni dastanlar yaranırdı. Hamı iş-gücünü buraxaraq, İncə Məmməddən danışırdı... Xətcənin jandarmların əlindən alınması barəsində bir gündə, bəlkə, on mahnı qoşulurdu.

Qamışlıqdakı hadisədən iki gün sonra Dəyirmanoluğa jandarmlar girdilər. Üz-gözlərindən zəhrimar tökülürdü. Bıçaq vursaydın, qanları çıxmazdı. Onlar birbaş Durmuş Əlinin evinə getdilər. Qocanı qapının qabağında yaxalayıb, sorğu-suala çəkdilər. Ondan bir söz ala bilmədilər. Soruşdular, dindirdilər, hədə-qorxu gəldilər, olmadı. Tüfəng dibciyi ilə döyməyə başladılar. Arvadı Hürü döyülən qocanın başına quş kimi hərlənir, ağzına gələni jandarmlara deyirdi. Bir jandarm tüfənginin dibciyi ilə onu vurub susdurdu.

İki qocanı həyətdə al-qan içində qoyub, başqa evlərə getdilər. Axşama qədər bir çoxlarını kötəkdən keçirtdilər. Gecə Abdi ağanın evində qonaq qaldılar. Səhər erkəndən qalxıb yenə adamları kötəkdən keçirməli idilər. Kötək vur-

maqdan usanmışdılar. Heç birində hal qalmamışdı. Hər şeyin çarəsi tapılır: kəndliləri bir-birlərinə döydürürdülər.

İncə Məmmədin üzündən dağ kəndlilərinin üstündən bir işgəncə, bir jandarm zülmü buludu keçir, üzüyuxarı dağlara doğru yüksəlirdi.

İncə Məmməd Əlidağına çəkilmişdi. Əlidağı qorxunc sarp qayalıq, uzun buynuzlu maralların yatağı idi. Qayaları bıçaq kimi sivri idi. Üstündə gəzmək olmazdı, kəsərdi. Dağ sanki xalis çaxmaqdaşından əmələ gəlmişdi. Dağın zirvəsinə yaxınlaşdıqca ağac seyrəkləşirdi. Dağın zirvəsi çılçılpaq qayalıq idi. İl uzunu buradan qar əskik olmazdı. «Ala qarlı Əlidağın təpəsi. Çox soyuqdur, yatılmazdır gecəsi».

Məmməd maral ovladığı zamanlardan Əlidağının hər daşına, hər qayasına, hər mağarasına bələd idi.

Dağın lap təpəsində bir mağara vardı. Amma mağaraya yol yoxdu. Beş yüz metrlik məsafəni sıldırım qaya ilə üzüyuxarı dırmanmaq lazım idi.

Çiçəkli dərəsi kəndindən çıxandan sonra çox çətin vəziyyətə düşdülər. Jandarmlar dörd bir yandan onların üstünə yeriyirdilər. Qara İbrahimin də onları təqib edənlər içərisində olduğu xəbərini Məmmədə çatdırdılar. Hamı – çoban da, cütçü də, meşəbəyi də – Məmmədə xəbər çatdırırdı. Hər gün nə olurdusa, Məmməd bilirdi. İraz ilə Xətcə çox yorulmuşdular. Ayaqları şişmişdi. Buna görə də Çiçəkli dərəsi yaxınlığındakı dağda qalmağa məcbur olmuşdular.



Qara İbrahim və jandarmlar Çiçəkli dərəsi kəndi yaxınlığındakı dağı axtara-axtara yuxarılara doğru gəlirdilər. Səfil Əlinin dayısının çobanı gəlib Məmmədə xəbər verdi: «Hər tərəfdən sizi dövrəyə alıblar, qaçın, yoxsa sizi öldürərlər». Qaçmağa imkan yox idi. Dan yeri işıqlananda çarpışma başlandı.

Dörd bir yandan onların üstünə gəlirdilər. Məmməd güllələrini çox qənaətlə atırdı. Ancaq irəliləməyə çalışanları nişan alıb atırdı. Asim çavuş hey çığırırdı: «Təslim ol!» Məmməd cavabında: «Olacağam» deyir, sonra da güllələsini atırdı.

Jandarmlar dağın yamacına qum kimi yapışmışdılar. Yerlərindən qımıldaya bilmirdilər. Birdən Məmmədin tüfəngi xarab oldu: lüləsində güllə qaldı. Soyutmaq üçün tüfəngi torpağa soxdular. Məmməd tapança ila atəşi davam etdirdi. Xətcə qorxusundan tir-tir titrəyirdi. Məmməd ona baxıb gülürdü. Məmməd qapqara qaralmış, qan-tərə batmışdı. Qoltuqlarının altında, qulunclarında tər paltarını islatmışdı. Kürəyində, tərin quruduğu yerlərdə ağ duz ləkələri əmələ gəlmişdi.

İraz Məmmədə kömək edirdi. Az zaman içində tüfəngi soyudub, içindəki gülləni çıxartdı. Məmməd tüfəngini təkrar əlinə alınca sevindi. Axşama yaxın jandarmlar nədənsə atəşi kəsdilər. Bu, Qara İbrahimin taktikası idi. Onlar özlərini belə göstərəcəkdilər ki, guya çarpışmaqdan əl çəkib geri çəkilirlər. Onların fikrincə, bu zaman Məmməd də mühasirədən çıxmaq üçün yerini tərk edib, qaçmağa başlayacaqdı. Onlar isə geri dönüb Məmmədin üstünə düşəcəkdilər. Məmməd bu hiyləni başa düşdü.

Onlar, doğrudan da, geri çəkilirdilər. Dağın döşü ilə aşağı süründükləri görünürdü. Onları qaçmağa vadar etmək lazım idi. Geri çəkilənləri qaçmağa vadar etmək üçün onların üzərinə hücum etmək kifayətdi. Məmməd çığıra-çığıra sıçrayıb yerindən qalxdı, onlara tərəf cumdu. Bunu görən Xətcə fəryad qopardı. Məmməd fikir vermədi. Geri çəkilənlər Məmmədin arxalarınca gəldiyini, güllə yağdırdığını görüb özlərini tamam itirdilər. Üzüaşağı qaçmağa başladılar. Gün batıncaya qədər Məmməd onların dalınca getdi. O, geri qayıdan zaman gecəyarı olmuşdu. Məmməd gələn kimi Xətcə ağlayaraq onun boynuna sarıldı. O hey ağlayır, ovunmaq bilmirdi.

İraz onu tutub cəld özünə tərəf çəkdi:

– Nə dərdin var, ay kor olmuş? Qiyamətmi qopdu? Nə var? Qaçaqlıq belə olar! Qaçaq arvadı hər şeyə qatlaşmalıdır. Kəs səsini! Səni görüm kor olasan. Olmaya oğlan səni xilas edib, öz başına bəla gətirdi?

Məmməd tövşüyürdü, dayana-dayana dedi:

– Sizə bir şey söyləyəcəyəm.

İraz:

– De!

Məmməd:

– Burada qalsaq, işimiz pis olar, – dedi. – Qaçmalı, izimizi itirməliyik. Canınızı dişinizə tutun. Əlidağına qədər getməliyik. Dörd bir yanımız jandarmla doludur. Çarə yoxdur. Bir həftəlik yeməyimiz var. İki günə Əlidağına çatarıq. Orada bir evimiz olar. Orada bir yer bilirəm. Heç kəs oranı bilmir. Maral ovlarkən, bir yaralı maralın dalınca gedib oraya çıxmışdım. Orada yaşayarıq. Ömrümüzün axırınadək yaşayarıq.

Xətcə:

– Ömrümüzün axırınadək deyil, əfvi-ümumiyədək,– dedi. – Deyirlər ki, gələn il əfvi-ümumi elan ediləcək. Hökumətimizin qurulduğu gün. Əfvi-ümumiyədək.

Məmməd:

– Əfvi-ümumi olacaq? – deyə soruşdu. – Yürəgir torpağı... Amma gərək əvvəlcə o işi görəm, onsuz olmaz ki...

Məmməd susdu. Gecənin sakitliyində heç bir səs-səmir eşidilmirdi.

– Əfvi-ümumiyədək o işi görərəm, – deyə Məmməd əlavə etdi.

Xətcə:

– Görərsən, – dedi. – O işi görmədən olmaz. Lap siçan deşiyinə girsə də...

– Olmaz,– deyə Məmməd təsdiq etdi. – Qalxın, yola düşək.

Yola düşdülər. Soyuqdan üşüyürdülər. Göyün üzü aydınlıq idi. Göy üzü, ulduzlar sanki buz tutmuş, cilalanmışdı. Ağacların budaqları islanmışdı. Onlar ağacların arasından keçdikcə islanırdılar. Budaqlar üzlərini cızırdı. Xətcə bir kərə «of» dedi, sonra özünü ələ aldı. Qaçaq arvadı hər şeyə qatlaşmalı idi. Onlar ağır-ağır, səs çıxarmadan, yerə qısıla-qısıla gedirdilər. Məmməd irəlidə, İraz ortada, Xətcə arxada... Çiçəkli dağını endilər. Gün doğurdu. Məmmədin üzünün

yarısına günün şövqü düşmüşdü. Xətcə ilə göz-gözə gəldilər. İraz onları olduqları yerdə qoyub, sürətlə üzüaşağı gedərək onlardan uzaqlaşdı. Qayaların dalında gözdən itdi.

## XVIII

Əlidağının zirvəsinə çıxmaq çətin oldu. Qayalar, sumbata daşı kimi, əllərini, ayaqlarını sürtüb aparırdı. Başları gicəlirdi. Aşağılar, Tikanlı düzü buludların arasından əl qədər kiçik görünürdü. Tikanlı düzündəki beş kəndin hər biri kiçicik nöqtəyə oxşayırdı.

Mağaraya getmək üçün keçməli olduqları uçurumun dibində idilər. Məmməd oraya on dəfə də gedib gələ bilərdi. Amma bu qadınlar necə gedəcəkdilər? Çətin iş idi.

Məmməd:

– Siz burada dincəlin, – dedi. – Mən şeylərimizi aparıb mağaraya qoyum. Sonra da gəlib sizi apararam.

Məmməd getdi. Qadınlar onun divar kimi düz qayada yeriməsinə heyran qaldılar.

Təqribən yarım saat sonra qayıdıb gəldi. Gözləri gülürdü:

– Evdən daha yaxşıdır. Daha etibarlıdır. Yanında da qartalların yuvaları var. Qartallarla qonşuyuq.

Məmməd Xətcənin əlindən tutub qaldırdı:

– Sən gəl. İraz xala məni burada gözləsin. Səni qartallara yem aparıram.

Xətcə təlaş içində:

– Bu divaramı çıxacağam? – deyə soruşdu.

– Sən divardan deyil, məndən tutarsan. Gəl!

Qayaya dırmanmağa başladılar. Xətcənin gözləri qaranlıq gətirdi, bir-iki kərə çığırdı. Məmməd ona acıqlandı. Nəhayət, dağın başına çatdılar. İraz da Məmmədi gözləməyərək, ayağa qalxdı, qayaya dırmanmağa başladı. Bir qədər dırmandıqdan sonra canına qorxu düşdü. Əlləri o qədər yorulmuşdu ki, elə bil indicə qopub yıxılacaqdı. Buna baxmayaraq, Məmməd geri qayıdanda, onu qayanın başında gördü.

– Sən əzəldən qaçaqmışsan, İraz xala!

– Hə, əzəldən.

Mağaranın ağzı o qədər böyük deyildi. Üç adam girəcək böyüklükdə idi. Mağara dərindi. Uzundu. Dibi un kimi yumşaq, kömür kimi qara torpaq idi. Torpağın üstü quş zili ilə dolu idi. Divarlar damar-damar ağ cizgilərlə örtülü idi.

Məmməd:

– Buraya insan ayağı dəyməmişdir, – dedi.

İraz:

– Daha yaxşı.

Xətcə:

– Bura bizim kəndimizdir.

İraz:

– Bizim evimizdir.

Xətcənin sevincdən gözləri par-par parlayırdı:

– Gəlin evimizi təmizləyək.

İraz:

– Təmizləyək, – dedi.

Məmməd:

– Mən kəndə gedirəm, – dedi. – Alın bu tapançanı! Evinizə nə lazımdır?

Xətcə:

– Bir güzgü, – dedi.

İraz güldü:

– Eh gənclik, eh!

– İki yastıq, iki yorğan. Bir stəkan, bir qazan, bir sac, un, sonra da cansağlığı. Qalanını özün fikirləş.

Məmməd:

– Sağlıqla qalın, – deyib yollandı.

Gecəyarısı Durmuş Əlinin evinə gəldi. Qapını ev sahibinin arvadı açdı. Məmməd olduğunu görüncə:

– Sus-s-s! – dedi. – Sus-s-s.

Məmməd üsulluca içəri girdi.

– Nə var, Hürü ana? Nə olub?

Hürü:

– Sus-s-s!

Məmməd bir daha ağzını açmadı. Hürü çırağı yandırdı, pəncərələri kip bağladı, bayıra çıxdı. Evin dövrəsinə dolandı. Heç kəs yox idi.

Hürü evə qayıdıb:

– Oğul, sən buraya necə gəldin? – deyə soruşdu. – Kəndin içi jandarmla doludur. Durmuş Əli əmini döyə-döyə əldən saldılar. Saqqalından tutub sürüdülər yazığı. Bütün kəndliləri dəyənəkdən keçirtdilər. Bunların hamısını o keçisaqqal eləyir. Onu öldürmədin ki, canımız qurtulaydı. Durmuş Əli əmindən sənin yerini xəbər aldılar. «Bilmirəm» deyincə yazığı o qədər döydülər, o qədər döydülər ki, hələ də yorğan-döşəkdədir. O gündən bəri yatağından qalxa bilmir. Məni də döydülər. Bütün bədənim qara-qaradır. Öldürsənə o imansızı.

Məmməd:

– Topal Əlidən nə xəbər var? – deyə soruşdu.

Qadın hirsləndi. Səsini ucaltdı:

– Bütün təqsirlər səndədir. Ah! Sənə nə deyim! Əlinə keçəndə, sənə demədimmi onu öldür? Öldür onu. İndi ağanın adamı olmuşdur. Sizin evi də Abdi ağa ona vermişdir. Onda gərək mənim sözümə qulaq asıb onu gəbərdəydin. Ah! Sənə nə deyim! İndi jandarmların qabağına düşüb onları gəzdirir. Sənin izini axtarır. Abdi ağanın alacaqlarını toplayır. Kəndliləri jandarmlara o ki var döydürür. Çox günahın var, Məmməd, çox.

– İndi o Topal harada qalır?

Qadın bərkdən dedi:

– Harada qalacaq? Sizin evdə. Dünən köç-külfətini gətirdi. Mənim gözəl Dönəmin evinə qotur Topalın pinti arvadı köçdü. Mən də oturdum, tamaşa elədim. Ürəyimdən qara qanlar axdı. Öldüm. Quruyub qaldım.

Məmməd:

– Mən oraya gedirəm, – deyib yerindən qalxdı.

– Ora jandarmla doludur. Xəlvətcə get, öldür imansızı, qaç.
Məmməd küçəyə çıxdı. Öz evlərinə tərəf getdi.
Burnuna kəskin süd iyi, buzov qoxusu, yaz otlarının ətri gəldi.
Məmməd qapıya çatıb:
– Əli ağa! Əli ağa! – deyə səslədi.
Əli səsi eşidən kimi, sıçrayıb yatağından qalxdı. Ürəyində: «Bu adam mütləq dəli olmuş, – dedi.– Mütləq dəli olmuş». Təlaşla küçəyə çıxdı. Əli ilə ağzını tutaraq, Məmmədi başa saldı ki, səsini çıxarmasın. Sonra ucadan dedi:
– Yaxşı ki, gəldin. Sağ ol, yaxşı etdin, qardaş. İncə Məmmədmi? Ağcadağamı getmiş? Yaxşı ki, gəldin. Biz isə Ağqalaya gedib özümüzü əldən salacaqdıq. Var ol!
Sonra da ağzını Məmmədin qulağına yaxınlaşdırıb dedi:
– Sən get Durmuş Əli əminin evinə. Mən indi gəlirəm.
İçəri girib jandarmlara:
– Yoldaşlar, – dedi, – hərif baş götürüb Ağcadağa qaçmışdır. Orada onu kəklik kimi ovlarsınız. İndi bir adamım gəldi. İşlər asanlaşdı. İncə Məmmədin, o məlunun yerini öyrəndik. Onu Ağcadağda yaxşıca dövrəyə alarsınız. Onun işi bitdi. İndi mən gedib bu xoş xəbəri Abdi ağanın arvadına çatdıracağam.
Evdən çıxdı. Gecə qaranlıqdı. Məmmədin cəsarətinə heyran qaldı.
Topal içəri girəndə, Hürü özünü itirdi. Məmmədə tərstərs baxdı. Bu baxışı ilə sanki demək istəyirdi: «Sən də fərsizin biriymişsən!»
Məmməd:
– Hürü ana, danışılası sözümüz var, – dedi.
Hürü:
– Danışın, – dedi. – Onsuz da o Topal donuzun murdar üzünə həsrət deyiləm. Danışın.
Topal güldü:
– Bu Hürü arvad da nədənsə mənə düşməndir. Axı mən ona nə eləmişəm?

Hürü başını buladı. Dişlərini qıcırdatdı:

– Sənin nə etdiyini mən bilirəm. Mən bilirəm, Topal donuz! İndi də jandarmlarla əlbir olmusan. Eləmi? Bu Məmmədim olmasaydı burada... heç qoyardım sən bu evə ayaq basasan? Sənin kəlləni parça-parça elərdim... Bir daş götürüb, parça-parça...

Hürü çıxıb getdi.

Topal:

– Ay Məmməd, – dedi, – necə gəldin bu qiyamətdə, hə?

Məmməd:

– Gəldik də, – deyə cavab verdi.

– Qaçaq Qara İbrahimi sənin dalınca göndərmişlər. Abdi göndərdi onu da. Abdi ilə Əli Səfa bəy... Deyirlər ki, onun öhdəsindon Qara İbrahim gələr. Çox güvənirlər Qara İbrahimə. Çox da pul vermişlər. Amma Qara İbrahim əvvəlki Qara İbrahim deyil, qocalmışdır, xərifləmişdir. Öz adamları ilə bir yolun ağzını kəsdirmişdir; fikirləşir ki, İncə Məmməd oradan keçəcək, onlar da vuracaqlar. Muğayat ol ha, o yoldan keçmə. Qara İbrahim vurar səni. Sonra qardaşıma deyim, mən Abdi ağanın ən istəkli adamıyam. Varsa da Topal Əlidir, yoxsa da Topal Əlidir. Bütün sözü-söhbəti mənimlədir. Ölmədi məlun. Kaş ki, ev yanarkən, o qadını qoymayaydınız içəri...

Məmməd:

– Biz nə biləydik! Təlaş içindəydik. Kaş ki... – deyə təəssüfləndi.

– Sənin kəlləni bir şüvülə keçirib Abdi ağanın qəsəbədəki evinin qabağında yerə sancacaqlarmış. Əli Səfa bəy ona belə söz vermişdir. Abdinin evi jandarm idarəsinin yanındadır...

– Fikir vermə. İndi mənə iki yastıq, iki yorğan, bir güzgü, bir stəkan, bir küpə un lazımdır. Bunları bir ata yüklə, ver əlimə. Bir də duz, bibər, yağ...

Əli:

– Bu, asan işdir, – dedi. – Ağamın canı sağ olsun. Evi mənim ixtiyarımdadır. Nə istəsən tapılar.

## XXIX

Asim çavuşun ixtiyarındakı bir bölük jandarm, Qara İbrahim və onun əlaltıları bir payız, bir qış dağlarda qaldılar. Dağ kəndləri əllərindən qan ağladı. Hər kəndli bir yer xəbər verirdi. Ağcadağ, göksün dağları, Beritdağ, Minboğalar, Aladağ, Qayranlıdağ, Qonurdağ, Məryəmcil dərəsi. Onlar bütün bu yerləri axtarırdılar. Nə əyinlərində paltar, nə ayaqlarında ayaqqabı qaldı. Siçan deşiyinə də baxdılar. İncə Məmməd tapılmadı ki, tapılmadı. Qeyb olmuşdu. Qışın yarısını Dəyirmanoluqda keçirdilər. Əlidağında axtarmamış dəlik qoymadılar. Əlidağında maral ovuna getdilər. Mağaranın lap yanınadək gedib çıxdılar, tapılmadı.

Topal Əli jandarmların qabağına düşür, «onu mütləq tapacağıq» deyə başdan sovururdu. Onları dalınca salıb Minboğalara aparırdı. Guya iz axtarırdı. «Harada qaldı sənin məşhur iz tanımağın, Əli?» – deyə soruşurdular. Əli içini çəkərək: «Qocaldım, daha gözüm seçmir, – deyə cavab verirdi. – Daha qocaldıq, getdik».

Topal Əli qocalmamış, cavanlaşmışdı. Külək kimi yüngül idi. Qəlbində bir ümid atəşi yanırdı. Bütün payız və qış aylarını dağlarda, İncə Məmmədi axtararaq, ora sənin, bura mənim deyə dolaşandan sonra yorğun, üzgün halda qəsəbəyə qayıtdılar. Bu müddətdə onlar dağlarda iki böyük qaçaq dəstəsini aradan qaldırmışdılar, amma İncə Məmmədi tapa bilməmişdilər. Qəsəbə yas içində idi. Qara İbrahim on yaş qocalmışdı. «Mən beləsini görməmişəm, – deyirdi. – Bu adamda bir sirr var, bir hikmət var. Qeyb olub getdi. Mən hələ belə bir adama rast gəlməmişəm. Amma onu tapacağam. Onunla qarşı-qarşıya gələcəyəm. Başqa bir çarəm yoxdur. Onunla haqq-hesabım var. Haqq-hesabımı çəkəcəyəm. Çiçəkli dərəsində tutuşduğumuz zaman başını nişan alıb yüz güllə atdım. Bir şey olmadı ona, görünür, ona güllə kar eləmir. Yoxsa onu bir gülləyə aşırardım. Nə isə!»

Bir an içində bütün qəsəbəyə xəbər yayıldı ki, İncə Məmmədə güllə kar eləmir. Bu şayiə dillərə düşdü. Abdi ağanın da qulağına çatdı. Onsuz da Abdi ağa əriyib gedirdi. Bir dəri, bir sümük olmuşdu. İncə Məmmədin ölüm xəbərini gözləyə-gözləyə qalmışdı. Tez-tez Əli Səfa bəyin yanına gedib soruşurdu: «Bəs nə oldu, oğlum Əli? Gözləməkdən gözlərimin kökü saraldı. Bəs nə oldu?» Əli Səfa bəy isə deyirdi: «Səbir elə, əmi, səbir elə. Səbirlə qora halva olurmuş. Səbir elə. Mən sənə söz vermişəm. Onun kəlləsini gətirdib, sənin evinin həyətində, şüvül ucunda yerə sancdıracağam. Səbir elə».

Məmmədə güllənin kar eləmədiyi xəbərini eşidincə Abdi ağa lap başını itirdi. Təngnəfəs özünü Siyasətçinin dükanına saldı. Məsələni danışdı. Dərhal Anqaraya bir tel yazmasını xahiş etdi. Siyasətçinin səfeh sifəti daha da səfeh şəklə düşdü, dili ağzında böyüdü. Nitqi kəsildi.

Abdi ağa:

– Yaz, – dedi. – Yaz hökumətə ki, dağlarda qan içən bir quldur törəmişdir... Uşaqları öldürür. Cavan qızları dağa aparır, namuslarına toxunur. Dağlarda hökumət qurmuşdur. Getdikcə nüfuzu artır. Torpaq paylayır. Torpaq paylamağı kəndlilərin beyninə yeridir. Bax, bunu yaxşı yaz. Başlarına yaxşı yerit! Bu sözlərin altından da bir cizgi çək. Qaçırdığı qızların namusuna toxunandan sonra onları parça-parça eləyir, hər parçasını da bir ağacdan asır. Onun dəstələri Maraş-Adana yolunu kəsmişlər, heç kəsi yoldan keçməyə qoymurlar. Yaz! Siyasətçi əfəndi, yaz, qardaşım. Nə qədər hünərin varsa, hamısını göstər. Elə yaz ki, Anqarada oxuyanın ağzı açıla qalsın. Ordu göndərsin. Mən marka almağa gedirəm, – deyib çıxdı.

Qəsəbə bir-birinə dəymişdi. «Bir İncə Məmmədə bax! Barmaq boyda bir uşaq olasan, bu işləri görəsən, özün də ələ keçməyəsən!»

Abdi ağanın hər qarşısına çıxana yanıqlı-yanıqlı şikayət etməsi, Əli Səfa bəyin törətdiyi fəsadlar buna əlavə olu-

nunca məsələ böyüyürdü. Ağlayan uşaqları «İncə Məmməd gəlir!» deyə ovundurub sakit edirdilər.

Bu səbəbdən jandarm bölüyü qəsəbəyə qayıdandan bir həftə sonra öz şəxsi heyətini artıraraq, yenə də Asim çavuşun komandası altında İncə Məmmədi axtarmağa getmək məcburiyyətində qaldı. Qara İbrahim də öz əlaltılarını toplayıb, İncə Məmmədi ələ keçirəcəyini Abdi ağaya dönə-dönə vəd edərək, dağa qalxdı.

## XXX

Sarı küskün otunun gövdəsi çox qısadır. Çiçəkləri sanki yerə yapışmışdır. Qayaların aralarına elə bil günəş rəngində, sapsarı xalı sərilmişdir. Bənövşəyi sünbülçiçəyi dizə qədər qalxmışdır. Bənövşələr islaq, göz-gözdür. Parıldar. Qırmızı çiçəklər açar. Bu qırmızı heç bir qırmızıya oxşamaz. Büllur qırmızısı... Baxdıqca ləzzət verir...

Yerdən sanki yaşıl bir tüstü qalxır. Əlidağından aşağılara baxanda adama elə gəlir ki, yaşıl yağış kimi yağır. Bulanıq bir yağış kimi. Elə bil qayalara əlvan rənglərlə naxış vurulmuşdur. Hava xəfifdir. Havadan cürbəcür çiçək qoxusu gəlir.

Ətəklərə doğru Əlidağının qayalıqları qırmızılaşır, bənövşəyi rəngə çalır. Ağ buludlar dağa toxunub keçir. Əlidağı nənni kimi olur.

Yamacda, Minboğa dağlarına baxan tərəfdə, seyrək şam ağaclarının arasında bir bulaq var. Məmməd suyu oradan gətirir.

Günəşli bir gündür. Tikanlı düzü işığa qərq olmuşdur. Hər şey: ağaclar, süpürüm kolları, daşlar, qayalar, bəzi çiçəklər işıqda ərimişdir...

Xətcə mağaranın ağzında oturub, başını İrazın dizlərinin üstünə qoymuşdur. Xətcənin başını bit basmışdır. İraz onun bitlərini öldürür.

Bütün qışı mağarada keçirdilər. Mağaranı ev kimi bəzəmişdilər. Evləri varlı bir kəndlinin evindən daha yara-

şıqlı idi. Mağaranın yerliyinə yovşan qırıb tökmüş, üstündən naxışlı yürük kilimləri döşəmişdilər. Kilimlər bahar çöllərini xatırladırdı. Bunları Saçıqaralı tayfasının ağası Kərimoğlu cehiz olaraq vermişdi. Mağaranın divarlarından iribuynuzlu maral dəriləri asılmışdı. Buynuzlar cilalanmış kimi idi. Divarlarda parıldayırdı. Maralların tükləri qızıl kimi işıldayırdı.

Qış sərt keçmişdi. Əlidağının təpəsində boran qarı sovurduğu, göz açmağa qoymadığı günlər mağarada səhərə qədər ocaq qaladıqlarına baxmayaraq, şaxtadan donacaqlarından qorxurdular. Məmməd ay yarım əlləşərək, üstdən qayanı dəlib, baca açmışdı, amma kömək eləmirdi. Tüstü içərini doldururdu; onlar qarda, boranda, çovğunda mağaranın qapısını açıb bayıra çıxmalı, nəfəs almalı olurdular. Az sonra üşüyür, donurdular, əl-ayaqları keyiyirdi, yenə də özlərini mağaranın içinə, tüstüyə atırdılar.

Nə qədər maral dərisi, yorğan, kilim varsa, hamısını üstlərinə örtürdülər, bir-birinə qısılaraq yatırdılar. Gün doğanda Məmməd maral ovuna gedir, qadınlar çörək bişirir, corab toxuyurdular. Divardakı dərilər Məmmədin vurduğu maralların dərisi idi. Maralların ətini yeyir, dərisini qurudurdular. Bütün qışı, bir gün də olsun ətsiz qalmamışdılar. Unlarını, yağlarını, duzlarını Topal Əli gətirib dağın ətəyində bir mağarada qoyurdu; Məmməd oradan yuxarı daşıyırdı. Yerlərini Topal Əli də bilmirdi. Qarda iz qalmasın deyə, hər dəfə mağaradan çıxanda arxalarınca böyük bir kol sürükləyirdilər. Qarda izi itirmək üçün kol sürükləmək ən yaxşı vasitədir. İz nə qədər qalın olursa olsun, üstündən kol sürükləyəndə, izi itirir. Öz izi də yarım saatın içində itib gedir. Əlidağı nə qədər axtarıldısa da, bu səbəbdən onların burnu da qanamadı. Jandarmlar necə şübhələnə bilərdilər? Hər tərəf dümdüz, ayaq toxunulmamış qar...

Xətcə başını İrazın dizinin üstünə qoyduğu halda:

– Ay xala, bəs necə oldu? – deyə soruşdu. – Əfvi-ümumi elan olunacaqdı. Mustafa ağa yalançı çıxdı.

– Elan ediləcək, – deyə İraz cavab verdi. – Səbir elə, qızım, səbir elə. Hər təpədən bir gün doğar.

Xətcə ilə İraz zəifləmiş, qapqara qaralmışdılar. Dəriləri sümüklərinə yapışmışdı. Gözləri çox böyümüşdü; sağlam, işıltılı idi.

Xətcə:

– Gözəl xalam, – dedi, – bir təpədən bir gün də doğsa, kifayətdir. Təkcə bir gün doğsun... Başqa heç bir şey istəmirəm.

– Səbir elə.

– Bu dağ başı, bütün başımıza gələnlər mənə yuxu kimi gəlir... Elə bil yuxuda gəzib dolanıram. Heç cür inana bilmirəm ki, mən mənəm, Məmməd də Məmməd...

Boş qaldıqları günlərdə Məmməd bütün günü onlara nişan atmağı öyrədirdi. İrazın əli alışmış, yaxşı atıcı olmuşdu. Xətcə isə heç cür bacarmırdı. Tüfəngə, gülləyə nifrət edirdi. Tüfəngə baxan kimi öyüməyi gəlirdi.

Xətcə:

– Bundan bir qurtulsaydıq... – dedi.

İraz:

– İndi Çuxurovada yaşıl əkinlər dizə qədər qalxmışdır. Tezliklə taxıl sünbül bağlayacaq. Qarışqalar yuvalarından çıxıb, günəşin altında ora-bura qaçışırlar. Bu mövsümdə Çuxurova torpağı başdan-başa günəşə qərq olur. – İrazın gözləri yaşardı. Sonra sözünə davam edərək dedi. – Adacanın torpağı... Əfvi-ümumi elan edilməmişdən Məmməd öldürsün Əlini. Onu mən lap öz əlimlə öldürərdim... Sonra gedib Çuxurovada yaşardıq. Adacadakı torpağımızı əkib-biçərdik. Rzamın atası o torpaqla bizi firavan dolandırırdı.

Xətcə:

– Adacadakı torpaq... – deyib gözlərini yumdu. – Adacada qayaların arasında çoxlu nərgiz bitir, eləmi?

– Elədir, – deyə İraz təsdiq etdi.

– Adacadakı torpaq birə qırx məhsul verir... Bir ildə adam ev tikdirə bilər. Ovaya enərsək, ev tikdirmək üçün pulumuz da var.

– Qəbalənaməsini də Məmmədimizin adına yazdırarıq. Adacadakı torpaq Məmmədimizin olar. Əfvi-ümumi elan olunacaq. Olunmasa da, biz başımızı götürüb, bizi tanımadıqları yerə gedərik. Məmmədi dilə tutub, bu Abdidən əl çəkməyə razı sala bilsəydik, lap indi çıxıb gedərdik. Adımızı dəyişdirərdik. Sonra bir gün Məmməd gələr, Əlini öldürüb qaçar. Yox, yox, Əlini mən öz əlimlə öldürməliyəm. Güllə atmağı da bunun üçün öyrəndim.

Xətcə:

– Bu işlər, – dedi, – nə qədər qarışıqdır!

– Hə, çox qarışıqdır, – deyə İraz təsdiq etdi. – Bəzən rahat oluram. Rzamın yerinə Məmməd kimi bir oğul tapdım, deyirəm, əl çəkirəm hər şeydən. Bəzən də, qızım, dəli-divanə oluram. Rzamın süd əmdiyi məmələrim sızıldayır. Könül deyir ki, qap tüfəngini, en kəndə, öldür Əlini, sonra qoy sənə nə eləyirlər eləsinlər. Hələ bir səbir elə, qızım! O Əlini qiymə kimi... Kor olasan, Əli! Fidan kimi balama necə qıydın?

– Hər təpədən bir gün doğar, səbir elə, xala, səbir elə... İndi mən qorxuram. Gün doğar, amma...

– Yenə də başladın?– deyə İraz hirsləndi. – Yenə də? Sən bu oğlanı diri-diri yeyəcəksən. Sağ-sağ öldürəcəksən.

Xətcə boynunu bükdü:

– Düz bir həftədir ki, getmişdir. O, heç bir yerdə üç gündən çox qalmazdı. Düz bir həftədir... Ah, bu qaçaqlıq... Ah, bu dağlar... Bu qorxu... Qorxuram, xalacan. Qorxuram. Ürəyim sıxılır. İndiyədək üç gündən çox qalmışdırmı bayırda? Başına bir iş gəlmişdir Məmmədin. Qoy mən bir kəndə gedim. Yollara düşüm. Yollara baxım. Məmmədin başına bir iş gəlməsəydi, çoxdan qayıdardı.

Xətcə hönkür-hönkür ağlamağa başladı:

– Qoy mən gedim, xala can.

İraz qaşlarını çatdı:

– Otur yerində, – deyə çığırdı. – Burdan bir addım atsan, səni vurub öldürərəm. Qımıldanma. Başına bəla olma oğlanın. Sənin üzündən vurulacaq oğlan. Otur yerində. Ona heç bir şey olmaz.

Xətcə qalxdı, qaça-qaça gedib mağaraya girdi, üzüqoylu yerə yıxıldı. Çiyinləri enib-qalxırdı. Uzun zaman belə ağladı. Arabir azca sakit olur, sonra yenə də çiyinləri enib-qalxırdı.

İraz gedib onun baş tərəfində oturdu:

– Qızım, gözəl qızım, Xətcə qızım, niyə özünü bu cür üzürsən? Özünü əldən salırsan? Bir özünə yazığın gəlsin. Məmmədə heç bir şey olmaz. Məmməd yüz adamın öhdəsindən gələr. Axı sən niyə belə edirsən?

Xətcə göz yaşlarını qurulayaraq dedi:

–Ah, xala, kaş ki, sən dediyin kimi olsun...

Aşağıdan, Tikanlı düzündən duman qalxırdı. Göy üzündə bir parça qara bulud gəzirdi. Birdən Məmməd özünü mağaranın içinə atdı. Onun əl-üzü qan içində idi, bərk tərləmişdi. Ağır-ağır nəfəs alırdı. Bunu görən Xətcə Məmmədin boynuna sarıldı, yenidən ağlamağa başladı. Ara vermədən ağlayırdı.

Məmməd:

– Bir sakit ol, Xətcə, – dedi. – Bir sakit ol, gör sənə nələr danışacağam. Bir az sakit ol...

Məmməd onun saçlarını sığallayırdı.

İraz hirsləndi. Xətcənin qolundan tutub dartdı:

– Ömrümüzdə sənin kimisini heç görmədik, – deyə çığırdı. – Sən bu gedişlə oğlanın başını yeyəcəksən...

Məmməd:

– Bir sakit olun, – deyə gülümsədi. – Bir qulaq asın, görün başıma nə iş gəldi. Kərimoğlunun yanından qayıdarkən, Sarıca düzündə Qara İbrahim məni tələyə saldı. Yaman adamdır bu Qara İbrahim. Həm cəsurdur, həm də bacarıqlı... Məni dağın ətəyinə qədər qovdular. Bəlkə, buranı da taparlar. Düz üç gündür gizlənpaç oynayırdıq. Mən qabaqlarından qaçır, sonra geri qayıdırdım. Onları Sarıca düzünə qədər qovurdum, sonra geri qayıdırdım. Bu səfər də onlar məni təqib edirdilər. Bir oyun oynayırdılar ki, gəl görəsən. Deyirdim ki, onlar Əlidağında yerimizi öyrənməsinlər. Sonra Cabbarın köməyi ilə dağın ətəyində onları azdırdım, gəldim. Bir həftə buradan çıxmamalıyıq. Yaramı sarıyın.

İki qadın əl-ələ verib, Məmmədi soyundurdular. Çiynindən yaralanmışdı. Gülləni yaradan çıxaranda, Məmmədi qızdırma basdı. Sonra dizlərini qarnına dayayaraq titrəməyə başladı. Xətcənin ağlı başından çıxdı. Dəli-divanə oldu, nə etdiyini bilmirdi.

Məmməd düz bir həftə qızdırma içində yandı. Yarası irinləmiş, şişmiş, bir insan bədəni qədər böyümüşdü. Bir həftədən sonra ancaq özünə gələ bildi. Əhvalatı bütünlüklə nağıl etməyə başladı.

– Sarıca düzünə çatmamışdan əvvəl jandarmlara rast gəldim. Jandarmlar on nəfərə qədərdi. Başlarında da Asim çavuş. Atışmağa başladıq. Allah bilir, bu Asim çavuş axırda mənim əlimdə öləcək. O, düz üstümə gəlirdi. Asim çavuş, dedim, bu nədir? Olmaya canından keçmisən? Tüfəngi dikəltdim. Məni lap yanında görüncə, çığıraraq özünü yerə yıxdı. Qorxma, Asim çavuş, dedim. Sənin bir günahın yoxdur. Əgər mən istəsəydim, səni on dəfə vurardım. Çıx get yolunla, dedim. Yatdığı yerdən cəld qalxdı, mənə baxıb gülümsədi, jandarmlarını götürüb getdi. Bircə kəlmə də söz demədi. Sonra Sarıca düzündə birisi döyüş sursatı verəcəkdi. Şərtləşdiyimiz yerə çatanda, məni bir atəşə tutdular ki, gəl görəsən!.. Qara İbrahim ilə adamları gülləni üstümə yağış kimi yağdırırdılar. Yaralandım. Dağa qədər iki gün məni təqib etdilər. Birdən Cabbarın səsinə oxşar bir səs eşitdim... Sonra başa düşdüm ki, Cabbar haradansa gəlib çıxıb və məni qurtarmaq üçün onlara hücum edir. Onları geri oturtduq. Sonra onlar qayıdıb məni təqib etməyə başladılar. Axırda Cabbar onları vadar etdi ki, məndən əl çəkib onunla atışsınlar. Mən qurtuldum. Cabbarın nə üzünü gördüm, nə bir şey. Cabbar gələr onların öhdəsindən. Hər nə isə biz buradan getməliyik. Onlar bizi burada rahat qoymazlar. Bütün bu işlərə fitva verən Əli Səfa bəydir.

Məmməd bir həftə də yatdı. İki gündən bir dağın ətəklərindən atışma səsi gəlirdi.

Məmmədin yarası yavaş-yavaş sağalırdı.

## XXXI

Payız gəldi. Tikanlı düzünün kəndliləri həvəslə, şövqlə işləyirdilər. Bu il məhsul da yaxşı idi. Sünbüllər dolu, ağır idi.

Hürü ana külək kimi Tikanlı düzündə dolaşırdı. Bir alov kimi. Ara vermədən hey danışır, qarğış edir, söyüb söylənirdi. Jandarmlar onu kötəkləyəndən sonra sağ qabırğaları bərk incidirdi. Qabırğalarının üstünə saqqız yapışdırmışdı. Nəfəs alanda, ağrıdan üz-gözünü büzüşdürürdü.

– Sizi görüm gözləriniz kor olsun! Nə istəyirsiniz mənim kimi qoca qarıdan?

Bundan sonra da acıqlı-acıqlı danışmağa başlayırdı:

– Ay kəndlilər, Abdi ağa kəndə gəlmir. Gələ bilmədiyinə görə də siz məhsulun üçdə ikisini ona verməyin. Versəniz, eşşəklik etmiş olarsınız. Eşşəkliyin lap böyüyünü... Bu il əkin yaxşı olmadı deyərsiniz. Elə deyilmi? Olmadı, heç olmadı. Biz acından ölməli deyilik ki. Olmadı. Yox. Canımızımı alacaqsan? Yoxdur. Yoxdur, canım. Əkinlər yandı, qovruldu.

Hürü ana Dəyirmanoluqdan o biri kəndə, oradan da o birinə gedib-gəlirdi. Yolda özü-özü ilə danışırdı. Bir vəl sürən, bir əkin biçən görən kimi, salırdı çənəsinin altına:

– Dua edin İncə Məmmədimə. Yatın, durun, dua edin. Anladınızmı? Dua edin. O olmasaydı, Abdi ağa qaraquş kimi başınızın üstünü alardı. Çox şükür ki, kənddə yoxdur. Bir sünbül də olsun verməyəcəksiniz Abdi ağaya. Verməyəcəksiniz. Daş atıb qolumu yoruldu? Böyrünü yerə verib yatır qəsəbədə.

Kəndlilər düşünür, başlarını bulayır, şapkalarını çıxarıb başlarını qaşıyırdılar.

– Görək bunun axırı necə olacaq? – deyirdilər. – Görək axırı necə olacaq?

Biçin qurtardı, məhsul evlərə daşındı. Abdi ağaya heç kəs bir dənə də olsun buğda vermədi. Topal Əli ilə Abdi ağanın digər adamları kəndin içində fır-fır fırlanırdılar. Hansı kəndlinin qapısına gedirdilərsə, eyni cavabı alırdılar:

– Ağamıza canımız qurban. Ağamız kimi ağa tapılmaz. Biz heç onu elin qəsəbəsində ac-yalavac qoyarıqmı? Amma... əlimizə bir dənə də olsun sünbül gəlmədi. Yoxumuzdur. Yoxdan nə verəsən? Gələn il inşallah... Allah bizə verər, biz də ağamıza... Ağamız kimi ağa tapılmaz! O imansız İncə Məmməd gül kimi ağamızı kənddən didərgin saldı. Ağamız onda qoyarmı bunu? İnşallah, gələn il məhsul yaxşı olar, hamısını verərik ağamıza. Biz ac qalarıq, qoy hamısı ağamızın olsun. Başa düşdünmü? Ağamızın olsun. Tikanlı düzündə beş kənd var, beşi də ağamıza qurban olsun...

Abdi ağanın adamları deyirdilər:

– Tikanlı düzü kənd olandan bəri heç vaxt builki kimi məhsul verməmişdir. Niyə yalan danışırsınız? Açıqca deyin ki, biz ağaya bir zırnıx da vermək istəmirik.

Kəndlilər:

– Ah! – deyirdilər. – Bizim gözümüz çıxsın. Heç belə şey olar ki, ağamız elin qəsəbəsində ac-yalavac qalsın, biz ona haqqını verməyək! Ağamıza can qurban. Gün o gün olsun ki, İncə Məmməd gəbərsin.

Hürü sevincindən uçurdu. Bütün yayı bu kənddən o kəndə qaçması, çənə döyməsi hədər getməmişdi. Heç bir kəndli Abdi ağaya bir zırnıx verməmişdi. Vermək də istəmirdi.

Hürü ağarmış saçlarına xına qoymuşdu. Başından adi yaylığını açmış, yerinə gənc qızların toyda-bayramda bağladıqları al-yaşıl ipək yaylıq bağlamışdı. Paltarı da ipəkdəndi. Boğazına üç dənə qızıl da taxmışdı. Qızlığında taxdığı muncuqları da sandıqdan çıxarıb taxdı. Belinə ipək Trablis qurşağı bağladı. Üzü həmişə gülürdü. Evləri gəzib mahnı oxuyurdu. Açıq-saçıq mahnılar... Mahnıları eşidən gənc qızlar utandıqlarından qızarırdılar.

Kəndlilərin onun haqqını vermədiklərini eşidən Abdi cin atına mindi. Siyasətçinin dükanına getdi. Çox təsirli bir tel yazdırdı. Anqaraya. Ağlaya-ağlaya söylədi dərdini. Ondan sonra düşdü qəsəbənin içinə... Kimi gördüsə, əhvalatı başdan-ayağa danışdı. Qəza rəisinin yanına getdi. Jandarm

idarəsi rəisinin yanına getdi. Ağlayıb sızladı. Onlar kəndlilərin bu hərəkətinə çox hirsləndilər. Dəyirmanoluğa jandarm dalınca jandarm göndərdilər. Jandarmlar kəndliləri sıxışdırdılar. Hürü ananı danladılar. Hürü ananın, kəndlilərin ağzından bir söz ala bilmədilər. Nə döymək, nə söymək kömək eləmədi. Onları qoyun sürüsü kimi burdan oraya, ordan buraya qovdular, onlardan səs çıxmadı. Beş iri kənd böyüklü-uşaqlı sanki lal olmuşdu.

İş o yerə çatdı ki, nahiyə rəisi Tikanlı düzünə gəlmək məcburiyyətində qaldı. Nə elədi, nə dedisə, heç kəs danışmadı. Donuq gözlərlə onun üzünə baxıb dayandılar.

Birinci olaraq Topal Əli dilləndi. Topal Əlinin bu cür danışmasına bütün kənd məəttəl qaldı.

– Ağamıza canımız qurbandır, – dedi. – Axı o qaçaq, o bir qarış boylu İncə Məmməd kimdir ki, biz onun dediyini eləyək! Torpaqdan əlimizə bircə sünbül də gəlsəydi, onu ağamıza verərdik. Axı o itin biri it İncə Məmməd kimdir ki! Bu il qıtlıq oldu. Biz hamımız acından ölməsək, çox yaxşı olar... Mənim kim olduğumu soruşursunuzsa, mən ağamın ev-eşik işlərinə baxıram. Mən də ac qalacağam. Torpaqdan bircə sünbül də əlimizə gəlsəydi, onu da ağamıza verərdik.

Topal susdu, gözlərini qoyun sürüsü kimi bir-birinə qısılmış kəndlilərin üzərində gəzdirdi.

– Söyləyin, – dedi, – torpaqdan bircə sünbül də əlimizə gəlsəydi, onu əziz ağamıza verməzdikmi?

Camaat yavaş-yavaş qımıldandı, dil açdı:

– Verərdik.

Topal:

– Canımızı istəsə?..

Camaat:

– Verərdik.

– İncə Məmməd kəndə gələrsə?

– Gələ bilməz.

– Gələrsə?..

– Öldürərik...

Nahiyə rəisi, əlbəttə, buna inanmadı, kəndi evbəev axtartdırmağa başladı. Heç bir evdə bircə dənə də olsun buğda tapa bilmədi. Kəndlilər o qədər taxılı harada gizlətmişdilər, nə eləmişdilər? Təəccüblü iş idi.

Tikanlı düzündə baş verən hadisələrin sorağı elə o gün qəsəbəyə çatırdı... Tikanlı düzü artıq öz qapısını dünyaya açmışdı.

Abdi ağa dəli-divanə olmuşdu. Saçını yolurdu.

Bütün bu işlərə İncə Məmmədin fitva verdiyi açıq-aşkar bəlli idi. O, mütləq ölməli idi. Bir də elə bu günlərdə Ağtozlu kəndində Hüseyn ağanın gecə yatağında öldürülməsi odun üstünə yağ tökdü. Hüseyn ağanı kim öldürmüş ola bilərdi? Əlbəttə, İncə Məmməd.

Asim çavuş igid, yaxşı adam idi. Dağların qurdu olsa da, amma onun bütün cəsarəti İncə Məmmədi ələ keçirməyə kifayət etmirdi.

Jandarm idarəsinin rəisi daim onu danlayırdı. Asim çavuş elə bir kökə düşmüşdü ki, başını dik tutub bazarın içindən keçə bilmirdi. Utanırdı. Onun dalınca o qədər qeybət edirdilər ki, çoxunu öz qulaqları ilə eşidirdi:

– O İncə Məmməd, – deyirdilər, – əl boyda bir uşaq olduğuna baxmayaraq, o böyüklükdə Asim çavuşu barmağına dolamışdır.

Asim çavuş hirsindən partlayırdı.

## XXXII

Qayası, ağacı, otu, çiçəyi, torpağı ilə birlikdə bütün Əlidağını qar örtmüşdü. Göyün üzü də ağappaq idi. Əlidağından Tikanlı düzünə, oradan Ağcadağa, Çiçəkli dərəsinə, Çuxurovaya qədər uzanan ucsuz-bucaqsız bir sahə ağ örtüyə bürünmüşdü. Bu geniş sahədə bir ləkə, bir nöqtə də yox idi. Bu ucsuz-bucaqsız sahə günəşə qərq olmuşdu. Bəzən bir bulud ağ örtüyə bürünmüş bu sonsuz sahəyə kölgə salıb keçirdi. Günəşin şüalarını əks etdirən qar örtüyündən

milyonlarla parıltı göyə doğru sıçrayıb, adamın gözlərini qamaşdırırdı.

Mağaradakıların vəziyyəti ağır idi. Nə un, nə odun, nə də başqa azuqə qalmışdı.

Məmmədin saçı saqqalına qarışmışdı. İraz arıqlayıb qaralmışdı. Xətcə isə hamilə idi, qarnı burnuna dəyirdi. İrazın dediyinə görə, bu gün-sabah doğacaqdı. Xətcə saralmış, boynu incəlmişdi. Qara, parlaq saçları ot kimi, qarışıq, soluq idi...

Asim çavuş isə göz açmağa qoymurdu. Payızdan bəri Dəyirmanoluq kəndinin ətrafında, Əlidağının ətəklərində gəzib-dolaşırdı.

İraz Məmmədi dışarı çəkdi:

– Bu gün hava sakitdir, oğul, – dedi. – Nə eləməliyiksə, eləyək. Bu qız bu gün-sabah doğacaq. Bir kəndəmi enəcəyik, yoxsa buradamı tədarükünü görəcəyik, nə eləyəcəyiksə, eləyək.

Məmməd kiçilmiş, saqqal basmış üzünü bürüşdürərək:

– Kəndə apara bilmərik, – dedi. – Ev-ev gəzirlər. Nə eləyəcəyiksə, gərək burada eləyək.



İçəri girdilər. Xətcə kürəyini mağaranın divarına dayayıb oturmuş, gözlərini irəlidə bir nöqtəyə zilləyərək, kirpik çalmadan baxırdı. Gözləri donuq kimi idi.

Məmməd:

– Xətcə, – dedi, – biz İraz xatunla kəndə enirik.

Sən tüfəngi doldur, gözlə. Biz gecəyədək gələrik.

– Mən tək qala bilmərəm.

– Onda bəs nə eləyək, Xətcə?

– Mən də gedirəm.

– Belə eləmə, Xətcə!

– Bağrım çatladı burada.

– İraz xatun da qalsın.

– Olmaz.

– Bu nə tərslikdir?

– Mən beləyəm.

– Qal, qızım, – deyə İraz sözə qarışdı.

– Qala bilmərəm.

İraz:

– Sən dağa çıxandan bəri tərs olmusan, – dedi.

Xətcə:

– Mən beləyəm, – deyə cavab verdi.

Məmməd:

–Allah bəlanı versin.

Susdular. Məmməd mağaradan çıxıb bir daşın üstündə oturdu. Üzünü iki ovcunun içinə alıb fikrə getdi; başından ağır fikirlər keçirdi. Mağaranın üzərində bir qartal qanadlarını gərərək, süzürdü.

Məmməd hirsli idi:

– Siz qalın, – deyərək dağdan enməyə başladı. Dəli kimi, qaça-qaça enirdi.

İraz Xətcəni danlayırdı:

– Ay səni görüm kor olasan, – deyirdi, – nə istəyirsən oğlandan? Oğlanın onsuz da min qayğısı var. Bir yandan da sənin dərdin. Jandarmlar aman vermirlər. Bu yandan da sənin dərdin...

Xətcə ağzını açmırdı.

Günortadan sonra İraz mağaradan çıxdı. Gördü ki, Məmmədin həmişə özü ilə dağın ətəyinə apardığı iri kol bir tərəfdə düşüb qalmışdır. Üzünü aşağılara, qarlı ovaya tərəf çevirib, səsi çıxdığı qədər, dəli kimi çığırdı. Məmməd çoxdan getmişdi. İraz çığırdı, çığırdı. Sonra mağaraya qayıdıb, özünü yerə yıxdı.

– Bir fəlakət üz verəcək, – dedi, – fəlakət üz verəcək. Qorxuram ki, bir fəlakət üz versin. Məmməd kolu unudub aparmamışdır. Çovğun da yoxdur ki, izini itirsin. Hava dumdurudur. Çovğun da yoxdur. Gedib onun izini örtərdim, amma mən onun keçdiyi yerlərdən keçə bilmərəm ki...

İkinci günün gecəsi Məmməd qayıdıb gəldi. Üzündə rəng-ruh qalmamışdı. Gətirdiyi yük onu taqətdən salmışdı.

– Çox qorxdum, – dedi, – kolu unutduğum dağın ətəyində yadıma düşdü... Geri qayıdıb kolla izin üstünü ört-

məyə başlasaydım, qaranlıq qovuşardı... Sizdən nigaran qaldım, odur ki, tez qayıtdım. Jandarmlar Topal Əlinin yaxasından heç cür əl çəkmirlər, ona mənim izimi axtartdırırlar. Bundan qorxuram. Topal Əli bir iz görərsə, özünü saxlaya bilməz. İzə düşüb gələr. Mənə dedi ki, amandır, qardaş, get kolu çək, izi itir. Başa düşdüm ki, izi görsə, özünü saxlaya bilməyəcək. Qorxuram. Özü də belə bir zamanda... İş pisdir.

İraz:

– Daha belə əclaflıq eləməz Topal Əli. Qorxma, canım. Topal sənin üçün canını verər, – dedi.

– Bilirəm verər, amma yenə də iz görərsə, özünü saxlaya bilməz. Bu Topalı gərək elə birinci gün vuraydım... Nə isə...

## XXXIII

Asim çavuş canından usanmışdı. «Bu imansız İncə Məmməd də başıma bir bəla oldu. Kaş ki, sovuşub başqa yerlərə gedəydi, onun əlindən qurtulaydım – deyirdi. – Onun əlindən bir qurtulaydım».

Jandarmlar da yorulub əldən düşmüşdülər. «Bu qışın qiyamətində, Allahın hər verən günü Toros dağının yamaclarında gəzib dolaşmaqdan nə çıxar?» – deyə gileylənirdilər. Harada insan izinə bənzər bir iz görsəydilər, harada qarın pozulduğunu görsəydilər, günlərlə o ətrafı axtarırdılar. İncə Məmmədi axtara-axtara, daha bir neçə qaçaq dəstəsi yaxalamışdılar.

İndi də bir ay idi ki, Əlidağının ətrafında dolanırdılar. Çünki dağda yaxalayıb döydükləri bir çoban oğlan İncə Məmmədi gördüyünü ağzından qaçırmışdı.

Əlidağı, demək olar ki, mühasirəyə alınmışdı. Dörd tərəfinə sanki növbətçi qoyulmuşdu. Bu qış-qiyamətdə İncə Məmmədin Əlidağında yaşaya biləcəyini Asim çavuş heç cür ağlına sığışdırmırdı, amma çobanın ağzından qaçan sözdən sonra Əlidağından əl çəkə bilmirdi.

Tikanlı düzündən qarı yara-yara gələn atlı jandarm Asim çavuşa yetişən kimi:

– Çavuşum, gördük, – dedi. – İzinin üstündən kol çəkirdi. Üzüyuxarı dağa çıxırdı. Bizi görən kimi qaçdı. Bircə dənə də güllə atmadı. Amma izi gözdən itməz. Kol çəksə də itib qeyb olmaz. Qarın üzü buz bağlamışdır. Kol çəkmək kömək eləməz. İzə baxdıq, iz köhnə iz idi.

Asim çavuş sevindi. Məmmədə ilk dəfə idi ki, doğru-dürüst rast gəlirdilər.

Topal Əlini çağırmaq üçün Abdi ağanın evinə jandarm göndərdi.

Topal gəldi:

– Buyur, çavuşum, – dedi.

– İz var.

– Qarda gözüm seçməz. Mənə torpaq lazımdır.

Oradakı kəndlilər bir ağızdan:

– Qarda Topalın gözü seçməz. Qarda izlə gedə bilməz, – deyə təsdiq etdilər. – Sizi başqa yoldan apara bilər.

Asim çavuş yenə də Topalın yaxasından əl çəkmədi:

– İz tapa bilməsə də, bizimlə getməlidir, – dedi.

Topal bunu eşidəndə yarpaq kimi əsməyə başladı.

– Ayaqlarından öpüm, çavuşum, məni aparma bu soyuqda.

Çavuş çox qəti səslə:

– Olmaz, – dedi.

Topalın boynu büküldü, kürəyini bir divara dayadı, beləcə donub qaldı.

Çavuş jandarmları toplayıb, Əlidağına tərəf yollandı.

Bir anda bütün kəndə çaxnaşma düşdü: «İncə Məmmədin izi tapılmış, izi tapılmış».

Bütün kənd, qadınlar, kişilər, uşaqlar Əlidağının ətəyinə qədər jandarmların dalınca getdilər.

Orada, dağın ətəyində, izin başlandığı yerdə toplaşdılar. Gözlərini izə zilləyib baxa-baxa qaldılar.

Topal Əli izi görən kimi ürəyi parça-parça oldu. Özünü itirdi. Danışmağa başladı. Amma nə danışdığını özü də bil-

mirdi. Yavaşca deyirdi: «Nə üçün bu it oğlu izin üstündən kol çəkməmişdir? Görəsən, nə üçün belə eləmişdir? İndi onu taparlar. İz lap aydındır».

Asim çavuş Topalın qolundan tutdu, izin başlandığı yerə gətirdi:

– Orada nə mırt-mırt mırtdanırsan? Söylə görüm, bu onun izidirmi?

– Yox, – deyə Topal cavab verdi. – Bu, çobanın izidir. Özü də bir ay bundan qabaqkı izdir.

Asim çavuş hirsləndi. Topalın qolundan yapışıb qeyzlə qarın içinə fırlatdı:

– Dəyyus, – deyə çığırdı. – Topal dəyyus! Həm Abdi ağanın ev-eşik işlərinə baxırsan, onun çörəyini yeyirsən, həm də İncə Məmmədə himayəçilik edirsən. Sizin hər biriniz bir İncə Məmmədsiniz. Allah sizə fürsət verməsin.

Sonra jandarmlara əmr etdi:

– İzə düşüb gedin!

Jandarmlar qarda donaraq, əlləri üşüyə-üşüyə, iki gün izlə gedib, dağın təpəsinə çatdılar. Təpəni dövrəyə aldılar.

Kənd yas içində idi.

Topal boynunu buraraq ağlamsına-ağlamsına:

– Tapdılar, – deyirdi. – Tapdılar İncə Məmmədimizi.

Hürü ana hirsli-hirsli:

– Qoy tapsınlar, – deyirdi. – Qoy tapsınlar, görsünlər ki, Məmməd onların başına nə gətirər... İstəyir lap min jandarm olsun. Hamısını güllə ilə dəlik-deşik edər İncə Məmmədim.

Axşama yaxın ilk toqquşma baş verdi. Jandarmlar mağaraya gedən yolu tapmış, mağaranın ağzını da görmüşdülər. Ara vermədən mağaranın ağzına yuxarıdan qumbara atırdılar. Məmməd onları mağaranın ağzına yaxın buraxmamaq üçün ilk cavab atəşi açdı. Asim çavuşun dörd tərəfinə güllə yağdırdı.

Onlar qaçıb qurtula bilərdilər. Qaç- madılar. Xətcənin sancıları başlanmışdı, doğurdu. Bayırda tüfəng səslərini eşidər-eşitməz ağlamağa başladı.

İraz:

– Demədimmi mən sizə? – dedi. – Kolu aparmamağın üzündən oldu.

İncə Məmməd:

– Kolu aparmamağın üzündən oldu, – dedi, – amma onlar yenə də buranı tapa bilməzdilər. Məncə Topal izi görüb özünü saxlaya bilmədi, izlə onları buraya gətirdi. Onu öldürməliydim. Bir çovğun başlasa, onlar burada bir dəqiqə də qala bilməzlər. Getsələr, çətin ki, bir həftədən tez buraya qayıda bilsinlər. Ah, Topal!

Asim çavuş nəvazişlə deyirdi:

– Oğlum, Məmməd, təslim ol! Sən artıq tələdəsən. Dörd bir yandan dövrəyə alınmısan. Çıxa bilməzsən. Bu yaxınlarda əfvi-ümumi elan ediləcək. Gəl təslim ol! Mən istəmirəm ki, sən öləsən.

Məmməd heç bir cavab vermədi. Bir güllə Asim çavuşun qabağındakı daşı parçaladı. Bundan sonra atışma qızışdı. Hər iki tərəf güllə yağdırırdı.

Asim çavuş:

– Bir həftə, bir ay burada gözləyəcəyəm, – deyə çığırırdı. – Necə olursa olsun, bir gün güllən qurtaracaq.

Axırda Məmməd dişlərini qıcırdaraq:

– Bilirəm, Çavuş, bilirəm, – deyə cavab verdi. – Axırda elə olacaq. O zamana qədər sizdən bir nəfər belə sağ qoymaram. Hamınızı vuraram. Bilirəm, Çavuş. Mən təslim olmayacağam. Ən axırda mənim ölümü çıxararsınız bu mağaradan. Anladınmı, Çavuş?

– Yazıqsan, heyifsən. Hamımızı vursan da, yenidən jandarm göndərərlər. Sən nə qazanarsan? Bu il əfvi-ümumi elan olunacaq. Gəl təslim ol, İncə Məmməd!

– Çox danışma, Çavuş, – deyə Məmməd çığırdı. – Bu dəfə səni vuracağam. İndiyədək vurmadım. Bu dəfə vuracağam. Dalımca gəlməkdən əl çəkmədin.

Atışma o qədər qızışdı ki, danışıqlar eşidilməz oldu. Susdular.

Məmmədin yanı gilizlə dolmuşdu. İki torba da patronu vardı, amma qorxurdu ki, kifayət etməsin. Çox tez-tez atmaq lazım gəlirdi.

İraz Xətcə ilə məşğul idi. Xətcə hərdən sakit olur, sonra yenə də çığırırdı.

İraz da:

– Nə pis gündə, nə pis gündə olur, – deyirdi. Arada Xətcəni tək qoyub, tüfəngi qapır, Məmmədə köməyə cumurdu. Xətcə yenidən çığırmağa başlayanadək güllə atırdı. Sonra Xətcənin yanına gəlirdi. Xətcənin alnından damla-damla tər axırdı. Xətcə yerdə qıvrılırdı.

– Ah anam, – deyirdi. – Ah anam, kaş ki, məni doğmayaydın.

Məmməd ilə İraz qapqara olmuşdular. Mağaradan kəskin tər qoxusu gəlirdi.

Birdən Məmməd:

– Yandım, anam, – deyə çığırdı. Lakin dərhal peşman oldu. Dişlərini dodağının üstünə basıb, qan çıxanadək sıxdı.

Yerdə qıvrılmaqda olan Xətcə «yandım» sözünü eşidincə, ox kimi yerindən sıçradı, Məmmədin yanında təkrar yerə yıxıldı.

– Məmmədim, – dedi, – vuruldunmu? Öldürərəm özümü.

İraz özünü yetirib Məmmədin yaxasını açdı:

– Çiynindən yaralanmısan, – dedi və yaranı sarımağa başladı.

Məmməd yaralı-yaralı, durmadan güllə atırdı. Asim çavuş bir adamda bu qədər çox patron olmağına təəccüb edirdi. Jandarmlardan bir neçəsinə güllə dəymişdi. Çavuş yavaş-yavaş ümidini kəsirdi.

Birdən Xətcə bərk çığırdı. İraz onu tutdu, yerdən qaldırıb oturtdu:

– Güc ver, qızım, güc ver! – dedi.

Ağrının şiddətindən Xətcənin üzü tamam qırışmışdı.

Birdən bir uşaq çığırtısı eşidildi. Məmməd dönüb arxasına baxdı. Qan içində bir körpə gördü. Xətcənin üzü kağız kimi olmuşdu. Məmməd üzünü çevirdi.

Məmmədin əlləri titrəyirdi. Tüfəngi əlində saxlaya bilmədi, yerə düşdü. İraz gedib tüfəngi yerdən götürdü, atmağa başladı. Xətcə ölü kimi düşüb qalmışdı.

Az sonra Məmməd özünə gəldi. Xəfif bir səslə:

–Ver, xala, – dedi, əlini tüfəngə uzatdı. İraz verdi.

İraz getdi, körpəni silib duzladı.

– Oğlandır, – dedi.

Məmmədin üzündə zəhər kimi acı bir təbəssüm dolandı:

– Oğlan.

Atışma axşama qədər çəkdi. Məmməd artıq tək əllə atırdı. İraz doldurur, Məmməd tüfəngi bir daşa dayayır, tək əllə atəş açırdı.

Axşamüstü İraz boynunu bükərək, üzgün halda:

– Daha güllə qalmadı, – deyə bildirdi.

Məmməd gülləni unutmuşdu. Boğazı xırıldadı, elə bil onu boğurdular. Tüfəngin üstünə yıxıldı. Zorla ayağa qalxdı. Gözləri hədəqəsindən çıxmışdı. Çaşqın, huşsuz halda ortada dayanıb qaldı. Sağa-sola səndələyirdi. Sonra səndələyə-səndələyə körpənin yanına getdi. Üzünü açdı. Uzun zaman heyrətlə ona baxdı. Mağaranın ağzına qayıtdı. Gülümsəyirdi.



Yerdən tüfəngini götürdü. Cibindən yaylığını çıxartdı, bayraq kimi tüfəngin ucuna bağladı. Üzünü İraza çevirdi. İraz yuxarıdan asılı qalmış böyük bir qayanın altında oturub için-için ağlayırdı. Yerində quruyub qalmışdı.

Məmməd:

– İraz xala, – dedi.

İraz başını qaldırdı, Məmmədə baxdı.

Məmməd Xətcəyə tərəf dönüb:

– Xətcə! – deyə onu səslədi. Xətcə özündə deyildi.

Məmməd:

– Mənə qulaq asın, – dedi. – Onlar məni sağ qoymazlar. Oğlumun adını Məmməd qoyun.

Mağaradan çıxdı. Tüfəngi havaya qaldırdı:

– Təslim oluram, – deyə çığırdı. – Təslim oluram, Asim çavuş!

Asim çavuş qalın bığlı, irigözlü, qalın dodaqlı, qəşəng görkəmli, cüssəli, mehriban bir adam idi.

Məmmədin «təslim oluram» deməsinə təəccüb qaldı. İnanmadı.

– Təslim olursanmı, İncə Məmməd? – deyə çığırdı.

Məmməd ölgün bir səslə:

– Təslim oluram, Çavuş, təslim oluram, – dedi. – Muradına çatdın.

Çavuş üzünü jandarmlara çevirdi:

– Səngərlərinizdən çıxmayın, – dedi. – Mən gedim. Bəlkə, yalandan deyir.

Az sonra Çavuş mağaranın ağzında idi.

Asim çavuş içəri girdi, gedib Məmmədin əlindən tutdu, gülərək:

– Keçmiş olsun, İncə Məmməd, – dedi.

– Sağ ol, – deyə İncə Məmməd cavab verdi.

İraz bir küncdə büzüşüb oturmuşdu. Həmişəkindən kiçik görünürdü.

Asim çavuş:

– İncə Məmməd, – dedi, – sənin təslim olduğuna hələ də inanmıram!

Məmməd dinmədi. Əllərini qandala uzatdı.

İraz yerindən ox kimi sıçradı.

– Çavuş, Çavuş, – dedi. – Olmaya elə bilirsən ki, Məmmədi təslim olmağa sən məcbur etdin?

İraz küncə getdi. Körpənin üstündəki kilimi çəkdi. Körpə göründü. Gözləri yumulu idi.

– İncə Məmmədi təslim olmağa bax bu məcbur etdi. Siz də kişiyəm deyə öyünürsünüz.

Asim çavuş bunu gözləmirdi. Bir Xətcəyə, bir İraza, bir də Məmmədə baxdı. Təbəssümü dodaqlarında qaldı. Əlini Məmmədə tərəf uzadıb, qandalı açdı.

– İncə Məmməd! – deyib susdu.

Onlar göz-gözə bir müddət dinmədən dayanıb qaldılar.

– İncə Məmməd!..

Çavuşun səsi gurladı:

– İncə Məmməd, mən də bu vəziyyətdə səni tutub aparacaq adam deyiləm.

Belindən beş daraq patron çıxarıb yerə atdı:

– Mən gedirəm. Arxamca atəş aç, – dedi.

Asim çavuş çığıra-çığıra mağaradan çıxdı.

Məmməd arxasınca atəş açırdı.

Yoldaşlarının yanına gələn Asim çavuş dedi:

– O namussuz təslim olarmı heç? Məni vurmaq üçün çıxarmış bu oyunu. Özümü yerə yıxmasaydım, güllə mənə dəyəcəkdi. Yaxşı ki, ehtiyatlı gedirdim. Çovğun başlayır. Gəlin aşağı enək. Hamımız donub ölərik.

Jandarmlar yorğun, taqətdən düşmüş halda, Məmmədin mağarasına baxa-baxa dağdan enməyə başladılar.

Əlidağının təpəsini qara buludlar bürüyürdü.

Tezliklə çovğun başlanacaqdı. Göydən tək-tək qar tökülürdü. Sonra gücləndi. Daha sonra dəli bir külək qarı sovurmağa başladı.

Axşamüstü Əlidağında qiyamət qopdu. Qorxunc bir çovğun qarı qayadan-qayaya sovururdu. Əlidağı, onun ətrafı və göyün üzü ağappaq ağarmışdı.



## XXXIV

«İncə Məmməd vurulmuşdur. Əlidağında çovğun sakitləşən kimi ölüsü dağdan endiriləcəkdir» xəbəri bir an içərisində kəndə, oradan da qəsəbəyə yayıldı. Dəyirmanoluqluların gözləri Əlidağının boranlı təpəsinə dikilmişdi. Əlidağı dağlar dağıdır... Əlidağı çox heybətlidir. Əlidağı İncə Məmmədi məhv etdi.

Hamı evinə çəkilmişdi. Abdi ağanı gözləyirdilər. Xəbəri eşitmişsə, harada olsa gələcəkdi. Vayvay kəndliləri Əli Səfa bəydən torpaqlarını parça-parça geri alırdılar. Qoca Osman cavanlaşmışdı, özünü on beş yaşında oğlan kimi hiss edirdi. Əli Səfa bəyə meydan oxuyurdu.

– İncə Məmməd mənim şahinimdir, – deyirdi.

Məmmədin vurulması xəbəri Vayvaya da gəldi. Qoca Osman xəbəri eşidər-eşitməz yerindən qalxa bilmədi. Quruyub qaldı. Bir müddət nitqi kəsildi. Gözlərindən yaş axmağa başladı.

Sonra dilə gəldi:

– Vay şahinim, vay! İgid bir oğlan idi şahinim. İri-iri gözləri vardı. Hələ qaşları... qələm kimi barmaqları... Boyu uca, sərv kimi... Vay şahinim, vay! Mənə deyirdi ki, Osman əmi, bir gün sənin evinə gələcəyəm, qonaq qalacağam. Qismət olmadı. Vay şahinim, vay! Arvadı da yanındaydı. Görəsən, indi yazıqcığaz nə eləyəcək? Mənə baxın, kəndlilər! Şahinim bizi qurtardı bu imansızların əlindən. Gəlin biz də onun arvadını kəndimizə gətirib, ona torpaq verək, bəsləyək. Dustaqxanaya düşərsə, orada da bəsləyək. Olarmı?

– Olar, – deyə cavab verdilər.

Əli Səfa qorxusu yenə də gəlib ürəklərində yer elədi.

Xəbəri eşidən Abdi ağa əvvəlcə Əli Səfa bəyin yanına cumdu. Səfa bəyi evdə tapmadı. Səfa bəyin arvadı:



– Gördünmü, Abdi ağam, – dedi, – eləyən cəzasını çəkər. Gözlərin aydın.

Abdi ağa:

–Aydınlıqda olasan, qızım, – deyib yola düzəldi.

Qəza rəisinin yanına getdi, onun əlindən-ətəyindən öpdü:

– Allah hökumətə, dövlətə zaval verməsin, rəis bəy. Asim çavuş qəhrəmandır, igid adamdır. Belə adama can qurban.

Qəza rəisi:

– Gözlərin aydın, Abdi ağa. Hökumətdən bu qədər şikayət edirdin. Əli Səfa bəy olmasaydı, qəsəbənin adını bədnam edəcəkdin. Çox sağ olsun Əli Səfa bəy ki, sənin teleqramlarını göndərtdirməmişdir.

Abdi ağanın gözləri kəlləsinə çıxdı.

Qəza rəisi güldü:

– Hə, hə, göndərtdirməmişdir.

– Heç bir dənəsi də getməmişdir?

– Hə, getməmişdir. O teleqramlar getsəydi, səni də asardılar, məni də... Sən dəlimi olmusan? Anqaraya belə teleqram göndərilərmi?

Abdi ağa fikrə getdi. Sonra qəhqəhə çəkib gülməyə başladı:

– Yaxşı ki, getməmişdir, rəis bəy. Hamısı əsəbilikdəndir. Qəsəbəmizin gül kimi təmiz adı ləkələnərdi. Yaxşı ki... Adamın gözü qızanda hər şeyi unudur. Böyük bir hökumətin barmaq boyda, qotur bir uşaqla bacarmaması mənə ağır gəlirdi... İnan ki, mənə çox toxunurdu. Dəlilik eləyib belə teleqramlar göndərmişəm. Gərək məni bağışlayasan, rəis bəy.

Abdi ağa qəza rəisinin yanından çıxıb, jandarm idarəsi rəisinin yanına getdi. Ona da öz sevincini izah etdi, təşəkkürlərini bildirdi. Asim çavuşa bir hədiyyə verib-verməyəcəyini soruşdu. Sonra da Məmmədin kəsilib şüvülə keçirilmiş başını buradakı evinin deyil, kənddəki evinin qapısına sancdırmasını ondan xahiş etdi. Jandarm idarəsinin rəisi onun xahişini qəbul elədi.

Qəsəbəyə xəbəri Topal Əli gətirmişdi.

Abdi ağanın yanına gəlib:

– Düşməninin ömrü tamam oldu, ağa, – demişdi.– Dağdan bir çoban enib gəldi. Ölüsünü gözü ilə görmüş, Asim çavuş başını kəsirmiş. Ağama xəbəri tez yetirim deyə gözləmədim, buraya cumdum.

Abdi ağa əvvəlcə inanmamış, sonra sevincindən dəli kimi olmuşdu. Topal Əlidən sonra üç gün ərzində dağdan enənlərin hamısı xəbəri təsdiq eləmişdi.

Jandarm idarəsi rəisinin yanından evə gələn Abdi ağa Topal Əlini qabağında oturtdu:

– Asim çavuş sənə bir az pislik etdisə də, fikir vermə, canım, – dedi. – O, qəhrəman, igid bir adamdır. Bax, düşmənimizi aradan qaldırdı.

Sonra coşdu, qeyzlə:

– O kəndlilər, – dedi, – o çörək itirən, nankor kəndlilər gör bir mənim başıma nə gətirdilər! Mən bir il başlarının üstündən əskik olan kimi, mənə bir dənə də sünbül ver-

mədilər. Bu günlərdə gedəcəyəm kəndə, soruşacağam ki, ay çörək itirənlər, ay namussuzlar, keçən il qıtlıqmı oldu? Söyləyin görüm, qıtlıqmı oldu ki, mənim haqqımı vermədiniz? İncə Məmmədə güvəndiniz, eləmi? Alın, İncə Məmmədinizi. Alın başını, nə eləyirsiniz, eləyin. Gördünüz də, İncə Məmmədinizi! İndi mən sizə göstərərəm.

Topalın əlindən tutdu:

– Əli!

– Buyur, ağam.

– Bu il məhsul hər ilkindən daha yaxşı oldu, eləmi?

– Hər ilkindən iki qat çox oldu.

– Əli!

– Buyur, ağam.

–Mən bu kəndlilərə nə cəza verim?

–Ağa bilən yaxşıdır.

Abdi ən təzə paltarlarını geydi. Təsbehinə ətir vurdu. Getdi bərbərə, üzünü qırxdırdı. Yerə-göyə sığmırdı. Maraşlı Mustafa əfəndinin dükanına getdi. Gülə-gülə içəri girdi.

Maraşlı Mustafa:

– Ölən düşmən də olsa, adam sevinməz, Abdi ağa, – dedi. – Nə olub, nə olmayacağını bilmək olmaz.

Abdi ağa bütün bazarı dükan-dükan gəzib, sevincini bildirərək, hər dükan sahibindən: «Gözün aydın» cavabını aldıqdan sonra ata minib kəndə gedirdi ki, pis bir xəbər eşitdi: «İncə Məmməd yaralı-yaralı Asim çavuşun əlindən qaçıb qurtulmuşdur».

– Kim dedi?

– Asim çavuş dedi.

– Asim çavuş hardadır?

– Gəlir. Mən onu Şabablıda gördüm.

Abdi ağa atının başını geri döndərdi.

Asim çavuş jandarmları ilə bərabər yorğun, taqətsiz halda qəsəbəyə girdi.

Abdi evinin həyətində üzgün-üzgün atdan endi. Ayaqlarını sürüyə-sürüyə birbaş ərizəyazan Dəli Fəxrinin yanına getdi:

– Yaz, qardaş, – dedi. – Birbaş İsmət paşaya yaz. Yaz ki, qəza rəisi, teleqrafçı, Əli Səfa bəy, jandarm idarəsinin rəisi İncə Məmmədin dəstəsi ilə əlbir olmuşlar. Yaz ki, paşam, sənə nə qədər tel vurmuşamsa, heç birini çatdırmayıblar. Di yaz!

## XXXV

Qoca Osman:

– Şahinim sındırdı ağaların belini. Əli Səfa bəy yenə də dağa adam göndərməyə çalışır. Nə qədər bacarırsa, qoy o qədər göndərsin, şahinim onların hamısının başını yeyər.

Kəndlilər kəndin dal tərəfindəki böyük tut ağaclarının altında toplaşmışdılar. Payız yarpaqları saraltmışdı. Bu gün-sabah yarpaqlar tökülməyə başlayacaqdı.

Qoca Osman:

– Torpaqlarımızın hamısını geri aldıq, eləmi? – deyə soruşdu.

– Elədir, – deyə kəndlilər təsdiq etdilər.

– Kimin sayəsində?

– İncə Məmmədin.

Qoca Osman ayağa qalxıb dedi:

– Anqaradan Əli Saib bəy[1] gəlmişdir.

Kəndlilər diqqətlə qulaq asmağa başladılar.

– İsmət paşa ilə danışmışdır. Bu payız, bayramda... yəni hökumət bayramında[2] əfvi-ümumi olacaq. Yəni on beş gün, bir ay sonra... İncə Məmməd də əfvi-ümumiyə düşəcəkdir. Onun oğlu da olmuşdur. Ona torpaq verək. Bizim kəndə köçsün. Nə deyirsiniz?

Kəndlilər bir ağızdan:

– Köçsün, – deyə cavab verdilər. – Gözümüz üstə yeri var. Torpağımız da onun, canımız da... Elə igidə can qurban!..

Qoca Osman kəndin ən bərəkətli torpaqlarından yüz dönümünü İncə Məmməd üçün ayırdı. Bu torpaq dul

---

[1] **Əli Saib bəy** – *Urfa şəhərindən Böyük Millət Məclisinə deputat seçilmişdi. O zamanlar Çuxurovada iki malikanəsi vardı. Atatürkə edilən sui-qəsdlə əlaqədar mühakimə edilməkdə məşhurdu.*

[2] *Oktyabrın 29-u Türkiyənin respublika elan edildiyi milli bayram günüdür – red.*

Eşənin idi. Kəndlilər öz aralarında pul topladılar, Eşədən torpağı satın aldılar. Kəndlilər hamısı birdən cüt qoşub, bu yüz dönümlük tarlaya buğda səpdilər.

Qoca Osman sürülmüş yumşaq torpağı qarışdırdı. Barmaqlarından torpaq su kimi süzüldü:

– İndi arxayın ölə bilərəm, – dedi. – Əli Saib bəy yalan danışmaz. Dediyi mütləq olacaq. İsmət paşanın yaxın adamıdır.

Elə bu günlərdə İncə Məmmədin ələ keçirilməməsi ilə əlaqədar olaraq qəsəbədə yenə aləm bir-birinə dəymişdi. Əli Səfa bəy qəza rəisini və jandarm idarəsi rəisini rahat qoymurdu. Onları qaçaqlara himayə göstərməkdə təqsirləndirirdi. Anqaraya bir-birinin dalınca tel yağdırırdı. Anqara qaçaqları tutmaq haqqında qəza rəisinə ciddi əmrlər verirdi. Jandarmlara bu dəfə jandarm idarəsinin rəisi özü başçılıq edirdi. Dağ kəndlərinin əhalisi qaçaqların deyil, jandarmların əlindən lap təngə gəlmişdi.

İncə Məmməd heç bir kənddə sığınacaq tapa bilmir, körpə uşaqla dağlarda ac-susuz qalırdı. Məmmədgil bir neçə kərə, jandarm idarəsinin rəisi kapitan Faruqun qurduğu tələyə düşmüş, lakin qurtula bilmişdilər. Bu günlərdə əgər Kərimoğlu olmasaydı, İncə Məmmədin halı pis olardı. Məmməd harada olursa olsun, Kərimoğlu ona güllə, çörək, pul göndərirdi.



Vayvay kəndindən göndərilən pul da Kərimoğlu vasitəsilə ona çatdırılırdı.

Qoca Osman kimi Kərimoğlu da bayramı səbirsizliklə gözləyirdi. Bayrama isə çox qalmamışdı. Dəyirmanoluq kəndinin, eləcə də Tikanlı düzündəki bütün başqa kəndlərin sakinləri əfvi-ümumi olacağından razı deyildilər. Onlar belə fikirləşirdilər ki, Məmməd dağdan enən kimi, Abdi ağa da kəndə qayıdacaq. Buna görə də qorxudan ödləri qopurdu.

«Əfvi-ümumi nə olan şeydir axı, – deyirdilər. – Əsl qaçaq gərək dağda qalsın. Məmmədin yerinə olsaq, dağdan enmərik. Bizim kimi kəndli olsa, nə edə biləcək. İndi isə aləm ondan qorxur».

## XXXVI

– Eşitmisənmi, İncə Məmməd? – deyə Topal Əli soruşdu.

Məmmədin gözləri güldü:

–Yox.

– Necə yox? Sən də...

– Vallah yox.

– Elə isə qulaq as...

– Danış.

– Yadındadırmı, Çiçəkli dərəsində sənin yanına gətirdiyim Qoca Osman! Əli Saib bəy Anqaradan gəlmiş, böyük bayramda əfvi-ümumi olacağını söyləmişdir. Bunu eşidən Qoca Osman kəndliləri başına toplayıb demişdir ki, İncə Məmməd bizim şahinimizdir. Gəlsin, bizim kənddə yaşasın. Kəndlilər, gözümüz üstündə yeri var, demişlər. Sənə yüz dönümlük bir torpaq satın almışlar. Yeri Qoca Osman özü seçmişdir. Sənin üçün bir ev də tikirlər. Qoca Osman dedi ki, Əli Saib bəy yalan söyləməz. Amandır, özünü yaxşı qorusun. Ona belə söylə, dedi. Əfvi-ümumi xəbərini mən özüm yetirəcəyəm şahinimə, dedi. Hə, işlər necədir?

– Bu kapitan məni dinc qoymur. O biri qaçaqları, qanlı qatilləri buraxıb, təkcə mənim dalımca düşüb. Bəlkə, on dəfə vuruşmuşuq. Nə olursa olsun, bir də qarşıma çıxsa, vuracağam.

– Əfvi-ümumi olacaq, baş qoşma.

– Çox gəlir üstümə. Vuracağam.

– Belə iş görmə. Bir az da gözlə. Səbir elə.

Topal getdi.

Əfvi-ümumi olacağını eşidəndən sonra Xətcənin sevincdən gözünə yuxu getmirdi.

Alayarın torpağı qan kimi qırmızıdır. Elə bil qıpqırmızı bir qarpızı ortadan bölüb günəşin altına qoymusan. Elə qırmızıdır. Üç gün idi ki, onlar Alayarın qırmızı torpaqlarına sığınmışdılar. Kapitan Faruq alıcı quş kimi başlarının üzərində hərlənirdisə də, məsud idilər.

Xətcə ilə İraz mahnı oxuyurdular. Oğullarının adı Məmməd qalmışdı. Məmməd totuq bir uşaq idi. Bu günlərdə gözəl laylalar dinləyirdi. Xətcə Məmmədini havaya atıb-tuturdu.

– İraz xala, – deyirdi, – sən Allahın işinə bir bax. Biz otuz dönüm deyirdik, Allah bizə yüz dönüm verdi. Bir ev də üstəlik.

Xətcə elə zarafatlar, elə uşaqlıqlar edir, elə oyunlar çıxarırdı ki, bunları heç on iki yaşında qız uşağı eləməz.

Arabir Məmmədə:

– Ay Məmməd, – deyirdi, – əfvi-ümumi olacaqdır. Evimiz, torpağımız var. Bəs nə üçün üzün gülmür? Azacıq gülsənə!

Məmməd buna acı-acı gülümsəyirdi. Gün doğmamış kapitan Faruq öz jandarmları ilə Alayarda onları mühasirəyə aldı.

Kapitan:

– İncə Məmməd, mən Asim çavuş deyiləm. Ağlını başına topla, – deyə çığırırdı. Məmməd cavab vermirdi. Jandarmların əlindən necə qurtulmaq lazım gəldiyini öyrənmişdi. Buna görə də vecinə almırdı. Qarasına, hara gəldisə, güllə atırdı. Gecə olan kimi aradan çıxacaqdılar. İraz da adlı-sanlı qaçaq kimi zirək, cəsur idi, sərrast da güllə atırdı. Tək başına üç gün bu jandarmların qabağını saxlaya bilərdi. Kapitan Faruq dəli-divanə olurdu. Bir kişi, bir qadın, üstəlik də bir körpə uşaq!

– İncə Məmməd, əlimdən qurtula bilməyəcəksən, – deyə kapitan çığırırdı.

İncə Məmməd öz qərarını vermişdi. Kapitanı vurmaq istəyirdi. Buna görə də onların içərisinə soxulmuşdu. İlk dəfə idi ki, belə bir ehtiyatsızlıq edirdi.

– Yandım, – deyə arxadan Xətcənin səsi gəldi. Məmməd olduğu yerdə donub qaldı, amma geri dönmədi. Kapitanın olduğu yeri şiddətli atəşə tutdu. Bununla ürəyi soyumadı, oraya qumbara dalınca qumbara atdı. Qəzəblə geri dönüb Xətcənin yanına gəldi. Xətcə cansız halda yerə sərilmişdi. Uşaq da yanında idi. Xətcənin üzündə bir təbəssüm donub qalmışdı.

Məmməd dəli kimi olmuşdu. Pulemyot kimi güllə yağdırır, ara vermədən qumbaraları oraya vızıldadırdı. İraz da bir tərəfdən.

Kapitan yaralandı. Jandarmlar davam gətirməyib geri çəkildilər.

İraz Xətcənin ölüsünün üstünə qapanıb ağlayırdı. Üzü dustaqxanaya ilk gəldiyi günkü kimi olmuşdu. Məmməd tüfəngini qucağına alıb oturmuşdu, başını aşağı əyərək ağlayırdı. İraz ölünün üstündən başını qaldırdı. Göyə baxdı. Göyün üzündən bir qatar durna keçirdi.

Xətcənin qanı Alayarın qırmızı torpağına qarışmışdı.

Sonra uşaq bərkdən ağlamağa başladı. Məmməd uşağı qucağına aldı, bağrına basdı. Uşağı ovundurmaq üçün gəzinə-gəzinə layla çalmağa başladı.

İraz dedi:

– Kəndə xəbər verim, gəlib Xətcəni basdırsınlar.

İraz xəbər verməyə getdi. Məmməd qucağında uşaq, üzünün əzələləri gərilərək qorxunc bir şəklə düşmüş halda, gözlərini Xətcəyə zilləyib, daş kimi hərəkətsiz qaldı.

Qara xəbəri eşidən kəndlilər – qadınlar, kişilər, uşaqlar axışıb ölünün yanına gəldilər.

– Vay-vay, – dedilər, – vay, İncə Məmmədin talesiz Xətcəsi...

Məmməd kəndxudanı çağırdı. Əlinə pul verdi:

– Xətcəni lazımi ehtiramla dəfn edin, – dedi. Uzun zaman gözlərini Xətcədən ayırmadı. Xətcə gülümsəyirdi. Uşağı qucağına aldı.

– Gedək, İraz xala, – dedi.

İraz arxada, Məmməd irəlidə üzüyuxarı dağa qalxdılar.

Dağın təpəsində bir mağara tapdılar. Mağaranın ağzındakı daşın üstündə oturdular. Yandakı ağaclardan yarpaqlar tökülürdü. Bir quş ötürdü. Qarşıdakı qayadan bir neçə ağ göyərçin qalxdı. Bir kərtənkələ kötüyün üstünə çıxdı. Məmmədin qucağındakı yatmış uşaq bu dəmdə oyanıb ağlamağa başladı...

İraz gəldi, Məmmədin çeçələ barmağından tutdu, gözlərinin içinə baxdı:

– Qardaş! – dedi. – Qardaş! Sənə bir söz deyəcəyəm, İncə Məmmədim.

Məmməd qımıldanmadan gözləyirdi.

– Qardaş, bu uşağı ver mənə, başımı götürüb Anteb kəndlərindən birinə gedim. Uşaq öləcək bu dağlarda. Acından öləcək... Rzamın qanından vaz keçdim. Rzamın yerinə bu uşağı qoyacağam. Ver aparıb gedim. Bəsləyib böyüdüm tifili.

Məmməd qucağındakı uşağı ağır-ağır İraza uzatdı. İraz alıb bağrına basdı.

– Rzam! – dedi. – Mənim Rzam!

İraz bir əli ilə də sinəsindəki patrondaşları açmağa başladı. Onları açıb, hamısını bir yerə yığdı.

– Sağlıqla qal, İncə Məmməd, – dedi.

Məmməd gedib İrazın qolundan tutdu. Uşaq ovunmuşdu. Məmməd gözlərini uşağın üzünə zilləyib uzun zaman baxdı:

– Uğurlar olsun!

## XXXVII

Gərək elə bir at tapılsın ki, sağrısı yuvarlaq deyil, uzun olsun. Yumurta kimi. Qulaqları şek dursun, alnı qaşqa, ayaqları belinə nisbətən qısa olsun; rəngi nə kürən olsun, nə kəhər, nə qonur olsun, nə ala, boz çil-çil olsun.

Belə bir at Qoca Osmanın evinin qabağında gözləyirdi. At kişnəyir, dırnağı ilə yeri eşirdi. Beli nazikdi. Gözləri qız gözləri kimiydi. İşıltılı, qüssəli. Quyruğu topuqlarına qədər sallanmışdı. Yalı sağa yatmışdı. Qaçdığı zaman yalı buruq-buruq olurdu.

Böyük bayram günü əfvi-ümumi də elan edilmişdi. Dağdakı qaçaqların çoxu gəlib tüfənglərini təslim etmişdi. Jandarm idarəsinin həyətində qaçaqlar toplaşmışdı... Gözləyib dururdular.

Qoca Osman atın yalını tumarlayıb:

– Bu at İncə Məmmədimə, şahinimə layiqdir, – dedi. – Oğluma layiq atdır.

– Layiqdir, – deyə kəndlilər təsdiq etdilər.

Qoca Osman atın belinə atlandı:

– İki gün çəkməz ki, mən şahinimlə birlikdə qayıdaram. Gedin, Endel kəndindən nağaraçıları çağırın. Qoşa nağara çalınsın. Qəsəbədə Vayvay kəndi İncə Məmmədi belə qarşılamalıdır. Hamının qaçaqları piyada gəlirlər, bizim İncə Məmmədimiz ərəb atında...

Qoca Osman atın yüyənini buraxdı, çapa-çapa sürdü. Toros dağları başdan-başa mavi örtüyə bürünmüşdü. Bənövşəyi rəngə çalırdı. Əfvi-ümumi xəbərini İncə Məmmədə Cabbar gətirdi. İki köhnə dost qucaqlaşıb, uzun zaman dinmədən yan-yana oturdular.

Cabbar ayrılarkən:

– Mən gedib təslim olacağam, – dedi.

Məmməd ağzını açıb danışmadı.

İncə Məmməd Dəyirmanoluğa günortaüstü girdi. Üzü qaralmış, gözləri çuxura düşmüş, alnı qırış-qırış olmuşdu. Bir qaya parçası kimi idi. Kiçilmiş gözlərində inadkar bir parıltı vardı. İlk dəfə idi ki, bu halda kəndə girirdi. Sərxoş kimi valaylayırdı. Huşunu itirmiş kimi idi. Qapılardan qadınlar başlarını uzadaraq heyrət və qorxu ilə ona baxırdılar. Uşaqlar ondan xeyli aralı, dalınca düşüb səssiz-səmirsiz, qorxa-qorxa gedirdilər.

İncə Məmmədin kəndə gəldiyini Hürüyə xəbər verdilər. Hürü qaça-qaça gəlib, meydanda ona yetişdi.

Qəzəblə yaxasından yapışdı:

– Məmməd! Məmməd! – deyə var gücü ilə bağırdı. – Xətcəni ölümə verdin, indi də təslim olmağa gedirsən? Abdi gələcək, yenə də kənddə paşa kimi oturacaq. Sən təslim olmağamı gedirsən? Arvadın biri arvad! Tikanlı düzündəkilər bircə bu il ac qalmadı. Bircə bu il bol-bol çörək yedi. Yenə Abdi ağanı başımıza bəlamı edəcəksən? Hara gedirsən, ay İncə Məmməd? Ay arvadın biri arvad? Təslim olmağamı gedirsən?

Artıq bütün kənd camaatı meydana toplaşmışdı: Ölü kimi qımıldanmadan, səssiz-səmirsiz dayanmışdı.

– Ay Məmməd, ay arvadın biri arvad! Bax, bu qədər kəndli, bu qədər adam sənin gözünün içinə baxır. Gedib təslimmi olacaqsan? Abdini yenə gətirdib başımızda oturdacaqsan? Gözəl Dönəmin sümükləri sızıldar qəbirdə. Gözəl Xətcəmin sümükləri...

Məmməd sapsarı saralmışdı, titrəyirdi, gözlərini yerə zilləmişdi.

Hürü cəld onun yaxasını buraxdı:

– Get, təslim ol, arvadın biri arvad, – dedi.– Əfvi-ümumi verilmiş.

Bu dəmdə Qoca Osman atını çapa-çapa camaatın içinə girdi.

– İncə Məmməd, şahinim, – dedi. Camaatı yarıb Məmmədin yanına gəldi, boynuna sarıldı:

– Şahinim, – dedi. – Evin tikilib qurtardı. Tarlanı əkdirdim. Bu atı da kəndlilər sənin üçün almışlar. Başqa qaçaqları heç kəs qarşılamır, səni isə Vayvay kəndi təbilzurna ilə qarşılayacaq. Qoy Əli Səfanın, Abdi ağanın bağrı çatlasın. Min ata, sür!

Meydandakı bütün camaat deyinməyə başladı:

– Kor olasan, qoca... Kor olasan...

Məmməd atın yüyənini Qoca Osmanın əlindən aldı. Sıçrayıb ata mindi. Meydanın o biri başında dayanmış Topal Əliyə tərəf sürdü. Bütün başlar o tərəfə çevrildi. Məmməd başı ilə Topala: «düş qabağıma» deyə işarə etdi. Topal onun qabağına düşüb getdi. Məmməd atı mahmızladı, toz buludu içində kənddən çıxdı. Camaat təəccüblə onun dalınca baxdı, yerində donub qaldı. Onlardan hansına bıçaq vursaydın, qanı çıxmazdı.

Məmməd Şahin qayasına çatanda atın başını çəkdi. Atdan endi. Atı aparıb bir çinara bağladı. Çinar yarpağını tökmüşdü, qırmızı damarlı qızılı-sarı yarpaqlar ağacın gövdəsini yarıya qədər örtmüşdü.

Şahin qayasındakı bulağın dörd bir yanı yamyaşıl idi. Büllur yaşılı... Məmməd bir daşın üstündə oturdu. Başını əllərinin arasına aldı.

Xeyli keçəndən sonra Topal Əli gəlib yetişdi. Tövşüyürdü. Təlaş içindəydi. Keçib Məmmədin yanında oturdu. Şəhadət barmağı ilə alnının tərini sildi.

– Ah qardaş, – dedi, – yorğunluqdan öldüm. Nəfəsim çıxmır.

Nəfəsini dərmək üçün bir müddət susdu.

Məmməd başını ağır-ağır qaldırdı. İynə ucu qədər həmin işıltı yenə də gözlərində peyda oldu. Başından sarı bir parıltı axıb keçdi.

– Əli qardaş! Sən biləni gecəyarısı evindəmi olar? Getsəm, onu evdə tapa bilərəmmi?

– Taparsan. Elə bil əlinlə qoymusan. Qorxusundan gecələr ayağını bayıra qoymur.

– Evi bir daha yaxşı nişan ver.

– Dustaqxana var ha, sən oranı tanıyırsan. Bax, onun sağında jandarm idarəsi yerləşir. Jandarm idarəsini azca keçəndən sonra küçənin o biri ucunda göy rəngli tək bir ev var. Sən gecə gedəcəksən, evin rəngini seçməzsən. Bunun eybi yoxdur. Abdi ağanın evi ayrıcadır. Minarə kimi uzun bir bacası da var. Bu bacadan bilərsən. Dərhal gözünə çarpar. Uzun, iki mərtəbəli bir evdir. Oradakı qalan evlərin hamısı bir mərtəbəlidir. Abdi ağa həmişə günbatandakı otaqda tək yatır. Alt mərtəbədəki alaqapı daldan cəftə ilə bağlanır. Alaqapıda bir yarıq var. O yarıqdan xəncərini soxub yuxarı qaldırarsan, qapı açılar.

Məmməd heç bir şey söyləmədən qalxıb ata tərəf getdi. Atı ağacdan açıb belinə sıçradı. Çapa-çapa getdi... At yel kimi gedirdi.

Məmməd aşağıdakı su dəyirmanının şırıltısını eşidəndə özünə gəldi. Atın başını çəkdi. Bir azca dayanıb, qulaq verdi. Sonra atı yavaş-yavaş sürdü. Tüfənginin ağzına patron qoydu. Tapançasının da... Dəyirmanın çarxlarının səsindən at hürkən kimi oldu. Məmməd atı mahmızladı. Bazarın ortasından keçdi. Qəhvəxanaların gur işıqlı lampaları hələ yanırdı. Bir neçə adam ona təəccüblə baxdı. Ancaq əhə-

miyyət vermədilər. Bu günlərdə silahlı adamları görəndə heç kəs təəccüb etmirdi. Həmin günlər bu, adi bir şey idi. Məmməd bu adamları heç görmədi də. Atı məscidin yanındakı küçə ilə yuxarı sürdü. Uzun bacalı ev solda idi. Evin qabağında atdan endi. Atı həyətdəki böyük tut ağacının qaranlıq tərəfində yerə yatmış bir budağa bağladı. Xəncərini soxub, evin qapısını açdı. Yuxarıda işıq yanırdı. Pilləkəni uça-uça çıxdı. Qadınlar, uşaqlar Məmmədi görən kimi qiyamət qopardılar. Məmməd birbaş günbatandakı otağa getdi. Abdi ağa yuxulu-yuxulu gərnəşərək:

– Na var? Nə olub? – deyə soruşdu.

Məmməd gedib onun qolundan tutdu, silkələdi:

– Ağa! Ağa! Mən gəlmişəm, ağa! – dedi.

Abdi ağa gözlərini açdı. Əvvəlcə inanmadı. Sonra gözləri bərələ qaldı. Gözlərinin qarası da ağappaq oldu.

Qapının dalında qiyamət qopmuşdu.

Məmməd əlindəki tüfəngi dikəltdi. Abdi ağanın sinəsinə üç güllə sıxdı. Güllələrin yelindən otaqdakı lampa söndü.

Məmməd pilləkənlə ildırım kimi aşağı endi, ata mindi. Bu zaman hadisədən xəbər tutmuş jandarmlar evə arasıkəsilmədən güllə yağdırmağa başlamışdılar. Məmməd atı çapa-çapa Toros dağlarına tərəf sürdü. Arxasınca dolu kimi güllə yağırdı. O, sürətlə qəsəbədən çıxdı.

Gün doğurdu ki, kəndə girdi. Kəndin ortasında atın başını çəkdi. At tərdən qapqara olmuşdu, sinəsi körük kimi enib-qalxırdı. Boynu, sağrısı tamam köpük içində idi. Məmməd də çox tərləmişdi. Kürəklərindən tər axırdı. Üzü, saçları yaş idi.

Gün bir adam boyu qalxdı. Kölgələr ucsuz-bucaqsız qərbə tərəf uzandı. Tərdən islanmış at günün işığında təpədən-dırnağadək par-par parıldayırdı. Məmməd atın belində dimdik oturmuşdu.

Kəndlilər onu kəndin ortasında at belində qaya kimi dimdik gördülər. Adamlar – uşaqlar, cavanlar, yaşlılar yavaş-yavaş, səssiz-səmirsiz onun dörd bir yanını aldılar.

Onun başına yığışdılar. Heç kəsdən səs çıxmırdı. Adamların nəfəsi belə eşidilirdi. Hamı gözlərini ona dikmişdi. Yüzlərlə göz ona zillənmişdi. Adamlar susmaqda davam edirdilər.

Ortada qaya kimi dimdik dayanmış atlı azca qımıldandı. At bir-iki addım atıb dayandı. Atlı başını qaldırdı. Gözlərini izdihamın üzərində gəzdirdi. Rəngi qaçmış, sapsarı saralmış, yerində quruyub qalmış Hürü ana gözlərini geniş açaraq Məmmədə baxır, ondan bir söz, bir hərəkət gözləyirdi.

Sonra at yenə tərpəndi. Məmməd atını Hürü anaya tərəf sürdü. Onun önünə gəlib atın başını çəkdi.

– Hürü ana! Hürü ana! – dedi. – Haqqınızı halal edin!

Bunu deyib, atını Əlidağına tərəf çapdı. Kəndin içindən, bir qara bulud kimi, sürətlə ötüb getdi. Gözdən qeyb oldu.

* * *

Cüt qoşma vaxtı idi. Tikanlı düzünün beş kəndi bir yerə toplaşdı. Cavan qızlar ən gözəl paltarlarını geydilər. Yaşlı qadınlar başlarına süd kimi ağ örpək bağladılar. Təbillər çalındı... Böyük toy-bayram oldu. Durmuş Əli belə, xəstə olduğuna baxmayaraq, ortaya düşüb oynadı. Sonra bir səhər erkəndən kəndlilər toplaşıb kəndin kənarına getdilər, süpürüm kollarına od vurdular.

İncə Məmməddən bir daha xəbər çıxmadı. Səsi-sorağı gəlmədi.

O gündən bəri Tikanlı düzünün kəndliləri hər il cüt qoşmazdan əvvəl böyük toy-bayram eləyib, süpürüm kollarına od vururlar. Alovun qırmızı şölələri üç gün, üç gecə düzdə dolaşır. Süpürüm kollarını yaxıb-yandırır. Yanan tikanlıqdan çatırtı gəlir. Bu zaman Əlidağının təpəsində də gur işıq parıldayır. Dağın başı üç gecə ağarır, gündüz kimi olur.

## MÜNDƏRİCAT

Ön söz əvəzi: Patriarx
*(Yaşar Kamalın 90 yaşına gecikmiş dost sözü) (Elçin)*............3

Birinci hissə ..........................................................................25

İkinci hissə..........................................................................265

---

***Yaşar Kamal***

İNCƏ MƏMMƏD
*(Roman)*
Bakı, «Təhsil», 2017.



Nəşriyyat redaktoru ***Aida Quliyeva***
Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***
Kompüter tərtibatçıları ***Səbinə Məmmədova, Aqil Əmrahov***
Korrektoru ***Ülkər Tağıyeva***

Çapa imzalanmışdır 23.02.2017. Kağız formatı 60x90 1/16.
Fiziki çap vərəqi 30,0. Sifariş 12. Tirajı 500.

«Təhsil Nəşriyyat-Poliqrafiya» müəssisəsinin
mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 121A
Tel.: (+994 12) 567-81-28/29
e-mail: tahsil_az@yahoo.com
www.tahsil.az